**ABDULLA ŞAİQ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**ÜÇ CİLDDƏ**

**III CİLD**

"AVRASİYA PRESS"
BAKI–2005

*Bu kitab "**Abdulla Şaiq.** Əsərləri. Beş cilddə. III cild"*
*(Bakı, Azərnəşr, 1972) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Kamal Talıbzadə**

**894.3613 - dc 21**
**AZE**
**Abdulla Şaiq. Seçilmiş əsərləri.** Üç cilddə. III cild. Bakı, "AVRASİYA PRESS", 2005, 536 səh.

XX əsr milli ictimai, ədəbi və mədəni fikir tariximizdə özünəməxsus yer tutan görkəmli ədib Abdulla Şaiq həm də uşaqların sevimli yazıçısı, şairi və dramaturqudur. Əsrin əvvəllərində də, ortalarında da pedaqoji intibahın görkəmli xadimlərindən biri kimi fəaliyyət göstərən Şaiqin 40 ilə yaxın şərəfli müəllimliyi Azərbaycanda xalq maarifinin tarixinə işıqlı səhifə olaraq yazılmışdır. Şair ikən müəllim, müəllim ikən şair olan Şaiqin şeirdə də, tərbiyədə də məqsədi gəncliyin mənəvi çırağını alışdırmaq idi. Azərbaycan uşaq şeri və nəsri, dramaturgiyası bütöv və müstəqil bir klassik məktəb səviyyəsində məhz onun yaradıcılığında kamala çatmışdır. Bizdə uşaqlar üçün ilk milli səhnə əsərini, ssenarini o yazmışdır. Gənc tamaşaçılar teatrı milli dramaturqlardan ən çox onun adı ilə bağlı olmuşdur.

A.Şaiqin "Seçilmiş əsərləri"nin bu cildinə tanınmış ədibin uşaqlar və gənclər üçün yazdığı əsərləri – şeirləri, poemaları, hekayələri, təmsil və pyesləri daxil edilmişdir.

**ISBN 9952-421-23-9**

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# Şeirlər

## LAYLA

Layla deyim, yat ciyərim parası,
Ağlama çox ey gözümün qarası!
Olma yemək-içməyin avarası,
Layla quzum, layla gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

Böyü bir az, yeddi yaşa yetgilən,
Səhər tezdən dur, məktəbə getgilən;
Dərs oxuyub yazmağa səy etgilən;
Layla quzum, layla gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

Təmiz geyib dolangilən gül kimi,
Hər gün oxu dərsini bülbül kimi;
Gəzmə küçələrdə gedib veyl kimi;
Layla quzum, layla gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

Sən də çalış elm ilə şöhrət qazan,
Qalma cəhalətdə, olarsan yaman;
Elmlə abad olubdur cahan;
Layla quzum, layla gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

*1906*

## DOVŞAN

Dovşana bax, dovşana,
Dovşan qaçdı bostana,
Yedi qovun, qarpızı,
Saldı bizi ziyana.

*1906*

## YETİM CÜCƏ

Ay kiçicik, soluq cücəm,
Boynu buruq, yoluq cücəm!
Açma o nazlı dimdiyin,
Başlama qəmli cikciyin.
Tək gəzinib sıxılma çox,
Qəm yemə, sus, bir az dayan
Mən olaram sənin anan.
Səni o səslə səslərəm.
Dən, su verib də bəslərəm,
Ağlama, ağlama, gözəl,
Qaç yanıma, dayanma, gəl!

*1906*

## YENİ KÖMƏKÇİ

Tarlaya gəldi Nəbi,
Gördü səhərdən bəri
Atası tək işləyir,
Tarlasını xışlayır.
Nəbi dedi: – Ay ata,
Gəl mənə öyrət, daha
Sən otur, mən işləyim,
Tarlamızı xışlayım.
– Çox gözəl, oğlum, görək!
Gəl öyrəş, eylə gömək.
Verdi xışı, oturdu;
Nəbi ürəklə durdu,
Xış sürməyə başladı,
Atası alqışladı.

*1906*

## SƏHƏR

Günəş doğdu, yayıldı,
Dağlar, daşlar ayıldı.
Sular, meşə, bayırlar,
Səhralar, həm çayırlar
Bir nur içində qaldı,
İşıq dünyanı aldı;
Üfüq alışdı, yandı
Quşlar bütün oyandı.
Ötüşdü şad, xəndan,
Səs ilə doldu orman.

*1906*

## TƏPƏL KƏLİM

Qalx ayağa, təpəl kəlim,
Sahibinə tut əl, kəlim!
Xışlayım, həm səpim dəni,
Qoyma bu yerdə gəl məni.
Qarşıda qış, ayaz, soyuq –
Bir yığın həm çoluq-çocuq.
Onların əkmək ağacı
Sənsən, a başımın tacı!
Qalx ayağa, aman, aman,
Sənsiz olar işim yaman.
Kim tutacaq bu yerdə əl?
Qoyma yarımçıq işi, gəl.
Puç oldu eyvah, əməyim,
Qırıldı, düşdü biləyim.
Sən idin yalnız köməyim,
Yıxıldı, sındı dirəyim.

*1906*

## XORUZ

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz!
Sən nə tezdən durursan,
Qışqırıb banlayırsan,
Qoymayırsan yatmağa
Ay canım, məstan xoruz!

*1906*

## KEÇİ

Ala-bula, boz keçi,
Ay qoşa buynuz keçi!
Yalqız gəzmə, dolanma,
Dağa-daşa dırmanma.
Bir qurd çıxsa qarşına
Sən nə edərsən ona.
Çoban açınca gözün,
Qalar iki buynuzun.

*1906*

## UŞAQ VƏ DOVŞAN

U ş a q
– Dovşan, dovşan, a dovşan!
Qaçma dayan, a dovşan!
Qaçma səni sevəndən,
Can kimi istəyəndən.
D o v ş a n
– Dura bilmərəm, dadaş,
Yanında var alabaş.
Xəbərdaram işindən,
Qurtarmaram dişindən.

## ÇOBAN MAHNISI

Sürür inəkləri Dadaş,
Otarmağa yavaş-yavaş;
Belində bağlama çörək,
Yanında bir ala köpək.
Basıb gözə papağını,
Vurur yerə çomağını.
Ara-sıra oxur, çalır,
Sürü həvəslə otlayır:
“ – Yaşıllanıb çəmən, çayır,
Səfalanıb dərə, bayır.
İnəklərim, ot otlayın,
Sabaha süd hazırlayın!
Sizi gözətləyir Fatı,
Əlində badya, həm çatı”.

*1906*

## PAYIZ GECƏSİ

Günəş saraldı, söndü,
Yavaş-yavaş büründü
Dumanlara çayırlar,
Dərə, dağlar, bayırlar.
Çökdü dərin qaranlıq,
Qaraldı həm ortalıq.
Qurd-quş daha əkildi,
Yuvasına çəkildi.
Yox səs-səmir bir yerdə,
Ancaq ki, dərələrdə
Sular şırhaşır çağlar,
Səs verər qaya, dağlar.

*1906*

## PAYIZIN SON AYI

A bağça, barlı bağım,
Ay üzümlü çardağım!
Nə oldu, tez soldunuz,
Belə çılpaq oldunuz?
Qəmgin-qəmgin baxırsız,
Gizlin pıçıldaşırsız.
Halınız olmuş yaman,
Qırıb dağıdır xəzan.
Qış deyəsən yavuqdur,
Ax, üşüdük, soyuqdur.
Gedib geyim kürkümü,
İsti dəri börkümü.
Qalın hələ səlamət,
Bahara qalsın söhbət.

*1906*

## BİR QUŞ

Bir quş səhər ertə bağçabağda,
Çör-çöp daşıyıb yuva tikirdi.
Gah şad oxuyurdu bir budaqda,
Gah da uçub ot, saman çəkirdi.
İstər quşum olsun aşiyanı,
Çör-çöp daşıyır havada hər dəm.
İşdən yorulub duran zamanı
"Cik-cik" oxuyurdu şad, xürrəm.

*1906*

## QUZU

Bir obada körpə quzu,
Mələr-mələr, qaçar düzü,
Anasın axtarar gözü.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.
Gün əyildi, çökdü duman,
Sürü qayıtdı otlaqdan;
Səs-küy ilə doldu hər yan.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Qoyunları çoban yığar,
Fatı xala gəlib sağar;
Quzum mələr, durub baxar.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Anasını quzum görər,
Ayaqların yerə dirər,
Məməsini tapıb əmər.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Quzum çıxdı göy otlağa,
Yanaşdı bir boz oğlağa,
Çıxdı onunla oynağa.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

*1906*

## OYAN, OĞLUM!

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur, get məktəbə,
Sarıl elmə, ədəbə.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.
Al şəfəqli günəş var,
Pəncərədən parıldar.
Qalx ki, hamı oyanmış,
Dünya nura boyanmış.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.

*1907*

## PAYIZ

Payız olur, əsir soyuq küləklər,
Solur dağda, çöldə əlvan çiçəklər.
Gecələr uzanır, günlər qısalır,
Göy üzünü qara buludlar alır.
Yağış yağır, duman çökür çöllərə,
İnildəyir çayır, çəmən, dağ, dərə.
Ağaclarda nə meyvə var, nə yarpaq,
Bağ-bağçalar olmuş bütün çıl-çılpaq.
Quşlar uçub dəstə-dəstə gedirlər,
İsti yerə köçüb, qışlaq edirlər.

*1907*

## MƏKTƏBDƏ

Qonşumuzun oğlu Muradı, ata,
Qoydu keçən gün atası məktəbə.
Sən də gedib çanta, kitab al mənə,
Qoy, ata can, mən də gedim məktəbə.

Dünən gedib məktəbi mən, görmüşəm,
Ay, nə qədər yoldaşlarım var, ata!
Bəyənmişəm məktəbi, çox sevmişəm,
Gəl məni də məktəbə qoy, ay ata!

Müəllimə söyləyir idi nələr...
Necə isti, soyuq yerlər var, deyir.
Ay ata, dünyada var imiş nələr?
Yağış, duman nədən olur söyləyir.

Şəkil çəkirdilər uşaqlar, ata,
Mən də baxırdım: biri orman çəkir,
Biri çəkir at, biri ovçu, tula,
Biri daxma, biri dəyirman çəkir.

Sonra müəllim hamısın oxutdu,
Pəncərədən gördü, çağırdı məni.
İskamyada, ay ata can, oturtdu,
Dedi: – Atan məktəbə qoysun səni.

*1907*

## CÜTÇÜ

Cütçü, əkinçi baba,
Bahar gəlir, qalx daha!
At kürkünü bir yana,
Büzüşmə çox, gəl cana!
Yaşıllanır çöl, çəmən,
Rəhmət yağır göylərdən.
Dayanma get tarlaya,
Şumla, ək, biç, vur taya!
Cütçü, əkinçi baba,
Bahar gəlir, qalx daha!

*1907*

## UŞAQLAR

Yığışmış idi çocuqlar, edirdilər bayram,
Geyib gözəlcə, al-əlvan bəzənmiş idi tamam.

Deyib gülüb, danışırlardı şövqlə xürrəm,
Biri-birinə baxırdı fəxrilə hər dəm.

Ayaq yalın, baş açıq, bir yetim möhnət ilə,
Durub kənarda, ancaq baxırdı həsrət ilə.

Soluq-soluq o zavallı yetim çəkir idi ah,
Çocuqlar iştə bu məqsumu gördülər nagah,

Yanaşdılar, onun əhvalına yanıb hamısı.
Səməd görür ki, yol ilə keçir onun babası,

Qaçıb dedi: – Babacan! Bu yetimə gəl bir bax,
Geyinmişik biz al-əlvan, o binəva çılpaq.

Gedib baba, şu yetimə libas alıb dərhal;
Geyib, zavallı qarışdı çocuqlara xoşhal.

*1908*

## BAHAR

Bağçalarda açır gül,
Fərəhlənir hər könül.
Uçur duman, qəm, kədər,
Şən-şən ötür hər bülbül.

Yaşıllanır dağ, yamac,
Bəzək vurur hər ağac.
Dərə, təpə, çöl, çəmən
Çiçəklərdən qoyur tac.

Bahar eylədikcə naz,
Elin kefi olur saz.
Əkir, biçir həvəslə,
Deyir: – Var ol, gözəl yaz!

*1908*

## YETİM

Soyuq gecə, səs edirdi boran çox hiddət ilə,
Bayırda bir uşaq ağlardı dərd, möhnət ilə.
Əli, üzü bozarıb, səslənir o dərdli yetim:
– Soyuqdan öldüm, aman, dondu ah, bütün bədənim.
Acam, donub ölürəm, yoxdu bir nəfər insan
Yemək verib mənə rəhm eyləsin bu gündə, aman!
Yazıq yetimi bu halətdə bir qarı görcək,
Alıb onu otağa, qızdırıb da verdi yemək.
Yuyub ayaqlarını saldı tez onu yatağa,
"Nə istidir!" – sevinib, getdi o, şirin yuxuya.

*1908*

## QONAQLIQ

Vəli yazıb dərsini, uzanmış idi yerə,
Köpək səsi eşitdi bayırda birdən-birə.
Tez qapıya yüyürdü, qaçdı sevincək: – Ana!
Həsən dayımdır gələn, Minadostum və Sona.
Girdi qonaqlar, hamı sevindi bu gəlişdən,
Qucaqlayıb bir-birin, görüşərək oldu şən.
Bir otağa aldılar qonaqları şövq ilə,
Orta ocağı çatıb, əyləşdilər zövq ilə.
Dəmir qara ocaq da çırta-çırtnan yanırdı,
Qığılcımı, şöləsi bacaya dırmanırdı.
Ballı xala tez gedib gətirdi boşqabda bal,
Ortalığa qoydular qatıq, çörək, yağ, irçal.
Yeyib-içib həvəslə, alqışlayıb külfəti,
Halqa vurub, yenidən başladılar söhbəti.
Öz işlərindən deyib, danışdılar keçəndən,
Gah arpadan, buğdadan, gah heyvandan, biçindən.
Keçdi yarıdan gecə, sükut içində hər yan,
Şiddət ilə qar yağır, səs edir ancaq boran.

*1908*

## TÜLKÜ VƏ ASLAN

Bir tülkü görməmişdi
Ömründə hərgiz aslan.
Bir gün görəndə şiri
Qorxub çəkildi yan-yan.
Bir həftə keçdi, tülkü
Aslanı bir də gördü,
Xof etməyib, uzaqdan
Baxdı, dayandı, durdu.
Üçüncü dəfə görcək
Getdi ona yanaşdı,
Şir ilə tutdu ülfət,
Güldü, dedi, danışdı.

*1908*

## ASLAN, QURD VƏ TÜLKÜ

Bir zaman tülkü, qurd, həm aslan –
Hər üçü bağladı belə peyman;
Ki bu gündən ələ nə düşsə şikar
Üç yerə qismət eyləsin onlar.
Hamı "əhsən" dedi bu dadlı sözə.
Ov üçün çıxdılar bir otlu düzə.
Dərə ağzında tapdı üç ortaq.
Bir qoyun, bir keçi, quzu, oğlaq.
Dedi aslan: – Gəlin ovu bölüşək,
Bu qoyun ki, mənə çatar bişək.
Quzu olsun gərək mənim payım,
Çünki sizlərdə yox mənim tayım.
Bu keçi də gərək mənə yetişə,
Olmasın bir kəsin sözü bu işə.
Oğlağa kim uzatsa əl, bunu bil,
Eylərəm mən onun əlini şil.

*1908*

## TÜLKÜ VƏ QURD

Oldu bir yolda tülkü qurda düçar,
Hara? – sordu, – gedirsən, ey sərdar?
Dedi qurd:– Ey iki gözüm, ciyərim,
Gedirəm hər yerə düşə güzərim.
Zülmdən qurtarıb olam rahət,
Yaxdı, yandırdı canımı zillət.
Hər zaman ki, məni görür insan,
Öldürür, rəhm etməyir bir an.
Dedi tülkü: – De bir mənə işini,
Aparırsanmı o tamah dişini?
– Harda olsam gərək olur bu dişim.
Söylə, dişsiz mənim aşarmı işim?
Dedi tülkü: – Əbəsdir, bu söhbət,
Ey gözüm, çəkmə boş yerə zəhmət.
Nə qədər ki, səninlədir bu dişin,
Keçəcək hər məkanda böylə işin.

*1908*

## MAHNI

Doğdu günəş qırmızı
Can gülüm, can, can!
Topladı oğlan qızı,
Can gülüm, can, can!
Hər birimiz bir günəş,
Can gülüm, can, can.
Bir bağçanın ulduzu,
Can gülüm, can, can.

Qaçdı ayaz, qar, boran.
Can gülüm, can, can.
Bizə qaldı çöl, orman,
Can gülüm, can, can.
El şənlənir, canlanır,
Can gülüm, can, can.
Sevinc içində hər yan,
Can gülüm, can, can.
Ordusunu dağıtdıq
Can gülüm, can, can.
Qar, borana son verdik
Can gülüm, can, can.
Qara günə son verdik.
Can gülüm, can, can.

*1910*

## TÜLKÜ VƏ ASLAN

Meşədə tülkü axtarırdı şikar,
Qızmış aslana birdən oldu düçar.
Salladı zorba, tüklü quyruğunu,
Yalmanıb hiylə ilə öydü onu:
– Tanıyıram, – dedi, – ata-ananı,
Əslini, nəslini, ulu babanı.
Atana mən çox etmişəm xidmət,
Bəsləyirdim ona böyük hörmət.
Bu sayaq o, dilə tutub şiri,
Ürəyində tökürdü tədbiri.
Gəldilər bir uca dağın başına,
İstəyirdi zəhər qata aşına.
Tülkü həsrətlə çəkdi bir neçə ah,
Dedi: – Məhrum atan sənin, ey şah,
Ayağını vurardı torpağa,
Atılardı bu dağdan o dağa.
Hanı bu şirlərdə o cürət,
O hünər, o qoçaqlıq, o qeyrət!
Eşidib şir bunu qəzəbləndi,
Tülküyə əyri baxdı, hirsləndi.
Ayağını vurub dağa o zaman.
Tez atıldı qürur ilə aslan.
Dərəyə baş-ayaq yuvarlandı,
Tülkünün hiyləsinə aldandı.
Qırılıb qol-qabırğası, ölü tək
Düşdü bir yanda; dərdli inləyərək,
Çağırırdı o, tülkünü köməyə.
Endi tülkü yavaş-yavaş dərəyə.
Dedi şirə ki: – Səndə yox cürət,
Nə hünər, nə qoçaqlıq, nə qeyrət.
Heç yaraşmır bu aslan adı sənə.
Vurdu şirə acı-acı tənə:
– Nə deyirsən de, gəlmişəm köməyə.
Quyruğun saldı ağzına yeməyə.

Dedi aslan ona: – Sən, ey əyyar!
Gəl başımdan ye, gör nə ləzzəti var!
Dedi tülkü: – Tələsmə, ey nadan,
Quyruğundan yeyə-yeyə əlan,
Başına da yavaş-yavaş çataram,
Qan içən kəllənə zəhər qataram.

*1912*

## UŞAQ VƏ BƏNÖVŞƏ

(*Ruscadan iqtibas*)

U ş a q

Söylə, söylə, gözəl bənövşəciyim!
Hələ bağlarda gül, çiçək yox ikən,
Hamı güldən əzəl, bənövşəciyim,
Açmısan gül bu bağçalarda nədən?

B ə n ö v ş ə

Zinətim yox, nə gizləyim səndən,
Başqa güllər içində yoxdur adım.
Onlar ilə bərabər açsam mən,
Kimsə gəlməz mənə yaxın bir adım[1].

*1913*

[1] Addım

## QIZIL GÜL

Qızıl güləm, qızıl gül,
Məni sevər hər könül.
Yaşıldır incə belim,
Qızıldandır hər telim.
Səhər erkən açaram,
Gözəl qoxu saçaram.
Ətrim tutar hər yanı,
Mənim kimi gül hanı?

Mən ellərdə gəzərəm,
Süfrələri bəzərəm.
Mənəm gözəl qızıl gül,
Sən ey qönçəm, açıl, gül!

*1926*

## İNQİLAB NƏĞMƏSİ

İnqilab nəsliyik biz.
Hər bir işdə mübariz.
Qəlbimizdə şölə var,
Gözümüzdən od parlar.
Atdıqca biz hər addım,
Qəlbimizdə ildırım
Bağırır: gurum-gurum!

*1928*

## MAY NƏĞMƏSİ

Bu gün rəsmi-keçid var,
Tez toplanın, uşaqlar!
Səslənir şeypur səsi:
Hanı uşaq dəstəsi,
Bu işçi bayramını,
Kolxozçu bayramını
Qarşılayaq sevinclə
Hamı verib əl-ələ,
Nümayişə gedək biz,
Eli təbrik edək biz.

*1928*

## DƏMİRÇİ NƏĞMƏSİ

Taq-tuq, taq-tuq...
İşdən bir qorxumuz yox.
Alnımızdan axan tər
Qəlbimizi yelpiklər.
Qolumuzda qüvvət var,
Qəlbimizdə cürət var.
Maraqlıdır işimiz,
Yorulmaq bilmərik biz.
Yanar gur ocağımız
Qığılcım sol-sağımız.
Adımızdır dəmirçi,
Dostumuzdur hər işçi.

*1928*

## TOP OYUNU

Hop, hop, hop,
Oynayaq top-top.
Quş tək qanad aç,
Topu atdım qaç!
Əlin belində
Güllər elində
Sağdan sola arş!
Qaç, durma yoldaş!
Dik tut başını,
Vur yoldaşını.
Topu tut göydə.
Qaçın birlikdə.
Ura, irəli,
Dönməyin geri!

*1928*

## DƏMİRÇİ

Yan, ocağım, durma, yan!
Təndir kimi alovlan!
Qalma günəşdən geri.
Qızart bu pak dəmiri,
Qığılcım saç hər yana,
Cansızlar gəlsin cana.
Bağım, tarlam güllənsin,
Bülbüllərim dillənsin.
Şənlənsin tarla, çəmən,
Sevinsin ana Vətən.

*1928*

## TƏMİZLİK

Səhər durunca,
Əlimdə fırça,
Sildim dişimi.
Bildim işimi.
İnanmırsan, bax,
Dişim ağappaq.
Üstüm tər-təmiz.
Bax, beləyik biz!

*1928*

## QƏRƏNFİL

Qərənfiləm mən,
Gözəl güləm mən;
Yaşıl saplaqlı
Bir sünbüləm mən.
Mən, bağban qızı
Bağın ulduzu;
Rəngim ağ, sarı,
Al və qırmızı.

Gəl, saxla ayaq,
Durma, gendən bax!
Gəlsəm xoşuna,
Dər, döşünə tax!

*1928*

## BƏNÖVŞƏ

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə;
Qızlar, oğlanlar məni
Dərib taxarlar döşə.

Bahar oldu açaram,
Qar, borandan qaçaram;
Başqa güllər açanda,
Mən quş olub uçaram.

Qurudar məni ayaz,
Yaşayıram bircə yaz.
Rəngim, ətrim gözəldir,
Əl vurmayın, ömrüm az.

*1928*

## ZANBAQ

Zanbağam mən, zanbağam,
Ay işığından ağam,
Açdığım hər ağ çətir
Ətrafa yayır ətir.
Ağ atlasdan donum var,
Gümüş kimi parıldar.
Mən də gözəl çiçəyəm,
Toxunma ağ ipəyəm.

*1928*

## BÜLBÜL

Oxu, bülbülüm, oxu,
Yazdır, səhər çağıdır.
Oxu, sənin xoş səsin
Şənliklər qaynağıdır.

Oxu, oxu, xoş nəğmən
Nəşə versin ellərə.
Şən səsin, xoş nəfəsin
Yayılsın bu çöllərə.

Oxu, çöldə, çəməndə,
El əkəndə, biçəndə,
Başla yeni bir dastan
Biz bənövşə dərəndə.

Bülbülüm tik yuvanı,
Bəslə, böyüt balanı.
Qoy nəsliniz çoxalsın,
Biz böyüyən zamanı.

*1928*

## ARI

Arıyam, zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm.
Səhər güllər açınca,
Gözəl qoxu saçınca
Uçaram göy yamaca,
Çiçək açmış ağaca,
Ya çəmənə, meşəyə,
Qonaram hər çiçəyə;
Şirəsini çəkərəm,
Pətəyimə tökərəm.
Çalışıram doqquz ay,
Hamı məndən alır pay.
Balımdan qoy yesinlər,
Mənə: "Sağ ol!" desinlər.

*1928*

## KƏPƏNƏK

Mənəm qanadlı çiçək,
Adım isə kəpənək.
Al-əlvan xallarım var.
Qızıl kimi parıldar.
Qanadımı açaram.
Budaq-budaq uçaram.
Yuvam, otağım ancaq
Olur yaşıl bir yarpaq,
Mənim dostumdur hər gül,
İncə telli göy sünbül.
Oynağımdır çöl, çəmən,
Məni tutmaq istəyən,
Ey mehriban uşaqlar,
Siz yaşayın bəxtiyar!
Mənim də bu dünyada
Bir başqa aləmim var...

*1928*

## TURAĞAY

Turağayam, turağay,
Quşlarda yox mənə tay.
Oynadıqca quyruğum,
Oxuyur dalay-dalay.
Oynağımdır hər zaman
Yaşıl kol-kos, dayaz çay.
Çəyirtkə, həm də qurt-quş,
Mənə hər gün verir pay.
Qışda günüm qaradır
Dostdur: bahar, payız yay.
Turağayam, turağay.
Quşlarda yox mənə tay.

*1928*

## AT

Qara yallı atım, qaç!
Üstü xallı atım, qaç!
Yorğala, uç quş kimi
Apar məni nənəmə.
Qaçın, qaçın!
Tez yol açın!
Tram... trım...
Uçur atım.

Uç nənəmin yanına,
Bir qol salım boynuna.
Alma versin o bizə,
Dönək yenə evmizə.
Qaçın, qaçın!
Tez yol açın!
Tram... trım...
Uçur atım.
Gözün bənzər ceyrana,
Qulaqların dovşana.

Qoçaq atım, yorğala,
Arpa verəcəm sana.
Qaçın, qaçın!

Tez yol açın!
Tram... trım...
Uçur atım.

*1928*

## İT

Haf, haf, haf!..
Bax, mən belə hürürəm.
Haf, haf, haf!..
Ev-eşiyi güdürəm.
Haf, haf, haf!..

Oğru görsəm: mır... mır...
Mırıldayıb uçaram.
Atılaram üstünə,
Bir qiyamət açaram.
Haf, haf, haf!..

Qaç oğru, gəlmə, gəlmə!
Bir şey düşməz əlinə.
Yırtaram üst-başını
Lüt gedərsən evinə.
Haf, haf, haf!..

*1928*

## KÜR ÇAYI

Ey Kür çayı, daşırsan,
Sahilləri aşırsan;
Tarlalarda, bağlarda
Bizimlə oynaşırsan.

Ey Kür çayı, dalğan ağ,
Suyun gümüşdən parlaq;
Yol sal bizim bağçaya,
Sən çal, biz də oynayaq.

Ey kür çayı, gəl barı,
Bizim dəhnəyə sarı,
Aç qoynunu yuyunsun
Elin oğul, qızları.

*1932*

## YAĞIŞ

Yağ, ey yağış, yağ!
Sulansın çöl, bağ.
Susuzdur tarla,
İnəyini sağ!

Gurla, ildırım,
Gurum ha gurum!
Sən çığır, bağır,
Mən şənlik qurum.

Oyna, ey şimşək,
Şütü ilan tək.
Bağ, tarla, bostan
Su içsin gərək!

Coşsun çay, bulaq,
Şənlənsin ocaq.
Bol olsun məhsul,
Yumşalsın torpaq.

*1932*

## UŞAQ BAĞÇASI

Səhər bağça şənlənir,
Bir-bir uşaqlar gəlir.
Dolur otaq, artırma,
Ucalır hey səs-səmir.
Müdirə, mürəbbiyə,
– Ay, xoş gəldiniz, – deyə
Uşaqlara yanaşır,
Şirin-şirin danışır.

Odur Solmazla Azər
Evlərindən gəlirlər.
Azər çəkib özünü,
Soyunub paltosunu
Asır dərhal çəngələ.
Solmaz körpədir hələ.
Çəngələ çatmır əli.
Açılıb şirin dili
Azərə deyir Solmaz:
Paltomu çəngəldən as!

Solmaz deyir: ay Azər,
Çəngələ bax, nə qədər?..
Hər çəngəldə bir şəkil:
İt, dovşan, avtomobil...
Sən say bu şəkilləri,
Mən də ki, çəngəlləri.
Saydı onlar əlbəhəl:
Qırx şəkil, qırx da çəngəl.
Azər dedi: – Solmaz, bax,
Bağçada var qırx uşaq.
Pişik olsun səninki,
Avtomobil mənimki.
Həsəninki ayroplan,
Sevilindi boz dovşan.
Nə çox şəkil var gerçək!

Qoyun, toyuq, at, eşşək...
Sevil, Həsən bu zaman
Şad girdilər qapıdan.
Sevil girib içəri,
Gəldi bir az irəli,
Qaldırdı sağ əlini
Açdı şirin dilini:
– Mürəbbiyə, mən hazır!
– Cumbul Həsən də hazır!
Güldü uşaqlar birdən,
Mürəbbiyə oldu şən.
Qucaqladı Sevili,
Şən qızı, şirin dili.

Çay içməkçin bir azdan
Düzüldü neçə fincan:
Ağ, sarı, göy, qırmızı.
Bu şad etdi Solmazı.
O götürdü göy fincan.
Üstündə bir boz dovşan.
Xeyli baxdı doymadı,
Fincan ilə oynadı.
Çayı dağıtdı birdən,
Tez sıçradı yerindən.
Qorxusundan ağladı,
Gözündən yaş çağladı.

Oyuncaqlar paylandı,
Şirin oyun başlandı.
Coşdu bütün otaqlar,
Burda hər nə desən var:
Azər paroxod çəkir,
Həsən, Sevil ev tikir.
Çəkic əlində Aslan
Buruq tikir ağacdan.
Solmaz əlində kukla
Oynayır tək onunla.

Oyun getdikcə qaynar,
Doymaq bilmir uşaqlar.

"Saat oldu on iki",
Söylədi mürəbbiyə:
– Uşaqlar iki-iki
Düzülünüz cərgəyə.

Düzüldü sıra:
Həsənlə Kübra,
Solmazla İsgəndər,
Sona Azərlə.

Almaz ilə Heydər,
Fatma Əkbərlə,
İldırım Gülüşlə
Tutdu əl-ələ.

Solmaz çox kiçikdir
Düşüb arxaya,
Dəstə sevinclə gedir
Böyük bağçaya.

Orda bir hovuz var
Dörd yanı çiçək.
Üstündə oynaşır
Durna, qaz, ördək.
Solmaz qalır dala,
Təkrar yügürür,
Baxır sağa, sola,
Çox şeylər görür.

Oxuya-oxuya
Gedirlər onlar,
Hovuzlu bağçaya
Çatdı uşaqlar.
Bu təmiz havada

Gəzişdi dəstə,
Oynayıb bağçada
Qızışdı dəstə.

“Saat oldu düz iki”
Söylədi mürəbbiyə:
– Uşaqlar iki-iki
Düzülünüz cərgəyə.
Düzüldü sıra:
Həsənlə Kübra,
Solmazla İskəndər
Sona Azərlə,

Almaz ilə Heydər
Fatma Əkbərlə,
İldırım Gülüşlə
Tutdu əl-ələ.

Düzülüb sıraya
Deyib güldülər,
Oxuya-oxuya
Geri döndülər.

*1935*

## MƏKTƏBLİLƏR MARŞI

Biz maarif cəbhəsinin
Alnı açıq əsgəriyik.
Biz həqiqət səhnəsinin
Köksü polad səfləriyik.
Yürü, şərəf, şan ordusu,
Əmək və ürfan ordusu!

Arş irəli, durma, saqın,
Var günəşə doğru axın.
Zülmət sönür, mənzil yaxın;
Biz sabahın rəhbəriyik.
Yürü, şərəf, şan ordusu,
Əmək və ürfan ordusu!

Sevimlidir şən yurdumuz,
Müzəffərdir gənc ordumuz,
Düşməndən yoxdur qorxumuz,
Qızıl əsrin ülkəriyik.
Yürü, şərəf, şan ordusu,
Əmək və ürfan ordusu!

Məktəbimiz ürfan bağı,
Əmək yurdu, nur ocağı,
Bilik, səadət qaynağı;
Biz inqilab ərləriyik.
Yürü, şərəf, şan ordusu,
Əmək və ürfan ordusu!

*1936*

## PİONERLƏRƏ

Təbiət canlanır, bahar çağıdır,
Bağçalar, yamaclar çiçəklənmədə.
Dan yeli hər yana ətir dağıdır,
Çöllərə çəkilir bir yaşıl pərdə.

Göylərin tovuzu açarkən qanad,
Hər çiçək rəng alır bir qanadından.
Günəşlə canlanır təbiət, həyat,
Günəşlə boy atır hər çiçək, fidan.
Ey bahar ölkəmin vətəndaşları,
Yol açın şəfəqdən hörülmüş nəslə!
Bağçamda gül açmış elin baharı,
Çoxdan göz dikmişəm bu gözəl fəslə.

Ulduzdan işıqlı hər canlı çiçək,
Süd əmmiş günəşin yaz məməsindən,
Baxdıqca gülümsər bu qoca ürək,
Dan yeri sökülür şən gülməsindən.

Silsilə dağlardan axan sellərin
Doğma bir oğluyam, doğma şairi.
Dastanlar yazdığım coşqun sellərin
Tərilə bəslənmiş ey pioneri!

Keçmişlər gözümdə sönmüş bir xəyal,
Alnını parladır biliyin yazı.
Gələcək sənindir, sənsən ideal;
Qəlbində çalınır şerimin sazı.

Baxdıqca nur əmən bu yeni elə
Sənətim, ilhamım açar qol-qanad.
Baxdıqca baxçamda açan hər gülə,
Qarşımda canlanır gələcək həyat.

Hər yolda atırsan odlu addımlar,
Biliklər ocağı şən yurdun vardır.

Alnında ulduzlar, günəşlər parlar,
Gələcək nəslimiz nə bəxtiyardır.

Bu qızıl ulduzlu bayraq sənindir,
Biliyə, zəkayə, əməyə hörmət!
Bu dövlət, quruluş, torpaq sənindir,
Ən uca bəşəri diləyə hörmət!
Bahar bağçasında açarkən hər gül,
Təbrikə gəlmişəm mən sarayına.
Mən sizə inamla vermişəm könül,
Məni də, pioner yaz alayına.

Saçları ağarmış qoca şairəm,
Dünyada təkcə bir istəyim vardır.
Əcələ yalvarıb gündə deyirəm:
– Aman ver, könlümdə diləyim vardır.

Gireydim siz quran yeni bağçaya,
Gözümlə görəydim bitkin barını,
Baxaydım günəşdən nur alan aya,
Doyunca dərəydim heyva, narını.

*1937*

## ANA YURDUM

Çöllərindir şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən!

Bağdır, əkindir
Hər bir bucağın.
Qızıl təkindir
Sarı torpağın.

Böyütdün bizi,
Verdin qol-qanad.
Yoxdur qəm izi,
Şəndir bu həyat.

Qəlbim, canımsan,
Ey ana yurdum!
İsti qoynunda
Şən yuva qurdum.

Çöllərindir şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən!

*1941*

## VƏTƏN NƏĞMƏSİ

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək.
Kinlə kim ayaq
Bassa ölkəmə,
Bu şanlı torpaq
Batırar qəmə.

Bizim ölkənin
Şanlı əsgəri,
Dağlardan mətin
Polad səfləri.

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək!

*1942*

## BAHAR

(*Mahnı*)

Sevin ey çöl, ey orman,
Artıq dəyişdi zaman;
Yox oldu qış, boran, qar,
Qonaq gəldi şən bahar.

Açdı yaşıl bir süfrə,
Şənlik çökdü çöllərə.
Göyərmiş göy səməni,
Səsi basmış ölkəni.

*1942*

## TONQAL

(*Mahnı*)

Bir qırmızı güldür tonqal,
Bir dəstə sünbüldür tonqal.
Bağdan dərilmiş lalədir,
İçilməz al piyalədir.

Bir xonçadır al günəşdən,
Həyat gəlir bu atəşdən.
Nə gözəldir şən nəğməsi,
Ruha nəşə verir səsi.

*1942*

## TÜLKÜ VƏ DƏVƏ

Dəvə otlaya-otlaya,
Kənddən bir az uzaqlaşdı.
Yetişdi bir daşqın çaya,
Sudan içib, çayı aşdı.
Dizin büküb çökdü yerə,
Ürəyində yoxdu qorxu.
Xumarlandı, birdən-birə
Gözlərinə girdi yuxu.

Tülkü çıxdı yuvasından,
Görüncə yatmış dəvəni.
Ürəyində dedi: “Ay can!
Bəxtim ac qoymayır məni.

Zorba dəvə ayağıyla
Gəlmiş yuvamın ağzına.
Onu keçirməkçün ələ,
Quyruğumu quyruğuna
Kəndir kimi bağlayaram,
Çəkib yuvama dəvəni,
Ürəyini dağlayaram;
Bir ay doyurar o məni”.

Bunu deyib, tez yan aldı,
Dediyinə əməl etdi.
Qüvvətini işə saldı,
Quyruğunu ha tərpətdi,

Dəvə etmədi hərəkət,
Tərpənmədi heç yerindən.
Tülkü işlədirkən qüvvət
Zorba dəvə gördü birdən

Tərpədirlər quyruğunu;
Hövl ilə qalxdı ayağa;

Bu iş qorxutmuşdu onu,
Üz qoydu kəndə qaçmağa...

Tülkü havada sallanmış...
Qurtarmaqçün öz canını:
Gah buduna batırır diş,
Gah keçirir dırnağını.

Dəvə aldıqca hər yara,
Qaçır daha sürət ilə.
Tülkü ağa düşüb dara,
Hey vurnuxur qüvvət ilə.

Kəndə çatınca tülkünü
İtlər görüb, hov-hov saldı.
Dağıtdılar boz kürkünü,
Hərəsi bir dişlək çaldı.

*1942*

## ÖVLAD QAYĞISI

Uşaq idim, yadımdadır, yaz idi.
Şıltağım bu cahana sığmaz idi.
Mənə hər şey verirdi nəşə, sevinc,
Quşlar etdikcə hər səhər vic-vic,
Körpə köksümdə qəlbim oynardı;
Çünki coşqun məhəbbətim vardı.
Mənə quşlardı yazda əyləncə;
Bir divarda iki anaş sərçə
Yuva tikmiş, yorulmadan şən-şən,
Çalışır; mən də qoymuram gözdən...
Quşlar artıq murada çatmış idi,
Bir kiçik ailə yaratmış idi.
Hər biri odlu şimşəyə dönərək,
Daşıyırlardı: tut, çəyirtkə, böcək.
Cik-cik etdikcə o şirin balalar,
Verilirdi mənə bu dünyalar.
Qəlbimi ovlamışdı cik-ciklər,
Ürəyimdən keçirdi ah, nələr!
Məni məşğul edən bu quşlardı,
Səsi gəldikdə qəlbim oynardı.
Ürəyimdə oyandı bir şölə,
İstədim onları keçirmək ələ.
Divara nərdivan uzatdım mən,
Quşları tez götürmək istərkən
Üzümə dəydi bir alovlu qanad,
Ata cik-cik edir, ana fəryad.
Həm də dimdikləyib vururdu məni,
Qoruyurdu balasını, Vətəni.
Heyrət etdim quşun cəsarətinə,
Həm bala, həm Vətən məhəbbətinə,
Alnımı basdı atəşin bir tər,
Ürəyimdən keçirdi ah, nələr!

Döyünürdü o saf, kiçik ürəyim,
Qurumuşdu ağac kimi biləyim.
Bala eşqilə çırpınan o ürək,
Məni titrətdi incə yarpaq tək.
Nərdivandan həmən yerə endim,
Öz işimdən özüm də iyrəndim.

*1943*

## VƏTƏN

Sən ey gözəl vətənim,
Yurdum, yuvamsan mənim,
Səndə xoş ömür sürür
Sevilənim, sevənim.

Sənsən yanan çırağım,
Yurdum, yuvam, ocağım,
Havam, suyum, torpağım,
Bağım, tarlam, çəmənim.

Səni duymaz hər yetən,
Eşqin çıxmaz könüldən.
Böyük anam sənsən, sən!
Varlığımsan sən mənim.

Sənindir çarpan ürək,
Səndən doğar hər dilək,
Nə gözəlsən, nə göyçək,
Sən, ey ana Vətənim!

*1944*

## BAHAR BAYRAMI

Ey səməni, saxla məni
Hər il göyərdərəm səni.
Ayaq basdın ölkəmizə,
Bol-bol şənlik gətir bizə.
Çatır-çatır yansın ocaq,
Şadlıq etsin oğul-uşaq.
Sünbül saçlı tarla, əkin
Parıldasın qızıl təkin.
Bağlar bəzək vursun yenə,
Quşlar məclis qursun yenə.
Budaqlarda axşam, səhər,
Şəfəq saçsın şux meyvələr.
Sevincimiz başdan aşsın,
Bahar, günəş qucaqlaşsın.

*1945*

## SƏN GÜLƏNDƏ

Sən güləndə ellərə
Al günəşli yaz gəlir.
Çəmənlərə, çöllərə,
Söhbət gəlir, saz gəlir.
Sən güləndə yamaclar,
Bağlar ətir qoxuyur,
Çiçəklənir ağaclar,
Şən bülbüllər oxuyur.

Sən güləndə, sevgilim,
Bütün oba, el gülür,
Meşə gülür, çöl gülür,
Dağdan axan sel gülür.

*1945*

## ZƏFƏR NƏĞMƏSİ

Sevin, sevin, ana Vətən!
Təslim oldu zalım düşmən.
Zəfər ilə döndü ordu,
Artıq oldun şəndən də şən.

Xoşbəxt elin coşur, daşır,
Nümayişlərdə qaynaşır.
Hər bucaqda toy, bayramdır,
Şənlik, sevinc başdan aşır.

Sən bu xalqın sevincisən,
Gözəllikdə birincisən,
Təbiətin saf qoynunda,
Ən dəyərli bir incisən.

Sevin, sevin, ana Vətən,
Artıq oldun şəndən də şən!

*1945*

## QIŞIN NƏĞMƏSİ

Saqqalı ağ, saçı ağ,
Əlində zorba çomaq
Gəldi qocalmış baba
Şaxta baba, qış baba.
Gurladı boğnuq səsi,
Uğuldadı nəğməsi:
“ – Ay uşaqlar, mən qışam,
Burda mənzil salmışam.
Mən gələndə yağar qar,
Onu sevər uşaqlar.
Qardan adam yaparaq,
Oynarlar qar-topalaq.
Soyuq qış axşamında
İsti ocaq başında
Nağıl deyir nənələr,
Qulaq asır nəvələr”.
Çöldə ayaz, boran, qar,
Qışın da bir zövqü var...

*1946*

## BAHAR

Uğur olsun, gözəl bahar!
Səni ellər çox arzular.
Ayaq basdın ölkəmizə,
Şənlik, sağlıq gətir bizə.
Qoy sel kimi yağsın yağış,
İnəyini sağsın yağış.
Sellər axsın, çaylar daşsın,
Sevincimiz başdan aşsın.
Çatır-çatır yansın ocaq,
Qoy şənlənsin oğul, uşaq.
Çöllər, sünbül saçlı əkin
Parıldasın qızıl təkin.
Dağlar bəzək vursun yenə.
Quşlar məclis qursun yenə.
Dağda, bağda axşam, səhər,
Ətir saçsın bənövşələr.
Həvəs, maraq gəlsin bizə,
Çalışaq öz dərsimizə.

*1947*

## KOLXOZ BAĞINDA

Baharda, yay çağında,
Bizim kolxoz bağında
Yaşıllanır ağaclar,
Çiçək açıb verir bar.
Ağaclara çıxırıq,
Dadlı meyvə yığırıq.
İşləyirik həvəslə,
Oxuyuruq bir səslə.
Oğlan, gəlin, qız, kişi
Birgə görürük işi.
Meyvə artır, bol olur,
Hər çeşid məhsul olur.

*1948*

## İDMAN NƏĞMƏSİ

Biz gənclər, biz məktəblilər,
Hər işdə göstərək hünər.
İdman edək səhər, axşam,
Vücudumuz olsun sağlam.
Qoy güclənsin gənc nəslimiz,
Gələcəyə hakimik biz!
Minnətdarıq məktəbmizə,
Savad, bilik verir bizə.
Sağlam bilik, sağlam bədən
Olsa çiçəklənər Vətən.
Qoy güclənsin gənc nəslimiz,
Gələcəyə hakimik biz!

Gələcəkçün yorulmadan
Bizik yeni həyat quran.
Bilik ilə kommunizmə
Bizik möhkəm təməl quran.
Qoy güclənsin gənc nəslimiz,
Gələcəyə hakimik biz!

*1949*

## ÇALIŞAN QAZANAR

Yaydı, isti bir gün idi,
Ağaclar çox ölgün idi.
Göydən yerə od yağırdı,
Solmaz Eldarı çağırdı:
– Qardaş, gəl, bağçaya gedək,
Çiçəklərə bir baş çəkək.
Çoxdandır su içmir güllər,
Bəlkə solub qərənfillə,
Bağçaya getdilər yügrək,

Gördülər hər gül, hər çiçək
Yerə əyib şax boynunu,
Yamyaşıl o atlas donu
Yaman solub saralıbdır,
Hamısını dərd alıbdır.
Eldar qəmləndi bu işə;
Acıqla baxdı günəşə,
Dedi: – günəş, nə yamansan,
Çiçəkləri solduransan!
Neçin vurdun bu ziyanı,
Soldurdun güllü bağçanı?
Günəş gülümsədi: – "Sağ ol!
Məndən ziyan gəlməz, oğul!
Hər şeyə can verən mənəm!
Qüvvət, ət, qan verən mənəm!
Bu böhtandır, ay uşaqlar!
Məndə axı nə günah var?
Güllər su içmir üç gündür,
Odur ki, onlar ölgündür.
Oğlum, hər şey sevir zəhmət,
Tənbəl ziyan çəkər, əlbət!
Məndən gəlməmiş bu ziyan.
Çox qazanar, çox çalışan.
Zəhmətsiz bal yemək olmaz".
Utanaraq Eldar, Solmaz
Suladılar çiçəkləri,
Puç olmadı əməkləri.
Güllər yenə cana gəldi,
Bağça ətə-qana gəldi.

*1950*

# BİR MAY

Səhər-səhər pəncərədən
Şəfəq gülümsədi birdən.
İşıqlandı dəhliz, otaq,
Baxıb buna ruhlanaraq,
Sordum: – Şəfəq, nə var yenə?
Bir sözünmü vardır mənə?
Şəfəq dedi: – Bu gün maydır,
Yaz fəslində gözəl aydır.
Elin şənlik əyyamıdır,
Zəhmət, hünər bayramıdır.

Mən vurğunam güllü yaza,
Çıxdım kiçik bağçamıza.
Gördüm coşur qaranquşlar.
Səslərində şənlik, sevinc.
Dedim: – Əziz quşlar, nə var,
Qaranquşlar etdi: “vic-vic”;
Dedilər ki: – Bu gün maydır,
Yaz fəslində gözəl aydır.
Elin şənlik əyyamıdır,
Zəhmət, hünər bayramıdır.

Küçələri seyrə çıxdım.
Dolaşdıqca addım-addım,
Hər tərəfdə büsat gördüm,
Könül açan həyat gördüm.
Əllərində al bayraqlar,
Dəstə-dəstə şən uşaqlar
Gedirdilər nizam ilə,
Tükənməz bir ilham ilə
Deyirdilər: – Bu gün maydır,
Yaz fəslində gözəl aydır.
Elin şənlik əyyamıdır,
Zəhmət, hünər bayramıdır.

*1950*

# BAĞÇA

Adil zirək uşaq idi,
Həm də bir az şıltaq idi.
Anasının hər işinə,
Bişmişinə, düşmüşünə
Qarışardı. Yazıq ana
Əlindən gəlmişdi cana.
Üç yaşına çatar, çatmaz
Anası dincəldi bir az.
Onu qoydu bir bağçaya.
O gün ağlaya-ağlaya
Getdi; otağa girincə,
Gördü: Solmaz, Noğul, Qönçə
Tofiq, Həsən, Azər, Gülzar
Əllərində oyuncaqlar,
Qazan kimi qaynayırlar,
Adil baxdı heyrət ilə.
Bir az sonra gülə-gülə
Sevinərək, birdən qaçdı,
Bağçada bir oyun açdı:
İtələyib hər uşağı,
Dartıb aldı oyuncağı.
Səs-küy saldı birdən-birə,
Sonra oturdu tez yerə.
Uşaqlar və mürəbbiyə
"Görək, neyləyəcək?" – deyə
Dodaqaltı gülürdülər.
Üz-gözündən uçub kədər,
Adil coşub qaynayırdı,
Öz-özüylə oynayırdı.
Onları öz qucağına
Bir-bir yığıb dedi: – Ana,
Bax, nə yaxşı şeylərim var!
Mənimdir bu oyuncaqlar.
Baxdı uşaqlara sarı

Solmaz dedi: – Oğlan, barı
Dovşanı ver mən oynadım.
– Yox, vermərəm, mənim adım
Adildir, heç oğlan deyil,
Yaxın gəlmə, çəkil, çəkil!
Mən özüm tək oynayacam,
Bu sazı da mən çalacam!
Dınqıldatdı kiçik sazı,
Gözucu süzdü Solmazı.
Uşaqlar güldülər ona,
Adil qışqırdı: – Bax, ana,
Bu uşaqlar gülür mənə.
– Gəl, oyun öyrədim sənə,
– Yox, bəs mənim anam hanı?
Əlindən atdı dovşanı,
Dəli kimi birdən qaçdı;
İndi başqa oyun açdı:
Ağlayırdı, bağırırdı,
Anasını çağırırdı
Ayağını döyə-döyə;
Müdirə və mürəbbiyə
Ona açaraq şirin dil,
Dedilər: – Ağlama, Adil!
Bu qalmaqal nəyə gərək?
Anan bu saat gələcək.
Ağlama, gəl yaxşı bala,
Oyna bizim uşaqlarla.
Bax, nə qədər oyuncaq var!
Həsən, Tofiq, Solmaz, Gülnar.
Oynayın bu Adil ilə.
Nə qədər tutdular dilə
O ağlayıb bağırırdı,
Anasını çağırırdı
Ayağını döyə-döyə.
Müdirə və mürəbbiyə
Zor-güc onu sakit etdi...
Üç gün belə gəldi, getdi...

Axır bağçaya öyrəndi,
Gündən-günə o şənləndi.
Daha yoxdur o şıltağı,
İndi hər gün səhər çağı
Göy şəfəqə boyanınca,
Səhər Adil oyanınca,
Göstərir öz şıltağını,
Yerə döyüb ayağını,
Deyir ağlaya-ağlaya:
– Ana, gedək tez bağçaya!
– Oğlum, tezdir, dayan görək!
– Yox, tez deyil, gedək, gedək!
Vaxtım keçir, ana, tez ol!
Çoxdan gəlib Solmaz, Noğul.
Gəl, bağçamın vaxtı keçir,
Onlar oyuncağı seçir.
Mənə axı pisi qalır,
İndi Həsən sazı çalır.
"Cangülüm" oynayır hamı.
Tez ol, bura ver çantamı!
– Oğlum, tezdir, dayan görək!
– Yox, tez deyil, gedək, gedək!

*1951*

## GÖYƏRÇİN[1]

Göyərçinəm, göyərçin,
Kəkilim vardır çin-çin.
Ellər məni bəsləyir,
"Uğurlu quşdur", – deyir.
Sülhün bir rəmziyəm mən.
Canlı göyrəçinlərdən
Ancaq mən çox fərqliyəm,
Əlimdə kağız, qələm,
Başımda fikir, ağıl,
Yazıram şer, nağıl;
Arabir də hekayət,
Oxuyan alır ibrət.
Gözəl şəkillərim var,
Böyük əməllərim var.
Uşaqlar sevir məni
Səsim tutub ölkəni.
İndi bilin, balalar,
Nə istəsəz, məndə var.

*1959*

---

[1] "Göyərçin" jurnalının nəşri münasibətliə yazılmışdır.

## TÜLKÜ VƏ XORUZ

Qışda bir ay qar, boran
Verməmiş idi aman.
Ağ geyinmişdi dağlar,
Əriyərkən yazda qar,
Şiddətli sel axmışdı,
Qayaları yıxmışdı.
Dağıtmışdı bir kəndi
Sökərək bütün bəndi,
Ev, eşiyə girmişdi,

Çox tələfat vermişdi.
Xalqa kömək gələndə
Köçmüşdü başqa kəndə.
Yaddan çıxıb bir köpək
Bir xoruz qalmışdı tək.
İt xoruzu görüncə
Düşdü dərin sevincə,
Dost oldular o gündən
Keçirdi günləri şən.
Hər gün axşam olunca
Xoruz qonur ağaca.
Altında da boz köpək.
Yatır mürgüləyərək...
Xoruz səhər olunca
Səs salıb dağ-yamaca,
Banlayırdı ucadan...
Tülkü keçərkən ordan
Ağac altına gəldi.
Çox ədəblə çömbəldi.
Altdan yuxarı ona
Dedi: – "A, nazlı sona,
Neyləyirsən burda tək?
En aşağı gəl gedək.
Çöldə qurt-quş yeyərsən.

Mənə sağ ol deyərsən”.
Xoruz dedi: “ – Babacan,
Bu yer qalmış babamdan.
Bu yurdda istəyirəm
Kənd salıb abad edəm”.
Tülkü dedi: “ – A məstan,
Etibarlı oğulsan.
Elə isə durma, en,
Beş-on arşın bu yerdən
Özün ölçüb ver mənə.
Dua eylərəm sənə”.
Xoruz dedi: “ – Sözüm yox,
Torpağım var həddən çox.
Nə hacət var mən enim,
Mühəndisim var mənim.
Ağac altında yatır.
O hər bir dərdə çatır.
Durma, tez get yanına
Fikrini aç, de ona.
Ölçüb sənə yer verər,
Həm də çox hörmət edər”.
Tülkü soxuldu yügrək,
Səsə oyandı köpək.
Tülkü görüncə onu
Tərpətdi quyruğunu.
Tez qaçdı bir-birə.
Boz köpək hürə-hürə
Onun dalınca qaçdı.
Tülkü qaçdı, o qaçdı.
Qarşıya birdən-birə
Çıxdı uçurum dərə.
Artdı onun kədəri,
Tülkü tez döndü geri.
Durdu yenə qaçmağa.
Dərə, təpə aşmağa.
Olmuşdu çox pərişan.

Haman ağac yanından
Keçərkən o yügürək,
Xoruz dedi: “ – Tülkü bəy,
Bu qədər acgöz olma,
Tamahını artırma.
Mühəndislə görüşdün,
Bu qədər ki yer ölçdün,
Bəs gəlməyirmi sənə?
Bir az da qalsın mənə!”
Qaça-qaça xoruza
O da belə söylədi:
“ – Vaxtım yox, ey bəxtəvər,
Sözüm budur müxtəsər,
Sənə bu boz mühəndis
Yaxşı kənd abad edər”.

## ATA-OĞUL

Başı papaqlı ata,
Çuxa, başmaqlı ata,
Utandırma gəl məni,
Yoldaşlarımdan səni
Görməsinlər yanımda.
Uzaq gəz məndən daha.
Məni elm etdi adlı,
Oldum arpa-samanlı.
Amma ki sən avamsan,
Yeni işlərlə xamsan.
Qalustuk, şapqama bax,
Durma, məndən ol uzaq!

## BİLİK

Bilikdəndir hər zəfər,
Ondan doğar şən səhər.
Bilik əqlə yoldaşdır,
Günəş ilə qardaşdır.
Zəfər, səadət deyə,
Sarılın bu biliyə,
Yayın onu hər yana.
Xalqımız gəlsin cana.
Bağ, bağçamız güllənsin,
Bülbülləri dillənsin.
Şənlənsin, tarla, çəmən,
Sevinsin ana Vətən.

## ÇOCUQ VƏ QAYA

Bir qayaya çıxmış idi bir çocuq,
Gördü qayanın içi oyuq-oyuq.
Baxdı yenə qarşıdakı dağlara,
Dərələrə, təpələrə bağlara.
Şövqdən oldu o çocuq biqərar,
Başladı qışqırmağa biixtiyar.
Gəldi qayadan ona əksi-səda,
Eylə bildi başqa çocuqdur o da.
Sevinərək səslədi: "Ey, gəl bura!"
Aldı qayadan cavabın: "Gəl bura!"
Hər nə ki bu uşaq ona söylədi,
Daş qayalar rədd cavab eylədi.
Qaldı məhəttəl bu işə o uşaq,
Birdən onu söydü: "Ey eşşək, axmaq!"
Gördü ki o uşaq da söyür bunu.
Acıqlanıb istədi tapsın onu.
Durdu qayanı gəzib axtarmağa,
Buna söyən uşağı tez tapmağa.
Gəzdi, dolaşdı qayanı hər qədər,
Tapmadı ancaq o uşaqdan əsər.
Oldu bu işdən uşağın qəlbi qan,
Evlərinə qayıtdı çox pərişan.

## HEKAYƏ

Eşitdim, bir yoxsul ciyər qanilə
Köhnə bir əşrəfi keçirdi ələ.
Ona söyləmişdi varlı kimsələr:
“Zəri-zər, xəzinə-xəzinə çəkər...”
Sürətlə üz qoydu bazar səmtinə,
Köhnə əşrəfilə tapsın xəzinə.
Bir sərraf dükanı gördü çox geniş,
Bir yerdə bu qədər qızılı görməmiş.
Bir yığın qızıldır, gümüşdən parlaq.
Hər yan əşrəfidir, bir neçə qalaq.
Xəzinə xülyası beyninə batdı.
Qızılı xəzinə üstünə atdı.
Əlindən uçunca dəyərli varı,
Yügürdü qalanmış qızıla sarı.
Qızılı atmaqdan oldu peşiman,
Birə yüz almağa tapmadı imkan.
Fəryada başladı: “Qızılım” – deyə,
Yalvardı cavahir satan kişiyə:
“ – Mən ömrüm uzunu hey çalışaraq,
Əlimə bir qızıl keçirdim ancaq.
Mənə söyləmişdi axmaq bir nəfər:
“Zəri-zər, xəzinə-xəzinə çəkər”.
Həmin bu qızıllı dükana çatdım,
Qızılı, qızılın üstünə atdım.
Atdım ki, əşrəfi çəksin xəzinə.
Çox qızıl onu da çəkdi özünə”.
Gülərək o sərraf, o azad insan
Söz açdı qızılın qarışmasından:
“ – Çox gedə bilərmi azın üstünə?
Yüz getməz, bir gedər yüzün üstünə.
Kim ki, sərvətimi qapmaq istəyir.
Yolumda bu məsəl bir keşikçidir.
Dəyirman ki, bunca hay-huy qoparır,
Muzdurdur, ununu dehqan aparır.

Oğrudan qorxum yox, mənə nəhayət
Oğrudur deməyə etməz cəsarət.
Dünya ki, qara bir rəngə boyanar,
O zaman yol kəsər quldur-qaralar,
Gündüzlər: göz-gözdən utanır – deyə,
Talanı, qarəti qoyur gecəyə.
Ancaq, söz quldur şəfəq sökərkən
Qələmi yontaraq mişkin söyüddən
Fikrimi qapırlar, könlüm əmindir.
Buxaraya da getsə, o Gəncənindir!"

## KƏNDLİ VƏ İLAN

Gəldi bir kəndlinin yanına ilan.
Dedi: "Bundan sonra mənə gəl inan.
Dost olaraq etibarımız olsun,
Əhd-peyman, qərarımız olsun.
Daha məndən qoruma sən özünü,
Mənə gəl yaxşı bax, sil gözünü.
Çıxmışam təzəcə qabıqdan mən.
Olmuşam indi başqa heyvan mən".
Nə ilan kəndlini inandırdı,
Nə də öz mətləbini qandırdı.
Götürüb kəndli bir yekə payanı
Dedi: "Get, axmağı, səfehi tanı!
Qabığın tazə – bəs nə adətdir.
Ürəyin dop-dolu xəyanətdir?
İlana etibarımız olmaz.
Başı heç yer üzündə sağ qalmaz".
Bu sözü söyləyib vurub ilanın
Başını əzdi, aldı orda canın.

## İSGƏNDƏR VƏ FİLOSOF DİOJEN

Qoşunla keçərkən rumlu İsgəndər,
Ona söylədilər: "Ey, böyük qeysər!
Bu çeşmə yanında alim Diojen
Bir qutu içində etmişdir məskən".
İsgəndər şövkətlə yanaşdı ona,
O isə üzünü çevirdi yana.
İsgəndər soruşdu: "İstəyin nədir?"
Diojen gülərək dedi: "Ver əmr,
Çibinlər üstümə qonmasın mənim,
Bunlardan incinir çılpaq bədənim".
Dedi: "Mən olsam da fateh İsgəndər,
Əmrimə itaət etməz çibinlər.
Ey alim, sən məndən gəl xələt istə,
Var, dövlət, xəzinə, şan, şövkət istə!"
Diojen dedi: "Gəl, insaf et özün,
Sənin ki, çibinə çatmayır gücün,
Belə bir miskindən nə istəyim mən,
Çəkil, kölgə salma parlaq günəşdən!"

# *Mənzum hekayələr və poemalar*

## TIQ-TIQ XANIM

Gəlin, sözə uşaqlar,
söyləyim bir hekayət:
Dozanqurdu edirdi
yalqızlıqdan şikayət.
Soğan qabıqlarından
bir çadra tikdi, şıq-şıq.
Fındıq qabıqlarından
çarıq geyindi, tıq-tıq.
Ətir vurdu başına,
bəzək verdi özünə;
Qara yaxdı qaşına,
sürmə çəkdi gözünə.
Naz ilə yavaş-yavaş,
yola düzəldi birbaş.
Çöl-çəməni gəzirdi,
axtarırdı bir yoldaş...

Göy təpənin döşündə
oturmuşdu bir çoban.
Dedi: – A dozanqurdu,
hara gedirsən? Dayan!
Dozanqurdu çevirdi
qara, muncuq başını,
Acıqlanıb dayandı,
oynatdı göz-qaşını,
Dedi: – Ehey, ay çoban,
bir yaxşı aç gözünü,
Bax, gör kiməm, anla bir
söylədiyin sözünü!
Mənə eldə-obada
Tıq-tıq xanım deyərlər.
Bir az düşünüb danış,
kobud olma bu qədər.
Çoban dedi: – Bağışla,
qurban o şirin dilə.

Tıq-tıq xanım, de görüm,
hara gedirsən belə?
Tıq-tıq xanım oynatdı
Qara, muncuq başını,
Gözlərini süzərək,
çatdı qara qaşını,
Dedi: – Çoban, bağışla,
ömürlər çox gödəkdir;
Bu çöllərdə yalqızam,
mənə yoldaş gərəkdir.
Çoban yanaşdı ona,
söylədi: – Ay qaraqaş,
Bu ellərdə tapılmaz
mənim kimi bir yoldaş.
Gəl burda qal dost kimi,
səni tutaram əziz.
Ağzıma bir tikə də,
inan, qoymaram sənsiz.
Tıq-tıq xanım söylədi:
– Acıqlandırsam səni,
Doğru söylə, ay çoban,
nəylə döyərsən məni?
Çoban qapdı çomağı,
Dedi: – bununla, bir bax...

Dozanqurdu qorxudan
qaçdı tez ordan uzaq...
Getdi... getdi...bu dəfə
tülküyə oldu düçar.
Tülkü dedi: – Bir dayan,
dozanqurdu, sözüm var!
Gəlin kimi özünə
vurub yaraşıq, bəzək,
Hara gedirsən belə?
Durma, söylə, a göyçək!
Dozanqurdu çevirdi
qara, muncuq başını,

Acıqlı bir tövr ilə
oynatdı göz-qaşını
Dedi: – Nə söyləyirsən?
Gözlərini yaxşı sil!
Diqqətlə bax, gör kiməm?
Danışdığın sözü bil!
El bilir, ölkə bilir,
Tıq-tıq xanımdır adım!..
Tülkü dedi: – Ay xanım,
bağışla, tanımadım.
Adını bilməyirdim,
xanım, bağışla məni;
Dilim-ağzım qurusun,
yaman incitdim səni.
Ay Tıq-tıq, şıq-şıq xanım,
hara gedirsən belə?
Gəl bu tülkü lələni
nigaran qoyma, söylə!
Tıq-tıq dedi: – A tülkü,
ömürlər çox gödəkdir,
Bu çöllərdə yalqızam,
mənə yoldaş gərəkdir.
Tülkü dadlı dil ilə
söylədi: – Ay qaraqaş,
Bu ellərdə tapılmaz
mənim kimi bir yoldaş.
– Çox gözəl, bir sözüm var,
durma, başa sal məni.
Məni nəylə döyərsən
acıqlandırsam səni?
Tülkü dedi: – Salaram
səni iti dişimə,
Çeynəyərəm, didərəm,
gedərəm öz işimə...
Dozanqurdu bu sözdən
diksinərək, qorxaraq,
Çadrasını yelləyib
qaçdı tez ordan uzaq...

Tıq-tıq xanım gedirdi
arxasına baxmadan;
Birdən onun yolunu
kəsdi bığlı bir siçan.
Qarşısında şöngədi,
qulağını diklədi.
Şirin-şirin dil açdı,
ona belə söylədi:
– Saçı uzun Suray xanım,
Boynu uzun Buray xanım,
Sığal verib qara telə,
Hara gedirsən belə?
Bu söz ona xoş gəldi,
açdı tez yaşmağını,
Çadrasını yellətdi,
oynatdı başmağını,
Dedi: – Yalqızlıq sıxır
məni, gözüm Siçan bəy!
Özümə layiq yoldaş
axtarıb tapam gərək!
Siçan dedi: – Mən kimi
yaxşı yoldaş tapılmaz;
Gəl bir yerdə yaşayaq,
damağı çağ, kefi saz.
Dedi: – Sənə sözüm yox,
ancaq başa sal məni,
Söylə, nəylə döyərsən
acıqlandırsam səni?
Siçan dedi: – Yavaşca
quyruğumu bükərəm,
O incə göz-qaşına
qara sürmə çəkərəm.
Tıq-tıq xanım çadranı
yellətdi çox sevincək,
Söylədi: – Bu şərtə mən
razıyam, di, gəl gedək!
Tez verdilər əl-ələ,
yoldan iraq keçdilər;

Siçanın daxmasında
bir ay yeyib içdilər.
Bir gün Siçan bəy dedi:
– Ay Tıq-tıq, şıq-şıq xanım,
Mənim gözəl yoldaşım,
mənim ciyərim, canım!
Bu gün xanın evində
toy var, dadlı yemək var,
Şəkər, noğul, qatlama,
fətir, yağlı çörək var.
Sən yuvadan çıxma ha,
mən gələnədək, dayan...
Tıq-tıq razılıq verdi...
düzəldi yola siçan.
Sevincək, xan evinə
gedirdi yorğa-yorğa.
Saraya yetişincə,
sıxıldı bir bucağa.
Qatlamanı, noğulu
xırt-xırt ilə yeyirdi;
Bığlarını silərək,
öz-özünə deyirdi:
"Tıq-tıq xanım yalqızdır,
onsuz haramdır yemək,
Bu noğuldan, şəkərdən
ona aparım gərək!.."

Dozanqurdu yuvada
yalqız qalıb darıxdı.
Həm də bir az susuzdu,
durdu, yuvadan çıxdı.
Gəldi bir yol ağzına,
baxdı o yan-bu yana;
Bir çuxurda su görüb
Tıq-tıq yanaşdı ona.
Əyilib su içəndə,
birdən düşdü çuxura,
Gördü ki, lap boğulur,

əl atdı ora-bura.
Sudan çıxa bilmədi,
bağırdı: – Ay-vay, kömək!..
Ancaq onun səsini
eşitmədi Siçan bəy...
Gördü gəlir atlılar,
şirin söhbət edirlər;
Batıb qızıl-gümüşə,
xan evinə gedirlər,
Çuxurda, su içində
onun halı ağırdı,
Birdən uca səs ilə
atlıları çağırdı:
– Tarap-turup atlılar,
Atları qanadlılar!
Xan evinə gedərsiz,
Siçan bəyə deyərsiz:
Saçı uzun Suray xanım,
Boynu uzun Buray xanım
Düşübdü su çuxuruna,
Tez özünü yetir ona!
Atlılar hər tərəfə
durub diqqət etdilər,
Görmədilər bir nəfər,
yola düşüb getdilər.
Xan evinə çatınca,
hamı atından endi;
Doluşdular saraya,
xan məclisi şənləndi.
Hörmət ilə oturdu
hamı qızıl kürsüyə,
Qonaqlardan birisi:
– heyrətli işdir, – deyə,
Söylədi: – Biz bir yolun
qırağından keçərkən,
Bu sözləri söyləyən
bir səs eşitdik birdən:
“Tarap-turup atlılar,

Atları qanadlılar!
Xan evinə gedərsiz,
Siçan bəyə deyərsiz:
Saçı uzun Suray xanım
Boynu uzun Buray xanım
Düşübdü su çuxuruna,
Tez özünü yetir ona!”
Baxdıq o yan-bu yana,
diqqət etdik nə qədər,
Çox heyrətli bir işdir,
görünmədi bir nəfər...

Eşidincə bu sözü,
Siçan qalxdı yerindən,
Dedi: “Tıq-tıq xanıma
kömək etməliyəm mən”.
Atdı noğul, şəkəri,
tez çıxdı o, saraydan;
Tıq-tıq xanıma tərəf
yorğalayırdı Siçan...
Yuvasına çatınca,
yaxından bir səs gəldi;
Bu səs onun bağrını
bir xəncər kimi dəldi.
Bildi Tıq-tıq xanımdır,
boğulurkən bağırır,
Öz dostunu dar gündə
harayına çağırır.
Tez səsinə səs verdi,
o tərəfə yüyürdü
Bir kiçik gölməçəyə
yetişincə, nə gördü:
Tıq-tıq xanım çuxurda
boğulur, əl-qol atır;
Gah çıxır su üzünə,
gah birdən-birə batır...
Bunu gördü, Siçanın
dərdi başından aşdı;

Yüyürdü, öz dostuna
belə şirin dil açdı:
– Əlini mənə, bəstərəcik!
– Yox, mən səndən küstərəcik...
– Əlini mənə, bəstərəcik!
– Yox, mən səndən küstərəcik...
– Əlini mənə, bəstərəcik!
– Yox, mən səndən küstərəcik...
– Küstərəcik ha, küstərəcik,
Bir daş üstündən əndərəcik!
Daşı vurdu başına,
bir az qəmləndi... yenə
Toy noğulu yeməkçin
qayıtdı xan evinə.

*1910*

# TÜLKÜ HƏCCƏ GEDİR

## I

Tülkü qocalmış idi,
Şikardan qalmış idi.
Ov keçmirdi əlinə,
Ət dəymirdi dilinə.
Həftələrlə qalıb ac,
Dolanırdı yalavac.
Ova batmırdı dişi,
Yaman keçirdi işi.
Günü olmuşdu qara,
Düşündü, tapdı çara:
Təsbeh aldı əlinə,
Şal bağladı belinə,
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiynində atlaz əba,
Əlində zorba əsa,
Ağlayırdı, gedirdi,
Çölləri seyr edirdi.
Olmuşdu mömin bəndə,
Çatdı böyük bir kəndə.
Kənd ağzında bir xoruz
Eşələnirdi yalqız.
Gördü ki, tülkü lələ,
Girmiş başqa bir şəklə.
Gəlir təsbeh əlində,
Bir şal qurşaq belində,
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiynində atlaz əba,
Əlində zorba əsa.
Ağlayır, təsbeh çəkir,
Gözündən qan-yaş tökür...
Xoruz durub uzaqdan

Baxdı ona bir zaman.
Dedi: – A tülkü lələ,
Neçin girdin bu şəklə?
Yoxsa sənə, ey baba,
Üz veribdir bir bəla?
Tülkü başın salladı,
Hönkür-hönkür ağladı.
Dedi: – A məstan xoruz,
Gözləri mərcan xoruz!
Qocalmışam, düşmüşəm,
Sizi çox incitmişəm.
Məndən daha qaçmayın.
Dərdlərimi açmayın.
Daha üzüm qaradır,
Qəlbim dolu yaradır.
Halal-haram qanmadım,
Qocalığı anmadım.
Sizi tutdum hey yedim,
Allah kərimdir! – dedim.
Yamanlıq olmuş işim,
Qanlar tökmüş bu dişim.
Mənim günahım çoxdur,
Halıma yanan yoxdur.
İndi həccə gedirəm,
Daha tövbə edirəm.
Xoruz dedi: – Baba can,
Sənə bu canım qurban!
Daha bəsdir, ağlama,
Ürəyimi dağlama!
Haqq yolunu bulmusan,
İndi mömin olmusan.
Qocalmısan, ay lələ,
Quyruğun var bir şələ.
Səni uzun yol yorar,
Məni özünlə apar.
Yolda qulluq edərəm,
Hər işinə gedərəm.

Tülkü baxdı həsrətlə,
Cavab verdi hörmətlə:
– Sağ ol, məstan xoruzum,
Sevimli, əmlik quzum.
Yollar uzun, burama,
Tez ol, gəl düş arxama.
Hər gün namaz zamanı
Sən verərsən azanı.
Xoruz oldu sevincək.
Qanad gərdi yelkən tək.
Qanadını çırparaq,
Uçub gəldi qaçaraq,
Öpdü əl-ayağını,
Üzünü, qulağını.
Boynunu dimdiklədi,
Ona min dil söylədi.
Tülkü, ağzında virdi,
Təsbehini çevirdi.
Ona həsrətlə baxdı,
Gözləri şimşək çaxdı.
Bir az söhbət etdilər,
Yola düşüb getdilər.

**II**

Gəldilər kəndə yaxın
Toyuqlar axın-axın
Küçədə dənlənirdi,
Yem tapıb şənlənirdi.
Gördülər tülkü lələ
Giribdir başqa şəklə:
İri təsbeh əlində,
Bir şal qurşaq belində,
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiynində atlaz əba,
Əlində zorba əsa.

Gedir yol ilə birbaş,
Xoruza olmuş yoldaş.
Birdən qıqqıldaşdılar,
Bu hiyləyə çaşdılar.
Toyuq-xoruzdan biri,
Gəldi bir az irəli,
Dedi: – A lovğa tülkü,
Quyruğu darğa tülkü!
Yoxdur səndə mərhəmət,
Bizə verirsən zillət
Gizli-gizli gecələr,
Kəndə girib bixəbər
Bizi çapır, çalırsan,
Hinə şivən salırsan
Yoxmu bizim canımız?
Halalmıdır qanımız?
Etdik biz də bir tədbir
Vardır yaxında çox "pir";
Onlara ip bağladıq,
Nəzir verdik, ağladıq;
Kəsdik minlərlə qurban,
Verdik fəqirə ehsan;
Qəbul olmuş duamız,
Səni tutmuş ahımız.
Tülkü alışdı-yandı,
Əsasına dayandı;
Sonra başın salladı,
Hönkür-hönkür ağladı,
Dedi: – Düzdü, can xoruz,
Gözləri mərcan xoruz!
İndi üzüm qaradır,
Qəlbim dolu yaradır...
Yamanlıq olmuş işim
Daşa dəysin bu dişim.
Qocalmışam, düşmüşəm,
Sizi çox incitmişəm.
Daha tövbə edirəm,

İndi həccə gedirəm...
Bu işə mat qaldılar,
Tülküyə yan aldılar.
Çaşdılar bu sözlərə,
Qan-yaş doldu gözlərə,
Söylədilər: – Ay lələ!
Qurban bu şirin dilə!
Xasiyyətin dəyişmiş,
Nə gözəl işdir bu iş!
Amandır, tülkü lələ,
Bizi apar özünlə.
Tülkü dedi: – Nə olar,
Gəlin, gəlin, balalar!
Uçub gəldi cümləsi;
Toyuq-xoruzun səsi
Çulğaladı hər yanı,
Kəndi, çölü, ormanı.
Bir xoruz oldu zirək
Uçdu dama sevincək:
– Quqquluqu! – çəkdi car, –
Olduq bizlər bəxtiyar:
Aydın olsun gözünüz,
Gəlin, görün özünüz
Tülkü olub peşiman,
Tökməyəcək bir də qan.
Mömin olmuş bu kişi,
Bizimlə yoxdur işi;
Ağlayır, tövbə edir,
Birbaşa həccə gedir.
Kənddə toyuq-cücələr,
Bundan tutunca xəbər,
Bir-birinə baxışdı,
Küyə düşdü, axışdı;
İşi doğru bildilər,
Uçub qaçıb gəldilər.
İnandılar tülküyə,
Peşiman olmuş, – deyə,

Biri öpür əbasın,
Biri dəmir əsasın,
Biri təsbeh, sarığı,
Biri kirli çarığı.
Batmış hamı sevincə,
Gülürlər incə-incə.
Gətirdilər duz-çörək.
“Dərə xəlvət, tülkü bəy”
Dururdu kefi çox saz,
Baxırdı saymaz-saymaz.
Bir az söhbət etdilər,
Yola düşüb getdilər.
Çovuş oldu birisi.
Basdı kəndi cır səsi.
Keçdi dəstə başına,
Papaq endi qaşına.
Əlində uca bayraq.
Oxuyurdu, o şaqraq.
Dəstə şən, təmtəraqla,
Gedir çovuş bayraqla.
Tülkü düşmüş irəli,
Arabir dönüb geri
Gizli-gizli baxırdı,
Ağzından su axırdı.
Sanki ölçüb-biçirdi,
Köklərini seçirdi.
Kəsilmişdi taqəti,
Gözləyirdi fürsəti.
Getdilər bir az daha,
Çatdılar bir səhraya.
Tülkü dayandı, durdu,
Başladı hiylə qurdu.
Dedi: – Ay canım xoruz,
Gözəl məstanım xoruz!
Namaz vaxtıdır, dayan,
Çıx ağaca ver azan.
Alıb tez dəstamazı,

Qılaq burda namazı.
Xoruz çıxdı, ucadan
Verdi gözəl bir azan.
Tülkü dedi: – Tez durun,
Namaz üçün səf qurun!
Olsun xoruz pişnamaz,
Daha başlansın namaz!
Bağırdılar: – Yox, olmaz,
Bizim cinsə yaraşmaz.
Əslində pişnamazlıq,
Sənin şəninə layiq.
Tülkü dartdı özünü,
Turşutdu üz-gözünü,
Dedi: – Məndən çəkin əl!
Olmuşam çox bədəməl.
Öldürmək olmuş işim,
Qanlar tökmüş bu dişim.
Mənim kimi yaramaz
Olarmı heç pişnəmaz?
Arıq xoruzun biri
Gəlib keçdi irəli.
Tülkü baba yanladı,
Səfləri sahmanladı.
Kökləri sondan düzüb.
Gözlərini bir süzüb
Hiyləni saz eylədi,
Durdu belə söylədi:
– Mən keçmişəm lap sona,
Ürəyim dönmüş qana.
Yalvarıram, yaradan
Keçsin günahlarımdan.
Peşimanam işimdən,
Bezaram keçmişimdən.
Artıq tövbə etmişəm,
Ağlamaq olmuş peşəm.
Siz namazı başlayın,
Məni bir ölü sayın.

Deyib oturdu yerə,
Ağladı birdən-birə.
Səflər coşub daşdılar.
Namaza qalxışdılar.
Dörd səf düzülmüş idi,
Gözlər süzülmüş idi.
Pişnamaz dedi: – Quqqu!
Azançı: – Quqquriqu!
Oxundu qısa dua,
Əyildilər torpağa.
Tülkü qaldırdı başın,
Atdı möminlik daşın.
Baxdı ora-buraya,
Göz gəzdirdi sıraya.
Od parladı gözündən,
Artıq çıxdı özündən.
Sahmanladı işini,
İtilədi dişini,
Atdı təsbeh, əbanı,
Sarığı, həm əsanı,
Baxdı o yan-bu yana,
Düz atıldı meydana.
Yırğalandı quyruğu,
Boğdu on beş toyuğu...
Duyub o yerdə qalan,
Qurtardı tülküdən can.
Uçdu hərə bir yana,
Düzə, çölə, ormana.
Çölü basdı qışqırıq,
Qopdu böyük fısqırıq.
Tülkü işin bitirdi,
Ovlarını gətirdi,
Çıxdı bir göy yamaca,
On gün yedi doyunca.

*1910*

## YAXŞI ARXA

Günlərin bir günündə,
Qalın meşə içində
Bir ac tülkü olurdu,
Acından qovrulurdu.
Qalmayırdı dağ, dərə,
Baş çəkirdi hər yerə.
Bir yerdə ov bilsəydi,
Ya uzaqdan görsəydi,
Quyruğunu diklərdi,
Güllə kimi gedərdi.
Görsə ağacda bir quş,
Başından oynardı huş.
İstəyərdi yavaşca
Dırmaşsın o ağaca.
Ancaq dişi batmazdı,
Əli quşa çatmazdı.
Altdan yuxarı yan-yan
Baxardı heyran-heyran.
Qımıldasaydı yarpaq,
Başın kola soxaraq,
Yavaşca şöngüyərdi,
O səsi dinləyərdi.
Hərdən bir şey umarlı,
Gözlərini yumardı,
Görərdi: kök cücələr,
Fərə, xoruzbeçələr
Qarşısında dənlənir.
Cikkildəşir, səslənir.
Açarkən tez gözünü,
Görərdi tək özünü.
Durub mırıldanardı,
Alışardı, yanardı.
Gəzərdi boş-boşuna,
Çıxardı dağ başına.
Seyr edərdi uzağı,

Dəyməzdi ov gözünə,
Çıxardı çöl düzünə.
Həm ac, həm yorğun-arğın,
Nəşəsiz, həm də darğın
Axşamadək gəzərdi,
Yorulardı bezərdi.
Hər kol-kosa çatardı,
Qıvrılardı, yatardı.
Bir gün o çox düşündü,
Qoca qəlbi döyündü.
Dərin bir fikrə getdi,
Bir baxınız nə etdi.
Ağlına gəldi birdən
Dedi ki: "Axmağam mən,
Hazır bu qonşuluqda,
Çinarda, bu yavuqda,
Bala çıxarmış leylək.
Bir hiylə qurmaq gərək.
Alıb bir-bir balasın
Yeyim, qoy tutsun yasın".
Getdi, tapdı bir mişar,
Dedi: "Axtaran tapar..."
Əlin qoydu belinə,
Gəldi çinar dibinə.
Dedi: – A leylək baba,
Köç bu ağacdan daha!
Bu çöl, yamac, bu orman
Mənə qalmış atamdan.
Bu gün üç gündür acam,
Bir loğmaya möhtacam.
Gəldim, kəsim çinarı,
Aparım, satım barı...
Əl apardı mişara,
Çəkdi onu çinara.
Ağac başında leylək
Bu sözləri eşitcək
Başladı yalvarmağa.

Dedi: – A tülkü ağa,
Rəhm elə gəl, ay aman!
Kəsmə çinarı, dayan!
Gəl yuvamı dağıtma,
Göz yaşımı axıtma.
Balalarım lüməkdir.
Qanadları gödəkdir.
Ağac başından yerə
Düşsələr, birdən-birə
Tələf olarlar, gözüm.
Mən buna necə dözüm?!
Tülkü dedi: – Yox, olmaz,
Bir dəqiqə yaramaz.
Əl apardı mişara,
Çəkdi onu çinara...
Leylək birdən bağırdı,
Gözündən yaş yağırdı.
Dedi: – Aman, tələsmə,
Dayan, çinarı kəsmə!
Üç balamdan birisin,
Ən böyüyün, irisin
Verrəm sənə, götür əl,
Tülkü baba, rəhmə gəl.
Tülkü ağa şöngədi,
Qulağını diklədi.
Dedi: – Daha neyləyək,
At aşağı a leylək!
Leylək dayandı bir az,
(Ana balaya qıymaz).
Qıymadı balasını,
Ağladı yana-yana.
Varmadı onun əli,
Baxdı ona kədərli.
Gördü tülkü gözləyir,
Onu yerdən səsləyir.
Leylək dedi: – Ay aman!
İşim oldu nə yaman!

O yazıq dərdli ana,
Ürəyi yana-yana
Dimdiyini uzatdı,
Bir balasını atdı.
Tülkü qapdı havada,
Parçalada orada,
Çəkdi balta dişinə,
Yedi, getdi işinə,
Keçdi bir üç gün daha,
Qudurdu tülkü ağa.
Birbaşa, durdu, yenə
Gəldi çinar dibinə.
Dedi: – A leylək baba,
Köç bu ağacdan daha!
Yenə üç gündür acam,
Bir loğmaya möhtacam.
Həyatım olmuş acı,
Kəsməliyəm ağacı.
Əl apardı mişara,
Çəkdi onu çinara.
Leylək bağırdı: – Aman!
Kəsmə ağacı dayan!
Gözümün ağ-qarası,
Ürəyimin parası,
İki balam qaldı, bax,
Olsun başıma torpaq...
Daşmı mənim ürəyim,
Anayam, var diləyim.
Qıymaram onlara mən.
Bəsdir, insaf elə sən.
Qoy bir böyüsün onlar,
Bir qol-qanad açsınlar;
O zaman al mişarı,
Kəs dibindən çinarı.
Tülkü dedi: – Yox, olmaz!
Bir dəqiqə yaramaz!
Kəsmək üçün çinarı

Götürdü tez mişarı.
Leylək dedi: – Tələsmə,
Dayan, çinarı kəsmə!
Od tutdu yana-yana,
Ürəyi döndü qana;
Bir balasını yenə
Alaraq dimdiyinə,
Öpdü iki gözündən,
Dimdiyindən, üzündən
Atdı tülküyə sarı;
Dedi: – Al, rədd ol barı!
Tülkü qapdı havada,
Parçaladı orada;
Çəkdi balta dişinə,
Yedi, getdi işinə.
Qonşu ağacda qarğa
Qonmuşdu bir budağa,
Bu hiyləni o qandı,
Leyləyə qəlbi yandı,
Dedi: – A leylək, sənin
Qara daşdır ürəyin.
Bax gör, bir neyləyirsən?
Öz balanı verirsən
Acgöz, murdar tülküyə,
Dəb salırsan ölkəyə.
Bu sözləri eşitcək,
Hönkürtü vurdu leylək;
Dedi: – Neyləyim, qardaş,
Düşsün başıma bir daş!
De görüm, hansı ana
Qıyar öz balasına,
İşim düşmüşdü dara,
Tapmadım başqa çara.
Əlindəki mişarı
Görmədinmi, Çinarı
O insafsız kəsirdi,

Canım zağ-zağ əsirdi...
Qarğa dedi: – Ay axmaq,
Sadədilliyi burax!
Pis olar yoxsa halın,
Yox şüurun, kamalın.
Uzunboy, uzunboğaz,
Xeyrə, şərə yaramaz.
Ayaqların bir arşın,
Ondan uzundur başın.
Ağlın ancaq gödəkdir,
Adın Hacıleyləkdir.
Yox o boyun faydası,
Hər işin var qaydası.
Hiylə gəlir o sənə,
İnanırsan düşmənə.
Olsa min-bir mişarı,
Kəsə bilməz çinarı.
Sənə gəlir o, kələk,
Burax, qoy kəssin görək...
Leylək dedi: – Ay oğul
Bunu bilmirdim, sağ ol!
Saldın məni sən başa,
Sağ ol, qarğa, çox yaşa!..
Keçdi bir üç gün, yenə
Haman çinar dibinə
Tülkü buyurdu gəldi,
Lovğa-lovğa çöməldi,
Dedi: – A leylək baba,
Köç bu ağacdan daha!
Leylək cavab vermədi,
Ona baş endirmədi.
Kəsmək üçün çinarı
Tülkü aldı mişarı.
– Köç bu ağacdan, – dedi. –
Məni bu aclıq yedi.
Gərək kəsilsin çinar,

Buna bir sözünmü var,
Tülkü dartdı özünü;
Bitirməmiş sözünü,
Leylək boynun uzatdı,
Tüklərini qabartdı;
Dedi: – Rədd ol, hiyləgər!
Lovğalanma bu qədər.
Bəsdir, bu hiyləylə sən,
Sinəmə dağ çəkmisən...
Anlamışam işini.
Nə qıcıyıb dişini
Kəc baxırsan üzümə?
Get, görünmə gözümə!
Tülkünü heyrət aldı,
Yerində dondu qaldı.
Dərdə, qəmə büründü,
Dərin-dərin düşündü.
Sonra dedi: – A, yassar,
Səni bir öyrədən var.
Turşutdu o, üzünü,
Dolandırdı gözünü,
Ürəyi yana-yana,
Baxdı o yan-bu yana.
Birdən gördü qarğanı,
Qaynadı, coşdu qanı,
Dedi: "Aha, bu qarğa,
Olmuş leyləyə darğa,
Yoxsa bir şey qanmazdı,
Hiyləni anlamazdı,
Sonra yenə şöngədi,
Qulağını diklədi;
Dedi: – A, yassar qarğa.
Paxıl gözü dar qarğa,
Bu nə cürətdir etdin,
Bu leyləyi öyrətdin?
Nə qalmış idi sənə?

Yamanlıq etdin mənə.
Olsun iki gözün kor,
İndi bircə dayan dur,
Bir gün üzüb başını,
Bişirərəm aşını.
Qalxdı suyu süzülmüş,
Ağzı, gözü büzülmüş,
Meşə ilə gedirdi,
Mırıldanıb deyirdi:
"Ay paxıl, şeytan qarğa,
Səbr et, bir dayan, qarğa,
Sənə qurum bir kələk,
Aləmə olsun örnək".

* * *

Günəş üfüqdə söndü,
Yavaş-yavaş büründü
Çən, dumana çöl, çayır,
Yamac-dərə, dağ, bayır.
Yuxu zamanı gəldi,
Qurdlar, quşlar çəkildi.
Bulud altından yalnız
Göz qırpırdı ay, ulduz.
Yox səs-səmir bir yerdə;
Ancaq boş dərələrdə
Sular çağlar, gülümsər,
Sıra dağlar səs verər...
Bir hiylə qursun, deyə
Tülkü girdi meşəyə.
Uzandı ac və yorğun,
Əhvalı xeyli pozğun;
Qarnı quruldayırdı,
Durub mırıldayırdı.
Yuxu girməz gözünə,
Deyinir öz-özünə:
"Fələk, bu qanlı səhər,
Açılmayacaq məgər?"

Gözləyirdi bir fürsət,
Hər dəqiqə, hər saət
Bir il keçirdi ona,
Qalmışdı yana-yana.
Uzun gecəni oyaq
Başa vurdu, bir sayaq.
Dan yeri ağarcağın
Tülkü ağa ac, yorğun
Silkələdi özünü,
Açdı iki gözünü;
Bir əsnədi, gərnəşdi,
Ürəyini qəm deşdi.
Durdu, çıxdı o, koldan,
Qalmamışdı onda can.
Dərs verməyçin qarğaya
Gəldi birbaş tarlaya.
Bir az baxdı, dayandı,
Birdən yerə uzandı.
Ölülülüyə özünü
Qoyub, yumdu gözünü...
Göyün üzündə yalnız
Var idi bircə ulduz...
Doğdu günəş, yayıldı,
Dağlar, daşlar ayıldı.
Sular, dağlar, bayırlar.
Səhralar, həm çayırlar,
Hər yan rəngə boyandı,
Şux təbiət oyandı.
Açır əlvan çiçəklər,
Uçuşur kəpənəklər.
Quşlar atılır, düşür,
Cəh-cəh vurur, ötüşür.
Səfa içində hər yan...
Yalnız tülkü, bağrı qan,
Qarğacığı tutmağa
Çalışır tülkü ağa...
Uca palıd başında,

Qırıldayırkən, qarğa,
Gördü uzanıb tülkü,
Əsla tərpənmir tükü,
Üzü, gözü büzüşmüş
Yerə ölü tək düşmüş...
“Bax, bu hiylədir!” – deyə
Qarğa güldü tülküyə.
Dedi: – Ay uzunqulaq,
Məni sanırsan axmaq?
Şeytan kimi yatırsan,
Mənə yalın satırsan?
Elə bildin duymaram,
Yox, hiylənə uymaram?
Tülkü çıxarmadı səs,
Almayırdı heç nəfəs.
Qarğa baxdı bir müddət,
Qəlbində yandı həsrət.
Dedi ki: “Bu hiyləgər
Ölmüş olsaydı əgər,
Səhər, günorta, axşam
Mən də edərdim bayram.
Deşib beynin yeyərdim,
Dimdiyimi silərdim.
Atılardım ağaca,
Səs salardım yamaca”.
Səbr et, dayan a qarğa,
Danışma lovğa-lovğa.
“Yerdə yatan yumurta
Göydə uçan quş olur”.
Qarğa baxdı bir zaman,
Gördü yox tülküdə can.
Dedi: “Canı çıxıbdır,
Aclıq onu yıxıbdır.
Aldanmaq olmaz, ancaq
Gərəkdir ayıq olmaq”.
Uçdu gəldi o birbaş,
Götürdü bir kiçik daş,

Qoydu onun buduna.
Diqqətlə baxdı ona.
Dedi: “Yoxsa bu ac bəy
Mənə gəlir bir kələk?
Səhər yenə gələrəm,
İşi yəqin bilərəm:
Ölməmiş olsa əgər,
Bu daş üstündən düşər.
Onda, billəm diridir,
Hiyləgərin biridir...”
Uçub yüksəldi qarğa,
Uçdu, getdi uzağa.
Tülkü duydu bu işi,
Gördü, batmadı dişi.
Söylədi: “Ay hiyləgər,
Qoy bir açılsın səhər.
Bu günü də vur başa,
Bir gün də artıq yaşa,
Sabah yəqin tutaram,
Birnəfəsə udaram”.
Tülkü doymuşdu cana,
Göz gəzdirdi hər yana.
Baxdı o hər budağa,
Gördü ki, yoxdur qarğa.
Qalxdı, üstünü sildi,
Meşəliyə çəkildi.
Susuz, ac, arğın, yorğun,
Əhvalı xeyli pozğun,
Gözü ovda və quşda,
Dərələrdə, yoxuşda;
Nə kəklik var, nə turac,
Bomboşdur dərə, yamac.
Hər şey çıxmışdı yoxa...
Göz yaşı axa-axa,
Çox axtardı, dolaşdı,
Qan-tər başından aşdı.
Qurtardı lap qüvvəti,

Qalmadı heç taqəti.
Leyləyi etdi tez yad,
Qarğadan çəkdi min dad.
Oxu toxundu daşa,
O günü vurdu başa...
Axşam sular qaraldı,
Ətrafı zülmət aldı.
Daşdı dərdi çox oldu,
Bir kolluğa soxuldu.
Atdı yerə başını,
Tökdü o, göz yaşını.
Boşa çıxmışdı oxu,
Girməz gözünə yuxu.
Bir il keçdi o gecə...
Qızıl şəfəq çöküncə,
Silkələdi özünü,
Açdı iki gözünü,
Tülkü qalxdı yerindən,
Bir ah çəkdi dərindən,
Aşdı kiçik bir dərə,
Gəldi dünənki yerə.
Həmin daşı üstünə
Qoydu, uzandı yenə...
Doğmuşdu dan ulduzu,
Açılırdı göy üzü.
Ağac başında qarğa
Qırıldayırkən "qa-qa",
Gördü tülkünü birdən
Uçub gəldi yerindən.
Daşı yerində görcək
Dedi: – "Aha, ay tülək,
Bulandırıb saf suyu,
Qazıdın dərin quyu.
Özün düşdün quyuya,
Dərin bulanıq suya.
Aclıq səni sıxmışdır,
Artıq canın çıxmışdır.

Qəbul olmuşdur duam,
Bu gün edərəm bayram”.
Diqqətlə baxdı ona,
Uçdu qondu yanına.
Dimdiklədi bir-iki,
Səs çıxartmadı tülkü.
Qondu onun başına,
Gözlərinə, qaşına
Dimdik vurarkən, birdən
Tülkü sıçradı yerdən;
Elə tutdu qarğanı,
Az qala çıxsın canı.
Dedi: – A fitnə, şeytan,
Qurtarmazsan daha can.
Sən leyləyi öyrətdin,
Məni ruzumdan etdin.
Bilmədin, ay yaramaz,
Mənə dolaşmaq olmaz?
Alıb səndən intiqam,
Bu gün elərəm bayram.
Qarğa dedi: – Ay gözüm,
Yox deyəcək bir sözüm,
Ye, ancaq, ey bəxtiyar,
Bircə vəsiyyətim var;
Əvvəl onu deyərsən,
Sonra məni yeyərsən.
Yaxınlaşıbdır əcəl,
Vəsiyyətə et əməl!
Tülkü dedi: – Dayanma,
Tez ol, söylə, yubanma!
Qarğa dedi: – Tülkü bəy,
Əcəl çatdı, nə etmək!
Halal olsun ətim, ye!
Ancaq bu sözləri de:
– Gorsuz, kəfənsiz qarğa,
Yurdsuz, vətənsiz qarğa,
Həsrətlə keçdi ömrün,

Yazıq sənə, qa-qa-qa!
Tülkü durdu deməyə,
Hazırlandı yeməyə.
Quyruğunu tutdu şək,
Deyirdi çox sevincək:
– Gorsuz, kəfənsiz qarğa,
Yurdsuz, vətənsiz qarğa,
Həsrətlə keçdi ömrün,
Yazıq sənə, qa-qa-qa!
Deyəndə tülkü bay “qa”,
Ağzından çıxdı qarğa.
Getdikcə qanad aldı,
Bir ox kimi ucaldı.
Uçdu göylərə qarğa,
Sonra bir dik budağa
Qonub, güldü tülküyə,
– Hünərin var, tut! – deyə.
Tülkü alışdı, yandı,
Öz işindən utandı.

*1910*

# CƏFƏR VƏ BƏŞİR

*Alman yazıçısı V.Buşdan iqtibas*

## 1

Kənddə bir kimsəsiz qarı var idi,
Kənd onun hörmətini saxlar idi.
Özü çox mehriban, adı Gülzar,
Kiçicik daxmasında təkcə yaşar.
Gecə, gündüz evində o çalışar,
Hər işə, zəhmətə yaman qarışar.
Yenə də gəlməyirdi bir şey ələ,
Yaşayırdı yazıq bu zəhmət ilə.
Qarının kənd içində varı, yoxu
Bir xoruz idi, bir də üç toyuğu.
Bağçada dənləyirdilər onlar,
Bu toyuqlarla şad idi Gülzar.
Onları gördü Cəfər ilə Bəşir,
Durmayıb tökdülər yaman tədbir.
Tez gedib tapdılar ip ilə çörək,
Çörəyi orda dörd yerə bölərək,
Onları quyruq ilə yağladılar,
Bir-birinə ip ilə bağladılar.
Atdılar tez toyuqların yanına,
Özləri keçdilər qapı dalına.
Gördü məstan xoruz bu dörd çörəyi,
Tez yüyürdü, açıldı şən ürəyi.
Şadlığından xoruz “quqqu-riqu”,
Banladı, səslədi toyuqları bu.
Ac toyuqlar yüyürdülər bu səsə,
Gəldilər tez yemək üçün həvəsə.
Hər biri yağlı bir çörək tutdu,
Onu dimdiklədi bir az, uddu.
Qaldı birdən boğazlarında çörək,
Zəhrimar oldu onlara bu yemək:

Nə o yana qayıtdı, nə bu yana,
Hamısı heyrət etdi bu oyuna.
Onların söndü şadlığı, həvəsi,
Darıxırdı yazıqların nəfəsi.
Atılıb-düşmədən yorulmuşdu;
Dördü də qol-qanad açıb uçdu.
İp ilişdi ağacda bir budağa,
Havada qaldı dördü də asıla;
Boğulurdu yazıqların nəfəsi,
Arabir “qu-qu-qu” çıxırdı səsi.
Səsini onların eşitdi qarı.
Başaçıq qaçdı tez o, bağa sarı.
Gördü qalmış toyuqları asıla,
Heyrət etdi qoca qarı bu hala.
Əllərini vurub da baş-gözünə,
Ağlayıb söyləyirdi öz-özünə:
“Haradan bu bəla sizi aldı,
Kim məni böylə zillətə saldı?”
Qurtarıb biz birinci qissəmizi,
Başlayaq gəl ikinci hissəmizi.

**2**

Ürəyi dərdli, gözləri ağlar,
Onları aldı mətbəxə Gülzar.
Bir qədər baxdı, baxdı həsrət ilə,
Alışıb qəlbi yandı, gəldi dilə:
“Ey qoca Gülzarın əti, çörəyi,
Ey kiçik bağçamın gülü, bəzəyi,
Sizin ilə keçirdi ömrüm şən;
Bu bəla keçdi sizlərə kimdən?
Kim sizi bu müsibətə atdı,
Kim şirin şərbətə zəhər qatdı?”
Yenə verdi bir az özünə ürək:
“Olmuşa ağlamaq daha nə gərək!
Qovurub bu toyuqları yağda,

Yeyərəm ləzzət ilə bu bağda".
Dördünü də təmizlədi o qarı,
Tavaya qoydu bu toyuqları.
Cəfər ilə Bəşir – iki nadan,
Gizli-gizli baxırdılar bacadan.
Yağ, soğan almağa əlində açar,
O zaman endi anbara Gülzar?
İşi böylə görüncə iki dəcəl
Qaçıb evdən gətirdilər çəngəl.
Batırıb çəngəli xoruz-toyuğa,
Çəkərək, qaçdılar moruqlu bağa.
Qoca Gülzar mətbəxə gəldi,
Yenidən qəlbini kədər dəldi.
Bir əsər görmədi toyuqlardan,
Qarının qəlbi oldu bir kasa qan.
Yenə söyləndi gözləri ağlar:
"Nə bəladır çəkir qoca Gülzar?
Bu toyuqlar hanı? Hara qaçdı?
Dirilib yoxsa qol-qanad açdı?"
Qarı bu dəfə çox acıqlandı,
Bu zaman it yanaşdı, yalmandı.
İtə getdi güman yalnız onun,
Heyfini almağa xoruz-toyuğun,
Qapdı yerdən qoca uzun dəyənək,
İti tutdu, doyunca vurdu kötək...
Qurtarıb, ey gözüm, ikincisini,
Başlayaq indi də üçüncüsünü.
Etgilən bu hekayəyə diqqət,
Aqil isən götürgilən ibrət.

**3**

Vardı yoxsul, qoca, sevimli kişi,
Dərzilik idi kənd içində işi.
Sənətində məharəti var idi,
Biliyi, həm fərasəti var idi.

Kəndin əhli tutardı hörmətini,
Saxlayardı həmişə izzətini.
Bir kiçik daxmada yaşar qış, yay,
Qarşısından axardı coşqun çay.
Çayı keçmək üçün o yan-bu yana,
Taxta bir körpü salmış idi ona.
Yaramaz Cəfər ilə bir də Bəşir,
Buna da tökdülər yaman tədbir.
Kəsdilər körpünü mişar ilə,
Bu küçüklər sataşdılar o filə.
Söydülər dərzini o cingözlər,
Dedilər olmayan yaman sözlər.
Dərzi odlandı, xeyli hirsləndi,
Əlinə bir ağac alıb endi.
Qaçdı tez, körpüyə qoyunca ayaq.
Ortasından qırıldı taxta "şaraq".
Dərzi batdı çayın dərin gözünə,
Çıxdı sonra yenə suyun üzünə.
Nə qədər atdı o yazıq əl, ayaq,
Qurtuluşçun tapılmaz oldu dayaq.
Çay üzündə üzürdü bir neçə qaz,
Dərzini burda baxtı kəsdi bir az,
Tutdu tez qazların ayağından,
Zor-güc ilə qurtardı ordan can.
İndi dördüncüyə gəlir növbət,
Həvəs ilə oxu, götür ibrət!

**4**

Bir müəllim olurdu o kənddə,
Ustad idi bilikdə, sənətdə.
Söyləyirdi: "Uşaqlarım, çalışın,
Biliyə, zəhmətə, işə alışın!
Nə qədər əldə var gözəl fürsət,
Ədəbə, elmə eyləyin xidmət.
Oxuyun faydalı kitabçaları,

Üz qoyun hər zaman bu elmə sarı”.
Sözləri qurtarınca tez durdu,
Doldurub çəkdi qır, uzun çubuğu.
Sonra qalxdı ayağa çox şən-şən,
Gəzməyə getdi, çıxdı məktəbdən.
Cəfər ilə Bəşir – iki nadan
Çıxarıb bu nəsihəti yaddan,
Gəldilər bir oyun da bu yazığa,
Tökdülər bir qədər barıt çubuğa,
Hər biri durmayıb evə qaçdı.
Axşam oldu, gecə qanad açdı.
O müəllim qayıtdı gəzməkdən,
Çubuğu aldı, çəkmək istərkən,
Barıt birdən alışdı odlandı,
Sifəti, saqqalı, bığı yandı.
Atdı birdən əlindən o, çubuğu,
Qəlbinə çökdü qəm, kədər, qorxu.
Bürüdü odlu tüstü üz-gözünü,
Ütdü kirpiklərini, həm gözünü.
– Kim mən etdi bu bəlaya düçar?
Söylədi: tez həkim çağırsınlar.
Ey gözüm, sanma sən bunu qissə,
Algilən bu hekayədən hissə.

**5**

Yaz idi; Cəfər ilə bir də Bəşir
Oldular kənd içində çox dilgir.
Darıxıb evdə, qaçdılar küçəyə,
Oradan getdilər yaxın meşəyə.
Açmış idi çəməndə al güllər,
Səs-səsə vermiş idi bülbüllər.
Quşların nəğməsi, gülün ətri,
Bürümüşdü o kəndi və şəhəri.
Qırmızı , ağ, yaşıl, sarı rəng-rəng
Qonmuş idi çiçəklərə kəpənək.
İki şeytan, iki səfeh, nadan

Olmadı bu gözəlliyə heyran.
Otlar üstündə gördülər qurd-quş.
Çox sevindi buna iki bayquş.
Qurdları yığdılar kağız qutuya.
Gəldilər tez dayı yatan otağa.
Döşəyin altına töküb oları.
Sevinib tezcə qaçdılar dışarı...
Gecədən keçdi bir neçə saət,
Dayı gəldi, yatıb ola rahət.
Soyunub, yastığa başın atdı,
Xor-xor ilə, şirin-şirin yatdı.
Gecədən keçməmişdi bir o qədər
Otağa doldu bu qonaq cücülər.
Dayı yatmışdı, həm də yorğundu,
Bir cücü uçdu, burnuna qondu.
Diksinib qorxdu, açdı tez gözünü,
Qorxusundan itirdi o özünü.
Səslədi qorxa-qorxa: – Ey, kimsən?
Əlini atdı burnuna birdən,
Tutdu tez burnuna qonan cücünü,
Qorxusu getdi, gördü öz gücünü.
Ovcuna qoydu, baxdı diqqət ilə,
O qaranlıqda sordu heyrət ilə:
"Bu qonaq gəldi bilmirəm haradan?
Məni qaldırdı lap şirin yuxudan".
Qaynaşıb doldu bu qurd-quş otağa,
Verdilər çox əziyyət o yazığa.
Qondular gah uçub onun gözünə,
Burnuna, gah qulağına, üzünə.
Qalxaraq aldı başmağın yerdən,
İntiqam aldı o böcəklərdən.
Dayı etdi bu işlərə heyrət,
Dedi: "Haqq eyləsin sizə lənət!
Yuxuma gör necə zəhər qatdı..."
Yorğun, arğın gecə yarı yatdı.

## 6

Qonşuda bir çörəkçi, anbarda
Qoymuş idi beş-on çuval buğda.
(Hər uşağın pozulsa tərbiyəsi,
Olacaqdır yaman işə həvəsi).
Anbara girdi Cəfər ilə Bəşir,
Kəsdilər o çuvalları bir-bir.
Yiyəsi girdi anbara birdən,
Çuvalı aldı çiyninə yerdən,
İstəyirdi dəyirmana getsin,
Buğdanı tez üyüdsün, un etsin.
Çuvalın buğdası səpildi yerə;
Batdı qəlbi onun qəmə, kədərə.
"Kim giribdir, – dedi, – bu anbara?
Əl vurubdur dolu çuvallara?"
Baxdı diqqətlə tez o yan-bu yana,
Onları gördü, qəlbi döndü qana.
Dedi: – Siz kəndə oldunuz nə bəla?
Onları tutdu saldı bir çuvala.
Gətirib onları dəyirmana.
Çuvalı atdı hirslə bir yana,
Qapdı hardansa zorba bir dəyənək,
Onlara vurdu hey doyunca kötək...
Oldular ən ağır cəzaya düçar;
Yamanı bir yaman bəla yaxalar.

*1906*

# ALMA OĞRUSU

*Alman yazıçısı V.Buşdan iqtibas*

Aslan ilə Əmir, həm Cabbar,
Götürüb badbanların[1] onlar,
Getdilər çöldə ta uçursunlar.
Gördülər bir ağac yol üstündə.
Üç-dörd alma var idi üstündə.
Sulanıb görcək ağzı Aslanın,
Yandı-yaxdı o odlara canın.
Almanı tez Əmirə göstərdi,
Təməhi güc gətirdi, böylə dedi:
"Tez əyil, çiyninə çıxım qardaş,
Almaları dərim, yeyək yoldaş".
Bu işə razı oldu ol nadan,
Atılıb çıxdı çiyninə Aslan.
Almanın hamsını çapıq dərdi,
Sonra qorxub üsulluca endi.
Durmadı öz sözündə ol nadan,
Götürüb qaçdı almanı Aslan.
Yiyələndi o almanın beşinə,
Birini saldı tez özü dişinə,
Arxasınca Əmir qaçıb tələsik,
Aslana vurdu bir acıqlı təpik.
Yıxılıb Aslan, tez yenə durdu,
Yumruq ilə bu da onu vurdu.
Tutuşub vurdular biri-birini,
Cırdılar üst-başını, üzlərini,
Gəldi bağban yoluxmağa o bağa,
Diqqət ilə baxıb sola və sağa,
Görmədi öz yerində almaları,
Qaçdı ki, bəlkə tutsun oğruları.
O yaxında eşitdi səs, durdu,
O iki alma oğrusun gördü.

---

[1] Badban – çərpələng

Çox şirin bir-biri ilə davada,
Yetişib bağiban o əsnada,
Gördü ki, bir-birinə sarmaşmış,
Eşələnirlər toza, quma batmış.
Bağiban qapdı zorba bir dəyənək,
Onlara ləzzət ilə vurdu kötək.
Ağlaya-ağlaya iki axmaq,
Dedilər "Dərmərik daha mütləq".
Üstləri, başları cırıq, ağlar
Evlərinə qayıtdılar onlar.
Onlara çün qarışmadan Cabbar,
Badibanı hava üzündə uçar.
Gedir idi yol ilə qəlbi şad,
Demədi hiç kəs ona bir zad.

*1906*

## EŞŞƏK ÜSTÜNDƏ SƏYAHƏT

Dəyirmançı bir qoca,
Minmiş qara eşşəyə.
Oğlu da arxasınca
Gedirdilər meşəyə,
Hava isti, yol uzaq,
Lap tərləmişdi uşaq.
Gülüb yoldan keçənlər
Dedilər bax bunlara:
"Bu insafsız bəxtəvər
Özü minmiş ulağa,
Belə isti havada
Oğlu gedir piyada.
Harda görülmüş ata
Özü minsin ulağa,
Belə isti havada
Oğlu getsin piyada.

Endi ulaqdan qoca,
Oğlu mindi eşşəyə.
Atası arxasınca
Üz qoydular meşəyə.
İstiləşirdi hava,
Yorğalayırdı qoca.
Güldü yoldan keçənlər:
"Bax insafsız oğlana
Qoca kişi tökür tər,
Özü minmiş heyvana.
Belə isti havada
Ata gedir piyada.
Baxın, baxın oğlana!
Özü minib heyvana.
Belə isti havada
Qoca gedir piyada".
Qoca dedi: "Oğlum en,
Rahatlın ver heyvana".

Oğlan endi eşşəkdən
Ata, oğul yan-yana,
Elə isti havada
Gedirdilər piyada.
Güldü yoldan keçənlər:
“Baxın qoca axmağa,
Oğlu, özü tökür tər
Minməyirlər ulağa.
Belə isti havada
Sürünürlər piyada.
Baxın iki axmağa
Rəhm edirlər ulağa
Özləri bu havada
Sürünürlər piyada.”
Qoca mindi eşşəyə
Dönüb dedi oğluna:
“Tez ol çataq meşəyə
Gəl sən də min heyvana”.
Atıldı mindi oğlan
Yorğalayırdı heyvan.
Güldü yoldan keçənlər:
“Bax qocaya, uşağa,
Hər iki bu bəxtəvər,
Minib yazıq ulağa.
Yollar bütün dağ, dərə,
Heyvan batıb qan, tərə.
Baxın iki axmağa
Minib yazıq ulağa,
Hava isti, yük ağır,
Bax, heyvandan tər yağır”.
Qoca dedi oğluna:
“Diqqət verməyək buna,
Hər deyilən düz olmaz,
Yol sözsüz-sovsuz olmaz”.

*1932*

## TAPDIQ DƏDƏ

### I

Deyirlər bir dağ varmış,
Çağlarmış hey dərəsi.
Kəsilməzmiş yaz və qış
Onun coşqun nərəsi.
Başı, dibi qar, boran,
Papaq geymiş dumandan.

Təbiətin qoynunda
Görmüş sansız qış, bahar;
Ağ saçları boynunda
İnci kimi parıldar.
Şəndir yaxın uzağı,
Gözəldir hər bucağı.

Qarlı, uca, dik başı
Az qalır dəysin aya;
Təpələrlə yanaşı
Köksündə min bir qaya.
Hər daşı, hər koması
Laçın, tərlan yuvası.

Daşda bitən ağacda
Gözü qalır insanın,
O dağlarda, yamacda
İzi var hər zamanın,
Uçar, baxdıqca xəyal,
Gəlir zehnə min sual.

Qoynunda bir göl də var,
"Ceyran gölü" adlanır.
Güzgü kimi parıldar,
Çıraq kimi hey yanır.
Yaşıl köksünə yaz, qış
Min bir çiçək taxılmış.

Alır sərin suyunu
Yaxın qarlı dağlardan,
Qoynunda bəslər onu
Yaşıl donlu bir orman.
Söyüd, çinar, göy qamış
Üstünə kölgə salmış.

Gündüz günəş, gecə ay
Gəlir tamaşasına.
Ətəyindən axan çay
Nəğmə söyləyir ona.
Verir min bir yaraşıq
Ona çiçək, sarmaşıq.

Bu dərədə hər bucaq
Bənzər gözəl çələngə.
Hər gül, çiçək, hər yarpaq
Girdikcə rəngdən-rəngə,
Quşlar verər səs-səsə,
Nəşə gələr hər kəsə.

Qonmuşkən bu xəyalım
Yurdumun bağçasına,
Yalnız var bir sualım
Təbiət fırçasına:
Çəkdinmi böylə lövhə?
Sən sənətin, düz söylə!

**II**

Bu dərənin qoynuna
Sığınmışdı bir qoca.
Tapdıq deyirlər ona;
Özü adından uca.
Son günləri yaşar dinc,
Qəlbində sönmüş sevinc.

Gəncliyində bu qoca
Sultanlardan, xanlardan
Cəfa çəkmiş doyunca.
Xalqı sıxdıqca zaman,
Arxa çıxmış yoxsula,
Könül vermiş bu yola.

Toplamış öz başına
Eldə igid gəncləri;
Çıxmış bir dağ qaşına
Açmış döyüş səfəri,
Ad çıxarmış o vaxtdan
Bu ağ saçlı qəhrəman.

Çox yoxsulu qoparmış
Zalımın pəncəsindən.
Qız, gəlini qurtarmış
Zülmün əyləncəsindən.
İllər, aylar baş vurmuş,
Tapdıq yorulub durmuş.

Keçmiş bahar günləri,
Ömrü axmış su kimi;
Yaş adlamış irəli,
Baş ağarmış qu kimi.
Göz bozarmış bel çökmüş,
Xəzan ömrünü sökmüş.

Düşmüş əlindən mizraq,
Ox, yay, qılınc və qalxan;
Olmuş doğduğu torpaq
Ona qaranlıq zindan.
Köksündə bir qarlı qış
Tay-tuşundan ayrılmış.

Dünya görmüş bu qoca,
Çıxmış bərkdən və boşdan.

Vermiş illər boyunda
Çox döyüşdə imtahan.
Sınaqlı Tapdıq dədə
Qatlanmış hər bir dərdə.

Onu tanıyır uzaq,
Yaxın obalar bütün;
Yoxsul, sönük hər ocaq
Dilər ona yaxşı gün.
Kimə bir dərd üz vermiş,
Tapdıq çarə göstərmiş.

Görmüş hələ ölkədə
Zülmün odu sönməmiş.
O vaxtdan Tapdıq dədə
Öz kəndinə dönməmiş.
Lənət etmiş hər şeyə,
Sığınmış bu dərəyə.

### III

Dərənin arxasında köy[1] varmış,
Onu çoxdan kədər, zülüm sarmış.
Gecə, gündüz əkir, biçir, yoxsul
Yenə görməz evində bir məhsul.
Daşıyır molla, kətxuda, bəy, xan.
Qan udur kəndli qanlı dövrandan.
Göz yaşıyla becərdiyi tarla,
Qoparır öz başında vaveyla.
Kənddə ən yoxsul, ən təpərli Məmiş,
Bu gedişdən daha cana gəlmiş.
Bükmüş aclıq və ehtiyac belini...
Atdı bir gün Məmiş gözəl elini,
"Fəhləlik eylərəm şəhərdə" – deyə
Endi Tapdıq dədə olan dərəyə...

[1] Köy – kənd

Qanad açmışdı göylərin tavusu,
Başlamış quşların səhər borusu.
Ötüşür hər budaqda şən, şaqraq,
Səsinə səs verir qaya, irmaq.
Dərə başqa lətafət almışdı,
O, sədalar içində dalmışdı...
Bir daş üstündə Tapdıq əyləşmiş,
Üstünə bir ağac qanad gərmiş.
Gözü yollarda, hey baxar, inlər,
İrmağı, quşları birər dinlər.
Ona yalqızlıq açmış idi yara,
Neyləsin, tapmayırdı başqa çara.
Məmiş isə addımlayırdı yolu,
Ürəyi fırtına, kədərlə dolu..
Tapdığa hörmət ilə yaxlaşdı.
“Uğur olsun” – deyə yaxın gəldi,
Oturub bir qədər də dincəldi.
Söz alıb-verdilər, işi artıq
Anlayınca ona dedi Tapdıq:
“ – Burda hər yer zülümlə həp dolmuş,
Şəhəri, kəndi qanla yoğrulmuş,
Hara gülşən deyə ayaq bassan,
Yoxsul olsan, sənə olar zindan,
Bu göy altında fitnələr vardır,
Bilsən ey vah, bir nələr vardır...
O şəhər də səni əzib, yeyəcək,
Biri quduz qurd dişiylə çeynəyəcək...”

* * *

Anladırkən bu sözləri Məmişə,
Gəldi Tapdıqla bir kişi görüşə,
Dedi: – Tapdıq, uğurlar olsun, sən
Büsbütün bixəbərsən aləmdən.
Şəhəri almış iztirab, qorxu,
Bu gecə xan görüb qəribə yuxu.
Görmüş o, qurd yağır yerə göydən,

Ona zindan olub saray, gülşən.
Carçı anlatdı xalqa bu yuxunu,
Dedi: " – Hər kimsə doğru yozsa bunu,
Xan ona xələt iltifat edəcək,
Yozanın baxtı burda işləyəcək".
Tapdığın gözləri dikildi yerə,
Dedi: " – Dönsün görüm aşı zəhərə!
Nə qədər ölkədə o Qurd xan var,
Ona göydən donuz da, qurd da yağar.
Qurdumuz azmıdır, nədir qorxu?
Bizi qorxutmasın gərək bu yuxu".
Kişi bir az sözə davam etdi:
" – Yolçu yolda gərək", – deyə getdi.
O gedincə, Məmiş də tez durdu,
Tapdıq ondan gülə-gülə sordu:
" – Yozmaq istəmirsən xana yuxunu?"
" – İstərəm, istərəm, tez anlat onu".
" – Yuxunu get şəhərdə yoz o xana,
Əvəzində əgər nə versə sana,
Yarısı yoxsula, dula çatacaq.
Kəndə döndükdə haqqı ver ancaq!"
Razı oldu Məmiş onun sözünə,
Gözünü dikdi Tapdığın gözünə.
Dedi Tapdıq: " – Şəhərdə meydana get!
Toplanış orda olmasa, xana get
Söylə ki, gəlmişəm yozam yuxunu.
Yozmağa razılıq verərsə, onu
Al sarayındakı çiçəkli bağa,
Bax göyə, bax suya, boranı dağa,
Yuxunu sonra böylə yoz: – Ay xan!
Yetişib çox qəribə bir dövrən,
Hamı dönmüş quduz və ac qurda;
Düşəcək qanlı fitnə bu yurda.
Kimsə haqqı, nahaqqı bilməyəcək,
Özgənin haqqını alıb yeyəcək.
Sən ki, xansan, düşün bu dərdə çara,
Düşməsin ölkə, el düyümlü dara.

Elə ki, eşitdi Məmiş su sözü,
Sevincdən heyrətlə açıldı gözü.
Tez qalxıb ayrıldı qoca Tapdıqdan,
Düşündü: “Dərdimə tapmışam dərman.
Həm bəxşiş alaram, daşar dövlətim,
Həm də xalq içində artar hörmətim”.
Dağlardan enərək iti addımla
Məmiş üzün tutdu geniş bir yola.
Uzaqdan çən kimi göründü şəhər.
Məmişin fikrində kim bilir nələr? –
Tələsik şəhərə girdiyi zaman
Gördü ki, dolmuşdur xalq ilə meydan,
Xan kürsü başında ayaqda durmuş,
Xalq isə meydanda boynunu burmuş,
Diqqətlə, heyrətlə xanı dinləyir.
Xan xalqa üzünü tutaraq deyir:
– Bir yuxu görmüşəm, olduqca ağır;
Gördüm ki, göylərdən yerə qurd yağır...
Kim yozsa yuxumu alacaq xələt,
Başından aşacaq onun var, dövlət.
Çıxmadı yuxunu yozan bir nəfər,
Xanın üz-gözünü bürüdü kədər.
Çırpındı Məmişin birdən ürəyi,
Gözündə parladı bütün diləyi,
Yerindən bağırdı: – Xan, yozaram mən.
Yalnız bir şərtim var, ricam var səndən:
Yuxunu, təklikdə gərəkdir yozmaq;
Bir sən ol o yerdə, bir də mən ancaq...
Xan ilə mindilər köhlən atlara,
Yerlərin bağrını hey yara-yara,
Uçdular... qarşıda göründü saray.
Qapıda əsgərlər vurmuşdu alay.
Saraya çatınca endilər atdan,
Girdilər bir bağa, yaşıldı hər yan.
Gül-gülü çağırır, bülbül bülbülü,
Görsə bu büsatı dirilər ölü.
Qərənfil qolunu açmış nərgisə,

Bağçada bülbüllər vermiş səs-səsə.
Sularda yuyunur yaşılbaş sona,
Onlara keşikçi kəsilmiş durna.
Hər yandan açılmış yaşıl xiyaban.
Yanından çay axır, şırıltısından
Partlayır qönçənin incə ürəyi,
Köməyə çağırır o kəpənəyi.
Çiçəklər sığınır incə yarpağa,
Sərinlik yayılır bu gözəl bağa.
Məmiş bu lövhəni görüncə daldı,
Heyrətdən ağzı da açıla qaldı.
Xan dedi: – Durma sən, güclüdür dərdim,
Bilsən bu yuxudan mən nələr dərdim?!
Gecələr gözümə girməyir yuxu,
Qəlbimə soxulmuş həyəcan, qorxu!
Yoz görüm, bu qurdun mənası nədir?
Andıqca, vücudum zağ-zağ titrəyir.
Məmiş tez dönərək baxdı sol, sağa.
Göz dikdi qarşıda ucalan dağa,
Dedi: – Xan, bu yuxun doğru yuxudur,
Gələcək məni də yaman qorxudur.
Dəyişmiş insanlar, dəyişmiş zaman,
Ac qurda dönmüşdür bir para insan.
Əlinə zor ilə keçirir sərvət,
Talayır, gücsüzdə qalmayır taqət.
Haqq, nahaqq tanımaz bir para insan,
Yetişmiş yuxuda gördüyün dövran.
İndidən bir çarə düşün sən buna.
Məmişin sözləri xoş gəldi xana.
Adını, sanını, kəndini sordu,
Dağıldı kədəri, yerindən durdu,
Məmişə verdi bir at ilə xələt,
Yedirtdi, içirtdi, göstərdi hörmət.
Bir kisə qızıl da uzatdı ona,
Dedi: – Al, götür, get, dua et xana.
Xələti geyindi, sıçradı ata,
Atıldı Məmiş bir başqa həyata.

Atının ayağı dəymirdi yerə,
Oradan çaparaq gəldi şəhərə.
Qiymətli bəxşişlər aldı evinə.
Sevinclər içində döndü kəndinə.
Dərədən keçərkən Tapdığı andı,
Tamahkar gözləri məşəl tək yandı,
Dedi: "Bu Tapdıq da dərd oldu mənə.
Mən qızıl qazandım, bundan ona nə?..
Taleyim günlərdən bir gündür seçmiş,
Əlimə bir kisə qızıldır keçmiş;
Üstümə qurd deyil, od yağsa, yenə
Qızıldan verməréem bu kənd əhlinə".
Dərədən ötüşdü. Tapdıq görmədən,
Kəndinə çatınca, oldu üzü şən.
Kəndə tez səs düşdü: "Ac, yoxsul Məmiş,
Şəhərdən başqa bir büsatla gəlmiş.
Xan ona göstərmiş hörmət və şəfqət,
Həm qızıl vermişdir, həm at, həm xələt".
Varlandı, Məmişin iti uladı,
Döndü bir ac qurda xalqı daladı.

**IV**

Bir neçə il keçdi bundan,
Yenə gördü xan yuxu.
Qalxdı sərsəm tək yuxudan,
Qəlbinə girdi qorxu.

Car çəkdirdi küçələrdə,
Xəbər getdi Məmişə.
Xalq yenidən düşdü dərdə,
Heyrət etdi bu işə.

Köhlən at mindi Məmiş,
Şəhər deyə yol aldı.
Dedi: "Yaman oldu bu iş,
Ağ günüm nə qaraldı!

Məmiş hara, yuxu hara?
Bunu bilməz bir insan!
Yaman gündə düşdüm dara,
Yozmasam, öldürər xan.

Tapdığı da küsdürdüm, bax,
Boş yerə mən özümdən.
Vəd eylədim vermədim haqq,
Döndüm mən öz sözümdən.

O da mənə oldu düşmən,
Daha yozmaz yuxunu.
Qorxusundan ölsəydi xan,
Atardım bu qorxunu".

Bu fikirlə çapdı atı,
Endi sulu dərəyə...
Qırıldı sanki qanadı,
Tapdıq görməsin deyə,

Sovuşub getmək istərkən,
Tapdıq onu çağırdı:
– Görüşməmiş bu dərədən
Keçmə! – deyə bağırdı.

Məmiş atı tez qaytardı,
Salam verdi Tapdığa.
Onu acı duyğu sardı,
Əl atdı bir budağa.

Tapdıq ona: – Qırma! – dedi. –
Qırmaq zalım işidir.
Hər kim qansız çörək yedi.
Bax, o, igid kişidir!

Yolçulardan eşitdim mən
Yenə yuxu görmüş xan.
Görmüş qılınc yağır göydən.
Almış onu həyəcan.

Get yuxunu böylə yoz: xan,
Bu bir dövrandır keçər;
Yetişmiş öylə bir zaman,
İnsanlar insan biçər.

Düşər vəhşi heyvan kimi
Bir-birinin canına;
Hamı bir ac pələng kimi
Susar insan qanına.

Sən ki, xansan, düşün çara,
Bir tədbir gör indidən.
Ta düşməsin ellər dara,
Bu xüsusda düşün sən.

Xan nə versə sənə, ancaq
Yarısını ver elə.
Öz sözündən dönmə, qoçaq,
Haydı get, gülə-gülə!

Məmiş şərtə razı oldu,
Şəhərə getdi yenə;
Qəlbi sevinc ilə doldu,
Məhmiz vurdu köhlənə.

Qoca köhlən coşub daşır
Dərələrdən sel kimi,
Köpüklənir, uçur, aşır
Təpələrdən yel kimi.

Sanki yeldən qanad almış,
Uçub, batıb qan-tərə.
Günortaya bir az qalmış
Çatdı haman şəhərə.

Məmiş gördü, dolmuş meydan,
Xalq dəymiş bir-birinə.
Durmuş taxtın üstündə xan,
Yuxu söyləyir yenə.

Hamı dəydi bir-birinə
Ki, bu yaman yuxudur.
Çıxmadı bir yozan yenə.
Xan fikirdən qan udur.

Məmiş çatdı tez haraya...
Köhlən atı mindilər.
Çatdılar onlar saraya,
Orda atdan endilər.

Tapdığın dediyi kimi
Məmiş yozdu yuxunu.
Xan sevindi, nəşələndi.
Bürüdü şadlıq onu.

Xan əmr etdi, Məmiş bəyə
Gətirdilər pay, xələt.
Bir qılınc asdı boynuna,
Bir kənd etdi mərhəmət.

– Bu da xərclik olsun, hələ...
Qızıl verdi bir çuval.
– Apar kənddə bol-bol xərclə,
Sənə halaldır, halal.

Xələtini tez geyindi,
Qılınc asdı belinə.
Məmiş qızıla sevindi,
Üz qoydu öz evinə.

Qoca köhlən xırda-xırda
Yorğalayıb coşurdu;
Eniş-yoxuşlu yollarda
Dərə, təpə aşırdı.

Qarşısına çıxdı dərə,
Tapdıq düşdü yadına.
Duman çökdü o gözlərə,
Məhmiz vurdu atına,

Dedi: "Məndən nə istəyir,
Görüm, yox olsun onu!
Qızıldır bu, deyil dəmir,
Necə verim mən bunu?

Görməməkçin onu bir də
Birdəfəlik öldürüm.
Məmiş dözməz belə dərdə.
Nə istəyir, bir görüm?.."

Qılıncını çəkdi qından,
Sürdü atı irəli.
Tapdıq çıxdı daxmasından,
Döndü geri şübhəli.

Məmiş atı bərk çaparaq,
Aldı onun üstünü.
Bağırdı: – Ey, qoca axmaq!
Çatmış ömrün son günü...

Tapdıq geri dönər-dönməz
Məmiş qılınc endirdi.
Tapdıq ufuldadı, dinməz
Qaçdı daxmaya girdi.

Qılınc onun ayağında
Açdı dərin bir yara.
Məmiş döndü ovlağına
Yolları yara-yara.

Bu at, sərvət, bəylik, xələt
Dəyişdirdi Məmişi.
Bu ehtişam, bu rəyasət
Unutdurdu keçmişi.

Varlandıqca bu görməmiş
Qan yağdırdı ölkəyə.
İndi o, bir xan kəsilmiş,
Xalq dönmüş bir kölgəyə.

Kəsir, biçir o, xan kimi,
Yoxsulları talayır.
Bir yırtıcı heyvan kimi
Gözü qandan doymayır.

Hər gün yeni qara xəbər
Gəldi azğın Məmişdən.
Tapdığa üz verdi kədər,
Qeyzə gəldi bu işdən.

Dedi: "Elim gücsüz deyil,
Mən də onun oğluyam.
Qoca qəlbim öcsüz deyil,
Yanar od, daşqın suyam!

O ki vurur xalqa yara.
Elə bir dağ çəkərəm.
Dərdinə heç tapmaz çara,
Dik başını əyərəm!"

## V

Keçdi il, keçdi ay,
Atladı zaman.
Mürgülərkən saray,
Yuxu gördü xan.

Gördü ki, göylərdən
Qoyundur yağır,
Bir qadın çox şən-şən
Onları sağır.

Ayıldı yuxudan,
Gördü səhərdir,
Çəkilir çən, duman,
Xoruz ban verir.

Qaniçən hiyləgər
Düşdü təşvişə,
Bağırdı: – Tez xəbər
Getsin Məmişə...

Çəkdirdi yenə car,
Bildirdi işi.
Çıxmadı bəxtiyar
Yozan bir kişi.

Çatınca Məmişə
Bu yeni xəbər,
Düşdü çox təşvişə,
Onu basdı tər.

“Oyanıb hər gecə
Görəcək yuxu,
Nəşəyə, sevincə
Qatacaq qorxu.

Yozmasam hörmətim,
Başım gedəcək;
Dövlətim, şöhrətim,
Aşım gedəcək.

Bir Tapdıq bu işə
Edərdi çara.
Əl tutmaz Məmişə
Düşsə də dara".

Yenə də o köhlən
Kükrəyib coşdu,
Dərədən, təpədən
Sel təki aşdı.

Dərəni keçəndə
Ata bağırdı.
Bu dəfə də Tapdıq
Onu çağırdı.

Od düşdü canına,
Qaytardı atı.
Qırıldı, yanına
Düşdü qanadı.

Tapdığa yanaşdı
Qəlbində nələr!..
İçində qaynaşdı
Sıxıntı, kədər.

Axsaya-axsaya
Qoca yan aldı.
Məmişə bu dünya,
Söz yox, daraldı.

Onunla üz-üzə
Gəlincə Tapdıq,
Başladı tez sözə,
Dedi: " – Mən artıq

Almışam ki, xəbər
Yuxu görmüş xan,
Çılğın tək bu səhər
Qalxmış yuxudan.

Görmüşdür, göylərdən
Qoyundur yağır,
Bir qadın çox şən-şən
Onları sağır.

Gedib sən şəhərə
Yoz bu yuxunu,
Eldən sən bir kərə
Qaldır qorxunu.

Xana get sən anlat
Gələr bir zaman,
Dəyişər bu həyat,
Dəyişər dövran.

İnsanlar həm sakit
Qoyuna dönər,
Dincələr həm mühit,
Haqsızlıq sönər...

Nə versə xan sənə
Mənimlə bölüş.
Haydı, get yoluna,
Dönərkən, görüş".

"Hey" – vurdu köhlənə,
Yelə döndü at.
Açdı yolda yenə
Məmiş bəy qanad.

Az getdi, üz getdi,
Aşdı dağ, dərə.
Çölləri düz getdi,
Çatdı şəhərə.

Gördü el toplanmış,
Qaynaşır meydan.
Taxtında dayanmış,
Yuxu söylər xan...

Dəydi bir-birinə,
Meydan çaxnaşdı.
Xalqın dərdi yenə
Başından aşdı.

Bir nəfər çıxmadı
Yuxunu yozan.
Məmişi aradı
Gözilə Qurd xan.

Uzaqdan görüncə
Birdən bağırdı.
“ – Gəl!” – deyib, sevincək
Onu çağırdı.

Xan dedi: “ – Sınanmış,
Bilikli Məmiş!
Qəlbimi dərd almış,
Xəzanım gəlmiş.

Tez ol yoz, üzümdən
Çəkilsin çənlər.
Qızarmış gözümdən
Uçsun bu kədər”.

Xan ilə mindilər
Köhlən atlara,
Yerlərin bağrını
Hey yara-yara

Uçdular... Qarşıda
Göründü saray,
Qapıda əsgərlər
Vurmuşdu alay.

Saraya çatınca
Endilər atdan,
Girdilər bağçaya,
Yaşıldı hər yan...

Əvvəlcə duruxdu
Məmiş, bircə an
Baxdı ətrafına
Söylədi: “ – Ey xan,

Gələcək bir zaman,
Güləcək həyat,
Dəyişəcək dövran,
Gərdiş, kainat.

İnsanlar dönəcək
Sakit qoyuna,
Məmnun olacaqsan
Sən bu oyuna”.

Xanı razı saldı
Yenə də Məmiş,
Faydasız olmadı
Bu söz, bu gəliş.

Bir kisə qızıl da
Xan verdi ona.
Söylədi: “Al bunu,
Dua et xana”.

Baxşışı aldı, şən
Mindi köhlənə...
Dərədən keçərkən
Saraldı yenə.

Düşündü: “ – Dünyanın
Üzü qaradır.
Bu namərd dövranın
Yolu haradır?

O gün ki, elimdən
Ayrıldım artıq,
Hər yerdə əlimdən
Yapışdı Tapdıq.

Çatdırdı tükənməz
Vara, dövlətə.
Çatdırdı həm sönməz
Ada, hörmətə.

Yedim haqqını mən,
Həm vurdum yara.
Bu kirli əməldən
Üzümdür qara”.

Düşünüb beləcə
“Ədalət” – deyə
Məmiş bəy üz tutdu
Güllü dərəyə.

Tapdığın hörmətlə
Keyfini sordu.
Önündə şəfqətlə
Boynunu burdu.

Söylədi: “ – Düşərkən
Elə ki dərdə,
Dadıma çatdın sən
A Tapdıq dədə.

Haqqını yedim mən,
Həm açdım yara,
Bu çirkin əməldən
Üzümdür qara.

Al bunu bir yolluq
Verirəm sənə.
Öz varım, o bolluq
Yetişər mənə.

Bağışla, ay dədə
Haqsızlıq yapdım.
Cavandım, bu yerdə
Yolumdan sapdım.

**VI**

Baxdı ona gülərək
Tapdıq dedi: – Ay oğul,
Mənə qızıl nə gərək.
Sənin olsun, çox sağ ol!

Mən zamanın hökmünü
Öyrənmək istəyirdim.
Hər zamanın gününü
Bir sınayım deyirdim.

Doğru çıxdı sınağım,
Aldanmadım bu işdə.
Hər bir dövrü dimağım
Sınadı sən Məmişdə.

Uyurdun hər zamana,
Versəydi hər nə buyruq.
Baş əyirdin dövrana,
O baş idi, sən quyruq.

Qurd ilində bir qurda
Dönüb haqqımı yedin.
Yağı kəsildin yurda,
"Mal yeyənindir" – dedin.

Qılınc ilində kəsdin,
Doğradın bu ölkəni.
Acı yel kimi əsdin.
Yaraladın həm məni.

İndi qoyun ilidir.
Dönmüşsən bir qoyuna.
Bu dil qoyun dilidir,
Sən də girdin bu dona.

Bu qanundur, ay oğul.
Zaman hökmünü işlər.
Unutma, məhkum, yoxsul
Xalq da fürsəti gözlər.

Yozulmasaydı yuxu
Qorxdum qəzəblənsin xan.
Düşsün canına qorxu,
Xalqa verdirsin ziyan.

Ona görə yozdum mən
Xan gördüyü yuxunu.
Yoxsa xan kim, sən kimsən?
Xalqımçın etdim bunu.

Get, xor baxma elimə,
Elim gücsüz deyildir.
Məmişlərə, xanlara
Bil ki, öcsüz deyildir.

Elin öcu yamandır.
Qızdımı, qızar, sönməz!
El intiqam alandır,
Ölər, yolundan dönməz!

## VII

Yurdumun vüqarlı qoca Tapdığı,
Dövranın içirdi sənə çox ağı.
Çalışdın, çarpışdın, çatmadı gücün.
Zalımı susdura bilmədi öcun.
Gömüldü torpağa zəkan, hünərin,
Qalmadı torpağa zəkan, hünərin,
Qalmadı yurdunda bircə əsərin.
Öyrəndim adını mən bir nağıldan.
Bağladım adına kiçik bir dastan.
Tanısın hər yerdə həm dost, həm yağı,
Zəkalı, sınaqlı qoca Tapdığı...
Fəqət o zamandan əsrlər keçmiş.
Tarixim çox parlaq bir zaman seçmiş.
Dəyişmiş cəmiyyət, dəyişmiş büsat.
Yerində qurulmuş başqa kainat.
Qalmamış qılınc, qurd dövründən əsər,
O qoyun əsrindən verən yox xəbər.
Kəndlinin, fəhlənin əlində hər iş,
Nə bəydən qorxu var, nə xandan təşviş.
Zülümdən dərəyə sığınan Tapdıq,
Bu dövrü, bu əsri görmədi yazıq!..
Baxdıqca bu yeni gün görmüş elə,
Baxdıqca bağçamda açan hər gülə,
Sənətim, ilhamım açır qol-qanad,
Önümdə parlayır gələcək həyat!

*1936*

# OVÇU MƏSTAN

Deyirlər, bir Məstan varmış,
Aslan da ondan qorxarmış.
Bir toppuzmuş hər pəncəsi,
Poladdanmış qoç gövdəsi,
Gözləri odlu şimşəkdi;
Qəlbi qara daşdan bərkdi.
Dişləri neştərdən iti,
Baltadan, xəncərdən iti.
Bilirdi ki, var qüvvəti,
İstədi artsın şöhrəti.
Pişiklərə ovçu Məstan
Özünü elan etdi xan.

* * *

Məstan xan acmışdı yenə,
Düşdü bir gün ov fikrinə.
Bığlarını bura-bura,
Toz-torpağı yara-yara,
Düşdü çaxır anbarına.
Diqqətlə baxdı hər yana.
Bir küp yanında, tələsik,
Tez gizlənib çəkdi keşik.
Çox keçmədi yuvasından
Atıldı bir zorba siçan.
Doyunca içdi çaxırı,
Açıldı birdən paxırı,
Dedi: “Kimdir ovçu Məstan?
Mənim qorxum yoxdur ondan!
İndi düşsəydi əlimə,
Keçirərdim çəngəlimə
Əzib suyun çıxardardım,
Cəmdəyini parçalardım.
Düşmən görərdi gücümü,
Ondan alardım öcümü”.

Məstan pəncəsini atdı,
Dişlərini qıcırdatdı,
Dərhal tutdu o siçanı,
Az qaldı ki, çıxsın canı.
Siçan durdu yalvarmağa:
“ – Rəhm et mənə, Məstan ağa!
Bir az şərab içdim, düzü,
Ağla sığmaz sərxoş sözü.
Hər nə dedim, tamam yalan,
Bağışla, keç günahımdan!– ”
Myoldayıb dedi Məstan:
“ – Kim əl çəkər belə ovdan?”
Sonra caynağında tutdu,
Dişiylə çeynəyib uddu,
“Myo-myo” edə-edə
Ox tək atıldı həyətə.

* * *

Onu görüncə boz köpək,
Gözlərində çaxdı şimşək.
Hürə-hürə saldı şivən,
Atıldı üstünə birdən.
Əldən verməyib fürsəti,
Məstan cırmaqladı iti.
Sonra da cəld qaça-qaça,
Tez dırmaşdı bir ağaca.
İt şöngədi quru yerdə,
Acığından düşdü dərdə.
Gözünü dikdi Məstana,
Bərkdən hürdü yana-yana.
Üst budaqda Məstan isə
Güldü bu yanıqlı səsə.
Birdən gördü ovçu Məstan,
Göydə qanad çalır tərlan.
Hazırlaşır cumsun ona,
Keçirsin öz caynağına.
Qorxu çökdü ürəyinə,

Elə bil ki, bir top iynə
Birdən gözlərinə batdı.
Cəld özünü yerə atdı.
Elə ki o qalxdı yerdən,
İt üstünü aldı birdən;
Məstana bir pəncə atdı.
Düşmədi Məstan xan dara,
Ox tək atıldı anbara.
Düşdü yenə ov izinə.
Ancaq şimşəkli gözünə
Daha dəymədi bir siçan.
Acıqlandı ovçu Məstan,
Dedi: "Nə qədər ki sağam,
Siçanları qıracağam..."
Söylərkən bu sözü Məstan,
Yuvada bir qoca siçan,
(Qocalmışdı; bir az kardı,
Pişikdən də çox qorxardı)
Tərsinə anladı sözü,
Şadlıqdan parladı gözü.
Toz-torpağı yara-yara,
Xəbər verdi siçanlara:
" – Müjdə gətirmişəm, Məstan
Tökməyəcək bir daha qan.
Dedi: "Nə qədər ki sağam,
Siçanları qırmayacam."
Öz işindən peşimandır;
İndi dostumuz Məstandır".
Siçanlar çox sevindilər,
Gözlərindən uçdu kədər.
Quruldu şadlıq məclisi,
Gurladı musiqi səsi.
Səsləndi dəf, kamança, tar,
Əl qaldırıb oynadılar.
Dəf götürüb oxuyan kim,
Tar çalan kim, oynayan kim.
Bağırdı bir siçan: " – Gərək

Bu dostluğu möhkəmlədək!
Ürəkdən dost olduq, deyə,
Xonça tutaq Məstan bəyə".
Hamı razı oldu buna;
Xonça düzüldü yan-yana.
Bişirdilər plov, dolma,
Bozbaş, xəngəl və qovurma.
Alma, armud, şaftalı, nar
Çini qablara qoydular.
Qalxdı yerdən yeddi siçan,
Yeddi igid zor pəhlivan,
Hər birisi bir xonçanı
Qaldırıb qoydu başına.
Bu ləzzətli xonçalarla
Yeddi siçan düşdü yola.
Az getdilər, üz getdilər,
Dərə-təpə, düz getdilər.
Yetişdilər: " – Salam!" – deyə
Baş əydilər Məstan bəyə,
Məstan bəyi heyrət aldı,
Bu işlərə o, mat qaldı.
Dedi: "Neçə gündür acdım,
Bir parça ətə möhtacdım.
Ovum ayağiylə gəlmiş,
Hardandır bu xeyirli iş?!"
Məstan atdı pəncəsini,
İri, zorba gövdəsini,
Beş siçanı tutdu birdən,
Ötürdü tez, oldu çox şən.
Qaçdı ancaq iki siçan,
Gözü yaşlı, ürəyi qan.

* * *

Əhvalatı o elçilər,
Siçanlara verdi xəbər.
Hamı batdı qəmli yasa,
Qan uddular kasa-kasa.

Ağlaşdılar üç gün tamam,
Yas tutdular səhər, axşam
Ürəkləri yana-yana.
Gəldilər xan sarayına.
Öz taxtında Kəsəyən xan,
Ətrafında əyan
Əyləşib bütün söhbət edərkən
Bir dəstə siçan, kəsəyən
Gəlib ona baş endirdi,
Ağlaya-ağlaya dedi:
“ – Sənə qurban, Kəsəyən xan,
Bizi qırır ovçu Məstan”.
Bu xəbəri eşitcək xan,
Kəlləsinə sıçradı qan,
Əmr elədi: “ – Hər ölkədən
Gəlsin siçan və kəsəyən!
Tülkü və qurd padşahından
Aldı qılınc, süngü, qalxan.
Toplandı bir böyük ordu,
Xan çölündə alay vurdu.
Əmr verdi: “ – Tez yürüşə,
Məstan xan ilə döyüşə!”

* * *

Məstan xana çatdı xəbər,
Tez topladı üç yüz əsgər.
Hər əsgərə yaraq verdi,
İti yeldən ayaq verdi.
Göyə qalxdı tozlu torpaq,
Dumanladı yaxın-uzaq.
Kəsəyən xan durbin taxdı,
O, tozlu yollara baxdı.
Gördü hücum edir Məstan,
Nərə çəkir acığından.
Bildi işdən tutmuş xəbər,
Toplamışdır çoxlu əsgər,
Gəlir onunla döyüşə;

Kəsəyən düşdü təşvişə.
Xəndək qazdırdı hər yerdə,
Üstünə çəkdirdi pərdə.
Qoşun ilə tutdu yolu,
Möhkəmlətdi sağı, solu.
Gəmini çəkdi körfəzə,
Özü çəkildi mərkəzə.
Təyyarələr göy üzündə,
Uçur geniş çöl düzündə.
Piyada girdi səngərə;
Əmr etdi atlı əsgərə,
Düzülsünlər iki yandan.
Yanında bir çox pəhlivan,
Ortalıqda özü durdu,
İgidlərlə meydan qurdu.
Ordusuyla çatdı Məstan.
Təbil çalındı hər yandan.
Əmr verildi əsgərə,
Atəş açsın birdən-birə.
Guruldadı ağır toplar,
Səs-küy saldı pulemyotlar.
Hər yandan yaylım atəşi,
Tüstü qaraltdı günəşi,
Gəmilər ağzını açdı,
Dənizdən od-alov saçdı.
Ordular gəldi üz-üzə
Tökülən qan çıxdı dizə.
Tutulurdu səsdən qulaq,
İnləyirdi yaxın, uzaq,
Uzun sürdü qanlı savaş,
Dilə gəldi dağ, dərə, daş.
Günəş bağlı, axşam oldu,
Vuruşanlar lap yoruldu.
Tələfatı bilmək üçün,
Bir az da dincəlmək üçün
Hər iki düşmən əsgəri
Xeyli çəkildilər geri.

* * *

Pişiklər: "Biz acıq", – deyə
Dağıldılar çöl, meşəyə.
Quşlara tutdular divan,
Qoymadılar onlarda can.
Quşlar düşərək təşvişə,
Qan ağlayırdı bu işə.
Ac siçanlar, kəsəyənlər
Tarlalara vurdu zərər.
Sünbülləri dişlərilə
Qırıb tökdü şələ-şələ.
Kor qoydular tarlaları;
Çəltik, arpa, buğda, darı
Səpələnirdi torpağa.
Ziyançılar tıxa-tıxa
Qoymadı bir dənli sünbül.
Qana döndü görən könül.
Onlar doyub çəkildilər,
Yatmaq üçün əkildilər.

* * *

Dan ağardı, güldü səhər.
Güldü çaylar, çöl, çəmənlər.
Hər bir yorğun-arğın yatan
Baş qaldırdı tez yuxudan.
At oynatdı, açdı meydan,
Aldı: süngü, qılınc, qalxan.
Bomba, qurşun yerdən-göydən
Dolu kimi yağdı birdən.
Cəmdək söykəndi cəmdəyə,
Fəryad, şivan qalxdı göyə.
Başladı bir qanlı savaş;
Daş üstündə qalmadı daş.
Yerdən, göydən vəzni ağır
Güllə, qurşun, bomba yağır.
Sönmüşdü hər yerdə həyat,

Açılmışdı qanlı büsat.
Məstan xan göstərdi hünər;
Əldən düşüb kəsəyənlər,
Əsdi yarpaq tək qorxudan.
Bunu duyub ovçu Məstan,
Atı sürdü tez irəli,
Ürəkləndirdi əsgəri.
Bir nərə çəkdi meydanda,
Can qalmadı Siçan xanda,
Düşmən geri çəkilərkən,
Əlli ovçu, Məstan birdən
Düşdü dərin bir xəndəyə.
Kəsəyən xan: – Zəfər! – deyə,
Çaldırdı şənlik borusu.
Ürəkləndi xan ordusu.
Tutdu dərhal sağı, solu,
Bağlandı düşmənin yolu.
Siçanların üzü güldü,
Muncuq kimi gözü güldü.
Məstan xan tez çəkdi nərə,
Hay vurdu dərhal əsgərə:
" – Yerinizdə möhkəm durun!
Hər yandan düşməni vurun!
Qalmasın onlardan əsər!
Gərək bizim olsun zəfər!"
Yenidən başlandı savaş.
Bədənlərdə qalmadı baş.
Cəmdək söykəndi cəmdəyə,
Fəryad, şivən qalxdı göyə.
Yerdən, göydən ağır-ağır
Bomba, qurşun, güllə yağır.
Sönmüşdü hər yerdə həyat.
Açılmışdı qanlı büsat.
Uzun sürdü həmin savaş.
Dilə gəldi: dağ, dərə, daş.
Göy çəmənlər batdı qana,

Ölüm çökdü hər bir yana.
Meşə, tarla alovlanır.
Ətrafı yandırır, yanır.
Yanğın keçir bağ-bostana,
Ordan yayılır hər yana.
Ancaq şəndi boz qarğalar,
Göy üzündə hey qırıldar.
"Yeməyə leş vardır", – deyə
Qonurlar qanlı cəmdəyə.
Bu qan aşiqləri ancaq
Qırıldaşır, atılaraq,
Qonurdular leşdən-leşə,
Şad idilər qanlı işə.
Kəsəyən xan ağayana
Əmr etdi ovçu Məstana.
Qılınc, süngü, daş vurdular,
Əldən salıb lap yordular.
Qollarını kəndir ilə
Bağlayıb atdılar çölə.
Güldü ona bir kəsəyən:
" – Qurtulmazsan əlimizdən!
Çırpınma, dartınma əbəs,
Yerindir bu möhkəm qəfəs".

* * *

Öz ipəkli çadırından
Çıxdı səhər Kəsəyən xan.
Fərman verdi başçılara:
" – Düşmənimiz düşmüş tora.
Qurban verdik bax, nə qədər!
Üstün gəldi bizim əsgər.
Bir qonaqlıq verin çöldə,
Dərd qalmasın könüllərdə".
Bəzəndi çöl, çəmən, dərə,
Açıldı bir geniş süfrə.
Bu süfrədə nələr yoxdur!
Kəsəyən xandan buyruqdur.

Elə ki məclis quruldu,
Süfrə yeməklərlə doldu,
Səs ucaldı: "Çəkil, çəkil!"
Çalındı tez şeypur, təbil.
Başında bir çox pəhlivan
Başa keçdi Kəsəyən xan.
Siçanların üzü güldü,
Qara muncuq gözü güldü.
Ləzzətlə başlandı yemək.
Xan bağırdı: " – Düşmən gərək
Asılsın dar ağacından!"
Səsinə səs verdi hər yan.
Çıxsın, deyə, bu gün canı,
Gətirməyə o Məstanı,
Yüyürdü bir dəstə siçan,
Əllərində qılınc, qalxan.
Məstan əli, qolu bağlı,
Gözü dərdli, qəlbi dağlı
Gəldi süfrə ayağına.
Ürəyinin çırağına
Od düşmüşdü, hey yanardı.
Zor, güc ilə dayanırdı.
Xan içmişdi, sərxoş idi,
Bir az da başı boş idi.
Baxdı ona gülə-gülə,
Sonra lovğa bir tövr ilə:
" – Qollarını açın!" – dedi.
" – Siz yanından qaçın!" – dedi.
Açıldı Məstanın qolu,
Tutuldu hər yandan yolu.
Xan əlində qılınc, qalxan,
Məstana çatdığı zaman
Qılıncı vurmaq istərkən,
Ovçu Məstan qalxdı yerdən.
Ov görmüş bir aslan kimi,
Gözü qızmış qaplan kimi
Myoldayıb, çəkdi nərə,

Atıldı o birdən-birə,
Bir pəncədə boğdu xanı,
Kəsəyənin çıxdı canı.
Siçanlarda qalmadı can,
Qırdı, çatdı ovçu Məstan.
İtilədi tez dişini,
Boğdu birdən on beşini.
Qarşısına kim çıxırdı,
Pəncəsilə tez yıxırdı.
İçlərinə düşdü qorxu,
Daş altına girdi çoxu.
Zor, güc ilə yerdə qalan
Pəncəsindən qurtardı can.
Bəzi girdi dar deşiyə,
Meydan qaldı qoç pişiyə.
Gülə-gülə baxdı dara;
Bığlarını bura-bura,
Keçdi tez yuxarı başa,
Yanaşdı dolmaya, aşa.
Yedi, içdi, sürdü dövran,
Nə qoçaqmış ovçu Məstan!

*1939*

## SEHRLİ ÜZÜK

Zəlzələ bir çuxurdan
Atdı daşı, kəsəyi.
Üzə çıxdı bu zaman
Böyük bir at cəmdəyi.

Bu at qayrılmış misdən,
Üstü çıraq tək yanır:
Günəş işıq səpərkən,
Min bir rəngə boyanır.

Çöldən çoban keçərkən,
Gördü çuxur parıldar.
İçində atdır misdən,
Böyründə bir deşik var.

Oldu bahar kimi şən,
Başdan aşdı sevinci.
Ata baxdı deşikdən,
Gördü oyuqdur içi.

Bu oyuqda bir adam
Yatır illərdən bəri.
Tükü, rəngi, saf-sağlam,
Dəyişməmiş heç yeri.

Yatanın barmağında
Qiymətli bir üzük var.
İşıq düşən çağında
Günəş kimi parıldar.

Heyrət etdi gördüyü
Bu işlərə o çoban.
Çıxardı tez üzüyü
Yatanın barmağından.

Öz ovcuna qoyunca
Diqqətlə baxdı ona.
Xeyli baxıb doyunca,
Taxdı öz barmağına.

Yenə axtardı çoban,
Bir şey tapmadı ancaq.
Ayrıldı o, mis atdan,
Çuxurdan oldu uzaq.

Tez sürüyə yanaşdı,
Səsi basdı çölləri.
Sevinci başdan aşdı,
Gözləyirdi səhəri.

Gecə olmuşdu yarı,
Çoban batmış sevincə.
Sayırdı ulduzları,
Göz yummadı o gecə.

Səhər oldu, dan sökdü,
Günəş qalxdı yuxudan,
Göydən aydınlıq tökdü.
Rəngə büründü hər yan.

Yaydı sürünü çölə,
Od düşmüşdü canına.
Yüyürdü gülə-gülə
Ağasının yanına.

Göstərsin bu üzüyü,
Bilsin nədir qiyməti,
Açsın ona gördüyü
Möcüzədən söhbəti.

Ağa gördü ki, çoban
Gəlir kefi bulaşmış,
Dedi: “ – Yoxsa, ay aman,
Sürüyə qurd daraşmış?”

Tez, qoyundan quzudan
Əvvəlcə tutdu xəbər.
Cavab verirkən çoban,
Sakit oldu bir təhər.

Ağa ilə bu zaman
Şirin söhbət edərkən,
Birdən-birə o çoban
Yox olurdu gözündən.

Sonra yenə bir azdan
Görünürdü gözünə.
Ağa bağırdı: " – Çoban!
Oynama, öz-özünə!

Birdən sən, ey oyunbaz,
Neçin gözdən itirsən?
Yenə keçməyir bir az,
Görünürsən yenidən?

Gözbağlıca oyunu
Oynayırsan mənimlə.
Doğru söylə, sən bunu
Hardan öyrəndin belə?

Hardan sənə bu cadu?
Hardan sənə bu əməl?
Sənə kimdən çatdı bu?
Durma, çoban, söylə, gəl!"

Ağanın dannağından
Dərin heyrətdə qaldı.
Bir az düşündü çoban,
Öz ağlından dərs aldı.

Bildi üzük qaşıdır
Onu gözdən itirən.
Parıldayan daşıdır
Bu istəyə yetirən.

Qaşını göstərəndə
İtir, yox olur gözdən.
Ovcunda gizlədəndə
Çıxır gizli pərdədən.

Eylə ki, tez öyrəndi
Bu gizli sirri çoban.
Bahar kimi şənləndi,
Çöldə etdi imtahan.

Gah otlayan ceyrana
Yanaşıb yan alırdı;
Gah çatırdı aslana,
Birdən tora salırdı.

Bu gördüyü işlərdən
Çoban xeyli coşmuşdu.
Ürəkdən olmuşdu şən,
Üzüyə söz qoşmuşdu;

“Üzüyüm, ay üzüyüm,
Sənə yox tay, üzüyüm!
Mən gözdən tez itir,
Durma, haray, üzüyüm!

Üzüyüm, can üzüyüm
Dərdə dərman üzüyüm!
Məni qoy görsün hamı.
Sənə qurban, üzüyüm!”

Atdı daha dağ-daşı,
Gəldi elin içinə.
Ovcunda üzük qaşı,
Axdı selin içinə.

El qolunu açaraq,
Çobanı qarşıladı.
Xalqa oldu bir dayaq,
Dillərdə gəzdi adı.

Hər məzlumun, yoxsulun
Köməyinə gəlirdi.
Hər yetimin, hər dulun
Göz yaşını silirdi.

Mənəm, mənəm deyənlər
Bağrını etmişdi qan.
Xalqı basıb yeyənlər
Tük salırdı çobandan.

Söylədilər padşaha:
"Elə gəlmiş bir çoban.
– Çoban demə, əjdaha –
Yun qırxır hər aslandan.

Ovcunda bir cadu var,
Görünməyir gözlərə.
Gah gizli, gah aşikar.
Ayaq basar hər yerə.

Zalım görsə hər yerdə,
Vurur onun boynunu.
Çoxunu salmış dərdə,
İşlədir bu oyunu".

Şah eşitdi bu sözü,
Qəlbində qalxdı tufan.
Qığılcım saçdı gözü,
Başına sıçradı qan.

Atlandı o durmadan
Qəlbində kin və kədər.
Başında min pəhlivan,
Beş min də atlı əsgər.

Tutsun, deyə çobanı
Dağlar, dərələr keçdi.
Yolda qarşı çıxanı
O, qanqal kimi biçdi.

Ölkəni basa-basa,
Çatdı böyük bir kəndə.
El batdı dərdə, yasa,
Hər yandan düşdü bəndə.

O kəndi bir halqa tək
Ortaya aldı ordu.
Şahın gözündə şimşək,
Əsgərlərə buyurdu:

“ – Bu kənddir o çobana
Öz qoynunda yer verən.
Gərək boyansın qana
Mənə dirsək göstərən.

Qarışqa da bu gecə
Yol tapmasın qaçmağa.
Səhər şəfəq söküncə
Qoymayın göz açmağa.

Hücum edin dörd yandan,
Od vurun azğın kəndə.
Xalq ilə yansın çoban,
Düşsün odlu kəməndə.

Qoy hiyləgər bu cadu
Qırsın odlu kəməndi.
Qoy söndürsün bu odu,
Qurtarsın xalqı, kəndi”.

Şah çadırda yatmışdı,
Növbə çəkir qarovul.
Kənd matəmə batmışdı,
İnlər ana, qız, oğul.

Hər ürəkdə var qorxu,
Qıvrılır bir ilan tək,
Gözlərə getməz yuxu,
İnlər ilanvuran tək.

Gecə qalxdı o çoban;
Kəndin belə çağında,
Çölə çıxdı bir yandan,
Üzüyü barmağında.

Qılıncı bir əlində,
Bir əlində qalxanı,
O, intiqam çölündə
Əzsin azğın ilanı.

Tez çadıra yanaşdı,
Oyaqdı keşikçilər.
Dedi ki: " – Kimdə vardır,
Məndəki bu güc-hünər?"

"Elim yaşasın", – deyə
Düyümlədi qaşını,
Yanaşdı növbətçiyə,
Vurdu birdən başını.

Qılınc şaqqırtısına
Şah diksinib oyandı.
Adam bağırtısına
Əldə qılınc, dayandı.

Bunu görüncə çoban,
Səbri tükəndi daha,
Əlində qılınc, qalxan,
Birdən göründü şaha.

Şah itirdi özünü,
Mat-mat baxdı çobana,
Qorxu tutdu gözünü,
Rəngi döndü samana.

Bağırdı: " – Ey, sən kimsən,
Necə girdin çadıra?
Qılıncı at əlindən.
Yoxsa vurdum, budur, a!.."

Cavab vermədi çoban.
Kinindən qaynayırdı.
Şaha baxırdı yan-yan,
Qılıncla oynayırdı.

Şahı almışdı qorxu:
“ – Nədir, düşmüş izimə?
Kimdir bu şeytan oğlu,
Ox tək batır gözümə”.

Qılıncını siyirdi,
Əl apardı qalxana.
Birdən-birə yüyürdü,
Hücum etdi çobana.

Qılıncı endirirkən
Birdən yox oldu insan.
Şah diksindi bu işdən,
Bildi, budur o çoban.

Yalvardı o, göylərə,
Baxdı o yan-bu yana.
Gözləri birdən-birə
Sataşdı o çobana.

Qaşlarını çataraq,
Əldə qılınc dururdu.
Kinli-kinli baxaraq,
Tez-tez kirpik vururdu.

Şah düşmüşdü qorxuya.
Ürəyini dərd aldı.
Gözlərində bu dünya
Gecə kimi qaraldı.

Tapmadı başqa çara,
Yenə hücum edərkən,
Göynədi köhnə yara.
Çoban yox oldu gözdən.

Şah batmışdı qan-tərə,
Qorxusundan əsirdi.
Ayaq basıb hər yerə,
Çoban yolu kəsirdi.

Şah bilirdi: bu düşmən
Tökəcəkdir qanını.
Qurtuluş yox qılıncdan.
Alacaqdır canını.

Dedi: " – Aman, tez söylə,
Nə istəyin var sənin?
Gəl dost olaq mənimlə,
Bu taxt, dövlət, var sənin".

Çoban dedi " – Yaramaz.
Çatmış daha əcəlin;
Köhnə düşmən dost olmaz,
Yaman olmuş əməlin.

Sən çox ucuz alırsan
Məhəbbəti, vicdanı.
Xalqıma canım qurban,
Eldən böyük şey hanı!

Vətənimdir, elimdir
Mənim varım, dövlətim.
Bax, bu daşqın selimdir
Qanım, canım, sərvətim.

Sən ölkəmi taladın,
Verdin amansız yelə.
Xalqı qana boyadın,
Rəhm etmədin bu elə.

Mənəm el oğlu çoban,
Çox ulama ey, bayquş!
Xalqımın bağrıdır qan,
Sənə yoxdur qurtuluş!”

Bunu eşidincə şah
Titrədi yarpaq kimi.
Ürəyindən çəkdi ah,
Ağardı zanbaq kimi.

Daha durmadı çoban,
Atıldı birdən-birə.
Vurdu şahın boynundan.
Başını saldı yerə.

El bu işdən şən oldu,
Arzusu gülşən oldu;
Unutdu hər bir dərdi,
Meyvə dərdi, gül dərdi.

*1939*

# NÜŞABƏ

*Mövzusu Nizami Gəncəvinin "Şərəfnamə"*
*poemasından alınmışdır*

Yunanlı Filippin oğlu İsgəndər
Hər yana at sürdü, qazandı zəfər.
Fəth etdi Həbəşi, Hindi, İranı,
Fəth etmək istədi bütün dünyanı.
Oradan üz qoydu Azərbaycana,
Qəhrəman ordunu çəkdi Muğana.
Fatehin ürəyi olduqca şəndi,
Bərdəyə çatınca atından endi.
Tərtər sahilində çadır quruldu.
Hər təpə yanında bayraq vuruldu.
Açdı o, çəməndə şənlik məclisi,
Bülbülə qarışdı xanəndə səsi.
O yerdə başladı istirahətə,
Daldı bir neçə gün eyşə, işrətə.
Xoş olur gül-çiçək çağı ruzigar,
İnsana ruh verir sevimli bahar.
Güllərlə şənlənir hər çəmən, hər bağ.
Hər yaşıl qönçədə yanır yüz çıraq.
Nə qədər gözəldir, şəndir bu Bərdə!
Üstünə çəkilmiş yamyaşıl pərdə.
Meşəsi, çəməni cənnətə bənzər,
O yaşıl ölkəni suvarır Tərtər.
Ucalır kəkliyin, turacın səsi.
Gözəldir söyüdün, sərvin kölgəsi.
Gözəllik yurdudur bu Azərbaycan,
Onda çox xəzinə gizləmiş dövran.
Torpağı silinmiş qəmdən, kədərdən,
Nəğmələr içində dincəlir şən-şən.
Zəngin görəcəksən bu təbiəti,
Vardır aşıb-daşan naz-neməti.
Bu gözəl yerləri dolanıb gəzsən,
Şənlikdən başqa bir əsər görməzsən.

İsgəndər o yerə çəkincə ordu,
Bayraqlar başını göylərə vurdu.
Soruşdu: “ – Kimindir bu xoş seyrəngah?
Belə şən ölkəyə, deyin, kimdir şah?”
Dedilər: “ – Gördüyün bu yer, bu dövlət
Olmuşdur bir gözəl qadına qismət.
Qadındır kişidən ürəkli, qoçaq,
Dəniz incisindən təmiz və parlaq.
Tayı yox ağılda, adda və sanda,
Ölkəni becərir çətin zamanda.
Pərdə arxasında keçirir həyat,
Öz doğma yurdundan verir qol-qanad.
Sarayda ağıllı qadınları var,
Dövlət işlərini aparır onlar.
Mərmərdən şahanə vardır sarayı,
Yoxdur yer üzündə heç onun tayı.
Büllurdan taxtı var, göyə vurur baş.
Üstünə rəngbərəng tökülmüş daş-qaş”.
İsgəndər bu sözə heyrət edərək.
Dedi: “ – Bu cəlalı mən görüm gərək!”
Paltarın dəyişdi, elçiyəm deyə
Nüşabə xatunu getdi görməyə.
İsgəndər sərhədə basınca ayaq,
Keşikçi pəhlivan qadınlar bayaq
Aldılar üstünü: “ – Sən kimsən?” – deyə.
Sonrasa göstərib hörmət elçiyə,
Nüşabə xatuna verdilər xəbər
Ki elçi göndərmiş fateh İsgəndər,
Nüşabə sarayı bəzədi artıq,
O gələn yollara vurdu yaraşıq.
Durdu cərgə-cərgə qadın pəhlivan,
Əlində sıyırma qılınc və qalxan.
Padşahlıq təxtinə oturdu xoşhal,
Əlində ətirli, gözəl portağal,
Əmr etdi: “ – Şahların ayini üzrə
İsgəndər elçisi gəlsin hüzurə!”
İsgəndər saraya basınca ayaq,

Titrətdi onu bu şövkət, təmtəraq.
O gözəl sarayda bir hikmət gördü,
Cənnətdən də gözəl bir cənnət gördü,
Düşündü: “Qadında siyasətə bax!
Qurduğu dövlətə, şan-şövkətə bax!”
O, dövlət, şövkətə oxudu əhsən.
Sonra Nüşabəyə yanaşdı həmən,
Söylədi: “ – Yunanlı böyük İsgəndər,
Salamlar göndərir sizə, ey sərvər!
Deyir ki, nə üçün saymadın məni?
Saymadın ən uca başlar əyəni.
Hörmətcə çox ad, san qazanmış adın.
Nə üçün məni bəs qarşılamadın?
Səndə heç yoxdurmu azca nəzakət?
Qaniçən qılıncdan qorxmadın nədən?
Yoxsa İsgəndəri aciz sandın sən?”
Nüşabə baxınca tanıdı onu,
Bildi bu oynanan gizli oyunu.
Dedi: “ – Ey padşah, eşq olsun sənə!
Elçilik edirsən özün-özünə.
Məni cahil qadın sanma bu qədər,
Gəl yalan söyləmə, sənsən İsgəndər!”
Bu sözdən İsgəndər düşdü qorxuya,
Gördü ki, tutmadı bu rəng, bu boya;
Dedi: “ – Ey şövkətli, böyük hökmran!
İsgəndər deyiləm, elçiyəm ondan.
Mən hara, o fateh İsgəndər hara?
O ovçu qartalı bənzətmə sara”.
Nüşabə gülərək dedi: “ – Mənə bax,
Günəşə palçıqdan vurursan suvaq.
Vəzirə əmr etdi: “ – Mənə bax, Gövhər!
Şahlarla bəzənmiş ipəyi göstər!
Qoy görsün ipəkdə öz surətini,
Biliksiz bir qadın saymasın məni”.
İsgəndər bu işdən düşdü qorxuya,
Düşündü: “Düşmüşəm qəribə toya.
İsgəndər olduğum olsa aşikar,

Bu qadın başıma min oyun açar”.
Şəkilli ipəyi gətirdi Gövhər.
Nüşabə dedi: “ – Ey böyük İsgəndər!
Bunu tut əlində, diqqət ilə bax,
Nədir bu İsgəndər şəkilli bucaq?
Görüb surətini dondu bu işə,
Ay kimi ağardı, düşdü təşvişə:
“Nə üçün oynadım böylə oyunu?”
Nüşabə pərişan görüncə onu,
Dedi: “ – Ey şövkətli, uca tacidar,
Belə bir zamanda çərx oyun açar.
Hörmətim var sənə, qorxma, bunu bil,
Bu ev öz evindir, başqa ev deyil.
Bu şəkli onunçün göstərdim ki, sən
Mənim də şəklimi aydın görəsən.
Kişiyə oxşaram, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az:
Aslanın dişisi, erkəyi olmaz!
Qara, sıx bulud tək coşduğum zaman,
Sudan od saçaram, tüstüdən duman”.
Əmr etdi: “ – Şahanə bir süfrə açın!
Ortaya hər çeşid naz-nemət saçın!”
Bir xonça düzüldü günəşdən parlaq;
İçində dörd büllur kasa qoyaraq,
Biri ləl, o biri qızılla dolmuş,
Biri dürr, birinə yaqut qoyulmuş.
Nüşabə dedi: “ – Ey böyük hökmran.
Yeyin sevdiyiniz bu təamlardan”.
Bu sözə gülərək dedi İsgəndər:
“ – Ölçüsüz danışma, tökməyəsən tər.
Mən ki kor deyiləm, gözlərim görür,
Xonçaya düzülmüş almaz, yaqut, dürr.
Daşı da yeyərmi ağıllı insan?
Bu rəngi təbiət həzm etməz, inan!
Öylə bir yemək ver, mədəmiz dolsun,
Həvəslə ona əl uzatmaq olsun.

Mədəyə yol tapmaz bu qatı daşlar”.
Nüşabə gülərək dedi: “ – Tacidar,
Eləsə, yaramaz bu daşlar üçün
Bu qədər çalışmaq, vuruşmaq neçin?
Çalış bu daşlardan açılsın yollar,
Daşı daş üstünə qoymaq nə yarar”.
Ağıllı qadının bu sözlərindən
Gülərək, söylədi o poladbədən:
“ – Doğru söyləyirsən, bu daş-qaş ilə
Hər sərraf ancaq daş keçirir ələ.
O zaman kəsərli olardı sözün,
Əvvəl bu daş-qaşdan qaçaydın özün.
Xonçanda kasalar daş-qaşla daşır,
Bu töhmət daha çox kimə yaraşır?..
Bununla bərabər diqqət edincə,
Sözlərin yerlidir, doğrudur məncə”.
Nüşabə əmr etdi:” – Gülsün diləklər,
Süfrəyə düzülsün əlvan yeməklər!”
Xidmətçi kənizlər qalxdı ayağa,
Şahanə bir süfrə hazırlamağa.
Müxtəlif yeməklər axdı hər yandan,
Süfrəyə xuruşlar gəldi al-əlvan.
Qızlar ləyaqətlə hünər saçdılar,
Məclisdə başqa bir büsat açdılar.
Onlar məharətlə verdi səs-səsə,
Oxuya-oxuya başladı rəqsə:

– Tərtər çayı, daşırsan,
Sahilləri aşırsan;
Bostanlarda, bağlarda
Bizimlə oynaşırsan.

Tərtər çayı, dalğan ağ,
Suyun gümüşdən parlaq.
Yol sal bizim bağçaya,
Sən çal, biz də oynayaq.

Tərtər çayı, gəl barı
Bizim dəhnəyə sarı.
Aç qoynunu yıxansın
Elin gözəl qızları.

İsgəndər qəlbindən sildi kədəri,
Dedi: " – Ey ölkənin parlaq ülkəri!
Sizin bu diyarın çalğısı, rəqsi,
Xüsusən qızların bu şaqraq səsi
İnsanı başqa bir aləmə atır,
Gözündə, qəlbində fərəh oyadır.
Bilirəm, sizdə bir gözəl adət var,
Bahara, atəşə böyük hörmət var.
Həməl bürcündədir işıqlı günəş;
İzin ver, məclisdə parlasın atəş.
Yeni il gələcək, canlansın şənlik,
Coşsun hər ürəkdə duyğu və mənlik".
Nüşabə bu sözdən olaraq çox şən,
Bəzəkli tovuz tək qalxdı yerindən,
Gözündə atəşli şimşəklər çaxdı,
Şahanə əlilə bir atəş yaxdı.
İsgəndər dedi: " – O parlaq günəşə,
Eşq olsun Nüşabə yaxan atəşə!
Atəşdən yaranmış bütün kainat.
Atəşlə canlanır, nurlanır həyat".
Sarayın qızları verdi səs-səsə,
Oxuya-oxuya başladı rəqsə:

– Bir qırmızı güldü, atəş,
Bir dəstə sünbüldür atəş.
Bağdan dərilmiş lalədir,
İçilməz al piyalədir.
Bir xonçadır al günəşdən.
Həyat gəlir bu atəşdən.
Nə gözəldir şən nəğməsi,
Ruha nəşə verir səsi.

Bitincə oyunlar, gözəl nəğmələr,
Yerindən qalxaraq, dedi İsgəndər:
“ – Çox sağ ol, günümüz xoş keçdi gerçək”.
Nüşabə hörmətlə dedi gülərək:
“ – İxtiyar sizindir, bizdə hər qonaq
Əzizdir, vəzifəm hörmətdir ancaq!”
Qonağı hörmətlə o, yola saldı,
Ölkə bu hörmətdən salamat qaldı.
Ürəkdən dost oldu o, Nüşabəyə,
Utandı düşmən tək qılınc çəkməyə,
Ordunu götürüb, Azərbaycandan
Sülh ilə qayıtdı, tökülmədi qan.

*1946*

# SULTAN SƏNCƏR VƏ QARI

*Mövzusu Nizami Gəncəvinin "Sirlər xəzinəsi"*
*poemasından alınmışdır*

Keçmişdə bir zalım padişah varmış,
Ölkəni zülm ilə çalıb-çaparmış.
Ərşə dayanıbmış elin fəryadı;
Zalım padişahın Səncərmiş adı.
Oğrular, darğalar verib əl-ələ.
Daim zülm edirmiş ölkəyə, elə
O şahın dövründə olan zülümdən
Belə bir rəvayət eşitmişəm mən:
Bir quldur var idi, adı Qaraqaş,
Hər zaman oğruya, əyriyə yoldaş.
Evləri çalardı, çapardı xəlvət:
İş bərkə düşəndə, verərdi rüşvət.
Ölkənin arada qanı gedərdi,
Oğru bildiyini yenə edərdi.

* * *

Qaraqaş bir gecə yarısı gəldi,
Divarı küçədən külünglə dəldi,
Girdi bir kişinin evinə xəlvət,
Gördü evdə hamı yatmışdır rahət.
Ancaq səs eşidib, oyandı kişi;
Qaraqaş gördü ki, xarabdır işi,
Öldürdü kişini, qaçdı tez ordan.
Səs-küyə oyanıb hamı bu zaman,
Dəydi bir-birinə qız, arvad, uşaq...
Köməyə yetişən olmadı ancaq...
Küçəylə qaçanda, darğa, oğrunu
Görərək, səsləyib saxladı onu.
Dedi: " – Ey Qaraqaş, bir dayan görək,
Darğanın payını verəsən gərək!"
Qaraqaş baxaraq o yan-bu yana,

Başından keçəni danışdı ona.
Dedi ki: “ – Bir qana düşdüm bu gecə,
Kişi tez oyandı evə girəndə,
Qorxdum ki, bir xata törətsin sonu,
Vurub bir bıçaqla öldürdüm onu...
Sənlə bölüşmüşəm malı həmişə,
Sən də kömək elə indi bu işə.
Qoy batsın arada ölənin qanı...”
Oğru dilə tutdu acgöz darğanı.
Darğa da bir qədər susaraq durdu,
Əlilə oğrunun çiyninə vurdu,
Dedi: “ – Etdiyindən olma peşiman,
Nə qədər mən varam, etsən hər nə qan,
Kimsə xəbər tutmaz, arxayın ol sən;
De görüm, bəs mənə nə verəcəksən?
Dedi: “ – Mən bu dəfə hər nə gətirsəm,
Sənindir. “ – Eləsə, dostum, çəkmə qəm”.
Qaraqaş ayrıldı dostu darğadan.
Getdi öz evinə, görmədi ziyan.
Darğa da dostunu qurtarsın deyə,
Əl atdı belə bir çirkin hiyləyə:
O yerdə çox düşgün bir qarı vardı,
Yoxsuldu, min zəhmət ilə yaşardı.
Darğa bu qarının evinə gəldi,
Qapını bərk döydü, səsi yüksəldi:
“ – Tez ol, aç qapını həyasız qarı,
O ağ saçlarından bir utan barı!..”
Qarı qorxa-qorxa açdı qapını,
Darğa söz deməyə qoymayıb onu,
Xeyli döydü söydü, dedi: “ – Bilirik,
Sənsən hər oğruya, əyriyə şərik...
Bu gecə qonşunun evinə girən,
Yataqda kişini vurub öldürən
Kim olmuş? De görüm, cavab ver mənə!”
“ – Xəbərim yox, vallah, nə deyim sənə?”
“ – O zalım quldurla olmusan əlbir;

Sənin bu evində tökülmüş tədbir...” –
Deyərək , qarını verdi divana,
İki il saldırdı onu zindana.
Qarı zindanlarda tökürdü qan, yaş;
Çalırdı, çapırdı quldur Qaraqaş.

* * *

İki il keçmişdi aradan; bir gün
Zindandan çıxmışdı o qarı, ölgün,
Yol ilə evinə sarı gedirkən,
Bir səs-küy eşitdi, dönəndə birdən
Gördü ki, çalınır sinclər, təbillər,
Keçir dəbdəbəylə padişah Səncər,
Qarı yol üstündə yerə uzandı,
Şah ona çatanda, bir an dayandı.
Qarı yalvararaq, başladı sözə,
Dedi: “ – Ey padişah, ərzim var sizə...
Bil ki, az görmüşəm səndən mərhəmət.
Mənə ancaq zülüm olmuşdur qismət.
Bir sərxoş evimə soxuldu mənim,
Yumruqdan, təpikdən şişdi bədənim.
Bu ağ saçlarımı o yola-yola
Başıma açdı min fitnə, min bəla.
Soruşdu: “Evində gecə yarısı
Kimi öldürdünüz? Ey şər qarısı!
Evimi axtardı qatiləm deyə,
Acı fəryadımı ucaltdı göyə.
Zülm aşmış həddini, hanı ədalət?
Bir sərxoş hər işə edir cəsarət.
Suçsuz bir qadını döyür, incidir,
Həm də ki, adına qatilsən deyir.
Soyur bu ölkəni günorta çağı,
Seçməyir əyrini, doğrunu, sağı...
Dadıma çatmasan mənim hökmran,
Səni bağışlamaz böyük yaradan”.
Beləcə dərdini söylədi bir-bir

Gözlədi o, şahdan bu işə tədbir...
Şaha xoş gəlmədi onun sözləri,
Qəzəblə parladı qanlı gözləri.
Acıqlı bir səslə bağırdı bar-bar,
Əmr etdi, qarını ordan qovdular.
Çapdı tez atını saraya sarı,
Dalınca nifrətlə səsləndi qarı:
“ – Get, zalım özünə layiqmiş darğan!
Get, zalım, sənə də qalmaz bu dövran!
Taxtın da, tacın da olar tar-mar,
Dünyada ancaq bir pis adın qalar...”

*1947*

## ZALİM PADŞAH VƏ ƏKİNÇİ

O gündən ki, insan oğlu
Bu dünyaya ayaq basmış.
Bəzi tutmuş doğru yolu,
Bəzi o haqq yoldan azmış.

Bəzi xeyrə olmuş yoldaş,
Ayrılmamış əsla ondan.
Yaxşılıqda işlətmiş baş,
Adı dildə olmuş dastan.

Miskinlərə, düşgünlərə,
Ağır gündə dayaq olmuş.
Yaramış hər xeyrə, şərə,
Yamanlıqdan uzaq olmuş.

Bəzisi də şərrə uymuş,
Çapmış, çalmış insanları.
Xalqı yaman günə qoymuş,
Qırmış günahsız canları.

Haqq söyləyən ağızlara
Yumruq, toppuz, qıfıl vurmuş.
Min zillətlə çəkmiş dara,
İnsanlara qan qusdurmuş

Yetimlərin göz yaşıyla
İşlətmiş hər dəyirmanı,
Ah, fəryadın vəl daşıyla,
Göyə sovurmuş xırmanı.

Belə zalım insanları
Az görməmiş qoca dövran.
Hər əsrin öz sənətkarı
Qoşmuş onlara bir dastan.

Öz şəklini görsün onda,
Qan qusduran o zalimlər.
Bilsin, həyat tarlasında
Kim nə əksə, onu biçər.

* * *

Bir zalım padşah varmış,
Kəsmək, qırmaqmış adəti.
Qanla, qılıncla oynarmış
Ac qurd imiş təbiəti.

Onun zülmündən qorxaraq
Xalq olmuşdu quru kölgə.
O yatdığı zaman ancaq,
Dincələrmiş bütün ölkə.

Anasının məməsindən
Əmdiyi süd zəhər imiş.
Uşaq ikən cin səsindən
Qonum, qonşu köçər imiş.

Bu ad, san, şöhrət düşgünü
Sığmaz imiş yerə, göyə.
Qansız keçməz imiş günü,
Dünyada mən varam deyə.

Xain adam qorxaq olur,
Şübhələnər hər bir şeydən
Qəlbinə kin, qəzəb dolur,
Mənliyini düşünürkən.

Ona kim nə desə ondan
İnanarmış sözlərinə.
Haqlı, haqsız tökərmiş qan,
Qan axarmış su yerinə.

Əmrinə baş əyməyəni,
Sağ qoymayıb asdırardı.
Ona qarşı söz deyəni
Diri-diri basdırardı.

Paltarını dəyişərək
Gəzər hər kəndi, şəhəri.
Qurardı min hiylə, kələk,
Bilsin kimdir düşmənləri.

Kimi görsə yana-yana
Padişahdan söz açardı.
"Ürəklər zülmündən qana
Dönmüş", – deyə od saçardı.

Hamı təsdiq edib onu,
Deyərdilər: " – Bu doğrudur!
Olmazmı bu zülmün sonu,
Evlər yıxan yalnız budur!"

Bu sözləri eşidərkən
Dedi: " – Sizdən çəkmərəm əl".
Kin, püskürən qəzəbindən
Qəlbi oldu qanlı məşəl.

Gözlərindən od saçaraq
Bu qudurmuş divə döndü.
Bir səs çıxarmadı ancaq,
O kin ilə evə döndü.

Yatağına girdi gecə,
Qəlbi ocaq kimi yandı.
O sözləri düşündükcə
Təndir kimi alovlandı.

Səhərə qalxdı yatağından,
Fərraşlara verdi əmir.
Düşmənlərim filan-filan,
Hüzuruma gəlsin bir-bir.

Kin püskürən baxışından
Saray dəydi bir-birinə.
Deyirdilər ki, bu xortdan
Zəhərli əqrəbdir yenə.

Taxta çıxıb verdi əmir:
"Saray geyinsin al-əlvan.
Könlüm qan rəngini sevir,
Qandır mənə dövlət quran.

Qansız yaşamaz dövlətim,
Batar qazandığım ad, san.
Sönər bu şan, bu şövkətim,
Ölkə olmuş mənə düşmən".

Quruldu dar ağacları,
Cəllad, fərraş, bir çox əsgər.
Düzüldülər halqavarı,
Əldə kaman, ox və xəncər.

Hazır oldu müqəssirlər,
Görüncə zalim padşah
Kin ilə saldı bir nəzər
Dərindən çəkdi odlu ah.

Dedi: " – Götürün bunları.
Asın acı dillərindən.
Məndən danışmasın barı,
Bəlkə bir az dincəlim mən".

Əli qılınc qəbzəsində
Asılmağa verdi əmir.
Kin inlədi ciyərində,
Onları asdırdı bir-bir.

Kini sönməmişdi yenə;
Gecə yatdı, səhər oldu.
Qəzəb doldu ürəyinə
İlan kimi o qıvrıldı.

Paltarını dəyişərək
Gəzdi yenə kənd, şəhəri.
Qurdu min hiylə, min kələk,
Bilsin kimdir düşmənləri.

Yaz günüydü, göy üzünü
Bürümüşdü sıx buludlar.
Günəş ara bir gözünü
Süzdürürdü xumar-xumar.

Ürəyində kin və fitnə
O padişah gəzə-gəzə,
Yetişdi bir boz çəmənə
Çıxdı ordan quraq düzə.

Gördü altmışlıq bir qoca
Tər tökərək zəhmət çəkir.
Ovcunda bir qədər buğda,
Yeri işlədir, bərkidir.

Zalım yan aldı qocaya
Dedi: “ – Mənə bax, ay kişi.
Bu zəhməti sevməz dünya
Axmaq görər böylə işi.

Bu bir ovuc buğda, söylə, –
Doyurarmı bir insanı?
Bundan bir şey gəlməz ələ,
Kotanın, ya belin hanı?

Kotansız bu boz çöllərə
Toxum səpib, zəhmət çəkmə.
Suyun yoxdursa, boş yerə
Qoca, bu buğdanı əkmə.

Su ilə əkdik torpağı,
Ancaq nə məhsul aldıq biz?!
Zəhmət çəkdik biçin çağı,
Heçə getdi əkdiyimiz.

Göy, xəsis yer ondan betər –
Quraq yerdə toxum yanar.
Bax çatlamış bütün çöllər,
Səni görən axmaq sanar”.

Qoca dedi: “ – Ey sərdarım,
Su, kotana yox ehtiyac.
Barmağım bel, alın tərim
Suyumdur, qalmaram mən ac.

Hər bir toxumdan yüz məhsul
Almaqdayam mən hər zaman.
Dərdim yox, olsam da yoxsul
Nəyə gərək su ya kotan?

Çox zalımdır bu padişah
Nə qədər ki, sağdır, hələ
İldə bir göz yaşı, bu ah
Qoymaz yağış yağsın çölə.

Qənaət eylədim bir az
Gecələri etdik səhər.
Ölüm, zülüm çıxdıq yaza,
Yaşamaq lazım bir təhər.

İllər ağır keçir elə,
Qan ağlayır bütün hər yan.
Dövran on il keçə belə,
Bu ölkədə qalmaz insan".

Bu haqq sözlər o zalimin
Qəlbini nəştər tək dəldi.
Sözlərində acıq və kin
Ac qurd kimi o çöməldi.

Baxdı qocanın üzünə,
Köksünü oynatdı bu ah!
Toxtaq verib öz-özünə
Evə döndü o padişah.

Yolda çatdı bir bulağa,
Hər tərəfi al-əlvan gül.
Yaşıl geymiş hər budağa
Qonmuşdu bir şeyda bülbül.

Bulaq şır-şır axıb gedir,
Şux bülbüllər ötür şən-şən.
Hər baxanı heyran edir
Bu sevimli yaşıl gülşən.

Oturtdu dincəldi bir az,
Hiddətlə baxdı hər yana.
Dedi: " – Göz baxdıqca doymaz.
Ölü ruhum gəldi cana.

Sarayımdan daha şəndir
Təbiətdə gözəlliklər!
Bu nə sevimli gülşəndir
Silindi qəlbimdən kədər".

Bir az içdi sərin sudan
Çiçəklərdən yapdı çələng
Quşlar ağzında bir dastan
Keçmişdən açmışdı söhbət.

Onları bir az dinlədi,
Fərəh doldu ürəyinə.
Birdən dərindən inlədi,
Dörd bir yana baxdı yenə.

O yerlərdə qaldı gözü,
Qəlbi ayrılmayır ordan.
Saralırdı günün üzü
Saraya döndüyü zaman.

Həsrət ilə o yerlərdən
Uzaqlaşdı yavaş-yavaş.
O zalimin qəlbiydi şən
Təbiətə əymişdi baş.

Rahat yatdı o gecəni
Yatağından qalxdı səhər.
Bəzəmişdi pəncərəni
Könül açan al şəfəqlər.

Yedi, içdi qalxdı birdən,
Güvəndi yüksək baxtına.
Ürəyi çarparaq şən-şən
Oturdu qızıl taxtına.

Vəzir, vəkil, bütün əyan
Hüzurunda əl bağladı.
Kin, qüruru coşan zaman
O qocanı xatırladı.

Əmr verdi fərraşlara,
Qocanı tez gətirsinlər.
“ – Ürəyimə açır yara
Acı dilli bu düşmənlər”.

Çox çəkmədi o qocanı
Gətirdilər qolu bağlı.
O zalımın coşdu qanı,
Bağırdı: “ – Ey, miskin dağlı,

Səndə hardandır bu cürət?
Mənə deyirsən qan içən.
Taxtıma etməyir hörmət
Hər it-qurd, hər yoldan keçən”.

Hazır gəlmiş idi qoca
Anlamışdı məsələni.
Onun fikrini duyunca
Geyindi tez ağ kəfəni.

Taxta bir az yaxın gəldi,
Kinli-kinli baxdı ona.
Səsi boru tək yüksəldi,
Dedi qəlbi yana-yana:

“ – Mən demişəm bu sözləri,
Aşıq gördüyünü söylər.
Zalımın qəzəbi, əmri
Haqlı bir yoxsula neylər?

İnsan oğlu həqiqəti
Gərək görə, duya bilsin.
Həqarəti, ədavəti
Yer üzündən yox eyləsin.

Ümman kimi olmaq gərək;
Göl tək coşub-daşmaq olmaz!
Ümmana min çay gələrək
Doldursa, o, coşub-daşmaz.

Naz çəkmək, haqq söz anlamaq
Bil, hər kəsin işi deyil.
Dərya olmaq, bulanmamaq
Zalimə xas sifət deyil!"

Qocanı çəkdilər dara
Ağ kəfənlə; bu qarnı ac
İstəmədi zalımlara
Öləndə də ola möhtac.

# Hekayələr

# MURAD

Tiflis şəhərinin yaxınlığında Kolbasan adlı kənd var idi. Bu kəndin dörd bir yanı bağlıq, meşəlik yerlər idi. Elə ki bahar olurdu, ağaclar çiçəkləyir, təpələr, yamaclar yumşaq ot və çiçəklərlə döşənirdi; rəngbərəng güllərin ətri kəndi bürüyürdü. Səhər-axşam quşların gözəl nəğməsinin arası kəsilmirdi. Bahar çağı bu kənd o qədər gözəl olurdu ki, insan baxmaqdan doymurdu.

Belə tərifini etdiyimiz kənddə Bilqeys və Murad adında bacı-qardaş yaşayırdı. Bilqeys olduqca mehriban və tərbiyəli bir qız idi. Hər gün bağçalarındakı tut ağacının altında palaz salardı; oyuncaq şeylərini də yığıb öz-özünə oynardı. Arabir qonşuları Səltənət də gələrdi. Hər ikisi birlikdə deyər, gülər, oynardılar; otaq bəzəyərdilər, bir-birinə qonaq gedib gələrdilər. Ayaqsayma, gəlin-gəlin oynardılar. Arabir də atası aldığı "Uşaq gözlüyü" kitabının şəkillərinə tamaşa edər və oxuyardılar. Günləri xoş və asudə keçərdi.

Amma Murad heç qapı-bacada tapılmazdı. Səhər evdən çıxar, bir də axşam evə qayıdardı. O gün olmazdı ki, Muradın üstü, başı cırılmış evə qayıtmaya idi. Hər kəslə döyüşər, söyüşərdi. Ona görə də onu heç kəs sevməzdi. Hətta öz ata və anası da Muradı sevməzdi. Onun əlindən bacısı Bilqeysin ki heç rahatlığı yox idi. Onun oyuncaqlarını dağıdar və sındırar, bəzən də özünü döyüb qaçardı. Ona görə Bilqeys qardaşı Muradla heç oynamaz və ondan qorxardı.

Bilqeys mehriban bir qız olduğu üçün, qapılarındakı heyvanları və quşları da çox sevərdi. Heyvanlar və quşlar da əvəzində Bilqeyisi sevərdi və ondan qaçmazdılar. Çox vaxt olurdu ki, bağçada oynadığı zaman Mərmər pişik, Dəmir it, Məstan xoruz, toyuq-cücələr Bilqeysin başına cəm olar və onun əlindəki çörək parçasını alıb yemək istərdilər. Bilqeys isə çörəyi parça-parça edib, bir az Məstan xoruza, bir az toyuq-cücələrə, bir az da it və pişiyə atırdı. Hamısı soxulub yeməyə məşğul olardı. Bilqeys qara, iri gözlərini onlara dikib, baxardı. Bir də görərdi ki, it öz çörəyini yeyib qurtardı. Yavaş-yavaş ağzını pişiyin qismətinə uzadır; pişik də mırıldaya-mırıldaya çalışır ki, ağzındakı çörəyi yeyib qurtarsın; həm də pəncələri ilə yerdə qalan çörəyi bərk-bərk tutub, acıqlı-acıqlı itə baxır, amma it baxmayıb soxulur ki, pişiyin, ya xoruz-toyuğun çörəyini qapıb yesin; bu vaxt xoruz qaqqıldaya-

qaqqıldaya itin üstünə atılırdı; ya da pişik belini qaldırıb, dişlərini itin üstünə qıcayıb mırıldayır və birdən-birə sıçrayıb itin üzünü cırmaqlayardı.

Bilqeys bu tamaşadan doymazdı, gülə-gülə onların davasına baxardı.

Murad isə yoldaşlarını və bacısını incitdiyi kimi, heyvanları da incidərdi. Hələ qapılarındakı Dəmir köpəyə onun əlindən gün və dirilik yox idi. Qapı ağzında uzanıb yatarkən, Murad əlindəki daş ilə itin harasına gəldi vurardı. Yazıq it quyruğunu böyrünə qısıb, vəngildəyə-vəngildəyə qaçar, yainki iri qara ağzını açıb Murada hürərdi. Odur ki, Muradı heç sevməzdi. Onu harada görsə, qaçıb gizlənərdi. Mərmər pişik də Muradı sevməzdi. Onun kölgəsini uzaqdan görəndə, quyruğunu qısıb, tələsik özünü bir yerə soxub gizlənərdi; çünki həmişə Murad onun quyruğundan tutub dartardı. Murad pişiyin arxasınca düşdüyü zaman pişik əvvəlcə qaçar, Muradın ona yaxınlaşdığını görüncə birdən-birə dayanardı, belini dikləyib dişlərini qıcayıb, "puf" – eləyib Muradın üstünə atılardı. Hətta bir neçə dəfə əllərini, üzünü cırmaqlayıb Muradı ağlaya-ağlaya evlərinə göndərmişdi.

Elə ki, axşam olurdu, təpələrdən, yamaclardan naxır mələşə-mələşə kəndə gəlirdi. Murad əlinə çomağını alıb naxırın içinə girərdi, əlindəki çomaqla o inəyin, bu öküzün harası gəldisə vurardı.

Murad bir dəfə bir qara inəyin arxasınca düşdü. İnək axırda təngə gəlib, döndü və Muradı buynuzlarına götürüb, yerə elə çırpdı ki, qurbağa kimi yerə sərildi. Murad tamam bir saat özünə gəlmədi. Ondan sonra Murada və Dəmir köpəyə, nə Mərmər pişiyə, nə də inəklərə yaxın gedə bilmirdi.

Bağçalarındakı yasəmən ağacı altında bir səbət içində toyuqlar yumurtlayırdı. Bir gün Murad bağçada gəzirdi. Çil toyuq yumurtlayıb çıxanda, Murad gördü. Yavaş-yavaş gəlib yumurtaları cibinə doldurdu ki, aparsın. Məstan xoruz bunu uzaqdan görüb, uça-uça Muradın üstünü aldı.

Murad çox qorxmuşdu, bilmirdi ki, nə etsin. Axırda arxasında gizlətdiyi yumurtanı atıb qaçdı, xoruz əl çəkməyib, onun arxasınca düşdü. Muradın ayağı bir ağaca ilişib yıxıldı; cibindəki yumurtalar sındı, cibi və paltarı yumurtaya bulandı.

Murad qorxusundan evə gedə bilmirdi. Çünki paltarları başdan-ayağa yumurta sarısı idi.

Murad bağçada bir alma ağacının altında oturub nə edəcəyini düşünürdü. Gördü ki, Bilqeys bağçaya çıxdı, "Məstan, Məstan!" deyə bağırdı. Bağçanın o iri başından xoruz uça-uça gəldi. Bilqeys xoruzun başına bir papaq tikmişdi.

Mehriban qız o balaca əllər ilə xoruzun papağını başına qoydu, lent ilə bağladı, sonra şirin dil ilə dedi ki:

– Məstan xoruzum, ceyran xoruzum, gör sənə nə gözəl papaq tikmişəm!

Deyəsən ki, xoruz da Bilqeyisin mehriban dilini anlayırdı; gözlərini Bilqeysin üzünə dikib, dinməz-söyləməz dururdu. Bilqeysin qəlbinə dəymək istəmirdi; Çünki Bilqeys onları çox sevirdi. Hətta sarı toyuq da cücələri ilə Bilqeysin Məstan xoruza bağışladığı papağa diqqətlə baxırdı. Bilqeys çox şad idi.

Murad gördü ki, xoruzun başı Bilqeyslə məşğuldur, cəld qaçıb yenə də yasəmən ağacının altına getdi, qorxa-qorxa ətrafa baxdı ki, görsün bir kimsə varmı. Heç kəsi görmədi, yavaşca gəldi, yumurta səbətini arxasına aldı ki, qalxıb getsin.

Yaxında qazlar otlayırmış, Murad isə onları görməmişdi. Yumurtalarını səbətlə oğurlayıb, aparmaq istədiyini görən qazlar birdən-birə hər tərəfdən Muradın yolunu kəsdilər. Murad heç bilmədi ki, qorxusundan nə etsin; çünki qazların hər biri Muradı bir tərəfə çəkirdi; xüsusən anaş qazdan çox qorxmuşdu; çünki o çox acıqlı idi. Qorxurdu ki, sıçrayıb gözlərini çıxarsın. Axırda arxasından səbəti ağzı üstə yerə atdı, yumurtaların hamısı sındı.

Murad bu dəfə əvvəlkindən də çox qorxmuşdu. Yenə alma ağacının altında oturdu. Çox qəmgin idi. Fikir edirdi ki, evə getsə, anası onu döyər; çünki həm paltarı yumurtaya batmışdı, həm də səbətdəki yumurtaları sındırmışdı.

Murad bu fikirləri eləyirdi, bir də gördü ki, Bilqeys əlində "Uşaq gözlüyü" əlifba kitabçası bağçaya çıxdı. Məstan xoruz, sarı toyuq və cücələri Bilqeysin ətrafını aldı. Bilqeys oturdu, kitabını açdı, sarı toyuğun başına əl çəkib dedi ki:

– Gözəl toyuğum! Gəl sənə bu şəkilli kitabdan dərs verim, yaxşı?..

Sarı toyuq bir Bilqeysin üzünə baxdı, bir də kitabı dimdiklədi. Bilqeys dedi:

– Deynən "A". Toyuq heç səs çıxarmadı. Bilqeys gördü ki, toyuq oxumur, cücənin birini kitabın üstünə qoyub dedi:

– Gözəl cücəm, deynən "A".

Cücə kitaba baxdı, baxdı, birdən-birə dimdiyini yuxarı qaldırıb: "cik-cik" deyə səsləndi. Bilqeys şadlığından bilmədi ki, nə etsin.

Bu zaman anası pəncərədən gülə-gülə Bilqeysin dərs verməsinə baxırdı. Bilqeys bir adam axtarırdı ki, cücəsinin kitab oxumasını ona göstərsin. Anasını pəncərədə görəndə, sevinə-sevinə qışqırdı:

– Ana can, bircə cücəmə bax, gör nə yaxşı oxuyur! Gözəl cücəm, deynən "A".

Cücə Bilqeysə baxıb yenə də "cik-cik", deyə səsləndi. Bilqeys gülə-gülə qara iri gözlərini anasına dikib dedi:

– Ana can, gördün nə yaxşı oxuyur!

Anası gülə-gülə cavab verdi:

– Gözəl qızım, məgər sən pis oxuyursan ki, cücən də pis oxusun?.. Bu aralıq Məstan xoruz da Bilqeysin başının üstündə durmuşdu. Xoruz kitaba baxdı, baxdı, birdən-birə ucadan banladı. Bilqeys balaca əlini xoruzun başına çəkib dedi:

– Məstan xoruzum, sən böyüksən, oxumaq bilirsən. Qoy, bu balaca cücəni öyrədim. Qoçaq cücəm, de görüm "A".

Cücə sarı dimdiyini açıb: "Cik-cik", deyə oxudu.

Murad alma ağacının altında oturub qəmgin-qəmgin bunlara baxır, öz-özünə fikir eləyirdi: "Nə üçün Bilqeysi hamı sevir? Hamı ona məhəbbət yetirir? Amma məni heç kəs sevmir, hamı mənə nifrət edir? Nə üçün?.."

*1910*

# ŞƏLƏQUYRUQ

Qarasu kəndində Qırt-qırt xanım adlı bir toyuq və Şələquyruq adında bir xoruz var idi. Bunlar kəndin yaxınlığında bir qaratikan kolunun altında yuva eləmişdilər və bir-birilə çox məhəbbətlə dolanırdılar. Qırt-qırt xanım hər gün bir yumurta yumurtlayardı. Elə ki yumurta çoxalırdı, Şələquyruq onları səbətlərə doldurub şəhərdə satardı. Qırt-qırt xanım qızı Cik-ciklə birlikdə kənddə qalıb yuvalarına gözətçilik edərdilər.

Şələquyruq satdığı yumurtaların puluna şəhərdən qırmızı köynək, güllü dəsmal və bir çox şeylər alıb gətirərdi.

Bir gün yenə Şələquyruq şəhərə yumurta satmağa getmişdi. Qırt–qırt ağac altında eşələnirdi. Qızı Cik-cik xanım da otların üstündə bir çəyirtkəni tutmaqla məşğul idi. Axşam üstü idi... Günəş yavaş-yavaş saralmağa başlamışdı. Quşlar axşam nəğmələrini oxuyurdu. Qırt-qırt xanım çox səbirsizliklə Şələquyruğun yolunu gözləyirdi. Fikir edirdi ki, görəsən Şələquyruq yumurtaları yaxşı qiymətə sata bildimi? Onun üçün nələr alıb gətirəcək? Arabir də başı üstündəki ağacda oxuyan quşun gözəl nəğməsinə qulaq asırdı. Quşun nəğməsi Qırt-qırt xanımı elə məşğul etmişdi ki, Şələquyruq onun yadından çıxmışdı. Birdən-birə qulağının ucunda "Quqquliqu" səsi eşitdi. Qırt-qırt xanım ayağa qalxdı. Gördü ki, Şələquyruq çiynində dolu xurcun gülə-gülə ona baxır. Qırt-qırt xanım cəld irəli gedib, xurcunu Şələquyruğun çiynindən alıb , yerə qoydu. Hər ikisi şad oturdular. Cik-cik xanım da oynamaqdan qayıdıb gəldi. Atasının şəhərdən alıb gətirdiyi şeyləri görüb, sevincək yerə oturdu. Şələquyruq ona qırmızı və güllü bir dəsmal verib dedi:

– Bax, qızım, bu güllü dəsmalı sənə almışam...

Cik-cik xanım atasından razılıq edib, sevinə-sevinə dəsmalı başına bağladı. Qırt-qırt xanım da çox şad idi. Şələquyruğun aldığı qırmızı köynək, güllü dəsmal onun o qədər xoşuna gəlmişdi ki, gözlərini ondan ayırmaq istəmirdi. Şələquyruq şəhərdə gördüyü qəribə şeylərdən ona danışırdı. Qırt-qırt xanım təəccüblə qulaq asırdı; çünki şəhəri heç görməmişdi. Axırda Qırt-qırt xanım yalvardı ki, bu dəfə şəhərə gedəndə onu da özü ilə aparsın. Şələquyruq əvvəlcə razı olmadı, dedi ki:

– Əgər sən də getsən yuvamızda yumurtalara kim gözətçilik edər?

Qırt-qırt xanım isə hər nə təhər olsa istəyirdi ki, bir dəfə şəhərə getsin. Axırda Şələquyruq razı oldu.

Qırt-qırt xanım şadlığından yerlərə, göylərə sığmırdı. Hələ kiçik qızı Cik-cik xanım şadlığından sıçrayırdı. Qırt-qırt xanım cəld ocaq qaladı, yumurtaları bişirib səliqə ilə səbətlərə doldurdu. İyirmi yumurta da yuvada qoydular ki, şəhərdən qayıdandan sonra Qırt-qırt xanım kürt yatıb, balalar çıxarsın.

Şələquyruq çox çalışqan idi. Hər səhər alaqaranlıqdan durar və yuvasının yanındakı ağaca çıxıb ucadan banlardı. Kənd əhli onun səsinə oyanar, hər kəs bir işlə məşğul olardı. Çobanlar sürülərini çöllərə, yamaclara otarmağa sürər, əkinçilər öküzləri qoşub cüt sürməyə gedərdilər. Biçinçilər oraq, çin götürüb taxıl və ot biçməklə məşğul olar, uşaqlar da çaylarını içib məktəbə vaxtında yetişməyə çalışardılar.

Şələquyruq adəti üzrə o gün alaqaranlıqdan qalxıb, ağaca çıxıb, ucadan banladı.

Dan qaranlıq idi. Hələ günəş doğmamışdı. Dərələri çölləri seyrək duman bürümüşdü. Şələquyruq və Qırt-qırt xanım Cik-cikin əlindən tutub yola düşdülər.

Qırt-qırt çox şad idi; çünki ömründə heç şəhəri görməmişdi. Ürəyində Şələquyruqdan razılıq edirdi.

Gecədən şeh düşmüş yumşaq otların üstü ilə gedirdilər. Günəş yavaş-yavaş doğur, al şəfəqlərini otların, çiçəklərin üstünə dağıdırdı. Quşlar ayılıb, yuvalarında gözəl-gözəl nəğmələr oxuyurdu; arılar, kəpənəklər vızıltı ilə çiçəklərə qonub, xortumları ilə güllərin şirəsini sormaqla məşğul idi. Bunların başı söhbətə elə qarışmışdı ki, yolun zəhmətini heç hiss etmədən az vaxtda şəhərə yaxınlaşmışdılar.

Yarım saat sonra şəhərdə idilər. Təmiz, geniş küçələrdən, iri şüşəli mağazaların, uca və gözəl imarətlərin önündən keçərkən Qırt-qırt çox heyrətlə baxır, gözlərini onlardan götürmək istəmirdi. Hər şey ona təzə və təəccüblü görünürdü. Hətta adamlar da ona başqa təhər görünürdü; onun fikrincə, bunlar heç kənddə gördüyü adamlara bənzəmirdi. Qırt-qırt xanım heyrət içində idi. Hər şey onun yadından çıxmışdı. Addımlarını indi yavaş-yavaş atıb gedib, arabir döyüküb, ona-buna baxan qızı Cik-cikin əlindən tutub çəkirdi. Şələquyruq da çox şad idi; çünki Qırt-qırt xanımın bilmədiyi şeyləri göstərib, ona qandırırdı. Bazara yetişdilər. Qırt-qırtın gözləri dörd oldu. Minlərcə alıcı və satıcıları görüb heyran-heyran baxırdı. Bir saat içində yumurtaları satdılar, sonra oradaca gördükləri, sevdikləri şeylərdən aldılar.

Daha kəndə qayıtmaq lazım idi. Qırt-qırt xanımı və Cik-cik şəhərdən heç ayrılmaq istəmirdilər. İstər-istəməz yavaş-yavaş şəhərdən çıxıb, kəndə tərəf yola düşdülər.

Kənddə Səfər və Əkbər adında iki uşaq var idi. Bunlar çox nadinc və tərbiyəsiz uşaqlar idi. Şələquyruğun və Qırt-qırtın o gün şəhərə getdiyini bilmişdilər Oynaya-oynaya Qırt-qırt xanımın yuvasına gəldilər və otların arasında gizlətdikləri yumurtaları görüb çox sevindilər. Səfər tez qaçıb evdən bir səbət gətirdi, yumurtaları səbətlərə doldurdu və bir-bir götürüb, havaya atıb tutmağa başladı. Əkbər də istəyirdi ki, yumurtalardan alıb oynatsın, amma Səfər vermirdi. Axırda Əkbər acıqlanıb dedi:

– O yumurtalardan indi ki, mənə vermirsən, mən də xortdana deyərəm səni yesin.

Əkbərin anası şəhərə gedəndə ona bir qutu almışdı ki, ağzını açanda ilan başı çıxırdı. Əkbər qutunu cibindən çıxarıb dedi:

– Bax, bu qutunun içində xortdan var, indicə ona deyəcəyəm ki, qutudan çıxıb səni yesin.

Səfər irəli gəlib dedi:

– Hanı? Görüm?

Əkbər birdən-birə qutunun ağzını açdı, içindən qara ilan başı çıxdı.

Səfər onu görüncə qorxusundan gözləri kəlləsinə çıxdı. Dalı-dalı gedib səbətin üstünə yıxıldı, yumurtaların yarısı sındı. Üstü başı tamam yumurtaya bulandı. Səfər ağlaya-ağlaya yerindən qalxdı.

Əkbər əllərini bir-birinə vurub, ona ucadan gülürdü. Gülməkdən ağzı qulaqlarına qədər çəkilmişdi.

Səfərin ona acığı tutmuşdu, bilmirdi ki, nə ilə hayıf alsın. Axırda səbətdən bir yumurta götürüb Əkbərin burnunun üstündən vurdu. Yumurta dağıldı, Əkbərin üzü-başı bulandı. Bunu görüb Səfər bərkdən gülməyə başladı. Əkbər ağlayır və acığından bilmirdi ki, nə etsin. Yumurta çox bərk dəymiş və burnu yumurta boyda şişmişdi. Gözlərini başının ağrısından aça bilmirdi; həm də yumurta sarısı kirpiklərini elə örtmüşdü ki, gözləri açılmırdı. Əkbər bir təhərlə üz-gözünü təmizlədi. Sonra Səfərin yaxasından tutub, savaşmağa başladı. Hər ikisi bir-birini boğur, üz-gözünü cırmaqlayırdılar. Bir-birinin üst-başını cırıb dağıdır, hər ikisi al qana bulaşmış olduqları halda, yenə də də bir-birindən əl çəkmək istəmirdilər. Bu saat əvvəl bir-birilə dost olduqları halda, etdikləri yaramazlıqlara görə bir-birinin cəlladı olub, qan içməyə hazır idilər. Heç birisi o birini günahını bağışlamaq istəmirdi. Axırda hər

ikisi taqətdən düşüb, üzləri cırılmış, al qana bulaşmış, libasları tikə-tikə olmuş halda evlərinə qayıtdılar.

Şələquyruq və Qırt-qırt xanım şəhərdən qayıdıb gəldilər, yuvalarını dağılmış və yumurtalarını oğurlanmış gördükdə, Qırt-qırt xanım ağlar səslə qışqırıb, dedi:

– Vay, yumurtalar yoxdur.

Yuvanın ağzında yerə oturub, ucadan ağlamağa başladı:

– Bu yenə o yaramazların işidir. Onların əlindən mənə rahatlıq yoxdur. Mən artıq burada qala bilməyəcəyəm.

Şələquyruq zor-güc Qırt-qırt xanımı sakit etdi və tezliklə buradan başqa bir yerə köçməyə söz verdi. Bir həftə orada qaldılar, artıq başqa yerə köçəcəkdilər. Qır-qırt xanım çox şad idi. Ətəklərini çırmayıb ocaq qaladı, yola çıxmaq üçün bir az yumurta bişirməyə məşğul oldu. Şələquyruq da bir daş üstündə oturub, ona təzə bəyəndiyi yuvanı tərif edirdi. Qırt-qırt xanım deyirdi:

– Hər necə yuva olsa razıyam, kaş ki, bu insafsız yaramazlardan uzaq olsun.

Şələquyruq onu inandırırdı ki, təzə yuvaları həm uzaq, həm də elə bir yerdədir ki, heç kəs xəbər tuta bilməyəcək. Cik-cik də arabir onların söhbətinə şərik olub, sevinə-sevinə soruşurdu:

– Ata, o yuvamızın da yanında belə gözəl ağaclar, otlar, çiçəklər varmı?

Şələquyruq:

– Qızım, var, – deyə Cik-cikə ürək və təsəlli verirdi.

Bir saat sonra orada Şələquyruqdan, Qırt-qırt xanım və Cik-cikdən bir əsər yox idi. Oba köçüb, yurdu qalmışdı. Həmişə Cik-cik bala cik-ciki ilə, Qırt-qırt xanım qırt-qırtı ilə, Şələquyruğun "quqquliqu" səsi ilə şən görünən yuva, o ağaclıqlar, yaşıllıqlar indi sakit və qəmgin-qəmgin durur, guya onların getməsindən göz yaşları töküb ağlayırdılar.

Hətta bir neçə gün sonra Səfər ilə Əkbər də gəlib onların yuvasını bomboş görüncə qəmgin olmuşdular. Tutduqları işdən peşman olub, məyus halda qayıtmışdılar. Amma etdikləri bu insafsızlıq heç onların yadından çıxmır və Şələquyruğun dağılmış yuvasını yanından keçə bilmirdilər. Sanki Şələquyruq onların ətəyindən tutub dartır və acıqlı səslə deyirdi: "İnsafsız uşaqlar, mən sizə nə etmişəm? Nə üçün mənim yuvamı dağıtdınız? Nə üçün yumurtalarımı oğurladınız, zəhmətimizi, əməyimizi puç etdiniz? Nə üçün, deyin görüm nə üçün?.."

*1913*

# CÜMƏNİN QƏZƏBİ

Bir neçə il idi ki, quraqlıq keçdiyindən ayrımların əkin-biçini əmələ gəlmirdi. Quraqlıq bir dərəcədə idi ki, baharın orta ayında otlar saralıb, quruyurdu, çiçəklər solurdu, ağacların yarpaqları tökülüb, çılpaq qalırdı; dərə, təpə, çöl, çayır payız vaxtı kimi qəmgin və çılpaq bir halda görünürdü. Mal, heyvanın otlaması üçün nə ot və nə saman tapılırdı. Yazıq heyvanlar acından qırılıb, tələf olurdu. Get-gedə kəndi kasıblıq və bədbəxtlik bürüyürdü...

Bir gün kəndin ağsaqqalları yığışıb, məsləhət elədilər ki, "allah nə üçün bizə qəzəb eləyir və göydən yağış yağmayır?"

Təcrübəli və ağsaqqal bir ayrım dedi:

– O vaxt ki, Cümə kişi kənddə idi, hamı işimiz öz yolu ilə gedirdi, allah bizdən yağışını kəsmirdi. Elə ki, Cüməni yaddan çıxartdıq və Cümə də acıq eləyib kənddən getdi, o zamandan bəri allah yağışını və rəhmətini bizdən kəsibdir. Gərək hər necə olsa yenə Cüməni tapıb, kəndə gətirək, tainki allah bizə yağış və bərəkət göndərsin. Çünki Cümə müsəlmanların həftə bayramıdır!

Hamısı bu məsləhəti bəyəndi və qərar qoydular ki, Cüməni axtarmağa çıxsınlar. Ayrımlar iki böyük dəstə olub, Cüməni axtarmağa getdilər.

* * *

Birinci dəstə Cüməni axtara-axtara qalın meşəli bir dərəyə yetişir. Ayrımlardan biri görür ki, zorba bir ağac kötüyündən quruyub, dərənin içinə sallanmışdır. Yoldaşlarına deyir ki:

– Həri, huy...

Yoldaşları deyir: – Huy...

– Huy... bu quru ağacı görürsünüzmü? Nə yaxşı odundur. Gəlin bunu qurub, kəndə aparaq.

Amma ağacı qırmaqda hamısı aciz olur. Çünki ağac çox uca və yoğun idi. İçlərindən biri deyir:

– Mən bunu qırmağa bir çarə tapmışam. Mən ağaca çıxaram və ağacın başından əllərimlə möhkəm yapışıb, dərəyə sallanaram. Siz də mənim ayaqlarımdan və bir-birinizin ayağından tutub, dərəyə sallanarsınız. Bu cür gücümüzü salıb ağacı dibindən qırarıq.

Hamısı bunun məsləhətinə afərin deyib razı olurlar. Haman məsləhət görən adam ağaca çıxıb sallanır; o biriləri də biri-birinin ayağından tutub, dərəyə sallanırlar. Bunlar nə qədər güc edirlərsə, ağacı sındıra bilməyirlər. Məsləhət verən adam qışqırır:

– Hələ Huy...

Yoldaşları – Huy... Huy...

– Siz biri-birinizdən tutun. Bircə mən əllərimə tüfürüb, yaşlayım.

Bunu deyib, əllərini ağacdan çəkir və dərhal hamısı dərəyə tökülüb, parça-parça olurlar.

İkinci dəstə dəxi Cüməni axtara-axtara qaya ətəyində bir mağaraya yetişir. Bu mağara şir yuvası imiş. Mağaranın ağzından içərisinə baxanda, şirin iki məşəl kimi yanan gözlərini görüb: "Tapmışıq, tapmışıq! Cümə burada gizlənibdir!" – deyə bağırırlar. Amma Cüməni mağaradan nə tövr çıxarmaq yolunu tapa bilmirlər. Təcrübəli ağsaqqal bir kişi deyir:

– Mən mağaraya girib, Cüməyə yalvararam, əgər xoşluq ilə gəlsə heç!.. Xoşluq ilə gəlməsə, o vaxt zor və güc ilə durub ayaqlarımı da tərpədərəm; onda siz də mənə kömək edib, ayaqlarımdan çəkin ki, Cüməni bir tövr çıxarıb kəndə aparaq.

Bunu deyib, mağaraya girdi. Şir dərhal pəncəsini uzadıb, kişinin başını yarpaq kimi qopartdı. Kişinin ayaqları hərəkət etməyə başladı. Bu vaxt ayrımlar: "Çəkin, çəkin! Cüməni tutubdur!" deyə ayaqlarından tutub çəkdilər, kişini başsız görüb biri dedi:

– Bəs bunun başı hanı?

O birisi dedi:

– Görünür ki, bunun əvvəlindən başı yox imiş!

Ayrısı dedi:

– Yox, yox idi!

Bu qayda ilə höcət etməyə və savaşmağa başladılar. Axırda içlərindən bir az ağıllısı dedi:

– Canım, neçün savaşırsınız? Gedək bunu kənddə öz arvadından soruşaq. Necə olsa, o bilər. O hər nə desə, biz də razı olaq.

Hamısı kəndə onun arvadının yanına gəldilər. Əhvalatı söyləyib, soruşdular:

– De görək, sənin kişinin başı var idi, ya yox?

Arvadı bir qədər fikirdən sonra dedi:

– Başı olduğunu bilməyirəm, amma yadıma gəlir ki, saqqalı hərəkət edərdi.

Hələ indiyədək ayrımlar Cüməni tapa bilməyiblər. Ona görə də hər cümə axşamı gecələr bərk tufan və buraǧan qopur. Ayrımlar bir yerə yığışıb qorxa-qorxa: “Allah, sən rəhm elə, yenə Cümənin bizə qəzəbi keçibdir!” deyib, yalvarırlar, ağlayırlar; amma boran daha da şiddət eləyir, ağacları sındırır, damı-bacanı bürüyüb-bükür, mal və heyvanatı qırıb, tələf eləyir və bərəkəti kəsib bir çox bədbəxtliklər törədir.

*1912*

## OYUNÇU BAĞALAR

Böyük bir binada eyni sinifdə oxuyan dörd-beş məktəbli yaşayırdı. Uşaqlar hər gün məktəbdən qayıtdıqdan sonra geniş həyətin günəşli və havalı tərəfində toplanıb oynayır, qaçışardılar. Yorulduqları zaman taxta barmaqlıqla hasarlanmış bağça yanındakı skamyada oturub danışardılar. Bir gün yenə bir yerə yığılıb oynayırdılar. Aslan əlində topu oynada-oynada gəldi. Uşaqlar qaçıb onun ətrafını alaraq dedilər:

– Aslan, bu topu hardan aldın?

– Ver bura oynayaq.

– Gəlin “top aldı qaç” oynayaq.

Aslan əli ilə uşaqları itələyib dedi:

– Çəkilin, heç kəsə verməyəcəyəm, özüm tək oynayacağam.

Uşaqlar etiraz etdilər:

– Aslan, nə olar, qoy biz də oynayaq.

– Hamımız oynayaq, hamımız.

Aslan yenə bağırdı:

– Çəkilin, özüm tək oynayacağam!

Uşaqlar durub baxırdı. Aslan da topu əlində atıb tuturdu. Teymur soruşdu:

– Aslan, bu topu haradan aldın?

– Məktəbdən gələndə bir uşağın əlindən alıb qaçırtdım, – deyə Aslan saymazyana cavab verdi.

Qanbay təəccüblə soruşdu:

– Bir uşağın əlindən alıb qaçırtdın? Müəllim deməyib ki: “Məktəbli oğurluq etməz?!”

Aslan topu oynada-oynada eyni laqeydliklə cavab verdi:

– Mən oğurlamamışam ki... əldən alıb qaçırtmışam.

– O da elə oğurluqdur.

– Yox, oğurluq deyil!

– Əlbəttə oğurluqdur, özgəsinin malıdır.

– Yazıq uşaq indi ağlaya-ağlaya qalıb.

– Hələ üstəlik evdə ata-anası da döyəcək.

– Nə eləyim, qoy döysün, – deyə Aslan topu havaya atdı.

Teymur topu onun əlindən yerə saldı. Uşaqların hamısı topa tərəf qaçdı. Əvvəlcə topu Sara götürdü. Aslan topu ondan almaq istədi; Sara gördü ki, gücü çatmayacaq, topu uzağa atdı. Uşaqlar yenə qaçdı, bu dəfə topu Qanbay götürdü.

Aslan yetişincə topu Saraya atdı. Aslan ona tərəf qaçdı. Teymur bir az aralanıb bağırdı:

– Sara, Sara, bura at!

Sara topu Teymura ötürdü. Qanbay bağırdı:

– Sən də mənə at!

Aslan yetişincə Teymur da Qanbaya tullardı. Aslan hər tərəfə qaçdı, topu ala bilmədi. Axırda acıqlandı və yoldaşlarına söydü. Bu hərəkət Qanbayın xoşuna gəlmədi. Topu Aslana atıb dedi:

– Yum ağzını, nə pis qoxuyur, oğru.

Aslan topu tez götürüb cavab qaytardı:

– Oğru sənsən!

– Mən də oğru olsaydım sənin kimi özgəsinin topunu qaçırardım.

– Hünərin var, sən də qaçırt.

– Mən heç kəsin topunu qaçırtmaram. Keçən il də sinifdə Səmədin qara cildli dəftərini oğurlamışdın.

Teymur gülə-gülə dedi:

– Hə, yadımdadır, yadımdadır, müəllim onu qovmaq istəyirdi. O qədər ağladı, yalvardı ki, müəllimin yazığı gəldi.

Qanbay çığırdı:

– Bu yana gəlin, onunla oynamayın!

Sara dedi:

– Doğru deyir, gəlin bu tərəfə, özümüz oynayaq. Uşaqların hamısı Qanbayın ətrafına yığıldı.

– Sabah istirahət günüdür. Xalam oğlunun yanına gedəcəyəm. Onun topu var, – deyə Teymur özünə təskinlik verdi.

Sara yoldaşlarının pərtliyini dağıtmaq üçün bildikləri oyunlardan birinə başlamağı təklif etdi:

– Nə oynayaq, tez olun, oyunun adını deyin!

Qanbay sevincindən sıçrayıb dedi:

– Doğrudan sabah istirahət günüdür. Ay can, ay can! Atam məni heyvanxanaya aparacaq. Keçən həftə də sirkə aparmışdı. Orada itlərdən çalğıçı dəstəsi vardı. Biri kamança çalır, biri oynayır, o biriləri də əl vururdu. Sonra su itləri gəldi. Topu burunları ilə bir-birinə atıb tuturdu. Hələ bir fil bizi o qədər güldürdü ki...

Sara da istirahət gününü boş keçirməyəcəkdi. Odur ki, dedi:

– Nə olsun, mən də sabah teatra gedəcəyəm.

Teymur özünü saxlaya bilmədi:

– Mən də kitabxanadan yeni kitablar alıb oxuyacağam. Kartondan maşın və təyyarə qayıracağam.

Qanbay dedi:

– Sən oxuduğun kitablar nəyə gərəkdir. Elə maşınlardan, təyyarələrdən danışır.

Teymur gülə-gülə cavab verdi:

– Maşın yaxşıdır, təyyarə yaxşıdır, yoxsa ilan, çayan, kirpi, dovşan? Sən də elə kitablar oxuyursan ki...

Sara Qanbayı müdafiə etməyə çalışdı:

– Nə olsun, o, heyvanları sevir, onlardan danışan kitabları oxuyur, sən də maşınları.

Teymur soruşdu:

– Hansı yaxşıdır?

– Hər kəs hansını sevirsə, o yaxşıdır, – deyə Sara cavab verdi.

Ülkər bağçanın yanındakı skamyada oturub onları dinləyirdi. O, orta məktəbin son sinfində oxuyub, ciddi, bilikli şagird olduğu kimi, pioner təşkilatının da rəhbəri idi. Uşaqların danışığı onda çox maraqlı fikirlər oyatdı. O öz-özünə düşünərək: "Doğrudan da pioner təşkilatı rəhbəri üzərinə necə mühüm vəzifələr düşür" – dedi, sonra onları çağırdı:

– Uşaqlar, bura gəlin!

Uşaqlar bir dəqiqədə üzük qaşı kimi onun ətrafını aldılar. Ülkər dedi:

– Söhbətinizi eşidirdim. Bundan sonra istirahət və təlim günlərində sizinlə özüm məşğul olacağam ki, gördüyünüz işlər faydalı olsun.

Uşaqlar sevinclərindən sıçrayırdılar. Teymur soruşdu:

– Sabah bizi hara aparacaqsınız?

– Sizə top gətirəcəyəm. Sabah meydançada futbol oynayacaqsınız, – deyə Ülkər cavab verdi.

Uşaqların üzünü sevinc bürümüşdü. Bu zaman Aslan da əlində top gəldi və bağıra-bağıra dedi:

– Sabah hara gedəcəksiniz?

Teymur ona acıqlı baxıb dedi:

– Sən heç yerə.

Ülkər dedi:

– Yox, onu da aparacağıq.

– Biz onunla oynamaq istəmirik.

– Nə üçün?

– Çünki o, oğurluq edir.

Aslan bu töhmətlərə dözmədi:

– Oğru özünsən!

Sara acıqlı-acıqlı Aslana baxıb dedi:

– Oğlu olsaydı, o da uşaqların topunu götürüb qaçardı.

Teymur əlavə etdi:

– Sinifdə uşaqların dəftərini oğurlardı.

Aslan tap təklənmişdi. Bu haqlı tənqidlərə cavab vermək çox çətin idi. Bir müddət özünü itirdi. Birdən hönkür-hönkür ağlamağa başladı. O, çarəsiz qalaraq, ancaq bu sözləri deyə bildi:

– Sizin bir şeyinizi oğurlamamışam ki?!

– Əlinə düşsə oğurlarsan. – deyə Sara qəzəblə Aslana baxdı.

Ülkər uşaqlara acıqlandı:

– Susun, bundan sonra Aslan daha bu cür yaramazlıq etməz. – Sonra üzünü Aslana tutub soruşdu:

– Aslan, topu əlindən aldığın uşağı tanıyırsanmı?

– Özünü də tanıyıram, evlərini də.

– Sabaha sizə top gətirəcəyəm. Sən apar onun topunu özünə ver, gəl. Sən gəlincə biz də tətil və istirahət günlərində aparacağımız işlərə dair plan tutaq.

Aslan getdi. Ülkər uşaqları başına toplayıb bir-bir onların rəyini soruşdu:

– Sara, sən tətil günlərində nə kimi işlərlə məşğul olmaq istəyirsən?

– Mən teatra getmək istəyirəm.

– Daha nə sevirsən?

– Bir də bağça uşaqlarını gəzdirməyi, oynatmağı.

– Teymur, sən nə sevirsən?

– Mən maşınlardan, gəmilərdən, təyyarələrdən danışan kitabları sevirəm.

– Qanbay, bəs sən nə ilə maraqlanırsan?

– Mən heyvanları sevirəm. Hər gün heyvanxanaya, sirkə getsəm, yenə doymaram.

Sara Qanbayın dediklərini təsdiq etdi:

– Doğru deyir. Məktəbdə təbiət kabinəsinə girdiyi zaman heç çıxmaq istəmir, gözü şəkillərdə qalır.

Teymur əlavə etdi:

– Təbiət dərslərində heyvanların yaşayışı və xasiyyətləri haqqında o qədər sual verir ki, müəllim lap təngə gəlir.

Ülkər qoynundan bir parça kağız və qələm çıxarıb sıra ilə yazdı: muzey, uşaq bağçası, teatr, heyvanxana, sirk, fabrik və zavodlar.

Bu zaman Aslan qaça-qaça gəldi, üzünü Ülkərə tutub dedi:

– Topu aparıb uşağın özünə verdim. O qədər sevindi ki...

Sara soruşdu:

– Uşaq özü harada idi?

– Qapının ağzında oturmuşdu. Yanına gəlincə məni tanıdı. Üzümə acıqlı-acıqlı baxdı. "Bu top sənindirmi?" – deyib topu göstərincə əlimdən dartıb aldı və gözlərini üzümə dikib: "Hə, mənimdir", – dedi. Mən də bir söz deməyib qayıtdım. Uşaq sevinə-sevinə həyətə qaçdı.

Aslanın bu hərəkətindən hamı məmnun qaldı. Ülkər sevincək halda dedi:

– Qoçaq Aslan, yaxşı elədin. Bundan sonra heç kəsin topunu götürüb qaçma. Yoldaşlarından soruşmuşam, de görüm tətil günlərində sən nə işlə məşğul olmaq istəyirsən? Nəyi çox sevirsən?

Aslan bir az düşünüb:

– Mən aqronomluğu sevirəm, – dedi.

Ülkər: "Yaxın kolxoz və sovxozlara tənəzzöh" sözlərini də plana əlavə etdi. Sonra üzünü uşaqlara tutub dedi:

– Sabah futbol oynayacaqsınız. Günortadan sonra sizə bir kitab oxuyacağam. Kitab bir uşağın qayırdığı yeni təyyarədən danışır. Gələn istirahət günü sizi muzeyə aparacağam. O biri tətildə isə heyvanxaya gedərik. Sonra teatra, sirkə, uşaq bağçasına, yaxın kolxoz, sovxozlara tənəzzöh təşkil edərik.

Uşaqlar çox razı qaldılar.

Birinci istirahət günü uşaqlar üçün çox xoş keçdi. Səhər futbol oynadılar. Günortadan sonra "Kağızdan yeni təyyarə" kitabını oxudular. Ülkər kitabı oxuduqca balaca Məmişin ustalığına hamısı təəccüb edirdi. Teymur diqqətlə qulaq asırdı. Arabir içini çəkərək:

– Mən ondan da yaxşı təyyarə qayıracağam, – deyirdi.

Ülkər kitabçanı oxuyub qurtardıqdan sonra Teymura baxdı. Teymur köksünü ötürüb dedi:

– O Məmiş burada olsa idi, bir yerdə təyyarə qayırardıq.

Ülkər gülüb cavab verdi:

– Bu qədər yoldaş sənə bəs deyilmi?

Teymur ürəyiaçıq və zarafatcıl idi. Əli ilə yoldaşlarını göstərib dedi:

– Bunlarla mənimki tutmur. Biri kələmdən, soğandan, biri kirpidən, dovşandan danışır.

Ülkər cavab verdi:

– Bunların hamısı lazımdır. Heç bir şeyə "pis" demək olmaz! Hünər bir işi yaxşı bacarıb, o yolda müvəffəq olmaqdır.

Bu fikirlə uşaqların hamısı razılaşdı. O axşam nəşələri yerində olduğundan dərslərini daha gözəl hazırladılar və sabah sinifdə müəllimin suallarına yaxşı cavab verdilər. Onlar anlamışdılar ki, yaxşı sənət sahibi olmaq üçün hər şeydən əvvəl bilik lazımdır.

Uşaqlar istirahət günlərini dörd gözlə gözləyirdilər.

O biri həftə heyvanxanaya getmişdilər.

Dəmir qəfəslərdə sıra ilə düzülmüş heyvanlara və quşlara tamaşa edirdilər. Teymur bir dəmir qəfəsin yanından keçərkən ona bir əl uzandı. Dönüb baxarkən gördü ki, meymundur. Qəfəsin içində böyük, kiçik meymunlar oynaşırdı. Teymur Qanbayı səslədi:

– Bura gəl, bura gəl! Bax, meymunlar necə oynaşır, əli ilə az qala məni tutmuşdu.

Qanbay onlara diqqətlə baxır və hər birinin hansı cinsdən olduğu düşünürdü. Teymur da əlindəki ağacı qəfəsə uzadıb, onları acıqlandırırdı.

Böyük bir meymun gəlib qəfəsin barmaqlığı ucunda etinasız dayandı. Teymur ona nə qədər ağac uzatdısa, əsla hərəkət etmədi.

Qanbay və Ülkər bir neçə dəfə ona dedilər: "Acıqlandırma, əlini dişlər", Teymur fikir vermədi. Bir də ağacı uzadarkən, meymun ildırım kimi şığıyıb, onun qolunu iki əli ilə tutdu və ağzına saldı. Teymur qorxub qışqırdı. Qanbay əlindəki ağacla meymunu vurdu. Ülkər də yumruğu ilə ona hücum etdi. Meymun qorxub Teymuru buraxdı.

Teymurun qolunda meymunun dişlərinin yeri qalmışdı. Qolu bərk ağrıyırdı. Yoldaşları başına toplanıb soruşdular:

– Nə oldu, Teymur, nə oldu?

Qanbay gülə-gülə cavab verdi:

– Bir şey olmamışdır. O mənim meymunlarıma sataşdı, meymunlarım da onunla zarafat elədi.

Uşaqlar qəfəslərin önündən baxa-baxa keçirdilər. Qanbay kiçik bir qəfəs qarşısında durdu. Qəfəsin içindəki iki kiçik bağaya baxıb yoldaşlarına dedi:

– Sirkdə bunların iştirak etdiklərini heç görməmişəm. Görünür bunlar o qədər şüursuz heyvandır ki, öyrətmək mümkün olmur.

Ülkər onun çiyninə vurub dedi:

– Onları da sən öyrədərsən, böyük bir şey deyil ki.

Ülkər məktəbdə pioner təşkilatına işə keçdikdən sonra təşkilat canlanmışdı. Tətil günlərindəki səmərəli tənəzzöhlər və oyunlar uşaqları çox maraqlandırdığı üçün onların hamısı bu tədbirlərdə iştirak edirdi. Bu tədbirlər, Ülkərin keçirdiyi maraqlı müsahibələr Aslan kimi uşaqlara da təsirsiz qalmırdı.

Qanbay heyvanları çox sevirdi. Təbiət kabinəsinə girdiyi zaman saatlarla gözlərini şəkillərə dikib qalırdı. Şəhərə tamaşa üçün heyvan gətirildikdə, sirkdə heyvanların tamaşası göstərildikdə atası ilə bərabər gedib doyunca baxırdı. Onların oyunları yaşayışı və xasiyyətləri Qanbayı çox maraqlandırırdı. Köpəklərin, pişiklərin, donuzun, filin, hətta su itilərinin göstərdiyi oyunlara heyrət edirdi. Öz-özünə düşünürdü: "Bu ağıllı heyvanları haradan tapırlar?"

Bir gün atasından soruşdu:

– Ata, heyvanlar bu oyunları kimdən öyrənir?

Atası cavab verdi:

– Oğlum, sən elmi kimdən öyrənirsən?

– Müəllimdən.

– Onları da öyrədən bir müəllim var.

– Onu bilirəm, axı bu dilsiz heyvanlara belə oyunları necə öyrədirlər?

– Oğlum, sirkdə əlində çubuq tutan bir adam var idi. Onu gördünmü?

– Gördüm.

– Bax, o müəllimdir, həm də çox məharətli müəllimdir. Yaxşı oxumuş, illərcə təcrübə görmüş, alim bir adamdır. Heyvanların yaşayışını, xasiyyətini beş barmağı kimi bilir. Heyvanları öyrətmək ona nə qədər də çətin deyil.

Qanbay yenə düşündü. Birdən-birə başını qaldırıb, sevinə-sevinə dedi:

– Ata, böyüyəndə məni heyvanat müəllimi olmağa qoyarsanmı?

Atası onun başını sığallayıb dedi:

– Kaş o gün olsun, oğlum! Mən çox şad olaram. Ancaq heyvanat müəllimi olmaq istəyən adam hər şeydən əvvəl heyvanları sevməlidir. Bax, bundan sonra evimizdəki Mərmər pişiyi, qonşumuzdakı Qaplan iti vurma!

Qanbay qızardı; çünki oynadığı zaman onları arabir vururdu. Birdən-birə atasının əlini tutub dedi:

– Ata, bundan sonra vurmayacağam. Onlarla yaxşı-yaxşı oynayacağam.

Qanbay o gündən heyvanları daha çox sevməyə başladı. Heyvanat müəllimi olmaq fikri onun başında yerləşmişdi. O, sirkdə görmüşdü ki, müəllim kamançada bir çox hava çalır və heyvanları oynadır. Qanbay kiçik bir kamança aldı və o gündən çalmağı öyrənməyə başladı.

Türkan kəndində böyük bir kolxoz vardı. Bu kolxozun ucu-bucağı olmayan xırında iki çanaqlı bağa yaşayırdı. Bunlar tağların, yarpaqların arasında gözəl ömür keçirirdi. Qar, boranlı qış onları qarşıladığı zaman hər ikisi yuvaya çəkilib, üç ay qışı orada yatırdı.

Bahar gəlmişdi. Günəşin isti şəfəqləri hər şeyə qan və can verirdi. Bu uzun yuxudan sonra çanaqlı bağaların oyanmaq zamanı yetişmişdi.

Bir gün hər ikisi yuxulu gözlərini açdı. Onlar çoxdan ac idi. Çöldə günəşin ılıq şəfəqləri və atlaz kimi yumşaq, lətif otlar onları çağırırdı. Yavaş-yavaş sürünüb çölə çıxdılar.

Kolxozçular qızğın çalışırdılar: kimisi bostanın torpağını çevirir, kimisi toxum səpir, kimisi bostanı ləklərə ayırırdı.

Planlarını yerinə yetirmək üçün hamı qızğın çalışır, iş zamanı onların üzündən nəşə, sevinc yağırdı. Ləklərin dörd yanında yaşıl, yumşaq otlar göyərmişdi. Bağaların hər ikisi ac qurd kimi soxulub yeməyə başladı.

Bağaların istədikləri günlər gəlmişdi. Hava gündən-günə qızır otlar, yarpaqlar böyüyür, dirrik və bostan yaşıllaşırdı.

Dişi bağa artıq yumurtlamışdı. Bir müddət keçdikdən sonra yumurtalardan bala çıxdı.

Dişi bağa balalarını yanına alıb dirriyin içində dolaşır, onları yedirir, özlərini düşmənlərdən qorumağı öyrədirdi. Gün əyilmişdi. İsti qum qorlu külə dönmüşdü. Kolxozçular uzaqda bir çinar altında dincəlirdi. Səs-səmir kəsilmişdi. Yalnız bağalar sulanmış tağların ət-

rafında dolaşırdı. Göy üzündə qızılquş da tənbəl-tənbəl uçurdu. Ov tapmış kimi qanadlarını açıb durdu və gözlərini bir müddət yerə dikdi. Quş yavaş-yavaş aşağı enməyə başladı. O bir az sonra qanadlarını açıb durdu. Birdən-birə şığıyıb, ana bağanı caynağına alıb, havaya qalxdı. Qalxdı, qalxdı, sonra sağ tərəfə getdi. Uca qaya başında tikmiş olduğu yuvasına yaxınlaşdı. Bağanı birdən-birə qayanın üstünə atdı. Özü də arxasınca yerə endi. Bağa parçalanıb qınından çıxdı. Qızılquş onu caynağına alıb, yuvasının ağzına qondu. Onu görüncə balaları "cuq-cuq" səsləndilər və tüksüz boyunlarını ona tərəf uzadıb durdular. Qızılquş bağanı parçalayıb, onlara yedirtdi.

Yay tətili başlanmışdı. Ülkər öz pionerləri ilə bərabər Türkan kəndinə gəlmişdi. Ülkər yardım məqsədilə kənddəki pioner təşkilatının işlərinə qarışdı, təşkilatın rəhbərlərini yeni iş üsulları ilə tanış etdi. Kolxozçular arasında mədəni-maarif işləri aparmaq üçün Aslanı kolxoza təhkim etdi. Pionerlər hər gün dəniz sahilində qum və günəş vannası qəbul edir, dənizdə çimir, futbol oynayır və arabir kolxozlara və yaxın kəndlərə tənəzzöhə gedirdilər.

Aslanın işi çox yaxşı idi. O, istəyinə çatmışdı. Kolxozda həvəslə işləyirdi. Məhsulun cinslərini, onları becərmək yollarını, torpaq gübrələrini öyrənirdi. Yoldaşı Qanbay tez-tez onu görməyə gəlirdi. Bir gün Qanbay yenə Aslanın yanına gəlmişdi.

Aslan Qanbay ilə bərabər bostanı başdan ayağacan gəzdi. O, Qanbaya pomidor və badımcan tağlarını göstərir, onların haqqında izahat verirdi. Qanbay öz-özünə düşünürdü. "Oğru, – deyə təhqir etdiyimiz Aslana bax, nə qədər dəyişilmişdir! O artıq iş və zəhmət adamı olmuşdur". Bu düşüncə ilə qarpız, qovun tağlarının yanından keçirdi. Birdən-birə tağların arasında iki bağa balasını gördü. Şadlığından bilmədi nə eləsin. Onları götürmək üçün ləklərin içinə girdi.

Bağalar uzaqdan onu görüncə qaçmağa başladılar. Onlar indi anasız və köməksiz idi. Hər şey onları hürküdürdü. O gün qızılquşdan çox qorxmuşdular. Onun güclü qanadlarının yeli hər birini bir tərəfə atmışdı. Bir müddət onlar özlərinə gələ bilməmişdi. Gözlərini açdıqları zaman analarını görməmişdilər. O gündən tağların arasında qorxa-qorxa yaşayırdılar.

Qanbay onlara yaxınlaşdı. Hər ikisi qorxudan başını qınına çəkib durdu. Qanbay hər əlinə birini alıb ləkdən çıxdı, sevincək:

– Aslan, bax gör nə tapdım, – dedi.

Aslan baxıb gülə-gülə:

– Sənin istədiyin şeydir, həm də nə qədər kiçikdir, – dedi.

– Sağ ol, Aslan! Görüşərik, – deyə Qanbay qaça-qaça getdi. Böyük bağın iri qapısından girincə bağırdı:

– Gör bir nə gətirmişəm!

Uşaqlar onun başına toplandı.

– Nədir, nədir? ver bura, ver bura!

– Qanbay, bunları haradan tapdın?

– Ləklərin içindən.

Səsə Ülkər də gəldi. Bağaları görüncə:

– Oy, nə balacadır! Heç belə kiçik bağa görməmişdim, – dedi.

Qanbay sevinə-sevinə dedi:

– Ülkər müəllimə, bunları saxlayacağam.

Bağalar başlarını qına çəkib hərəkətsiz durmuşdular. Uşaqlar o kiçik qonaqların ətrafını alıb, hələ də onları tək buraxmaq istəmirdilər.

Qanbay qaçıb ağzı çubuqla hörülmüş taxta bir qutu gətirdi. Bu qutunu o çoxdan hazırlamışdı. Hər iki bağanı qutuya qoyub, ağzını bağladı.

Qanbay o gün sevincək olmuşdu. Saatda bir gedib onları yoxlayırdı. Bağalar onu görüncə qorxub çəkilirdilər.

Qanbayı fikir götürmüşdü. O bağalarını öyrətmək haqqında düşünürdü. Nə öyrətsin? Necə öyrətsin? Haradan başlasın? Bunları aydınlaşdıra bilmirdi. Bu fikir onu yormuşdu. Hətta gecələr yatağa girdiyi zaman cürbəcür planlar tuturdu. O eşitmişdi ki, heyvanları öyrətməkdən əvvəl ac saxlayırlar. Odur ki, bir gün sabahacan onlara yemək verməmişdi.

Səhər açıldı. Qanbay yuxudan oyanınca bağaların yanına qaçdı. Ac və dustaq bağalar qutunun içindən çıxmaq üçün yol arayırdı. Qanbayı görüncə hər ikisi başını gizlədib hərəkətsiz durdu. Qanbay əlindəki otları onlara tərəf uzatdı. Onlar qorxub çəkildilər. Qanbay çox çalışdı, onlar inad edib ot yemək istəmədi. Qanbay düşündü: “Zərər yoxdur, ac qalıb axırda yeyərlər”, – dedi.

O gün Qanbay çox məşğul idi. Kənd klubunda pionerlər müsamirə verəcəkdilər. Bir tərəfdən klubu bəzəyir, bir tərəfdən də rollarını hazırlayırdılar.

Qanbay yoldaşları ilə bərabər axşamacan işləmişdi. O, evə döndüyü zaman günəş qərbə doğru əyilmiş, hava sərinləşmişdi.

Bağaların fikri onu götürdüyü üçün bilmirdi yolu necə getsin. Yoldaşları ona sataşırdı:

– Sən gedincə bağalar acından öləcək.

– Bilmirəm bu bağalardan nə istəyir?

– Onları mən əlimə götürməyə iyrənirəm.

– Danışmayın, bu da bağaları öyrədib sirkdə oynadacaq.

Qanbay atmacaların bəzisinə cavab verir, bəzisinə gülürdü. Evə çatan kimi bağaları yoxladı. Ağ bağalar qutunun ağızlığını yalayır və çıxmaq üçün yol arayırdı.

Qanbayı görüncə hər ikisi başını gizlətdi. Qanbay qutunun qapağını açdı. Gəlirkən yolda topladığı bağayarpaqlarını onlara doğru uzatdı. Ac bağalar ot qoxusu duyunca başlarını çıxartdı. Qorxa-qorxa yarpağı yeməyə başladılar. Qanbay sevincindən nə edəcəyini bilmirdi. Birinci imtahanı gözəl vermişdi. Bağalar onun əlindən ot alıb yeməyə başlamışdı. Bu az şey deyildi. İlk qələbə qazanılmışdı. Köksü şişmiş, ümidi artmış, gözləri işıqlanmışdı.

Bağaları doyurduqdan sonra Qanbay qaça-qaça yemək otağına gəldi. Yoldaşları yemək yeyirdilər. Başda ülkər oturmuşdu. Titrək və sevincək bir səslə:

– Ülkər müəllim, bağalarıma əlimdə ot yeməyi öyrətdim, – dedi.

Ülkər bu sözün mənasını yaxşı düşünə bilmədi. Yalnız başını tərpədib güldü və onu razı salmaq üçün:

– Mərhəba, Qanbay! – dedi.

Qanbay Ülkərdən bir çox şeylər soruşmaq və öyrənmək istəyirdi. Yoldaşlarının yanında soruşmadı. Yerində oturub yeməyini yedi.

Gecə klubda idilər. Müsamirələri olduqca parlaq keçmiş və kolxozçuları razı salmışdı. Uşaqların və Ülkərin üzü gülürdü. Gecə gec qayıtdılar. Qanbay hər kəsdən əvvəl yatağına gedib yatmış və səhər hamıdan əvvəl oyanmışdı. Bağalarına yarpaq və ot toplamış, doyunca yedirtmişdi. Bağalar otu əlindən alıb yedikcə sevinirdi. Qanbay bunları öyrətmək üçün tədbirlər düşünürdü. O qədər dərindən düşünürdü ki, Ülkərin gəlib onun başı üstündə durduğunu görməmişdi. Ülkər çox durdu. Qanbay fikir dənizinə qərq olmuşdu. Ülkər gülə-gülə soruşdu:

– Qanbay, nə düşünürsən,

Qanbay başını qaldırıb Ülkəri görüncə yerindən sıçradı. Ülkər yenə soruşdu:

– Bağalara ot verdinmi?

Qanbay məğrur bir tövrlə:

– Verdim, hamısını əlimdə yedirtdim, – dedi.

– Elə lazımdır. Heç bir zaman qarşılarına ot qoyma, əlindən yeməyi öyrənsinlər, həm də yavaş-yavaş bunları səsə, gurultuya alışdır. Onda tez öyrənirlər.

Qanbay ümidlə parlayan gözlərini ona dikib dedi:

– Ülkər müəllimə, bunları mən necə öyrədim? Haradan başlayım? Bu iş məni çox düşündürür.

Ülkər gülüb dedi:

– Sən onlara nə öyrətmək istəyirsən?

– Oynamaq öyrətmək istəyirəm, – deyə Qanbay tez cavab verdi.

– Oynamaq. Çox yaxşı... Ot yeməyi necə öyrətdin, oyunu da elə öyrədərsən. Təcrübə sənə göstərəcək. Hər işdə mətanətli, dəyanətli olmaq lazımdır. Kitabxanadan sənə bağalar haqqında üç-dörd kitab gətirdəcəyəm. Oxu, onların xasiyyətini yaxşı öyrən. Bu xüsusda kitablar sənə çox kömək edər.

Qanbay bağalarını tərbiyə etməkdə idi. O, bağalarını ancaq müəyyən saatlarda yedirir, yedirtmək istədiyi zaman onları eyvana buraxırdı. Tamaşa üçün toplanmış uşaqların səs-küyü bağaları qorxutmurdu. Qutudan çıxmaq ac bağalar üçün bayram idi. Qanbay bir dəstə bağayarpağını havadan asırdı. Bu yarpaqları elə asırdı ki, bağalar ayaq üstə durmadan və ya başlarını yuxarı qaldırmadan onu yeyə bilməzdi. Sonra kamançasını götürüb çalırdı. Kamança səsi ac bağalara bir müjdə idi; çünki yemək vaxtı gəldiyini bilirdilər. Başlarını uzadıb, o tərəf-bu tərəfə qaçıb, yemək axtarırdılar. Sara onun köməkçisi idi. Yuxarıdan asılmış otu arabir onların kiçik qara dodaqlarına toxundururdu. Bağalar yeməyə hazırlanırkən otu yavaş-yavaş yuxarı çəkirdi. Bu tövrlə bağalara ayaq üstə yemək öyrətmək istəyirdi. İnad bağalar isə bunu istəmirdi. Qanbay çox çalışdı, mümkün olmadı. O, təcrübəsində davam etdi. Ülkər ona: "Hər işdə mətanətli və dəyanətli ol!" – demişdi. Bu sözü Qanbay unutmamışdı. O çox çalışdı. Axırda bağalara ayaq üstə ot yeməyi də öyrətdi.

Hər gün yemək vaxtı onları eyvana buraxır, özü kamança çalır, Sara da ipə bağlanmış ot dəstəsini onların başı üzərində tuturdu. Bağalar ayaq üstə qalxıb otu yeyirdilər.

İki ayda Qanbay ancaq bunu öyrədə bilmişdi. Onun fikri başqa idi. O indi özünə bir müəllim kimi baxmağa başlamış və istəyirdi ki, kamançasını əlinə alıb çaldığı zaman bağaları sirkdəki heyvanlar kimi durub oynasın.

Qanbay bir gün yenə çox məşğul idi. Şəhərdən pioner dəstəsi gəlmişdi. Dəstə rəhbəri görüləcək tədbirlər haqqında məruzə etdi. Məruzədən sonra hamı birlikdə kəndi gəzmiş, oradan dəniz sahilinə getmişdi. Yeməkdən sonra Lenin guşəsində siyasi kitabçalar oxunub təhlil edilmişdi. Qanbay axşama yaxın evə dönmüşdü. O gün bağalar ac qalmışdı. Qanbay evə gəlincə tez bağaları yoxladı. Ac bağalar onu görüncə qutunun ağızlığından başlarını çıxarıb oynamağa başladılar. Qanbay anladı ki, onlar bu hərəkətləri ilə: "Qapını aç, bizə yemək ver", – demək istəyirdilər Qutunu götürüb eyvana gətirdi. Sara hələ gəlib çıxmamışdı. Qutunu açdı, bağaları çölə buraxdı. Kamançasını götürüb çalmağa başladı. Yemək xəbərini verən kamançanın səsindən bağalar ayaq üstə qalxdı və havadan asılmış otu aramağa başladı. Qanbay bunu görüncə sevincək yerindən sıçradı. Kamança əlində otağa qaçdı.

– Ülkər müəllimə, uşaqlar, bura gəlin, sizə tamaşa göstərəcəyəm, – dedi.

Ülkər və uşaqlar onun arxasınca gəldilər. Eyvana yetişincə Qanbay yenə kamança çaldı. Bağalar kamançanın səsini eşidincə ayaq üstə qalxdılar. Uşaqlar gülür, Ülkər gülür, Qanbay sevincindən nə edəcəyini bilmirdi. Qanbay ayağa qalxdı, ipə bağlı ot dəstəsini Süleymana verib dedi:

– Al, bu otu havada tut, onlar yedikcə otun yerini dəyişdir!

İndi Qanbay kamançanı çalır, Süleyman əlindəki ot dəstəsini yavaş-yavaş havada dolandırır, bağalar da onun arxasınca sürünüb yeriyirdi.

Yay tətili bitmiş, Qanbay öz yoldaşları ilə bərabər şəhərə qayıtmışdı. Tətil ona çox şey vermişdi. Vücudu qüvvətlənmiş, fikri inkişaf etmiş, təcrübəsi və siyasi biliyi artmışdı. O hər gün məktəbə, musiqi dərslərinə davam edir və pioner təşkilatlarında çalışırdı. Bağalarını da unutmurdu. Evə gələr, yeməyini rahat-rahat yeyib qurtardıqdan sonra bağalarını düşünməyə başlardı. Hər gün qutunu artırmaya gətirir, ağzını açıb bağalarını çölə buraxırdı. Özü kamança çalır, qardaşı Surxay da kamançanın havasına uyduraraq, otu əlində dolandırırdı. Bacıları, qonşu uşaqları hər gün o kiçik konsertdə iştirak edirdilər. Qanbay təcrübəsini artırmışdı. Bağalara iki oyun öyrətmişdi. Bir neçə dəfə kiçik konsert tərtib edib bağları oynatmış, təcrübədən çıxmışdı. Onları artıq cəmiyyət içərisinə çıxarmaq, müsamirələrdə, konsertlərdə oynatmaq olardı. Bağa kimi çətin əhliləşən heyvanlara oyun öyrətmək

asan iş deyil. Bundan sonra Qanbayın bağalarını, özünü hər kəs tanıyacaq, biləcək , onun hünərinə heyrət edəcəkdi, adı qəzetlərdə yazılacaq, dillərdə söylənəcəkdi.

Qanbay o il yeddillik məktəbi bitirirdi. Onların şərəfinə müsamirə tərtib edilmişdi. Müsamirədə bağalar da iştirak edəcəkdi. Məktəblilər axın-axın gəlir və dəhlizlərdə dolaşırdılar. Salon qapısından asılmış məramnaməni böyük bir dəstə oxuyur və heyrətlə bir-birindən soruşurdu:

– Bu oyunçu bağalar haradadır?

– Bağa da heç oynayarmı?

– Hələ bu Qanbay kimdir?

– Bağalar onundumu?

Qapı ağzında get-gedə adam çoxaldı. Hər kəs səbirsizliklə müsamirənin başlanmasını gözləyirdi.

Birinci zəng vuruldu. Tamaşaçılar salona doldu. Bütün gözlər səhnəyə dikilib qalmışdı. Pərdənin tez açılması üçün şagirdlər ayaqlarını yerə döyür, əl çalaraq, səs–küy qoparırdılar.

Pərdə açıldı. Birinci hissədə şagirdlər şərqi söylədilər, oyun havaları çalıb şerlər oxudular, idman nümunələri göstərdilər. İkinci hissə başlandığı zaman hamının gözü səhnədə qalmışdı. Tamaşaçılar əl çalaraq, "Bağalar gəlsin, bağalar!" – deyə bağırırdılar. Oyun çalğı ilə başlandı. Cürbəcür havalar çalındı. Sonra Qanbay əlində kamança səhnəyə çıxdı. Sürəkli alqışlar salonu bürüdü. O, stula oturub, kamançasını çalmağa başlarkən, bağalar səhnəyə girib, ayaq üstündə qarşı-qarşıya oynamağa başladılar. Salonu səs bürüdü. Hamı gülür, əl çalır, bağalar isə oynamaqda davam edirdi.

Qanbay havanı dəyişdi. Bağalar da tez oyunu dəyişdilər. Tamaşaçılar heyrətdə qalmışdı. Bir az sonra kamança susdu. Oyun bitdi. Qanbay bağalarını da götürüb səhnədən çıxdı. Sürəkli alqışlar davam edir, tamaşaçılar əl çalırdı. Qanbay, bağaları yenidən səhnəyə çağırırdı. Salonu səs-küy bürümüşdü. Hamı Qanbayın oyunçu bağalarını bir də görmək istəyirdi. Bu dəfə Qanbay ilə məktəb müdiri də səhnəyə gəldi. O, tamaşaçıları zor-güc sakit elədi. Sonra sözə başladı:

– Yoldaşlar, tamaşasından doymadığınız bu oyunçu bağalar son sinif şagirdlərimizdən Qanbay Dursunzadənindir. Bu istedadlı kiçik müəllim heyvanları sevən, onların yaşayışını öyrənmək istəyən səbir-

li, dəyanətli, çalışqan bir uşaqdır. Onu sizə çox tərifləməyəcəyəm. Hər müəllimin hünərini onun şagirdlərindən bilmək olar. Oyunçu bağalar Qanbayın necə müəllim olduğunu sizə bildirdi. O bu işin ardınca gedib heyvanat müəllimi olmaq istəyir. Onun bu fikrini ürəkdən alqışlayaraq, bu yolda ona kömək etməyi vəd edirik. Bir gün eşidəcəksiniz ki, şəhərimizə böyük bir sirk gəlmişdir. Bir-birinizdən soruşacaqsınız: "Bu sirkin ən məşhur təlimçisi kimdir?" Qəzetlərdə elan oxumuş yoldaşlarınız sizə deyəcək: "Qanbaydır, oyunçu bağaların təlimçisi". Sirkə dolacaqsınız. Qanbayın əsil hünərini siz o zaman görəcəksiniz. İndi isə mükafat olaraq təbiət kabinəsi bu üç kitabı ona bağışlayır. Sizin hər birinizi də Qanbay kimi böyük bir hünər və sənət sahibi görmək istəyirəm.

Bu sözləri deyib müdir kitabları Qanbaya verdi. Salon onu alqışlarkən baş əyib, müdirlə bərabər səhnədən çıxdı. Tamaşaçılar əl çəkmir, Qanbay ilə bağaları yenidən səhnəyə çağırırdılar. Salonu gurultu bürümüşdü. Qanbay bağaları ilə yenidən səhnəyə gəldi. Bağaları səhnəyə buraxıb kamançasını çaldı. Bağalar əvvəlkindən daha həvəslə oynamağa başladı. Uşaqlar əl çalır, sevincdən sıçrayıb bağırırdılar.

Kamança susdu, bağalar durdu. Qanbay gurultu və alqışlar içərisində tamaşaçılara baş əydi. Birdən birə orkestr çalmağa başladı. Uşaqlardan biri çığırdı:

– Bağaların havasını çal!

Orkestr bağaların bildiyi havalardan birini çaldı. Bağalar əvvəlcə hürküb, bir-iki saniyə durub dinlədi. Sonra birdən-birə ayaq üstə qalxıb, o havanı şirin-şirin oynamağa başladılar. Salon yenidən canlandı, tamaşaçılarda gülməkdən can qalmadı.

*1934*

# KƏLƏKBAZ ALBERT

Lerqo bez fabrikasında fəhləlik edirdi. Qaniçən faşistlərə qarşı onda dərin bir kin var idi. Faşistlərlə vuruşma başlar-başlamaz Lerqo öz arvadı ilə bərabər cəbhəyə getdi; on altı yaşında oğlu Alberti öz yaxın qonşusu və səmimi dostu olan Albaressaya tapşırdı.

Albert ağıllı, ürəkli və mətanətli bir çocuq idi. O, bilmədiyi şeyləri soruşub öyrənmək istəyər və gördüyü maraqlı hadisələri özünəməxsus dadlı bir dil ilə, qonşusu Albarasseya nağıl edərdi. Albaressa onu öz nəvəsi kimi sevərdi.

İspaniya qiyamçıları Almaniya və İtaliya faşistlərindən qüvvət alıb şəhərə hücuma başladıqları zaman respublikaçılar çocuqları, əlsiz, ayaqsızları səlamət yerlərə köçürmüşdülər. Yalnız Albert və Albaressa yaşadığı küçədə bir neçə çocuq, qoca kişi və qadın qalmışdı. Küçə faşistlər əlinə keçdiyindən bunları köçürməyə artıq vaxt olmamışdı. Madrid şəhəri küçələrində çarpışma gündən-günə şiddətlənir, faşistlər tez-tez hücuma keçirdi. Respublikaçılar düşmənin yeni qüvvət aldığını bildiyindən daha mətanətlə çarpışıb düşmənə böyük tələfat verirdi. Topların gurultusu, bombaların vıyıltısı, pulemyotların şaqqırtısı, tankların taqqırtısı qulaq batırırdı. Evlər, qapılar, pəncərələr zağ-zağ titrəyirdi.

Od içində qalmağa məcbur olan Albert birinci gün çox qorxmuşdu. O, bir tərəfdən cəbhədə çarpışmaqda olan ata-anasını, o biri tərəfdən də öz ağır və qorxulu vəziyyətini düşünürdü. Ona ürək və təsəlli verən yalnız qonşusu və baba kimi sevdiyi qoca Albaressa idi. Albaressanın qanadları altına sığınıb hər dərdini, kədərini onunla unudurdu. O, artıq yavaş-yavaş səsə, küyə alışmağa başlayırdı. Yaşadıqları dördüncü qatda Albaressa pəncərədən açmış olduğu deşikdən çarpışmaya tamaşa edir və respublikaçıların tezliklə qalib gəlməsini səbirsizliklə gözləyirdi.

Bir gün Albert qoca Albaressaya dedi:

– Bir az böyük olsaydım, mən də cəbhəyə gedərdim.

Qoca Albaressa gülə-gülə kiçik Albertin parlaq gözlərinə baxıb soruşdu:

– Sən cəbhədə neylərdin?

– Neylərdim? Bu canavarların ordusunu bir gündə dağıdardım!

Albaressa kiçik vətəndaşın başının əlilə oxşadı:

– Sən qorxma, bizim qəhrəman ordumuz düşməni darmadağın edəcək.

Albert qocaya bir az da yaxınlaşdı. Kiçik, ağıllı gözlərini onun gözlərinə dikib soruşdu:

– Baba, bu alman və italyan faşistləri ölkəmizə nə üçün ordu göndərir?

Qoca Albaressa əlini onun çiyninə qoyub cavab verdi:

– Oğlum faşistlər xalq azadlığının düşmənidir. Onlar öz səadətini başqa xalqların fəlakəti üzərində qururlar. Faşizm hər cür azadlığın düşmənidir.

Bu sözlərdən Albertin üz-gözü dumanladı. Bir az düşündükdən sonra başını qaldırıb dedi:

– Biz öz faşistlərimizi ölkəmizdən qovub çıxarmaq istəyirdik. Bu canavarlar hara gəlir?

– Hara gəlir? Leş, cəmdək üstünə. Bizim vətənimizi özlərinə müstəmləkə etmək istəyirlər.

– Necə? Müstəmləkə?!

– Bəli, müstəmləkə! Yoxsa, nə üçün gəlirlər? Bu istilaçılar həmişə başqa xalqın torpağına göz dikir. Müstəmləkəçilik onların siyasətidir.

– Yox, biz onlara öz torpağımızdan bir qarşı da verməyəcəyik!

Qonşu küçədə şiddətlə gurlayan topun səsi danışığa mane oldu. Artıq hər iki tərəf hücuma keçmişdi. Albaressa pəncərə deşiyindən baxıb Alberti çağırdı:

– Albert, gəl bax, faşist zabiti əlində durbin orduya komanda verir.

Albert tez yaxınlaşıb diqqətlə küçəyə baxdı. Zabit səngər içində, əlində durbin, qarşısında cəbhənin planı, telefon ilə əmrlər verirdi. Albert başını çəkib Albaressaya baxdı. O baxışlar çox mənalı idi. Pəncərədən çəkilib dedi:

– Baba, bu zabit bizim pəncərənin düz altında durub. Albaressa yavaşca:

– Yox, Xuanın pəncərəsi altındadır. Albert tez qapını açıb dişarı çıxdı. Albaressa çocuğun bu hərəkətindən şübhələndi. Onun nə üçün getdiyini və nə yapmaq istədiyini bilmək üçün arxasınca getdi. Albert yarım pudluq qalın bir dəmir parçasını qolları üstünə götürüb hıqqana-hıqqana pəncərəyə tərəf apardı. Albaressa əsəbi səslə bağırdı:

– Albert, neyləyirsən?

Albert qaşlarını çataraq kəskin bir səslə:

– Bunu faşist zabitinin başına salacağam – dedi.

Albaressa ona mane olmaq istədi. Albert öz fikrində inad göstərdi. Albaressa ona dedi:

– Sənin gücün çatmaz, onu ver mən atım.

Albert razı olmadı. Bunların səsinə qonşu Xuan gəldi. Xuan köhnə əsgər idi. Onun atası və kiçik qardaşı əsgərlikdə ölmüşdü. Özü də bütün həyatını əsgərlikdə keçirmişdi. Mərakeş xalqı İspaniya hökumətinə qarşı üsyan etdiyi zaman Xuan da orduya göndərilmişdi. Müharibədə ayağından aldığı yaradan şikəst qalmışdı. Xuan əhvalatı anlayanda dəmir parçasını Albertin əlindən dartıb aldı. Sonra əli ilə onları itələyib:

– Siz gördüyünüzü mən də görmüşəm. O, bizim pəncərənin altında durur. Siz buradan çəkilin. Bu mənim işimdir! – dedi.

O bu sözləri o qədər qəti dedi ki, Albert və Albaressa susmağa məcbur oldu. Xuan dəmir parçasını öz otağına gətirdi. Küçələrə qarşı olan pəncərələri açmaq yasaq olduğu halda pəncərəni yavaşca açdı və dəmir parçasını düz zabitin başına atdı. Dərhal pəncərədən çəkildi. Dəmir zabitin başını partlatdı. Dərhal küçədə səs-küy qopdu. Pəncərəni yaylım atəşinə tutdular.

Çox çəkmədi ki, həyətin dəmir darvazası şiddətlə döyülməyə başladı. Xuan Albertə və Albaressaya dedi:

– Siz çəkilin, məni aparmağa gəlirlər. Albert onun əlindən tutub:

– Qorxma, gəl, mən sizi gizləyəcəm, heç görməyəcəklər – dedi. Xuan onun sözünə əhəmiyyət vermədi. Albert isə əl çəkmədi, onun qolundan tutub:

– Xuan dayı, mən səni elə yerdə gizləyəcəm ki, heç kəs tapa bilməyəcək. Bircə sən gəl! – deyə fikrində inad etdi.

Darvaza qapısı açılıb jandarmlar, polislər içəri girmişdi. Həyətdə səs-küy getdikcə çoxalırdı. Xuan otağının içində durub yerindən tərpənməyirdi. Albaressa işə qarışdı. Albert onu Albaressanın otağına gətirdi. Albaressanın böyük bir palazı var idi. Albertin göstərişi ilə palazı tez açdılar. Xuanı palaza səriyib divara söykədilər.

Jandarmları dəmir atılan pəncərənin otağına girib Xuanı axtarırdılar. Orada tapmayınca qonşu otaqları bir-bir gəzdilər. Albaressanın otağını da aradılar. Otağı alt-üst etdilər. Hətta əyri və ağzı qıfıllı sandığın da ağzını açıb baxdılar. Xuanı tapmadılar. Jandarmlar acıqlarından dil-dodaqlarını çeynəyirdi. Albaressanın otağına bitişik olan qonşusu Mariya Albaressanı şübhəli baxışlarla süzərək:

– Yəqin onu gizləmişlər – deyirdi.

Jandarmlar Albaressanı çox sıxma-boğmaya saldılar. Yoğun və qısa boylu jandarm tüfənginin qundağı ilə onu vurmağa başladı. Albert:

– Mənim babamı niyə vurursunuz? – deyə Albaressaya sarıldı. Uca boylu, canlı bir jandarm Albertin qolundan tutub özünə tərəf çəkərək:

– De görüm o kişini harada gizləmisiniz? Yoxsa hər ikinizi öldürəcəyik – dedi.

Albert:

– Bizim xəbərimiz yoxdur! – dedi. Jandarm onun üzünə üç-dörd sillə çəkdi. Kiçik Albertin üzündə jandarmanın barmaq yerləri qıpqırmızı görünür, gözlərinə qan çökmüşdü, ağlaya-ağlaya cavab qaytardı:

– Bizi nə üçün döyürsünüz? Onunla bizim nə işimiz var? Qoçaqsınız axtarın, tapın!

Jandarmlar söylənə-söylənə getdilər. Fəqət o evi dörd tərəfdən əhatə etmişdilər. Döyüş şiddətlənirdi. Komandanı ölmüş olan faşist dəstəsi respublikaçıların şiddətli atəşi altında yavaş-yavaş geri çəkilirdi. Oğlu faşist zabiti olan Mariya get-gedə əsəbiləşirdi. O faşist komandanının ölməsini bu evdə yaşayan adamlardan gördüyü üçün hamıya düşmən kəsilmişdi. Albaressanın bu işdən xəbəri olduğunu duymuşdu. Ona görə də Xuanı harada gizlətmiş olduğunu bilmək üçün Albaressanı pusurdu.

Jandarmlar getdikdən sonra Albert ilə Albaressa Xuanı palaz içindən çıxartdılar Xuan ələ keçmədiyindən, jandarmları aldada bildiklərindən Albert çox sevinirdi. Onlar öz aralarında şən-şən danışırdılar Mariya onların danışığını eşidib qapı ağzından pusmağa başladı. Xuan deyirdi:

– Sağ ol Albert, sən məni ölümdən qurtardın, bu palaz sənin yadına hardan düşdü? Palaz olmasaydı neylərdiniz?

– Palaz olmasaydı başqa şey düşünərdim, – deyə Albert ona cavab verdi. Mariya bunu eşidincə tez aşağı endi. Əhvalatı dəmir darvaza ağzında duran jandarmlara xəbər verdi. Jandarmlar yenidən həyətə doldu. Fəqət onlar respublikaçıların irəlilədiyini və faşist ordusunun geri çəkilməkdə olduğunu bilirdilər. Ona görə də könülsüz olaraq yenə haman jandarma Albaressanın evini yoxlamağa çıxdı. Albert onların gəldiyini görmüşdü. Xuanı tez böyük sandığın içinə qoyub ağzını bağladı. Jandarmlar gəldi. Albaressanın otağına girincə palazı açdılar. İçində heç bir şey yox idi. Albaressanı və Alberti yenə çox incitdilər. Bir fayda vermədi. Onlar gedirkən:

– Biz səninlə atışma sakit olandan sonra danışacağıq, – dedilər.

Jandarmlar getdi. Albert sandığı açıb Xuanı çıxartdı Hər üçü sevinə-sevinə oturub danışırdılar. Albaressa dedi:

– Bu azğınlar qurd kimi qoxu bilir. Onları Xuanı palaz arasında gizlətdiyimizi eşidib gəlmişlərdi.

Sonra əlavə etdi:

– Bu, Mariyanın işi olacaq. O faşistin bizi görən gözü yoxdur.

Albaressa onun sözlərini təsdiq etdi:

– Jandarmlar bu dəfə gələndə mən çox qorxdum. Yoğun və qısaboylu jandarm sandığa bir neçə dəfə əyri-əyri baxdı. “Sandığı açın” – desəydi, neylərdik? Albert ayaq tappıltısı eşitdi. Əlini ağzına qoyub “s...s!” deyə, işarə etdi; sonra yerindən qalxıb qapını birdən-birə açdı. Mariya onları qapı ağzında durub dinləyirdi. Alberti görüncə o qıpqırmızı qızardı.

– Ey qarı, sən bizim qapımızı nə üçün pusursan?

Qarı əllərini ovuşdura-ovuşdura qırıq bir səslə cavab verdi:

– Mən nə üçün sizin qapını pusum? Sizə sözüm var idi, onu deməyə gəlmişdim.

– Nə sözün var idi?

Mariya söz tapmadı.

– Aşağı enmək istəyirəm, qapıdan göz-qulaq olun!

Albaressa etinasız:

– Sənin otağında kimin nə işi var?

Albert düşünürdü. Xuan gülə-gülə ondan soruşdu:

– Kiçik qəhrəman, indi nə düşünürsən?

Albert düşünə-düşünə cavab verdi:

– Bu xain yenə xəbərə getdi. Bu dəfə də gəlsələr səni harada gizləyim? Bax bunu düşünürəm.

Birdən Albert sevinclə bağırdı: “Aha tapdım!” Sözünü bitirməmiş tez dışarı çıxdı. Bir az sonra qoltuğunda əyri bir qabaq içəri girdi:

Xuan dayı, qalx gedək!

– Xuan bir Albertə baxdı, bir də onun qoltuğundakı əyri qabağa, heyrət soruşdu:

– Hara, oğlum?!

– Mariyanın hovuzuna!

– Fikrin nədir?

– Bu dəfə səni hovuzun içində gizləyəcəyəm. Sən suya girərsən. Bu qabağı da başına keçirərsən – deyə, Albert çoxdan başını kəsmiş və

içini çıxartmış olduğu qabağı təcrübə üçün Xuanın başına keçirdi. Qabaq onun başını və boynunu gözəlcə gizləyə bilirdi. Albaressa:

– Albert, səndə şeytan ağlı var, bu qabaq haradan sənin fikrinə gəldi? Bu dəfə Xuanı heç faşistlərin babası da tapa bilməz.

Xuan qabağı başından çıxarıb:

– Bunun içində nəfəsim darıxar. – dedi. Albert qabağın bir neçə deşilmiş yerini göstərib:

– Bax, buradan hava alacaqsan, bunu mən nə öz quşum üçün qayırmışdım – deyə Xuanı sakit etdi.

Bu əsnada həyətdə səs-küy qopdu.

Xuan tez Mariyanın mətbəxinə qaçdı. Jandarmların yaxınlaşdığını görüncə hovuza girib qabağı da başına keçirdi.

Jandarmlar bu dəfə çox ağzıdolu gəlmişdi. İçəri girincə Albaressaya qəzəbli səslə bağırdılar:

– Ey qoca, qalx o adamı ver, yoxsa səni də bu uşağı da aparıb öldürəcəyik!

Albaressa:

– Mən onu haradan verim? Yerdən çıxartmayacağam ki!.. Bu otaq, bu da siz, əgər mənim evimdə tapsanız, nə istəyirsiniz edin!

Qısaboylu, yoğun jandarm zorla öz qəzəbini boğdu:

– Ver bura açarı!

Albaressa açarı verdi. Jandarm sandığı açdı. İçində heç bir şey yox idi. Hər ikisi bir-birinin üzünə baxdı. Albert irəli gəlib öz şirin dili ilə onları sakit etməyə çalışdı:

– Vətəndaşlar, bu bizim otaq, bu da siz, biz onu harada gizləyəcəyik? Həm də nə üçün gizləyək? Siz o Mariyanın sözünə inanmayın. O həmişə babam Albaressa ilə dalaşır. Nə deyirsə, hamısı yalandır.

Albertin şirini dil də onları sakit etmədi. Mariya faşistləri elə inandırmışdı ki, əl çəkmirdilər. Alberti və Albaressanı tüfəng qundağı ilə xeyli döydülər. Bir fayda olmadı. Qısaboylu, yoğun jandarm gedirkən:

– O adamı verməsəniz, eviniz topa tutulacaq. Bu artıq qərara alınmışdır, – dedi.

Jandarmlar getdi. Albert və qoca Albaressa yedikləri tüfəng qundaqlarından bədənləri qapqara qaralmışdı. Hər ikisi bir-birinə ürək vermək üçün zor-güc özlərini saxlaya bilirdi. Albaressa yerə oturub səssizcə düşünürdü. Xuan onların yadından çıxmışdı. Bu zaman Mariya daş dəymiş ayı kimi donquldana-donquldana evə gəldi. Görü-

nürdü ki, xəbərlər yalan çıxdığından jandarmlar onu incitmişdilər. Nə isə bir şey almaq üçün koridordan o birbaş mətbəxə girdi. Jandarmların getdiyini duymuş Xuan da bu zaman başından qabaq hovuzdan çıxdı. Mariya onu görüncə qorxa-qorxa geri çəkildi və səsi gəldikcə bağırıb yerə yıxıldı. Onun bu qorxunc səsinə Albert və Albaressa da gəldi. Mariya ölü kimi yerə sərilmiş, qorxusundan gözləri kəlləsinə çıxmışdı. Xuan da onun başı üstündə durub heyrətlə ona baxırdı.

– Qonşu, Xuanın başına qabaq keçirib hovuzda gizləyirsən, sonra da bizdən xəbərçiliyə gedirsən.

Mariya cavab vermədi.

Döyüş şiddətlənirdi. İrəliləməkdə olan respublikaçıların pulemyotları altından faşist ordusu dəstə-dəstə geri çəkilirdi. Xuan Albaressanın otağındakı pəncərənin deşiyindən çəkilməkdə olan faşist dəstələrinə baxıb sevinirdi. Birdən qapıya yüyürüb bağırdı:

– Albert, gəl bir bax, faşistlər qaçırlar.

Albert Albaressanın əlindən tutub sevinə-sevinə qaçdı. Mariya ilan vurmuş kimi acığından qovrulurdu. Kinindən dil-dodağını çeynəyirdi. Qonşuların getməsindən istifadə edərək cəld qalxdı, otağın və mətbəxin qapısını bağlayıb getdi. Albert birdən Mariyanı xatırladı. Onun yenə xəbər üçün gedəcəyindən qorxurdu. Nə yapdığını bilmək üçün artırmaya çıxdı. Mariya otaq və mətbəx qapısını da bağlayıb getmişdi. Albert tez geri qayıtdı. Barmağı ağzında durub düşünürdü. Xuan onu görüb soruşdu:

– Kələkbaz, daha nə düşünürsən. Bir saat sonra bizim müzəffər ordunu salamlayacağıq. Sən gəl çiçək hazırla! Albert başını qaldırıb düşüncəli vəziyyətdə dedi:

– O bəxtiyar günü görmək üçün səni qurtarmaq lazımdır. Mariya qapısını, mətbəxini, bağlayıb xəbərə getmişdir. Jandarmlar bu saat gələcək. Buna bir çarə düşünürəm.

Xuan ona gülə-gülə cavab verdi:

– İspan xalqının aslan balaları, kaş, bu azğınlara qalib gəlsin, mən ölümdən qorxmayıram.

Albert ona cavab vermədi; düşüncəli bir halda otaqdan çıxdı. Bir az sonra əlində iri bir zənbil gülə-gülə içəri girdi. Albaressa və Xuan ona baxıb gülürdülər. Albaressa dedi:

– Ağıllı bala, indi fikrin nədir?

Albert zənbili yerə qoyub dedi:

– Xuan dayı, bu dəfə səni bu zənbilin içində tavandan asacağam.

Xuan bir Albertə baxdı, bir də köhnə, bu böyük zənbilə. Üzünü Albaressaya tutub cavab verdi:

– Bizim zənbil məni saxlamaz, oradan başı üstündə yerə gələrəm.

Albert əlini Xuanın çiyninə qoyub onu sakit etdi:

– Mən elə bir iş yapacağam ki, yıxılsan da, ziyan dəyməyəcək.

Bunu deyib Albert tez dışarı çıxdı. Pəncərədən həyətə baxanda gördü ki, iki jandarm aşağıda pilləkəndə astadan danışır; yuxarı çıxmaqda tərəddüd göstərirlər. Albert gözlərini onlardan ayırmayırdı. Onlar bir-birilə çox məsləhət etdi. Nəhayət, ucaboylu kök jandarm yavaş-yavaş pilləkənləri çıxmağa başladı. Albert tez otağına girib "gəldilər!" deyə bağırdı. Albaressanın köməyi ilə Xuanı zənbilin içinə qoyub ip ilə yuxarı çəkdilər və ipi tavanın orta mismarına möhkəm bağladılar. Sonra ayaqları altına qoyduqları masanı və iskəmləni götürüb bir tərəfə çəkildilər. Albert qapıya çıxdı. Onlara tərəf gələn jandarmı qarşılayaraq:

– Bax, vətəndaş, sən bizi boş yerə bu qədər incitdin, o kişini Mariya mətbəxdə, hovuzun içində gizlətmişdi. Başına böyük bir qabaq keçirmişdi, – dedi.

Jandarm gülümsəyərək:

– Bəs o hara getdi, harada gizləndi?

– Mən artırmadan keçəndə hovuzdan çıxdığını gördüm. Əvvəlcə qorxdum, sonra qabağı başından çıxaranda tanıdım. Babama xəbər vermək üçün otağa qaçdım, bu gülməli əhvalatı ona danışdım. Biz artırmaya çıxınca o yox olmuşdu. Nə oldu hara soxuldu, bilmədik. Bax, mətbəxi bağlayıb getmiş, bəlkə də yenə oradadır?

Jandarm acı-acı güldü:

– Bilirəm, onu siz gizlədirsiniz. Bu dəfə sizi aparmağa gəlmişəm.

Bunu deyib jandarma Albaressanın otağına girmək istədi. Albert gördü ki, Xuanın ayağı zənbilin deşiyindən görünür. Jandarm onu görməsin deyə Albert bir fənd işlətdi. İçəri girincə onun başını qarışdırıb tam zənbilin altında bir kürsü qoydu. Jandarmın qolundan tutub:

– Sən bu kürsüdə otur, mən sənə əhvalatı söyləyim – dedi.

Jandarm pilləkanları çıxıb enməkdən onsuz da yorulmuşdu. Özünü kürsünü üstünə salıb oturdu. Albert ona dedi:

– Vətəndaş, Jandarm mən Xuanı əgər bilmək istəyirsinizsə, əvvəldən sevməyirəm. O da məni heç sevməz; məni görən kimi qaçır.

Çünki ona mən belə bir mahnı qoşmuşam. Bunu deyib Albert oxumağa başladı:

“Başın kəlikdir, ey Xuan,
Qəlbin çəlikdir, ey Xuan.
Ayağını çək yuxarı,
Zənbil dəlikdir, ey Xuan!”

Xuan anladı ki, Albert bu sözlərlə ona işarə edir. Çünki onun ayağı zənbilin dəliyindən xeyli bayıra çıxmışdı. Jandarm başını qalxızsaydı, onu dərhal görə bilərdi. Odur ki, Xuan zənbilin içində özünü toplayıb, ayağını deşikdən çəkmək istəyirdi ki, zənbilin qulpu qırılıb jandarmın başına düşdü. Jandarm ağzı üstündə yerə sərildi. Onun boynu içinə batmışdı. Xuan yerə düşüncə özünü toplayıb birbaş öz evinə qaçdı, qapını içəridən bağlayıb oturdu. Jandarm yerdə ufuldayırdı. Albert pəncərəyə yanaşıb, birdən bağırdı:

– Vay, faşistlər qaçmışlar, respublikaçı atlılar küçədə dolaşır; jandarmları öldürürlər.

Bu sözləri eşidən jandarm boynunu əyə-əyə başını qaldırdı, cəld ayağa qalxdı, vəziyyətin çətinliyini görüb həyəcanla: “Vay mən neyləyəcəm?” deyə Albertin üzünə baxdı. Albert sandığın ağzını açıb:

– Gəl bura, burda səni tapmazlar, – dedi.

Albert ilə Albaressa onun qolundan tutub çəkə-çəkə gətirib sandığına soxdular, Albert sandığın ağzını bağlayıb açarı cibinə qoydu və gülə-gülə Albaressaya baxıb yavaşca:

– Bundan qurtardıq, – dedi.

Bu ara küçədə səs-küy çoxaldı. Doğrudan da respublikaçılar qaçan faşist əsgərlərini təqib edir, əllərinə düşən jandarm nəfərlərini öldürürdülər. Jandarmlar can qorxusundan özlərini həyətlərə soxub, gizlənirdilər. Albaressa ucadan bağırdı:

– Ay, bizimkilər gəldi, bizimkilər gəldi!

Albert Xuana xəbər vermək üçün otaqdan çıxdı. Artırmada iki jandarm ilə üzləşdi. Onlardan biri:

– Balaca, bizi gizləyə bilərsinizmi? – deyə ondan kömək istədilər. Bunların birisi haman qısaboylu yoğun jandarm idi. Albert hərifləri otağa apardı.

Qısaboylu jandarm əlini Albertin çiyninə qoyub dedi:

– Sənə mən çox əziyyət vermişəm. Vaxt olar, xəcalətindən çıxaram.

Albert ona cavab vermədi. Albaressanın köməyi ilə birisini palazın arasında gizlətdilər. Qısaboylu jandarmı da zənbilin içinə qoyub tavandan asdılar. Uzun kəndirin ucunu da qapı yanında vurulmuş mismardan bağladılar. Bu yerdə Mariya ağlaya-ağlaya içəri girdi:

– Bax, mən sizi saxladım, indi də siz məni saxlayın, düşmən gəlir.

Albert onu öz mətbəxinə aparıb hovuzun içində oturtdu; qabağı da başına keçirtdi:

– Qorxma, səni burada heç kim tapa bilməz!

Küçələrdə zəfər marşı çalındı. Albaressa pəncərələri geniş-geniş açdı. Xuan da gəldi. Daşqın sevinc içində orduya dəsmal sallayıb salamladılar:

– Yaşasın İspaniyanın müzəffər respublikaçı ordusu!

Bu zaman bir dəstə atlı zabit gəlirdi. Onlar küçənin ortasında dayandı. Zabitlərdən birisi əli ilə göstərib:

– Onu, bax, burda vurdular, mən durbinlə gördüm – dedi. Albert bağırdı:

– Vətəndaşlar, o faşist zabitini, bax, bu Xuan dayı öldürdü. Dəmir parçası ilə başını partlatdı.

Albert o qədər ucadan qışqırdı ki, zabitlər cəld ona sarı çevrildilər, razılıq əlaməti olaraq papaqlarını çıxartdılar. İçlərində rütbəcə ən böyük olan ucadan səsləndi:

– Vətəndaşlar aşağı enin!

Xuan Albertin başını qucaqlayaraq:

– Hörmətli zabitlər, – deyə səsləndi: – bu fikri mənə verən, döyülməyinə baxmayaraq məni dörd dəfə faşist jandarmlarından gizləyən bu kiçik qəhrəman Albert ilə Albaressadır. Biz aşağı enməkdənsə, siz yuxarı çıxın, bu kiçik qəhrəmanın ağlasığmaz işlərini görün, həm də sizin üçün hazırladığı dörd hədiyyəni təslim alın!

Zabitlər gülə-gülə, həm də təəccüblə bir-birinə baxdılar. Üç zabit atdan enib həyətə girdilər. Xuan onları Albaressanın otağına gətirdi. Bir-biri ilə yaxın dost kimi görüşdülər. Qoca Albaressa əhvalatı başdan ayağa zabitlərə nağıl etdi. Zabitlər onu heyrətlə dinləyirdilər. Xuanı gizlədərkən Albertin yapdığı işlərə qəhqəhə çəkib güldülər.

Kiçik qəhrəman Albert onların gözündə böyümüşdü. Onun hünərinə, ağıl və kamalına heyran qalıb:

– Sağ ol, kiçik qəhrəman Albert! – deyə, onu qucaqlayıb alnından öpürdülər. Albaressa gülə-gülə:

– Albert, durma, hədiyyələri də təslim et! – dedi.

– Albert palaza yanaşdı. Onun ucundan tutub bütün qüvvəsi ilə dartdı; Albaressa və Xuan da ona kömək etdilər. Palazı açınca içindən jandarm çıxdı. Albert onun qolundan tutub zabitlərə dedi:

– Götürün, bu biri!..

Sonra sandığı açıb ikinci jandarmanı çıxardı.

– Bu da iki...

Xuanla divara bağlanmış ipi açıb yavaş-yavaş aşağı endirdi. Zabitlər zənbilin içində büzüşüb duran jandarmı görüncə gülüşdülər.

Zabitlər jandarmları tərki-silah etdikdən sonra kiçik binanın mərd sakinlərinə təşəkkür etdilər, onlarla birlikdə qərargaha getməyi arzuladılar.

– Siz də bizimlə bərabər qərargaha gedəcəksiniz. Əsgərlərimiz sizin kimi qəhrəmanları görməlidir.

Albert isə hələ məzhəkəni davam etdirirdi:

– Ay, dördüncü hədiyyəm qalmışdır, onu da təslim alın!

Zabitlər onun arxasınca mətbəxə girdilər. Mariya başında qabaq hovuzun içində səssiz oturmuşdu. Xuan dedi:

– Dostlar, dördüncü faşist harada gizlənib? Tapın!

Zabitlər mətbəxin hər tərəfinə baxıb bir şey görmədilər. Albert gülə-gülə qabağı Mariyanın başından qaldırdı. Zabitlər heyrətlə bir-birinin üzünə baxdı; sonra ucadan güldülər. Hamı balaca Albertin kələkbazlığına heyran qalmışdı. Zabitlərdən biri soruşdu:

– Kiçik qəhrəman, bu fikirlər sənin başına haradan gəldi? Bunları böyük adam da düşünüb tapa bilməz.

Albert qaşlarını çataraq dərhal cavab verdi:

– Bu fikirləri məndə oyadan vətənimə olan sevgimdir. Biz ölənəcən faşistlərlə çarpışacağıq, torpağımızdan onlara bir qarış da verməyəcəyik!

Zabitlər iftixarla Alberti bir neçə dəfə atıb-tutub:

– Yaşasın vətənimizin qəhrəman oğlu kiçik Albert! – deyə çığırırdılar.

Mariya saçları dağınıq halda qorxa-qorxa hovuzdan çıxdı. Onu da jandarmlara qatıb küçədəki gözətçilərə təslim etdilər.

Albert zabitlərlə yan-yana at üstündə gedirdi. Küçədən keçən xalq bağırırdı:

– Yaşasın ispan xalqının yenilməz ordusu!

Zabitlər də Alberti göstərək deyirdilər:

– Yaşasın ispan xalqının qəhrəman balaları!

# KİÇİK QƏHRƏMAN

Azayın atası Böyük Vətən müharibəsinin lap birinci ilində əsgər getmişdi. Anası da dəmir yolunda işə düzəlmişdi. Atasının ayrılığı Azaya çox təsir edirdi, onu hər yadına salanda faşistlərə lənət oxuyurdu.

Bir gün Azay yuxudan həyəcan içində oyandı. Çox halsız və nəşəsiz idi. Anası oğlunun bu vəziyyətindən narahat oldu:

– Oğlum, niyə qəmlisən, nə olub?

– Heç!

– Necə heç, rəngin qaçmış, üz-gözünə qəm, kədər tozu çökmüş, yoxsa atanın xiffətini edirsən?

Azay başını köksünə dikərək bir az sakit durdu, sonra başını qaldırmadan dedi:

– Ana, atamı əsgər paltarında cəbhəyə göndərdiyimiz gün yadındadırmı?

– Yadımdadır oğlum, o gün həm şən, həm də kədərli idi. Əsgər paltarı isə ona gözəl yaraşırdı. Qatar yola düşəndə gülə-gülə səni qucaqladı: "İgid oğlum, mərd ol, – dedi, – ata düşünmə, mənim üçün darıxsan, ana vətənə qulluq et, o mənim üçün hər şeydən, atadan, anadan da əzizdir". Azay anasının sözünü bitirməyə imkan vermədi:

– Yadımdadır... mən onun boynunu qucaqlayıb hönkür-hönkür ağlayırdım. O məni qucaqlayıb öpəndə yaşlı kirpikləri üzümü islatdı. Qatar hərəkət etmək üzrə idi. Məni zor-güc sakit edib vaqona atıldı. Qatar fil çala-çala hərəkət etdi. O pəncərədən bizə baxırdı, mən də ona... bunlar yadındadırmı?

– Yadımdadır oğlum!..

– Bu gecə olduğu kimi bunları yuxumda görmüşəm. Qatar hərəkət edərkən sənə baxıb hönkür-hönkür ağlarkən öz səsimə oyandım.

– Xeyirdir oğlum, ağlamaq sevinməkdir, inşallah, müharibə zəfərlə başa çatar, atan da sağ-salamat qayıdar.

Azayın gecədən bəri köksünə sığmayan kədəri elə bil bir qədər sovuşdu...

Sərin, buludlu bir gün idi. Azay dəmiryolunun şimala doğru uzanan yaşıl çəmənliyində çiçək dərə-dərə gedirdi. Əlvan çiçəklərdən bir dəstə bağladıqdan sonra dincəlmək üçün bir komanın ətəyində uzandı.

Azay gözlərini dəmiryoluna dikərək nə isə düşünürdü. Atası bu yolla getmiş, bu yolla da qayıdacaqdı. Bu yollar nə qədər Azay kimi

oğulların atasını cəbhəyə aparmışdı; günlərin bir günündə bu yollar həmin ataları öz ailələrinə, balalarına qovuşduracaqdı. Bu zaman Azayın gözlərinə bir kölgə ilişdi. Diqqətlə baxıb gördü ki, tanımadığı bir adam dəmiryoluna yaxınlaşıb şübhəli nəzərlərlə ətrafı baxdı. Sonra relslərin altını sürətlə qazaraq oraya nə isə qoyub qorxa-qorxa sürətlə geri çəkildi. Azay yad adamın bu hərəkətlərindən çox şübhələndi, dərhal ayağa qalxıb onu qarşıladı. Yad adam Azayı görən kimi yolunu dəyişərək ondan uzaqlaşmaq istədi. Azay buna imkan vermədi:

– Ey kimsən?

Yad adam gülümsəməyə çalışdı:

– Neyləyirsən? Mən də sənin kimi bir vətəndaş! De görüm, sən kimsən?

Azay cavab verməyib şübhəli nəzərlərlə ona baxdı. Yad adam söhbətin səmtini dəyişmək istədi:

– Sənin də atan cəbhədədir?

– Bəs harda olacaq? Göndərsələr sən də gedərəm.

Kişi fürsəti fotə verməməyə çalışdı:

– Eh...h... Atalar neylədi ki, sənin kimi südəmər oğullar neyləsin.

Azay acıqlı-acıqlı ona baxdı. Yad adam buna əhəmiyyət verməyib sözünə davam etdi:

– Yazıq, sənin vətəninmi var?.. Bu gün, sabah almanlar onu da alacaq, vətənsiz qalacaqsan...

Azayın gözləri kəlləsinə çıxdı. Dərhal atasının sözləri yadına düşdü: "Atanı düşünmə, mənim üçün darıxsan, ana vətənə qulluq et! O mənim üçün hər şeydən – atadan da, anadan da əzizdir". Bu sözləri xatırlayıb Azay qəhərləndi, gözləri doldu özünü saxlaya bilməyib, ondan uzaqlaşmağa çalışan yad adamın üstünə atıldı, iki əli ilə boğazından yapışdı:

– Ay xain, mənimmi vətənim yoxdur... Nə? Mənim vətənim yoxdur?!

Yad adam boğazını zor-güc Azayın əlindən qurtarıb kənara çəkildi:

– Şeytan oğlu, bu saat səni atavın yanına göndərəcəyəm – deyə cibindən bir fin bıçağı çıxardı. Hücum etmək istədikdə Azay yerdən böyük bir daş götürüb onun əli qarışıqlı fin bıçağına vurdu. Kişinin əli bərk əzildi, bıçaq əlindən yerə düşdü. Azay cəld bıçağı götürüb dikəldi:

– İndi, sənin canın mənim əlimdədir. Xain, satqın, mənim vətənim yoxdur?

Elə bu zaman yoldan keçən iki hərbi nəfər onları görüb yaxınlaşdı:

– Niyə vuruşursunuz?..

– Bu adam deyir ki, sənin vətənin yoxdur!.. Bu gün-sabah almanlar bu yerləri də alacaq, sən vətənsiz qalacaqsan.

– Yalan deyir! – deyə yad adam artıq söz söyləyə bilmədi.

– Yalan demirəm, bax, bu fin bıçağı ilə məni öldürmək istəyirdi. Daş ilə vurub əlini əzdim, bıçaq əlindən yerə düşdü. Xain, mənimmi vətənim yoxdur, atam gedəndə vətəni mənə tapşırıb.

Hərbi geyimdə olan bu iki nəfər lap əvvəlcədən elə bu qəribə adamın hərəkətlərindən, danışığından şübhələnmişdilər. Odur ki, onu özləri ilə aparacaqlarını bildirdilər. Arada Azayın da kim olduğunu soruşdular:

– Mən dəmiryolu keşikçisi Gülxanımını oğluyam. Adım da Azaydır – deyə o qürurla cavab verdi. Onlar şübhəli qonağı apardılar. Azay da anasının yanına qayıtmaq üçün dəmiryolun qırağı ilə yola düzəldi. Anasının keşikçi daxmasına yüz addım qalmışdı ki, gördü uzaqdan qatar gəlir. Anası da əlində kiçik göy bayraq tutmuşdur. Azay yad adamın dəmir yolu relsləri altına gizli bir şey qoyduğunu ancaq indi xatırladı, ayılan kimi oldu. Qaça-qaça tez özünü anasına çatdırdı. Qatar yaxınlaşırdı. Azay anasının cibindən kiçik qırmızı bayrağı çıxarıb göstərə-göstərə:

– Ana, yol təhlükəlidir, yol təhlükəlidir... Sonra sənə danışaram, – deyə ucadan bağırdı.

Qatar yaxınlaşınca dayandı. Vaqonlardan bir neçə zabit və qatar rəisi düşüb Gülxanıma yanaşdılar. Ondan qırmızı bayraq göstərməyinin səbəbini soruşunca Azay gördüyü adamın relslərin altına nə isə qoyduğunu, onunla aralarında olan hadisəni anlatdı. Zabitlər tez Azay ilə bərabər haman yerə getdilər. Doğrudan da relslərin altına dinamit qoyulmuşdu. Onu Azay görüb xəbər verməsəydi qatarla cəbhəyə gedən bütün əsgərlər və zabitlər tələf olacaqdı.

Zabitlər Azayın bu hərəkətindən çox məmnun qaldılar, onu qucaqlayıb öpdülər, göyə atıb-tutdular, minlərlə döyüşçünün xilaskarı adlandırdılar. Zabitlərdən biri dedi:

– Kiçik vətəndaş, sağ ol, bizi böyük bir təhlükədən qurtardın, bu mərdliyin əvəzində sən böyük mükafata layiqsən.

Azay cavab verdi:

– Mən öz vətəndaşlıq vəzifəmi yerinə yetirmişəm. Sizdən ancaq bir şey istəyirəm. Düşməni vətənimizdən tez qovun, atamı da götürüb zəfərlə vətənimizə qayıdın.

Kiçik Azayın bu vətənpərvərliyi hamıda ruh yüksəkliyi oyatdı.

Qatar hərəkət etdi. Pəncərələrdən uzanan əllər Azayı alqışlayırdı. Bu əllər, gülər üzlər elə bil Azaya deyirdi:

– Balaca qəhrəman, çox darıxma, sənin kimi oğulların ataları məğlub olmaz, çox çəkməz ki, sən istəkli atanla görüşərsən.

*1942*

# İKİ YOLDAŞ

Nizaminin atası Böyük Vətən müharibəsi günlərində əsgər getmişdi. Əvvəlləri hər ay məktub göndərirdi. Məktublarında cəbhə həyatından, döyüş səhnələrindən, oradakı dostlarından yazır, evdəkilərin halını soruşurdu. Bir məktubunda da yazırdı ki, son döyüşlərdən birində qəhrəmanlıq göstərib, onu "Şərəf nişanı" ordeni ilə təltif ediblər. Hətta o zərfin içində döşündə "Şərəf nişanı" ordeni olan şəklini də göndərmişdi.

Son məktubundan üç-dörd ay keçdi, ancaq Nizaminin atasından nə məktub gəldi, nə də bir xəbər. Nazim və anası hər gün həyəcan içində məktub gözləyirdilər.

Nazim birinci sinifdə oxuyurdu. Əlifbanın ilk hərflərini öyrənirdi. Bir gün məktəbdən evə gəldiyi zaman anasını çox pərişan gördü. Onun gözləri də bir qədər şişmişdi. Nazim dərhal anasını qucaqlayıb soruşdu:

– Ana can, atamdan məktub gəldimi?

Bu Nazimin hər gün məktəbdən gələndə anasına verdiyi sual idi.

– Yox oğlum, bu gün də məktub gəlmədi.

O gündən anası Nazimə daha çox mehribanlıq göstərməyə başladı. Onun başına, ayağına keçir, nəvaziş göstərir, şirin dil ilə dindirirdi. Arabir dərindən səssiz bir ah çəkirdi. Anasının bu halı bəzən Nazimin ürəyində qara fikirlər oyadırdı.

Axşam oldu, şamlar yandı... Anası Nazimin yeməyini verəndən sonra yatağını açıb:

– Oğlum, yat, dincəl, – dedi.

Nazim yatağına uzandı. Başında dolaşan qara fikirlər onun gözlərindən yuxusunu qaçırdı. Çox çalışdı, yata bilmədi. Anası da onunla yan-yana öz yatağında səssiz uzanmışdı. Heç birinin gözünə yuxu getmirdi. Hər ikisi özünü yatmış kimi göstərib yataqda səssiz uzanmışdı. Bir az sonra yavaş-yavaş anasının ağlayan səsi eşidildi. O, həm ağlayır, həm də dodaqları altında nə isə bir söz deyirdi. Nazim çox dinlədi, ancaq nə anasının ağlamasının səbəbini bildi, nə də dediklərini başa düşdü. Qalxıb anasından ağlamasının səbəbini soruşmaq istədi. Ancaq anlaşılmaz bir qüvvət onun boğazını tıxayıb halsız buraxdı. Nazim o gecə səhərə qədər yata bilmədi. Qəlbini sıxan bu ağırlıq köksünü dəlirdi.

Səhər oldu. Nazim qəlyanaltı etdikdən sonra məktəbə getdi. Nazimin məktəbdə bir partada oturduğu çox yaxın bir dostu var idi. Adı Əziz idi. Əziz Nazimi çox qəmli görüb soruşdu:

– Nazim, rəngin qaçıb, nə olub?

Nazim dərdini deməyə bir fürsət axtarırdı. Odur ki, gecəki əhvalatı, öz şübhələrini Əzizə danışdı. Balaca Əziz məsələnin nə yerdə olduğunu dərhal anladı. Ancaq balaca qəlbi duyduğunu, hiss etdiyini gizlətməyə darlıq etdi. Uşaq sadəliyi ilə kövrələ-kövrələ dedi:

– Nazim, məncə bilirsən gecə anan nə üçün ağlayırmış? Görünür, atanın qara xəbəri gəlib, ancaq o səndən gizlədir.

Hər iki dostun gözü bir-birinə dikildi, matəm dolu gözlərdə yaş damlaları parladı.

# LOVĞA OVÇU

Salman adlı bir ovçu var idi. Ovçular bir yerə toplananda Salman öz ovçuluq məharətindən uzun-uzadı danışır və onların yanında öyünürdü. Yoldaşları ona çox zaman dodaqaltı gülüb bir söz demirdilər.

Bir gün iki ovçu, Heydər ilə Atakişi dovşan ovuna çıxmışdılar. Xeyli axtarışdan sonra qarşılarına zorba bir dovşan çıxdı. Heydər fürsəti fota verməyib cəld dovşanı nişan aldı. Atəşin açılması ilə dovşanın səndələyib yerə yıxılması bir oldu. Dovşanı götürüb getmək istərkən gördülər ki, budur, uzaqdan ovçu Salman gəlir. Atakişi gülə-gülə Heydərə baxdı:

– Heydər, dostun gəlir... Bura bax, başıma bir fikir gəldi.

Bunu deyib Heydər cibindən kağız-qələm çıxartdı, nə isə yazdı. Sonra kağızı büküb dovşanın ağzının içinə qoydu. Dovşanı isə iki ayağı üstündə yerə oturdub ovçu Salmana tərəf gedib Atakişi ilə onu qarşıladılar. Salman onları əliboş görüb lovğalandı.

– Ey, siz də adınızı ovçu qoymusunuz. Bəs səhərdən neyləyirsiniz?

Heydər gülə-gülə:

– Ay Salman, neyləyək, ovçuluqda bizim baxtımız gətirmir, – deyə cavab verdi.

Salman bir az da lovğalandı:

– Axı siz ovçu deyilsiz. Mən ovsuz qayıdan deyiləm.

Bunu deyib Salman ətrafa özünə məxsus lovğalıqla nəzər saldı. Dərhal ayaqları üstündə durmuş dovşanı gördü, iki lüləli tüfəngin səsi qulaq batırdı. Hər üç ovçu dovşana sarı qaçdı. Salman dovşanı əllərilə yuxarı qaldırıb özündən razı halda dedi:

– Dovşan gözünüzün qabağında sizi çağırır, siz də deyirsiniz ki, ov yoxdur.

Atakişi gülüşünü gizlətməyə çalışaraq dilləndi:

– Ay Salman, gərək bu dovşanı vurmayaydın, bir bax, deyəsən ağzında kiməsə məktub aparırmış. Bəlkə elə sənə gətirirmiş.

Salman dovşanın ağzına diqqət yetirdi və ağzının ucundakı kağızı ancaq indi gördü, tələsik kağızı dovşanın ağzından çıxarıb oxumağa başladı: “Hayıf ki, məni ovçu Heydər vurdu. Arzum bu idi ki, mən Lovğa Salmanın gülləsinə düçar ola idim”.

# SÖZÜN QİYMƏTİ

*Nağıl*

Varlı bir tacirini üç oğlu varmış. Tacir kiçik oğlunu hamısından çox istəyirdi. Böyük qardaşlar paxıllıq edib deyirdilər: "Atamız onu görəsən nəyə görə bizdən çox istəyir? Onun bizdən nəyi artıqdır?"

Çox çəkmədi ki, qardaşların narazılığından ata xəbər tutdu. Qardaşları razı salmaq üçün o öz sevimli kiçik oğlunu bir dəfə də sınamağı qərara aldı.

Tacirini alma boyda çox qiymətli bir cavahiri varmış. Bu cavahir tacirini bütün var-dövlətinin yarısına bərabər imiş. Bir gün tacir hər üç oğlunu hüzuruna çağırtdırır. Oğlanlar atalarının qarşısında əmrə müntəzir dururlar. Tacir əlindəki cavahiri böyük oğluna verib dedi:

– Oğlum, bilirsən ki, bu cavahirin mənim bütün var-dövlətim qədər qiyməti var. Al, bunu yerə çal, qırılsın!

Böyük oğlu cavahiri əlinə aldı. Bir əlindəki cavahirə baxdı, bir də atasına baxıb dedi:

– Ata, belə qiymətli cavahiri mən yerə vurub qıra bilmərəm hayıfdır.

Tacir: "Mərhaba oğlum", – deyib cavahiri ortancıl oğluna verir:

– Al, hünərin varsa, sən bu cavahiri yerə çal!

Tacirini ortancıl oğlu da böyük qardaşı kimi cavahiri qırmağa cəsarəti çatmır. Axırda tacir cavahiri kiçik oğluna verib onu yerə vurub qırmasını tapşırır.

Tacirin ağzından söz çıxan kimi kiçik oğul cavahiri çalıb parça-parça edir. Böyük və ortancıl qardaş kiçik qardaşlarının bu ağılsız hərəkətinə heyrət edirlər. Qardaşları bu vəziyyətdə görüb tacir kiçik oğlundan soruşur:

– Oğlum, sən bu cavahirin qiymətini bilə-bilə, necə oldu ki, onu heç elədin?

Kiçik oğul ehtiramla cavab verdi:

– Ata, o cavahir nə qədər qiymətli olsa, sənin sözün mənim üçün daha qiymətlidir.

## TİMSAH OVU

Günəş tovuz qanadlarını Nil çayı sahillərinə çətir kimi açmış, quşlar xurma, limon və portağal ağaclarında səhər şənliyinə başlayaraq, budaqdan-budağa atılır, yeni doğmaqda olan günəşi şən nəğmələri ilə salamlayırdı. Səid, oğlu Nail ilə xurma ağaclarının quru budaqlarını kəsib yerə atırdılar. Bu zaman arvadı Zəhra aşağıdan səsləndi:

– Səid, qapıya arşın malçı gəlmişdir, pul ver, Naziləyə paltarlıq üçün üç arşın çit alım.

Səid ciblərini araşdıra-araşdıra:

– Zəhra, bu gün yeməyə nəyimiz var? – deyə soruşdu.

– Çörəkdən başqa heç bir şeyimiz,.. Tez ol, pul ver!

– Demək, bu gün allaha qonağıq, – Sonra aşağıda səssiz pul gözləyən Zəhraya baxaraq:

– Pulum yoxdur! – dedi.

Nail kəsdiyi budağı yerə ataraq:

– Ata, sənin elə həmişə pulun olmur, – dedi.

Səid dərindən köksünü ötürdü:

– Oğlum, bu ingilis quldurları əl-qolumu elə bağlamayıb ki, cibimdə pul tapılsın. Yenə az-çox ovçuluq əlimdən tutur.

Zəhra ərini danlamaq üçün bəhanə tapdı:

– Taxsır özündədir. Bu gün ova nə üçün getmədin? Ovçu hər gün ovda olsun gərək.

– Zəhra, nə üçün belə deyirsən? Sən bilirsən ki, bizim Nil çayından timsah tutmaq nə çətin işdir. Mən hər ova gedəndə ölümü gözümün altına alıram. Elə dünən çayın sahilində böyük bir timsaha rast gəldim. Qabağını kəsib tüfənglə vurdum. O bağıra-bağıra dal ayaqları və quyruğu ilə üstümə o qədər daş, torpaq atdı ki, az qaldı altında qalıb tələf olam. Bir daş topuğuma elə dəydi ki, ağzı üstə yerə yıxıldım. Mən durunca timsah qaçıb özünü suya saldı. Gecə ayağımın ağrısından yata bilməmişəm. İndi də hələ göynəyir.

Nail dəhşətdən iri-iri açılmış gözlərini atasına dikib dedi:

– Ata, bundan sonra timsah ovuna getmə!

– Getməyim bəs nə yeyək?

Bu cavabın ağırlığı altında hamı susdu. Səid dərindən inləyərək dodaqaltı pıçıldadı:

– Bizi əsir kimi yaşadan bu ingilisləri görüm yox olsunlar! Uşaqlara bir parça çörək də qazana bilmirəm.

Nailin uşaq qəlbi döyündü, o, gözlərini uzaqlara dikərək dərin-dərin düşünməyə başladı. Onun bu halını görən atası:

– Oğlum, nə düşünürsən? – deyə soruşdu.

Nail yuxudan ayılmış kimi nə cavab verəcəyini bilməyib şaşqın-şaşqın atasının üzünə baxdı. Sonra özünü topladı. Uzaqda görünən uçuq binanı əli ilə göstərək:

– Heç, ata, bax, oraya baxırdım. Keçmişdə o binada kimlər yaşayırdı? – deyə soruşdu.

Səid binanın yeni görürmüş kimi, diqqətlə nəzərdən keçirdikdən sonra belə cavab verdi:

– Oğlum, qədim insanlar Nil çayını müqəddəs sanırdılar; çünki Nil çayı daşıb sahilləri basdığı zaman məhsul bol olur və xalq rahat yaşayır, quraqlıq illərdə isə ac qalırdı. Ona görə də Nil çayı sahilləri suvarsın deyə hər il ona qurban verərdilər. Hər il yaz başında gözəl qızlardan bir dəstə seçib püşk atardılar. Püşk hansı qıza düşsə, o qızı gəlin kimi geyindirib, bəzəyib, əvvəlcə sən göstərdiyin o binaya gətirərdilər. Bu bina keçmişdə ibadət yeri olmuşdur. Ruhanilər qızı dualadıqdan sonra onu təntənə və nümayişlə Nil çayı sahilinə gətirib: “Ey müqəddəs Nil çayı, bizim qurbanımızı qəbul et!” – deyə, qızı qollarının üstündə havaya qaldırıb, birdən Nil çayına atardılar.

Anası Zəhra ilə bərabər quru xurma budaqlarını yerdən toplamaqda olan Nazilə:

– Ata, bu adət yaxşı ki, indi yoxdur, – dedi.

– Qızım, o zaman təbiət hakim idi; çünki xalq təbiətdə zühur edən hadisələrin əsas səbəblərini bilmirdi. Bu gün isə insanlar təbiətə hakim olmağa başlamışlar. O zaman xalq, timsahları da müqəddəs sanırdı. – Sonra əli ilə yaxındakı dərə kimi geniş çuxuru göstərərək: – Bu geniş dərəni görürsünüz, keçmişdə bu dərədə bir neçə timsah bəslənirdi, – deyə izahat verdi. Xalq onların qulaqlarına kiçiklikdən qızılı sırğa asıb, əllərinə qızılı halqalar keçirərdi. Öldükdən sonra onları mumiyaya tutub, müqəddəs evlərdə saxlayardı.

Nail soruşdu:

– Bəs onlar nə yeyirdilər?

– Timsahları hər gün görməyə gələnlər ən dadlı yeməklər gətirib, onları bəsləyirdilər.

Söhbətə Zəhra qarışdı:

– Bu timsahlar insan cəmdəkləri də az yeməyiblər. Yemək gətirən insanları çox zaman tutub yeyirmişlər, deyirlər.

Nail heyrətlə:

– Bəs o adamlar nə üçün timsahlara yemək gətirirmiş? – deyə təkrar soruşdu.

– Çünki onlar timsahları müqəddəs bilirdilər. Onların əqidəsincə timsah hər kimi yesə, cənnətə gedər.

Hər şeyi bilməyə, öyrənməyə can atan Nail yenə soruşdu:

– Ata, Nil çayı daşıb hər il bu dərəni dolduranda nə üçün bizi gölün ətrafına qoymursan? İndi ki, orada timsah yoxdur.

– Oğlum, bilmək olmaz. Su şiddətlə axıb gələndə özü ilə bərabər timsah gətirə bilər.

Zəhra budaqları yığa-yığa ərinin sözlərinə qüvvət verdi:

– Keçən ilki daşqında su lap qapımızın ağzına qədər gəlmişdi.

Nazilə:

– Ana, dərə hələ də yaşdır, yaxşı qurumayıbdır, – dedi. Sonra dərədən dərdiyi çiçəyi göstərdi.

Nail çiçəyə baxaraq:

– Nə yaxşı çiçəkdir, gedib mən də dərəcəyəm, – deyə dərəyə tərəf qaçdı, Nazilə onun arxasınca qaçmağa başladı.

– Nail, dayan, mən də gəlirəm!

– Hər ikisi dərəyə endi. Çiçək dərib kiçik bir dəstə tutduqdan sonra bir dik yerdə oturub danışırdılar. Hər biri öz gül dəstəsini tərifləyirdi. Birdən Nazilə oturduğu yerdən qalxaraq:

– Vay, altımda yer tərpənir... – deyə oturduğu yerə diqqətlə baxmağa başladı, Nail də yerindən sıçrayaraq:

– Doğru deyirsən, Nazilə, bir bax, yer hərəkət edir, sanki canlı bir şey yerin altında tərpənir.

Hər ikisi qaça-qaça gedib əhvalatı Səidə söylədilər. Səid külüng, bel və balta götürüb uşaqlarla birlikdə həmin yerə gəldi. Uşaqlar o yeri atalarına göstərdilər. Səid diqqətlə o dik yerə baxıb, onun altında canlı bir şey olduğunu anladı.

– Nail, tez get böyük dəmir mıxı bura gətir, – dedi.

Nail mıxı gətirincə Səid gözlərini o yerdən ayırmayıb diqqətlə baxırdı. Dörd-beş metrlikdə yer arabir yavaş-yavaş tərpənirdi. Hətta bir-iki yerdən torpaq çatlamışdı. Nail mıxı gətirdi. Səid uşaqlara dedi:

– Siz yaxın gəlməyin uzaqda oturub tamaşa edin. Özü külüng götürüb, o yerin tam ortasından qazmağa başladı. Yarım metrə qədər qazmamışdı ki, əlinə yumşaq bir şey toxundu. Torpağı bel ilə təmizləyib nə gördü? Timsah!..

Onun bel hissəsindən baş tərəfini təyin etdi. Bu dəfə heyvanın baş tərəfindən qazmağa başladı. Yarım metr qazmışdı ki, heyvanın başı göründü. O artıq yaz havası duymuş olduğundan daha şiddətlə tərpənməyə başladı. Səid tez nişanlayıb, dəmir mıxı başının tam ortasından balta ilə vurmağa başladı. Dəmir mıx yarısına qədər getməmişdi ki, birdən yerin altından elə şiddətli bağırtı qopdu ki, dəhşətdən qulaqlar tutuldu. Nail ilə Nazilə qorxub qaçmağa başladılar. Səid gülə-gülə:

– Qorxmayın, timsahdır, yoldaşlarını köməyə çağırır, ancaq bu mənim pəncəmdən qurtara bilməz, – deyə yenə mıxı bütün qüvvəti ilə vurmağa başladı. Qan timsahın başından fəvvarə vurub axırdı. Səid:

– Tez ol, böyük badyanı gətir, – deyə Naili evə göndərdi. Nail qaçıb badyanı gətirdi. Səid badyanı qan ilə doldurub bir tərəfə qoydu. Timsah bağırmaqda davam edir və başından qan fışqırdıqca ətrafı gözəl müşk və ənbər qoxusu bürüyürdü. Səid bütün gücünü toplayaraq, mıxı balta ilə şiddətlə vurarkən timsah yenə elə dəhşətlə bağırdı ki, Nail qulaqlarını əli ilə tutaraq:

– Vay, nə yaman səsi var! – dedi. Səid başını qaldırıb cavab verdi:

– Bu o qədər böyük timsah deyil, bir də dörd ay yer altında yatdığından qüvvəti azalmışdır. Elə timsahlar olur ki, bağıranda insanın ürəyi titrəyir, az qalır ödü ağzına gəlsin. Dörd-beş buğanın səsini bir yerə yığsan, ancaq o səsə bir az bənzəyə bilər.

Səsə Zəhra gəldi.

– Siz burda neyləyirsiniz, qorxarsınız, qaçın evə!

Timsah candan düşmüşdü. Buna baxmayaraq arabir səsi eşidilir və həzin iniltisi gəlirdi. Zəhra:

– Səid , ehtiyatlı ol, ziyan yetirər, – dedi.

– Qorxma, canını almışam. Bir də bu timsahların dabbaqda gönünü tanıyıram. Onlar qüvvət qarşısında dovşan kimi qorxaq olur. Sən məni Nil çayı sahilində timsahların qarşısını kəsdiyim zaman görəsən! Donuza bənzər qorxaq gözlərini üzümə dikib baxır və arabir həzin-həzin səslənirlər.

Nail uşaq sevinci ilə atılıb düşərək:

– Ay can, ay can, bu gün timsah qovurması yeyərik. – dedi.

Nazilə də eyni sevinc içərisində idi:

– Atam timsahın ətini satıb mənə paltar alacaq.

Nail:

– Mənə də... mənə də... Ay can, ay can!..

Səid yorulmuşdu. Dincəlmək üçün yerə oturdu. Uşaqlar onun ətrafını alaraq soruşdular:

– Ata, bu timsah yerin altına haradan gəlmiş?

Səid oğlunun, qızının başını əli ilə oxşayaraq, cavab verdi:

– Keçən yaz Nil çayı daşanda görünür bu timsahı da sel vurub bizim gölə gətirmişdir. Timsahlar qurumuş çaylarda, göllərdə qaldıqları zaman üç-dörd ay yuxuya gedirlər. Gölün suyu çəkilməyə başlayanda bu timsah özünü palçıqlı suyun altına soxub yatmışdır. Yaz fəsli gəldiyi üçün yenə yuxudan oyanmışdır. Nil çayı sahillərində belə hallar çox olur.

Bu məlumatı verdikdən sonra Səid timsahın üstündəki torpağı qazıb onu balta ilə parçaladı. Dərisini soyub yerə qoyarkən Zəhraya və uşaqlar:

– Bundan sizə başmaq və ayaqqabı tikdirəcəyəm, – dedi. Sonra timsahın vəzilərini kəsib Zəhraya uzatdı:

– Al, üzə və saça sürtmək üçün bu, ən gözəl maddədir, sənə lazım olar. Timsahın qanı ilə ilan zəhərinə çox faydalıdır. Gözləri düşən ağ titəni də götürür. – Timsahın dişlərini də Səid Zəhraya verdi. – Al bunları, bir nüsxəyə tik, qoluma bağlayacağam.

– O nə üçün?

– Qoluma bağlayacağam ki, igid olduğumu və timsah ovladığımı bilsinlər.

Timsahı şaqqalayıb xurma ağacından asdılar. Timsahın ətindən o gün Zəhra dadlı bir yemək hazırladı.

Bu hadisədən dörd-beş il keçdi. Nail artıq uşaqlıq dövründən gənclik dövrünə ayaq basmışdı. O da atası kimi ovçu olmaq istəyirdi. Bir gün atasına dedi:

– Ata, bu dəfə ova gedəndə məni də apar. Mən də ovçu olmaq istəyirəm.

Səid gülümsəyərək:

– Çox yaxşı, apararam, – dedi, – Elə isə divardan asılmış köhnə tüfəngi bura gətir. – Nail tüfəngi gətirdi. Səid onu söküb təmizlədi. Yenidən quraşdırıb diqqətlə tüfəngə baxdıqdan sonra dedi: – Bu tüfəng mənim, o biri tüfəngi verdim sənə.

Nail çox sevindi. O, atıb vurmağı çoxdan öyrənmiş, indi atıcılıq məharətini ovda sınamaq istəyirdi. Gecəni yatdılar. Səhər alaqaranlıqdan atası onu oyatdı:

– Oğlum, qalx, ova gedirik.

Nail ov adı eşidincə yatağından dik atıldı. Geyindi, yuyundu, atası ilə bərabər qəlyanaltı etdikdən sonra tüfənglərini və ova lazım olan şeyləri götürüb yola düşdülər.

Ata-oğul danışa-danışa Nil çayına doğru gedərkən musiqi səsi eşidildi. Nail musiqini dinləyib heyrətlə:

– Ata, bu çalıb-oxuyan ovçulardır? – deyə soruşdu.

Səid gülərək:

– Yox, oğlum, – dedi, – görünür, toydur, gəlin köçürürlər.

– Bəs nə üçün gündüz?

– Çünki gecələr Nil çayından qayıq ilə keçmək olmaz. Timsahlar dişləri ilə, quyruqları ilə gəmini çevirib, içindəki adamları yeyə bilərlər.

Ata-oğul sahil boyu uzanmış xurma ağaclarının arası ilə gedirdilər. Oğlan və qız adamları çala-çala, oxuya-oxuya gəlini sahilə doğru aparırdılar. Səid ilə Nail də şənliyə yanaşdı. Atası:

– Mübarəkdir! – dedi.

Oğlan və qız adamları:

– Sağ ol, sən də oğlundan, qızından görəsən! – dedilər.

Şənlik, sahildə onları gözləyən bir qayığa yanaşdı. Gəlin ilə görüşdükdən sonra onu böyük dəbdəbə ilə qayığa oturtdular. Hamı bir ağızdan:

– Allah mübarək eləsin! – dedi.

Qayıq hərəkət etdi. Sahildəkilər dəsmal sallayıb, şən-şən:

– Sağ-salamat get! – deyirdi.

Qayıq beş-on metr getməmişdi, bir timsah başını çıxarıb, Gəlini bir anda çaya çəkib yox oldu. Sahildəkilər, qayıqdakılar həyəcan içində bağırmağa başladılar. Timsahlar suda çox cəsur olduğundan heç kəs çaya girməyə cürət etmədi. Bu anda suyun altında timsah şiddətli səslə bağırdı. Çayın üzü qıpqırmızı oldu; gəlin də su üzündə göründü. Qayıqdakılar onu tutub sahilə çıxartdı. Timsah gəlinin qolunu yaralamışdı. Hamı qızın belə salamat qurtarmağına həm sevindi, həm də timsahın kim tərəfindən öldürüldüyünə heyrət etdi. Səid dedi:

– Nil çayında timsahların ən böyük düşməni yunis balığıdır. Timsahların qarnının dərisi çox yumşaq olur. Yunis balığının belində iri neştər kimi tikanları var. Timsah üzdüyü vaxt yunis balığı onun altından ildırım sürətilə keçib, belindəki tikanları ilə xəncər kimi qarnını

doğrayır. Sizin xoşbəxtliyiniz onda olmuşdur ki, timsah, gəlini suyun təkinə aparmamış. Yunis balığı köməyə çatmışdır.

Səid sözlərini deyib qurtarmamışdı ki, timsah cansız bir halda yavaş-yavaş sürünüb özünü sahilə atdı. Onun qarnından qan sel kim axırdı. Səid timsaha işarə edərək:

– Yunis balığı olmasaydı, qız getmişdi, – dedi.

Qız adamları:

– Doğru deyirsən, qızı bu gözəl təsadüf qurtardı.

Gəlinin yarasına timsah qanı sürtdülər. Paltarını dəyişib sağ-salamat o biri sahilə çıxartdıqdan sonra Səid ilə Nail ov axtara-axtara sahil boyu aşağıya tərəf getməyə başladılar. Ov tapmadılar. Hər ikisi yorulmuşdu. Dincəlmək üçün yerə oturdular. Nail soruşdu:

– O gün timsah sənə harada rast gəlmişdi:

Səid əli ilə uzaqları göstərərək dedi:

– O yer buradan çox uzaqdır. Son zamanlar Nil sahillərində timsah çox azalmışdır. Aşağı sahillərdə timsahları qırıb tələf etmişlər. Yenə az-çox yuxarı sahillərdə tapılır. Bəzən elə olur ki, bir ay səhərdən-axşamadək gedirsən, bir timsaha da rast gəlmirsən. Boş qayıtmamaq üçün qarşına çıxan quşdan, heyvandan vurub evə dönürsən. Bu gün görək baxtımıza nə çıxacaq.

Bir qədər dincəldikdən sonra onlar yollarına davam etdilər. Axtarış çox uzun çəkdi. Xurmalıqdan sahilə çıxar-çıxmaz qarşılarına yerə uzanmış böyük bir şey çıxdı. Səid uzaqdan onu kökündən qopub yerə sərilmiş xurma ağacına bənzətdi.

Bir-iki addım getdikdən sonra Səidin qarşısında tamamilə başqa bir lövhə açıldı. Əli ilə Naili tez geri çəkərək yavaşca:

– Bax, timsahdır, özünü günə verir, – dedi.

Hər ikisi uzaqdan ona heyrətlə baxırdı. Timsah yuxarı çənəsini qaldırmış, sərçə boyda bir quş onun ağzının içinə qonaraq, dişlərinin dibini dimdikləyir, timsah da bundan həzz alır kimi, sakit dururdu. Səid gördüyü səhnəni oğluna izah etdi:

– Bu quşa traxil deyirlər. Timsahların dostu ancaq bu quşdur. Onu görüncə timsahlar ağzını açır, quşlar onların ağzına qonub dişlərinin dibində çürümüş yemək qalıqlarını dimdikləri ilə təmizləyirlər.

Bunu deyib Səid oğluna irəli gəlməməyi tapşırdı. Özü isə qarşı tərəfdən timsaha hücum etməyə hazırlaşdı. Nail qorxu içində:

– Yox, ata, o sənə ziyan verər, qoy, mən də gəlim, – deyə atasına kömək etmək istədi.

– Qorxma, oğlum, timsahlar quruda çox qorxaq olur. O ancaq özünü Nil çayına salmağa çalışacaq. Mən səni çağıranda gələrsən.

Səid getdi, timsahın qabaq tərəfinə keçdikdə timsah onu gördü. Cəld kiçik ayaqları ilə qaçıb qurbağa kimi özünü suya salmaq istədi. Səid nişanlayıb onu başından vurdu. Timsah inildəyə-inildəyə yenə Nil çayına tərəf qaçmaq istədi. Səid onun yolunu kəsib buraxmadı. Bir də tüfəngdən atəş açıldı. Timsah inildəyib, gücü gəldikcə bağırmağa başladı. Bu zaman onun səsinə səs verən bir timsah da başını sudan çıxarıb şiddətlə bağırdı. Bu dəhşətli səsdən Nail qorxaraq, atasına tərəf qaçdı. Atasını timsah yeyər deyə tüfəng ilə timsahın boynundan vurdu. Timsah bu dəfə daha şiddətlə bağırdı. Qaçmağa nə qədər çalışırdısa, yolunu kəsmiş Səiddən qorxaraq bağırır və timsahları köməyə çağırırdı. Timsahlar da onun səsinə cavab verirdi.

Müharibələrdə atılan topların səsindən daşa dəhşətli bir səs ətrafı bürümüşdü. Gənc Nailin rəngi qaçmış, əl-ayağı titrəyirdi. Səid ona ürək verdi:

– Bu səs-küy səni qorxutmasın.

Timsah üst çənəsini qaldırıb şiddətlə bağırarkən Səid nişan alıb onun ağzının içindən vurdu. Nail də tüfəngilə nişan alıb onun dal ayağını qırdı. Timsah başını itirmiş, aldığı yaraların ağrısından özünü yerə çırpır, quyruğu və ayaqları ilə qumu göyə sovururdu. Bu zaman Səid ona tərəf bağıra-bağıra bir timsahın gəldiyini gördü. Bunu görcək bir an belə gecikmədən onu nişan aldı. Güllə hədəfə dəydi. Timsah bağıra-bağıra özünü Nil çayına saldı. Səid erkək timsahın gəldiyi tərəfə baxıb gördü ki, iri ağbaba quşları timsahın getməsindən istifadə edərək, dimdikləri ilə torpağı eşirlər. İşini nə yerdə olduğunu anladı. Üzünü Nailə çevirib:

– Oğlum, ayağın uğurludur. Bu gün gözəl şikarla evə qayıdacağıq, – dedi və timsaha yanaşıb onun bel sümüyünü balta ilə çapdı. Timsah tamam hərəkətdən qaldı. Səid ürəklənərək onu balta ilə doğramağa başladı. Onlar timsahı soyarkən bir-iki dəfə erkək timsah onlara hücum etmək istədi. Səidin atdığı gullədən yenə də qaçıb çaya girdi. Səid iri bir qab götürüb: – Oğlum, bu timsah artıq bizim malımızdır. Gedək timsahın balalarını ağbaba quşlarının əlindən qurtaraq, – dedi.

Nail bir şey anlamadığı halda itaət edərək, atasının yanınca getdi. Onlar yaxınlaşanda ağbaba quşları bir-birini itələyə-itələ, bir-birini dimdikləyə-dimdikləyə qazdıqları yerdən nə isə dimdiklərinə alıb yeyirdilər. Quşlar onları görüncə qaçıb gizləndi. Səid yanaşdı. Yumur-

tadan yenicə çıxmış timsah balalarını çuxurdan götürüb, qaba doldurdu. Oğluna göstərərək dedi:

– Bunların əti çox ləzzətli olur. Özü də çox baha qiymətə satılır. – Oğlunun çox maraqla dinlədiyini görüb Səid davam etdi: – Oğlum, timsahlar hər il otuzdan yüzə qədər yumurta verir. Yeri qazıb bu yumurtaları basdırırlar ki, qurd-quş yeməsin. O ağbaba quşlarını görürsənmi, onlar timsahların ən böyük düşmənidir. Bu quşlar timsah yumurtalarını və yumurtadan çıxmış balalarını çox sevirlər. Onlar timsahları güdürlər. Timsahlar yeri qazıb yumurtalarını harada basdırsalar, bu quşlar torpağı qazıb, onların yumurtalarını çıxarıb yeyirlər. Sol tərəfdən üstümüzə gələn timsah, öldürdüyümüz timsahın erkəyidir. Onlar növbə ilə yumurtalarını ağbabalardan qoruyurlar.

Onlar danışa-danışa gəlirkən, erkək timsah başını sudan çıxarıb, acıqlı-acıqlı onlara baxırdı. Səid bir timsah balasını ağacın başına keçirib ona göstərdi. Erkək timsah acığından ayaqları ilə yeri eşərək, yenə şiddətlə bağırdı. Səid tüfəngi ona göstərincə başını suya çəkib, yox oldu. Nail soruşdu:

– Ata, bu timsahlar, görünür, çox artımlı olurlar, hər il yüz yumurta qoyur. Demək, ildə yüz bala verir?

Səid:

– Elə deyil oğlum. Timsahın düşməni çoxdur. Bu ağbabaların əlindən salamat qurtarırsa, erkək və dişi timsah balalarını arxalarına alıb, Nil çayına daşıyırlar. Yolda arxalarından düşən, çayda üzə bilməyən balalarını özləri yeyir. Bu sayaq ildə də ancaq altı-yeddi balası qalır.

Səid timsahı soyur, Nail isə ona kömək edirdi. Bu arada eşşəyinin noxtası əlində, yaşlı bir ərəb gəldi. Onun işi ovçulardan balıq və timsah əti alıb satmaq idi. Nil sahilində onu tanımayan ovçu yox idi. Səid onu görüncə:

– Xoş gördük, Rəhim dayı! – dedi. – Yaxşı vaxtında gəlmisən. Bu timsah ətindən nə qədər istəyirsən sənə verəcəyəm.

Qoca ərəb timsaha müştəri gözü ilə baxaraq:

– Yağlı timsahdır, allah qoluna qüvvət versin! – dedi. Bir az oturub söhbət etdilər. Qoca ərəb yorğun idi. Eşşəyini yaxında bir xurma ağacına bağlayıb, kölgəsində uzanıb yatdı. Bir az sonra eşşək dartılıb noxtasını qırdı. Susuz olduğundan birbaş Nil çayına qaçdı. O, ağzını uzadıb, su içmək istərkən bir timsah başını sudan çıxarıb eşşəyi bir anda çaya çəkdi. Səidin və Nailin başı timsaha qarışdığından, eşşəkdən Xəbər

tuta bilməmişdilər. Eşşəyin noxtasını qırıb qaçdığını Səid ancaq indi anladı. Sahilə tərəf baxarkən timsahın eşşəyi yaxalayıb suya çəkdiyini gördü. Tez tüfəngini götürüb köməyə getdi. Nail arxasından bağırdı:

– Ata, hara?

– Qorxma, oğlum , bir şey yoxdur, bu saat gəlirəm.

Səid əlində tüfəng durub gözləyirdi, bu zaman eşşək özünü timsahın ağzından qurtarıb, sudan çıxmağa can atdı. Timsah başını sudan çıxardıb, cəld eşşəyə yanaşıb, onu tutmaq istərkən Səid nişan alıb vurdu. Timsah ona baxmayaraq eşşəyi tutub yenə cəld suya cumdu. Eşşək bu dəfə də özünü timsahın ağzından qurtarıb sahilə çıxdı. Ayaqlarını yerdə görüncə şıllağa qalxıb, timsahın ağzından elə bərk təpik ilişdirdi ki, timsah bağıra-bağıra çaya cumdu və bir daha görünmədi. Səid eşşəyi tutub gətirdi. Yazıq heyvan boynundan və ayağından yaralanmışdı. Timsahın qanından və yağından yaralarına çəkib bağladı. Bu hadisədən xeyli qorxuya düşən Nail:

– Ata, bundan sonra səni timsah ovuna getməyə qoymayacağam, bu ki, ölümə getməkdir, – dedi.

Səid gülümsəyərək, cavab vermədi. Timsahı soyub parçalamışdılar. Səid qoca ərəbi oyatdı. Eşşəyin başından keçən macəranı ona nağıl etdi. Ərəb çox kədərləndi. Tez eşşəyin yanına qaçıb, onun yaralarını yoxladı, Səid ürək verərək:

– Qorxma, heç bir şey yoxdur, – dedi.

Səid timsah ətinin çox hissəsini başqa alıcılara satdı, qoca ərəbə də istədiyi qədər ət verdikdən sonra qalan əti götürüb yola düşdülər. Nail timsah balaları olan vedrəni götürüb:

– Ata, bunları mən bəsləyib böyüdəcəyəm, – dedi.

– Oğlum, bunlar tez böyüyür. İlıq suda bəsləmək lazımdır. Bir az böyüdükdən sonra gündə birini kəsib yeyərik, – deyə Səid yoluna davam etdi. Nailin sevinci yerə-göyə sığmırdı. O, atasına deyirdi:

– Ata, artıq yeməyə ətimiz, paltar almağa pulumuz var. Nazilə bilsə, çox sevinəcəkdir.

*1950*

# USTA BƏXTİYAR

Bir gün öz taleyindən razı olan zalım bir padşah əyanları arasında oturub onun haqqında deyilən təriflərə fərəhlə qulaq asırdı. Qoca vəzirinin bu söhbətlərdə iştirak etmədiyini hiss edincə şahın əhvalı pozuldu, vəzirin bu söhbətlərə münasibətini bilmək məqsədilə soruşdu:

– Vəzir, dünyada məndən daha bəxtiyar adam varmı?..

Qoca vəzir öz fikrini açıq söyləməkdən qorxaraq, bir an başını yerə dikib durdu. Saray adamları vəzirin susduğunu görüb, yer-yerdən dedilər:

– Padşahım, yer üzündə sizdən xoşbəxt kim ola bilər? Sizdə olan bu cəlal, bu dəbdəbə kimdə var?

Vəzirin susmağından şah qəzəbləndi. Qaşlarını çataraq, acıqlı səslə:

– Vəzir, mənim sualıma niyə cavab vermirsən? – deyə soruşdu. Vəzir baş əyib cavab verdi:

– Padşahım həqiqəti söyləməkdən qorxuram, bəxtiyarlıq haqqında mənim fikrim başqadır. Onu cəlal və dəbdəbə ilə ölçmək olmaz!

Bu sözlər padşahı qəzəbləndirdi:

– Qoca, yoxsa məndən daha bəxtiyar adam tanıyırsan?

Qoca vəzir baş əyib cavab verdi:

– Qibleyi-aləm, sizin kimi xoşbəxt bir padşahın vəziri olduğum üçün mən də özümü bəxtiyar bir adam sayıram. Bizim bu şəhərdə bir dəmirçi var, adı Əhməddir. Bu adam dünyada dərd nədir, qəm nədir, bilməz. O qədər gözəl və xoşbəxt həyat sürür ki, hamı onun adını "Bəxtiyar" çağırır. Dəmirçi Əhməd desən, heç kəs onu tanımaz. O bu şəhərdə Usta Bəxtiyar adı ilə məşhurdur.

Padşah istehza ilə gülərək soruşdu:

– Onun bəxtiyarlığı nədən ibarətdir? Dəmirçilik hara, bəxtiyarlıq hara?

– Yox, padşahım, mən də birinci dəfə eşitdiyim zaman inanmadım. Dükanına getdim, evinə getdim, axırda onun çox bəxtiyar bir adam olduğuna inandım...

– Gördüklərindən danış, biz də bilək.

– Danışmaqla başa gəlməz, onu görmək lazımdır!

Padşah lap hövsələdən çıxdı, elə o saatca taxtdan enərək:

– Yaxşı, qalx gedək, onu mənə göstər, göstər görüm səhərdən ax şamacan çəkic vuran bu kasıb dəmirçinin məndən nəyi artıqdır, – dedi.

Vəzir qalxdı, hər ikisi dərviş paltarı geyib yola düşdü. Bazara çatdıqda, vəzir dəmirçi Əhmədin dükanını göstərib, özü qayıtdı. Padşah dərviş paltarında gedib Usta Əhmədin dükanı ağzında dayandı; Əhməd qonşu dəmirçilərlə söhbət edirdi. Dəmirçilərdən biri ondan soruşurdu:

– Usta Bəxtiyar, biz də sənin kimi dəmirçiyik. Bu nədəndir ki, sənin çəkicinin altına düşən dəmir o saat gözəl bir alət olub çıxır? Bunun sirrini bizə də öyrət!

– İş çəkicdə deyil, iş onu vurmaqdadır.

– Yaxşı, biz də elə onu öyrənmək istəyirik. Sən çəkici istədiyin yerə elə düz vurursan ki, bir tük qədər də oyan-buyan olmur. Mən niyə elə vura bilmirəm?

– Sənin qəlbində o qədər xılt-mılt var ki...

Başqa bir dəmirçi Usta Bəxtiyarın sözünü kəsdi:

– Bu doğrudur, mən dəmirçiliyə başlayanda on səkkiz yaşım var idi. Usta Bəxtiyar isə elə bu sir-sifətdə toxtamış kişi idi. İyirmi beş ildir dəmirçiyəm, bu iyirmi beş ildə bir dəfə də onu dərdli, kədərli görməmişəm. Həmişə şaddır. Mən qocalıram, o, gündən-günə cavanlaşır. Heç olmasa bizə bu sirri başa sal.

Usta Bəxtiyarın üz-gözündə, həmişə gülümsəməyə alışmış dodaqlarında uçuşan sevinc qığılcımları çəkic altında odlu dəmirdən uçuşan qığılcımlara qarışdı. O, nə isə cavab vermək istəyirdi ki, gözü qapıda dayanmış dərvişə sataşdı; çəkici əlindən yerə qoyub:

– Ağa dərviş, günortanız xeyir olsun, mənə görə qulluq?

Dəmirçilərdən biri qəhqəhə ilə gülərək dedi:

– Günəş çoxdan əyilib, axşamdır, biz dükanı bağlayıb evə getmək istəyirik, bu isə ağa dərvişə günortanız xeyir, deyir.

– O həvəslə ki, o işləyir, yaxşı ki, sabahın xeyir demədi.

– Kişi yorulmaq bilmir.

Usta Bəxtiyar gülümsədi:

– Sənətini sevən yorulmaz! Buyurun, ağa dərviş, əmriniz nədir:

Dərviş gözlərini Usta Bəxtiyarın üzünə dikərək:

– Mənim səninlə işim yoxdur, – deyə geri çəkildi.

* * *

Usta Bəxtiyarın bütün ailə üzvləri süfrə başına oturub, deyib, gülüb danışırdılar. Bu zaman qapı döyüldü. Qapını açan Usta Bəxtiyar bazarda gördüyü dərvişi dərhal tanıdı, qolundan tutaraq:

– Buyur, ağa dərviş, buyur, xoş gəldiniz! – deyə onu içəri gətirib yer göstərdi.

Usta Bəxtiyar qonağı məşğul etmək üçün şirin-şirin danışırdı. Süfrəyə çay gəldi. Usta Bəxtiyar stəkanı qaldırıb baxdıqdan sonra:

– Pəh, pəh, nə gözəl dəm çəkib, padşah da ömründə belə çay içməyib, – dedi.

Bir az sonra süfrəyə piti gəldi. Ceyran hər kəsin xörəyini qablara çəkib qabağına qoydu. Dərviş ətin az olduğunu görüb:

– Ət neçə girvənkədir? – deyə soruşdu.

– Hər gün yarım girvənkə ətimiz olur. Bu gün qonaq gəldiyinə görə bir fincan su artırmışam, – deyə Ceyran gülümsəyərək cavab verdi.

Usta Bəxtiyar məmnun tövrlə dedi:

– Demək, ağa dərviş öz payını yeyir, bizə heç minnəti yoxdur.

Sonra o, böyük iştaha ilə yeməyə başladı. Xörək ona o qədər xoş gəldi ki, özünü saxlaya bilməyib:

– Ağa dərviş, həvəslə ye, belə pitini padşah da ömründə heç yeməyib, – dedi.

– Görünür öz həyatından çox razısan, süfrəyə gələn hər şey səni fərəhləndirir.

– Fərəhləndirir, çünki o bizim Ceyranın əlindən çıxır.

– Demək, Ceyranı çox sevirsən? Nə əcəb demədin ki, belə arvad heç padşahın sarayında da yoxdur?

– Sarayda Ceyrandan gözəl xanımlar çoxdur. Ancaq, ağa dərviş, yaddan çıxarma ki, azad məhəbbətdən doğan səmimiyyət şah sarayında tapılmaz. O, başqa bir aləmdir...

Səhər oldu. Usta Bəxtiyar qəlyanaltıdan sonra xudahafizləşib qapıdan çıxdı. Həyətdə tut ağacı başında budaq-budaq gəzən bülbül şaqır-şaqır ötür, səhər nəğməsi ilə Usta Bəxtiyarı salamlayırdı. Bəxtiyar köhnə dostunun şən nəğmələri altında addımlarını iri-iri ataraq, Dəmirçi bazara gəldi, dükanı açdı, ocağı qaladı, bir dəmir parçasını ocağa qoyub körüklədi. Dəmir parçası köz kimi qızardıqda onu maşa ilə götürüb zindan üstünə qoydu, çəkici qaldırıb vurmaq istərkən şahın carçısı bazar başında uca səslə bağırdı:

– Şahın əmri ilə bütün dəmirçi dükanları bağlanmalıdır. Dəmirçilik qadağandır! Dəmirçilik qadağandır!..

Bu səs Usta Bəxtiyarın qolunu taqətsiz buraxdı. Ömründə dərd, kədər görməyən könlünə bir ağırlıq çökdü. Şahın fərraşlarından biri

dükanları bağlada-bağlada Usta Bəxtiyarın dükanına çatdı, kəskin və məğrur bir səslə:

– Dükanı tez bağla! – dedi. Usta Bəxtiyar cavab vermədi. Əlindəki dəmir parçasını dükanın bir tərəfinə atdı, ocağı söndürdü. Dükanı bağlayıb getdi.

İki gün sonra padşah Usta Bəxtiyarın halını soruşmaq üçün dərviş paltarında saraydan çıxdı şəhərin küçələrini gəzə-gəzə yeni tikilməkdə olan bir bina qarşısına yetişdi. Gördü ki, bir bənna çox həvəslə işləyir. Adamlar koma-koma durub onun işləməyinə tamaşa edir. Bənna ikinci qatda bir divar üstündə durub aşağıdakı atılan kərpicləri bir-bir tutur və çox cəld divar hörür. Bənna elə iti işləyir ki, əllərini görmək olmur, tamaşaçılardan biri deyirdi:

– Maşallah, bir ustaya bax, əllərini görmək olmayır, buna həzarpeşə Bəxtiyar deyərlər. Dünyada bunun əlindən gəlməyən bir sənət yoxdur.

Dərviş ürəyində gülərək:

– Hərif dəmirçilikdən bənnalığa keçibdir, – dedi.

Axşam oldu, şamlar yandı. Dərviş Usta Bəxtiyarın kefini soruşmaq üçün qapıya gəldi. Otaqda saz çalınırdı. Saz o qədər məharətlə çalınırdı ki, dərviş həvəslə dinləməyə başladı. Çalğı qurtarınca hər tərəfdən:

– Sağ ol, ata, sağ ol, ata, yaşa, yaşa! – səsləri ucaldı.

Bu vaxt Ceyranın səsi eşidildi:

– Əhməd, sən əlinə bu sazı alanda cavanlığımız yada düşür.

Usta Bəxtiyar şən və gurlayan səslə:

– İndi də heç qocalmamışıq, ay arvad, biz həmişəbaharıq, – dedi.

Ertəsi gün Usta Bəxtiyarı padşahın hüzuruna gətirdilər... Usta Bəxtiyar taxtın qabağında durub şaha baş əydi. Padşah soruşdu:

– Adın nədir?

– Padşah sağ olsun adım Əhməddir.

– Bəs nə üçün sənə Usta Bəxtiyar deyirlər?

– Bu adı mənə camaat veribdir.

– Çox yaxşı, Usta Bəxtiyar, eşitmişəm ki, sən çox qoçaq adamsan; ona görə də səni sarayda fərraş təyin edirəm.

Vəzir: “Pəh, bu kişi doğrudan xoşbəxtdir, – deyə pıçıldadı. – Çəkicin, daş-palçığın üzündən qurtardı. Maaşı yoxsa da, gündə on-on beş qran kasıb-kusubdan çalıb çapar, bu pul onun dədəsinə də çatar, özünə də”.

Bu sözləri eşidincə Usta Bəxtiyarın gözləri kəlləsinə çıxdı. İkiqat əyilib, padşahın təklifini rədd etmək istədi:

– Qibleyi-aləm, məni çevir başına, fərraş eləmə.

Vəzir baş əyərək:

– Padşahım, yaxşı tanımısan, fərraşlıq bu kişinin elə bil boyuna biçilib, – dedi.

Bundan sonra Usta Bəxtiyar çox yalvardı, yaxardı, min bir bəhanə gətirdi, qəbula keçmədi. Padşah “Sözüm sözdür”, deyə inadından dönmədi. Fərraşı çağırdılar. O, içəri girib baş əydi. Padşah, paltarını soyunub Usta Bəxtiyara verməsini əmr etdi. Fərraş istər-istəməz əsə-əsə üst küləcəsini soyundu, xəncərini açdı, papağını yerə qoydu, ürəyində: “Bu necə murdar, adamdır, gətirəndə beş qran istədim vermədi, hələ üstəlik fərraşlığımı da əlimdən aldı”, deyə pıçıldadı.

Padşah Usta Bəxtiyara əmr etdi:

– Al, bu küləcəni geyin, xəncəri belinə bağla, papağı da qoy başına.

Usta Bəxtiyar qəbul etmək istəmədi. Padşah fərraşa:

– Gədə, vur bu nadürüstün boynunu, – deyə qışqırdı.

Fərraş alıcı quş kimi onun üstünü aldı. Əlindəki xəncəri qaldırıb vurmaq istərkən Usta Bəxtiyar onu itələdi:

– Padşah, mənə, balalarıma yazığın gəlsin, mən yaşamaq istəyirəm.

– Yaşamaq istəyən mənim əmrimdən çıxmaz!

Nəhayət Usta Bəxtiyar fərraşlığı qəbul etməyə məcbur oldu.

Axşam oldu. Usta Bəxtiyar evə qayıdarkən sabahın ərzağını almağa pulu yox idi. Evə əliboş getmək istəmədi. Çox düşündü, nəhayət xəncərin tiyəsini çıxarıb satdı və sabahın azuqəsini alıb evə qayıtdı. Qapını açıb içəri girəndə onu fərraş paltarında görüb hamı heyrətlə soruşdu:

– Bu nə paltardır?

Usta Bəxtiyar başından keçən macəranı nağıl elədi:

– Sabah üçün ərzaq almağa pulum yox idi, xəncərimin tiyəsini çıxarıb satdım, – deyə söhbətinə yekun vurdu. Hamı qəm-qüssəyə batdı.

Padşah əhvalatı bilmək üçün vəziri ilə bərabər dərviş paltarında Usta Bəxtiyarın qapısına gəldi. Otağa həmişəki şənlik yerinə dərin bir səssizlik, qəm və kədər çökmüşdü. Vəzir gülə-gülə yavaşca:

– Padşah sağ olsun, bəxtiyarlığını əlindən aldın, – dedi.

Səhər oldu. Usta Bəxtiyar fərraş paltarını geyinib saraya getdi. Qapı arxasında durub şahın əmrini gözləyirdi. Bir saat sonra padşah taxta

oturdu. Vəzir, vəkil və əyanlar ətrafında səf çəkib əl-əl üstündə durdular. Padşah səsləndi:

– A gədə, fərraş!

Usta Bəxtiyar tez qapını açıb içəri girdi. Padşah onu gözucu süzdükdən sonra əmr etdi:

– Köhnə fərraşı bura çağır!

Usta Bəxtiyar hələ də saraydan getmək istəməyən köhnə fərraşı çağırdı. Hər ikisi padşahın hüzurunda əl bağlayıb dayandı. Köhnə fərraş elə düşünürdü ki, padşah onun fərraşlığını özünə verəcək, ona görə də qaşqabağı açıq idi. Padşah Usta Bəxtiyara gözləmədiyi halda əmr etdi:

– Fərraş, vur bu nadürüstün boynunu!

Usta Bəxtiyarın gözlərinə qaranlıq çökdü, nə edəcəyini bilmədi. Köhnə fərraş taxtın ayağına qapanıb ağlamağa, yalvarmağa başladı.

Padşah Usta Bəxtiyara qəzəblənib qışqırdı:

– Gədə, sənə demirəm vur bunun boynunu!

Ömründə bir adam öldürməmiş, günahsız qana batmamış Usta Bəxtiyar nə edəcəyini bilmirdi. Padşahı bir az da qəzəbləndirsəydi, öz başını kəsəcəkdi. Xəncərin isə tiyəsi yox idi. Ancaq iti ağlı onun köməyinə çatdı – o, vəziyyətdən belə çıxdı:

– Padşah sağ olsun, mənim bu xəncərimin bir xasiyyəti var: başı vurulan adam günahsız olanda tiyəsi yox olur. İndi görək bu köhnə fərraş necə adamdır.

Bəxtiyar bu sözləri deyib, xəncərin qəbzəsindən tutub dartdı. Qəbzə tiyəsiz idi.

Bəxtiyar sevincək:

– Gördünüz, qibleyi-aləm, görünür bu adam günahsız imiş, – dedi.

Padşahın əmri ilə Bəxtiyara təzə iti xəncər gətirdilər. Bu yolla padşah Bəxtiyarın kələyinin qabağını almaq istədi. Ancaq nə qədər çalışdı o, xəncərə yaxın düşüb fərraşın başını vurmağa razılıq vermədi. Hövsələdən çıxan padşah axırda onu tövləyə saldırdı, ac-susuz saxladı. Üç gün sonra yenə onu hüzura çağırıb soruşdu:

– Hə, necəsən? Fərraşlığı qəbul edirsən, ya yox?

Usta Bəxtiyar:

– Yox, mən öz sənətimi istəyirəm, – dedi.

Padşah onu yenə tövləyə saldırdı. Padşah hər üç gündən bir onu çağırıb soruşdu. Bəxtiyar yenə həmin cavabı verdi.

Vəzir görürdü ki, Bəxtiyarın hərəkətləri onun birinci gün padşaha dediyi sözləri təsdiq edirdi. O, həqiqətən özünü xoşbəxt bir adam hesab edirmiş. İndi isə heç bir qüvvə onu öz inadından, əvvəlki həyatına qovuşmaq arzusundan döndərə bilməyəcəkdir. Ancaq bunun sirrini yenə özü üçün aydın edə bilmirdi. Odur ki, padşaha müraciətlə dedi:

– Qibleyi-aləm, bu kişi səhərdən axşamacan isti kürənin qabağında tər tökə-tökə çəkic vurmağı fərraşlıq kimi ali vəzifədən artıq tutur; burada yəqin bir sirr və hikmət vardır.

Padşah əmr etdi, dəmirçini gətirdilər. O, həmişəki kimi başını yerə dikib durdu. Padşah soruşdu:

– A kişi, de görüm fərraş olursan, yoxsa yox?

Usta Bəxtiyar cavab verməyib getməyə başladı. Padşah soruşdu:

– Gədə, hara?

Dəmirçi cavab verdi:

– Padşah sağ olsun, yenə tövləyə.

Dəmirçinin bu hərəkəti padşahı daha da qəzəbləndirdi. O, hirsini boğaraq soruşdu:

– Gədə, sən bu dəmirçilikdən neçün əl çəkmək istəmirsən? Burada yəqin bir sirr var. O sirri gərək mənə açasan.

Dəmirçi bir qədər düşündükdən sonra cavab verdi:

– Qibleyi-aləm, burada elə bir çətin şey yoxdur. Sirri açaram, amma bir şərtlə.

– Şərtin nədir?

– Məni azad edib öz sənətimi işlətməyə razı olsaz, deyərəm.

Padşah söz verdi. Usta Bəxtiyar belə başladı:

– Atam kasıb bir kişi idi. Palçıq daşıyıb qazandığı qəpik-quruşla ailəsini dolandırırdı. Məndən başqa atamın dörd oğlu, iki qızı var idi. Anam da varlıların evində təndirə çörək yapır, paltar yuyurdu. Külfətimiz çox olduğuna görə məşəqqətlə yaşayırdıq. Atamın böyük oğlu mən idim. On beş yaşına çatanda atam dilə gəldi: “Ay oğul, görürsən ki, məni oğul-uşaq basıb, sən böyük oğlansan, heç olmasa get işlə, sən də qazan, bəlkə bir təhər yaşayaq”, – dedi. Mən uşaqlıqdan işləməyi sevmirdim. Razı olmadım, atam acıqlandı, zornan məni çəkə-çəkə aparıb bir dülgərin yanında ayda üç quruşa şagird qoydu. İşləmək mənə hər cəzadan ağır gəlirdi. Usta dedi: “Qalx, o taxtaları gətir bura”. Mənim gözlərimə qaranlıq çökdü. “Usta, qollarım ağrıyır, gətirə bilmərəm”, dedim. Usta mənə acıqlı baxıb: “Oğlan, bəs ayda üç

quruşu müftə alıb yemək istəyirsən? Get, tənbəl şagird mənə gərək deyil", – dedi. Sevinə-sevinə evə qayıtdım. Anam həyətdə paltar yuyurdu. Məni görüncə soruşdu: "Ay Əhməd, niyə qayıtdın?" Mən qaşqabağımı sallayıb, yerə otura-otura: "Usta dedi: get, mənə şagird lazım deyil", – dedim. Anam başını bulaya-bulaya: "Sənin kimi tənbəl oğuldan bir kor qız yaxşıdır", – dedi. O gün atam da məni çox danladı. Səhər zornan aparıb məni bir bənnanın yanında şagird qoydu. Bənna mənə hər dəqiqə buyururdu: "Oğlan, durma, su gətir palçıq hazırla!". Bu iş mənə çox çətin görünürdü. Gözlərimi döyə-döyə: "Usta, mən palçıq hazırlamaq bacarmıram", dedim. O mənə sərt-sərt baxıb: "Gədə, bəs bacarmırsın, müftə yeyib yatmağı bacarırsan?! Get, mənə tənbəl şagird gərək deyil!" dedi. Ürəyim sakit oldu. İlan ağzından qurtaran qurbağa kimi sevinə-sevinə evə qayıtdım. Atam, anam nə qədər məni döydü, söydü, danladı, mən zəhməti, işi sevə bilmədim. Düz iki il yazıq atam məni hansı sənətə qoydu, hər birinə bir bəhanə gətirib qaçdım. Bizimlə qapı-qapıya bir dəmirçi olurdu. Onun bir qızı vardı. Adı Ceyran idi. Məndən üç-dörd yaş kiçik idi. Hər gün həyətdə bir yerdə oynayardıq. Tənbəlliyimi görüb o məni hər gün danlayırdı, hərdən mənə deyirdi: "Sən yaxşı oğlansan, hayıf ki, tənbəlsən. Tənbəl adam xoşbəxt olmaz, mənim sənə yazığım gəlir". Axırda mən bu qıza bir könüldən min könülə aşiq oldum. Bir gün fürsət tapıb fikrimi qıza açdım. "Ceyran, mənə gələrsənmi?" dedim. Qız mənim sözümə gülüb: "Sənin kimi tənbəl, işsiz, sənətsiz oğlana hansı qız gələr?" – dedi. Elə bil başıma bir qazan qaynar su tökdülər. Bu söz məni çox bərk götürdü. Bir az özümə gələndən sonra yenə soruşdum: "Ceyran, bir sənət öyrənsəm necə?" O gülərək: "Tənbəlliyi atsan, yaxşı sənət öyrənsən, gələrəm", dedi. Şadlığımdan bilmirdim neyləyim. Atamın yanına gəlib: "Ata, dəmirçi olmaq istəyirəm, məni qonşumuz Həsən dayının yanına şagird qoy", dedim. Ata-anamın qırışığı açıldı. Atam: "Çox yaxşı, oğlum, kaş sən işlə!" – dedi. Sabahdan atam aparıb məni qonşumuz Həsən dayının dükanında şagird qoydu. Usta Həsən nə əmr elədi, o saat yerinə yetirirdim. Ustanın işləməyinə fikir verib öyrənməyə çalışırdım. Beş-altı ayda dəmirçiliyi öyrəndim. O qədər yaxşı öyrəndim ki, ustam ən çətin işləri mənə tapşırdı. Mən də canla-başla çalışıb o işi ustamdan da yaxşı qayırırdım. Həsən dayı bir gün əlimdə işlədiyim kotana baxıb: "Sağ ol, Əhməd! Sən gözəl usta olacaqsan! Çəkici istədiyin yerə vurursan həm də məndən cəld işləyirsən", – dedi.

İşlədikcə öz sənətimə olan şövqüm o qədər artdı ki, yorulmaq nədir bilmirdim. Bunun sayəsində dəmirçilikdə şöhrət qazandım. Qayırdığım kotan, xış, bel, balta, dırmığı kəndlilərimiz alıb aparırdı. Çəkicimin altından çıxan hər şey mənə fərəh verirdi. Çünki Ceyran qıza evlənmək üçün yaxşı sənətkar olmağa söz vermişdim. Öz sənətimə və Ceyrana olan sevgim məni bəxtiyar elədi. Sözün qısası, Ceyran qıza evlənib, yaxşı bir ailə qurdum. Məni xoşbəxt yaşadan bu iki şeydir: biri sənətim, biri də məhəbbət.

Bəxtiyar öz söhbətinə belə yekun vurdu:

– Padşah, məni bu iki sevgilimdən ayırma, mən bunlarsız yaşaya bilmərəm!

*1947*

## BOSTANÇI

Yayın üzüm, əncir bişirən qızğın günlərindən biri idi. Günəş göydən qum üzərinə alov saçdıqca yer qorlu külə dönür, istidən nəfəs almaq olmayırdı. Zəhra qarı istidən qaçıb bir əncir ağacı kölgəsində uzandı. Bir az sonra yuxuya getdi. Oyandığı zaman günəş yavaş-yavaş əyilirdi. Yatdığı yerdən qalxıb oturmaq istəyirdi ki, sinəsində soyuq bir şeyin hərəkət etdiyini duydu. Tez əlini sinəsinə aparıb onun nə olduğunu bilməyə tələsdi. Əli köksü üzərində qıvrılıb yatmış ilana dəyər-dəyməz: "Vay, ilan!" deyə, dəli kimi bağırdı və həyəcanlı halda sinəsi ilə ilanı yerə atmaq istədi. Ancaq ilan da vaxtında öz işini görmüşdü. Zəhra qarı oyananda o da oyanmış, onun qışqırığı ilə ilanın sancıb qaçması bir olmuşdu.

Balaca Səməd nənəsinin bağırtısını eşidincə əvvəlcə qorxub dayandı, sonra bir az özünə ürək verib, irəli gəldi. Bu zaman ayaqları ucundan bir ilan fışıltı ilə qaçıb yox oldu. Səməd onu görüncə qaça-qaça gəlib evdəkiləri xəbərdar etdi.

– Ana, ana, nənəmi ilan yedi.

Hamı bağa qaçdı. Zəhra qarı köksünü tutub çığırır və ağrıdan uşaq kimi ağlayırdı. Ailə üzvləri dərin həyəcan içində idi. Kərim kişi tez həkim çağırmağa getdi. Arvad-uşaq bir-birinə qarışmışdı. İlan qarının döşündən vurmuşdu. Gəlini Ziynət dəsmal ilə qarının döşünü bərk sıxıb bağladı və ilan vuran yerə qatıq sürtdü.

İndi hamı səbirsizliklə həkimi gözləyirdi. Nəhayət həkim gəldi. Təcili yardım göstərib, yazıq qarının bədənini bir neçə yerdən çərtdikdən sonra getdi. O, bir də iki saatdan sonra gələcəyini bildirdi.

Üç gün keçmədi Zəhra qarı sağalıb ayağa qalxdı.

Bu hadisədən sonra Kərim kişi nəvələri Səməd ilə Zibanı bağ-bostan tərəfə buraxmadı. İlanları tələf etmək üçün iki kirpi tapıb bostana buraxdı.

Bir gün Ziba əncir dərirkən gördü ki, kirpi bir ilanın quyruğunu ağzına salıb çeynəyir. İlan çırpınır, quyruğu üstə qalxıb, özünü gah yerə, gah da kirpinin tikanlarına çırpır. Tikanlar onun cəmdəyinə batıb parçalayır.

Ziba sevinə-sevinə evə qaçdı: "Ana, ana! Tez gəlin, kirpimiz ilan yeyir", deyə evdəkiləri çağırdı. Hamı bağa qaçdı. Kirpinin ilan yediyinə tamaşa etdilər.

Ziba soruşdu:

– Ana, nə üçün ilan kirpini çalmayır?

Zibaya babası Kərim kişi cavab verdi:

– Qızım, baxsana, kirpi ilanın quyruğundan tutub öz başını içəri çəkibdir. İlan onun harasından vursun? O, istədiyi qədər qoy özünü kirpinin tikanlarına çırpsın daha da bədəni parçalanıb əziləcək. Kirpi öz işindədir. O, içəridən xımır-xımır yeyir.

Bu zaman sonuncu dəfə olaraq ilan başını qaldırıb dikəldi və canının ağrısından özünü kirpinin üstünə çırpdı. Bir az sonra quru ağac kimi dümdüz yerə sərildi. Səməd əlindəki ağacla ilanın başını əzə-əzə:

– Nənəmi sənmi yemişdin? – deyə ilanı öldürdü.

O gün uşaqlar üçün toy-bayram idi. Kirpilər onların gözündə böyümüşdü.

Kərim kişinin sənəti dəmirçilik idi. Oğlu Bahadır sənət məktəbində çilingərlik öyrənib zavoda düzələndən sonra atasının qocalığını nəzərə alaraq, onu işləməyə qoymamışdı. Bundan sonra o, ata-baba bağında təsərrüfat işləri ilə məşğul oldu. Uşaqlıqdan ata-babasından görüb öyrəndiklərini təsərrüfatına tətbiq etdi. Çox çəkmədi ki, Kərim kişi bağ-bostan işlərinin bilicisi kimi məşhur oldu. Onun bostan məhsullarının, xüsusən qovuş-qarpızının tərifi dillərdə söylənilirdi.

Bostanın oğlan çağı idi. Göy tağlar hər tərəfə qol-budaq atmışdı. Tağların yaşıl yarpaqları arasından görünən qovun-qarpız insana fərəh verir və göy çəməndə sakit-sakit yan-yana otlayan quzu sürüsünü xatırladırdı.

Bostanın qovun-qarpız hissəsi Kərim kişinin ən çox əmək sərf etdiyi və ən çox sevdiyi hissə idi. Hər gün yetişmiş qovun-qarpızı dərdiyi zaman onları bir-bir əlində oynadaraq, bir neçə saniyə baxdıqdan sonra fərəhlə yavaşca yerə qoyardı.

Bir gün bostanı gəzərkən məhsulun bir neçəsini parçalanmış və bir tərəfi yeyilmiş gördü. Kərim kişi parçalanmış qovun-qarpızı dərib əlində baxarkən, qaşlarını çataraq, söylənməyə başladı.

Bahadır işdən qayıtmışdı. Atasının bostanda olduğunu bilib, oğlu Səməd və qızı Ziba ilə bərabər atasının yanına gəldi. Kərim onları görüncə parçalanmış qovun-qarpızı göstərib:

– Oğlum, görürsən? Ən yaxşılarını puç eləyiblər, – deyə şikayətləndi. Bahadırın gümanı uşaqlara gəldi.

– Ata, yoxsa nəvələrinin işidir?

Uşaqlar bir ağızdan dedilər:

– Baba, biz bostana heç ayaq basmırıq.

Kərim kişi bir an fikirləşib dedi:

– Bostanda ən şirin qovun-qarpızı çaqqal yeyər.

Bahadır zarafatla:

– Canın sağ olsun, qovun-qarpızdan qoy çaqqallar da yeyib, sənin canına dua eləsinlər.

– Yox, Bahadır, elə demə, zəhmətimizlə şişib öküzə dönən müftəxorları biz ləğv elədik. Bu müftəxorları da ləğv etmək lazımdır!

Kərim kişi o gecə yatmadı. Tüfəngini götürüb, bostanın yaxınlığındakı böyük əncir ağacı altında uzandı. Altına bir çuval saldı, yanına yoğun bir ağac qoydu.

Aydınlıq gecə idi. Bostanın içi gündüz kimi işıq idi. Çox gözlədi. Neçə dəfə çubuğunu doldurub çəkdi. Səs-səmir eşidilmədi. Yerindən qalxıb bostanı başdan-başa dolaşdı, bir şey görməyib, yenə geri döndü və ağac altında çuvalın üstündə uzandı.

Hava sakit və durğun idi. Bütün mövcudat dadlı yuxuya dalmış olduğundan, ortalığa dilsiz bir sükut çökmüşdü. Yalnız göydə oynayan ulduzlar, yerdə əyyaş cır-cıramalar oyaq idi. Mürgüləyən təbiət Kərim kişiyə layla çaldığından o da başını ağacın gövdəsinə dayayıb cır-cıramaların yeknəsəq və ahəngsiz nəğmələrinə dalmışdı. Bu aralıq səs eşidildi. Bostançı tez gözlərini açıb oturdu və tüfəngini götürüb sıx və iri əncir yarpaqları arasından diqqətlə səs gələn tərəfə baxdı. Bir şey görmədi. Ancaq eşitdiyi səsdən Kərim kişi bostana heyvan gəldiyini hiss etmişdi. İndi onun nə heyvan olduğunu və harada durduğunu öyrənmək istəyirdi. O, gözlərini bostana dikib aramsız gözlərkən nə gördü? Bir tülkü əncir ağacı yanında çömbəlib oturmuş, yaxında adam olub-olmadığını bilmək üçün tez-tez havanı iyləyir və əli ilə arabir yuvarlaq bir şeyi tərpədir. Kərim kişi diqqətlə baxıb gördü ki, tülkünün oynatdığı kirpidir. Bundan bir şey anlamadı. O elə bildi ki, tülkü kirpi ilə oynayır. İşin sonunu maraq içində gözləyib dururdu.

Tülkü kirpini yuvarlaya-yuvarlaya əncir ağacından uzaqlaşdırdı, arxası üstünə çevirdi. Bir az marıtdayıb ona baxdıqdan sonra ağzını kirpiyə tərəf uzadıb yenə tez geri çəkildi. Kərim kişi içində gülərək:

– Sənə tülkü deyərlərsə, ona da kirpi deyərlər. Tikanlardan özünə elə hasar çəkməyib ki, onu yeyə biləsən, – dedi.

Tülkü kirpinin başı üzərində durub, başını gizlədiyi yerə ağzından damla-damla su axırdı. Kərim kişi ürəyində: "Dayan, görək nə edəcək?"

deyə düşündü. Kirpinin nəfəsi tutulmuşdu: Çox çəkmədi ki, başını çıxartdı. Bunu görcək tülkü dərhal onun başını ağzına salıb çeynəməyə başladı. Tikanlar artıq onu qorxutmayırdı. Çünki kirpi ayaqlarını uzadıb tikansız, yumşaq qarnını açıq buraxmışdı. Kərim tülkünün hiyləsini ancaq indi anladı, əvvəldən tülkünü öldürmədiyinə peşman oldu. Tez nişan alıb tüfənglə vurdu. Tülkü dərhal yerə sərildi. Kərim kişi tülkünün yanına gəlib dərisini soydu.

Bu aralıq yenə səs eşidildi. Bostançı tez öz yerinə çəkilib durdu. O bilirdi ki, yer-yemişi parçalayan başqa heyvandır. Kərim ziyançı oğrunu tutmaq istəyirdi. Əncir ağacının yarpaqları arasından dörd gözlə bostana baxırdı. O bir şey görməyirdi. Ancaq bir az uzaqda “trap, trup” səsi eşidildi. Bu, kiçik heyvan ayaqlarının səsi idi. Səs getdikcə ona yaxınlaşırdı. O bir də diqqətlə baxdı. İki dovşan iri qulaqlarını şəkləyib bostanın içində dolaşırdı. Onlar arabir iki ayaqları üstündə qalxıb ətrafı yoxlayır, sonra tağların arasında atıla-atıla gəzirdilər.

Kərim kişi oğruları tapmışdı. Onun qəlbi sakit-sakit çırpınırdı və dovşanları tutmaq yolunu düşünürdü. Bostan oğruları qarpız, qovunları qoxlaya-qoxlaya keçirdi. Hər ikisi bir tağ yanında durdu, qorxaq baxışlarla ətrafı süzdükdən sonra iri bir qarpızı yeməyə başladılar. Kərimin səbri tükənmişdi. Dovşanın qorxaq heyvan olduğunu o çox yaxşı bilirdi; onlar bərk səs eşitdikləri zaman qorxudan durduğu yerə sıxılıb qalır. Kərim tüfəngi götürüb dovşanları nişan aldı. Tüfəng açılınca çuvalı götürüb onlara tərəf yüyürdü. Dovşanlar bir-birinə yaxın olduğundan seçmələr dovşanların ayaqlarını yaralamışdı. Kərim asanlıqla dovşanları tutub çuvala saldı.

O, artıq vəzifəsini bitirmişdi. Çuvalı arxasına atıb evinə getdi, çuvalı bir bucağa qoyub yatdı.

Səhər Ziba Kərim kişidən əvvəl oyanmışdı. Dovşanların çuval içində atılıb-düşdüklərini görüncə qardaşını səslədi:

– Səməd, Səməd, bura gəl! Çuvalın içində bax gör babam nə gətirib.

Səməd gəlib əli ilə çuvalı yoxladı və tez əlini çəkib:

– Dovşandır, dovşandır! – deyə sevincindən bağırdı. O elə çığırdı ki, səsinə Kərim kişi yuxudan oyandı. Başını yasdıqdan qaldırıb:

– Ey, uşaqlar! Əl vurmayın, qaçırarsınız, – dedi.

Səməd babasının boynuna sarıldı:

– Babacan, bunları bizə ver, saxlayaq.

Kərim kişi:

– Yox, quzum, bunlar bostan oğrusudur. Həm də yaralıdırlar Bu gün anan bunların ətindən dadlı yemək bişirər, yeyərik, – dedi.

Söhbətə, işə getməyə hazırlaşan Bahadır qarışdı. O gülə-gülə:

– Yenə nə bişirib yeyirsiniz? – deyə zarafatla soruşdu.

Səməd tez çuvalı göstərib:

– Bax, bu dovşanları...

– Gecə tüfəng atılanda mən oyaq idim, bildim ki, oğruları tutmusan, – deyə Bahadır fərəhlə atasına baxdı. Kərim kişi yerindən qalxıb:

– Hələ ondan əvvəl bir tülkü vurmuşam, – deyə yasdığının yanından tülkü dərisini götürüb, ortalığa atdı. Hamı heyrət içində dəriyə baxdı.

Uşaqlar sevindiklərindən sıçrayırdı. Bircə Kərim kişi sevinmir, nəyi isə düşünürdü. Oğlunun ona baxdığını görüb dedi:

– Bahadır, bu tülkü gecə mən bir dağ çəkib ki...

– Necə?

– Zalım, kirpini yedi.

– Kirpini yedi? Necə yedi?

– Mən heç inanmadım ki, kirpini o yeyə bilsin. Gözüm baxa-baxa onu elə hiylə ilə öldürüb yedi ki, lap matım çəkildi.

Səmədə ağlamsınaraq soruşdu:

– Baba, demək, kirpimiz öldü, eləmi?

– Öldü, bala, öldü! – deyə Kərim kişi kirpinin ölümünə heyfsiləndi və gecəki hadisələri bir-bir nəvələrinə nağıl etdi.

*1947*

# ÜÇ İT

Laçın bacısı Tərlan ilə həyət bağçasının yanında oturub səssizcə beşdaş oynayırdılar. Oyunu bu dəfə Laçın qazanmışdı. Tərlan əlini yerə qoyur, Laçın daşı havaya atıb Tərlanın əlini əli ilə vurduqdan sonra daşı tez havada tuturdu. Tərlan əlini çəkərək dedi:

– Ay insafsız, mən səni udanda belə bərk vururdum?

Artırmanın pəncərəsindən onlara tamaşa edən Ballı nənə özünü saxlaya bilməyib:

– Bacı ürəyi yumşaq olar: – deyə səsləndi.

Bir saatdan bəri Tərlanın yanında uzanıb, başını qolları üzərinə qoyub dincələn Alabula uşaqların səsini eşidincə ayağa qalxdı. O, oynamaq və əyləmək istəyirdi. Odur ki, Laçına qısılıb uzanmış Toplana yanaşaraq onun ətrafında atılıb-düşməyə, əli ilə toxunaraq onu oyuna çağırmağa başladı. Toplan başını qaldırmayıb acıqlı-acıqlı ona baxır və arabir mırıldanırdı. Alabula əl çəkməyib oynamaqda davam edirdi.

İtin inadkarlığına dözməyən Toplan birdən atılıb onu dişlədi. Alabula quyruğunu sallayıb vəngildəyə-vəngildəyə Laçına sarı qaçdı və ağzı ilə Toplanın dişlədiyi yeri yalamağa başladı. Laçın əlini Alabulanın başına çəkərək:

– Alabula, Alabula, ağlama, – deyə onu oxşadı. Alabula onun qarşısında atılıb-düşür, iki ayağı üzərinə qalxaraq, əlləri ilə onu qucaqlayır, yalayır və yalmanırdı. Tərlan Laçına acıqlı səslə:

– Ey, mənim itimə sataşma! – dedi.

Laçın Toplana baxa-baxa Alabulanı oxşamaqda davam edir, Toplan da altdan yuxarı ona baxaraq mırıldanırdı. Toplan birdən atılıb Alabulanı yenə dişlədi. Alabula quyruğunu sallayıb vəngildəyə-vəngildəyə qaçdı. Tərlan bu dəfə acıqlandı:

– Sən bu qara meymuna bax, adı da it, özü də itdir. Qapmaqdan başqa bir şey bacarmır.

– Bax, sənin itin mənim itimdən necə qorxur! – deyə Laçın özünə təskinlik verdi.

– Onun nəyindən qorxacaq, pişik boyundanmı? Alabula pəncəsini salsa, altında əzilər.

– Boyu balaca olduğuna nə baxırsan, sən onun hünərinə bax.

– Sən də bu qara meymununu bu qədər öymə.

– Bəs nə üçün ondan qaçır?

– Mənim itim balacadır. Toplan qocadır. Ona hörmət saxlayır.

Sənin itin paxıldır. Nənəm, ya sən Alabulaya mehribanlıq edəndə az qalır Alabulanı dağıtsın.

– O da etibardan və sahibinə olan sədaqətdəndir. Toplan nənəm ilə mənim çox sevir.

– O paxıldır, özünü hamıdan çox sevir...

Toplan pişikdən böyük, zil qara, əsəbi və qoca bir it idi. Hürəndə səsi xırıldayırdı. Evdə Ballı nənədən və Laçından başqa kimsəni sevməz və itlərlə oyanmaqdan xoşlanmazdı. Nəşəsi yerində olduğu zaman Alabula onu həvəsləndirirkən arabir onunla bir az oynaşardı; başqa zamanlar onu dişləyib qovardı.

Alabula iki Toplan boyda ala-bula bir it idi. Ona görə də ona Alabula ad qoymuşdular...

Bacı-qardaş mübahisəsi davam etdirirdi. Elə bu zaman Laçıngilin qonşuları Zəfərin iti Çənbər həyətin o başında göründü. Alabula onu görüncə qaçıb qarşısında atılıb-düşməyə başladı. Laçın istehza ilə Tərlana:

– Sənin itin yaltaqdır, hamıya quyruq bulayır, – dedi.

– Yox, mənim itim mehribandır, hamıya məhəbbət bəsləyir.

Alabula Çənbərin qarşısını kəsərək min-bir oyun çıxarır və onunla oynamaq istəyirdi. Çənbər isə sakit durub acıqlı-acıqlı ona baxırdı. Alabula atılıb-düşməkdə davam edərkən, Çənbər acıqlanıb onu dişlədi, Alabula yenə quyruğunu sallayıb zingildəyə-zingildəyə qaçdı. Laçın istehza ilə:

– Sənin itin qorxaqdır, qorxaq, – deyə bərkdən güldü.

Çənbər irigövdəli, uzun tüklü, boz bir it idi. Qapıları həyət darvazasının yanında olduğundan, çox zaman darvaza ağzında uzanıb səssiz durar və arabir küçədən keçənlərə hürərdi. Hər gün bir-iki dəfə ağır addımlarla həyətin o başındakı bostana baş çəkmək adəti idi. Bostanda qonşu çəpərin yanında bir az gəzdikdən sonra evə qayıdardı.

Toplanın Çənbərdən xoşu gəlməzdi. Onu nə evlərinə yaxın gəlməyə, nə də həyətdən keçməyə qoyardı. Çənbər Alabulanı dişləyib yola saldıqdan sonra yenə ağır addımlarla, etinasız, bostana tərəf getmək istərkən Toplan birdən sıçrayıb onun qarşısını kəsdi və uzaqdan ona hürməyə başladı. Çənbər etinasız dayanıb durdu. Toplan hürməkdə davam etdi. Çənbər arxasını ona çevirib quyruğunun üstündə oturdu. Toplan onun qürurunu həzm edə bilməyi hürə-hürə ona yaxınlaşdı. Özü hiss etmədən o qədər yaxınlaşmışdı ki, o indi Çənbərin lap qulağı ucunda hürürdü. Çənbər birdən dönüb Toplanı ayaqları altına aldı.

Toplan Çənbərin pəncəsi altında zingildəməyə başladı. Uşaqlar zorgüc Toplanı Çənbərin əlindən aldılar, Laçın daş ilə Çənbəri vururkən Zəfər gəldi:

– Ey, mənim itimi niyə vurursan? – deyə Laçına acıqlandı.

– O mənim itimi niyə dişləyir?

– Necə dişləməsin, yazığı öz həyətində gəzməyə qoymayır, belə də iş olar?

Ballı nənə onların səsini eşidib gəldi:

– Siz yenə it üstündə vuruşursunuz?

– Nənə, sizin bu Toplan mənim itimə göz verir, işıq vermir. Mən Toplanı vurmaqdan, Laçın mənim itimi daş ilə vurur.

– İt üstündə dalaşmayın, hamısı sizin itinizdir... Laçın qələt eləyir.

Tərlan söhbətə qarışdı:

– Onda gərək mən hər gün Toplanı da döyəm, Çənbəri də. Çünki onlar mənim itimi hər gün dişləyirlər.

Ballı nənə gülə-gülə:

– Sənin itin hamısından yaxşıdır, ona görə səsin çıxmayır... Dalaşmayın!

Ballı nənə gedincə Laçın əli ilə Toplanın başını oxşadı. Elə bu zaman Məstan pişik göründü. Alabula məstanı görüncə yanına qaçdı. Məstan özünü yığışdırıb durdu. Alabula yaxınlaşınca Məstan ondan əvvəl itin üstünə atıldı. Oyun başlandı. Onlar bir-birini yıxır, oynaşırdılar. Məstan birdən sıçrayıb qaçdı, Alabula da onun arxasınca qaçıb onu tutdu. Yenidən oynaşmağa, bir-birini yalandan dişləməyə, didməyə başladılar. Bu dəfə Alabula qaçdı, Məstan onu qovmalı oldu. Oyun yenidən başlandı. Tərlan sevinc dolu gözlərini bu mənzərədən çəkmirdi.

– Mənim itimə baxın, Məstan ilə görün necə oynaşır!

Laçın istehza ilə dedi:

– O da bir növ pişikdir, pişik-pişik ilə oynar.

– Mənim itim sahibinə bənzəyir, hamıya mehribandır...

– Mehriban deyil, yaltaqdır, qorxaqdır.

– Ha, qorxaqdır, həyətə yad adam, yad it gələndə hamıdan çox mənim itim hürür, itləri qovub həyətdən qaçırır.

– O da qorxaqlıqdandır...

Zəfər, bir az uzaqda quyruğu üstündə oturub onlara tamaşa edən Çənbərə baxdı. Sonra gözləri bağça yanında uzanmış Toplana sataşdı:

– Nə əcəb Toplanın səsi çıxmayır, – dedi.

Zəfər sözünü qurtarmamışdı ki, elə bil Toplana xəbər oldu, yerindən sıçrayıb Çənbərə tərəf qaçdı. Uzaqdan əsəbi və acıqlı səslə ona hürməyə başladı. Tərlan gülə-gülə:

– Zəfər, gözün dəydi. İndi yenə Çənbər Toplanı ağladıb yola salacaq, – dedi.

Laçın:

– Toplan, Toplan! – deyə onu çox çağırdı. Toplan gəlməyib daha da bərkdən hürməyə başladı.

Ballı nənə eyvandan səsləndi:

– Ay uşaqlar, o iti yenə niyə hürdürürsüz?

– Nənə can, Çənbərə hürür.

– Çənbər yenə sərhədi keçib, ona görə hürür.

– Yazıqdır, çox hürməyə qoymayın!..

– İstədiyi qədər hürsün, Çənbərin heç bir tükü də yerindən qımıldanmayır, – deyə Zəfər astadan dilləndi.

Çənbər adəti üzrə arxasını Toplana çevirib etinasız durur, Toplan da boğuq əsəbi səsi ilə şiddətlə hürməkdə davam edir, getdikcə səsindəki xırıltı artırdı. Birdən-birə Toplanın səsi boğuldu. Qızdırmalı kimi titrəyərək, səssiz yerə yıxıldı.

– Nənə, nənə, Toplan öldü, – deyə Laçın həyəcanla çığırdı. Uşaqlar bir anda itin ətrafını alıb onu huşa gətirməyə çalışdılar. Ballı nənə əlində bir kasa su gəldi. Suyu Toplanın ağzına tökdü və əli ilə yavaş-yavaş onu tərpətməyə başladı. Toplan ayılmayırdı. Laçın gözləri dolmuş halda Çənbərə acıqlı-acıqlı baxıb:

– Mənim Toplanım ölsə, sənin gününü qara gətirəcəyəm, – dedi. Sonra yerdən bir daş götürüb Çənbəri vurmaq istərkən Zəfər onu tutdu. Əlindən daşı alıb yerə atdı. Ballı nənə Laçına acıqlanıb:

– Ay oğul, – dedi, ataların sözüdür: "İtə hörmət edərlər, yiyəsinin xətrinə". Zəfər sənin məktəb yoldaşın, yaxın dostun və yaxın qonşundur. Onun itini vurmaq özünü vurmaqdır. Bir də Çənbərdə nə təqsir, təqsir Toplandadır ki, ona hürür.

Bu zaman Toplan başını qaldırıb gözlərini açdı. Laçın sevincək bağırdı:

– İtim ayıldı... İtim ayıldı.

Laçın yerə çöməlib: "Toplanım, Toplanım!" – deyə onun başını oxşamağa başladı. Ballı nənə yerə oturub Toplanı qucağına aldı. Toplan zingildəyə-zingildəyə onun əllərini yalayırdı. Ballı Tərlana:

– Qızım, itin qabına süd tök, içinə çörək doğra, gətir yesin, – dedi.

Məstan oynamaqdan yorulmuşdu. Alabulanın əlindən qurtulub tez bir ağaca dırmandı. Alabula aşağıdan yuxarı baxaraq, ona hürə-hürə çox atılıb düşdü, Məstan aşağı enmədi. Alabula yığıncağa tərəf qaçdı. Tərlan əlində itin qabı gəldi. Ballı nənə qabı Toplanın qabağında yerə qoydu. Toplan ağzını qaba uzadar-uzatmaz Alabula başı ilə onu itələyib südlü çörəyi acgözlüklə yeməyə başladı. Tərlan ayağı ilə Alabulanı itələdi. Alabula yenə yeməyə soxuldu. Toplan bir an səssiz durub ona baxdı, sonra Ballı nənənin qucağına atılıb oturdu. Laçın əlini onun başına çəkərək:

– Toplan nənəmi hamıdan çox sevir, – dedi.

Ballı nənə Toplanı oxşayaraq:

– Bilirsinizmi, o məni niyə çox sevir? Qulaq asın, danışım, bizim yaxın tanışlardan birinin qapısında cins bir it yaşayırdı. Bu it də çox adamın gözü var idi. Ona yüz manat verənlər də olmuşdu, yiyəsi satmayırdı. Günlərin birində bu it üç küçük doğdu. Küçüklərin gözü açılmamış mən gedib bu Toplanı gətirdim, onu süd ilə bəsləyib böyütdüm. Yazıq, ana südü əmmədiyindən, ana üzü, ana məhəbbəti görmədiyindən belə sərtdir, soyuqdur.

Bu söhbət uşaqların çox xoşuna gəldi. Onların hətta Toplana ürəkləri də yandı. Tərlanı öz Alabulasının da tərcümeyi-halı maraqlandırırdı Odur ki, fürsətdən istifadə edib nənəsindən onun haqqında da danışmağı xahiş etdi. Öz nəvələri və uşaqlarla söhbəti çox sevən Ballı nənə Tərlanın xahişini məmnuniyyətlə qəbul etdi:

– Soyuq, boranlı qış günü idi. Artırmanın bir bucağında Toplanın altına köhnə palaz salmışdıq, orada uzanmışdı. Bir də gördük ki, həyətə bir küçük girdi. Toplan onu görüncə qulaqlarını şəkləyib həyətə qaçdı. Küçük ilə bir az burunlaşdı, qoxulaşdı, sonra arxasına salıb onu artırmaya, öz evinə gətirdi və öz palazının üstündə ona yer verdi. Hər ikisi uzanıb, bir-birini yalayırdı. Toplan onu evinə qonaq gətirəndən sonra mən onu qova bilərdimmi? O gündən bu it də bizim evdə qaldı, adını Alabula qoyduq. Mən ona çörək verdim, yedi, Toplan çörəyə ağzını da uzatmadı.

Ballı nənə burada söhbətini kəsib, onu diqqətlə dinləyən uşaqlara baxdı. Sonra Toplanı oxşayaraq, sözünə davam etdi:

– O gündən Toplan Alabulaya iki şeyi qadağan etmişdir: birinci, onu otağa girməyə qoymaz, Alabula başını qapıdan içəri uzadınca onu dişləyib qovur. İkinci də, mən əlimi Alabulanın başına çəkib mehribanlıq edəndə özündən çıxır, tez üstünə atılıb onu dişləyir.

– Ha, görürsənmi, mənim itim necə qonaqsevən və mərhəmətlidir! Bəs sən deyirsən ki, paxıldır, özünü sevəndir, – deyə Laçın məmnun halda bacısı Tərlana sarı döndü.

– Sən də bildinmi mənim itim Toplana nə üçün hörmət edir? Bir qoca olduğuna görə, bir də yaxşılığı unutmur, – deyə Tərlan da qardaşının sözünü cavabsız buraxmadı.

İndi ki, söhbət belə başlanmışdı, onu sona çatdırmaq lazım idi. Axı Zəfər də öz Çənbəri haqqında yaxşı sözlər eşitmək istəyirdi. Onun ürəyini incitmək olmazdı. Bunu Ballı nənə başa düşürdü. Odur ki, heç kəsin xahişini gözləmədən dedi:

– İndi də sizə Çənbərdən danışacağam.

Zəfərin üz-gözü güldü. Ballı nənə onun lap ürəyindən xəbər vermişdi.

Zəfərin Çənbəri bizim bostanın dalındakı evdə yaşayan bir aqronomun iti idi. O, arabir Çənbəri də götürüb ova gedərdi. Günlərin birində aqronoma Bakıda Kənd Təsərrüfatı Nazirliyində bir iş verdilər. Aqronom ailəsini də yığışdırıb Bakıya getdi və bu iti Zəfərgilin ailəsinə tapşırdı. Çənbər üç gün ac, susuz, köhnə evlərinin qapısında ulayıb yiyəsini çağırdı. Zəfərin atası nə qədər çalışdı, onu öz evlərinə gətirə bilmədi. Çarələri kəsilib ona hər gün yemək aparırdılar. İt nə yeməyi qəbul edir, nə də onları yaxın qoyurdu. Ancaq, bu üç gündə Çənbər az-çox Zəfərgilə isnişmişdi. Dördüncü gün o evə başqa ailə köçməli idi. Çənbər özünü yırtıb heç kəsi həyətə buraxmayırdı. Odur ki, Zəfərin atası dördüncü günü Çənbərin boynuna ip bağlayıb onu pişim-pişimlə öz qapılarına gətirdi. O gündən bu itin üz-gözü gülməyir, qaşqabağı açılmayır. O hər gün gedib bizim bostanın çəpərinin yanında durub öz köhnə evlərinə baxır, yenə qəmli-qəmli qayıdıb gəlir.

– Aha, bu onun üçün hər gün sallana-sallana bostana gedirmiş!..

– Bu itləri yaxşı tanıdınızmı? İndi sizdən bir xahişim var.

– Nədir, nənə can, nədir?

– Sənin-mənim sözünü buraxın, üç yoldaşsınız, üç itiniz var, bu üç iti öz itiniz kimi sevin, ayrı-seçkilik olmasın.

– Mən razıyam, nənə can.

– Mən də razıyam.

– Mən də razıyam, mən də.

– Mərhəba, balalarım, bax, belə!..

*1947*

# MEŞƏ GÖZƏTÇİSİ

Yenikənd gündən-günə gözəlləşirdi. Yaradan, işlək əllər gecə-gündüz çalışıb onu nümunəvi bir kolxoz kəndinə çevirmişdi: yeni küçələr salınmış, sıra ilə təzə evlər tikilmiş, ağaclar əkilmişdi. Hər tərəfdən onu qucaqlamış olan böyük sovxoz bağları, əkin bostan yerləri və ucu-bucağı görünməz qalın meşələr onun gözəlliyini daha da artırırdı.

Yayın məhsuldar çağı idi. Meyvələr yetişmiş olduğundan, Yenikəndi şimaldan qoynuna almış yaşıl meşə öz geniş süfrəsini açıb qonaqların yolunu gözləyirdi.

Hər gün dəstə-dəstə arvad-uşaq meşəyə fındıq, zoğal, moruq dərməyə gedirdi. Meşə keşikçisi Sadıq əmi gələnlərin qabağını kəsib deyirdi:

– Bura baxın, meyvə dərməyinizə sözüm yoxdur, ancaq bir budaq qırılsa, məndən inciməyin.

Bu zamanlar, qoca keşikçinin əsəbi hallar keçirdiyi günlər idi. Budaq qırmasınlar, ağac kəsməsinlər deyə, onun gözü dörd idi.

O gün bir uşaq meyvə yığırkən üstü zoğal ilə dolu böyük bir şaxəni qırmışdı. Budaq sındırmaq, icazəsiz ağac kəsmək Sadıq əmiyə onu təhqir etməkdən də ağır gəlirdi. O, yerə enmiş iri ağac budağına nəzər saldıqdan sonra uşağı bərk danladı. Sadıq əminin çox qəzəbləndiyini görən uşağın anası Sənəm xala onu sakit etməyə çalışdı:

– Sadıq əmi, Xəlil elə uşaq deyil, bilməyib, daha sındırmaz.

Sadıq əmi onu acıqlı-acıqlı süzərək:

– Sən bilirsən ki, bu ilin gələn ili də var, – dedi, hər gələn bir şaxə qırsa axırı nə olar? Mən buna yol verməm. Bir də belə etsə, onu səninlə birlikdə meşəyə buraxmayacağam.

Sadıq əmi ortaboylu, üzü ətli, çıxıq yanaqları qırmızı, vücudu polad kimi möhkəm, sağlam bir kişi idi. O, cavanlığından qışda, yayda otaqda yatmazdı, açıq havanı çox sevərdi. Hər səhər soyuq suda çimməyi vərdiş etmişdi. Altmış yaşa dolduğuna baxmayaraq, bu vaxtadək onun ağır xəstələndiyini görən, eşidən olmamışdı. Qar düşdüyü zamanlarda da açıq eyvanında, kefi gələndə gecəni də meşədə yatardı. Meşə ona öz canından da əziz idi. Gecə-gündüz çalışır, yeni ağaclar əkir, meşənin içini bağ kimi təmizləyirdi. Meşə onun üçün hər şey idi.

Sadıq əmi yaxşı keşikçi, həm də mahir ovçu idi. Meşədə onun ən yaxın dostu quşlar olduğu kimi, ən böyük düşməni də quşları tələf edən mal-qaraya soxulan canavar, tülkü, çaqqal, çölpişiyi və dovşan

kimi ziyançı heyvanlar idi. Bunları gördümü, vurub öldürərdi. Bu işdə ona iri gövdəli, Qurd basan adlı boz köpəyi də az kömək etmirdi. Küçük vaxtından saxlayıb onu elə öyrətmişdi ki, Sadıq əminin hər sözünü, hər hərəkətini başa düşürdü. Onun köməyi ilə Sadıq əmi vəhşi heyvanları qırıb tələf edir və ovçular ittifaqından tez-tez mükafat alırdı. Sadıq əmi meşədə qurdun kökünü çoxdan kəsmişdi. Artıq kolxoz heyvanlarının da canı dincəlmişdi. Bir də buna görə kolxozçular Sadıq əmini çox sevir və ona böyük hörmət bəsləyirdi.

Qoca Mərdan kişi işini görüb qurtardıqdan sonra eşşəyini otlamaq üçün çox tez-tez naxır bulağının yanındakı çayırlıqda hörükləyirdi.

Axşam qaranlığı çökmüş, naxır kəndə qayıtmış, quşlar yuvalarına, toyuq, xoruz hinlərinə çəkilmişdi. Mərdan kişi kənd içində dostu Əkbər kişinin qapısı ağzında oturub söhbət etməkdən doymayırdı. Söhbət Yenikəndin gündən-günə gözəlləşməsindən, Nazirlər Sovetinin qərarı ilə kəndin şimal tərəfində yeni salınacaq meşədən, Sadıq əminin meşələr üzərində çəkdiyi əməkdən düşmüşdü. Mərdan kişi deyirdi:

– Sağ olsun Sadıq əmi, kəndimizin bəzəyi olan bu meşəni göz bəbəyi kimi qoruyur.

Əkbər kişi də onun sözünü təsdiq etdi.

Söhbət uzanıb gedərkən eşşək Mərdanın yadına düşdü; tez ayağa qalxdı:

– Söhbət dananı qurda verər, gedib eşşəyi gətirim, – deyə dostu Əkbər ilə görüşüb getdi. O, çayırlığa çatdıqda ala-qaranlıqda gözünə qara kölgələr göründü. Dayanıb diqqətlə baxdı: iki qurd eşşəyi yerə yıxıb yeyirdi. Əlində silah olmadığından yaxın getməyə qorxub, tez qayıdıb kəndə səs saldı. Zəmidən yenicə qayıtmış kolxozçular it, silah götürüb gedincə qurdlar qaçmışdı.

Ertəsi gün bu səs kəndə yayılmışdı. Səhər naxır bulağı başına yığışan kolxozçular: "Sadıq əmi daha qocalıb, qurdlar yenə kəndə yol salıb; yazıq Mərdan kişinin eşşəyini dağıdıb yeyiblər", – deyə onun arxasınca söylənirdilər. Sadıq əmini yaxşı tanıyanlar: "Bu qurdlar meşədən gəlməyib, görəsən haradan azıb kəndə daraşıbdır. Bir də, Sadıq əmi meşə keşikçisidir. Sənin eşşəyinə də keşik çəkməyəcək ha, mal sahibi öz malını özü saxlamalıdır. Buna Sadıq əmi neyləsin?" – deyə onu müdafiə edirdilər.

Deyişmə, söhbət getdikcə uzandı, deyişmənin qızğın çağında Sadıq əmi iki anaş, üç bala qurdun dərisini bir-birinə kəndirlə bağlayıb

eşşəyin üstünə aşırmış olduğu halda gəldi. Bunu görən kolxozçulardan biri "Ay sağ ol, Sadıq əmi, səni bizim kəndin üstündən əskik olmayasan. De görək, bur qurdları harada öldürdün?" – deyə ondan soruşdu.

Sadıq əmi adəti üzrə kiçik, qara gözlərini qıyaraq cavab verdi:

– Bu namərd qurdlar bu il hardansa azıb meşəyə giribdir. Meşədə ağac altında oturmuşdum, Qurdbasan da ayaqlarımın ucunda uzanmışdı. Birdən gözümə uzaqdan keçən iki kölgə ilişdi. Tez qalxıb diqqətlə baxdım. Gözlərimə inanmadım. Çünki çoxdan bu meşədə qurd görməmişəm. İti tez götürüb onların izinə düşdüm. Səs çıxarmasın deyə iti başa salmışdım. O mənim fikrimi anlayıb səssiz yanımca gəlirdi. Qurdlar getdi, biz getdik, qurdlar getdi, biz getdik. Gördüm, onlar meşədə kiçik bir köhülə girdi. Tez yüyürüb çatdım. Tüfəngi dörd-beş dəfə köhülün içinə boşaldıb, Qurdbasana qıs vurdum. Bu zaman bir qurd köhüldən çıxıb qaçmaq istərkən nişan alıb vurdum. O biri qurd köhüldən çıxmadı. İtə yenə qıs vurdum. İt köhülə girib, əvvəlcə yuvasında, vurduğum qurdu çıxartdı. Sonra bir-biri balalarını. Namərd qancıq üç bala doğubmuş.

Kənd əhli bir ağızdan Sadıq əmini alqışladı:

– Çox sağ ol, Sadıq əmi! Bu qurdlar artıb döl salsaydı, kəndin işi nə olardı?

Ferma müdiri Əsli bir qədər irəli gəlib, gülə-gülə soruşdu:

– Sadıq əmi, bu beş qurda ovçular ittifaqından nə qədər mükafat alacaqsan? Püstə bacının kefidir.

Sadıq əmi gülümsəyib cavab vermədi.

Qoca keşikçini dilləndirməyə çalışan Əsli yenidən soruşdu:

– Sadıq əmi, bu qurdlar dünən axşam çayırlıqda qoca Mərdanın eşşəyini dağıdıblar, xəbərin varmı?

Bu sözü eşitcək Sadıq əminin nəşəsi qaçdı, qaşlarını çataraq, acıqlı-acıqlı qurdlara baxdıqdan sonra:

– Onda, yaxşı vaxtında intiqam almışam! – dedi.

Getdikcə uzanan yamyaşıl meşənin arxasında günəş yavaş-yavaş sönməyə, göy üzünü əlvan şəfəqlər bürüməyə başlamışdı. Göyün rəngi meşəyə əks etmiş olduğundan budaqlar, yarpaqlar gecə paltarını dəyişib incə, əlvan tül paltarını geyinmişdi. Günəş ucaldıqca təbiətin mahir rəssamı meşəni daha kəskin və zəngin boyalarla bəzəyirdi. Dan yeli yavaş-yavaş əsdikcə yarpaqlar bir-birilə pıçıldaşır kimi səslənir, kollarda budaqlarda ötüşən quşlar yeni səhəri yaradan günəşi salamlayırdı.

Sadıq əmi o gecə meşədə yatmışdı. O, alaqaranlıqdan oyanıb çeşmə başında əl-üzünü yuyub sildikdən sonra yaxındakı kiçik bir təpəcəyin başında oturub təbiətin gözəlliyini seyr edir, quşların cəh-cəhini böyük maraqla dinləyirdi.

Qurdbasan da onun ayaqları altında uzanıb, o da sanki quşların səhər konsertindən zövq alırdı.

İşsiz durmağı sevməyən Sadıq əmi qalxıb böyük həvəslə meşədəki cavan ağacların yan-yörəsini, diblərini qazıb təmizləməyə başladı. Bu zaman qulağına qat-qarışıq səslər gəldi. Qurdbasan qulaqlarını tez şəkləyib hürə-hürə səs gələn səmtə qaçdı. Sadıq əmi Qurdbasanı çağırdı. İt durdu. Çox çəkmədi ki, qarşıda dəstə rəhbəri ilə birlikdə bir neçə qırmızı qalstuklu pioner göründü. Sadıq əmi onları məhəbbətlə qarşıladı:

– Gəlin, balalarım, gəlin, hamınızı tanıyıram. Kəndimizin küçələrini ağaclarla bəzəyəndə mənə siz çox kömək etmisiniz. – Sonra Sadıq əminin gözləri Xəlilə sataşdı. Onu pionerlər arasında görüncə: – Oho... bacıoğlu, sən də gəlmisən? Eybi yoxdur, xoş gəlmisən. Ancaq gərək ağaclarla pis rəftarını tərgidəsən ha! – dedi.

Dəstə rəhbəri Sadıq əminin töhmətlərinə təəccüb etdi:

– Necə bəyəm? Sadıq əmi, yoxsa Xəlil meşəyə gələndə budaq qırır?

Sadıq əmi Xəlilin başını sığallayaraq:

– Belə bir iş olmuşdu. Xəlil mənə onda söz verdi ki, daha meşədən ağac qırmayacaq. İndi deyəsən ağaclarla barışıb.

– Barışmaq azdır. Sadıq əmi, o bizim məktəbimizin bağçasını, onun ətrafında əkilən ağacları bəsləyən, onlara hər gün qulluq edən pionerlərimizdəndir, – dedi. Sonra: – Görünür töhmətləriniz ona yaxşı təsir edib, – deyə əlavə etdi.

Sadıq əminin gördüyü işlər, onun təcrübəsi pionerləri çox maraqlandırdı. Odur ki, onlardan biri soruşdu:

– Sadıq əmi, bu ağacı niyə çıxardırsınız?

– Çıxartmıram, oğlum, – deyə Sadıq əmi cavab verdi, – belə cavan ağacların yan-yörəsini təmizləyirəm, payızda bunları çıxarıb təzə meşəliyə əkəcəyəm. Sonra başını qaldırıb uzaqlara baxaraq: – Arzularımız böyükdür. Bu meşəni o dağların ətəklərinədək böyüdəcəyik. Gələndə meşənin axırındakı açıqlıqda əkdiyim şitilləri gördünüzmü?

Hamı bir səslə:

– Gördük, Sadıq əmi, gördük.

Sadıq əminin gözlərində fərəh qığılcımları doğdu, həsrətlə pionerlərə baxaraq:

– Hayıf ki qocalıram, uşaqlar. On-on beş il sonra kəndimiz, əkin yerlərimiz və meşələrimiz tamam dəyişəcəkdir. Qorxuram, o günləri görməyə ömrüm macal verməyə.

– Qorxmayın, Sadıq əmi. Siz hələ çox yaşayacaqsınız, o günləri gözünüz doyunca görəcəksiniz, – deyə pionerlər bir ağızdan ona təsəlli verdilər. Bu sözlər sanki Sadıq əmiyə ürək-dirək verdi. O, ürəkləri suallarla dolu olan pionerlərə macal verməyib, meşələrin əhəmiyyətindən, yaşıllıqları, bağları qorumaq yollarından uzun-uzadı söhbət açdı, görüləcək işlər və onların faydası haqqında geniş məlumat verdi.

Xəlil yerindən səsləndi:

– Sadıq əmi təzə meşəyə şitil əkəndə bizi də köməyə çağırın.

– Çox sağ ol, oğlum. Siz dərslərinizə çalışın mənim köməkçilərim çoxdur, – deyə Sadıq əmi gülümsəyərək cavab verdi. Sonra üzünü uşaqlara tutub dedi:

– İndi də gedin, bir az meşəni gəzin, meyvələrindən yeyin, görün sizin üçün nə ağaclar bəsləmişəm. Sadıq əminin deməsi ilə pionerlərin dağılması bir oldu, bir anda meşənin dərinliklərində gözdən itdilər.

Sadıq əmi öz işinə məşğul oldu. Bir neçə ağacın dibini qazıb təmizlədikdən sonra oturub dincəlmək istədi. Qurdbasan da onun ayaqları altında uzandı. Qoca keşikçi vaxtının çoxunu meşədə tək keçirdiyindən, öz-özünə danışmağı və gördüyü işlərin nəticəsini xəyalında canlandırmağı vərdiş etmişdi. İndi də o, xəyal aləminə dalıb öz-özünə düşünürdü; o, nəzərinə dövlətin qərarı ilə Yenikənd meşəsinin şimalında salmağa başladıqları təzə meşəni gətirirdi. Yeni meşə əkin üçün əlverişli şərait yaradaq, şimal tərəfdən əsən küləklərin qarşısını alacaq, torpağı nəmişli saxlayacaq və bu boz, şoranlı çöllərin bol məhsul verməsinə səbəb olacaqdı. Belə getsə beş-on il sonra bu meşədə hər kol dibində bir qırqovul yuvalayacaqdı. Bu şirin arzular onu o qədər həyəcana gətirdi ki, birdən-birə əllərini bir-birinə vurub:

– Oh, bu meşəni mən istədiyim kimi görsəydim! – deyə çığırdı. O, elə şiddətlə səsləndi ki, ayaqları ucunda uzanan köpək yerindən sıçrayıb heyrətlə sahibinin üzünə baxdı. Sadıq əmi itin başını əli ilə oxşayaraq:

– Uzan, Qurdbasanım, uzan sən mənim qəlbimdəkini duya bilməzsən, – deyə ona yenə uzanmağı işarə etdi.

Bu zaman əlli-altmış addım məsafədə topa kolun içindən bir tülkü çıxıb qaçmağa başladı. Sadıq əminin ovçu gözləri onu görüncə tez tüfəngi alıb qalxdı və tülkünü nişan alıb vurdu.

Tülkü yerə yıxılınca bir qırqovul onun ağzından pırıltı ilə uçub yaxındakı budağa qondu. Qoca ovçunun gözləri parıldadı. Öz-özünə: “Yaxşı vaxtında vurmuşam, yoxsa namərd yazıq quşu yeyəcək idi. Mən bu vəhşi heyvanları bu qədər qırıb tələf edirəm, bunlar yenə göbələk kimi yerdən göyərir”.

Qurdbasan tülkünü gətirməyə getmişdi. Bu zaman yaxında, ağaclar arasında bir yad it hürdü, onun arxasınca bir səs eşidildi: “Keşikçi, keşikçi!” Sadıq əmi bu yad adamın kim olduğunu bilmək üçün gözlərini qıyıb o səmtə baxdı, sonra iti addımlarla səs gələn tərəfə getdi. Uzunboylu arıq bir adam ona doğru gəlirdi. Keşikçini görüncə:

– İtin sərtdirmi? – deyə soruşdu.

Kişi sözünü qurtarmamışdı ki, Qurdbasan ağzında tülkünü gətirdi. Onu tez Sadıq əminin yanında qoyub iri, qara ağzını açaraq, kəskin səslə hürə-hürə yad itə hücum etdi. O it qorxub yiyəsinin arxasına keçdi. Yad adam əlindəki tüfəngi ilə Qurdbasandan özünü, itini müdafiə etməyə çalışdı. Sadıq əmi tez itinin boynundan tutub, özünə tərəf çəkdi və ona bərk acıqlandı. Qurdbasan yerə çöməlib acıqlı-acıqlı onlara baxır və arabir mırıldanırdı. Yad adam Qurdbasanı gözucu süzdükdən sonra:

– İtin yaman sərtdir ha, onu açıb buraxmağın xatası çıxar.

Sadıq əmi itinin başını oxşayaraq:

– Qorxma, sərt olsa da mənim yanımda ziyan yetirməz.

Yad it quyruğunu, qulaqlarını sallayıb, gözlərini Qurdbasandan çəkmir, arabir mırıldanırdı.

Sadıq əmi tüfənginə söykənib:

– Siz kimsiniz? – deyə soruşdu.

– Mən aqronomam, adım Rəhimdir.

– Çox yaxşı, bu meşəyə nə üçün gəlmisiniz?

– Quş ovlamağa gəlmişəm.

– Yox, ov vaxtı deyil, ovçular ittifaqının ov mövsümünün başlanması haqqında qərarı olmayınca, mən bu meşəyə bir ovçu da buraxmayacağam.

Ovçu tüfəngini ucu ilə tülkünü göstərib:

– Sadıq əmi, sən özün ov edirsən, bəs məni nə üçün qoymursan? – dedi.

Ovçunun onun adını haradan bildiyinə çox maraqlanıb:

– Siz mənim adımı haradan bilirsiniz? – deyə soruşdu.

Ovçu sağ əlinin havada oynadıb gülə-gülə: – Sadıq əmini bu mahalda tanımayan kimdir? Səni kənddə uşaqlar da tanıyır. Sən də məni yaxşı tanıyırsan! Sizin aqronom Aslan ilə bu meşədə çox gəzmişik.

– Ola bilər, sifətin mənə tanış gəlir, meşədə gəzməyə sərin çeşmə sularından içməyə, meyvələrindən dərməyə mən də bir söz demirəm. Meylin olsa, bulaq başında səni qonaq da edə bilərəm. Yaxşı təndir çörəyim, üzlü pendirim, ət soyutması var. Ancaq quş vurmağa razı olmaram.

Ovçu etiraz etdi:

– Yaxşı, Sadıq əmi, bəs məni ovsuz yola salmaq istəyirsən? Bu heç yaxşı iş deyil axı!

– Yox, elə yaxşısı budur. Mən qanunu poza bilmərəm, quşlar təzə bala çıxarıblar, onları indi ovlamaq, yuvalarda balaları acından öldürmək deməkdir. Mən buna heç cür razı ola bilmərəm. Heç üz vurma, düzələsi iş deyil.

– Bəs bu quşları kimin üçün bəsləyirsən?

– Sizin üçün. Bir neçə gün əvvəl hamımızın istəklisi, Səməd, şair Səmədi deyirəm bura ova gəlmişdi. O da ov əvəzinə mənimlə çeşmə başında qəlyanaltı elədi. Qoyun meşələrimizin torpağımızın bəzəyi olan ceyran, cüyürlər, qırqovullar və turaclar artsın, vətənimiz zənginləşsin.

Ovçu məyus bir halda başını aşağı dikib durdu.

Sadıq əminin ürəyi köyrəldi: – Bilirəm, ovdan boş qayıtmaq ovçu üçün çox ağırdır. Al bu tülkünü sənə verirəm, apar, qoy əllərin boş olmasın, – deyə hələ bədəni soyumamış tülkünü ona tərəf uzatdı. Ovçu istər-istəməz tülkünü aldı. Ona təşəkkür etmək istəyirdi ki, Xəlil gəlib çıxdı. O, ciblərini meşədən yığdığı qabıqlı fındıqlarla doldurmuşdu. Qoltuğunda isə ağacların diblərindən çıxardığı on beşə qədər şitil vardı. Xəlil yaxınlaşan kimi əvvəl yad adama salam verdi, sonra Sadıq əmiyə müraciətlə dedi:

– Sadıq əmi, baxın, bu yığdığım şitilləri aparıb həyətimizdə, evimizin qabağında əkəcəyəm. Gələn il bunları salmağa başladığımız təzə meşədə öz əlimlə basdıracağam.

Sadıq əmi Xəlilin bu təşəbbüsünü sevinclə qarşıladı:

– Sağ ol, oğlum, bax bu işinə sözüm yoxdur, həmişə belə olmaq lazımdır, – dedi.

Sadıq əmi ilə Xəlilin arasında gedən bu söhbətdən sonra, onlara çox diqqətlə qulaq asan aqronom artıq köhnə söhbətin təzələnməsinə səy göstərmədi. O görürdü ki, Sadıq əmi sözündə çox möhkəm adamdır. Aqronom elə bunları fikirləşirdi ki, Sadıq əmi gülə-gülə Xəlildən soruşdu:

– Xəlil, bizim meşəyə qonaq gələn gördüyün ovçu, burada quş ovlamaq istəyir. Sən yay zamanı buna necə baxırsan?

Xəlil, Sadıq əminin nə demək istədiyini dərhal başa düşdü. Odur ki, heç fikirləşmədən cavab verdi:

– Sadıq əmi, indi ki ov vaxtı deyil, quşlar bu saat bala gəzdirir...

Meşə gözətçisi ovçuya mənalı-mənalı baxdı, ancaq bir söz demədi.

Sadıq əmi Xəlili o qədər sevməyə başladı ki, uşağın ağac sındırmaq əhvalatını tamamilə yadından çıxartdı.

*1954*

# PİONER DÜŞƏRGƏSİNDƏ

Yay tətili yenicə başlamışdı. İçərisi sevinclərlə aşıb-daşan, boyunları qırmızı qalstukla bəzənmiş pionerlərlə dolu avtobus düşərgənin qapısı qarşısında dayandıqda elə bir qurbağa gölünə bir daş atdılar. Uşaqlar intizar içində gözləyirdilər ki, birdən şofer çox uzun davam edən bir fit verdi. Fitin verilməsi ilə qapının açılması bir oldu. Qapıya qoca bağban Salman dayı çıxmışdı. Həmişəki kimi bu dəfə də o öz kiçik dostlarını qızğın bir məhəbbətlə qarşıladı. Keçən il yay tətilini həmin düşərgədə keçirmiş Azər yaşıl bağı, bostanı, becərilmiş çiçəkliyi quş baxışı ilə süzərək:

– Qocalar demişkən, Salman dayı bağı yenə cənnətə döndəribdir, – dedi.

Pionerlərin gözü bağda, bostanda, xüsusən əlvan çiçəklər açmış gözəl bağçada qalmışdı. Təmiz havaya qarışmış yaşıl yarpaqların və əlvan çiçəklərin ətrini udduqca onlar özlərində bir yüngüllük, ürəklərində dərin bir sevinc hiss edirdilər.

Hələ keçən il Salman dayının məsləhəti ilə Azər taxta bir qəfəs qayırıb pioner evinin qarşısında bitmiş uca bir qarağacın başından asmışdı ki, quşlar orada yuva tiksin, özlərini soyuqdan ayazdan qorusunlar. Odur ki, Salman dayını görüncə, hər şeydən əvvəl, həmin yuva haqqında soruşdu. Salman dayı sıx, qısa kirpikli qara, kiçik gözləri və qalın dodaqları ilə gülə-gülə:

– Oğlum, sənin qayırdığın qəfəsdə yazda sığırçınlar balalayırdı. Bax, bu qarağacı şənləndirən sənin sığırçınlarındır, – dedi.

Azər məhəbbətlə dolu olan gözlərini sığırçınlardan ayırmayıb həsrətlə onları seyr etməyə başladı. Sığırçınlar ağac başında budaqdan-budağa uçub, cik-cik səslənirdilər. O gün Azər sevincindən yerə, göyə sığmayırdı. Pionerlər düşərgənin meydançasına yığılıb gözləyirdilər. Düşərgənin rəisi Tofiq yoldaş uzun və geniş artırmanın üçüncü pilləkəninə çıxıb onlara müraciətlə dedi:

– Əziz balalar! Gördüyünüz bu gözəl bağ-bağçanı sizin istirahətinizi yaxşı keçirmək üçün düzəldiblər. Vətənimizdə sizə, uşaqlara böyük bir qayğı vardır. Sizin yaxşı oxumanız, sağlam olmanız üçün hər cür şərait yaradılmışdır. Siz burada yay tətilini ən çox sevdiyiniz məşğələlər və oyunlarla keçirəcəksiniz. Məktəbdə olduğu kimi, burada da özünüzü pioner adına layiq aparıb intizamı pozmayın, bir-birinizlə

yaxşı rəftar edin! Ağaclara, quşlara ziyan verməyin! Sizə məşğələlərinizdə müvəffəqiyyət arzu edirəm.

Uşaqlar düşərgə rəhbərinin sözlərini pioner salamı ilə qarşıladılar.

Sabahdan dəstə rəhbərləri görüləcək bəzi işləri öz manqaları arasında bölüşdürdü. Hamı bu bölgüdən razı qaldı.

Tofiq yoldaş Salman dayıdan xahiş etdi ki, pionerləri düşərgənin bağı ilə tanış etsin. Qoca bağban bu təklifi məmnuniyyətlə qəbul etdi və pionerlərlə birlikdə bağı gəzməyə başladı. Salman dayı divar dibindən qatarla bitmiş birinci əncir ağacına yanaşdı. Hələ saralmamış göy əncir qablalarını əli ilə göstərərək:

– Baxın, hələ kaldır, qabladır, yetişib saralanda görəcəksiniz, adi əncirlərdən həm böyük, həm şirin, həm də şirəli olur, – dedi.

Azər və keçən il düşərgəyə gəlmiş başqa pionerlər onun sözünü təsdiq etdilər.

Pionerlərdən biri qablaları maraqla gözdən keçirdikdən sonra soruşdu:

– Salman dayı, burada nə ustalıq göstərmisiniz, danışın, biz də bilək.

– Oğlum, əmək, zəhmət hər şeyi yaradır. Hər il bu ağacların dibini iki dəfə yaxşı belləyib, torpağını dəyişdirirəm, diblərinə gübrə tökürəm, artıq pöhrələrini qırıb təmizləyirəm, buna bizim Bakıda bic də deyirlər. Quraqlıq olanda arabir dibinə su da buraxıram.

Öz zəhmətinin bəhrəsinə fərəhlə nəzər saldıqdan sonra Salman dayı bir qədər irəli gəlib ağaca söykəndi və əlavə etdi:

– Ağacları bir də qanadlı, qanadsız həşəratdan qorumaq lazımdır. Ona görə də yaz olunca ağacların gövdəsinə əhəng tökmək lazımdır ki, yer altında olan ziyanlı həşərat ağaca dırmanıb ağacı və meyvələri qurdlu etməsin, qarışqalar da ağacların kökündə yuva salıb ağacı qurudur. Mən hər il o qarışqa yuvalarını dərmanlayıram.

Bu zaman bir dəstə sərçə uçub yaxın ağaclara qondu. Salman dayı quşlara işarə edərək:

– Bu quşlar da. göyərtilərin və meyvə ağaclarının yaxın dostudur. Onlar ziyanlı qurdları və kəpənəkləri tutub yeyirlər. – dedi. Sonra Salman dayı yanında durduğu qaysı ağacının yaşıl yarpaqları arasında yavaş-yavaş saralmağa başlayan iri qaysıları əli ilə göstərib əlavə etdi:
– Bunlar da mənim zəhmətimin məhsullarıdır, bizim bağlarda bu irilikdə, bu şirinlikdə qaysı az tapa bilərsiniz.

Bu zaman Səlim əyri və yarpaqları tökülmüş, başında bir neçə cır qaysı olan ağacı göstərib, gülə-gülə dedi:

– Salman dayı, bu cır və qurdlu qaysılar da sizindir?

Hamı bir anda əyri ağacı hər yandan halqaya alıb kiçik büzülmüş qaysılara baxmağa başladı.

Salman dayı kiçik qara gözlərini qısa kirpikləri arasında gizləyərək:

– Yox, oğlum, o cür qaysı ağacı mənim deyil. Köhnədən qalmadır. Mən çox çalışdım, əyri belini düzəldə bilmədim. Məsəldir: "Ağacı yaş-yaş əyərlər", – dedi.

Bu sözdən Azər razı qalmayıb:

– Salman dayı, bizim nə əyri adamlardan, nə də əyri ağaclardan xoşumuz gəlmir. Odur ki, bu bağda gözümüzə əyri ağac da gərək sataşmasın. Siz bu əyri ağacı ya kökündən çıxarıb atın, qışda yandırmağa lazım olar, ya da aşağısından kəsib, başqa qaysı ağacından calaq edin.

– Mərhəba, oğlum! Ağıllı balasan, səni keçən ildən tanıyıram. Sən haqlısan, mən neçə dəfə bu ağacı calaq etmək istəmişəm, ancaq əlim gəlməyib, demişəm, qoy bu əyri ağac qalsın, onun qurdlu qaysılarını görənlər ürəklərində o bağbana töhmət etsinlər.

Tofiq yoldaş Salman dayının sözünə qüvvət verdi:

– Bu əyri ağacı hələ cavan ikən bağban, küləklər əyməsin deyə, yanına düz bir ağac sancıb ip ilə bağlasaydı, belə əyri bitməzdi. Tərbiyə verməyi bilməyən ata-ananın övladı da başlı-başına böyüyüb ziyanlı küləklər tərəfindən əyilir, özünə, ailəsinə, xalqına və Vətəninə bu əyri ağac kimi heç bir xeyri dəymir.

Salman dayı sonra meynələrdən başlayıb bostanda yumurta kimi uzunsov pomidorlarına qədər uşaqlara göstərdi. O, bu gün özündən çox razı idi. Xüsusən pionerlərin bağ-bostan işlərinə bu qədər maraq göstərməsi onu çox sevindirirdi.

Səhər yeməyindən sonra pioner guşələrində böyük bir canlanma var idi. Kimi nərd, dama oynayır, bir dəstə pioner divar qəzeti hazırlayır, başqa bir dəstə isə pioner qəzeti və jurnallarını oxumaq ilə məşğul idi. Azər də Şamil ilə şahmat oynayırdı.

Şamil düşərgədə birinci şahmatçı hesab olunurdu. Azər ondan öyrənmək istəyirdi. Oyunun gedişinə diqqət edib, arabir bilmədiklərini soruşurdu. Onlara tamaşa edən Kərim Azərin marağını görüb dedi:

– Öyrət, Şamil, öyrət, beş-altı aydan sonra o səni udmasa, mən adımı dəyişdirərəm.

Pionerlərdən Qasım tənəli bir əda ilə dedi:

– O paxıldır. Keçən il əlaçı deyildi. Əlaçılara paxıllıq edə-edə gəlib o da əlaçı oldu.

Azər başını mənalı oynadaraq:

– Ay mərhəba, hər şeyi belə anlayırsansa, işlərin yaxşıdır. Əgər bilmək istəyirsənsə, mən özümdən yaxşıya paxıllıq yox, qibtə edirəm, – dedi.

– Xırdala görək, qibtə nə olan şeydir?

– Paxıllıq xudpəsəndlikdən doğur. Məsələn, biri əlaçı olanda çalışıb onu əlaçılıqdan salmaq, ona mane olmaq paxıllıqdır. Əgər mən əlaçı yoldaşımı sevib özümdə onun kimi olmaq istəyirəmsə, bu qibtədir. İndi başa düşdün qibtə nədir? – Qaraların piyadası qarşısında atı geri oturtduqdan sonra Azər sözünə davam etdi. Çünki Qasımın sözü onu bərk tutmuşdu:

– Qibtə insanda yaxşı sifətdir. O, inkişaf üçün əsas şərtlərdəndir.

– Afərin, yaman inkişaf eləmisən!

– Hər pioner gələcəyini düşünməli, özünü gələcək üçün hazırlamalıdır. Yoxsa nə bilmisən?!

– Sən hər işdə birinci olmaq istəyirsən və çalışıb olursan da. Bu da bir növ paxıllıqdır

– Hər işə nail olmaq üçün iradə və məhəbbət lazımdır. Mən öyrənmək istədiyim işi sevirəm, sonra da çalışıram. Elə bu zaman Şamil “Şah”, dedi.

Azər heç bir çıxış yolunun olmadığını görüb özünü məğlub hesab etdi.

– Yaxşı “mat” verdin, – deyə yoldaşının qələbəsini təsdiq etdi.

Axşama yaxın Salman dayı Azəri çağırdı. Azər artırmaya çıxınca qoca bağbanın yanında 12-13 yaşlarında bir oğlanın dayandığını gördü. Bu, Salman dayının nəvəsi Muxtar idi. Onu Azərə təqdim edərək dedi:

– Nəvəmdir, kənd məktəbinin dördüncü sinfində oxuyur. İstəyirəm ki, səninlə tanış olsun.

Azər oğlanın əlindən tutub tanış oldu. Sonra soruşdu:

– Hesabdan necəsən, yaxşı oxuyursanmı?

– Pis oxumuram.

– Yaxşı, onda səndən bir məsələ soruşacağam, görək necə cavab verəcəksən. Bir ağacda beş sığırçın oturmuşdu, ovçu tüfəng ilə vurub birini yerə saldı. De görüm, ağacda neçə sığırçın qaldı?

Muxtar düşünmədən cavab verdi:

– Dörd sığırçın.

Salman kişi məmnun nəzərlərlə Azərə baxdı. Azər gülərək:

– Yox, bilmədin, – dedi, – ağacda bir dənə də olsun sığırçın qalmadı. Barıtın səsindən hamısı uçub getdi. Buna yanıltma deyirlər. Səndən hər şey soruşanda əvvəlcə düşün, sonra cavab ver.

Salman dayı öz hesabını apardı, ürəyində: "Ağıllı balasan" sözlərini pıçıldadı. Sonra nəvəsi Muxtarın əlindən tutub:

– Oğlum, tez-tez Azərin yanına gəl-get, çalış, Azər kimi ol! – dedi.

O gün dənizdən qayıtdıqdan sonra onlar qonşu düşərgənin pionerləri ilə görüşə getdilər. İki düşərgə pionerləri arasında futbol yarışı da oldu.

Oyun Azərin başçılıq etdiyi dəstənin xeyrinə olaraq 4:3 hesabı ilə qurtarmışdı. Qonşu dəstəsinin toplarını, çox yaxşı oynayan Rəşid adlı bir pioner vurmuşdu. Rəşidin qoçaqlığı Azərin xoşuna gəlmişdi. Odur ki, ona yanaşıb:

– Sağ ol, sən yaxşı oynayırsan, mən ha çalışdım, iki topdan artıq vura bilmədim. Sizin qapıçı da yaxşı oynayır. Bizim üç topumuzu o, heçə çıxartdı. Ancaq, sən hamıdan yaxşı oynadın, – deyib Rəşidin əlini sıxdı.

Kərim fizikadan kəsildiyindən, imtahanı avqustun 25-nə təyin edilmişdi. Kərimin fizikadan zəif qiymət alması dostu Azərə çox pis təsir etmişdi. Odur ki, onlar hər gün tezdən oyanıb dərsləri birlikdə təkrar edirdilər. Bu gün də adətləri üzrə hər ikisi səhərdən oyanıb, qarağac altında fizika dərsini hazırlayırdı. Gecənin sərinliyini qoynunda saxlamış olan Abşeron yarımadasına məxsus yay səhəri şəfəqlərdən hörülmüş geniş, al qanadlarını yer üzünə sərməyə başlamışdı. Anaş və körpə bülbüllər səs-səsə verib səhər nəğməsini oxuyur, budaqdan-budağa atılan sərçələr də şan-şan cikkildəşirdilər. Azər ilə Kərimin səsi də quşların səsinə qarışmışdı.

Azər o günkü dərsi sual-cavab tərzi ilə Kərimdən soruşur, Kərim də cavab verirdi. Sonra Azər həmin dərsi Kərimə başdan ayağa bir dəfə nağıl etdirdi. Onlar artıq o günkü dərslərini hazırlayıb qurtarmışdılar.

Salman dayı böyük hovuzun ayağını açıb əlində bel bərə gəzdirir, bağı, bostanı sulayırdı. Motor sürətlə işləyir, hovuzun ayağından axan suyu təzə və sərin su ilə əvəz edirdi. Pionerlər hovuzun səkisində yan-yana oturub, şırıltı ilə hovuza axan suya tamaşa edir, həm də sərinlənirdilər.

Günəş artıq ucalıb göy üzərində parıl-parıl yanırdı. Quşlar hələ də səhər nəğməsini qurtarmayıb, arabir zümzümə etməkdə davam edirdi. Bu zaman Azərin gözləri şən civiltilərlə bir-birinin arxasınca budaqdan-budağa uçan və bir-birini sanki qovub tutmaq istəyən anaş və bala sığırçınlara sataşdı. Onlar gah dəstə ilə yerə qonur, bir-birini qovub dimdikləyir, sonra yenə də pırıltı ilə uçub ağada qonurdular. Sərçələr də onlardan geri qalmır, bu şənlikdə yaxından iştirak edirdilər. Azər böyük zövq və maraq içində gözlərini onlardan ayırmayıb, tamaşa etməkdən doymurdu.

İkinci manqa pionerlərindən Qulam daş ilə vurub bir sığırçının qanadını qırdı. Yaralı sığırçın yerə düşdü. Qulam tez qaçıb onu götürdü. Azər bunu görüncə ona tərəf qaçaraq:

– Mənim sığırçınımı niyə vurdun? – deyə ona acıqlandı və sığırçını əlindən aldı.

Qulam onun yaxasından tutub sığırçını tələb edirdi. Azər vermirdi. Onların arasında deyişmə uzandı. Qulam deyirdi:

– Hələ bu sığırçınlar sənin nə üçün olur, öz düşərgəmizindir.

Bir neçə pioner Qulamı müdafiə edirdi. Azər qarağac başındakı taxta yuvanı əli ilə göstərib:

– O yuvanı keçən il mən qayırıb asmışam. Bu sığırçınlar da yazda gəlib orada balalayıblar, – dedi və əlindəki yaralı sığırçına baxanda gözləri doldu.

Bu səs-küyə düşərgə rəisi, dəstə rəhbərləri də gəldi. Əhvalatdan xəbər tutunca onlar Qulamı müqəssir hesab etdilər. Onun hərəkətini pislədilər. Azərin quşlarla, xüsusən sığırçınlarla bu qədər maraqlanması, onlara qayğı bəsləməsi düşərgədə hamını, o cümlədən Tofiq yoldaşı da çox maraqlandırırdı. Bu sirri açmaq üçün indi çox münasib fürsət yaranmışdı. Bu məqsədlə yoldaş Tofiq Azərdən soruşdu:

– Azər, deyirlər ağacdakı taxta yuvanı sən qayırmısan, elədirmi?

– Bəli, mən qayırmışam.

– Afərin, Azər, görünür quşları çox sevirsən. Bəs bu qarağacın kəlləsinə necə çıxa bildin?

Azər gülümsəyib cavab verdi:

– O nədir ki, mən ondan da yuxarı qalxa bilirəm. Bundan sonra hər il bir yuva qayırıb asacağam... Qoy sığırçınlar yuva eləsin...

– Sən qayırarsan, gələn il də yuvada sərçələr bala çıxarar, – deyə pionerlərdən biri yerindən səsləndi.

– Yox, sığırçınlar bala çıxaracaq! – deyə Azər etiraz etdi.

Kərim gülə-gülə:

– Quş quşdur, heç bilmirəm, sən sığırçınlarda nə görmüsən?

Bu sual hamının ürəyindən oldu; çünki Azər sığırçınlardan həmişə böyük həvəs və hərarətlə danışırdı. Hamı aydın hiss edirdi ki, Azərin sığırçınları bu qədər sevməsi öz-özündən yaranmamışdır. Doğrudur, həmişə quşlardan söhbət düşəndə Azər müəllimlərinin, Salman dayının sözlərini xatırladır, quşların, xüsusən sığırçınların təsərrüfatdakı xeyrindən, onların ziyanlı həşərat və kəpənəkləri tələf etməsindən danışırdı. Ancaq məsələnin əsli bu deyildi. Odur ki, Tofiq yoldaş bu sirri açmaq məqsədilə Kərimin sualına haqq qazandıraraq dedi:

– Kərim doğru deyir, sən sığırçınları nədənsə başqa bir məhəbbətlə sevirsən, bəlkə bunun səbəbini bizə deyəsən?

Bir-birinin ardınca gələn suallar Azəri bir an düşündürdü. O, mühüm bir hadisə nağıl edən adam kimi özünü doğrultduqdan sonra sözə belə başladı:

– Yoldaş Tofiq, sığırçın çox məzəli quşdur. Mənim sığırçınımı söz görsəydiniz, buna inanardınız.

Azər nəyi isə xatırlayırmış kimi, bir an duruxdu. Tofiq yoldaş və pionerlər onu diqqətlə dinləməyə başladı. Azər söhbətinə davam etdi:

– Keçən il dekabr ayının qarlı-tufanlı bir günündə Sabir bağçasından keçərkən ağac başından bir sığırçın düz qarşıma düşdü. Tez götürüb, gördüm yazıq soyuqdan donubdur. Onu qoynumda evə gətirdim. Bir neçə gün isti şal içində saxladım. Ayaqlarını da, qanadlarını da don vurmuşdu. Evimizdə köhnə bir qəfəs var idi. Sığırçını qəfəsə qoyub pəncərədən asdım. O, əvvəlləri məndən qorxurdu, sonra mənə elə öyrənmişdi ki, məktəbdən gələndə qapıdan girincə qəfəs içində sevinə-sevinə atılıb-düşür və cik-cik səslənirdi. Mən onu şirin dil ilə oxşayıb, sevə-sevə yedirib-içirirdim. Bir gün mən şüşəbənddə əl-üzümü yuyurdum. Birdən-birə sığırçın qorxulu səslə elə çığır-bağır saldı ki, mən qorxdum, tez otağa qaçdım. O məni görüncə sakit oldu. Bir mənə baxdı, bir də pəncərəyə. Gördüm ki, qonşu pişiyi pəncərə arxasında durub quşu marıtlayır. Mən pişiyi qovdum. Bundan sonra sığırçın məndə üç-dörd ay qaldı. O tamamilə sağalmışdı. Hətta otaq içində arabir uçurdu da. Bilsəniz, bu necə məzəli quş idi! Hər gün içmək üçün qəfəsə su qoyurdum. Doyunca içdikdən sonra qanadlarını

qabın içinə salıb isladır və əməlli-başlı çimirdi. Mart ayı gəlib çatmışdı. Qonşu ağaclarında quşlar budaq-budağa atılıb şən-şən cikkildəşirdi. Bu sığırçın da qəfəsdən çıxıb pəncərə şüşəsini dimdiyi ilə vurur, o da yaşıl budaqlar arasına şən və azad uçmaq istəyirdi. Mən onun fikrini bilib quşu əlimə götürdüm, pəncərəni açıb onu əlimdə azad tutdum. O, birdən, uçub yaxındakı ağaca qondu. Mən dedim: Get, quşum, get, sən də bizim kimi azad yaşa!

Azərin söhbətinə çox diqqətlə qulaq asan Tofiq yoldaş gülümsəyərək dedi:

– Aha, indi bildik ki, sən bu sığırçınları nə üçün bu qədər sevirsən. Faydalı məhəbbətdir, təsərrüfatın dostu olan quşları sevmək və onların artmasına çalışmaq lazımdır.

*1955*

# Təmsillər

## TÜLKÜ VƏ XORUZ

Bir it ilə bir xoruz köçdən qalmışdı. Bunlar bir-biri ilə dost olub çöldə yaşayırdılar. Gecələr xoruz ağac başında, it də ağacın altında yatırdı.

Bir gün səhər dan yeri ağaranda xoruz ağac başında ucadan banladı. Yaxında ov axtaran bir ac tülkü xoruzun səsini eşidib gəldi. Ağac altında çömbəlib gözlərini xoruza dikib oturdu. Sonra mehriban səslə dedi:

– Xoruz qardaş, nə gözəl səsin var. Sənin səsin bu çöldə ötən bülbüllərin səsindən də ürəyə yatımlıdır. En aşağı, dost olaq. Mən bir dəf tapıb çalım, sən də oxu, ikilikdə bu yaşıl çəməndə gözəl gün keçirək.

– Yox, tülkü baba, – deyə xoruz ona cavab verdi, – Mənim vaxtım yoxdur. Kef məclisini qoyaq sonraya. Bu gün başım çox qarışıqdır.

– İşinin adı nədir?

Xoruz cavab verdi:

– Tülkü baba, bu çöl mənə babamdan qalıb. Burada mən bir kənd salmaq istəyirəm.

– Elə isə en aşağı, bu yerdən mənə də bir parça ver, özümə bir ev tikim. Gecə-gündüz sənə dua edərəm.

Xoruz vüqarını pozmadan cavab verdi:

– Bu işə mənim mühəndisim baxır, get, dərdini ona söylə, o sənə bir parça yer ayırıb verər.

Tülkü elə sandı ki, xoruzun mühəndisi bir toyuq olacaq. Ona görə də tez soruşdu:

– Sizin o mühəndis haradadır?

– Odur, ağac altında yatır.

Tülkü ağac altını gəzərkən Alabaş it onu gördü. Tez qalxıb tülkünün üstünə cumdu. Tülkü qaçdı, it qaçdı, qarşıya bir uçurum çıxdı. Tülkü uçurumu görüb tez geriyə döndü. Yenə həmin ağaca tərəf qaçmağa başladı. Ağacın yanından keçərkən xoruz ucadan soruşdu:

– Tülkü baba, ölçdüyün bu qədər yer sənə bəs deyilmi? Dayan!

Tülkü cavab verdi:

– Danışmağa vaxtım yoxdur, ancaq bu boz mühəndis sənə yaxşı kənd abad edər.

## DƏVƏ VƏ SİÇAN

Bir dəvə qatarından ayrılıb çöldə tək qalmışdı, iştaha ilə qanqal yeyirdi. Bu aralıq bir siçan yuvasından çıxmaq istərkən dəvəni gördü. Əvvəlcə qorxub çəkildi. Sonra bir müddət durub o zorba heyvana heyrətlə tamaşa etdi. Bir az ürəklənib yaxın gəldi, dəvənin boynuna bağlanmış kəndirlə oynamağa başladı. Sonra kəndiri tutub çəkdi. Dəvə yerindən hərəkət etdi. Dəvə hərəkət etdikcə siçan ipi dartıb çəkdi. Siçan getdikcə dəvə də itaət edib onun ardınca gedirdi. Siçan öz-özünə lovğalandı: “Sən bu siçan bəydə hünərə və igidliyə bax, bu zorbalıqda heyvanı çəkib aparıram”. Dəvə eşidib dinməli.

Onlar gəlib bir çaya çatdılar. Siçan dayandı, bir çaya baxdı, bir də dəvəyə. Dəvə dedi:

– Siçan bəy, yolçu yolda gərək, çayı keç gedək.

Siçan cavab verdi:

– Axı, bu çay dərindir, onu keçmək mənim hünərim deyil!

Dəvə siçanı öz quyruğuna mindirib çayı keçirdi. Sonra onu yerə düşürüb istehza ilə dedi:

– Ağa siçan, sən ki, mənim topuğumdan olan bir çayı keçə bilmirsən, mənə ağalıq etmək istəyirsən? Get, öz tayını tap!

## ARI VƏ EŞŞƏK

Dağ ətəyində bir eşşək otlayırdı. Yamacın lətif otlarından, dadlı çiçəklərindən qoparıb yeyirdi. Doyduqdan sonra həmin al-əlvan çiçək və otların üstündə uzanıb ağnamağa başladı.

Yaxında bir arı çiçəklərdən bal tuturdu. Bunu görüb çığırdı?

– Ey, nankor heyvan, otları, çiçəkləri nə üçün əzirsən, axı, onlar sənə can verir, qan verir, qarnını doyurur. Sabah onlar sənə lazım olmayacaqmı? Bir də biz arılar o ətirli çiçəklərdən bal və mum çəkirik. Doğru sözdür: “Eşşək qanmaz olur. Qanmaz isə özünə də ziyan verir, özgəsinə də”.

## ARI VƏ KƏPƏNƏK

Bir arı allı-əlvanlı bir çəmənlikdə çiçəyə qonub şirə sorurdu. Həmin çiçəyin o biri budağına da bir kəpənək qonmuşdu. Xortumu ilə çiçəyin şirəsini əmirdi. Arı tez-tez kəpənəyin yanından uçub o biri budağa qonurdu. Bundan rahatsız olan kəpənək dedi:

– Ey, o kobud ayaqların, o qalın qanadlarınla mənim yanımdan keçmə! Qızıl, gümüş xallı qanadlarımın bəzəyini pozarsan!

Arı ona cavab vermədi, çiçəkdən-çiçəyə qonmaqda davam etdi. Bu dəfə arı kəpənəyin yanından uçub keçərkən kəpənək yenə acıqlandı:

– Ey, sən bu zəhlə tökən vızıltını kəs, başım, beynim getdi. Görmürsən şirə əmirəm?

Arı vızıldayaraq cavab verdi:

– Ey xeyirsiz böcək! Xallı qanadlarınla çox da öyünmə. Mən çiçəklərdən şirə çəkib bal tuturam, onu bütün el yeyir, səndən kim bir fayda görmüş?

## TÜLKÜ VƏ DOVŞAN

Tülkü tələsik qaçırdı. Bir dovşan onu görüb soruşdu:

– Tülkü qardaş, nə var? Nə olub?

Tülkü cavab verdi:

– Padşahdan əmr var, dəvələri tutub işləməyə aparırlar.

– Axı bundan sənə nə? Sən ki, dəvə deyilsən!

– Eh, vaxtımı alma, mən də bilirəm ki, dəvə deyiləm. Ancaq mən tülkülüyümü isbat edincə, dərimi boğazımdan çıxararlar.

## HACILEYLƏK VƏ SƏRÇƏ

Bir Hacıleylək çinar ağacının ən yuxarı budağında yuva tikmişdi. Bir sərçə də həmin yuvanın altında məskən salmışdı. Bir gün hacıleylək sərçəyə dedi:

– Qonşu, sən mənim yuvamın kölgəsində yaşayırsan, mən olmasam günəş səni və balalarını yandırıb kül edər. Sərçə cavab verdi:

– Doğru deyirsən qonşu, sənin iri yuvan, iri qanadların bizə çox kömək edir, günəşin hərarətindən saxlayır. Buna görə sənə çox təşəkkür edirəm. Ancaq unutma ki, mən də olmasam, qarışqalar ağaca dırmaşıb səni və balalarını tələf edər. Mən bu kiçik dimdiyimlə onları bir-bir dənləyib yuxarı çıxmağa qoymayıram.

## TÜLKÜ VƏ DƏVƏ

Bir tülkü gedənlər hinə girib kəndin toyuq-xoruzunu yeyirdi. Kənd əhli bu tülkünün əlindən təngə gəlmişdi. Nə qədər çalışırdılar, onu tuta bilmirdilər.

Bir gün həmin kəndin dəvələrindən biri otlaya-otlaya kənddən uzaqlaşır. Doyduqdan sonra dincəlmək üçün bir baş tülkünün yuvasının ağzında uzanır. Özü bilmədən elə uzanır ki, quyruğu yuvanın ağzına düşür. Tülkü dəvəni görüb çox şad olur, öz-özünə düşünür: "Bu ovu mənə baxtım gətirib, quyruğundan tutub bu dəvəni yuvama çəkərəm, sonra da düz bir ay ləzzət ilə yeyərəm".

Bu fikir ilə tülkü dəvənin quyruğunu öz quyruğuna möhkəm bağladı. Sonra bütün qüvvəti ilə dəvəni yuvaya çəkməyə başladı. Dəvə quyruğunda bir şeyin tərpəndiyini görüb ayağa qalxdı. Tülkü onun quyruğundan sallana qaldı, qorxusundan dəvəni dişləməyə, cırmaqlamağa başladı. Dəvə bayaq götürüldü, qaça-qaça birbaş kəndə gəldi. Kənd əhli və itlər tülkünü dəvənin quyruğunda görüb onu tutdular.

## DƏVƏ, TÜLKÜ VƏ QURD

Bir kəndli dəvəni o qədər işlətmişdi ki, bir dəri, bir sümük qalmışdı. Dəvənin işləməyə artıq taqəti yox idi. Ona görə də kəndli dəvəni səhrada buraxıb getdi. Dəvədə nə tərpənməyə, nə də yeməyə hal var idi. Dəvəni bu vəziyyətdə görən tülkü ona yaxınlaşdı:

– Dəvə baba, bu səhrada tək başına nə edirsən? Nə üçün bu qədər zəifləmisən?

Dəvə başına gələn əhvalatı tülküyə anlatdı:

– Bax, insan oğlunun vəfası budur.

Tülkü ona ürək-dirək verdi:

– Qəm yemə, dəvə baba, mən hər gün gedib sənə təzə biçilmiş ot və taxıl gətirərəm, yeyib kökələrsən. De görüm, sonra əvəzində mənə nə verərsən?

Dəvə dedi:

– Kökəlsəm, sənə ətimdən bir batman verərəm.

Tülkü razı oldu. Hər gün gedib təzə ot və taxıl dərib dəvənin qabağına tökürdü, dəvə də ləzzət ilə yeyirdi. Bir-iki aydan sonra dəvə kökəlib cana gəldi. Daha tülküyə ehtiyacı olmadı. Tülkü dedi:

– Dəvə qardaş, vədə verdiyin bir batman ətimi ver.

Dəvə cavab verdi:

– Tülkü lələ, mən sözümdən qaçmıram. Ancaq neylərim? Budumdan versəm, topal olaram, qolumdan versəm, şil olaram, hər hansı yerimdən versəm, məni şikəst edər.

Tülkü narazı halda yoluna davam etdi. Qarşısına bir qurd çıxdı, qurd ondan soruşdu:

– Niyə qəmlisən, tülkü lələ?

Tülkü əhvalatı başdan-ayağa qurda danışdı və ondan kömək istədi. Qurd dedi:

– Məni apar onun yanına. Mən dəvədən sənin ətini alıb verərəm.

Tülkü qurdu götürüb bir baş dəvənin yanına gətirdi. Qurd acıqlı-acıqlı soruşdu:

– Ey, dəvə baba, tülkü lələnin bir batman ətini niyə vermirsən?

Dəvə cavab verdi:

– Ay qurd qardaş, mən tülkünün ətini danmıram, verəcəyəm, ancaq neyləyim? Belimdən versəm, yağır olaram, qolumdan versəm

şil olaram, budumdan versəm topal olaram. Daha neyləyim, özümü əlil edə bilmərəm ki...

Qurd bağırdı:

– Mən bilmirəm, bu saat tülkünün ətini ver!

Qurd ilə tülkü hərəsi bir yandan dəvənin üstünə hücum etdilər. Dəvə işi belə görüb dedi:

– Qurd qardaş savaş nə gərək, ətin yerini tapmışam, yaxın gəl, bax, mənim bu dilim bir batman gələr. Onu verim, tülkü lələ ilə məni barışdır.

Qurd quyruğunu bulayıb tez irəli gəldi. Dəvə ağzını açıb qurda dilini göstərdi. Qurd dəvənin dilini qoparıb yemək üçün başını dəvənin ağzına soxdu. Dəvə tez qurdun başını dişləri arasında elə bərk sıxdı ki, qurd ağrının gücündən atılıb-düşməyə başladı. Tülkü qurdun bu halını görüb ona dedi:

– Bu sıxmaq ki, dəvədə var, bu atılıb-düşmək ki səndə, deyəsən mənim bir batman ətim arada gedəcək.

# Pyeslər

# GÖZƏL BAHAR

*Üç pərdəli mənzum pyes*

ŞƏXSLƏR

Q ı ş
B o r a n
K ü l ə k
B u l u d
G ö z ə l  b a h a r
G ü n ə ş
S u
T o r p a q
Q a r a n q u ş
B ü l b ü l
U ş a q l a r: Dursun, Aslan, Pəri, Nazlı.
Kəpənək, Arı, Qızılgül, Bənövşə, Qərənfil, Sünbül, Durna, Qırqovul, Turac, Kəklik, Qurd, Çaqqal, Tərlan, Çiçəklər.

## BİRİNCİ SƏHNƏ

Qış fəslidir. Çöllər, dağlar, təpələr qarla örtülmüşdür. Qar yağır, külək vıyıldayır. Qış, qoca bir kişi qiyafəsində. Ağ saqqalından, bığlarından sallanan buzları əli ilə oynadaraq, məğrur baxışlarla ətrafa baxır. Külək və Boranın törətdiyi bidadlığa sevinir. Qanadlarını bir-birinə vuraraq, qəhqəhə çəkib gülür, gurlayan bir səslə oxuyur:

Q ı ş

Qışam, mənim böyük adım, sanım var;
Qardan, buzdan iliyim var, qanım var.
Ayaz, Boran, külək mənim əsgərim,
Dünyada tək bunlardır sevdiklərim.
Qanadımı çarpdıqca mən hər zaman,

Qüvvətlənir Külək, Ayaz, Qar, Boran.
Hər ölkəyə yayılır bu qanadım,
Ağızlarda gəzir şöhrətim, adım.
Payız girər, mənə zəmin hazırlar,
Günəş artıq sönük-sönük parıldar.
Əmr edincə mənə böyük təbiət,
Hiss edirəm özümdə başqa qüvvət.
Qanadımı geniş-geniş açıram,
Yer üzünə ayaz, boran saçıram.
Qorxusundan qurd-quş girir yuvaya,
Ancaq günəş hərdən çatır haraya.

G ü n ə ş bulud altından üzünü göstərir. Q ı ş onu görüncə qorxaraq bir addım geri çəkilir və qorxa-qorxa ona baxır. B o r a n, K ü l ə k və B u l u d qanadlarını çarparaq gəlir, hər biri Qışın bir tərəfində durur, Günəş yenə yox olur.

Q ı ş

Tükənməz qüvvətim yeri titrədir,
Yalnız bu Günəşə olmuşam əsir.
Göydə parlarkən o, əriyir qarım,
Qalmayır dünyada dövlətim, varım.

B o r a n

Sən heç qorxma sarı saçlı günəşdən,
Qarşına kim çıxa bilər biz varkən?
Dünyaları donduran oğlun Boran,
Ona da bir kəmənd atar qorxmadan.

B u l u d

Qanadımda tutub onun üzünü,
Qoymaram heç açsın odlu gözünü.

Q ı ş

Çox sağ olun, ancaq olmayın saymaz!
Güclü bir düşməndir bizə Günəş, Yaz.
Demək olmaz, Bahara zülmüm yoxdur,
Ancaq ona xidmətlərim də çoxdur.

Məhv edirəm hər zərərli qurdunu,
Şənləndirəm bu xidmətlə yurdunu
Qarlarımı parça-parça səpərəm,
Yorğan kimi yer üzünə döşərəm.
Qar altında yer buğlanar bir qədər,
Rahatlanar, güclənər, qüvvətlənər.
Bu azmı xidmətdir gözəl Bahara?
Bu xidməti anlamayır nə çara.

Günəş buludların arasından şəfəq saçır. Q ı ş q o r x u l u baxışlarla onu süzəndən sonra B o r a n a K ü l ə y ə və B u l u d a:

İgidlərim, durmayın, iş başına!
Çəkilin tez yamacların qaşına!
Yol verməyin bu Günəşə, Bahara,
Verməyin heç aman bu düşmanlara!

B o r a n

Biz gedirik, sən qorxma heç, əmin ol!

Q ı ş

Haydı, igidlərim, sizə yaxşı yol!

Hər üçü gedir. Qış qorxa-qorxa baxır, qəmli-qəmli gəzinir. Günəş buludları yararaq, ətrafa şəfəq saçır. Bulud onun üzünü tutmaq istəyir, tuta bilmir. Boran və külək qanadlarını çarparaq uğuldayır. Qış acıqlı və qorxulu baxışlarla Günə dimdiyində bir bənövşə gətirib Qışa uzadır.

Q a r a n q u ş

Qızıl bahardan, al, məktubdur sana,
Çarpışırsa, deyir, çıxsın meydana!
Su, Torpaqdan, Günəşdən əsgərim var,
Bir vuruşda onu edər tar-mar.

Q ı ş

(*Bənövşəni acıqlı yerə atır)*

Uşaqmı qorxudur? Qoy gəlsin, gəlsin!
Mənim qüvvətimi bir kərə bilsin!
Neylər bir laçına dünyaca qarğa?

Q a r a n q u ş

Bax çöllərə, yamaclara, a lovğa!
Görürsənmi igid komandanları,
Yenilməyən adlı pəhləvanları?..
Əllərindən can qurtarmaq çətindir;
Həm şöhrətli, həm güclü, həm mətindir.
Mən gedirəm, tap başına bir çara!

(*Gedir)*

Q ı ş

Bu çöllərdən qaçmaq gərək dağlara.
Ağalığım tükəndi; ah, bu Günəş
Məni də yandırır, yağdırır atəş.
Bulud, Külək, ay Boran!
Qaçın, gəlin durmadan!

H ə r ü ç ü qaçaraq gəlir.

Ü ç ü b i r d ə n

Biz burdayıq, buyur, hər nə əmrin var.

Q ı ş

Dövlətimi alt-üst edir bu Bahar.
Hər tərəfdən kömək gəlir düşmana.
Qoçaq oğullarım, haydı, meydana!

Hər üçü baş əyib gedir. Günəş gah qaralır, gah şəfəq saçır. Külək uğuldayır. Bulud, Boran və Küləklə Günəş arasında çarpışma davam edir. Günəş Buludu parçalayır. Boranı, Küləyi candan salır, öz kəskin şəfəqlərini qışın üstünə saçır. Qış əli ilə özünü günəşdən qorumağa çalışır, qorxulu səslə bağırır.

Q ı ş

Bulud, Külək, ay Boran!
Qaçın, gəlin durmadan.

H ə r ü ç ü gəlir. Qış halsız.

Dada çatın, ay aman!
Məni məhv etdi düşman.

Bulud Qışın başı üstünə kölgə salır. Boran və Külək qanadlarını çarparaq, Qışı Günəşdən qorumaq istəyir. Günəş şəfəqlərini artırır. Buludu parçalayır, Boran, Külək gedir. Qış həyəcanla bağırır.

Q ı ş

Ah, məhv oldu Bulud, Külək, Boranım,
Mənim üç qanadım, üç qəhrəmanım...

(*Səhnə arxasından nəğmə oxunur:*)

Ellər, ellər ay ellər!
Çiçəklənir bax, çöllər.
Qaçdı Boran, Bulud, Qar,
Günəş par-par parıldar.
Yaşıllanır bağ, çəmən,
Bir səs gəlir hər yerdən:
Xoş gəldin qızıl Bahar,
Yaşa-yaşa bəxtiyar!

Qış həyəcan içində nəğməni dinlədikdən sonra qorxaq bir səslə.

Q ı ş

Bahar gəlir, Yaz gəlir, nə etməli,
O gəlməmiş qaçıb burdan getməli.
Göydən məni qılınclayır hey Günəş,
Qar əriyir, sönür qəlbimdə atəş.
Ah, yox oldu Bulud, Külək, Boranım,
Bu günəşdir mənim qatı düşmanım.
Açacaqdı ürəyimdə min yara...
Bu meydandan yalnız qaçmaqdır çara.

Əyilərək, saqqalından, bığlarından su dama-dama qaçır. Quşlar, çiçəklər sevinərək, başları ilə onu qovurlar.

P ə r d ə

## İKİNCİ SƏHNƏ

Biri sağda, biri solda olmaqla iki daxma. İkisinin arasında bir ağac. Yer lətif otlarla döşənmişdir. Durnalar, sığırçınlar gəlir. Şirin bir nəğmə eşidilir:

Oyan, oyan, ey insan!
Dəyişdi artıq zaman.
Yox oldu Qış, Boran, Qar;
Parıldayır xoş Bahar.
Əmək bizi çağırır,
Torpaq, tarla bağırır.
Məhv oldu donduran Qış,
Durma, haydı, get çalış!
Açıldı hər yanda gül,
Sən də oyan danış, gül!
Dəzgah, mədən sənindir,
Torpaq, çəmən sənindir;
Sənindir indi fərman,
Artıq sənsən hökmran!

B ü l b ü l səslənə-səslənə gəlir. Qaranquşla əl verib görüşürlər.

Q a r a n q u ş

Uğur olsun bu günün!

B ü l b ü l

Dərdi, qəmi at, söyün!
Günəş gülsün üzünə
İşıq gəlsin gözünə...

Q a r a n q u ş

Qış, Borandan qurtulduq
Həm azad, həm şad olduq.

Onlar ağac altında oturub, bir-birilə yavaş-yavaş danışır, arabir gözəl cəh-cəh vururlar. Aslan daxmadan çıxıb, sevinə-sevinə onlara baxır, birdən-birə bağırır.

A s l a n

Gəlin gözəl yaz günəşi var bu gün,
Gəlin bura, Pəri, Nazlı, a Dursun!
Gəl, qızınaq gün altında bir azca.

D u r s u n, P ə r i, N a z l ı sevinə-sevinə Aslanın yanına gəlirlər.

P ə r i

Aslan, Aslan, gəl söyləyək tapmaca.

D u r s u n

Yox, yox, Aslan, sevməyirəm mən onu.

N a z l ı

Gəl oynayaq ayaqsayma oyunu...

P ə r i

Mən razıyam.

A s l a n

Bəs kim saysın?

D u r s u n

Bax, Pəri.

A s l a n

Dursun, ayağını uzat irəli!

P ə r i

İynə-iynə,
Ucu düymə,
Bəli, bəli,
Bətir keçi,
Qoz ağacı,
Qotur keçi.
Happan,
Hoppan;
Yırıl,
Yırtıl,
Su iç,
Qurtul!

Günəşin üzünü Bulud örtür. Külək uğuldayır, uşaqlar bir-birilə danışırlar. Dursun ayağını çəkir.

D u r s u n

Düz olmadı, mənimki qurtuldu.

P ə r i

Yox!

N a z l ı

Oynamıram!

A s l a n

Mənə soyuqdur, soyuq.

Hamı ayağa qalxır, Buludlu göyə baxaraq oxuyurlar

Tağalaq gəldi, duman qaç!
Tağalaq gəldi, duman qaç!
Gün-çıx, gün çıx,
Kəhər atı min çıx!
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür qaç...

Külək uğuldayır, Bülbül, Qaranquş və uşaqlar qaçıb gedir. B u l u d və K ü l ək içəri girir.

K ü l ə k

Boranlı qış, hardasan ay bəxtəvər?
Bahar gəlir, sən bu işdən bixəbər.
Gəl qarşıla, tez ol!

B u l u d

Qaçmışdır yoxsa?

Qəlbinə qəm çökmüş, batmışdır yasa?

K ü l ə k

Peşmanam bu gün mən öz işimdən.

B u l u d

Peşmanam mən də bax, keçmişimdən.

K ü l ək

İnsaf üçün Bahar hara, Qış hara?
Qış qəlbimdə açmışdı min bir yara.

B o r a n içəri girir.

B o r a n

Bəs Qış hanı?

K ü l ə k

(*istehza ilə*)

Ha... Ha... Qaçmış o çoxdan.

B o r a n

Yalan demə, qaçmaz o Qış, qəhrəman.

K ü l ə k

Mən desəm də, deməsəm də belədir.
İşi duymuş...

B o r a n

Səni söylədən nədir?
Neçin atamdan üz çevirdin, axmaq?

K ü l ə k

Ey, üstümə kükrəmə çox, mənə bax!
Qardan, buzdan üz-gözümüz bozarmış.
Bircə anlat, bizə nə verdi boz Qış?
Vıyıldamaq bəlkə də xoşdur sana,
Mən gəlmişəm artıq bu işdən cana.

B u l u d

Mən də, mən də...

B o r a n

Oho... düşmanmış hər yan,
Bizə qarşı hazırlanmış üsyan.
Bunu duydunuz,
Üz çevirib bizdən ona uydunuz!

K ü l ə k

Ey... Sən kimsən, aç gözünü, mənə bax!
Deyilsənmi əlimdə bir oyuncaq?
Mənəm sənə qüvvət verən, can verən,
Qarda, qışda sənə soyuq qan verən.
Mən olmasam, səni varmı bir sayan?

B o r a n

Çox öyünmə artıq, bu sən, bu meydan!

Hər ikisi çarpışır, qanadları ilə bir-birini vurur. G ü n ə ş, S u, T o r p a q gəlir.

G ü n ə ş

Ey, sən kimsən?

B o r a n

Dünyaları donduran
Qəhrəmanam əzəldən, adım Boran.

T o r p a q

Boran... Oho...

G ü n ə ş

Böyük düşməndir bizə,

Axtarırdıq. Yaxşı düşdün əlmizə.
Siz kimsiniz?

B u l u d

Mən Buludam.

K ü l ə k

Mən Külək.
İstəyimiz Bahara xidmət etmək.
Təngə gəldik don-şaxtalı bu Qışdan.
Ona görə bizə olmuş bir düşman.

(*Boranı göstərir)*

G ü n ə ş

Sınayarıq indi onun gücünü,
Biz alarıq gücsüzlərin öcünü.

B o r a n

Səndən qorxan yox, gücünü gəl, sına!

K ü l ə k

Tülküyə bax, qarşı çıxmış aslana.

B o r a n

Tülkü sənsən, bu Boran pəhləvandır!
Oğlum Ayaz, atam Qış qəhrəmandır.

S u

Ay, məhrəba, böyük əslin, nəslin var!

T o r p a q

Artıq Qışın əlində yox ixtiyar.

G ü n ə ş

O qəhrəman atan söylə bir hanı?

B o r a n

Sən uşaqsan, neylərsən qəhrəmanı.

G ü n ə ş

Qəhrəmanlıq öyrənməkdir məqsədim.

B o r a n

Çıx meydana, sənə qoy mən öyrədim.

T o r p a q

Ha... Ha, tamam igid oğlu igiddir.

S u

Zalım oğlu barıtdır, ya kibritdir.
Ha... ha... ha... ha...

B o r a n

Əylənməyin mənimlə!

T o r p a q

Yaxşı oldu, bu yerdə keçdin ələ,
Əlimizdən sənə yoxdur qurtuluş.

G ü n ə ş

Çıx meydana, ay yapalaq, ay bayquş!

Günəş Borana hücum edir. Boran onun üzərinə atılır. Qanad-qanada çarpışırlar. Günəşin alnındakı şəfəq Boranın üzünə düşdükcə Boran bihal olur. Yavaş-yavaş qol-qanadı yanına düşür. Birdən-birə yerə yıxılıb ölür.

G ü n ə ş

(*Küləyə, buluda*)

Siz də gəlin, işə orda baxarıq,
Dostu sevər, düşmanları yaxarıq.

Günəş, Torpaq, Su, Bulud və Küləyin aralarına alıb çıxarırlar.

Uzaqdan musiqi səsi gəlir. Bir saniyə sonra D u r n a, Q ı r q o v u l, T u r a c, T o v u z, tar, saz, kamança, dəf çala-çala gəlirlər. Q a r a n q u ş B ə n ö v ş ə ilə, B ü l b ü l Q ı z ı l g ü l l ə, A r ı Z a n b a q l a, K ə p ə n ə k Q ə r ə n f i l l ə qol-qola ayaqlarını, əllərini oynada-oynada gəlib otlu, çiçəkli bir yerdə dayanırlar. Hamısı ətrafı şən baxışlarla süzdükdən sonra

B ü l b ü l

(*çalğıçılara*).

Çal, çalğıçı, çal, ruhumuz şənlənsin!
Çal, bu otlu çəmən də bir əylənsin.
Çal ki, bahar çağıdır,
Bu şənlik oynağıdır.
Çal ki, paslı dərdləri
Şaqraq tellər dağıdır.

Qızılgül ortalığa atılır, əllərini yoldaşlarına uzadıb oxuyur.

Q ı z ı l g ü l

Doğdu günəş qırmızı,
Can, gülüm, can, can!

Hamısı əl-ələ halqa vurub oynaya-oynaya oxuyur.

H a m ı

Doğdu günəş qırmızı,
Can, gülüm, can, can!
Topladı oğlan-qızı,
Can, gülüm, can, can!

Hər birimiz bir çiçək,
Can, gülüm, can, can!
Bir bağçanın ulduzu,
Can, gülüm, can, can!..

Qaçdı Ayaz, qar, Boran,
Can, gülüm, can, can!
Bizə qaldı çöl, orman...
Can, gülüm, can, can!

El şənlənir, canlanır,
Can, gülüm, can, can!
Sevinc içində hər yan,
Can, gülüm, can, can!

Qış bir etdi, on verdik.
Can, gülüm, can, can!
Ölümdən bir don verdik,
Can, gülüm, can, can!

Ordusunu dağıtdıq,
Can, gülüm, can, can!..
Qara günə son verdik,
Can, gülüm, can, can!

P ə r d ə

## ÜÇÜNCÜ SƏHNƏ

Səhnə Baharı təsvir edir. Uzaqda yaşıl dağlar, yarpaqlanmış, çiçəklənmiş ağaclar görünür. Yer üzü lətif otlarla döşənmişdir. Sel şırıltı ilə dərədən axıb gedir. B ə n ö v ş ə ilə Q a r a n q u ş, B ü l b ü l ilə Q ı z ı l g ü l, Q ə r ə n f i l ilə K ə p ə n ə k, A r ı ilə Z a n b a q, S ü n b ü l ilə B i l d i r ç i n qol-qola, gülə-gülə, danışa-danışa içəri girirlər. Uzaqdan musiqi səsi gəlir. Hamı o tərəfə baxır. Musiqinin ahənginə uyğun olaraq əl-qol ata-ata o tərəfə gedirlər. G ö z ə l B a h a r, alov rəngində atlazdan don geyinmiş, çiçəklərdən başına bir çələng qoymuşdur. Alnında bir ulduz parıl-parıl yanır. Ətrafında çiçəkləri təsvir edən uşaqlar. İrəlidə D u r n a, Q ı r q o v u l , Q u, T u r a c, T o v u z əllərində tar, saz, kamança, dəf, zurna-balaban çala-çala gəlirlər. G ü n ə ş, T o r p a q, S u, B u l u d, K ü l ə k Gözəl Baharın arxasında, gənc qız və oğlan şəklində əsgərvarı yeriyirlər. Dəstə çəməndə dayanır. Çəmənin bir tərəfi qalın meşə, bir tərəfi uca, otlu, çiçəkli, meşəli dağlar dərələrdir. Göydə Qövsi-qüzeh. Gözəl Bahar otlar, çiçəklərlə bəzənmiş bir kötük üstündə oturur. Musiqi başlayır, hamı bir ağızdan oxuyur.

H a m ı

Yaşa, yaşa ey Bahar!
Yaşa daim bəxtiyar!
Yer üzünün şən qızı
Doğdu bu gün qırmızı.
Dağlar, çöllər, bayırlar,
Bağlar, yaşıl çayırlar
Rəngə, nura büründü.
Bax, nə gözəl göründü!
Dəyişdi hər bir varlıq,

Gülümsər bəxtiyarlıq.
Yaşa-yaşa ey Bahar!
Yaşa daim bəxtiyar!

Musiqi dayanır, Gözəl Bahar onları başı ilə alqışlayır.

Q a r a n q u ş

Söz verilir Bülbülə,
Şerimiz gəlsin dilə!

B ü l b ü l

Dəyişdi təbiət, dəyişdi zaman,
Al-əlvan rənglərə büründü hər yan,
Günəşin saçları olunca tel-tel,
Al-yaşıl geyindi dərə, dağ, orman.
Uzaqdan gəlirdi sorağın, Bahar,
Yansın ölkəmizdə çırağın, Bahar!
Şənliklər gətirdin bu coşğun elə;
Sevinc, nəşə verdin tutqun könülə.
Şairəm, ürəyim şən-şən açılır
Baxdıqca bağçamda mən qızıl gülə.
Xoş gəldin, xoş gəldin! Görüşün xoşdur,
Ölkəyə can verən gülüşün xoşdur!

Musiqi başlayır.

Q a r a n q u ş

Təbrik üçün söz verilir Günəşə.

G ü n ə ş

Mən günəşəm, gülümsəyən üzüm var,
Qızıl telli saçlarım, şux gözüm var.
Göy üzündə qanadımı açınca,
Al şəfəqli tellərimi saçınca
Rəngdən-rəngə girər, gülər təbiət,
Hər bir yeri alar başqa lətafət.
Torpaqlara şəfəqlərim can verir,
Hər canlıya qüvvət verir, qan verir.
Bəsləməkdir işim əkin-bostanı,
Bağ-bağçanı, bir də çölü, ormanı.

Tez-tez tutur Bulud mənim üzümü,
Qoymur açım doyunca bir gözümü.
Xoş gəldin ey təbiətin şən qızı,
Yer üzünün parlaq ayı, ulduzu!

Q a r a n q u ş

Təbrik üçün söz verilir küləyə.

K ü l ə k

Mən küləyəm, olduqca qüvvətliyəm,
Aslandan güclüyəm, həm dəhşətliyəm.
Mən əsəndə qaçar sislər, dumanlar,
Titrər qabağımda dağlar, ormanlar.
Ağacların sinəsinə çökərəm,
Saraldaram yarpağını tökərəm,
Yumunca mən bu acıqlı gözümü,
Onda mənim heç görməyin üzümü.
Dənizlərdə qopardaram fırtına,
Səhraları çevirərəm tufana.
Bahara bu təbiətim saz deyil,
Ancaq ona xidmətlərim az deyil:
Ağacların düyməsini açaram,
Çiçəklərdən gözəl qoxu saçaram.
Qarı, buzu əridərəm hər yazda,
İsti əssəm can qoymaram ayazda.
Yavaş-yavaş əsdikcə meh hər səhər,
Şən yamaclar, dağlar, çöllər gülümsər.
Xoş gəldin, ey təbiətin şən qızı,
Yer üzünün parlaq ayı, ulduzu!

Q a r a n q u ş

Təbrik üçün söz verilir Torpağa.

T o r p a q

Məni adım yerdir, daşam, torpağam,
Bərk olsam da, ürəyi çox yumşağam.

Yoxdur fitnə, fəsad təbiətimdə;
Başqa bir aləmim vardır mənim də.
İnsanların hər işinə yararam.
Hər bir kəsə mən yaxşılıq araram.
Ürəyimi hər yaz yarar insanlar,
Toxum səpər, məhsulunu toplayar,
Mən onları qucağımda yoxlaram,
Ana kimi böyüdərəm, saxlaram.
Ağaclarım verər dadlı meyvələr,
Bağçama kim girsə, çiçək, gül dərər.
Qiymətli mədənlər yatır qoynumda,
Analıq haqqı var mənim boynumda.
Qar-Borandan qışda donub solmuşdum,
Acığımdan bulud kimi dolmuşdum.
Dərdli-dərdli gurultunu dinlərdim,
Buğlandıqca kədərimdən inlərdim.
Günəş, qızıl bahar çatdı dadıma,
Çatdı bu gün mənim də imdadıma.
Xoş gəldin, ey təbiətin şən qızı,
Yer üzünün parlaq ayı, ulduzu!

Q a r a n q u ş

Təbrik üçün söz verilir ağ Suya.

S u

Mənim adım Sudur, lətafətim var,
Xalq içində adım var, şöhrətim var.
Sadə üzlü, təmiz, gözəl bir qızam,
Yer üzündə parlayan bir ulduzam.
Mənim ulu babalarım buxardır,
Uşaqları Duman, Yağışdır, Qardır.
Mən də bir aləməm, ümmanlarım var,
Saysız mədənlərim, heyvanlarım var.
Üzərimdə hey gəmilər üzərlər,
Qanadlanıb tərlan kimi süzərlər.
Mən sularam bağları, bostanları,

İşlədərəm bütün dəyirmanları.
Gücüm çoxaldıqca birdən coşaram,
Dalğalanıb sahilləri aşaram.
Dünya üzü məndən alır yaraşıq,
Qəlbə məndən gəlir fərəh və işıq.
Məndədir həm elektrik, həm ziya,
Hər şeydə möhtacdır mənə bu dünya.
Qış gəlincə gələr şaxta, qar, ayaz,
Dondurar qəlbimi qorxmaz, utanmaz...
Gözəl bahar fəryadıma yetişdi,
Buzlarımı günəş əritdi, deşdi.
İndi yenə şən-şən axıb gedərəm,
Yaşıl çöllər, çəmənlər seyr edərəm.
Xoş gəldin, ey təbiətin şən qızı,
Yer üzünün gözəl ayı, ulduzu!

C e y r a n tələsik gəlir, hamı ona yol verir.

C e y r a n

Yamaclara çəkilmişdir azğın qış,
Deyirlər ki, böyük ordu toplamış.
Qayaları, dağları etmiş səngər,
Qəmə batmış yamaclarda çəmənlər.

G ö z ə l B a h a r

(*acıqlı*).

Boranlı qış hələ yaşar,
Bizdən uzaqlarda coşar,
Dağlara salmış vəlvələ,
Keçməlidir düşmən ələ!

G ü n ə ş

Oddan, alovdandır mənim üz-gözüm,
Başdan-başa bir yanğınam mən özüm.
Göydən onu işığımla yoxlaram,
Hər bir yerdə görsəm, tutub saxlaram.

K ü l ə k

Mən də qalxıb buludları yararam,
Hər bucağı, hər dərəni araram.
Dumanlardan dağlara çəksəm hasar,
Mənim əlimdən o, canmı qurtarar?

T o r p a q

Mən də otdan, gül-çiçəkdən, ağacdan,
Dərələrdən, qayalardan, yamacdan
Ordu çəkib yol üzünü bağlaram,
Kəkliklərdən qaravullar saxlaram.
Əmr edərəm Qırqovula, Turaca,
Pusqu üçün yayılsınlar yamaca.
Sünbüllərdən atlı əsgər çəkərəm,
Hər tərəfdən qabağını kəsərəm.

S u

Mən də daşqın sellər kimi çağlaram,
Yol izini hər tərəfdən bağlaram.

B u l u d

Mən də, mən də...

G ö z ə l B a h a r

Sən neylərsən, qalx söylə!

B u l u d

Mən də verib yoldaşlarla əl-ələ,
Qışı tapıb şimşəyimi çaxaram,
Bir vuruşda yandıraram, yaxaram.

G ö z ə l B a h a r

Aranmamış qalmasın bir dağ, dərə,
Tutun onu, tez gətirin hüzurə!

Dördü də gedir. Musiqi çalınmağa başlayır. Hamı bir ağızdan oxuyur.

H a m ı

Yaşa, yaşa, Gözəl Bahar!
Yaşa, yaşa, hey bəxtiyar!
Sən bizlərə verdin həyat,
Səndən aldıq biz qol-qanad.
Sən bizə nəşə, can verdin,
Çox parlaq bir dövran verdin,
Yaşa, yaşa, Gözəl Bahar!
Yaşa, yaşa, hey bəxtiyar!

Onlar oxuyarkən C e y r a n oynaya-oynaya Gözəl Bahara yanaşır, ayaqları üstünə qalxaraq, əllərini onun dizlərinə qoyur. Gözəl Bahar əli ilə onun başını oxşayır. Hava birdən-birə tutulur. Göy gurlayır. Şimşək oynayır. Hamı heyrətlə o tərəf-bu tərəfə baxır. Q ı ş ı tutub gətirirlər. Qış Gözəl baharın qarşısında başını aşağı dikib durur.

G ö z ə l B a h a r

Bircə mənə söylə görüm, a yassar,
Bağ-bağçamı neçin etdin tar-mar?
Saldın çölə, dağa, bağa şivəni,
Qar-buz ilə çulğaladın ölkəni.
Bilmirdinmi mənim də qüvvətim var?
Yer üzündə şanım var, şövkətim var?

Q ı ş

Çox öyünmə, varın, şövkətin qalsın!..

G ö z ə l B a h a r

Şimşək yaxsın bunu, İldırım çalsın!..

Q ı ş

Səndən əskik deyildim mən, öyünmə,
Bu dövlətlə, bu cəlalla söyünmə!..
Qəhrəmanam, Qar-Borandan gücüm var,
Bu çöl, dərə, yamaclarla öcüm var.

G ö z ə l B a h a r

Sus, danışma, oyna Şimşək, bunu al,
Ey İldırım, qəhrəmanı tez ol çal!

İldırım gurlayır, şimşək oynayır. Qış yerə yıxılır.

G ö z ə l   B a h a r

Çal, çalğıçı, gənclərimiz oynasın!..
Don ürəklər bu şən gündə qaynasın!

Çalğıçılar bir oyun havası çalır.

G ö z ə l   B a h a r

(*ayağa qalxaraq*).

Dostlar, durun! Bəyənmədim mən bunu.
Gəl oynayaq "Adı gözəl" oyunu.

Musiqi çalınır, Gözəl Bahar, Torpaq, Günəş, Su, Külək, Bulud bir tərəfdə, Qaranquş, Bənövşə, Bülbül, Qızılgül, Zanbaq, Arı, Kəpənək, Qərənfil bir tərəfdə qarşı-qarşıya durur.

G ö z ə l   B a h a r   d ə s t ə s i

Ağ tərək, ağ tərək,
Adı gözəl kim gərək?

Q a r a n q u ş   d ə s t ə s i

Bizə şən Bahar gərək.

G ö z ə l   B a h a r   d ə s t ə s i

Tarnan gəlsin, zurnaynan?

Q a r a n q u ş   d ə s t ə s i

Həm tar, həm də zurnaynan!

Hamı əl çalır. Gözəl Bahar oynaya-oynaya gedib Qaranquş dəstəsinə qarışır. Birinci dəstə yenə təkrar edir.

B i r i n c i   d ə s t ə

Ağ tərək, ağ tərək,
Adı gözəl kim gərək?

İ k i n c i   d ə s t ə

Bizə al Günəş gərək!

B i r i n c i   d ə s t ə

Saznan gəlsin, qavalnan?

İ k i n c i  d ə s t ə

Həm saz, həm də qavalnan!

Günəş oynaya-oynaya gedib ikinci dəstəyə qarışır.

B i r i n c i  d ə s t ə

Ağ tərək, ağ tərək,
Adı gözəl kim gərək?

İ k i n c i  d ə s t ə

Bir sərin Bulud gərək!

B i r i n c i  d ə s t ə

Saznan gəlsin, qavalnan?

İ k i n c i  d ə s t ə

Həm saznan, həm qavalnan!

Bulud oynaya-oynaya ikinci dəstəyə qarışır.

B i r i n c i  d ə s t ə

Ağ tərək, ağ tərək,
Adı gözəl kim gərək?

İ k i n c i  d ə s t ə

Gurlayan Külək gərək!

B i r i n c i  d ə s t ə

Tarnan gəlsin, qavalnan?

İ k i n c i  d ə s t ə

Həm tar, həm qavalnan!

Külək oynaya-oynaya ikinci dəstəyə qarışır.

B i r i n c i  d ə s t ə

Ağ tərək, ağ tərək,
Adı gözəl kim gərək?

İ k i n c i  d ə s t ə

Anamız Torpaq gərək!

B i r i n c i  d ə s t ə

Saznan gəlsin, zurnaynan?

İ k i n c i  d ə s t ə

Həm saz, həm də zurnaynan!

Torpaq oynaya-oynaya onlara yaxınlaşanda öz dəstəsi bir-bir ona qarışır, bir-birinin arxasınca ortada bir-iki dairə oynadıqdan sonra öz əvvəlki yerlərində sıra ilə durub əl çalırlar. Bu dəfə qaranquş dəstəsi də onlara qarışır. Çalğı səsləri artır, şən havalar çalınır, hamısı sevinc və fərəhlə oynayır, oxuyur.

H a m ı

Yaşa, yaşa, gözəl Bahar!
Yaşa, yaşa hey bəxtiyar!
Ölkəmizin hər fəslində
Min fərəh var, min nəşə var...

P ə r d ə

*1910*

# ÇOBAN

*İki pərdəli uşaqlar üçün teatr*

MƏCLİS ƏHLİ

D u r s u n – çoban
D i l ə f r u z x a n ı m – bəy arvadı.
P ə r i x a n ı m – Diləfruz xanımı bacısı
D i l ş ə d x a n ı m – Pəri xanımın qızı.
A s l a n – Pəri xanımın nökəri.

## BİRİNCİ MƏCLİS

Səhnə Pəri xanımın ağaclı, güllü həyətini təsvir edir. Dursun əlində bir səbət alma qapıya yanaşıb, itələyir, qapı açılır. Ətrafa baxıb heç kimi görmür. Yorulmuş olduğundan yerə oturur.

D u r s u n. – Lap yoruldum. Havada o qədər istidir ki, adamın dil-dodağı quruyur. Az yol deyil, kim bilir bu istidə piyada neçə ağac yol gəlmişəm?! Bizim kənddən buraya qədər az olsa gərək yüz ağac yol olsun, bəlkə daha da çoxdur. Eh, allah kəssin bu bəylərin xasiyyətini. İki gündə bir görürsən ki, yenə bir səbət alma, armud, nə bilim nə zir-zibil hazırlayıb deyir: “A gədə, Dursun, bunu Dilşad xanıma apar!..” Nə bilim salam yetir, belə de, elə et. Axır heç demir ki, bu istidə bu qədər yolu getmək olurmu? Di gəl bunlara bunu qandır. Heç bilmir ki, harada bişib, elə deyir, bir qaşıq da bura tök... Ah, necə edim!.. Bircə əlimə fürsət düşəydi... Elə ola idi ki, heç kəs mənim sözümdən çıxa bilməyəydi. Bu bəyləri qara çomağın qabağına qata idim. Dərə təpə baş aşağa, baş yuxarı o qədər dolandıra idim ki, lap mala dönə idilər. Onda bilərdilər ki, bu Dursun nələr çəkir. (*Almaları əlinə götürür)* Oxay, nə gözəl almalardır! Görəsən özləri də rəngləri kimi dad-lıdırmı? (*Kağıza baxır)* Hələ bu cızma-qara nədir ki, mənə verdi? Yaxşı, bu almaları yeyirlər. Bu çox gözəl! (*Kağıza baxır*). Görəsən bu-nun içində nə var? Qərəz ki, bu bəylərin işindən heç cin, şəyatin də baş çıxartmayır.

D i l ş a d xanımın nökəri A s l a n gəlir

D u r s u n. Salaməleyküm, Ay Aslan!

A s l a n. Əleyküməsəlam, ay Dursun! Yenə Diləfruz xanım nə göndərmişdir?

D u r s a n. Heç bir az almadır! Sən allah, tez ol, yorulmuşam, məni xanımın yanına tez apar ki, bunları verib bir az rahat olum, çox yorulmuşam, susuzluqdan lap ölürəm.

A s l a n. Tələsmə, mən xanımı rahatsız edə bilmərəm, bir az otur, dayan, xanım özü bağçaya çıxacaqdır, onda sözünü deyərsən. Sonra gəl mənim otağıma, səni o qədər yedirdib, içirdim ki, lap öküz kimi şişəsən! Hələ otur. (*Gedir)*

D u r s u n. Axmağın biri axmaq, özünü mənə tanıdır. Doğrusu ki, özgənin evində adam heç rahat olmayır, yediyi, içdiyi də canına yapışmayır. Ah, bircə qab su ola idi, içə idim. Ah, Noçalı bulağı burada ola idi. Ağzımı dirəyib bir doyunca içə idim! (*Yenə almalara baxır)* Oxay, sizin qadanızı alım, a qırmızı almalar! Bax nə qədər gözəldirlər! Ax, susuzluqdan öldüm. Gəlsənə bu almaların birini yeyim, xanım hardan biləcəkdir? (*Yeyir*). Ax nə dedin, nə ləzzətlidir!.. A kişi, bu bəylər vallah ağızlarının dadını yaxşı bilir (*birini də yeyir*). Bax, indi ağzım ləzzət anlayır. Yoxsa, səhərdən axşama kimi yavan əppək köşəməkdən dişimin əti də qaçıbdır. Əgər soruşsalar, deyərəm ki, xanım səkkiz alma göndərmişdir. Amma dadı damağımda qaldı. Heç doymadım. Gəlsənə birini də yeyim. (*Götürüb birini də yemək istəyir. Uzaqdan xanımları və Aslanı görüb tez yerinə qoyur*).

P ə r i x a n ı m, D i l ş a d x a n ı m və A s l a n gəlirlər.
Dursun ayağa qalxır!

A s l a n (*xanımlara*). Xanım, Dursun yenə təzə alma gətirmişdir. (*Dursun baş endirir*).

P ə r i x a n ı m. Çox gözəl!

D i l ş a d x a n ı m. Sağ olsun xalam, heç bizi yaddan çıxartmayır.

P ə r i x a n ı m. Ah, Dursun, nə var, nə yox?

D u r s u n (*almanı Dilşad xanıma verir*). Sağlığınız! Xanım sizə səkkiz alma göndərdi və sizi də soruşurdu. Bu kağız sizə yetişəcəkdir.

P ə r i x a n ı m. Ağanın, xanımların kefi necədir?

D u r s u n. Çox yaxşıdır, sağ ol, xanım, bir də bilməyirəm xanım nə tapşırmışdı. Vallah, yadımdan çıxdı.

P ə r i  x a n ı m. Nə tapşırmışdı? Bəlkə lazımlı şeydir, neçün yadından çıxartdın?

D u r s u n (*fikrə gedib*). Heç, heç, elə şey deyil idi, eybi yoxdur.

D i l ş a d  x a n ı m (*almaları əlinə alıb*). Amma xalamın da bu sovqatlarından keçmə! Seçir, harada yaxşısı varsa yenə göndərir ki, qoy Dilşad yesin. Amma nə almalardır!..

D u r s u n. Xanım dedi ki, bir parça kağız da yazsın.

P ə r i  x a n ı m. Yaxşı, yaxşı... yazaram! Yoldan gəlmisən, get bir az rahat ol. Adə, Aslan apar Dursuna bir az yemək ver.

D u r s u n (*gedə-gedə*). Sağ ol, xanım! (*Aslan ilə Dursun gedirlər. Pəri xanım kağızı oxuyur*).

D i l ş a d  x a n ı m. Ana, xalam nə yazır?

P ə r i  x a n ı m. Dilşad xanıma çox-çox salam! (*birdən-birə*). Bax, görürsənmi, bu çoban oğlu çobanı, məni aldadır. Xalan on alma göndərmişdir, görünür ki, yolda ikisini zəhərmarlamış. Onun nə cürəti var mənə göndərilən şeyi yesin! İndi ona göstərərəm.

D i l ş a d  x a n ı m. Nə edək, yeyib, anlamayıb, ay ana, sən allah, heç üzünə gəlmə!

P ə r i  x a n ı m. Necə anlamayıb? Mən ona yaxşı anladaram ki, bir də belə qələtləri etməsin.

D i l ş a d  x a n ı m. Sən allah, ay ana, bağışla, acıqlanma!

P ə r i  x a n ı m. Yox, yox, olmaz! Sən nökərlərin işini bilməyirsən. Mənim işimə qarışma. A gədə, Aslan, Aslan...

A s l a n (*yüyürə-yüyürə*). Bəli, xanım, nə buyurursan?

P ə r i x a n ı m. Tez ol, Dursunu bura çağır, gəlsin, yüyür.

A s l a n. Baş üstə xanım, quş kimi çağıraram.

D i l ş a d  x a n ı m. Ax, ay ana, sən nə qədər hirslisən! Bunu bu dəfəlik bağışla!

P ə r i x a n ı m. Qızım, bağışlamamış nə edəcəyəm? Amma bir az tənbeh etməyin zərəri yoxdur.

A s l a n  ilə  D u r s u n  gəlir. Aslan Dursunun başını əyir.

A s l a n. Dursun, Dursun gəl xanıma baş vur, bir az da... bir az da!..

P ə r i  x a n ı m (*acıqlı*) Əl çək! (*Dursuna*) Qoçaq, de görüm, Diləfruz xanım neçə alma göndərmişdi?

D u r s u n (*gülə-gülə*). Səkkiz alma.

P ə r i  x a n ı m (*gülə-gülə*). Səkkiz alma?

D u r s u n. Bəli xanım, səkkiz alma.

P ə r i  x a n ı m. Doğrusunu de!

D u r s u n. Xanım, doğru deyirəm, səkkiz alma göndərmişdi.

P ə r i  x a n ı m. Yox, yalan deyirsən! Doğrusunu de, yoxsa sənə ağır tənbeh edərəm!

D u r s u n (*qorxa-qorxa*). Xanım, səkkiz alma göndərmişdi!..

P ə r i  x a n ı m. Yox, on alma göndərmişdir! De görüm ikisini nə etdin?

D u r s u n (*Pəri xanımın ayağına yıxılır*). Bağışla xanım, sən allah bağışla! (*Birdən ağlayır*).

P ə r i  x a n ı m. De görüm sən almanın ikisini nə etdin?

D u r s u n Yedim!.. Bilmədim, xanım!..

A s l a n (*yerdən bir az torpaq götürüb Dursunun ağzına verir*). Qoçaq, indi ki, bilməyib yemisən, al bu torpağı da ye! (*Dursun onu itələyir*).

P ə r i  x a n ı m. Bilmirsən bu cür işin üstündə adamı necə tənbeh edərlər?!

D u r s u n. Bilirəm, xanım, bağışla, qələt eləmişəm, daha yemərəm, vallah yemərəm!.. Mən elə bildim ki, sən başa düşməzsən, susuzluqdan ölürdüm, yedim. Yoxsa yeməzdim, sən allah, bağışla, xanım!

P ə r i  x a n ı m. Yaxşı, yaxşı... qalx ayağa, bu dəfəlik bağışlayıram, amma bir də belə qələt eləməyəsən!..

Dursun ayağa durub, hamıya qorxa-qorxa baxır və büzülüb boynunu qaşıyır.

A s l a n. Almanı yediyi bəs deyil, indi də mal kimi qaşınır.

D u r s u n (*yerə yıxılıb*). Sən allah, xanım, bağışla, istəyirsən di məni öldürsünlər, əzsinlər... Bircə söz səndən soruşacağam!

P ə r i  x a n ı m. De görüm, nə deyirsən?

D u r s u n (*dayana-dayana*). Xanım... başına dönüm, bircə de görüm, sən hardan bildin ki, almaları mən yemişəm? Sənə bunu kim dedi? Mən almaları elə gizlin yemişəm ki, quş da görməmişdir, heç şeytanın da xəbəri olmamışdır!.. Sən allah, xanım, de görüm, bunu sənə kim xəbər verdi?

P ə r i  x a n ı m (*gülə-gülə*). Sənə çox təəccüb gəlir?

D u r s u n. Çox təəccüblü işdir, bəs nədir?!

P ə r i  x a n ı m. İstəyirsən biləsən mənə kim xəbər verdi?

D u r s u n. Başına dönüm xanım, de görüm kim xəbər verdi?

P ə r i x a n ı m. Bax, görürsən, bu bir parça kağız mənə xəbər verdi. Sən almaları yeyəndə, bu kağız görmüşdür (*gülə-gülə gedirlər*).

D u r s u n. Hay, zəhrimara qalmış kağız! Tüfu!.. Yaramaz!.. Mazaratın birisi!..

A s l a n (*gülə-gülə*). Bildin?! Daha bəsdir, gəl gedək! Belə iş edəndə kağızın ağzını elə yum ki, heç xəbər verə bilməsin!

D u r s u n. Bu kağızın da dili varmış! .. Görünür ki, bizim xanımlar, ağalar da azca aşın duzu deyildir. Sehr və cadudan da başları çıxarmış. Bir parça kağız ilə də danışırlar...

A s l a n. Bəs, sən bunu bilməyirdin?

D u r s u n. Yox, vallah bilməyirdim, amma indi bildim, daha bundan sonra ayıq olaram.

A s l a n. Bildin ki... (*əlini başına vurur*) Kül başına!.. (*gedir*).

D u r s u n. Əcəb işdir, bir parça kağız danışır, hər şeydən xəbər verir. İndi bildim. Bundan sonra mən aldanmaram. Mənə də ayı boğan oğlu Dursun deyərlər (*fikrə gedir*). Aha, ona görə bu bəylər belə dövlətli olurlar... Hər şeyi şeytan kimi danışdırıb bilirlər.

Bu halda Pəri xanım əlində kağız və qızıl bilərzik gəlir.

P ə r i x a n ı m. Al, bu kağızı və bilərziyi xanıma verərsən, itirmə ha!..

D u r s u n (*təəccüblü*). Bax, elə xanımın tapşırdığı bu idi. Bunu hardan bildin, xanım?

P ə r i x a n ı m (*gülə-gülə*). Bunu da kağız xəbər verdi.

D u r s u n (*təəccüblə əlindəki kağıza baxır*). Bay, başına dönüm Pəri xanım, bu nə yaramaz şeydir!

P ə r i x a n ı m. Bəs!.. Daha vaxt keçir, yubanma, get!..

D u r s u n. Sağ ol xanım!.. (*kağıza təəccüblə baxa-baxa gedir)*

P ə r i x a n ı m. Sağ ol!..

P ə r d ə s a l ı n ı r.

## İKİNCİ MƏCLİS

Məclis Pəri xanımın bağçasında vaqe olur. Dursun əlində bir səbət armud, yorulmuş bir halda bağçaya gəlir.

D u r s u n. Ah, bu bəylərin də zəhirmar bəxşəyişi qurtarmaz ki!.. Bu uzun yolu şey daşımaqdan yoruldum. Sonra da iki saat ac, susuz otur, xanımları gözlə!.. (*səbətə baxır*). İndi də armud göndərib, özü də yenə bu zəhirmar kağız iylə!.. Tuf, tuf! Zəhrimara dursun, acından can da versəm, bir dənə yemək olmaz. (Kağızı göstərib). Çünki bu zəhrimar xəbər verəcək! Susuzluqdan ciyərim yanır, yəni bundan bir dənə yesəm nə olar? İndiyə kimi yadıma düşməyir?! (*gülür*). Ha, ha, ha... Ay şeytan kağız! Yəni eylə oldu ki, ayı boğan oğlu Dursan sənin qədər də bilmədi. (*Kağızı götürüb bir çuxurda basdırır*). Yaxşı, gözəl kağız, sən də yoldan gəlib yorulmusan, bir az yat, burada dincəl! Yat, yat, bir az rahat ol, gözlərini də bərk-bərk yum! (*Ətrafa baxır).* Bax, belə fənd gələrəm!.. Bu, heç şeytanın da fikrinə gəlməzdi! Qara üz kağız! De görüm, indi mən nə qayırıram (Armuddan yeyir). Xanıma indi nə xəbər verəcəksən? (*Birini yeyir)* Sənin başına elə oyun gətirməmişəm ki, bir şey görə biləsən. Deyirlər, “Dursun axmaqdır, heç zad bilməyir”. Nə üçün axmaq oluram, mən ki, şeytana papış tikirəm. Cadu və sehrin gözlərini bağlayıram, əgər qoçaqsan de görüm mən nə qayırıram? (Yenə armuddan yeyir). Yox, daha bilməzsən! Yat, yat, bir az rahat ol, mən də armuddan bir qədər yeyib, qarnımı doydurum. Gözlərini yum ha, xəbərçi! Sonra yalan-palan hər nə ağzına gəldi xəbər vermə ha!.. Bax, dünən xəbərçilik etməsəydin, bu gün səni yerə basdırmazdım. Daha bəsdir. Amma nə ləzzətlidir!.. (*Kağızı çıxarıb ona xitabən)* Bəsdir yatdın. Mən də heç yata bilmədim. Heylə buradaca oturub, armudlara baxırdım. Sən deyən yaxşı armuda da oxşamayırlar. Gəl dost olaq, bir az oturub danışaq. (*Kağızı əlilə sığallayır*). Quzum kağız, gözüm kağız! De görüm xanım sənə nə tapşırmışdır? Nə üçün dinməyirsən? Danışıb söyləsən a? ..ha, ha, ha... Qorxma, mən sənin kimi xəbərçi deyiləm, xanıma xəbər verməyərəm. De görüm, de. Xanıma nə danışacaqsan? Niyə dinməyirsən? Səninlə deyiləm? Bax, əzizim, bu Dursunun boz üzünü görməmisən? Bu yumru boş çomağı görürsənmi? Vallah, təpəndən elə endirərəm ki darmadağın dağılarsan! Heç olmasa bir kəlmə danış! Danışmayacaqsan? İndi belə? Di dayan!.. (*Çomağı qaldırıb kağızı vurur*) Murdar, gördünmü?! Xanımları görəndə dilotu yeyirsən, məni görəndə dilin qarnına düşür, lal olursan! İndicə səni bülbülə döndərərəm.

Kağızı çomaq ilə vurur. Aslan uzaqdan Dursunu görüb gəlir.

A s l a n. Adə Dursun, Dursun!.. Nə qayırırsan?

D u r s u n (*kağızı*). Yenə danışmayacaqsan? Vallah dərini boğazından çıxardacağam!

A s l a n (*Dursunu tutub*). Ay ayı oğlu ayı. Kağızı nə üçün vurursan?

D u r s u n. Əl çək, əl çək!.. Bunun heyfini də səndən alaram. (*Kağıza vurur*) ha, indi danışma!

P ə r i x a n ı m ilə D i l ş a d x a n ı m gəlirlər.

P ə r i x a n ı m. Ah, nə səs-küydür, nə olub?

A s l a n. Adə, a Dursun, xanımlar gəlir, dayan, bəsdir!

P ə r i x a n ı m. A gədə, kağızı nə üçün döyürsən? Ay Aslan, qoymasana!

A s l a n. A xanım, a başına dönüm! Məyər bu heyvan oğlu heyvan bir söz qanır?!

P ə r i x a n ı m (*Dursunun qolundan tutur*) A gədə, dəli olmamısan ki, nə qayırırsan?

D u r s u n. Dayan, xanım, bu şeytan oğlu şeytan ilə hələ işim çoxdur.

P ə r i x a n ı m (*yavaş-yavaş*). Kağızı döyməkdən nə çıxar? Səninləyəm, dayan armudları dağıtdın!

D u r s u n. De, get qurban ol xanıma! Yoxsa dərini boğazından çıxardacaqdım!

D i l ş a d x a n ı m (*kağızı yerdən götürüb*). Ay, Dursun, bu kağızı nə üçün döyürsən?

D u r s u n. Heç xanım, bunun günahı çoxdur! (*Armudu götürüb səbətilə verir*)

A s l a n. Görünür ki, armudlardan yenə yeyib, kağızı döyür ki, xəbər verməsin.

D u r s u n. Yox, yox yeməmişəm! Nə xəbər verəcək?

P ə r i x a n ı m. Yaxşı, neçə armuddur?

D u r s u n (*tez*). On dənədir, on dənə!

D i l ş a d x a n ı m (*gülə-gülə*). On dənədir, onunu da yeməmisən ki?

D u r s u n. Yox, yox... mən necə yeyə bilərəm?!

P ə r i x a n ı m. Çox yaxşı, görək indi kağız nə cavab verəcək?

D u r s u n. Görək!..

P ə r i x a n ı m. (*kağızı oxuya-oxuya*). Demək ki sən heç yeməmisən?

D u r s u n. Yox, xanım, yox!..

P ə r i  x a n ı m (*uca səs ilə*). Amma kağız yenə xəbər verir ki, iyirmi dənə armud göndəriblər!

D u r s u n. İnanma, xanım, inanma, yalan deyir.

P ə r i  x a n ı m. Yox, doğru deyir, de görüm o biri on armudu nə etdin?

D u r s u n. İnanma, xanım, vallah yalan deyir.

P ə r i  x a n ı m. Armudları yemisən?

D u r s u n (*qarnına vurur*). Yox, vallah xanım, onu döymüşəm, acığından xəbər verir.

P ə r i  x a n ı m. Bəs o biri on armud necə oldu?

D u r s u n. Yalan deyir axır... vay allah...

P ə r i  x a n ı m. Necə yalan deyir? Kağız yalan danışmaz. Yaxşısı budur ki, boynuna götür.

D i l ş a d  x a n ı m .Qorxma, doğrusunu de, mən qoymaram səni döysünlər.

D u r s u n. Xanım, vallah yalan deyir! O haradan gördü? Onu bir arşın yerin altında basdırmışdım.

H a m ı (*təəccüblü*) Yerə basdırmışdın?

D u r s u n (*qışqırır*). Yalan deyir, yalan!.. İnanmayınız!

P ə r i  x a n ı m. Sən dedin kağızı yerə basdırmışdın?

D u r s u n. Bəli, xanım, bəli! O yalan deyir, heç zad görmədi, vallah görmədi, billah görmədi!.. O necə görə bilərdi...

A s l a n çuxuru görür.

A s l a n. Xanım, xanım, bax! Kağızı buraya basdırıbmış!

H a m ı s ı (*çuxura yanaşıb*). Ay, buraya basdırıbmış!

A s l a n (*gülə-gülə*). Ha, ha, ha!.. Xanım, kağızı Dursun buraya basdırıbmış! Sonra da armudları yeyibmiş ki, kağız görüb xəbər verməsin, elədirmi?

P ə r i  x a n ı m. İndi daha bilmişik, boynuna al ki, yemisən!

D u r s u n. Yalan deyir. Of, of... (*ağlayır*).

P ə r i  x a n ı m. Tez ol, tez ol. Boynuna götür, yoxsa...

D u r s u n (*ağlayır*). Ax, allah!.. Bağışla məni, xanım, qələt eləmişəm!

P ə r i  x a n ı m. Yemisən?

D u r s u n. Bəli xanım, yemişəm! Zəhrimar olaydı!.. (*ayaqlarına yıxılıb ağlayır*).

P ə r i  x a n ı m (*gülə-gülə*). Sən qorxmadınmı yedin?

D u r s u n. Xanım, mən lap dərin-dərin basdırmışdım. O ki, bir şey görmədi, amma yenə xəbərçilik elədi. Bağışla, məni, xanım, sən allah bağışla! Daha bundan sonra heç yemərəm. Bu kağız işin hamısını sizə xəbər verir. Bu sehr və cadudur.

P ə r i  x a n ı m. Qalx ayağa, axmaq, sən necə sadə və axmaq adamsan! Sən bu kağızı sehr və cadu bilirsənmi?..

D u r s u n (*qaşına-qaşına*). Bəli xanım, cadu olmasa o haradan bildi ki, mən armudları yedim?

P ə r i  x a n ı m. Yox, Dursun, kağızda cadu ola bilməz. Yaxın gəl, bircə bax, bu hərfləri görürsənmi? Bax, mən hərfləri biri-birinin yanına düzürəm, sonra orada hər nə yazılıbsa oxuyub bilirəm. Əgər bu hərfləri bilsən, sən də bizim kimi oxuyub yazmağı bilərsən. Biz oxumuşuq, bilirik, amma sən oxumamışsan! Anladınmı?

D u r s u n. Bu cızma-qara əyri hərfləri əvvəl şeytan düzəldib?

P ə r i  x a n ı m. Günahdır, Dursun, elə sözləri danışma! Bunları əvvəl yaxşı alim adamlar düzəltmişdir.

D u r s u n. Xanım, bu hərfləri mən də öyrənə bilərdimmi,

P ə r i  x a n ı m. Əlbəttə öyrənə bilərsən. Yazı-pozu bilmək çox gözəl şeydir. İnsanın əqlini kamalını, biliyini artırır, insanı xoşbəxt edir. İnsana yalqızlıqda yoldaş kimi olar. Anladınmı? Sən də oxu öyrən, indi mən sənin günahını bağışlayıram!

D u r s u n. Çox sağ ol, xanım, yaxşı sözə canım qurban!..

P ə r d ə  s a l ı n ı r.

*1912*

# İNTİQAMÇI XORUZ

*İki pərdəli uşaq dramı*

ŞƏXSLƏR

H ə s ə n – İşdən qovulmuş işçi
A s l a n – bəyin mehtəri
S ə n ə m – qoca, yoxsul qadın
S a l m a n – koxa
S ə f ə r b ə y – mülkədar
K ə r i m b ə y – onun qardaşı
Y e t ə r – Səfər bəyin arvadı
B a d a m – onun qızı
B a ğ b a n – bəyin bağbanı
S o n a – bağbanın qızı
K a z a k l a r

## BİRİNCİ PƏRDƏ

Səhnə yol ətrafında kiçik bir meşəni təsvir edir.
Kiçik ağaclar, kollar.

H ə s ə n (*yırtıq paltarda, əlində dəyənək çiynində bir çuval gəlir*). Yoruldum. Hava nə qədər istidir. (*Çuvalı yerə atıb bir kötük üstündə oturur*) Mədəndən də qovuldum. Heç bir yerdə iş də vermədilər. (*Çuvaldan çıxardığı çörəyi kəsib yeyərkən ayaq səsi duyur. Diqqətlə baxdıqdan sonra*) O kimdir? Dos-doğru bura gəlir. (*Ağac altında gizlənir)*

A s l a n (*daxil olur, qorxa-qorxa ətrafa baxdıqdan sonra*). Burada gizlənmək olar. (*Oturur*) Amma tapsalar, qulaqlarımdan başqa, başım da gedəcək.

H ə s ə n (*yavaş-yavaş ona yaxınlaşıb birdən*). Sən kimsən, eloğlu?

A s l a n (*diksinib qalxır və heyrətlə ona baxır).* De görüm, sən kimsən?

H ə s ə n. Mən? Mən işdən qovulmuş bir işçi!

A s l a n (*ürəkli*). A... ha!.. Mən də bəyin qəzəbindən qaçan bir xidmətçiyəm.

H ə s ə n (*yaxınlaşıb*). Bəyin qəzəbindən qaçan?

A s l a n. Bəs, bəy qəzəbindən qaçan!.. Zalım oğlu, qulaqlarımı kəsdirmək istəyirdi.

H ə s ə n. Nə üçün?

A s l a n. Nə üçün? Onu sormazlar ki. Kefi belə istəyir.

H ə s ə n. Hər halda səbəbsiz deyil!

A s l a n. Doğrudur, səbəbsiz deyil. Bəyin, çər dəymiş, bir kəhər atı var. Həmişə deyər ki, bu ata yaxşı bax!.. Hakimin adamları bu atı səhərdən minib qan-tər içində gətirdilər. Atı gəzdirdim, tərini soyutdum. Qaşovladım. Sonra axura bağlayıb qabağına arpa, saman tökdüm. At yemədi. Yerə yıxılıb zarımağa başladı. Tez gedib baytar çağırdım. Ata baxıb, dedi: buna çara yoxdur, at qançır olubdur. Bəy əhvalatı bildi. Məni çağırıb dedi: sənə deməmişəmmi ata yaxşı bax!.. O at ölsə, qulaqlarını kəsdirəcəyəm. Gördüm at ölür. Başımı götürüb qaçdım.

H ə s ə n. Aha... belə!..

A s l a n. Bəs, belə... Məni tutmaq üçün adam göndərəcək. Heç bilməyirəm neyləyim?

Hə s ə n. Qorxma, tapa bilməzlər.

A s l a n. Onlar qurd kimi iy bilirlər, evin yoxmu, bir neçə gün məni saxlayasan?

H ə s ə n. Yox... Mən də yurdsuz, yuvasız adamam. Fabrikdə bir kiçik daxmam var idi, onu da əlimdən aldılar. Yaşamaq üçün bu yaxın kəndlərə gəlmişəm.

A s l a n. Yavaş, ayaq səsi gəlir... bax, onlardır, məni gördülər.

S a l m a n. Tapmışıq, gizlənmə, çıx meşədən!

K a z a k. Yaxşı yerdə əlimə düşmüsən. Gəl, qabağıma düş, gedək!

A s l a n. Mən gedə bilmərəm.

S a l m a n. Bəyin atını qançır edib öldürə bilirsən?!

A s l a n. Mənim nə günahım, atı hakimin adamları qançır etdi.

K a z a k. Çox danışma, bəy səni çağırır, gəl kişiyə cavab ver, bu at nə üçün öldü?

H ə s ə n. Yox, o gedə bilməz.

S a l m a n. Sən kimsən?

H ə s ə n. Mən? Mən bir işçi.

K a z a k. Ay adam, tez ol çıx, yoxsa...

A s l a n. Yoxsa... bah... qorxdum. Siz məni tutub apara bilməzsiniz.

S a l m a n. Canını da alarıq.

A s l a n. Hünəriniz var, gəlin, tutun.

H ə s ə n (*qollarını çırmalayıb əlində dəyənək hücum edər kimi*). Gəlin, gəlin!

S a l m a n (*kazaka*). Nə üçün durub baxırsan?

K a z a k. Görmürsən, kişi ölümü gözü altına alıb. Heç kəsdən qorxmayır.

A s l a n. Gəlin, gəlin, Aslanın qolunun gücünü görün.

S a l m a n. İnad etmə, gəl gedək. Bəlkə bəy səni bağışlayacaq.

A s l a n. Aldada bilməzsiniz. O qan çanağını mən yaxşı tanıyıram.

S a l m a n (*kazaka*). Sən sağdan, mən soldan. Haydı gəl! (*Hücum etmək istəyir*)

H ə s ə n. Qorxma, biz də iki nəfərik. (*Hücum edər kimi*) Burax gəlsinlər.

K a z a k. Ey adam, sən qarışma!

S a l m a n. Nə durursan, hərəkət et!

K a z a k. Görmürsən gözləri ac qurd kimi işıldayır.

A s l a n. Sizin gözünüz də qorxaq tülkü kimi oynayır.

Danışıq və ayaq səsləri

K a z a k. Ada, bizimkilər gəlir... Bizimkilər gəlir.

S a l m a n. Gəlin, gəlin, xaini yaxalamışıq.

Kazaklar yaxınlaşır

K a z a k l a r. Koxa, nə üçün durub baxırsınız? (*Tüfəngləri Aslana doğru uzadaraq)* Ey, meşədən çıx!

A s l a n. Durun ! Daha təslim oluram. (*Aslan irəli gəlir*)

H ə s ə n. Yox, təslim olma!

S a l m a n. Əllərini bağlayın! (*Kazaklar Aslanın qollarını bağlayır*) Haydı gedək!

Gedirlər.

H ə s ə n (*kötüyün üstündə oturub onların arxasınca baxdıqdan sonra*). Apardılar.

Məktəblilər müəllimləri ilə bərabər əllərində çiçək tənəzzöhdən dönərək bu nəğməni oxuyurlar.

M ə k t ə b l i l ə r

Bu ölkədə nələr yoxdur, baxsana!
Hey mədəndir diqqət etsən hər yana.

Yüksəldikcə sənət, bilik bayrağı.
Qızıl olur bu yurdun daş, torpağı.

Bir gün gələr hisli, paslı kənd-şəhər,
Təmizlənər, şəfəq kimi gülümsər
Zülmdən, cəhldən qalmaz bir nişan
İnqilabla doğar yeni bir cahan!

H ə s ə n (*məktəblilər gözdən qeyb oluncaya qədər arxalarından məmnun baxışlarla baxar və son beyti təkrar edər*).

Zülmdən, cəhldən qalmaz bir nişan,
İnqilabla doğar yeni bir cahan.

Sənəm qoltuğunda bir xoruz gəlir və Həsənə yaxınlaşınca xoruz banlayır. Həsən diksinib ayağa qalxır.

X o r u z. Quqquriqu... quqquriqu!..

S ə n ə m. Salam, oğlum.

H ə s ə n. Əleykəssəlam nənə.

S ə n ə m. Nə düşünürsən, oğlum?

H ə s ə n. Heç nənə!

S ə n ə m. Üz-gözündən görürəm, dərdli adama bənzəyirsən.

H ə s ə n. Nənə, indicə bəyin adamları kasıb bir kəndlini tutub apardılar, onu düşünürəm. Yoxsullar üçün yaşayış çox çətin olub.

S ə n ə m. Doğru deyirsən oğlum, bax, acından ayaqlarım yeriməyir. Yeməyə bir, şeyin varmı?

H ə s ə n. Var, nənə, var. (*Çuvaldan bir parça çörək və pendir çıxarıb verir)* Al nənə, ye!

S ə n ə m. Sağ ol, oğlum, sən əli, ürəyi açıq və sadiq adamsan. Al, mən də bu xoruzu sənə bağışlayıram. Ancaq bu adi xoruzlara bənzəməz, məzlumlara dost, zalımlara düşməndir.

H ə s ə n (*xoruzu alıb başını oxşayaraq*). Zalımlara bu xoruz nə edə bilər?

S ə n ə m. Dimdiyi ilə onları bir dəfə tutdumu, buraxmaz.

H ə s ə n. Əcəb xoruzdur, nənə, deyəsən mənimki gətirdi.

S ə n ə m. Bu intiqamçı xoruzdur. Al, get bəyin yanına, gücünü sına.

H ə s ə n. Sağ ol, nənə, gedib o kəndlini qurtaracağam.

S ə n ə m. Get, oğlum get! (*Sənəm meşəyə, Həsən isə yola doğru gedir*)

H ə s ə n. Qoçaq xoruzum, vuruşqan xoruza bənzəyirsən. Gedək, görüm məzlumları zalımların pəncəsindən necə qurtarırsan.

Xoruz (*gedərkən*). Quqquriqu!.. Quqquriqu!..

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Səhnə Səfər bəyin bağçasını təsvir edir.

B a ğ b a n (*bağı suvara-suvara oxuyur*).

Şor yerlərdə bar olmaz,
Hayva, alma, nar olmaz.
Cibi dolu zalımdan
Yoxsullara yar olmaz.

Həsən qoltuğunda xoruz gəlir. Xoruz birdən banlayır.

X o r u z. Quqquriqu!.. Quqquriqu!..

B a ğ b a n (*Həsəni görüncə*). Ey, kimsən, nə edirsən?

H ə s ə n. Heç, bir iş üçün gəlmişəm.

B a ğ b a n. Sənə burda iş tapılmaz. Yoxsa xoruzu da bəyə rüşvət gətirmisən.

H ə s ə n. Xoruzumu? Onu heç dədəmə də vermərəm.

B a ğ b a n. Elə isə burdan tez get, yoxsa xoruzu əlindən alarlar, özünü də döyərlər.

H ə s ə n. Döyə bilməzlər, xoruzum qoymaz.

B a ğ b a n. Oho... demək o qədər qoçaqdır? Burda elə canavarlar var ki, xoruzunu diri-diri udarlar.

H ə s ə n. Uda bilməzlər, boğazlarında qalar. Bu sən bilən xoruzlardan deyil.

X o r u z. Quqquriqu!.. Quqquriqu!..

B a ğ b a n. Xoruzun doğrudan da qəribə xoruzdur. Di, gəl daha get, sənə burda iş olmaz.

H ə s ə n. Mən iş istəmirəm, bir işim var, deyirəm.

B a ğ b a n. Nə işin var?

H ə s ə n. Bəyin mehtəri Aslanı görmək istəyirəm.

B a ğ b a n. Sən onun nəyisən?

H ə s ə n. Dostu.

Bağbanın qızı Sona gəlib onları dinlər.

B a ğ b a n. Onu görə bilməzsən, dustaqdır.

S o n a. O qədər döymüşlər ki. (*Gözlərini silər*)

H ə s ə n. Baba, bu kimdir?

B a ğ b a n. Qızımdır. Bəyin evində qulluq edir. Beş ildir xəstədir.

H ə s ə n. Xəstəliyi nədir?

B a ğ b a n. Ürəyi tutqundur, açılmayır.

H ə s ə n. Bəs nə zaman açılacaq?

B a ğ b a n. Kim bilir.

Kərim bəy daxil olur. Bağban qızı ilə gedir.

K ə r i m  b ə y (*Həsənə*). Ey, sən kisən?

H ə s ə n. Mən?

K ə r i m  b ə y. Sən!

H ə s ə n. Mən?

K ə r i m  b ə y. Sən, sən!.. De görüm burada nə eləyirsən?

H ə s ə n. Mən?

K ə r i m  b ə y. Sən, sən tez ol, uzatma!

H ə s ə n. Məni soruşursan?

K ə r i m  b ə y. Səni soruşuram, cavab ver, axmaq! (*Ayaqlarını yerə çırpır)*

H ə s ə n. Bəyi görəcəyəm.

K ə r i m  b ə y. Bəyin vaxtı yoxdur. Xörəkdən sonra rahatlanır.

H ə s ə n. Yoxsa sən bəyin aşpazısan?

K ə r i m  b ə y (*acıqlı hücum edərək*). Sus, alçaq! Mən bəyin qardaşıyam, anladın?

H ə s ə n. Anladım.

K ə r i m  b ə y. Bu xoruz sənindir?

H ə s ə n. Mənimdir.

K ə r i m  b ə y. Yağlı xoruzdur, bu plov başına yaxşıdır. Ver bura!

H ə s ə n. Yox, verə bilmərəm, onu mənə nənəm bağışlayıb.

K ə r i m  b ə y. Hər kəs bağışlayıb, mənə gərək deyil, sənə ver deyirəm. (*Xoruzu almaq istər, xoruz onu dimdiyi ilə tutar*) Vay, vay! Burax məni yaramaz!

H ə s ə n. Bu xoruzu sənə verə bilmərəm.

K ə r i m  b ə y. Vay, vay, burax məni, yoxsa...

S a l m a n (*tələsik daxil olur*). Nə var, nə olub?

K ə r i m b ə y. Koxa, koxa, tez ol məni bu xoruzun əlindən qurtar!

S a l m a n (*yüyürüb Kərim bəyi qurtarmaq istərkən, özü də ona yapışır*). Vay, vay...

K ə r i m b ə y. Ədə, ayağımı əzdin, sən məni qurtar deyirəm!

S a l m a n. Ay bəy, mən də yapışdım.

K ə r i m b ə y. Burax məni, qolumdan neçin tutursan?

S a l m a n. Mən sizi tutmamışam.

H ə s ə n (*xoruzun başını oxşayaraq*). Qoçaq xoruzum sən beləsənmiş?

X o r u z. Quqquriqu!.. Quqquriqu!..

K a z a k l a r gəlirlər.

K ə r i m b ə y. Tez olun, tez olun, məni qurtarın!

K a z a k l a r. Bəyi neçin tutmusan? Çəkil heyvan! (*Hamısı yapışırlar*) Vay, vay...

K ə r i m b ə y. Sizə nə oldu?

K a z a k l a r. Biz də yapışdıq.

K ə r i m b ə y. Bu nə bəla xoruzdur. (*Həsənə)* A gədə, bir mənə bax! Bu xoruzunu götür, rədd ol burdan get!

H ə s ə n (*gülür*). Ha... ha... gülməli işdir. Hamısı zəncir kimi bir-birinə bağlanıb. (*Həsən gedir. Onlar da arxasınca qaçırlar)*

K ə r i m b ə y. Heyvan, ayaqlarımı əzdin.

S a l m a n. Sən də bəy, qabırğalarımı qırdın...

Bəyin arvadı Y e t ə r, qızı B a d a m gəlirlər...

Y e t ə r. Ay Kərim, bu nə oyundur?

K ə r i m b ə y. Yaxın gəl, gör nə oyundur.

B a d a m. Böyük kişilərə bax, uşaq kimi atılıb-düşürlər.

Y e t ə r (*kazaklara*). Çəkilin, çəkilin oynamağa adam tapdınız.

B a d a m. Rədd olun! (*Hər ikisi yapışır*)

Y e t ə r. Vay!

B a d a m. Mən də, vay! (*Həsən gülə-gülə qaçır. Bəy gəlir, Kərim bəy onu görüncə)*

K ə r i m b ə y. Bəy də gəlir.

S ə f ə r b ə y. Bu nə oyundur? Nə üçün atılıb düşürsünüz?

K ə r i m b ə y. Bizdə taxsır yoxdur. Bu xoruz bizi oynadır.

S ə f ə r  b ə y (*arvadını çəkib*). Ay arvad, dəli olmusan? Sən nə üçün bu it-qurda qarışmısan? (*bəy də yapışır*). Vay!

H ə s ə n (*qaça-qaça bu şeri oxuyur və hamısı onun arxasınca yüyürür*).

Başına dönüm can xoruz,
Ey sənə qurban xoruz.
Mən oxuyum, sən oynat,
Zalımları yırğalat.
İnsan deyil, canavar,
Aciz gördümü, yırtar.
Yırtar, boğar, acımaz,
Bunlar tülküdən qurnaz.
İnsanlığın düşmanı,
Yoxsulların qaplanı.
Zəli kimi əmər qan,
İnsanlarda qoymaz can.
Bəyin suçu daha çox,
O başdır, bunlar quyruq.
Ver xoruzum buyruğu,
Oynat başı, quyruğu.
Tutqun könül açılsın,
Dərdlər, qəmlər qaçılsın.

B a ğ b a n və qızı S o n a gəlir.

S o n a. Bay... Siz oynayırsınız? Yoxsa sizi oynadırlar?.. Ha... ha... ha! (*qəhqəhə ilə gülür*)

B a ğ b a n. Qızım, sən gülürsən? Nə böyük səadət.

S o n a. Hələ Badama bax, necə oynayır.

H ə s ə n (*Bağbana*). Get Aslanı dustaqdan çıxar, gəlsin, xoruzumun divanını görsün.

S ə n ə m (*gəlir*). Pəh, pəh, əcəb tamaşadır.

H ə s ə n. Qoçaq xoruzum, bax nənəm də gəldi. Nənə, xoruzuma bax, gör necə divan kəsir.

S ə n ə m. Yerində divan kəsir, oğlum, zülüm yerdə qalmaz!

S ə f ə r  bəy. Qarı, biz nə etmişik ki, bu cəzaya layiq olduq?

S ə n ə m. Onu sən məndən yaxşı bilirsən.

K ə r i m  b ə y. Nənə, amandır, bizi qurtar!

S ə n ə m. Bu xoruzun işinə mən qarışmıram.
K ə r i m b ə y. Uf!
S ə f ə r b ə y. Ax!
Y e t ə r. Ux!

A s l a n və b a ğ b a n gəlir.

H ə s ə n. Aslan, gəl, gəl! Xoruzumun gücünü gör!
A s l a n. Əcəb tamaşadır.
X o r u z. Quqquriqu!.. Quqquriqu!..
A s l a n. Ux, can!..
S o n a. Banla, səsinə qurban!

Həsən gülə-gülə səhnədən çıxar və onlar da onun arxasınca bir-birini basa-basa gedirlər. Sənəm, bağban, Sona və Aslan arxalarından gülə-gülə baxırlar.

P ə r d ə

*1912*

## ÜRƏK TİKMƏK YAXUD QURBAN BAYRAMI

*Uşaqlar üçün bir pərdədə mənzum dram*

MƏCLİS-ƏHLİ

K ə r i m – 40 yaşında, kasıb çoban
N a z l ı – 35 yaşında, onun arvadı
A s l a n – 10 yaşında, onun oğlu
F a t ı – 8 yaşında, Aslanın bacısı
R ü s t ə m – 45 yaşında, Kərimin qardaşı
D u r s u n – 10 yaşında, bəy oğlu
Z e y n ə b – 8 yaşında, bəy qızı
D ə r v i ş
B a ş q a u ş a q l a r

A s l a n və F a t ı

(*qaça-qaça içəri girib*)

Ana, bu gün bayram etmiş uşaqlar,
Geymiş təzə çuxa, qırmızı paltar.

F a t ı

Pəri qızın da güllü bir donu var.

A s l a n

Hər birinin qoç kimi qoyunu var.
Dursun bəyin də var yaxşı çuxası,
Qızıldandır qolu, döşü, yaxası.

N a z l ı

Darılmayın, oğlum, qızım neyləyək?

A s l a n və F a t ı

Bəs bizə də təzə paltar al geyək!

N a z l ı

Atan inəyimizi haçan ki satar,
Sizin üçün də yaxşı paltar alar.

A s l a n  və  F a t ı

Bizə deyirsən bu sözü hər zaman

N a z l ı

Sata bilmir, neyləsin yazıq atan?
Gəlin sizə verim bir az qovurğa,
Oynayın çöldə, getməyin uzağa.

(*Uşaqların ovcuna qovurğa tökür*)

A s l a n

Bir az da ver, mənimki çox az oldu.

N a z l ı

Acgöz! Al! Bax, kefi necə saz oldu.

(*Bir az da Aslanın ovcuna qovurğa tökür.
Bacı qardaş atıla-atıla gedirlər)*

N a z l ı

Dil qanmazlar əlində qalmışam, ah!
Sən bircə aç düyünmüzü ay Allah!

K ə r i m  k i ş i  qəmgin bir halda əlində çomaq içəri daxil olur.

N a z l ı

Pul tapdınmı?

K ə r i m

Olmadı!

N a z l ı

Ay kişi, sən
Yoxa çıxardırsan hər bir işi sən.

K ə r i m

Necə bir qaz düşər çənə, dumana,
Mən də elə əl atıram hər yana,
Üzü üstə qayıdıram, neyləyim?

N a z l ı

Səbəbini, otur, sənə söyləyim:
Səndə yoxdur bil ki, şüur, bacarıq,
Diribaş ol, çalış, yazıqsan, yazıq.

K ə r i m

Allah şüur verməyib, neylim daha,

N a z l ı

Sən də elə yapışırsan allaha.
Sən tənbəl ol, neyləsin allah sənə?

K ə r i m

Nazlı, yenə dolaşırsan sən mənə?
Mənim dərdim bəsdir, sən də saraltma,
Beş gün dünyadır, günümü qaraltma!

N a z l ı

Əyri otur, düz danışaq ay kişi
Axır allah götürməz boyla işi.
Mən hələ heç, allah mənə dayaqdır,
Görürsən ki, uşaqlarım çıplaqdır.
Nə var, başında, nə ayaqlarında,
Qan yox yazıqların yanaqlarında.
Qonşu uşaqları geyibdir əlvan,
Bunlar baxır uzaqdan heyran-heyran.
Gedib, gəlib üstümə ağlayırlar,
Mən anayam, ürəymi dağlayırlar.
Bir də qonşularla kəsilsək qurban,
Olurmu biz durub, baxaq uzaqdan?

K ə r i m

Ağrın alım, sən de görüm neyləyək?

N a z l ı

Çara yoxdur, gərək dananı kəsək.

K ə r i m

Süd verərmi axı inək danasız?

N a z l ı

Uşaqların görüm qalsın anasız,
Bəs neyləyək, elə-belə qalaqmı?
Qurban kəssin el, biz gendən baxaqmı?
Allahın da bircə gəlmir əcəli!

K ə r i m

Necə qıyıb deyirsən, ah, ay dəli!

(*Kərim palazın ucundan qaldırıb)*

Bu palazı çiyniməcə atım qoy,
Kənd içində tez aparıb satım qoy.

N a z l ı

Quru yerdəmi qalaq ay heyvərə!

K ə r i m

Mənim yapıncımı döşərsən yerə.
Bu il qışı yapıncısız keçinnəm,
Altdan cındır-mındırları geyinnəm,
Aparımmı? Gözəl Nazlım darıxma.

N a z l ı

Apar, apar tez ol, ürəymi sıxma!

(*Kərim palazı çiyninə salıb gedir. Nazlı dalınca acıqlı-acıqlı deyir)*

Bunun kimi olmaz şüursuz adam,
Böylə kişi, ağzına dəysin qadam.
Cümşüd bəyə on ildi qulluq edir.
Ayda vur-tut beş manat pul verir.
Çox gözü dar, daş parçası xəsisdir,
Arvadı ki, hələ özündən pisdir.
Ha deyirəm, əl çək bunlardan kişi.
Qulaq asmır, təhərsizdir hər işi.

Bu bəylərə möhtac olarsa insan,
Dam altında, vallah, ölər acından.
Yenə mənəm, o qapı bu qapıda,
Sümsünürəm, ona yoxsa qalırsa,
Dolandıra bilməzdi yalnız başın,
Allah salamat eyləsin qardaşın.
Bizə yalnız o əl tutur ara-bir
Dəli-dolu, üzügülər, comərddir.
Kasıb qohum-qardaşına tutur əl,
Allah tutsun əlin, qıymasın əcəl.

Aslan, Fatı və qonşu uşaqları Zeynəb, Dursun içəri girirlər. Aslan ilə Fatı analarının ətəyində n tutub göstərirlər.

A s l a n və F a t ı

Qurban olum sənə, ana, ay ana,

F a t ı

Bircə gəl bax, Zeynəb qızın donuna.
Nə yaxşıdır? Mənə də al bu dondan.

A s l a n

Mənə də al, ana, bax bu çuxadan.

D u r s a n

Bu çuxanı mənə atam alıbdır.

Z e y n ə b

Bir donum da hələ evdə qalıbdır.

F a t ı

Tez ol, tez ol, mənə də al don.

A s l a n

Çuxa!

N a z l ı

Ay, nəsliniz qırılsın, çıxsın yoxa.
Hardan alım?

A s l a n

Neyləyim bu çarığı!
(*Çarığı ayağından çıxarıb atır*)

F a t ı

Bağlamıram mən də hisli yaylığı.
Zeynəb qızınkinə bax, güllü-güllüdür,

N a z l ı

Çünki onlar kasıb deyil, pulludur.

A s l a n

O pulları bunlar hardan alıbdır?

N a z l ı

Həsən bəyin atasından qalıbdır.

F a t ı

Bizim babamızdan heç nə qalmadı?

N a z l ı

Yox!

A s l a n

Nə üçün?

N a z l ı

Çünkü çox kasıb idi.

A s l a n

Gərək kasıb olmayaydı babam da.

N a z l ı

Oğlum, çalışqanlıq olsa adamda
Kasıb olmaz!

A s l a n

Bəs qonşumuz Həsən bəy,
Heç çalışmır, işləmir, onda gərək
Kasıb olaydı, hər gün ancaq yatır.
Amma atam gecə-gündüz çalışır.
Bəs nədən o pullu, atam pulsuzdur?

N a z l ı

Ah, nə bilim? Dünya belə yolsuzdur.

Dişarıda toy çalınır.

N a z l ı

Qaçın, gedin, dişarda toy, zurna var.

Aslan, Zeynəb və Dursun qaçırlar.

F a t ı

Dayan, dayan, yavaş, məni də apar.

A s l a n

Tez ol, Fatı, tez ol gedək, gəl, qurtar.

N a z l ı

Ruziləri bölən ey pərvərdigar,
Bu yolsuzluq kimin işi? Sən göstər!
Yaxasını ver əlimə, mən əgər
Onu da öz halımıza salmasam,
Anamdan əmdiyim süd olsun haram.

Ey rəhimli sandığımız ilahi,
Məsum çocuqların nədir günahı?
Baxmaq olmur yazıqların üzünə,
Ölüm rənci çökübdür gözlərinə.
Yazıq uşaqlarım şamtək sönüblər,
Yaralanmış ceyranlara dönüblər.

K ə r i m çiynində palaz dişarıdan oxuya-oxuya gəlir.

K ə r i m

Əzizinəm, mən qurbanı,
Gözləriyin mən qurbanı,
Apar Mina dağına
Qurban kəs mən qurbanı.

Palazı nazlının qabağına atır.

K ə r i m

Nazlı, vallah, alan yoxdur bir nəfər,

N a z l ı

Oxuyursan, kefin gəlib bəxtəvər,
Almadılar... Məgər nədir bu sovxa,
Çıxarırsan hər yerə getsən yoxa.
Kor qız kimi qayıdırsan üstümə,
Mən laqeydim, sən də mənim tüstümə.
O olmadı, bu olmadı, neyləyək?

K ə r i m

İnsaf elə, mən neyləyim de görək?

N a z l ı

Neyləyəsən? Kor, şil, topal deyilsən,
Qorxma, yırtılmazsan, motal deyilsən.
Başqa iş tap, çalış, vuruş, get qazan!

K ə r i m

Ay heyvərə, de bircə hardan, hardan?

Dişarıda it hürür, adam səsi

N a z l ı

(*Kərimə*)

Gör bir kimdir?

R ü s t ə m

(*Dişarıdan*)

Kim var, kim yox, ay Kərim?!

K ə r i m

Gəl, gəl... (*Qapıya çıxır)*

Nazlı palazı salır, A s l a n qaça-qaça gəlir.

A s l a n

Ana, gəlibdir Rüstəm əmim.
Gətiribdir, bizə yekə bir qoyun
Çiynində də vardır böyük bir xurcun.

R ü s t ə m, K ə r i m və F a t ı ilə birlikdə çiynində xurcun içəri daxil olur.

R ü s t ə m

Nazlı, xoş gördük.

N a z l ı

Ay, xoş vaxtın olsun!

R ü s t ə m

Bayramınız hələ mübarək olsun!

N a z l ı

Sağ ol, sağ ol, xoşbəxtlik ilə yaşa,
Uşaqların və Gülcahanla qoşa.

Uşaqları yanına çağırıb bir arxalıq və başmaq Aslana, bir don, yaylıq Fatıya, bir yaylıq Nazlıya verir.

R ü s t ə m

(*Aslana*)

Al, bu sənin, geyin görüm, ay dana?!

(*Fatıya*)

Bax, necə güllü dəsmal aldım sana?!

(*Nazlıya*)

Nazlı, bu da səninki al.

N a z l ı

Çox sağ ol!
Allah sənə qoy ömür versin bol-bol.

R ü s t ə m

Deyin görüm, necə keçir ruzigar?
Korluq çəkmir ki, ay Kərim, uşaqlar?

K ə r i m

Yaman, yaxşı dolanırıq, dünyadır.

N a z l ı

Beşi ağ keçsə də, beşi qaradır.

R ü s t ə m

Fikr etməyin, allah kərimdir, keçər.

N a z l ı

Keçincə də insanın ömrün biçər.

D u r s u n, Z e y n ə b və başqa u ş a q l a r gəlirlər.

A s l a n

(*uşaqlara*)

Mənim də var başmağım, arxalığım.

F a t ı

(*Zeynəbə*)

Mənim də vardır, bax donum, yaylığım.

N a z l ı

Əmin aldı.

R ü s t ə m

Nuşdur mənim canıma,
Gəl bir görüm, gəl bir görüm yanıma.

(*Fatı gəlir*)

Bilirəm, bu çox istəyir əmisin,

K ə r i m

Yaxşı sözlər bilir, qoy bir oxusun.
Oxu görüm, oxu görüm, ay quzum.

N a z l ı

Oxuyacaq, sözəbaxandır qızım.

F a t ı

(*oxuyur*)

Bibili qoz ha, bibili qoz.
Bibim getdi iki qoz.
Mindim qozun boynuna,
Getdim Xaxar yoluna.
Xaxar yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzəydim,
Tellərimə düzəydim.
Əmioğlunun toyunda
Bir doyunca süzəydim.

R ü s t ə m

(*gülə-gülə*)

Necə süzəcəksən?
Bircə süz görüm.

Fatı utanıb qaçmaq istəyir.

K ə r i m

Oyna! Oyna!

R ü s t ə m

İşin yoxdur, ay Kərim.

N a z l ı

Oyna, yoxsa əmin daha don almaz.

R ü s t ə m

Fatı yaxşı qızdır söz yerə salmaz.

Fatı bir az qısılıb oynayır, Kərim saz çalır.

R ü s t ə m

Sağ ol qızım, sağ ol qızım, afərin!

K ə r i m

Aslan, indi sən oyna!

A s l a n

(*utanıb*)

Yox!

K ə r i m

Ey xırçın!

F a t ı

Nədən bəs mən oynadım?

N a z l ı

Oyna, Aslan!

R ü s t ə m

Oynayacaq, aslandır oğlum, aslan!

Aslan da oynayır. Kərim saz çalır.

R ü s t ə m

Sağ ol, oğlum, sağ ol, gözəl oynadın.

N a z l ı

Can-gülüm oynayın.

A s l a n

Gəl, Zeynəb, Dursun!

Hamı əl-ələ verib oxuya-oxuya oynayırlar.

Əzizim gedər qalmaz, can gülüm can, can!
Axar su gedər qalmaz, can gülüm can, can!
Vəfalıya can qurban, can gülüm can, can!
Vəfasız gedər qalmaz, can gülüm can, can!
Əzizim, atar məni, can gülüm can, can!
Qul edib satar məni, can gülüm can, can!
Vəfalı dostum olsa, can gülüm can, can!
Axtarıb tapar məni, can gülüm can, can!

R ü s t ə m

Qurban kəsir Hacı Babalar Minada,
O gün olaydı, biz də olaydıq orda
Bir azca allah mənə dövlət versə.

N a z l ı

Allah başından töksün!

R ü s t ə m

Həccə gedərəm piyada!

Dişarıda qapı ağzında dərviş oxuyur, hamı dinləyir.

D ə r v i ş

Vacib neçin olub bizə Kəbə ziyarəti?
Məqsəd nədir, gəl ey Hacı qan bu işarəni!
Ey Kəbə arzusu edən gəl, inan mənə,
Artıqdı qəlb tikmənin ondan şərafəti.

Hamı məbhut

R ü s t ə m

Bax, nə yanıqlıdır dərvişin səsi.

K ə r i m

Həm də çox itidir onun nəfəsi.

N a z l ı

Bu dərvişin sözlərinin var canı.

R ü s t ə m

Qalx, ay Kərim, rahat edək qurbanı.

Hamısı qalxır, uşaqlar sevincək dişarı yüyür

Qardaş malı kimi bölək tən yarım,
Bir şaqqasın mən də evə aparım.

Hamısı dişarı çıxır.

N a z l ı

(*yalqız*)

İnsan deyil, bir mələkdir bu ya da.
Bu ürəkdə adam olmaz dünyada.
Mətləbini Rüstəm, versin yaradan!
Bu dünyada demiyəsən of, aman!
Allah səni qoymasın heç bir darda,
Görüm gözün qalmasın intizarda.

Oynaya-oynaya dişarı gedir.

P ə r d ə

*1912*

# DANIŞAN KUKLA

*İki pərdəli uşaqlara məxsus dram*

MƏCLİS ƏHLİ

P a d ş a h
X a n ı m
Ş a h z a d ə x a n ı m – padşahın qızı
M ü r ə b b i y ə
D a y ə
X i d m ə t ç i
K u k l a
X i d m ə t ç i l ə r, ə s g ə r l ə r

## BİRİNCİ PƏRDƏ

Əhvalat padşahın sarayında vaqe olur.

X i d m ə t ç i. Şahzadə xanımın əhvalı necədir?

D a y ə. Elə əvvəlki kimidir, bütün gecəni yatmayıb. Yeməyir, içməyir, uzun-uzadı ağlayır.

X i d m ə t ç i. Nə üçün ağlayır? Doğrudan xəstəmi, yoxsa, elə şıltaqlıq edir?

D a y ə. Heç başım çıxmır. Nə sual verirsən, cavabsız buraxır, ancaq ayaqlarını yerə döyüb qışqırır ki: “Mənə danışan kukla verin!”

X i d m ə t ç i. Çox təəccüblüdür... Yaxşı ki, göydəki ayı, ulduzları istəmir.

D a y ə. Elə ki onu görürəm çox çəkməz göydəki aya, ulduzlara da əl atar.

X i d m ə t ç i. Bunlar hamısı ona verilən tərbiyənin səmərəsidir.

D a y ə. Sus! Sus! Gəlirlər.

Xidmətçi çıxır. P a d ş a h, x a n ı m, m ü r ə b b i y ə və ə s g ə r l ə r daxil olurlar. Padşah taxta oturur. Xanım da yaxındakı şahanə bəzənmiş kürsüdə əyləşir.

P a d ş a h (*üzünü mürəbbiyə və dayəyə tutur*). Sizi bu gün dəvət etmişəm ki, qızımın barəsində danışaq.

M ü r ə b b i y ə. Padşahımıza itaət borcumuzdur.

X a n ı m. Qızımızın bu halı məni çox darıxdırır. Hər necə olsa gərək buna bir çarə edəsiniz!..

M ü r ə b b i y ə. Xanım, bizim də çalışmağımız odur. Amma nə fayda ki, heç bir çarə tapa bilmirik.

D a y ə. Xanım, mən də, hər nə qədər gücüm, bacarığım var, işlətdim, heç bir fayda vermədi.

P a d ş a h. Bəs sizin bu elminiz nəyə lazımdır? Siz ki, bir uşağın şıltağını sakit elə bilmirsiniz, daha nəyə gərəksiniz?

M ü r ə b b i y ə. Padşahımız, şahzadə xanımın gecələr gördüyü yuxuların təsiri o qədər şiddətlidir ki, heç bir şeylə onu sakit edə bilmirik.

D a y ə. Dünən pəncərədən bütün oyuncaqlarını atıb qırmış.

P a d ş a h. Ay!

X a n ı m. Uf!

M ü r ə b b i y ə. Eh!

D a y ə. Ox!

P a d ş a h. Demək ki, gözümüzün ağı-qarası bir qızımız gözümüz baxa-baxa puç olacaq.

X a n ı m. Bizim o rəiyyətimiz, fəqir adamlar da bizdən xoşbəxtdir. Onların bizim qədər dərdləri yoxdur.

P a d ş a h. Heç kəs bizə kömək etmir, dadımıza yetişmir.

M ü r ə b b i y ə. Ay!..

D a y ə. Oy!..

X i d m ə t ç i (*daxil olur*). Padşah, izin verin, mən də öz fikrimi söyləyim?

X a n ı m. Nə barədə?

X i d m ə t ç i. Şahzadə xanımın barəsində. Şahzadə xanımı başqa uşaqlarla oynamağa qoymurlar.

X a n ı m. O, padşah qızıdır. Ona görə qoymuram və qoymayacağam.

X i d m ə t ç i. Odur ki, sarayda tək qalıb darıxır, danışan kukla istəməsi də buna görədir.

X a n ı m. Nə demək istəyirsən? Mən qızımı buraxım başqa uşaqlarla oynasın? Sözün var söz danış. Bu olan iş deyil!

X i d m ə t ç i. Xanım, mənim başqa təklifim var.

P a d ş a h. Söylə görək!

X a n ı m. Tez ol, söylə!..

X i l m ə t ç i. Şahzadə xanım elə bir kukla istəyir ki, insan kimi danışsın.

M ü r ə b b i y ə. Ay söz söylədin ha... Bunu biz özümüz də bilirik.

X a n ı m (*mürəbbiyəyə*). Qoy sözünü qurtarsın.

X i d m ə t ç i. Danışan kuklanı isə ələ gətirmək mümkün deyil.

D a y ə. Bu, çağırılmış bayatıdır. Bunun üstündə biz iki aydır başımızı yormuşuq.

X a n ı m (*acıqlı*). Qoyun görək nə demək istəyir.

X i d m ə t ç i. Danışan kukla yox isə, amma kuklaya bənzər elə göyçək, gözəl qızlar var ki, danışırlar. O qızlardan birini razı etmək olar ki, şahzadə xanıma bir neçə günlüyə kukla olsun.

P a d ş a h. Elə qızı haradan tapmaq olar?

X i d m ə t ç i. Bizim qonşuluqda bir fəqir dul arvadın beş kiçik uşağı var. Böyük qızı o qədər gözəldir ki, insan onu doğrudan kukla zənn edər. Anasına bir qədər pul versəniz, yəqin razı olar. Çünki çox fəqirdir.

X a n ı m (*əllərini ovuşdurur*). Ax, əgər bu iş baş tuta bilsə!

M ü r ə b b i y ə. Doğrudan gəlin bunu da imtahan edək. Şahzadə xanımı inandırmaq üçün o qızın ayaqları altına yaylı bir sandaliya qoyaq deyək ki, yayı quranda qız hərəkət edir, danışır.

X a n ı m. Bununla bir çarə olurmu?

P a d ş a h. Bu dəxi axırıncı ümidimizdir. Nə eybi var, bunu da imtahan edərik, bəlkə yaradan səbəb saldı. (*Xidmətçiyə*) Bütün şərtlərə razıyam, yubanma get o qızı gətir.

Xidmətçi gedir.

Ş a h z a d ə  x a n ı m (*ağlaya-ağlaya daxil olur və ayaqlarını yerə döyə-döyə*). Mən onu istəyirəm, onu istəyirəm. Mən istəyirəm elə bir kukla olsun ki, mənimlə gəzsin, danışsın, tez olun, mənə elə bir kukla alın!.. Mən padşah qızıyam, necə ola bilər ki, siz mənə danışan kukla ala bilmirsiniz?

X a n ı m. Ey mənim gözəl qızım, sən nə üçün ananı bu qədər incidirsən?

Ş a h z a d ə  x a n ı m. Mən danışan kukla istəyirəm, bu saat istəyirəm, bu dəqiqə istəyirəm.

X a n ı m. Səbr elə, gözəl qızım, adam göndərmişəm. İndi tapıb gətirərlər.

Ş a h z a d ə  x a n ı m. Yox, mən indi istəyirəm, yoxsa...

P a d ş a h. Neyləyək, ay qızım, danışan kukla heç yerdə yoxdur. Sən o yuxunu görəndən bəri özünü də, bizi də rahatsız edirsən. Kukla

adam ilə yuxuda danışar, amma oyaqlıqda danışmaz. Qızım, bircə fikir elə, sən ki indi oyaqsan.

Ş a h z a d ə x a n ı m. Kukla, kukla, tez olun... Kukla... Yoxsa naxoşlayıb öləcəyəm.

X a n ı m. Ax, nə çarə edim ay Allah?! Doğrudan bu tövr olsa, naxoşlayacaq... Yenə yatanda rahat olur.

Ş a h z a d ə x a n ı m. Tez olun, bu saat mənə danışan kukla verin, yoxsa ürəyim gedir, ölərəm. Vay, vay, ürəyim getdi...

X a n ı m. Qızım, qızım!..

Ş a h z a d ə x a n ı m. Vay, vay, ürəyim getdi. Öldüm...

Hamı onun ərafını alıb, sakit etməyə çalışır.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Səhnə şahzadə xanımın yataq otağını təsvir edir. Burğulu miz üstündə, üzündə ağ tül kiçik bir qız oturubdur. Şahzadə xanım yuxudan oyanır.

Ş a h z a d ə x a n ı m. Ox, mən nə üçün oyandım! Elə ki, gözlərimi açıram, yuxuda gördüyüm kukla gəlir gözlərimi qarşısında dayın. Ox, bircə o kuklanı mənə alsaydılar, heç fikrim olmazdı. (*Yatağından sıçrayıb qalxır*). Hər necə olsa gərək o kuklanı mənə alsınlar. (Birdən-birə kuklanı görür) Ay... Bu kimdir? Mən istədiyim kukladır, yoxsa mən yenə yuxu görürəm. (*Gözlərini əlləri ilə silir)* Yox, mən oyağam, yəqin ki, bu mən istədim kukladır. (*Kuklaya yanaşır)* Yuxuda gördüyüm kukladan da bu gözəldir. (*Diqqətlə baxır)* Bu gözəllikdə kukla mən heç fikrimə də gətirə bilməzdim. Ah, nə gözəl də saçları var! Birgə uzun kirpiklərinə iri-iri ala gözlərinə bax, deyəsən doğrudan baxır. Nə kiçikcə ağzı var! Heç belə kukla olmaz. Özü də mən boyda. İndi daha razı oldum. (*Sevincindən sıçrayıb bağırır)* Bura gəlin, bircə mənim gözəl kuklama tamaşa edin.

X i d m ə t ç i daxil olur.

X i d m ə t ç i. Nə var, xanım?

Ş a h z a d ə x a n ı m (*sevincək*). Birdə mənim kuklama baxın. (*Yanaşır)* Görəsən danışırmı, yoxsa bu da o biri kuklalar kimi laldır?

(*Əllərini bir-birinə çarpazlayır)* Gözəl kuklam, söylə görüm sənin adın nədir? (*Kukla cavab vermir*) Niyə cavab vermirsən? Ay, bu da laldır. (*Ağlayır)*

X i d m ə t ç i. Şahzadə xanım, ağlama, bu, danışan kukladır.

Ş a h z a d ə x a n ı m. Nə üçün bəs danışmır?

X i d m ə t ç i. Danışa bilmək üçün gərək burğusunu burasan (*Burğunu göstərir*)

Ş a h z a d ə x a n ı m (*sevincək*). Oy, mən onu heç görmürdüm. Əl vurma. Mən buracağam... (*Burğunu burur)* Aha!.. Gözəl kuklam, indi söylə görüm sənin adın nədir?

K u k l a (*ucadan*). İnci!..

Ş a h z a d ə x a n ı m (*şad*). Ox, nə qədər də gözəl söylədi, elə deyilmi? (*Kuklaya)* Ay, sənin nə gözəl adın var! Adın da özün kimi gözəldir. Bilsən mən səni nə qədər sevirəm! Söylə görüm sən də məni sevirsənmi?

K u k l a. Sevirəm.

Ş a h z a d ə x a n ı m. Ah, mən nə qədər xoşbəxtəm! (*Xidmətçiyə)* Sən get! Mən istəyirəm ki, öz kuklamla yalqızlıqda söhbət etdim. (*Xidmətçi gedir*) Demək ki, sən doğrudan danışa bilirsən?..

K u k l a. Bəli!

Ş a h z a d ə x a n ı m. Ox, bilsən mən səndən ötrü nə qədər ağlamışam, sən bunu bilmirdin?

K u k l a. Yox, bilmirdim.

Ş a h z a d ə x a n ı m. Sənin gəlməyinə mən çox şadam. Mənim kuklam olmağına razısanmı?

K u k l a. Razıyam.

Ş a h z a d ə x a n ı m. Mənim atam padşahdır, hər nə mən istəsəm, o saat əmələ gətirirlər. Sən hər nə istəsən, sənə verəcəyəm. Ancaq sən danış... Ox, bilsən sənin üçün nə qədər ağlamışam! İki ay idi ki, səni axtarırdılar. Sən harada idin ki, tapa bilmirdilər? (*Kukla cavab vermir*) Axırı tapıb gətirdilər. Nə üçün cavab vermirsən? Sən ki, mənimlə danışırdın, söyləyirdin. Gözəl kuklam, sənin gözəl səsini eşitməkdən doymuram, bir kərə yenə söylə, sənin adın nədir? (*Cavab vermir)* Sən nə üçün lal oldun? (*Kuklanın üzündən tülü qaldırır*) Vay, bu nədir?. Ağlayırsan... Doğrudan bu göz yaşlarıdır ki, sənin yanağından yuvarlanır. Sən indi danışan kukla deyilsən, ağlayan kuklasan. Yox, sənə kukla da demək olmaz, çünki insan o zaman ağlar ki, ürəyində bir dərdi, qüssəsi olmuş ola, məgər səni qüssən var? Söylə görüm nə qüssən var?.

K u k l a (*ucadan ağlayır*). Bağışla məni, daha eləmərəm...

Ş a h z a d ə  x a n ı m (*təəccüblə*). Nəyi bağışlayım? İnci, İnci, ağlama! Sən məgər bir günah etmisən?

K u k l a. Burada hərəkətsiz durmaqdan yoruldum, mən istəyirəm düşüb, qaçam.

Ş a h z a d ə  x a n ı m (*şad*). Məgər sən qaça bilirsən? Bu çox gözəl. Yapış məndən, mən səni düşürüm. (*Kuklanı qucaqlayıb düşürür*) Ox, bilsən indi mən nə qədər şadam! Bundan sonra bir yerdə oxuyub, oynayıb, gülüşüb, qaçışarıq. Ancaq daha ağlama.

Hər ikisi divanın üstündə yan-yana oturur. Mürəbbiyə, dayə, xidmətçi daxil olur. Şahzadə xanım və kukla işarə ilə danışırlar.

M ü r ə b b i y ə (*yavaşca dayəyə*). Deyəsən bunlarınkı tutub...

D a y ə. Sus, s... Qızı kukla zənn etmişdir. Gedim padşahı çağırım.

X i d m ə t ç i. Xanımı da çağırmaq lazımdır.

M ü r ə b b i y ə. Deyəsən iş yolu ilə gedir. Gedək padşahı və xanımı çağıraq.

H a m ı s ı. Gedək, gedək!..

Gedirlər.

K u k l a (*göz yaşlarını silir*). İnanın, xanım qız, mən müqəssir deyiləm.

Ş a h z a d ə  x a n ı m. İnci, səndən təvəqqe edirəm, hər nə olubsa, mənə danışasan.

K u k l a. Şahzadə xanım...

Ş a h z a d ə  x a n ı m. Mənim adım Rəmziyyədir. Biz indi yoldaşıq. (*İncini qucaqlayır*) Söylə, nə varsa söylə.

K u k l a. Mən hamısını söyləsəm, sən məndən inciməzsən ki?

Ş a h z a d ə  x a n ı m. Yox, incimərəm, sən danışanda mənim ürəyim açılır.

K u k l a. Elə isə söyləyim. Biz çox fəqirik. O vaxt ki, sizin xidmətçi gəlib, əhvalatı anama söylədi və məni sənə kukla olmaq üçün istədi, bizim bir parça çörəyimiz də yox idi. Biz bu işdən çox şad olduq. Çünki əvəzində atanız pul verəcəkdi, biz də çörək alıb doyunca yeyəcəkdik. Bu əynimdəki paltarı mənə göndərdilər və bu miz üstündə ayaqüstündə qoyub, əmr etdilər ki, kukla kimi heç hərəkət etməyim.

Ş a h z a d ə  x a n ı m. Deməl ki, sək kukla deyilsən, mənim kimi qızsan.

K u k l a. Bəli. O tövr hərəkətsiz durmaq mənə xoş deyil.

Ş a h z a d ə x a n ı m. Amma kukla kimi necə hərəkətsiz dururdun?

K u k l a. Nə qədər ki, sən yatırdın, mən hərəkətsiz durdum. Elə ki, oyandın, mən də öz fəqir evimizi, anamı, qardaşlarımı, bacılarımı yadıma saldım və birdən-birə evimiz ürəyimə elə düşdü ki, özümü saxlaya bilməyib ağladım. Rəmziyyə, məni burax, evimizə gedim.

Ş a h z a d ə x a n ı m. Bəs sən deyirsən ki, biz fəqirik, yeməyə heç bir şeyimiz yoxdur.

K u k l a. Ac olsaq da, bir yerdə xoş keçinirik.

Ş a h z a d ə x a n ı m. Sən orada darıxarsan.

K u k l a. Yox, darıxmıram, mən həmişə anama kömək edirəm, başım işə qarışır.

Ş a h z a d ə x a n ı m. Sənin də kuklan varmı?

K u k l a. Yoxdur, mən kukla əvəzində balaca qardaşımı oynadıram.

Ş a h z a d ə x a n ı m. Sən səhərdən axşamacan ki, işləyirsən, necə rahat ola bilirsən? Belə olsa, sən evdə qüssələnərsən!

K u k l a. Qüssə nə olduğunu mən ömrümdə bilməmişəm. Ancaq işsiz olduğum zaman darıxıram. O zaman ki, mizin üstündə işsiz, gücsüz durmuşdum, elə darıxdım ki, az qaldı üzüqoylu yerə yıxılam, Rəmziyyə, burax məni, evimizə gedim.

Şahzadə əlləri ilə üzünü qapayıb ağlayır.

K u k l a (*şahzadənin əllərini üzündən çəkməyə çalışır*). Rəmziyyə, sənə nə oldu? Nə üçün ağlayırsan?

Ş a h z a d ə x a n ı m. Burax doyunca ağlayım. Qonşuluqda sənin kimi balaca uşaqlar ac imiş. Nə üçün bunu heç kəs bu vaxtacan mənə xəbər verməyib?! Nə üçün tutduğum işin yanlış olduğunu heç kəs mənə anlatmayıb?! O zaman ki, mən darıxırdım, mənə də iş-güc görmək öyrətsəydilər, bu tövr axmaq fikirlər mənim başıma gəlməzdi. (İncini qucaqlayır) Gözəl İncim! Mən nə eləyim ki, həmişə səninlə bir yerdə olaq?..

K u k l a (*qalxıb şahzadənin əlindən tutur*). Qalx, gedək, bizə. qalx, bu saat gedək!

Ş a h z a d ə x a n ı m. Ata-anamdan necə ayrılım. Gözəl İnci, olmazmı siz hamınız köçüb bizim evə gələsiniz?

P a d ş a h, x a n ı m, m ü r ə b b i y ə, d a y ə, x i d m ə t ç i l ə r daxil olurlar.

Ş a h z a d ə x a n ı m (*İncinin əlindən tutub, anasının üstünə qaçır*). Ox, ana can, bilsən mən indi nə qədər şadam! Bax, bu İnci yoldaşım

həmişə mənimlə bizdə qalacaq. Hələ anası, qardaşları, bacıları da saraya gələcək. Mən də sizə söz verirəm ki, bundan sonra heç şıltaqlıq etməyəcəyəm.

X a n ı m. Qızım, sən nə danışırsan! Elə bu qalmışdı ki, bir lütün birisi ilə dostluq edəsən?! Yox, yox, bu bizim əsil-nəcabətimizə yaraşmaz. Mən onları saraya buraxa bilmərəm.

Ş a h z a d ə  x a n ı m. Bəs onda mən kiminlə oynayım? Kiminlə danışım?

X a n ı m. Mənimlə, atanla, dayənlə, mürəbbiyənlə. Bu qədər adam sənə bəs gəlmirmi?

Ş a h z a d ə  x a n ı m. Yox, mən bu qızla danışıb oynamaq istəyirəm. Gör o nə mehribandır!

X a n ı m. Onu görməyəcəksən.

P a d ş a h. Qızım, ağlını başına yığ, padşah qızı hər yetənlə oturub-durmaz. Əgər darıxırsan, saray qızlarına əmr verim, sənin üçün çalıb-oxuyub, oynasınlar, ürəyin açılsın. Yoxsa...

Ş a h z a d ə  x a n ı m. Yox, ata, mən heç bir şey istəmirəm. Ancaq bu İnci ilə oynamaq, danışmaq istəyirəm. (*Onu qucaqlayır*) Nə yaxşı qızdır!

X a n ı m (*Onları bir-birindən ayıraraq*). Ölsən də bunu görməyəcəksən! (*İnciyə)* Ay qız rədd ol, get evinizə!

Qız getmək istəyir, Şahzadə xanım onu tutur.

Ş a h z a d ə  x a n ı m. Yox, getməsin, yoxsa mən ağlayacağam.

X a n ı m. Canın da çıxsa, o qız buranı birdə görməyəcək! (*Qızı itələyir*) Rədd ol, get!

Qız getmək istəyir, Şahzadə xanım ona tərəf qaçarkən, padşah onu iki əli ilə tutur.

P a d ş a h. Bir işə bax, şah qızı rəiyyət qızı ilə danışıb-oynamaq istəyir! (*Acıqlı*) Qoy getsin.

Qız gedir. Şahzadə xanım yerə yıxılıb ağlayır.

X a n ı m. Ölsən də o qızın üzünü də bir də görməyəcəksən!

P ə r d ə

*1913*

# TƏLƏBƏ HƏYATI

İŞTİRAK EDƏN ŞƏXSLƏR

H a c ı M ü r s ə l – tacir
G ö h ə r x a n ı m – Hacının arvadı
S a l e h – Hacının oğlu darülfünun tələbəsi
C ə m i l b ə y – müəllim, Salehin dayısı
K ə r i m – Hacının kiçik oğlu
Q u l u b ə y – Salehin tələbə arkadaşı, əyyaş
Y e l e n a – Qulubəyin aşnası və atasının baldızı
Q a s ı m – Məhəllə uşağı
Ş ü k ü r
Ə d h ə m
R ə h i l ə x a n ı m
R ə m z i y y ə x a n ı m
K a m a l
} Talibə və tələbələr, Salehin arkadaşları

Məclis Salehin yazı odasında vaqe olur. Saleh dərslərini hazırlayır.

G ö h ə r x a n ı m (*qapını açıb içəri girir. Salehi görüncə*). Oğlum, evdəsən? Mən səni getmiş bilirdim... Səhər atanın bağırtısını eşitdinmi? (*Saleh cavab vermir)* Qocaldıqca bu kişinin ağlı azır...

S a l e h. Ay ana, nə deyirsən?! İndi dərslərimi hazırlayıram, sonra danışarıq.

G ö h ə r x a n ı m. Sənin bu dərslərin də mənim qara baxtım kimi uzun, bitmək-tükənmək bilmir. Bir saat da anan ilə oturub dərdlərini eşitsən, günah olar?

S a l e h. Ay ana, mən sizin hansı dərdinizi eşidim? Dərd birmi, beşmi, onmu? Bu qalmaqal hər gün doğur, bu qazan hər gün qaynayır.

G ö h ə r x a n ı m. Səni bəs nə gün üçün böyütdüm? Mən dərdlərimi sənə deməyib, kimə deyim?

S a l e h. Tutaq ki , taxçadakı, boxçadakı dərdlərin hamısını açıb mənə dedin. Mənim əlimdən nə gəlir? Atadır, döyə bilmərəm, söyə bilmərəm. Fikrimi qarışdırmaq, beynimi qaraltmaq, qəlbimi bulandırmaqdan başqa bunun nə faydası?!

G ö h ə r x a n ı m. Görünür ki, mən daşdan yaranmışam, mənim qəlbim, başım yoxdur. Hamınız öz rahatlığınızı düşünürsünüz, mənim canım...

S a l e h. Ana, elə deyil! Axı mənim dərslərim çətindir; Bunları hazırlamağa sağlam baş istəyir. İnan ki, dərdlərini o yanıqlı dil ilə ki, sən söyləyirsən, bir həftə mən özümə gələ bilmirəm. Dəli kimi oluram. Dayım dəfələrlə sənə söyləməyib ki, evdə bir söz, bir qalmaqal oldumu, Salehə demə?!

G ö h ə r x a n ı m. O boş danışır. Salehə deməyib bəs kimə deyim ki, ürəyim boşalsın.

S a l e h. Fatma xalaya, dayı dostuma!

G ö h ə r x a n ı m. Atan kimi nainsaf olma. Axır onlarla görüşüncəyə qədər ürəyim partlayır, anladınmı? (*sükut)* Sənin canın üçün, heç bir şey yoxdur. Maşının üstündəcə süd qızdırırdım, südü götürmək istəyirdim ki, cam bir az sürüşüb, beş-on damla yerə töküldü. Anamın qəbri haqqı, bacımın ruhuna and olsun, sənin və Cəmilin ölümünü görüm, Kərimi qarşıma döşəyib ağlayım ki, necə deyirəm elədir. Beş-on damcıdan artıq tökülmədi. Vay, bir də nə görüm? Atan ağızı köpürə-köpürə üstümə kükrəmədimi? Az qaldı məni basıb döysün. (*Ağlaya-ağlaya)* Hələ böyrümə elə bir dümsük vurdu ki, qabırğalarım indi də sızlayır. Özünə demişəm, sənə də deyirəm, bir gün mən də bunun saqqalını dəstələyib yolacağam. Daha bəsdir, bu gün-sabah gəlin gətirəcəyəm, qız ərə verəcəyəm. Gəlin, kürəkən yanında mənim nə hörmətim olacaq? Bu işləri daha götürməyəcəyəm (vəziyyətini dəyişdirir). Bu gün amma mən də sözlər dedim ha!

S a l e h (*durub gəzinə-gəzinə*). Ana, bitirdinmi?

G ö h ə r x a n ı m. Bitirdim, oğlum

S a l e h. Ürəyin boşaldımı?

G ö h ə r x a n ı m. Boşaldı!

S a l e h. Amma mənimki doldu: qara qanla, irinlə, zəhərlə!

G ö h ə r x a n ı m. Sənə də bir söz deməyə adam peşman olur. Dəli olub divara çıxırsan.

K ə r i m (*tələsik içəri girib*). Ana, dayım gəlir.

C ə m i l b ə y (*əllərində kitablar daxil olur*). Salam, salam! "Əlindəki kitabları Salehə uzadır) Al, sənə yenə türkcə[1] kitablar gətirmişəm.

---

[1] Yəni azərbaycanca.

S a l e h. Sağ ol, dayı. Sən hər zaman məni düşünürsən.

C ə m i l b ə y. Bəs düşünməzmiyəm? Azərbaycan darülfünununda türk professoru olacaq bir zat unudulurmu, Saleh?!

G ö h ə r x a n ı m. Nə olacaq dedin?

C ə m i l b ə y. Professor

G ö h ə r x a n ı m. Professor nədir?

C ə m i l b ə y. Böyük alim, müəllim! Mühəndislərə, doktorlara dərs verəcək.

G ö h ə r x a n ı m. Müəllim olacaq? Ayə! Sən müəllimlikdən gül dərdin, o da gülabını çəkər, lazım deyil!

C ə m i l b ə y. O mənim kimi müəllim olmayacaq. Üç-dörd dəfə məndən artıq biləcək. Böyük müəllim olacaq. Onun elmilə bütün gənclik işıqlanacaq! (*Kərimi qucaqlayır*) Quzum, Kərim, sən nə olacaqsan?

K ə r i m. Bilmirəm.

C ə m i l b ə y. Mən bilirəm, Saleh riyaziyyat professoru olacaq, sən də təbiiyyat.

G ö h ə r x a n ı m. Yox, o ya doktor olacaq, ya tacir. Məni o saxlayacaq.

S a l e h. Professor olsa, saxlaya bilməzmi?

G ö h ə r x a n ı m. Aya, nə bilim, o mənim beynimə batmır. Atası arabir deyir ki, Kərimi çox oxutmayacağam. Ona ticarət öyrədəcəyəm.

C ə m i l b ə y (*Salehə*). Dərslərin nasıl keçir?

S a l e h. Fəna deyil, çalışıram.

C ə m i l b ə y. Yoxlama başlandımı?

S a l e h. Bu günlərdə başlanacaq.

C ə m i l b ə y. Verdiyim kitablar necə, işinə gəlirmi?

S a l e h . Çox...

C ə m i l b ə y. Oxu, fənni istilahları öyrən ki, sonra sənə çətin olmasın. Türkcəyə diqqət ver. Yaxın zamanda milli darülfünunumuzda mənbərdən söylədiyin leksiyonları dinləmək istərəm, anladınmı?

S a l e h. O fəziləti qazanmaq üçün çalışacağam dayı.

C ə m i l b ə y. Çalış, çalışmaqla hər şey mümkündür. İnsanda əzm, səbat və iradə olursa, istədiyi hər bir işi yapar. Gənc Azərbaycanımızın istiqbalı sizə bağlıdır.

H a c ı M ü r s ə l (*dışarıda səs gəlir*). Hanı o uzunqulaq, hanı?

K ə r i m (*qorxu içində*). Bu yenə kim ilədir?

H a c ı M ü r s ə l (*daxil olur*). Sən nə bəla oldun? Niyə rahat oturmayırsan, hə? (*Ağacı qaldırıb vurmaq istəyir. Kərim qaçıb ana-*

*sının arxasında gizlənir. Hacı onun ardınca coşur. Göhər xanım Kərəmi müdafiə edir*)

G ö h ə r x a n ı m. Nə olub yenə bilmirəm, nə istəyirsən?

K ə r i m. Mən neyləmişəm, de görüm neyləmişəm?

Pəncərədən iki çocuq baxıb gülə-gülə "Kərim, Kərim" – deyə səsləndikdən sonra başlarını çəkirlər.

H a c ı M ü r s ə l (bir əlilə ağacı havada tutub, o biri əlilə Kərimi anasından almaq üçün çalışır). Ver bura o heyvan oğlunu, öldürəcəyəm!

K ə r i m. Ana can! Dayı can!..

C ə m i l b ə y (*yerindən firlayaraq, Hacının əlini tutur*). Hacı, bəsdir!..

Kərim qapını açıb qaçır.

H a c ı M ü r s ə l. Səninlə mən gecə danışaram. (*Arxasınca qapıya qədər coşur)*

G ö h ə r x a n ı m. Bu nə oddur mən düşmüşəm. Səhərim, gündüzüm, axşamım, hər gün qan, irin. (Ağlayır)

C ə m i l b ə y. Hacı, bir dəfə olmadı ki, mən gəlib, sizin evdə gülər üz, dadlı söz eşidim. Hər dəfə də belə qalmaqala, gurultu-patırtıya rast gəlirəm. Heç olmazsa mən burada olduğum zaman belə işlər yapma. Yoxsa mənim gəlməyimdən məmnun deyilsən?

H a c ı M ü r s ə l. Sən də uşaq-uşaq danışırsan. Sən oldun da, olmadın da müqəssirdir, cəzasını verəcəyəm. Bunun sənə nə dəxli?

G ö h ə r x a n ı m. Ağac dəysəydi, uşağın başını yarmışdı. Allah saxladı.

H a c ı M ü r s ə l. Yarılsa idi nə olardı? Onun canı itdən bərkdir.

G ö h ə r x a n ı m. Nə olardı? Bu evi alt-üst edərdim. Sənin gül camalına, şirin dilinə aşiq deyiləm. Bu qədər ağrılara uşaqlarımın ucundan qatlanıram, anladınmı?

C ə m i l b ə y. Nə olmuşdu, mən ki, bir şey anlamadım.

H a c ı M ü r s ə l. Nə olmuşdu?.. Nə olacaq, hər gün qonşu uşaqları yolumu kəsirlər ki, Kərim bizim toyuğun ayağını vurub qırdı? Kərim mənim kiçik qardaşımı döydü, bu gün də daş atıb camlarını qırıbdır.

S a l e h. Bu yenə yalan olacaq. O oğlan həmişə Kərimi döydürmək üçün belə yalanlar qoşur, sən də ki...

G ö h ə r x a n ı m. Kərim bu gün heç küçəyə çıxmayıb. Dayısı gələndə həyətdə oynayırdı.

H a c ı  M ü r s ə l. Hamı yalan deyir, elə bircə siz...

Uşaqlardan birisi pəncərədən görünür.

S a l e h (*uşağı görüncə*). Qasım, Qasım, bura gəl! İndi görərsiz, əgər bu söz yalan olmasa...

Qasım daxil olur.

S a l e h. Qasım, doğru söylə, bu gün Kərim Müzəffərgilin pəncərəsinə daş atmışmı?

Q a s ı m. Doğrusunu söyləyim. Hacı əmi gəlirdi. Müzəffər mənə dedi ki, Qasım, yavaş, indi Hacını bax necə qızdıracağam? Bu saat Kərimi elə döydürüm ki, it kimi. Sonra yalandan Hacıya o sözləri dedi.

G ö h ə r  x a n ı m. Uşağın taxsırı olmaya-olmaya, ay müsəlmanlar, hər gün beləcə döyülür, evdən, eşikdən itkin düşür. Kim bilir, qorxusundan yenə gecə nə zaman gələcək. Gəlir, qapı ağzında boynunu büküb durur. Ha yalvarıram, içəri girmir. Deyir ki, qorxuram, atam döyəcək. Atası yatağa girdikdən sonra qısıla-qısıla gedib yatağa girir, ac, susuz, yatır. Hələ elə zaman olur ki, yatdığı yerdə ağacı götürüb uşağı dəli-divanə edir. (*Salehə*) Sən xoşbaxtsan, bu günləri çox görmədin. Dayın səni naz-nemətlə saxlayıb.

H a c ı  M ü r s ə l. Bu sözləri yəni niyə söyləyirsən? Yaxşı eləyirəm, oğul mənimdir, döyərəm özüm bilərəm, söyərəm özüm bilərəm. Heç kəs mənim vəkilim deyil.

G ö h ə r  x a n ı m. Hay-hay! Oğul sənin nə üçün olur? Mənimdir, mənim. Onların qara gününü sən çəkirsən, mən? Sən ancaq öz canını bəsləyirsən Oğul sənin nə gözündədir.

H a c ı  M ü r s ə l. Elə də lazımdır, onlar qəbrimdə mənə çırağ tutacaq? İnsana öz canı lazımdır!

G ö h ə r  x a n ı m. Hamı elə sənin kimi canını sevir. Vallah, bu kişi məni çərlədib öldürəcək. (Ağlaya-ağlaya çıxır)

S a l e h. Ata, mən səndən neçə dəfə təvəqqe etmişəm ki, Kərimin işinə sən qarışma, mən də bu evin böyük oğluyam. Onu mənim öhdəmə burax.

H a c ı  M ü r s ə l. Mən də sənə neçə dəfə demişəm ki, başından böyük danışma! Sən kimsən? Yoxsa bir-iki çırt-pırt oxumaqla özünü bir şey bilirsən? Sən heç, o professorlarınızın beşini bu cibimə soxaram, beşini də bu biri cibimə.

S a l e h. Professorlar sənin bildiyin para deyil, onlar sənin cibinə sığmazlar.

H a c ı  M ü r s ə l. Mən sığışdıraram.

C ə m i l  b ə y. Görünür, Hacının cibi çox böyükdür.

H a c ı  M ü r s ə l. Yox, çox da böyük deyil, ancaq, bunlar, bu oxumuşlar mənim nəzərimdə kiçikdirlər. Bütün bu bəlaları başımıza gətirən bunlardır.

S a l e h. Onlar deyil, atalarımızın, dədələrimizin əkdiyi toxumlardır ki, indi meyvəsini dərirsiniz.

H a c ı  M ü r s ə l. Görünür ki, siz əkdiyiniz toxumlar bal verəcək.

S a l e h. Ata, siz bizə bal verməmisiniz ki, biz əkdiyimiz toxumalar da bal versin.

H a c ı  M ü r s ə l. Sus, heyvan! Bunun bir ağzına, burnuna bax, danışdığı sözünə bax! Tısbağa qabığından çıxdı, qabığını bəyənmədi. Ah, nə eyləyim? Cəmil burada olmasaydı, səninlə başqa cür danışardım. Tfu!.. (*Hacı Mürsəl gedir. Bir an sükut)*

S a l e h. Görürsən dayı?! Sizin sözünüzə görə hər gün bu zəhərləri udur, bu ağrılara qatlanıram.

C ə m i l  b ə y. Doğrudur Saleh, bu peyğəmbərlər sifətidir. Bu böyüklüyün əsiridir, hər zaman belə olur. Məni düşündürən yalnız bir şey var. Sən bu mühitdə çalışmazsan.

S a l e h. Nə yapayım, dayı?

C ə m i l  b ə y. Sən bunların işinə heç qarışma, o səni işdən qoyar.

S a l e h. Mən qarışmıram, zor, güc qarışdırırlar.

Qapı vurulur.

Buyurun!

Q u l u b ə y l ə  Y e l e n a  x a n ı m  daxil olurlar.

Q u l u  b ə y. Salam!

S a l e h. Əleykəssəlam! (*Əl verəndən sonra Cəmil bəyi göstərib)* Tanış olun, mənim dayımdır, Cəmil bəy!

Q u l u b ə y (*əlini uzadıb*). Söhrabov!

Y e l e n a (*əlini verir*)...

C ə m i l  b ə y. Bu hankı Söhrabovdur? Yoxsa sən Yunis bəyin oğlusan?

Q u l u  b ə y. Bəli, yaxşı tanımısınız.

C ə m i l  b ə y. Yaxşı tanıyıram. Onu mənim kimi tanıyan olmaz. Simanız da ona çox bənzəyir. (*Bir az sükutdan sonra)* O bir rus qızı saxlayırdı, yenə onunla yaşayırmı?

Q u l u  b ə y (gülə-gülə). Hansı rus qızını deyirsiniz?

S a l e h. Görünür ki, bir neçəsini saxlayırmış.

C ə m i  l b ə y. Doğru deyir, gərək ki, Bulatnikova idi.

Q u l u  b ə y. Bəli, bəli, onu buraxdı, indi bir başqasını saxlayır.

C ə m i l  b ə y. O qoluna qol keçirməsə, kədərindən partlar. Bizim bu ziyalılarımız çox tuhaf insanlardır. Türk qızına evlənirsə, ona bir qul, bir xidmətçi gözü ilə baxar, kef, əyləncə zamanlarına gəlincə, onu yelenalarla birlikdə keçirir.

Q u l u b ə y. Doğrudur kişi heç qocalmaq bilmir. O yaşda yenə bizlərdən həvəslidir. Kefi kiminlə keçirməyə gələndə isə...

C ə m i l  b ə y (*Yelenaya işarə edərək*). Bu xanım kimdir? Sizin rəfiqənizmi?

Q u l u  b ə y. Xayır, atamın baldızıdır.

C ə m i l  b ə y. O elə kafirdir ki, bilirəm, buna da əl atmamış olmaz.

Q u l u  b ə y. Yox, ata bilmədi, mən işi duydum. Ondan qoçaq tər-pəndim. (*Gülə-gülə)* Amanını kəsmişəm.

C ə m i l  b ə y. Ata, oğul! Bir bacı ona düşəndə, o birisi də sənə düşməzmi? (*Qalxar)* Dünya beş gündür, beşi də qara, vur partlasın, çal oynasın! (*Salehə*) Saleh, mən gedirəm. (*Əlindən tutaraq)* Sən bu gün bir qədər havaya çıx, bu kimi şeylərə əhəmiyyət vermə! Sağ ol! (*Qulubəylə, Yelenayla əl vermədən çıxar*).

S a l e h. Sağ ol!

Q u l u  b ə y. Dayın bir az məğrur adama bənzəyir, gedərkən bi-zimlə əl də vermədi.

Y e l e n a. Kto on takoy?

S a l e h. Dyadya!

Q u l u  b ə y. O tom ya i qovoryu.

S a l e h. Net vı, oşibayetes, tak kak vı yeqo blizko ne znayete, potomu vam tak i kajetsya, nu kakim obrazom vı popali syuda?

Y e l e n a. Ox, ne spraşivayte, mı seqodnya kuda ne zaşli? Seqodnya ya sovsem ustala.

Q u l u  b ə y. A veçerom, v teatr?

Y e l e n a. Ya ne poydu.

Q u l u  b ə y (*biletləri göstərir*). A biletı?

Y e l e n a. Çort s vaşimi biletami.

Q u l u b ə y (*günə-günə*). Bu gün bunu it kimi yormuşam. Səhərdən çıxmışıq keçi kimi bu dağdan o dağa dırmanıb, bu təpədən o təpəyə atılıb, üç-dörd saat gəzmişik, qaçmışıq, təpələrdən baş aşağı yuvarlanmışıq. Sonra oradan qəbristana gedib rus və türk qəbirlərinin üzünü oxuya-oxuya bir saat da vaxtımızı orda keçirmişik. Ordan gəlib bir dəniz seyri yapmışıq. Kürək çəkməkdən qollarımız ağrayır. Bir saat da belə keçdi. O qədər acmışdıq ki, evə getmədik, bir restorana girib qarnımızı doydurduq. Sonra düşdük dükanların canına, Yelena xanıma ətir, pudra alacaq idik, bir saat da bu dükanları dolaşdıq, axırda bir dükanda o istədiyi ətri, pudranı tapıb almışıq. Yolda gələrkən bu yaxındakı qənnadı dükanına girib adama dörd-beş perojnı yedikdən sonra demişəm, gəl burdan Salehi gedib görək.

S a l e h. Arabir dağ və dəniz seyri fəna deyil!

Q u l u  b ə y. Ayə, bizim hər gün işimiz budur.

S a l e h. Bəs dərslər?

Q u l u  b ə y. Allah kərimdir, qorxma!

Y e l e n a. Boltayte, boltayte. Sluşay, qovorite po çeloveçeski.

S a l e h. Mı po çeloveçeski i qovorim.

Q u l u  b ə y. Yelena, tı nas prosti, privıçka vtoraya natura.

Y e l e n a. Tı je doma s Yunisom, i s druqimi nikoqda po svoyemu ne qovoriş. Daje sestre po svoyemu boltat vospreşşayu. (*Pəncərədən kağız yumurlanıb atılır, kağızı götürüb)* Eto çto takoye? (Hamı pəncərəyə tərəf baxar, Qulubəy durub pəncərənin barmaqlığından dışarı boylanır).

S a l e h (*Qapı vurulur*). Buyurun! (*Vurulur)* buyurun!

Q u l u  b ə y (*Qapını açır)* Heç kəs yoxdur, bu kimdir? (*Pəncərədən yenə kağız atılır. Hər üçü pəncərəyə yanaşır, qapı vurulur, hər üçü qapını açıb baxırlar, durub otağa gəlincə, pəncərədən çalğı səsi eşidilir*).

Y e l e n a. S nami iqrayut.

Qapı birdən-birə açılır. Ş ü k ü r, Ə d h ə m, K a m a l, R ə h i l ə  x a n ı m və R ə m z i y y ə  x a n ı m müntəzəm surətdə, bəzisinin əlində tar çala-çala içəri girirlər. İçəridəkilər şən bir çöhrə ilə onları qarşılayıb ayağa dururlar. Musiqi birdən-birə susur.

Ə d h ə m (*amiranə bir səslə*). Rahat!

T ə l ə b ə l ə r. Xoş gördük Saleh!

S a l e h. Bu nə haldır? İstiqbalın bəxtiyar gəncləri, gəncliyin bəşşaş simaları !

Ş ü k ü r. Bu sözlər lazım deyil, hazır ol gedirik!

S a l e h. Nerəyə?

R ə h i l ə  x a n ı m. Nerəyə sizə əmr etsələr, oraya!

S a l e h. Nerəyə gedəcəyinizi bilməyincə getməm, mən cilovumu sizin əlinizə verə bilmərəm.

Ə d h ə m. Biz cilovundan tutub çəkə-çəkə apararız.

R ə m z i y y ə  x a n ı m. Öldü var, döndü yoxdur, sizin iştirakınıza qərar verilmiş.

Q u l u  b ə y. Yoxsa, seyrə gedirsiniz?

R ə h i l ə  x a n ı m. Tapmısan.

Ə d h ə m (Böyük bir şapkanı Salehin başına keçirir). Sənə əmr olunur, qalx! Hazır ol! (Gülüşürlər).

Ş ü k ü r (*kitabları tez-tez vərəqləyir*). Bunları nerədən buldun?

S a l e h. Dayım gətirmiş. (*Kitabları əlindən alaraq)* Bunlar sizinlə qonuşmaz! Sən get Yevgeni Onegini oxumağa!

K a m a l. Saleh bəyin bu türk kitablarını oxumaqdan məqsədi var.

Ə d h ə m. Çox böyük məfkurə... Azərbaycan darülfünununun türk professoru olacaq.

H a m ı s ı. Yaşasın Azərbaycan darülfünununun türk professoru Salehbəy, ura!..

Q u l u  b ə y (*Şükür ilə oturub yavaş-yavan qonuşub gülən Yelenaya*). Tı mnoqo sebe pozvolyayeş!

Y e l e n a. Vot Vostoçnıy idiyot! Revnuyet.

R ə m z i y y ə  x a n ı m. Çem luçşe severnıy idiyot?

Y e l e n a. Ni çem, oba duraki!

Q u l u  b ə y. Şuçu, ya proşayu, s kem i skolko uqodno.

H a m ı s ı. Bravo! Bravo! (Gülüşürlər).

Ş ü k ü r (yerindən fırlayaraq). Vaxt keçir, haydı, qalxın.

S a l e h. Bilmədim nerəyə?

R ə m z i y y ə  x a n ı m. Bu gün yoldaşlar bir-iki saat tənəzzöh yapmağa qərar verdik.

Q u l u b ə y. Tans da olacaq?

Ş ü k ü r. Əlbəttə!

S a l e h. Rəmziyyə xanım rəqs edəcəksə gedərəm, yoxsa...

K a m a l. Hamı rəqs edəcək. Boyun qaçıranın adı qara lövhəyə yazılacaq.

S a l e h (*kitabları göstərib*).Bu kitabları dayım bir saat əvvəl gətirmiş. Bu gün onlara baxmaq istəyirdim. Lakin vücudumda bir ağırlıq, yorğunluq var. Bu tənəzzöhdə məmnuniyyətlə iştirak edərəm.

Q u l u b ə y (*Yelenaya soyuq bir tövr ilə*). İ mı poydyom?

Y e l e n a . Koneçno!

Q u l u b ə y. A teatr?

Y e l e n a Uspeyeş.

Ə d h ə m (*amiranə səslə*). Sıra başına marş! (*Hamısı sıraya düzülür)* Hazır ol!

Çala-çala otaqdan çıxırlar.

P ə r d ə

*1919*

# ELOĞLU

*Dörd pərdəli, bir şəkilli dram*

## İŞTİRAK EDƏNLƏR

X a n
M ə r c a n  x a n ı m – xanın arvadı
G ö v h ə r  x a n ı m – xanın qızı
C ə v a h i r  x a n ı m – Cümşüd xanın arvadı
F a t m a  x a n ı m – Cümşüd xanın bacısı
B a l a o ğ l a n – Xanın mehtəri
Ə k b ə r, A t a k i ş i, S ə m ə n d ə r – Xanın nökərləri
T e l l i – Səməndərin arvadı
E l o ğ l u
A n a x a n ı m – Eloğlunun anası
P o l a d – Eloğlunun atası
Vətəni təmsil edən nurani qadın. Bəzi səhnələrdə qoca qarı
Z ə h r a – yoxsul qadın
O ğ l a n – Onun oğlu
K o v x a
F a l ç ı  T ü k ə z
Z ü m r ü d – Atakişinin qızı
Q ə h r ə m a n – Xanın çobanı
Kəndlilər və qonaqlar

# BİRİNCİ PƏRDƏ

## BİRİNCİ ŞƏKİL

Səhnə, Poladın kiçik həyətini və yoxsul daxmasını təsvir edir.
A n a x a n ı m xalçanı (süpürə-süpürə oxuyur)

A n a x a n ı m

Allı, bəzəkli xalçam,
Güllü, çiçəkli xalçam!
Nənəm məni toxumuş,
Bayatıdan oxumuş.
Gözəldir hər naxışın,
Can verir hər baxışın.
Keçmişləri anarsan,
Nənəmdən yadigarsan.
Allı, bəzəkli xalçam,
Güllü, çiçəkli xalçam!

E l o ğ l u kuzədə su gətirib qapı ağzına qoyur.

A n a x a n ı m (*soruşur*). Oğlum, niyə gec gəldin? (*Eloğlu cavab vermir. Bir kasaya su töküb anasına uzadır. Anası suyu alıb içir)* Sağ ol, oğlum, susuz idim, ürəyimin odunu götürdü.

E l o ğ l u. Nuş olsun, ana can!

A n a x a n ı m (*bir xalçaya, bir də Eloğluya baxaraq*). Xalçaya vurulan naxışlara bir bax, çiçək kimi insanın üzünə gülür. Bunu toxuyan əllərə qurban!

E l o ğ l u. Bunu kim toxuyub, ana?

A n a x a n ı m. Oğlum, rəhmətlik nənəmdən yadigardır, öz əli ilə toxuyub. Bu xalça nə qədər adam qocaldıb, neçəsini yola salıb. Ancaq, özü elə bil bu gün xanadan çıxıb, rəngi də dəyişməyibdir.

E l o ğ l u. İndi bildim, sən bu xalçanı nə üçün bu qədər sevirsən. Nənəndən, anandan yadigar olduğu üçün.

A n a x a n ı m. Doğrudur, oğlum ata, ana yadigarı şirin olur. Qalx, mənə kömək elə, ipdən asaq, bir az hava dəysin.

E l o ğ l u (*xalçanı anasının əlindən alıb bükə-bükə*). Ana, bu xalçanı gizlət. Xan onu səndən almaq istəyir.

A n a x a n ı m (*əsəbi*). Nə deyib almaq istəyir? Atasına borcluyam?

E l o ğ l u. Mən suya gedəndə gördüm, xan, nökəri Səməndərlə çeşmə başına gedir. Məni görməsinlər deyə, özümü tez ağacların altına vurdum. Səslərini eşidirdim. Səməndər xana sənin xalçanı tərif eyləyib: "Xan evinə layiq xalçadır", deyirdi. Səməndər indi gələcək, bilirəm. Xalçanı gizlət, vermə!

A n a x a n ı m. Vay, görüm onu yox olsun. Bu acgöz gördüyündən, göz, eşitdiyindən qulaq kirəsi istəyir.

E l o ğ l u. Evimizin bəzəyi, yaraşığı elə bu xalçadır. Onsuz daxmamız çirkin görünər.

A n a x a n ı m. Atan da bu xalçanı çox xoşlayır.

E l o ğ l u. Doğrudur. Hər gün ona tamaşa etməkdən doymayır. Bir gün ondan soruşdum: ata, sən xalçaya çox müştəri gözü ilə baxırsan, yoxsa, satmaq istəyirsən? O: "Yox, oğlum, bu xalça satılmaz!" dedi.

A n a x a n ı m. O bilir ki, bu yadigarı mən öz canımdan da artıq sevirəm. Atan acından ölər, bu xalçanı satmaz!

E l o ğ l u. Uf, acından ölər, dedin aclığım yadıma düşdü. Yeməyə nəyin var?

A n a x a n ı m. Can, bala, o xanı görüm qan qussun. Kişiyə verdiyi gündə tağalaq kimi üç dəfə arpa çörəyidir, onu da rahat yeməyə qoymur.

E l o ğ l u. Ana bu gün atamın yanına getmişdim. Yazıq kişi qantər içində işləyir... Mən daha böyümüşəm, on altı yaşım var, atama yük olmağım ar gəlir. Mən də gedib işləmək istəyirəm.

A n a x a n ı m. Yox, başına dönüm, o namərdin qapısında səni işləməyə qoymaram. Atan gülünü dərdi, sən də gülabını çəkərsən.

E l o ğ l u. Çarəmiz nədir. Gec-tez işləyəcəyəm ki...

A n a x a n ı m. Yox, bala, yox. (*Qapı tərəfə baxaraq)* Bu kişi harda qaldı?

E l o ğ l u. Atamın yolunu yaman gözləyirsən.

A n a x a n ı m. Əlbəttə gözlərəm, onsuz bir günümüz olmasın, bu yoxsul daxmada ürəyimiz, dirəyimizdir.

Polad əlində üç çörək gəlir.

E l o ğ l u. Ürəyin, dirəyin gəldi. (*Gülə-gülə atasını qarşılayır)*

P o l a d. Bu nə sözdür?

A n a x a n ı m. Heç, oğlun bizə sataşır, Otur, otur, bilirəm yorulmusan, bir az dincəl.

P o l a d. Oxay, evin birinci dəfə binasını qoyanın atasına rəhmət! Bu kasıb daxmamız cənnətdir, cənnət! Qapıdan içəri girincə bütün dərdimi, yorğunluğumu unuduram. Anaxanım, başına dönüm, qalx, süfrə sal, uşaq acdır, çörəyimizi yeyək.

Anaxanım sürfə salır, üç dənə tağalaq çörəyi ortaya qoyur. Ata-oğul oturub nahara başlarkən, Poladı çağırırlar.

A t a k i ş i. Polad!.. Polad!..

Polad durub gedir.

E l o ğ l u (*əsəbi*). Ana, tez ol xalçanı gizlət! Deyəsən...

A t a k i ş i. Günortan xeyir olsun!

P o l a d. Xeyir içində olasan! Buyur içəri!

A t a k i ş i. Yox, oturmayacağam. Gəldim ki, sənə xəbərdarlıq edim. Dilini bir az saxla, xandan az danış, Səməndər hamısını xəbər verir. Bunun axırı yaxşı olmaz!

P o l a d. Nə deyir axı?

A t a k i ş i. Deyir ki, bəy dediyin nədir, bəyənmədiyin nədir? Kişinin çörəyin yeyir, hələ xalq içində dalınca min söz danışır. Mən o sözləri xana çatdıracağam.

P o l a d. Bəs belə... Görəsən hansı sözləri deyir?

A t a k i ş i. Deyir ki, rəiyyəti yoldan çıxarırsan, kəndlilərə deyirsən ki, ay yazıqlar, nə qədər çalışırsız, çapalayırsız, yenə də acsınız, ac, qazancınızı it yeyir, yaxanızı bit.

P o l a d. Ay namərd, mən xanın çörəyini yemirəm, öz əlimin qazandığını yeyirəm.

A t a k i ş i. Bir az dilini saxla, özünü o zalımdan qoru! Hələlik, sağ ol!

P o l a d. Çox sağ ol. Atakişi! Xoş gəldin!

A t a k i ş i (*getmək istərkən qayıdır*). Bura bax, Polad, bir də onu deyəcəkdim, xalçanda xanın gözü var, onu səndən almaq istəyir.

P o l a d. Buda bir xəbər. Vallah, bilmirəm başımı alıb hara gedim. Gündə bir bəd söz eşitməsən qulaqların kar olar. Sağ ol, dostum, sağ ol!

A t a k i ş i. Uğurlar olsun! Mən getdim.

P o l a d. Uğurlar olsun!

A n a x a n ı m (*yaxınlaşır*). Söhbətiniz nə uzun çəkdi?

P o l a d. Heç, öz işimizdən danışırdıq.

A n a x a n ı m. Bilirəm, çöldə qiyamət qopsa da, sən evdə ağzına söz alıb danışmazsan.

P o l a d. Qan qaraldan, könül bulandıran sözü danışmağın nə faydası var.

A n a x a n ı m. O acgöz xan xalçanı əlimizdən almaq istəyir. Eloğlu xəbər gətirdi.

P o l a d. Xəbərim var, arvad, onu vaxt ikən gizlətsən yaxşıdır.

E l o ğ l u. Düz deyirsən, ata, xalçamızı xana verməyək. Xanın nə qədər torpağı, sürüsü, ilxısı var. Bizim var-yox bircə xalçamız var, onu da əlimizdən almaq istəyirlər. Bir də axı o, anama yadigardır.

P o l a d. Mən də, oğlum, onun üçün deyirəm. Xalçanı vaxt ikən gizləyin, yoxsa, xan istəsə, biz də verməsək, arada düşmənçilik başlar.

A n a x a n ı m. Yaxşı, acsınız, gəlin çörəyinizi yeyin.

Hər üçü oturub əllərini çörəyə apararkən x a n n ö k ə r l ə r i S ə m ə n d ə r və Ə k b ə r l ə daxil olur.

S ə m ə n d ə r. Polad!.. Polad!..

P o l a d (*qarşılarına çıxır*). Salaməleyküm, xan!

X a n. A kişi, sən hələ evdəsən?

P o l a d. Xan, işdən indicə gəlmişəm, çörəyimi yeyib gedirəm.

X a n. Yaxşı, deyirlər sənin yaxşı bir xalçan var, ona baxmağa gəlmişəm.

A n a x a n ı m. Allah, sən kömək ol!

P o l a d. Xan, xalça mənim deyil, uşaqların anasınındır, atası evindən gətirib.

X a n. Hər kimindir, baxmaq da olmaz?

P o l a d. Niyə olmaz?

A n a x a n ı m (*xalçanı büküb götürmək istəyir*). Köhnə xalçadır.

S ə m ə n d ə r. Bükmə, bükmə, xan baxmaq istəyir, aç! (*Xalçanı açıb xana göstərir)* Naxışlarına bax, elə bil üstündə heç əl işləməyib, adamın üzünə gülür.

X a n. Yaxşı xalçadır. Əkbər, xalçanı al, evə apar.

A n a x a n ı m. Xan, bağışla, bu xalça yadigardır. Onu canımdan artıq istəyirəm, heç kəsə verə bilmərəm.

X a n (*acıqlı*). A gədə Polad, sən nə deyirsən?

P o l a d. Xan, sənə nə deyə bilərəm, mal sahibi özü bilər. Xalçanı mən arvadın əlindən ala bilmərəm!

X a n. Ala bilməzsən?!

P o l a d. Yox. Çünki bu xalça onun canıdır, onu bu xalçadan ayırmaq olmaz!

Ə k b ə r. Sən tərsindən başladın, bir xalça nədir ki, onu xandan əsirgəyirsən?!

S ə m ə n d ə r. Mənim yüz xalçam olsa, xana qurban eylərəm.

P o l a d. Bilirəm, sən qurban eylərsən, neyləyim, mən sənin kimi comərd ola bilmərəm ki.

S ə m ə n d ə r. Sahibi bağı qıydı, bağban bir salxım qıymadı, bu yerdə deyiblər.

P o l a d. Sən quyruq bulama, xan xalçanı kasıb bir arvadın əlindən almaz!

X a n. Sus, nanəcib!.. Haram olsun sənə mənim çörəyim. Bu gündən sənin kimi rəncbər mənə lazım deyil. Torpağımda gəzməzsən, suyumdan içməzsən, ot, ələfimə əl vurmazsan, yaşa görüm, necə yaşayacaqsan.

Ə k b ə r. Di get, özün etdin özünə, külü səpdin gözünə.

S ə m ə n d ə r. Xan, siz bilmirsiniz bu necə duz-çörək ayaqlayan adamdır, çörəyinizi yeyir, dalınızca min söz danışır.

X a n. Nə deyir?

S ə m ə n d ə r. Kəndlilərə deyir ki, nə qədər çalışsanız, ilan kimi qabıq qoysanız, yenə acsınız ac, qazandığınızı it yeyir, yaxanızı bit.

X a n. Vay, heyvan oğlu heyvan, mənim elə düşmənim bu imiş, heç xəbərim yox! Rəiyyətin içinə ixtişaş salmaq istəyir (*Səməndərə)* Bu həyasız oğlunu gətir qulluğuma!

S ə m ə n d ə r (*Poladın qolundan tutub çəkərək*). Düş qabağıma! Dikbaşlığın axırı budur.

E l o ğ l u (*Səməndəri əli itələyir, atasını qucaqlayır*). Atamı aparmağa qoymaram!

S ə m ə n d ə r (*onu bərk itələyir*). A gədə, çəkil, əl-ayağa dolaşma!

E l o ğ l u (*Səməndəri itələyir*). Sən çəkil! Qoymaram!

X a n. Yaxşı deyiblər, ilanın balası da ilan olar. A gədə, Səməndər, biz getdik. Bu xaini bu saat hüzuruma gətir!

S ə m ə n d ə r. Baş üstə, xan!

X a n (*Əkbər ilə gedərkən*). Xalçanı da gətirərsən!

S ə m ə n d ə r. O da baş üstə! (*Polada)* Düş qabağıma gədə!

Eloğlu və Anaxanım ona yalvarır.

E l o ğ l u. Atamı aparma!

A n a x a n ı m. Ay oğul, kişini qana salma, bizə yazığın gəlsin.

S ə m ə n d ə r. Xanın əmridir, çəkilin! (*Poladın qolundan tutub çəkir*)

E l o ğ l u. Qoymaram!

A n a x a n ı m. Aparma!

S ə m ə n d ə r. Çəkilin, xanın əmrindən çıxa bilmərəm (*Polada)* Gedək!

E l o ğ l u. Dayan, ana, xalçanı ver, atamı buraxsın.

A n a x a n ı m (*xalçanı Səməndərə tərəf ataraq*). Al, Poladın başına sadağa, kişini burax!

S ə m ə n d ə r. Xalçanı da xan istəyir, onu da aparacağam. (*Yerdən götürür)* Tez ol, gədə!

P o l a d. Sağ olun!

E l o ğ l u. Mən də gedirəm.

A n a x a n ı m. Bəs mən? Məni kimə tapşırırsan?

Eloğlu və Anaxanım Poladı araya alıb ağlayırlar.

E l o ğ l u. Ata!.. Ata!..

P o l a d. Kişi qızı, kişi oğlu namərd qabağında ağlamaz! (*Hər əli ilə birini qucaqlayır)* Səbirli olun, dözümlü olun! (*Eloğlunu öpür, Səməndər amiranə)* Gedək!

Səməndər Poladı aparır. Anaxanım və Eloğlu Poladın arxasınca baxırlar.
Arxada vətəni təmsil edən nurani qadın köhnə paltarda peyda
olur, üzərinə hər yandan işıq yağır.

N u r a n i q a d ı n. Polad! Dözümlü ol! Xalqın sənə həmişə köməyi olacaq!

Hamı heyrətlə ona baxır. Aydınlıq və musiqi.

## İKİNCİ PƏRDƏ

### İKİNCİ ŞƏKİL

Səhnə xanın evini və həyətini təsvir edir. Atakişi həyəti süpürür.

B a l a o ğ l a n. Süpür, süpür, bizim ömrümüz gecə-gündüz həyət-bacanı, tövləni süpürməklə keçəcək.

A t a k i ş i. İnsafsızlar hələ buna da razı deyil. Yenə də adımız tənbəl, yenə də adımız köpək oğludur. Doğ ay günəş, çəkil ey duman!

Z ü m r ü d (*gəlib Atakişinin qolundan tutaraq*). Ata! Kimi döyürlər?

A t a k i ş i. Heç kimi, qızım.

Z ü m r ü d. Yox döyürlər. Qulağıma ağlamaq səsi gəlir.

A t a k i ş i. Döyülən yoxdur, qızım. (*Balaoğlana)* Bu qız dərdə düşəli öz dərdimi də unutmuşam. Lənət olsun bu qapıya gəldiyim günə!

B a l a o ğ l a n. Sənin qulağına səs düşüb. Yoxsa döyülən, ağlayan yoxdur.

Z ü m r ü d. Yox odur, bax, ağlayır, bağırır. Necə yoxdur?! (*Hıçqıra-hıçqıra ağlayır)*

A t a k i ş i. Sakit ol, qızım, bir az sakit ol!

B a l a o ğ l a n. Yazıq qız!

Z ü m r ü d. Vay, vay, yenə döyürlər. (*Qaçır)*

A t a k i ş i (*onun dalınca gedərək*). Zümrüd! Ay qızım!

M ə r c a n x a n ı m (*daxil olur*). Ey... Ay kişi! Səhərdən axşamacan bu dəli qızın nazı ilə oynayırsan, bəs bu işi, gücü kim görəcək? (*Balaoğlana)* A gədə, sən niyə işsiz, gücsüz sümsünürsən?! O dəli sizə bir tamaşa olub, onu bu qapıdan elə itirdim ki, heç iyi, tozu da qalmasın. Axmaq uşağı, müftə çörək tapıblar.

Gedir. Atakişi gəlib həyəti süpürməyə başlayır. Xan görünür.

X a n (*Atakişiyə*). A gədə!..

A t a k i ş i. Nə buyurursan, xan?

X a n. Səməndər gəldimi?

A t a k i ş i. Xan, hələ gəlib çıxmayıb.

X a n. Bunlar hansı cəhənnəmdə qaldı?

Acıqlı gedir. B a l o ğ l a n əlində atın cilovu gəlir.

A t a k i ş i. Gördünmü? Ağzını açıb heyvan kimi elə qışqırır ki, sanki bizi yeyəcək.

B a l o ğ l a n. Ayı yaman canavardır, yedi, yedi də, əlimizdən nə gələr?

A t a k i ş i. Bu gün yenə itə dönüb bilmirəm nə var.

B a l a o ğ l a n. Görəsən hansı yazığın ömrü tükənib.

A t a k i ş i. Bizim Zümrüdə deyəsən xəbər verilir. Xan adam öldürmək, ya döydürmək istəyən gün onun naxoşluğu başlayır. Bu gün də qansız keçməyəcək.

B a l a o ğ l a n. Yırtıcı heyvanın xörəyi qandır. Qan içməsə, nə qarnı doyar, nə də gözü.

Mərcan xanım ilə Gövhər xanım daxil olurlar.

M ə r c a n x a n ı m. Bura bax, ay kişi, sabah o dəlini bu qapıdan rədd edərsən.

A t a k i ş i. Xanım, haram var, hara aparım? Balamdır, çölə ata bilmərəm ki?

M ə r c a n x a n ı m. Atacaqsan, atmayacaqsan, o mənə borc deyil. Sabahdan onu bu qapıda görməyim! Mənim dəli-məli nazı çəkməyə halım yoxdur.

A t a k i ş i. Xanım, özün görmüşdün, güldən, lətif, lalədən qırmızı bir qız idi. Bu qapıya gəldi, uşaq dəli oldu. O ancaq yenə bu qapıda sağalar.

M ə r c a n x a n ı m. Çox danışma, qoca kaftar!

T e l l i (*əlində səhəng həyətə girir*). Xanım, xanım, muştuluğumu ver!..

M ə r c a n x a n ı m. Nə var, ay qız?

T e l l i. Cümşüd xanın arvadı Cavahir xanım bizə qonaq gəlir.

M ə r c a n x a n ı m. Ala kül başına! Mən də deyirəm görən nə var, hələ sən bu bəxtəvərlərə bax! Üç günlük yoldan basa-basa qonaq da gəlirlər...

T e l l i. Xanım! Yadındadırmı, beş il bundan əvvəl biz onlara qonaq getmişdik. Onlar da bizə qonaq gəlməyə söz verdilər. Ancaq boş gəlmirlər, deyəsən Gövhər xanıma elçiliyə gəlirlər.

M ə r c a n x a n ı m. Bunu nədən bildin?

T e l l i. Danışanda eşitdim. Onlar dörd atlı idi. Su içmək, əl-üzlərini yumaq üçün bulağa döndülər. Mən də çiynimdə səhəng dallarınca gedirdim. Cavahir xanım deyirdi: “Qızı o zaman görmüşük dəyişməmiş olsa yaxşıdır”. Fatma xanım dedi: “Niyə dəyişir? Rüstəm xan kimi atası var. Yeyib, içib, əmlik quzuya dönəcək”.

X a n (*daxil olur*). Bu bayquş yenə nə ulayır?

M ə r c a n x a n ı m. Bu dəfə ulamır, bülbül kimi cəh-cəh vurur. Cümşüd xanın arvadı Cavahir xanım Gövhər xanıma elçi gəlir. Sən tez ol evdən çıx! Ay qız, Telli. Sən də qabaqlarına get!

X a n (*Atakişi ilə Balaoğlana*). Siz də həyətdə az görünün. Atları tövləyə bağlayın! Gədələr buralarda görünməsinlər.

Atakişi ilə Balaoğlan gedir.

M ə r c a n x a n ı m (*Gövhərə*). Qızım, paltarını tez dəyiş, bizə qonaq gəlir. Onlar gələndə sən də qabaqlarına çıx!

G ö v h ə r x a n ı m. Yox, mən qabaqlarına çıxmayacağam.

M ə r c a n x a n ı m. Ayıbdır, qızım. Tez, tez get, paltarını dəyiş.

Gövhər xanım gedir. Cavahir xanım, Fatma xanım, Telli, Atakişi əllərində xurcun gəlirlər.

C a v a h i r x a n ı m. Qonaq istəmirsinizmi?

M ə r c a n x a n ı m. Sizin kimi qonaqları kim istəməz? Xoş gəlibsiz, səfa gətiribsiz. Siz hara, bura hara? Mən deyirdim, biz bir də görüşmərik.

F a t m a x a n ı m. Dağ-dağa qovuşmaz, insan insana qovuşar. Görürsənmi, sözümüzə etibarlı çıxdıq. Bu uzun yolu basa-basa sizi görmək üçün gəldik.

M ə r c a n x a n ı m. Çox sağ olun, ürək yaxın olsa, uzaq yol adama neylər.

C a v a h i r x a n ı m. Doğrudur, başın üçün doğrudur. Beş ildir sizi görməmişəm. Könlümün quşu sizə elə qonmuş ki, bir gün yadımızdan çıxmırsız.

M ə r c a n x a n ı m. Canın üçün, biz də... Hər gün sizdən danışırıq. Könüldən-könülə yol var.

C a v a h i r x a n ı m. Biz o dostluğu daha da bərkitməyə gəlmişik.

M ə r c a n x a n ı m. Xoş gəlmisiz, səfa gətirmişsiz! Gözlərimiz üstündə yeriniz var. İçəri buyurun!

Otağa girirlər. Xan pilləkənləri enib həyətə düşür. S ə m ə n d ə r P o l a d ı gətirir.

S ə m ə n d ə r. Xan! Gətirdim qulluğuna, bu da xalçası.

X a n. Çox əcəb. Bəs oğul-uşağı? Əkbər get, onları da gətir!

Ə k b ə r. Bu saat onları da qulluğunuza gətirim. (*Gedir)*

X a n. Qoy qapısında bayquşlar ulasın. Mənim torpağıma fitnə salanın nəsli kəsilməlidir!

P o l a d. Mən neyləmişəm? Nə fitnə salmışam?

X a n. Bilmirəm, bilmirəm, rəiyyəti üzümə ağ eləyirsən. Hələ danışdığı sözlərə bax: Qazancımızı it yeyir, yaxamızı bit. Məni itə bənzədirsən?! Soyundurun, tez!

P o l a d. Bu sözü bütün el deyir. Hamı bilir ki, xalq işləyir, xan dişləyir.

X a n. Bu heyvan oğlunun hər sözü mənə bir nəştər kimi batır. Tez, tez, ölüncəyə qədər vurun!

P o l a d. Ölüm sənin kimi namərdlərə baş əyməkdən yaxşıdır.

Səməndər əlindəki matraq ilə vurur.

X a n. Vur, vur, bərk vur! Qoy bilsin ki, xana xain çıxanın cəzası ölümdür.

P o l a d. Uf... Elin ağzını bağlaya bilməzsən! Ağzını bağlasan da, qolunu bağlamaq olmaz! Sənə də bir gün bu cəzadan var!

X a n. Susdurun bu iti!..

Səməndər Poladı döyür.

P o l a d. Ah!.. ah!..

A t a k i ş i (*tərəfə*). Tfu!.. Bu qapıdan girəli ölümdən, ah-nalədən başqa bir şey görmədim. Bu qanlı ocaq bilmirəm nə zaman dağılacaq?! Yazıq kişinin nəfəsi kəsildi.

Z ü m r ü d. Vay, vay!.. Ata, qorxuram...

A t a k a ş i. Sənə demədim həyətə çıxma? Gəl gedək!

Z ü m r ü d. Ata, ata, yenə döyürlər...

B a l a o ğ l a n. Qızı, tez ol, apar!

Atakişi Zümrüdü aparıb, yenə qayıdır. Səsə M ə r c a n x a n ı m, C a v a h i r x a n ı m, F a t m a x a n ı m eyvana çıxırlar.

C a v a h i r x a n ı m. Bu yazıq kişini nə üçün döyürlər?

M ə r c a n x a n ı m. Görünür bir günahı var.

F a t m a x a n ı m. Kişidə can qalmadı, o daha dirilməz!

A t a k i ş i. Ömrünü sənə bağışladı, xan!

Ə k b ə r A n a x a n ı m ilə E l o ğ l u n u gətirir.

Ə k b ə r. Gətirdim xan!

A n a x a n ı m (*Poladı yerdə ölü kimi sərilmiş görüb*). Vay, vay!..

Özünü onun üstünə atmaq istəyir. Səməndər qolundan tutub qoymayır.

E l o ğ l u. Ata!..

Özünü atasının üstünə atmaq istəyir. Əkbər qolundan bərk tutub çəkir.

Ə k b ə r. Sakit ol! Çəkil!

X a n. Bu ilan yumurtasını da soyundurun! Bunların toxumu kəsilməlidir!

Səməndər Eloğlunu soyundurmaq istərkən Anaxanım Eloğlunu bərk qucaqlayır.

A n a x a n ı m. Vay!.. Onu buraxın, məni öldürün!..

S ə m ə n d ə r. Qalx, arvad! Sənə də növbə çatacaq, tələsmə!

A n a x a n ı m Qoymaram!.. Buraxın!

E l o ğ l u. Ana, yalvarma!.. Yazıq anam!..

C a v a h i r x a n ı m. Mərcan, ürəyimə ağır gəlir. Bizim bu xeyir iş üçün gəlişimizdə bu qan heç yaxşı deyil. Heç olmasa arvadı, oğlanı xan bizə bağışlasın.

M ə r c a n x a n ı m. Xan, qonaqlarımız səndən təvəqqe edirlər ki, arvadı, oğlanı onlara bağışlayasan.

X a n. Yaxşı, qurban olsunlar qonaqlara. (*Əli ilə Polada işarə edərək*) A gədə, onu da atın tövləyə!

Poladı Atakişi ilə Səməndər götürüb tövləyə aparırlar.
Eloğlu ağlaya-ağlaya ona tərəf gedir.

E l o ğ l u. Ata can!

A n a x a n ı m. Polad! Polad!..

Eloğlu birdən dayanır, vüqarlı vəziyyət alır.

E l o ğ l u (*Anaxanıma*). Ana, ağlama, atam bizə tapşırdı ki, kişi qızı, kişi oğlu namərd qabağında ağlamaz!

P ə r d ə

## ÜÇÜNCÜ ŞƏKİL

Səhnə xanın həyətini təsvir edir. Anaxanım eyvanda xalçaları çırpır, Eloğlu qəmli-qəmli anasına baxır. T e l l i aşağı otaqdan çıxır.

T e l l i. Ay yetim, qarabaşı çağır bura!

E l o ğ l u. Ana! Səni çağırır.

Anaxanım xalçaları eyvanda qoyub aşağı enir.

T e l l i. Sən niyə boş bikar durmusan?

E l o ğ l u. Çobanlara çörək aparacağam.

T e l l i. Ey, çoban qızı! Sən çox qudurmusan. Səhərdən hardasan?

A n a x a n ı m. Sən kimsən, sən də bir kəndçi qızı deyilsənmi, Tısbağa qınından çıxdı, çanağını bəyənmədi. Mənimlə azğın-azğın danışma qudurğan özünsən, sözünü de.

T e l l i. Oho, sən bunda bir üzə bax! Bilmirsən axşamdan qalan bulaşıq qabları yumaq lazımdır?

A n a x a n ı m. Bilirəm, mənim də bir canım var. Yeddi yerə bölünə bilmərəm ki.

T e l l i. Canın da çıxar, bölünərsən!

A n a x a n ı m. Canın da çıxsın, gözün də!

M ə r c a n x a n ı m. Ey, qarabaş, tez ol yuxarı gəl, vaxt keçir, bu xalçalar niyə burda qalıb?

A n a x a n ı m. Çırpırdım, aşağıdan çağırdılar.

M ə r c a n x a n ı m. Canına çər çağırdılar. Ay qız Telli, qabları özün yu, it-qurd əlinə salma!

T e l l i. Baş üstə, xanım.

M ə r c a n x a n ı m. Ay gədə! Sən niyə əlləri qoltuğunda boş bekar dayanmısan? Get su tök, Telli qabları yusun!

Anaxanım xalçaları götürüb gedir. Eloğlu Tellinin əlinə su tökür.

E l o ğ l u. Ay Telli! Anamın üstünə çox bağırma, sonra yaxşı olmaz!

T e l l i. Neylərsən?

E l o ğ l u. Neylərəm? O qurdlu ürəyini parça-parça elərəm!

S ə m ə n d ə r. A gədə, yetim, durma, arabadan çuvalları anbara daşı!

T e l l i. Bircə itil burdan səndən qan iyi gəlir.

Eloğlu həyətdən çıxır. A t a ki ş i gəlir.

S ə m ə n d ə r (*Atakişiyə*). Durma, sən də get daşı, boş durmaq olmaz!

Səməndər Tellinin yanına gedib, onunla yavaşdan söhbət edir. A n a x a n ı m eyvanda görünür. E l o ğ l u dalında çuval gəlir.

A n a x a n ı m. Can, yetim bala! Canın bu ağır yüklər altında çıxacaq. Uşağın dərdi kişinin ölümünü də yadımdan çıxardıb.

B a l a o ğ l a n (*qaçaraq*). Dur, sən tək apara bilməzsən, bir ucundan sən tut, bir ucundan mən.

A n a x a n ı m. Sən ki yetimə kömək olursan, allah sənə kömək olsun, oğul!

Atakişi dalında çuval gəlir.

S ə m ə n d ə r. Ay arvad! Durma, tez aşağı en, inəkləri sağ, süd bişir, qaymağını tut, qatıq qoy, nəhrə çalxa! Günorta süfrəsinə tez yağ hazırla!

A n a x a n ı m. Ay bala! Mənim burda işlərim tökülüb qalıbdır.

S ə m ə n d ə r. Tez ol, vınqıldama! Bunlar sənin işindir. Tez, tez!

A n a x a n ı m. Qoy işlərimi qurtarım.

M ə r c a n x a n ı m (*Anaxanıma*). Yenə eyvandan aşağı nə hökün kəsirsən?

A n a x a n ı m. Hökün kəsmirəm, mənə deyir, en aşağı, inəkləri sağ, süd bişir...

M ə r c a n x a n ı m. Bəs necə, yoxsa elə bilirsən, sən bura xanımlığa gəlmisən?

A n a x a n ı m. Xanımlığa gəlməmişəm. Ancaq mənim də bir canım var. Deyirəm qoy işlərimi qurtarım, gəlim. Elə bağırır ki, tez ol, en aşağı!

M ə r c a n x a n ı m. Sən iş görmürsən vaxt keçirirsən.

A n a x a n ı m. Bəs bu işləri kim görür?

M ə r c a n x a n ı m. Belə başlasan, səni də kişinin yanına göndərərəm.

S ə m ə n d ə r (*Balaoğlana*). A gədə, sənin öz işin yoxdur? Qoy yetimin arxasına, özü aparar.

B a l a o ğ l a n. Apara bilməz!

M ə r c a n x a n ı m. Ana–balanın canı mumdan yaranmış.

S ə m ə n d ə r. Sən tez öz işinə get, qorxma, əriməz. Yetimin canı bərk olar, sən get atların altını təmizlə, qaşovla, arpa-saman ver!

T e l l i (*Anaxanıma*). Ay arvad, başımı yuyuram, gəl su tök!

M ə r c a n x a n ı m. Qollarını sallayıb nə durmusan? Tez ol çobanlara çörək bişir, gədə aparsın!

Gedirlər, Atakişi ilə Eloğlu həyətdə durmuşlar.

E l o ğ l u. Uf... Yazıq anam!

A t a k i ş i. Doğ ey günəş, çəkil ey duman! Üç aydır bu qapıda olursan, bir dəfə də üzün gülməyib.

E l o ğ l u. Mənim üzüm hələ gülməz.

A t a k i ş i. Nə qədər bu qapıdayıq, bizim üzümüz gülməyəcək!

Z ü m r ü d (*daxil olur*). Ata! Ata!

A t a k i ş i. Can, qızım, gəl yanıma! (*Qız sakitcə atasının yanında oturur)* Bax, bu qız üzügülər, oynaq, çiçək kimi bir qız idi. Üç il bundan əvvəl xan həyətdə adam döydürürdü, atan kimi o da matraq altında öldü. Qız onu görəndən xəstədir.

E l o ğ l u. Yazıq qız.

A t a k i ş i. Sən bunu gərək o zaman görəydin. Açılmamış təzə bir qönçə kimi idi. (*Balaoğlan əli qoltuğunda gəlir)* Sən niyə əlləri qoltuğunda gəzirsən, yeddi qıznan bir dərədə qalmamısan ki?

B a l a o ğ l a n. Başına dönüm, əmi, mənə bir çarə!

A t a k i ş i. Nə var? Nə olmuş?

B a l a o ğ l a n. Dərdim böyükdür. Bilirəm, bu gün mən də matraq altında öləcəyəm.

E l o ğ l u. Arvad kimi ufuldama, sözünü de!

B a l a o ğ l a n. At naxoşlayıb. Çər dəymiş, eşşək kimi yerə sərilib ağnayır, nə yeyir, nə içir. Görünür bərk naxoşdur.

A t a k i ş i. Bu çər dəymişə nə olub?

B a l a o ğ l a n. Bilmirəm əmi! Nə qədər çalışıram yerindən qalxmayır. Xana nə cavab verəcəyəm? Zalım oğlu bilsə. dərimə saman təpəcək.

E l o ğ l u. Atdır, naxoşlamış, buna sən neyləyəsən?!

B a l o ğ l a n. Bunu sən deyirsən. O zalıma söz qandırmaq olmayır. Elə deyəcək, sən naxoşlatmısan. Bir də gördün gözləri qızardı, di gəl qabağında dur görüm necə duracaqsan. Ölüncəyə qədər döydürəcək.

E l o ğ l u. Deməm, sənin də ömrünə az qalıb. Vaxt ikən başına çarə qıl.

B a l a o ğ l a n. Nə çarə?

E l o ğ l u. Çobanların yanına qaç, onlar səni saxlar.

B a l a o ğ l a n. Yox, bu bir çarə deyil, mənə bir tədbir tökün!..

A t a k i ş i. Mənim ürəyim arxayındır, sənə heç bir şey olmayacaq.

E l o ğ l u. Nədən bilirsən?

A t a k i ş i. Bu qızdan, bu qanlı ocaqda qan olduğu gün qızın naxoşluğu başlayır. Qız bu gün çox sakitdir. Doğ ey günəş, çəkil ey duman!

X a n gəlir. Kənarda dayanır.

X a n. A gədə, Səməndər! Mehtərə de atları çəksin qapıya, kəndə gedəcəyik.

S ə m ə n d ə r. Baş üstə, xan!

B a l a o ğ l a n. Evim yıxıldı.

E l o ğ l u. Sənə qaç deyirəm, qaç çobanların yanına!

S ə m ə n d ə r. A gədə, Balaoğlan!

B a l a o ğ l a n. Nə deyirsən?

X a n. A gədə, atları qapıya çək!

B a l a o ğ l a n. Başına dönüm xan! At bir az xəstədir.

X a n. Necə? Heyvan oğlu heyvan, sənə hər gün deyirəm, ata yaxşı bax, qulağına girmir. O atın bir dırnağını yüz dənə sənin kimi tulaya dəyişmərəm, onun başından bir tük əksilə, başın bədənində qalmayacaq.

B a l a o ğ l a n. Neyləyim, xan. Baxmaq bundan artıq olmaz.

X a n. A gədə, Səməndər! Ata baş çək, gör necədir! (*Səməndər gedir*) Haram olsun sizə mənim çörəyim. Ürəyim heç sakit deyil. Deyəsən atın başında bir iş var. (*Xan özü də aşağı enərək, atı yoxlamağa gedir)* Ata bir şey olsa, diri-diri dərini başından soyacağam.

B a l a o ğ l a n (*tərəfə*). Yaman günlərim çatdı, mən neyləyim?

E l o ğ l u. Bura bax, gəl səni gizlədim.

B a l a o ğ l a n. Boş-boş danışma! Bu qurdlardan can qurtarmaq olar?

E l o ğ l u. Bura gəl! (*Qolundan tutub otağa çəkir. Böyük xalçanı açaraq)* Gir bunun içinə!

B a l a o ğ l a n. Bundan bir şey çıxmaz!

X a n (*uzaqdan*). Hanı o köpək oğlu?

E l o ğ l u. Sənə gir deyirəm!

Balaoğlanı xalçaya sarıyıb uzadır. Özü də, əlində bir daş qapının çıxmış mıxını düzəldir. X a n ilə S ə m ə n d ə r gəlirlər.

X a n. A gədə, hanı o köpək oğlu?

E l o ğ l u. Kimi soruşursunuz?

X a n. Mehtəri.

E l o ğ l u. Bilmirəm, xan! Bir az bundan əvvəl burda idi.

X a n (*Səməndərə*). O köpək oğlunu bu saat tapmalısan! (*Gedir)*

S ə m ə n d ə r. A gədə, yetim, bilmədin hara getdi?

E l o ğ l u. Yox, bilmədim.

S ə m ə n d ə r. Sən bir həyət-bacanı gəz. Mən onun dalınca gedirəm.

Gedir. Telli qapının ağzından içəri baxır.

T e l l i. A gədə, bu saat o mehtər səninlə danışırdı, necə getdi ki, sən görmədin?

E l o ğ l u. Mən ona keşikçi deyiləm ki... Görəsən hara qaçdı.

T e l l i. A yetim, burda sənin əlin var, de görüm onu harda gizlətdin?

E l o ğ l u. Mən nə bilim! Adam gizlədənəm?

T e l l i. Canın yansın, gör üstümə necə atılır!

E l o ğ l u. Canını da alaram. Əvvəl-axır sən mənim əlimdə öləcəksən.

T e l l i. Görürəm, səndən hər şey çıxar.

S ə m ə n d ə r gəlir.

S ə m ə n d ə r. Gədə tapılmadı?

T e l l i. Onu, bax, bu canı yanmış itir-batıra saldı. Bura gəl, bircə onun otağını axtar.

S ə m ə n d ə r. Elə yerlərə girməz.

T e l l i. Sənə deyirəm içəri bax!

S ə m ə n d ə r (*otağa gedir).* Ay qız, o buralarda nə gəzir.

E l o ğ l u. Ay-hay, tapdın ha!

X a n. A gedə, Səməndər!

S ə m ə n d ə r. Nə buyurursan, xan?

X a n. Mehtər tapılmadı?

S ə m ə n d ə r. Yox, başına dönüm, axtarıram.

X a n. Tapılmasa bu həyətdə bir divan quracağam ki, bütün dünya tamaşasına dursun.

S ə m ə n d ə r. Axtarıram, xan.

X a n. O tapılmalıdır... Yoxsa... Tez ol atı yoxla, gör necədir!

Gedirlər. Eloğlu palazı açır.

E l o ğ l u. Balaoğlan! Tez ol qaç! Çobanların yanına qaç!

B a l a o ğ l a n. Həyətdə görən olmasın, yaxşı bax!

E l o ğ l u. Qorxma, heç kim yoxdur.

Balaoğlanı qaçırtmaq istərkən Səməndərin səsi gəlir.

S ə m ə n d ə r. Bu it oğlu bizi işə saldı.

Telli otaqdan çıxıb Səməndərə tərəf yüyürür.

S ə m ə n d ə r. At öldü. İş fırıqdır. Tapılmasa, xan yaxamdan əl çəkməyəcək... Ancaq hələlik atın ölməsini xandan gizlətmək lazımdır.

T e l l i. Gəl bura, qorxma, gedəni tapmışam.

S ə m ə n d ə r. Hardadır?

Eloğlu onları qapıdan güdür

T e l l i. Böyük xalının içində. Sən gələn kimi mən otağa girib yetimi pusdum. Balaca bir deşik var, ordan baxırdım. Sən ki, otaqdan çıxdın, Eloğlu xalını açıb, gədəni qaçırtmaq istədi. Sonra sənin səsin gəlincə yenə xalının içinə büküb gizlətdi. Otağa girib tutmaq istədim, qorxdum əlimdən qaçsın. Bir də bilirsən, bu yetimdən mən necə qorxuram! Durma gəl, mehtəri diri tutub əlinə verim.

E l o ğ l u (*Balaoğlanı sandıqda gizlədir*). Balaoğlan, durma, gəl gir sandığa!

Onu gizlədir. Özü də bükülmüş xalının üstə uzanır.

T e l l i. A gədə, qalx xalının üstündən!

E l o ğ l u. Niyə qalxım, uzanmışam.

S ə m ə n d ə r (*əlindən tutaraq*). Sənə qalx deyirlər.

E l o ğ l u. Qalx deyirsən, qalxaram. Ancaq nə üçün? Nə səbəbə? (*Qalxır)*

T e l l i. Sən bilmirsən bu necə üzlü yetimdir. Qaya kimi, nə deyirsən, cavab verir. Aç xalını!

E l o ğ l u. Ona mənim gücüm çatmaz.

S ə m ə n d ə r. Görürəm sənin gözlərindən qan damır. Başını tez batırmaq gərəkdir.

E l o ğ l u. Sən ağılda adamlar mənim başımı batıra bilməz. Bilirəm, Balaoğlanı gəzirsən. Onun ağlı var, xalı içində gizlənməz!

Xalını açırlar. Xalı boşdur.

S ə m ə n d ə r. Yox, bir şey yoxdur...

T e l l i. Vay, canın yansın, gedə, bu it oğlunu sən xalıdan çıxarıb yenə xalıya bükəndə öz gözümlə gördüm. Bu nə oldu, yerəmi batdı, göyəmi çıxdı?

E l o ğ l u. Sənin yalançı gözün var, bundan sonra ona inanma.

T e l l i. Görürsən bu yetimi?

S ə m ə n d ə r. Onun əcəli çatmış, a gədə, çıx buradan!

Eloğlu ona qəzəbli baxışlarla baxır.

T e l l i. Mən bu gədədən qorxuram. Xəlvətdə əlinə düşsək, bizi boğar. Sən də özünü ondan qoru.

X a n gəlir.

X a n. A gədə, Səməndər!

S ə m ə n d ə r. Bəli, başına dönüm, nə buyurursan?

X a n. At necədir?

S ə m ə n d ə r. İndi bir az rahatdır.

X a n. Gədədən nə xəbər?

S ə m ə n d ər. Xan, dünyanı əldən salmışam, tapılmır.

X a n. Eşşək oğlu eşşək, necə tapılmır? Bu gün o tapılmalıdır!

S ə m ə n d ə r Axtarıram, xan!

X a n. Ata yenə baş çək, gör necədir?

Xan gedir.

E l o ğ l u (*divarın deşiklərini bir-bir gözdən keçirir*). Bu it qızı bizi görür, çarə yoxdur, qaçırmaq lazımdır. (*Sandığın ağzını açır)*

Baloğlan, durma, tez qaç!

B a l a o ğ l a n. Qorxuram, həyətdə görərlər.

E l o ğ l u. Həyətdə heç kim yoxdur. Sənə qaç deyirəm. Birbaş çobanların yanına!

Balaoğlan qaçmaq istərkən Səməndərin səsi gəlir.

S ə m ə n d ə r. Telli, Telli, bura gəl!

T e l l i (*Səməndərə tərəf qaçır*). Durma, tapmışam.

S ə m ə n d ə r. Eh... sən də bu yalanı-palanı burax!

T e l l i (*əli ilə anladır*). Sən gedən kimi sandığın ağzını açdı. Gədəni çıxartdı. qaçırtmaq istərkən yenə sandıqda gizlətdi. Sən bircə gəl!

S ə m ə n d ə r. Telli, yetim demişkən, daha sənin gözlərinə inanmıram. Başına çarə et!

T e l l i. Nə çarə?

S ə m ə n d ə r. Mehtər tapılmasa, onun acığını xan məndən alacaq, qaçmaqdan başqa çarə yoxdur.

T e l l i. Hara? A kişi, dəli olmamısan ki? Sənə adam kimi söz deyirəm, sən bircə gəl!

Eloğlu qapıdan onların danışığını eşidir, rəfdən başı kəsik böyük qabağı götürüb, Balaoğlanın başına taxır.

E l o ğ l u. Balaoğlan, başqa çarə yoxdur, tez ol gir hovuzun içinə! Tərpənmə!

Onu həyətdəki hovuzun içinə soxur, Səməndər ilə Telli gəlir.

T e l l i. Bircə bu sandığı aç!

S ə m ə n d ə r (*sandığın içinə baxır*). Sənə dedim ki, gözlərin səni aldadır.

T e l l i (*xalçanın da içinə baxır*). Bəs bu it oğlu hanı? Öz gözümlə gördüm.

E l o ğ l u. Sənin nə gözünə inanmaq olar, nə də sözünə. Kişini uşaq kimi ələ salıb oynadırsan.

S ə m ə n d ə r. Mən getdim, başına çarə qıl!

T e l l i. Qoymaram, özümü öldürərəm, əvvəl-axır gedəni tapacağam. Özünü dağa-daşa salma.

S ə m ə n d ə r. Sən tapınca xan da mənimkini mənə verər.

T e l l i. Qorxma, mən onu tapacağam.

X a n. A gedə, S ə m ə n d ə r!

S ə m ə n d ə r. Bəli, xan, nə buyurursan?

X a n. At necədir?

S ə m ə n d ə r. Bir az rahatdır, daha ağnamır, Allah ona verən bəlanı mənim canıma versin. Bircə arxayın ol!

X a n. Gedədən nə xəbər?

S ə m ə n d ə r. Hələ ki, tapmamışam, izinə düşmüşəm, tapacağam.

X a n. Tapılmasa, vay halına, yaxşı axtar!

Ə k b ə r həyətə gəlir.

S ə m ə n d ə r. Yaxşı gəldin. Bura bax, xanın atı naxoşlayıb, mehtər də qorxusundan qaçıb gizlənib. Xan onu axtarır. Bu yetim yerini bilir. Gəl onu cəzaya tutub boynuna qoyaq.

Ə k b ə r. Bu nə çətin işdir. Yetimi yıx yerə, matrağı al əlinə beş-on matraq yeyəndən sonra yerini deyər.

S ə m ə n d ə r. Gəl bura, bu işi sənsiz edə bilmərəm. Zalım oğlunun gözlərindən qan damır.

Ə k b ə r. Yoxsa qorxursan?

S ə m ə n d ə r. Qorxmuram, ehtiyat edirəm. Qorxuram əlimdə ölsün.

Ə k b ə r (*Eloğluya*). Ey, mehtəri harda gizlətmisən?

E l o ğ l u. Heç bir yerdə.

S ə m ə n d ə r. Doğrusunu de!

T e l l i. Yalan deyir. Mehtəri bu gizlətmiş, yerini demir.

S ə m ə n d ə r (*Eloğlunun qolundan çəkərək*). Bura gəl!

E l o ğ l u (*qolunu dartaraq*). Gəlirəm, qolumu burax!

Ə k b ə r. Pəh, yarma da daşarmış!

E l o ğ l u. Yağlı eldən olanda daşar.

S ə m ə n d ə r. Çox danışma, mehtərin yerini göstər! (Matraq ilə vurur)

E l o ğ l u. Boş yerə mənə dolaşmayın, mən heç nə bilmirəm. (*Matrağı dartıb Əkbərin əlindən alır)*

Ə k b ə r. Səməndər! Sən o yandan, mən bu yandan, tut bu yetimi! (*Eloğlu əlindəki matraq ilə onların baş-gözünü əzir, nəhayət, onu tuturlar)* Çək, çək, ağaca bağlayaq!

E l o ğ l u (*dartınır*). Buraxın! Alçaqlar!..

S ə m ə n d ə r. Əlimizdən qurtarmazsan. Telli, telli, kəndiri gətir, qollarını bağla!

Əkbər ilə Səməndər Eloğlunu tuturlar. Telli onun əllərini bağlayır.

E l o ğ l u. Məndən ən istəyirsiniz? Mən adam gizlədənəm?

Ə k b ə r (*matraq ilə vurur*). Mehtərin yerini söylə!

E l o ğ l u. Vicdansızlar! Siz məndən nə istəyirsiz? Bilmirəm deyirəm.

S ə m ə n d ə r (*vurur*). Mehtərin yerini göstər!

T e l l i. A yetim, de canın qurtarsın.

A n a x a n ı m (*eyvandan görüb qışqıra-qışqıra aşağı qaçır*). Balamı nə üçün döyürsünüz? Yiyəsizdir, atasızdır. Buraxın oğlumu!..

S ə m ə n d ə r (*matraq ilə vurur*). Di tez ol, göstər yerini!

E l o ğ l u (*anasına*). Mən bilmirəm.

A n a x a n ı m. O yiyəsizdir? Özümü öldürərəm. Buraxın balamı!

Ə k b ə r. Bunun xəbəri yoxdur olsa deyərdi. Sonra qana düşərik.

Eloğlunun qolunu açır. Anaxanım oğluna sarılıb ağlayır.

E l o ğ l u. Ağlama! Namərd qabağında kişi qızı ağlamaz!

Ə k b ə r. Səməndər, mən getdim, işim var.

Gedir. X a n gəlir.

X a n. A gedə, Səməndər! At necədir?

S ə m ə n d ə r. İndi bir az yaxşıdır, xan! Rahatlanır.

X a n, Gedə tapılmadı?

S ə m ə n d ə r. Görünür bağdadır. İndi Əkbər ilə bağı axtaracağıq.

X a n. Tapılmasa, səhərə salamat qalmayacaqsan. (*Gedir)*

T e l l i. Doğrudan, bağa yaxşı baxmısanmı?

S ə m ə n d ə r. Ötəri baxmışam.

T e l l i. Yetim gedəni ora qaçırmış olacaq. Sən get bağı axtar, mən də burda göz-qulağam, tez, qorxuram.

Səməndər gedir. Telli eloğlunu güdür. Eloğlu hovuza yanaşır qabağı götürüb Balaoğlanı qaçırmaq istərkən Tellini görür.

E l o ğ l u. Vay, bu küpəgirən yenə gördü. Başqa çarəm qalmadı. (*Qabağı yenə Balaoğlanın başına qoyur və qayıdır)*

A t a k i ş i. Sağ ol, Eloğlu! Elin mərd oğlusan, sağ ol!

E l o ğ l u. Dünyada, mərdlik qalacaq!

Telli qapıya tərəf gedir. Eloğlu Balaoğlanı hovuzdan çıxarıb paltarını qurulamaq üçün onu otağa salır.

A t a k i ş i. Vay, Balaoğlan, sən buradasan?

E l o ğ l u. Sus, əmi! Balaoğlan, o Telli kəsmiş səni yenə gördü, axırıncı bir tədbirim var (*Köhnə böyük bir zənbilə kəndir bağlayır. Bir ucunu ağaca bağlayır. Balaoğlanı zənbilin içində oturdur. Atakişiyə*) Əmi, gəl kömək elə, bunu çəkək yuxarı!

A t a k i ş i. Vay səni, Eloğlu! Aslansan, aslan! (*Zənbili yuxarı çəkirlər)* Balaoğlanı burda tapsalar, üçümüz də fələyin xərcinə gedərik. Bunu bilirsənmi?

E l o ğ l u. Bilirəm. Qul kimi yaşamaqdansa, mərd kimi ölmək yaxşıdır.

T e l l i ilə S ə m ə n d ə r gəlir.

T e l l i. Gəl bura, mehtəri diri tutub verim əlinə, bax gör, bu kimin ağlına gələr. (*Qabağı götürür)* Vay, şeytan oğlu şeytan, yenə gözdən itdi.

Eloğlunun qapısına tərəf gəlirlər. Eloğlu görür ki, Balaoğlanın ayağı zənbilin deşiyindən görünür. Tez bir palaz götürüb zənbilin altına salır. Sonra Səməndərə yanaşır.

E l o ğ l u. A kişi, bu arvadın sözünə inanma! Bir gəl, əhvalatı sənə danışım.

S ə m ə n d ə r. Nə deyirsən, yetim?!

E l o ğ l u. Adam atadan yetim olmaz, ağıldan yetim olar. Gəl, burda otur. Əhvalatı sənə başa salım. (*Səməndəri zənbilin altına saldığı palaz üstündə oturdur. Telliyə)* Telli, gəl, səndə otur!

T e l l i. Mən burdan baxıram.

E l o ğ l u. İndi qulaq asın! Biz, uşaqlıqda itirdiyimiz şeyi tapmaq üçün həmişə bir şer oxuyardıq. İndi həmin şeri oxuyum, o saat Balaoğlanı tapacaqsınız. Bir qulaq asın! (*Əllərini sözlərin ahənginə uyğun şəkildə oynada-oynada)*

Bostan kəlikdir, ay bala,
Quzun əmlikdir, ay bala,
Ayağını çək yuxarı,
Zənbil dəlikdir, ay bala!

T e l l i. Bu nə sözdür, uşaqda bir hiyləyə bax!

S ə m ə n d ə r (*əlini havada oynadaraq*). Pəh-pəh, söz danışdı, ləzzət apardıq! Bəs hanı? Sən bizə mehtərin yerini göstər!

Balaoğlan zənbilin deşiyindən ayağını yuxarı çəkmək istərkən kəndir qırılır, tappıltı ilə Səməndərin üstünə düşür. Eloğlu qışqırır.

E l o ğ l u. Vay, zəlzələ!.. Köməyə gəlin, zəlzələ!..

Palazı tez Səməndərin üstünə çəkir. Telli qorxudan qaçır.
Eloğlu Balaoğlanı qapıdan qaçırır.

S ə m ə n d ə r. Vay, vay, belim sındı!

E l o ğ l u. Dinmə, zəlzələdən yaxşı qurtardın.

A t a k i ş i. Yer bircə dəfə ayağımızın altından getdi. Bir də getsəydi, dağı dağ üstə qoymazdı.

E l o ğ l u. Çox şükür, yaxşı qurtardıq, əmi!

S ə m ə n d ə r (*ufuldaya-ufuldaya ayağa qalxır*). A yetim, hayıfını yaxşı aldın, de görüm zənbilin içindəki daş idi, nə idi? Belimdə tutar qoymadı. Vay!.. (*Belini əlləri ilə tutur)*

E l o ğ l u. Daş nədir, a kişi, paltarımı asmışdım.

S ə m ə n d ə r (*belini çəkərək, acıqlı Eloğluya baxır və qapıdan çıxarkən*). Telli, mən getdim. Sağ ol! Sən də başına bir çarə qıl. (*Gedir)*

T e l l i (*ağlaya-ağlaya Səməndərin dalınca qaçaraq*). Hara gedirsən? Qoymaram!

A t a k i ş i (*Eloğlunun alnından öpərək*). Sağ ol! Ağıllı bala, sağ ol! (*Bir əli ilə Eloğlunu qucaqladığı halda, o biri əlini havada oynadaraq)* Doğ ey günəş, çəkil ey duman!

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

Səhnə kiçik dağ ətəyini təsvir edir. Orta tərəf qamışlıqdır. Sol tərəfdə köhnə daxma, yaxında dərə vardır. Yağış yağır, E l o ğ l u paltarını soyunub altına qoymuşdur. Çobanlara apardığı xurcun içindəki çörəyi də yaş olmasın deyə, altında gizlədib. Göyə baxır.

E l o ğ l u. Sus, ey üstümdə alovlu ilan kimi oynayan şimşək! Sus, ey lovğalanıb guruldayan ildırım! Sizdəki o qüvvə, o alov məndə olsaydı, başqa cür guruldar, başqa cür alovlanardım. (*Düşünür)* Uf, ana, ana! Yazıq ana, səni bu zalımların zülmündən qurtardığım günü görsəydim, heç ölməzdim. (*Yağış kəsir. Eloğlu paltarını geyir. Getmək istərkən qarşısına qoca qarı çıxır)* Xoş gördük, nənə!

Q a r ı. Xoş günün olsun, oğlum! (*Əlini ona uzadaraq)* Acam, çörəyin varmı?

E l o ğ l u (*çuvaldan bağlı bir dəsmal çıxarır, dəsmalı açıb içindəki çörəyi qarıya verir*). Nənə, bu çörək öz payımdır, al ye!

Q a r ı. Sağ ol, oğlum! Görürəm çox insaflı oğlansan. Hara gedirsən?

E l o ğ l u. Çobanlara çörək aparıram.

Q a r ı (*ona diqqətlə baxır*). Ay oğul! Üst-başını qurudur, bu yağış səni tutmadımı?

E l o ğ l u. Tutdu, nənə, tutdu.

Q a r ı. Bəs necə oldu ki, islatmadı?

E l o ğ l u. O məni islada bilmədi.

Q a r ı. Neylədin ki, islada bilmədi?

E l o ğ l u. Bu sirdir, deməręm.

Q a r ı. Deyərsən, oğlum. Bax, bu ağacı sənə verərəm, onda deyərsən.

E l o ğ l u. Eh, o ağacı neyləyirəm, meşələr dolu ağacdır.

Q a r ı. Oğul! Bu o ağaclardan deyil. Bu da sirli ağacdır. Hər kimə vurub, yapış desən, yapışar, açıl desən, açılar.

E l o ğ l u. Aha!.. elədir. Onda yaxşı ağacdır, ver, sirrimi sənə söyləyim.

Q a r ı. Al, oğul, söylə.

E l o ğ l u. Nənə, bu qədər çətin iş deyil. Gördüm yağış yağır, tez paltarımı soyundum, üstünə bir daş qoyub oturdum. Yağış kəsəndən sonra geyindim.

Q a r ı. Ağıl yaşda deyil, başdadır. Sən bunu kiçik şeymi bilirsən? Bunu hər kəs düşünə bilmir. Görürəm ağıllı oğlansan, oğlum, ağacı yaxşı saxla. Onu mən sənə verməyə gətirmişdim. Xalqımın biliyidir. Onun ilə vətənini, xalqını qoru!

E l o ğ l u. Sən kimsən, ay nənə?

Q a r ı. Bilirsən, oğul, tələsmə! Hələlik sağ ol.

E l o ğ l u. Sağ ol, nənə can. (*Qarının arxasınca baxır)*

E l o ğ l u. Sən bu kiçik ağacda hünərə bax: yapış deyirsən, yapışır, açıl deyirsən, açılır. (*Çuxurda bir qamış görür)* Ay, nə yaxşı qamışdır!

Q a r ı (*ona tərəf dönərək*). Oğlum, o qamışı kəs, tütək qayır.

E l o ğ l u (*qamışı kəsir*). Nənə can, sən bu kənddə yaşayırsan?

Q a r ı. Yox, oğlum, bu kənddə yaşamıram. Bütün bu yerlər mənim məskənimdir. Nə gözəl tütək qayırdın, bir çal görüm!

Eloğlu tütəyi çalır, tütək bu sözləri oxuyur: Sən ey məni çalan oğlan,

Ey igid, qəhrəman oğlan,
Bu səs elin gur səsidir,
Dağlar yıxan qüvvəsidir.

Durma, xalqın gücünü al!
Get, düşməndən özünü al!
Qoru bu əziz ölkəni,
Qoru xalqı, həm vətənini!

E l o ğ l u (*heyrətlə*). Vay, nənə can! Bu tütək insan kimi danışır.

Q a r ı. Oğlum! O səs bu odlu köksümdə bəslədiyim xalqın səsidir, səni köməyə çağırır.

E l o ğ l u. Məni köməyə çağırır... Mənim yüz canım olsa, xalqımın, vətənimin yolunda qurban verməyə hazıram.

Q a r ı. Belə oğul olduğun üçündür ki, xalq əvvəlcə sənə öz biliyini verdi. İndi də o öz sarsılmaz qüvvətini sənə tapşırır. Qorxma, xalqın qüvvəti yenilməzdir. Dağlara qarşı dursan, parçalar. Ah... demək, mənim də bəxtiyarlıq günlərim yetişdi. Daha köksümdə sevə-sevə bəslədiyim bu xalqın ah-naləsini deyil, şən səsini, sürəkli qəhqəhəsini eşidəcəyəm.

E l o ğ l u (*qollarını açaraq*). Ey bizi qoynunda bəsləyən böyük ana! Ey sevimli, əziz vətən, bu sənsən? (*Qucaqlayır)*

Q a r ı. Mənəm, oğlum, mənəm, ağıllı və namuslu oğullarımla iftixar edirəm. Get xalqını, Vətənini Rüstəm xanın pəncəsindən qurtar! Elsiz iş görmə! Bir əldən səs çıxmaz! Xalqı köməyə çağırmaq istədiyin zaman tütəyi göyə tərəf tut. O zaman səsi hər tərəfə yayılacaq. Bütün el axışıb köməyə gələcək.

E l o ğ l u. Gözəl Vətən! Əziz, sevimli ana! Xalqımın biliyi ilə, xalqımın qüvvəti ilə gedirəm. Gedirəm səni qorumağa. Mənə xeyir-dua ver!

Q a r ı. Get, oğlum, get! Uğurlu olsun səfərin! Yoluna günəş doğsun, çiçəklər səpilsin!

Eloğlu qarının əlini əlləri içində sıxaraq öpdükdən sonra yavaş-yavaş geri çəkilir, hər ikisi bir-birinə baxa-baxa ayrılırlar. Əkbər yoxsul bir qadının oğlağını qucağına alıb aparır. Zəhra bir ətəyindən, oğlu o biri ətəyində tutub dartırlar.

O ğ l a n. Oğlağımı ver, oğlağımı ver... (*Ağlayır)*

Z ə h r a. Bura ver uşağın oğlağını! Yetimin göz yaşını axıtma!

Ə k b ə r. Çəkil, arvad! Bir təpik ilişdirərəm canın çıxar. Bəs xana toy payı verməyəcəksən?

Z ə h r a. Ay kişi, toy payı verməyə mənim nəyim var? Bir oğlağdır, o da uşağındır. Gününü həyətdə onunla keçirir. Gəl insaf et, bu yetimi gözüyaşlı qoyma!

Ə k b ə r. Çəkil deyirəm, yoxsa!..

O ğ l a n. Bura ver oğlağımı!

Ağlayır. E l o ğ l u Əkbərə yaxınlaşır.

E l o ğ l u. Bu oğlağı hara aparırsan?

Ə k b ə r. Oho, bunun bir azğınlığına bax! Üstümə necə bağırır! Bu oğlaq olmasaydı, səninkini sənə verərdim.

E l o ğ l u. Uşağı ağlatma, oğlağı ver!

Ə k b ə r. Əl çək, yetim, yoxsa canın əlimdə çıxar.

Z ə h r a. Başına dönüm, ay oğul! Xan toy eləyir, mənə nə! Mənim nəyim var ki, xana toy xərci verim? Bu oğlaq da uşağındır. Onu canından artıq sevir.

Ə k b ə r. Məndən kimə şikayət edirsən? O da xanın qapısında nökərdir.

E l o ğ l u. Xanın nökəri sənin kimi namussuzlardır. Mən xalqımın nökəriyəm. Bura ver oğlağı!

Bərk çəkir, oğlağı oğlana tərəf atır. Oğlan oğlağı götürüb qaçır.

Ə k b ə r. A yetim, indi o qədər böyüdün ki, əlimdən oğlaq alırsan?

E l o ğ l u. Canını da alaram! Camaata dolaşma!

Ə k b ə r (*ona hücum edir*). Sərçə kimi boğazını üzüb ataram.

E l o ğ l u. Al, alçaq (*Bir sillə vurur. Əkbər dərəyə yıxılır)* Sənin kimi xainlərin cəzası budur.

Z ə h r a. Başına dönüm, ay oğul! Sən neylədin? Öldümü?

E l o ğ l u. Atası da yandı.

Zəhra (*heyrətlə*). Dağ kimi kişi bir yumruqla yerə yıxıldı. Səni doğan anaya qurban olum! Nə qeyrətli, güclü oğlansan! Xan bilsə, işimiz nə olar?

E l o ğ l u. Qorxma, heç bir şey olmaz!

Z ə h r a. Nə bilim. Başına dönüm, ay oğul! Uşaq olsan da, görürəm igidsən, pəhlivansan. Ancaq gedib xana xəbər versə, bizim lap axırımıza çıxar.

E l o ğ l u. Xala can! Otur yanımda! Qorxma, bundan sonra sənə heç kəs əl uzada bilməz!

O ğ l a n (*keçisi ilə gəlir. İpindən tutub, oynada-oynada oxuyur*):

Keçim, keçim, şən keçim,
Atlanıb düşən keçim.
Böyü, oğlaq doğ bizə,
Südündən ver mən içim.

E l o ğ l u. Sağ ol, sağ ol! Bu sözləri kimdən öyrənmisən.

O ğ l a n. Heç kimdən, özüm qoşmuşam.

E l o ğ l u. Afərin, yaxşı qoşmusan.

Z ə h r a. Bax, sən də bunun kimi qoçaq ol. Dadına çatmasaydı, oğlaq getmişdi.

O ğ l a n. Hə, getmişdi, heç verərdimmi?

Z ə h r a. Neylərdin? Gücün çatmazdı.

O ğ l a n. Sən də mənə kömək etsəydin, gücüm çatardı.

A t a k i ş i (*gəlir*). Xoş gördük, oğul!

Z ə h r a. Ayaqlarına qurban olum, nə yaxşı ki, dadıma çatdı. Yoxsa uşağın oğlağını xana toy payı aparırdılar.

A t a k i ş i. Kim?

Z ə h r a. O ilan vurmuş Əkbər. Bu oğlan dadımıza çatdı. Uşağın keçisini alıb özünə verdi.

A t a k i ş i. Bəs Əkbər nə oldu?

Z ə h r a. Dinmə, heç kim bilməsin. Bu oğlan onu bircə yumruq ilə vurub dərəyə saldı. Başına dönüm, meyidi buradan uzaqlaşdırın. Xan bilsə, ətimizi şişə çəkər.

A t a k i ş i. Qorxma heç bir şey olmaz! Bu mərd oğul səni saxlar.

Z ə h r a. Allah köməyi olsun, sən onu hardan tanıyırsan?

A t a k i ş i. Necə hardan tanıyırsan. Onu eldə tanımayan adam yoxdur.

E l o ğ l u. Hələ bir qulaq asın görün bu tütək nə deyir (*tütəyi çalır*):

Sən ey məni çalan oğlan!
Ey igid, qəhrəman oğlan!
Bu səs elin gur səsidir,
Dağlar yıxan qüvvəsidir.

Durma, xalqın gücünü al!
Get düşməndən özünü al!
Qoru bu əziz ölkəni,
Qoru xalqı, həm vətənini!

Z ə h r a. Ay oğlan! Bu nə qəribə tütəkdir. İnsan kimi danışır. Bu kimin səsidir?

A t a k i ş i. Bu sözlər kimindir?

E l o ğ l u. Bu tütək bizi Rüstəm xan il vuruşa çağırır. Xanın axır günləri gəlib çatmışdır.

Z ə h r a. Dilinə qurban olum! O günləri görəcəyikmi.

E l o ğ l u. Görəcəyik, xala, görəcəyik!

A t a k i ş i. Oğlum, bizi bu qəribə işlərdən agah et! Hələ bu tütəyi sənə kim verdi?

E l o ğ l u. Bax, bu çuxurda bitmiş qamışdan kəsib qayırdım. Çalmaq istərkən böyük anam xeyir-dua verdi, tütək dilə gəldi.

A t a k i ş i. Böyük anan kimdir?

E l o ğ l u. Bu ucsuz-bucaqsız Vətənim! O mənə gözəl bir qadın simasında göründü. – Oğul, tütəyi çal, – dedi. Mən çaldım. Əlimi əllərinin içinə alıb dedi: – Oğlum, sənə verdiyim bu ağac. (*Ağacı göstərir*) xalqın biliyidir. Bu tütək isə xalqın səsi, xalqın sarsılmaz qüvvətidir. Bununla xalqını, Vətənini düşməndən qoruyacaqsan.

A t a k i ş i. Doğ ey günəş, çəkil ey duman! Demək bəxtiyarlıq günlərimiz yaxınlaşır.

E l o ğ l u. Yaxınlaşır, əmi, yaxınlaşır!

Z ə h r a. Nə bilim, ay bala, görəsən o günü görəcəyikmi?

A t a k i ş i (*Eloğlunu qucaqlayıb bir az ona heyrətlə baxdıqdan sonra*). Eloğlu, sən ki, bizi bu qədər sevindirdin, mən də səni sevindirmək istəyirəm. İndi səni işdən agah etmək olar.

E l o ğ l u. Necə, əmi, nə var ki?

A t a k i ş i. Atandan xəbərin varmı?

E l o ğ l u. Bu nə sözdür? Atamın ölüsünü həyətdən sən özün götürüb aparmadınmı?

A t a k i ş i. Doğrudur, mən apardım. Mən nə üçün apardım, bilirsənmi? Kişinin ölüsünü sallaqxana köpəklərinin əlindən almaq, onu bir insan kimi basdırmaq üçün.

E l o ğ l u. Əmican, tez söylə, sən sözlü adama oxşayırsan!

A t a k i ş i. Ölünü min bir fənd ilə onların əlindən aldım. Dalımda oradan birbaş bura gətirdim. (*Əli ilə Zəhranın evini göstərir*)

Z ə h r a. Vay, bu oğlan yoxsa o kişinin oğludur?

A t a k i ş i. Dayan!

E l o ğ l u. Hə, hə, söylə, sonra?

A t a k i ş i. Onu dəfn etmək istərkən, birdən gözüm cənazəyə sataşdı. Kişinin əli tərpənirdi.

E l o ğ l u. Tərpənirdi? Bəs sonra?

Z ə h r a. Ay bala, biz onun üstündə nə zəhmətlər çəkdik. Halal xoşun olsun.

A t a k i ş i. Sonra kişi yavaş-yavaş özünə gəldi.

E l o ğ l u. Demək atam sağdır. Bəs hanı o?!

Z ə h r a. Oğlum, tez təpitmə qayırdım. Canına çəkdim. Kişi gözlərini açdı. Bir mənə baxdı, bir də Atakişiyə, o bizi yaxşı tanımadı.

A t a k i ş i. Yavaşca üç dəfə : – Eloğlu! – deyə səsləndi.

E l o ğ l u. Yazıq atam! Sonra?

A t a k i ş i. Bir həftə ona bu evdə müalicə etdik. Yazığın bədəni tuluğ kimi idi.

E l o ğ l u. Ah, yazıq atam! Sonra? De görüm sağdırmı?

A t a k i ş i. Arxayın ol, lap dəmir kimidir.

E l o ğ l u. Nə böyük bəxtiyarlıq! Əmi can, səni min yaşa! Durma, məni atamın yanına apar!

A t a k i ş i. Sən onu hələ görə bilməyəcəksən.

E l o ğ l u. Nə üçün?

A t a k i ş i. Çünki o indi burda deyil, onu çobanlarla dağa göndərdim.

E l o ğ l u (*qolları yanına düşür*). Dağa göndərdin?

Z ə h r a. Xanın qorxusundan qaçırtdıq, oğlum.

E l o ğ l u. Bəs mən onu nə zaman görəcəyəm?

A t a k i ş i. Elin azadlıq bayramında.

E l o ğ l u. Demək, azad könlümüzün çalxalandığı, coşğun sevinc ilə dalğalandığı gündə. Buna razıyam. (*Atakişinin əlini tutur)*

A t a k i ş i. Doğ ey günəş, çəkil ey duman!

Əlləri ilə dumanlara işarə edir. Q ə h r ə m a n ilə B a l a ğ o ğ l a n gəlir.

B a l a o ğ l a n. Eloğlu, yoxsa sən də zəlzələdən qaçmısan?

E l o ğ l u. Yox, mən qaçmamışam, sizə çörək gətirmişəm. Qaçan Səməndərdir.

B a l a o ğ l a n. Səməndər? O niyə qaçdı?

E l o ğ l u. Xanın qorxusundan, Balaoğlanı tapmasan, səni sağ qoymayacağam, deyirdi.

B a l a o ğ l a n. Səndə yaxşı xəbərlər var. Bəs Telli nə oldu?

E l o ğ l u. Nə olacaq, baş-gözünə vurub ağlayır.

B a l a o ğ l a n. Atdan nə xəbər?

E l o ğ l u. At öldü, xan yas içindədir.

Q ə h r ə m a n. Heç yasdan çıxmasın.

B a l a o ğ l a n. Bircə Səməndərdən danış! Mən qaçandan sonra nə oldu?

E l o ğ l u. Sən ki yuxarıdan şappıltı ilə düşdün başıma, mən tez palazı onun üstünə çəkib çığırdım: Vay, zəlzələ oldu, vay zəlzələ oldu!.. O, qorxudan dovşan kimi qısılıb qaldı. Sən qaçdın. Hərif ufuldaya-ufuldaya palazın altından çıxdı. İki əli ilə belini tutub, acıqlı-acıqlı üzümə baxdı: – Adə, yetim de görüm zənbilin içinə qoyduğun daş idi, nə idi? Belimi sındırdın. Mən ona dedim: daş nədir paltarımı qoymuşdum. O bir də üzümə acıqlı baxıb: – Yaxşı hayıf aldın, yetim, səninlə sonra görüşərik. Bunu deyib baş götürdü, qaçdı. Telli arxasınca ha qışqırdı, ha bağırdı, cavab vermədi.

Q ə h r ə m a n. Demək Səməndər də belə getdi. Sən bunun boyuna bax, tutduğu işlərə bax! Bu tədbirlər sənin ağlına hardan gəldi?

E l o ğ l u. Ehtiyac insana hər şeyi öyrədər.

Q ə h r ə m a n. Hovuzun içində başına qabaq keçirib gizlətmək kimin ağlına gələr? Balaoğlan bizə söylədikcə, gülməkdən qarnımız ağrayıb.

A t a k i ş i. Hələ yavaşın, Eloğlunun hünərlərini bundan sonra görəcəksiniz.

Uzaqda itlər hürüşür, bir p ə l ə n g çobanlara tərəf gəlir. Qəhrəman, Balaoğlan həyəcan içində.

B a l a o ğ l a n. Pələng birbaş üstümüzə gəlir.

Q ə h r ə m a n. Tez, tez çomaqları götürün!

B a l a o ğ l a n. Hamımız birdən hücum edək!

E l o ğ l u. Dayanın, nənəm bu işləri mənə tapşırıb, özüm ona cəza verəcəyəm. Siz çəkilin!

Q ə h r ə m a n. Yox! Eloğlu, bu zəlzələ oyunu deyil, əlindən gəlsin. Çəkil, o səni parçalar.

E l o ğ l u. Arxayın olun, o mənim qabağımda diz çöküb pişik kimi miyoldayacaq.

B a l a o ğ l a n. Oho, səndə bu hünər də var?

E l o ğ l u. Var, var. Siz geri durun, gəlir. (*Pələng hücum edir. Eloğlu əlindəki ağacı ona vurur)* Yapış!

Pələng yerə yapışır və çapalamağa başlayır.

B a l a o ğ l a n. Afərin, Eloğlu. Sən bu heyvana nə etdin?

E l o ğ l u. Xalqın biliyi ilə onu yerə yapışdırdım.

B a l a o ğ l a n. Necə yapışdırdın? Bu ki lap hikmətdir?

A t a k i ş i. Buna Eloğlu deyərlər!

E l o ğ l u. Bax, bu ağacı mənə nənəm bağışlayıb. O dedi ki: xalqın biliyidir, yaxşı saxla, bununla Vətəni, xalqı qoru!

A t a k i ş i. Sən bu ağac ilə dağı dağa yapışdırarsan.

Q ə h r ə m a n. Eloğlu, sənin bu işlərin bizə böyük müjdə verdi. Rüstəm xanın pəncəsindən qurtarmaq üçün bu ağac bizə çox kömək edər.

B a l a o ğ l a n. Pələngə bax, qurtulmaq üçün gör necə yalvarır!

Q ə h r ə m a n. Özündən qüvvətliyə rast gəldiyi üçün təslim olmaq istəyir.

E l o ğ l u. Siz çəkilin! Onu azad edəcəyəm. O bizə daha toxunmaz! (*Pələngə yanaşır və ağac ilə vurur)*Açıl!

Pələng ayağa qalxır, pişik kimi Eloğlunun ayaqlarına yalmanır. Eloğlu onun başını oxşayıb. Pələng qorxa-qorxa çəkilib gedir.

B a l a o ğ l a n. Sən bir bunun boyuna bax, gördüyü işlərə, göstərdiyi hünərə bax!

Q ə h r ə m a n. Onda aslan ürəyi var, aslan.

A t a k i ş i. Aslan nədir, onda xalqın polad kimi sarsılmaz gücü, qəlbi var. Eloğlu, tütəyi çal görək!

E l o ğ l u (*tütəyi çalır*):

Sən ey məni çalan oğlan,
Ey igid, qəhrəman oğlan,
Bu səs elin gur səsidir,
Dağlar yıxan qüvvəsidir.

Durma, xalqın gücünü al!
Get, düşməndən öcünü al,
Qoru bu əziz ölkəni,
Qoru xalqı, həm Vətəni!

Bu sözləri dağlardan gələn əks-səda təkrar edir. Hamı heyrət içində o səsi dinlərkən

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

### BEŞİNCİ ŞƏKİL

Xanın bağıdır. Gövhər xanımın toyuna hazırlıq gedir Eloğlu, Atakişi, Telli, Anaxanım palazları, xalçaları süpürür, təmizləyirlər.

C a v a h i r x a n ı m (*Anaxanıma*). Ey, qarabaş, palazları yaxşı təmizlə! Adımıza layiq sahman düzəldin!

X a n (*amiranə*). Bu xalçanı mənim taxtımın üstünə sal! (*Cavahir xanıma)* Gedək, bir otaqlara da baş çəkək! (*Gedirlər)*

T e l l i. Qan qusmuşlar, bax, nə hökm kəsir!

A t a k i ş i. Vaxt var idi sən onlardan da pis hökm kəsirdin. Səməndər gedəli dilin qarnına girmiş.

E l o ğ l u. Telli indi çox dəyişib, bizə yaxınlaşır.

T e l l i. Hələ çox dəyişəcək. Səməndər məni bir gün görməsəydi dəli olardı. Kişi canının qorxusundan baş götürüb elə qaçdı ki, heç dalına da baxmadı. Belə zülm olar?!

E l o ğ l u. Neyləsin, canını qurtardı, qalsaydı, onun da canı matraq altında çıxacaqdı.

T e l l i. Gördüm, bala, gördüm.

Anaxanım çiynində xalı gedir.

A n a x a n ı m. Mənim bu qapıya gəldiyim günə min lənət! Kaş o gün bu xalçanı verəydim. Bəlkə quduz xan kişidən əl çəkəydi. (*Ağlayır)*

E l o ğ l u (*gülə-gülə*). Ana, bu gün el bayramıdır. El qızı öz bayramında ağlamaz. (*Süpürgəni götürüb süpürə-süpürə)* Çəkilin, çəkilin, xalçaların üstünü özüm süpürəcəyəm.

A n a x a n ı m (*ona acıqlı baxaraq*). Yaxşı, yaxşı sən də get-gedə yaltaqlanırsan.

A t a k i ş i. Anaxanım, bu gün Eloğlunun kefinə heç kim dəyməsin gərək.

T e l l i. A yetim, nə var? Xeyir olsun, bu gün yaman əl-ayaq açmısan. Üzün, özün gülür.

A t a k i ş i. Gövhər xanımın toyudur.

E l o ğ l u. Səməndər yaxşı qaçdı qurtardı, bu günü görmədi.

T e l l i. Elə qurtardı. Məni yanar təndir içində qoyub getdi. Hələ bilmirəm bu Əkbərə nə oldu?

A t a k i ş i. Mən də buna çaşıb qalmışam. Bu zalım oğlu nə üçün yoxa çıxdı?

T e l l i (*Eloğlunun işləməsinə baxaraq*). Yetim yaman güclənib, ayaqlarını yerə basanda yer titrəyir.

E l o ğ l u (*süpürə-süpürə*). Çəkil, çəkil, bayram aşıma duz qatma!

Z ü m r ü d. Ata, ata!

A t a k i ş i. Can ata, qızım, sən də gəldin? Başını qucaqlayıb. Nazlı qızım, duzlu qızım!

Z ü m r ü d. Bu xalçaları nə üçün yerə döşəyirlər?

A t a k i ş i. Gövhər xanımın toyudur, qızım! Bu gün çalıb-oynayacaqlar. Telli, sən də oynayacaqsanmı?

Z ü m r ü d. Yox, mən bilmirəm

E l o ğ l u. Mən tütəyi çalanda yaxşı oynarsan. Mən də anam ilə qarşı-qarşıya oynayacağam.

A n a x a n ı m. Sus, atanı nə tez unutdun?

E l o ğ l u. Çəkilin, çəkilin, xalçaları yaxşı süpürün, oynayanda toz olmasın.

A n a x a n ı m. Sən demişkən, ay Telli, bu gedə bu gün qudurub.

T e l l i. Mən deyirəm, bunlarda bu gün bir iş var. Bircə o qocaya bax! Kefi gör necə sazdır! Sən elə bilirsən bunlar toya sevinir? Yox, başqa iş var, nədir, bilmirəm.

A t a k i ş i. Başqa nə iş ola bilər? Bu gün Eloğlunu toy bəyi tikəcəyik, hamını bir-bir oynadacaq. Hətta xanı da, xanımları da. Eloğlu ilə Anaxanımı mən oynadacağam.

A n a x a n ı m. De, de, nə bilirsən de. belə oğlu olan anaya bu da azdır.

A t a k i ş i. O necə oğuldur? Hər oğul belə olsaydı nə dərdim vardı! Mənim elə oğlum olsa, şadlığımdan papağımı göyə ataram.

A n a x a n ı m. Yox, daha gözümdən düşdü. Al, verdim sənə.

A t a k i ş i. Sonra peşiman olarsan.

A n a x a n ı m. Yox, olmaram.

A t a k i ş i. Nə deyirsən, Eloğlu?

E l o ğ l u. Mən xalqımın oğluyam.

A n a x a n ı m. Yaramaz, bəs mən kiməm?

E l o ğ l u. Sən də elimin qızı. Ana can, gəl barışaq, sənə bu gün bir kef verəcəyəm ki, üzündəki qırışıqlar bu xalçadakı güllər kimi açılacaq. Sən oğlunu o qədər ağılsız bilmə!

A n a x a n ı m. Nə bilim. Mən ki, səni ağıllı oğlan bilirəm.

A t a k i ş i. Bildiyində artıqdır. Oğul deyil, noğuldur, noğul!

T e l l i. O, başqa yetimdir, xala. Canunçün, bax, bu gözlərimlə gördüm. Balaoğlanı əvvəlcə xalçanın içində gizlətdi. Sonra sandıqda gizlətdi. Sonra, bax bu hovuzun içinə soxdu. Başına da qabağı qoydu. Bunlar şeytanın da fikrinə gəlməzdi.

A t a k i ş i. Sonra harda gizlətdi?

T e l l i. Bax, mən də ona quruyub qalmışam. Gədəni bilmirəm sonra hansı deşiyə soxdu ki, yoxa çıxdı.

A t a k i ş i. Yuxarıdan şappıltı ilə Səməndərin başına düşən kim idi?

T e l l i. Yoxsa, sonra da zənbilin içində gizlətmişdi? Vay, səni Eloğlu!..

A t a k i ş i. Bunda belə işlər çoxdur.

X a n, q o n a q l a r ı və ç a l ğ ı ç ı l a r ilə birlikdə gəlir.

X a n. Oturun, oturun! (*Hamı öz yerində oturur)*Ruhlara fərəh verən musiqidən başlayaq. (*Çalğıçılara)* Bir segah çalın!

Çalğıçılar çalır, xanəndə oxuyur.

Şor torpaqda bar olmaz,
Heyva olmaz, nar olmaz.
El qədrini bilməyən
Öz elinə yar olmaz!

Ölkəmi vurmuş dolu,
Xalqın olub xan qulu.
Çıx dumandan ey günəş,
Sevindir ac yoxsulu!

X a n. Heyvan oğlu heyvan, bu nə sözdü oxuyursan? (*Hücum edir. Eloğlu əlindəki ağacla ona toxunur)*

E l o ğ l u. Yapış!

X a n. Sənin ağzını yırtaram. Ağzından çıxan sözə bax. (*Xanın ayaqları yerə yapışıb tərpənə bilmir)*

X a n. Vay, ayaqlarım yerə yapışdı. Vay, məni qurtarın!

Səsə M ə r c a n x a n ı m və a r v a d l a r çıxırlar eyvana.

M ə r c a n x a n ı m. A kişi, sənə nə oldu?

X a n. Ayaqlarım yerə yapışıb, qaldıra bilmirəm.

M ə r c a n x a n ı m (*gedir ki, xanı, qurtarsın, o da xana yapışır*). Vay, mən də yapışdım.

X a n. Ayaqlarımı basma!

M ə r c a n x a n ı m. Mən basmıram, uf, sən mənim ayağımı basırsan.

M ə r c a n x a n ı m. Xan, bu xeyir işimizdə kim isə paxıllığından bizə seyr, cadu eləyib. A gədə, Eloğlu, get falçı Tükəzi çağır, bu çayın o tayında olur. Gələndə koxaya da de, altıbarmaq mollanın dalınca Qozlu kəndinə göndərəcəyəm.

Eloğlu tez gedir

X a n. Uf, yer zəli kimi mən yapışıb, bütün damarlarımı çəkir.

M ə r c a n x a n ı m. Mənim də, mənim də...

A t a k i ş i. Mənim bu qədər yaşım var, ömrümdə belə qəribə iş görməmişəm. Adam da yerə, adam da adama yapışarmı?..

A n a x a n ı m. Məndə görməmişəm.

Q o n a q l a r d a n. Darıxmayın. Bu saat falçı Tükəz gələr, çarə edər.

M ə r c a n x a n ı m. Bu yetim bəs harada qaldı?

T e l l i. Odur gəldi.

E l o ğ l u gəlir.

M ə r c a n x a n ı m. Bəs falçı hanı?

E l o ğ l u. Mən ona çayın o tayında rast gəldim. Çayı keçəndə paltarını soyunub başına qoydu sonra paltarını götürüb geyinmək istədi, onun da paltarı başına yapışmışdı. Sizin yanınıza çılpaq gəlməyə utanır.

X a n (*Atakişiyə*). Çılpaq olsa da get onu tez gətir!

Atakişi gedir.

E l o ğ l u. Qonaq çağırdığın bəylər də gəlibdir, on beş-nəfərdir, altlarında elə atlar var ki, göy ilə əlləşir, hamısı çərkəsi geyib, qızıl vəznə, qızıl kəmər, xəncər bağlayıb.

M ə r c a n x a n ı m. Bu qız nə bədbəxt imiş! Onların qabağına kim çıxacaq.

E l o ğ l u. Onlar da at üstünə yəhər yapışıb qalıbdır.

X a n . Böyük biabırçılıqdır. A kişi, belə iş olar?!

F a l ç ı başına paltarı yapışmış halda ağlaya-ağlaya gəlir.

F a l ç ı T ü k ə z. Xan, qurban olum sənə, mənim dərdimə bir çarə elə!

M ə r c a n x a n ı m (*onun başını qarmalayır*). Ala, kül başına, biz bundan çara gözləyirik, bu bizdən istəyir.

X a n. Bəs koxaya nə oldu, o niyə gəlib çıxmır?

E l o ğ l u. Xan, o da qonaqların gününə düşüb. Atdan düşəndə yəhərə yapışıb. Ha çalışdıq, onu yəhərdən ayıra bilmədik.

X a n. Onu yəhərlə çağır gəlsin! Vay, yer adamı nə çəkir!

K o x a yəhərə yapışmış şəkildə gəlir.

K o x a. Qurban olum, xan, ölmüşəm, məni yerdən götür, yazığın gəlsin, qurtar məni bu bəladan!

M ə r c a n  x a n ı m. Başın batsın, hər kimi köməyə çağırırıq, bizdən kömək istəyir. Tez olun, xan əldən getdi, mən lap çatlayıram, tez olun çarə eləyin!

T e l l i (*çalğıçılara kinayə ilə*). Çalın, ucadan çalın bəlkə əcinnələr qorxub qaçsınlar.

A t a k i ş i. Xan, Eloğlunun bir sehrli tütəyi var. Dağ-daşa səs salır, insan kimi oxuyur, deyin çalsın, bəlkə köməyi ola!

X a n. A gədə, yetim, tütəyi çal! Bərkdən çal!

E l o ğ l u. Baş üstə, xan, elə çalım ki, yatanları yuxudan diksindirsin, el-oba sel kimi axıb gəlsin.

(*Tütəyi çalır)*

Sən ey məni çalan oğlan,
Ey igid, qəhrəman oğlan,
Bu səs elin gur səsidir,
Dağlar yıxan qüvvəsidir.
Durma, xalqın gücünü al!
Get, düşməndən öcünü al!
Qoru bu əziz ölkəni,
Qoru xalqı, həm Vətənini!

X a n. Bu nə sözlərdir? Bu nə tütəkdir?

Səhnə arxasında kəndlilərin səsi eşidilir. Q ə h r ə m a n, P o l a d, B a l a o ğ l a n, S ə m ə n d ə r  və  b a ş q a l a r ı gəlirlər.

E l o ğ l u. Xoş gəldiniz xalqın azadlıq bayramına!

A t a k i ş i. Gəlin, gəlin! (*Anaxanımın əlindən tutub gətirir)* Get, Poladla görüş!

A n a x a n ı m. Polad! Polad!

P o l a d. Anaxanım!

E l o ğ l u. Ata! (*Qaçıb Polada sarılır)*

S ə m ə n d ə r. Ay telli! Ay telli!

T e l l i. Vay Səməndər! (*Görüşürlər)*

X a n. Bu çağırılmamış qonaqlar kimdir?

Q ə h r ə m a n. Bunlar boyunduruq altında gecə-gündüz öküz kimi sənə işləyən məzlumlardır.

E l o ğ l u. Ağac, kökündən su içər. Sən bu sağlam ağacı kökündən, bu coşqun dənizi dibindən qurutmaq istəyirdin. İndi cavab ver!

X a n. Məni heç bir şey qorxuda bilməz. Onlara bu qılınc cavab verər.

Eloğlu əlini tərpədir. Xan yerində dayana bilməyib yıxılır.

E l o ğ l u. Sən mənim bir əlimin yelindən yıxılırsan, bəs bu daşqın selə necə cavab verəcəksən?

B a l a o ğ l a n (*çalğıçılara*). Çalın, bir oyun havası çalın!

Qəhrəman, Polad, Anaxanım oynayır.

Q ə h r ə m a n (*Səməndər və Telliyə*). El, dəlisini çölə atmaz. Xalq sizi bağışlayır, oynayın!

E l o ğ l u. Xan, azadlıq bayramıdır, sən nə üçün oynamırsan?

X a n. A gedə, çəkil!

Eloğlu ağacla xanı, Mərcan xanımı, falçı Tükəzi və koxanı bir-birinə yapışdırır. Onları ağacın işarəsi ilə havanın ahənginə uyğun oynadır.

E l o ğ l u. Eldən geri qalmayın, siz də oynayın!

Z ü m r ü d (*qəhqəhə ilə gülür*). Ata, ata, ora bax, oynayırlar.

A t a k i ş i. Ah, qızım, bu gülən sənsən? Nə böyük bəxtiyarıq!

Z ü m r ü d. Mənəm, ata, mənəm. Daha naxoşluğum sağaldı. Bir ora bax, gör necə oynayırlar!

E l o ğ l u (*Zümrüdə yaxınlaşaraq*). Elimin gözəl qızı, gül, gül, gülmək sənin haqqındır.

A n a x a n ı m. Gül, güllər açılsın, sünbüllər açılsın.

A t a k i ş i (*qızı qucaqlayaraq*). Səni mənə yenidən bağışlayan bu azadlıq bayramına canım qurban!

Z ü m r ü d. Ata, heç bilirsən ürəyim nə qədər şəndir!

A t a k i ş i. Doğ ey günəş, çəkil ey duman!

P o l a d. Doğ, deyə-deyə, bu günəşi doğuzdurdun. Hər iki tərəfdən gözlərin aydın!

A t a k i ş i. Sağ ol, Polad! Sənin də gözlərin aydın! Sən nə qədər bəxtiyarsan ki, Eloğlu kimi oğlun var.

A n a x a n ı m. O bütün elin oğludur.

Z ü m r ü d. Eloğlu, sən onları necə yapışdırdın?

E l o ğ l u. Mən yapışdırmadım, onları xalqın biliyi yapışdırdı. (*Əlindəki tütəklə xanın dəstəsinə işarə edir)* Sizin dövranınız keçdi. İndi dövran bizimdir. Çəkilin yerin altına!

Yer yarılır, onlar yerin altına girir. Hamı əl çalır.

P o l a d. Bu gündən yeni həyat, yeni dövran başlanır.

Z ü m r ü d (*qəhqəhə ilə gülür*). Ata, Eloğlu nə qədər güclüdür! Yer yarıldı, xan dəstəsi ilə bir anda yox oldu.

P o l a d. O, elin qüvvətidir, qızım! El qüvvəti dağları kökündən atar, dənizləri qurudar.

A n a x a n ı m. Doğru demişlər, insanı ağ gün ağardar, bax, qızın rəngi necə açıldı! Bir dəstə gül kimi hər yanağı min rəng çalır.

Yer altından yavaş-yavaş işıq ucalıb, səhnəni bürüyür. Vətəni təmsil edən qoca qadın əvvəlki qiyafəsində işıqlar arasından çıxır, şad baxışlarla ətrafa baxır.

E l o ğ l u (*onu görüncə*). Xoş gəldin böyük, sevimli anamız, əziz və mehriban Vətənimiz!

Q a r ı. Gözünüz aydın! Sizi təbrikə gəldim.

H a m ı. Xoş gəldin, səfalar gətirdin!

Q a r ı. Pəh, pəh, nə gözəl məclisdir! Hamı şən, hamı bəxtiyardır, baxın mənim də üzüm, gözüm gülür. Ey köhnə həyatın paslı qalıqları, uzaq olun məndən! Bu gün yer gülür, göy gülür, xalq gülür, bax, hər yan gülür.

Səhnə qaranlıqlaşır, qarı üst paltarlarını çıxarıb atır, cavan və gözəl bir qadın şəklini alır. Səhnə işıqlanır, xalq onu görüncə əl çalır.

A t a k i ş i. Doğ ey günəş, çəkil ey duman!
Q a r ı. Gurla, ildırım, gurumhagurum!
Mən bu torpaqda şən həyat qurum!

Səhnənin arxa tərəfindən pərdə açılır Gözəl mənzərəli, başı qarlı dağlar, ətəkləri yaşıl meşələr, bağlar, çəmənlər və tarlalar görünür. Onların arasında Kür çayı, Araz çayı axır. Bağlarda qızıl güllər və çiçəklər açılıb, bülbüllər oxuyur. Xalq bu gözəl mənzərəni görüncə şən nəzərlə baxır və hamısı bir ağızdan oxuyur.

Çöllərindir şən,
Hər yerin gülşən,
Sən nə gözəlsən
Ey ana vətən!

Qarı.

Daha durmayın!
Coşun, qaynayın!
El bayramıdır,
Çalın, oynayın!

Bu sözləri dağlardan gələn əks-səda təkrar edir musiqi çalınır, hamı oynarkən qarı qollarını geniş-geniş açır. Hər yandan onların üstünə işıq yağır.

P ə r d ə

# VƏTƏN

*Beş pərdəli dram*

## İŞTİRAK EDƏNLƏR

E l m a n – gənc qəhrəman
A t a b a b a – Elmanın atası
A l a g ö z – Elmanın anası
D ü n y a  g ö z ə l i – Vətəni təmsil edən gözəl bir qız
B i l i c i – xalqın biliyini, təcrübəsini təmsil dən nurani qoca
A s l a n, T u ğ a n – pəhləvanlar, Elmanın yoldaşları
L ə l ə ş – kəndli
Q u z ğ u n  ş a h – divlərin padşahı
Ş a h m a r – Quzğun şahın pəhləvanı
Ş i m ş a d, İ f r i t ə  c a d u – Quzğun şahın cadugərləri
V ə z i r – şahın vəziri
Ə y y a r – şahın əyyarı
Ü l k ə r, Q u m r a l, G ü l ə ş – Dünya gözəlinin yoldaşları
S i m u r q  q u ş u
Z o r b a – divlərin pəhləvanı
D i v l ə r
P ə r i l ə r
X a l q  n ü m a y ə n d ə l ə r i
Ş a h ı n  q u r b a ğ a s ı

## BİRİNCİ PƏRDƏ

Sıldırım qayalar. Aşağı tərəf çəmənlik və meşəlikdir. Bir qayanın ətəyində çeşmə şırıldayıb axır. Dan yeri ağarmış, üfüqdə bir-birinin üzərinə yıxılmış kimi duran bulud komaları yavaş-yavaş doğmaqda olan günəşin al şəfəqləri ilə gözəl mənzərələr təsvir etməkdə davam edir. Təbiət get-gedə canlanır, quşların şaqırtısı ətrafı bürümüş. E l m a n ovçu qiyafəsində əlində ox və yay bir qaya başında durub ətrafa baxır, T u ğ a n o biri qaya başında durmuş, ov gözləyir. A s l a n da üçüncü qaya başında durmuş. Hər üçü bir-birindən bixəbər ov arayan gözlərini ətrafı süzdürüb baxır.

E l m a n. Gecikdim, ovçular ovunu çoxdan vurmuşdur.

Bu zaman üç ovçu bir-birindən xəbərsiz aşağıda qaya ətəyində axan çeşmə başında bir ceyran görür, hər üçü ceyranı nişan alıb vurur, hər üçü ovunu götürmək üçün qaçır. Tuğan ilə Aslan qarşı-qarşıya gəlir.

T u ğ a n (*Aslana*). Xoş gördük, sən burda nə qayırırsan?
A s l a n. Ovumu götürməyə gəldim.
T u ğ a n. Onu mən vurdum.
A s l a n. Yox, mən vurdum.
T u ğ a n. Sənə deyirəm mən vurdum.
A s l a n. Ovçuluqda bu, çirkin işdir, yoxsa bir ceyran...
T u ğ a n. Onu özünə de.

Ceyranı götürmək istəyir, Aslan ceyranı tutub çəkir.

A s l a n. Bura ver!
T u ğ a n. Sən bura ver!

E l m a n yanaşır, gülərək.

E l m a n. Neçin vuruşursunuz? Bir ceyran üçünmü? (*Onları aralayır)* Sizin kimi pəhləvanlara ceyran üçün boğuşmaq ayıbdır. O nə sənindir, nə onun. Bu ceyranı mən vurdum. (*Oxluqdan bir ox çıxarıb ceyrana sancılmış ox il tutuşdurur)* Baxın!

Hər ikisi oxlara baxır.

H ə r i k i s i. Doğrudur, sənindir!
E l m a n. Di, ocaq qalayın, bu çeşmə başında bir kabab yeyək.
A s l a n. Yox, ov sənindir, götür apar evə!
E l m a n. Yox, aparmayacağam, bu ceyranı sizinlə birlikdə yeyəcəyəm.
T u ğ a n. Elman, Atababa və Alagöz yolunu gözləyir.

E l m a n. Aslan, sən ceyranı götür soy, Tuğan ocaq qalasın, bişirməyi də məndən...

T u ğ a n. Razıyam.

Ceyranı bir ağac arxasına çəkir, Tuğan ocaq qalayır. Elman qayaları, şırıl-şırıl axmaqda olan çeşməni gözdən keçirir.

E l m a n. Bu əfsanəli dağların, bu macəralı qayalıqların ətəyində, bu axan sərin çeşmənin başında görəsən nə qədər ovçu kabab yemiş!

T u ğ a n. Ovçuluq yaxşı şeydir, pəhləvanlıq isə başdan-başa dərd, kədərdir.

E l m a n (*heyrətlə*). Neçin?

T u ğ a n. Çünki basırsan – düşmən qazanırsan, basılırsan – hörmətdən düşürsən.

E l m a n. Yanılırsan, Tuğan, ölkənin yetişdirdiyi qəhrəmana basılan bir pəhləvan torpağı iftixarla öpüb ayağa qalxmalıdır.

T u ğ a n. İftixarlamı?

E l m a n. Bəli, iftixarla... Çünki səni yetişdirən ana torpaq sənin, mənim qüvvətimlə yaşaya bilməz! Ona daha böyük qüvvələr gərəkdir!

T u ğ a n. Belə sözləri ancaq sənin ağzından eşitmək olar. Görək hamı belə düşünürmü?

Bu zaman uzaqdan bir nəğmə səsi eşidilir. hamı səs gələn səmtə baxaraq nəğməni dinləyir.

T u ğ a n (*gülə-gülə*). Özüdür, özüdür, qoy gəlsin, bir az şənlənərik. (*İçində ölü dovşan olan çuvalı götürüb gülə-gülə gəlir)* Dayan, indi onu qorxudacağam.

Çuvalı götürüb gedir. Elman gülə-gülə o tərəfə baxır. L ə l ə ş iki ayağını eşşəyin sağ böyrü tərəfə uzadıb, ayaqlarını eşşəyin qarnına vura-vura oxuyur.

L ə l ə ş.

Ey dağ, ey çöl, ey orman,
Siz söyləyin doğrudan,
Bu eldə gördünüzmü
Lələş kimi pəhləvan?

Lələş qürurla öz döşünə döydüyü zaman Tuğan ölü bir dovşanı eşşəyin ayaqları altına atır və vəhşi səslə: – O, o! – deyə bağırır. Eşşək ürküb qaçır, Lələş bağırır.

L ə l ə ş. Vay öldüm! Vay öldüm!

Eşşək Elmana yaxınlaşanda Ləleşi yerə yıxır, xurcun aşıb Ləleşin üstünə düşür, xurcundakı qadın paltarı, kələğay, ayaqqabı yerə dağılır, Ləleş xurcunun altından çıxıb Elmana tərəf qaçır.

L ə l ə ş. Vay öldüm! Vay öldüm! (*Elmanın ayaqları ucunda yerə oturur)*

E l m a n. Nə var, Ləleş? Nə olub?

L ə l ə ş (*qorxa-qorxa arxasına baxaraq*). Vay, vay!

A s l a n. Arxadan gələn kimdir?

L ə l ə ş. Soruşma, yaxşı qurtardım. Qorxumdan əlim, ayağım titrəyir.

E l m a n. Qorxaq oğlu, de görək nə olub?

A s l a n. Yoxsa üstünə heyvan atıldı?

L ə l ə ş. Ay sağ ol, eşşək üstündə gəlirdim, meşədən üstümə bir sürü qurd atıldı. Saydım, düz otuz qurd idi.

Hamı gülür, T u ğ a n əlində çuval gəlir.

A s l a n. Ay Ləleş, otuz qurd bir yerdə olmaz axı.

L ə l ə ş. Olmaz? Yaxşı, iyirmi qurd olsun.

E l m a n. Axı bir yerdə iyirmi qurd nədir, beş qurd da olmaz!

L ə l ə ş. Beş qurd da olmaz? Yaxşı, iki qurda sözün nədir?

Aslan gülə-gülə yenə ağac arxasına gedir, bir azdan əlində şişlər gəlir.

E l m a n. Ovçular ovlağına yay zamanı iki qurd haradan gələ bilər? Görəsən nə imiş?.

A s l a n. Bəlkə quş imiş?

T u ğ a n. Bəlkə yarpaq imiş?

E l m a n. Yoxsa dovşan imiş?

L ə l ə ş. Ay sağ ol, doğru deyirsən, dovşan idi. Kolun içindən zalım oğlu üstümə elə atıldı ki, az qaldı ürəyim yarılsın.

Hamı gülür.

T u ğ a n. Ölü idi, ya diri?

L ə l ə ş. Əlbəttə diri, ölü dovşan da atılarmı?

T u ğ a n (*çuvalın içindən ölü dovşanı çıxarıb ləleşin üstünə ataraq*). Atarsan, atılar.

L ə l ə ş (*Qorxa-qorxa geri çəkilir. Heyrətli nəzərlərlə dovşana baxaraq*). Hə, hə, elə bunun özü idi...

Hamı gülür. Ləleş gözü ilə eşşəyi axtarır.

E l m a n. Qorxma, eşşək odur çayırda otlayır.

L ə l ə ş (*baxıb sevinir, xurcundan tökülən paltarları təmizləyərək*). Mən cəhənnəmə, adaxlımın paltarları toz-torpağa batdı.

A s l a n (*əlində kabab şişləri gəlir, Elmana*). Al, bişir, yeyək.

Elman şişləri ocağa qoyub bişirir.

A s l a n. Lələş nişanlın kimdir?

T u ğ a n. Lələş kimi pəhləvanın nişanlısı kim olar? Yəqin Dünya gözəlidir.

Elman Dünya gözəli adını eşidincə oturduğu yerdə dizləri üzərinə qalxaraq, hiddətlə Tuğanı dinləyir.

T u ğ a n. O Dünya gözəli bu əfsanəli dağlar arxasında, Gözəllər kəndində yaşayır. Deyirlər ki, hələ ora gedib çıxan olmayıb. Xalqın igid oğulları onun eşqinin əsiridirlər.

A s l a n. Görəsən, bəs o Dünya gözəli kimi sevir?

T u ğ a n (*gülə-gülə*). Lələş pəhləvandan başqa kimi sevə bilər!

E l m a n (*əlində şişləri çevirə-çevirə həyəcanlı*). Dünya gözəli! Bu ad mənə nə qədər doğma gəlir, eşitdiyim zaman ürəyim döyünür.

T u ğ a n. Elman, Lələşin adaxlısına sataşma!

L ə l ə ş. Yəni mən eşşəyimlə o Gözəllər kəndinə gedə bilmərəmmi? Hay-hay!

T u ğ a n. Niyə gedə bilmirsən, ancaq eşşəyinlə yorulub yolda palçığa batarsan.

L ə l ə ş. Palçığa niyə batıram?

A s l a n. Eh! Lələşin eşşəyi dünyanın o başına gedir.

L ə l ə ş. Ay sağ ol, doğru deyirsən.

T u ğ a n. Dünya gözəli ancaq Lələş kimi pəhləvana layiqdir.

E l m a n (*həyəcanlı*). Dünya gözəli!

T u ğ a n. Dünya gözəli bizim ruhumuz, qəlbimiz, ümidimizdir.

E l m a n. Bəs adını həmişə sevgilərlə yad etdiyimiz gözəl hardadır? Bu əfsanədir yoxsa həqiqət?

Elman yerindən sıçrayıb qalxaraq, dağa tərəf baxır. D ü n y a g ö z ə l i dağ başında rəngli şəfəqlər içində ulduz kimi axaraq görünür, ona gülümsəyərək yox olur, Elman heyrətlə açılan gözlərini dağa dikir.

E l m a n. Ay! (*Ürəyini tutur)*

T u ğ a n. Elman, sənə nə oldu?

E l m a n (*dağı əli ilə göstərərək*).

Ulduzdu, axdı getdi
Şimşəkdi, çaxdı getdi,
Ürəyimin başında
Bir od buraxdı, getdi.

(*Birdən dağa tərəf qaçır, hamı heyrət içində*).

T u ğ a n. Elman!
A s l a n. Elman!.. Hara?

Elman cavab verməz, hamı onun arxasınca heyrətlə baxarkən.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Arxa planda silsilə dağlar, qayalıqlar, otlu-çiçəkli yamaclar, ortada alma bağı, daha sonra göz işlədikcə sünbülləri saralmış tarlalar. Bağ ilə tarlaların arasından bir çay axır. Quşların xoş nəğməsi ətrafı bürümüş. Gözəllər kəndinin qızları: Gözəl, Ülkər, Qumral, Güləş alma bağında danışırlar.

Ü l k ə r. Səni bu gün çox düşüncəli görürəm. Dünya gözəlinin bu halı bizim qəlbimizi sıxır; bu yəqin səbəbsiz deyil?

G ü l ə ş. Bunu mən soruşmaq istəyirdim; nə üçün belə kədərlisən?

D ü n y a g ö z ə l i. Qızlar, dəmirçi oğlu Elmanı yuxuda görmüşəm. Ancaq...

Q u m r a l (*gülə-gülə*). De ki, dərdim var...

Ü l k ə r. El gözəli, el qəhrəmanına aşiq olub! Burada qəribə nə var ki?!

G ü l ə ş. Dərd eləmə, bir də gördün, budur, gəlib çıxdı.

D ü n y a g ö z ə l i. Elman!

Sünbülə dən düşəndə,
Çöllərə çən düşəndə,
Ağlım başımdan oynar
Yadıma sən düşəndə.

Bir an belə gözlərimin qarşısından getmir. Görəsən o da?..

Q u m r a l. Bu nə sözdür! Əlbəttə, o da, bəli, o da sənin, ancaq sənin – el gözəlinin divanəsidir.

D ü n y a  g ö z ə l i. Nə bilim, a qızlar.

Ü l k ə r. Qızlar, gəlin bağda qaçdı-tutdu oynayaq, bir az Dünya gözəlinin ürəyi açılsın. Mən qaçdım, tutun məni!

Hamısı bağa tərəf qaçır. Yaxın bir təpə başında S i m u r q  quşu yerə enir. Elman quşun üstündən düşür...

E l m a n. Sağ ol, ey uğurlu quş!

S i m u r q. Sən də sağ ol, igid qəhrəman, mənim balalarımı əjdaha ağzından qurtardın, tanrı sənə yar olsun. Al bu lələyi, dara düşəndə yandırarsan. Mən dərhal köməyinə gələrəm, sağlıqla qal!

E l m a n. Uğurlar olsun!

Simurq quşu havaya qalxır, Elman heyran və həyəcan içində qaçışan qızlara tamaşa edir. Q ı z l a r  gülə-gülə gəlirlər.

Ü l k ə r. Məni tuta bilmədiniz ki!..

Q u m r a l. İndi mən qaçıram, tutun məni!..

G ü l ə ş (*təpədə dayanmış Elmanı görüb*). A qızlar, təpəyə baxın!..

Q u m r a l. Bu pəhləvan gövdəli oğlan kimdir? Bəxtəvər özü də nə qəşəngdir.

Ü l k ə r. Baxın, düz bizə tərəf gəlir.

G ü l ə ş. Bəlkə Elmandır?!

D ü n y a  g ö z ə l i. Dayanın, yaxınlaşır...

Elman bağa yaxınlaşır. Dünya gözəlini görüncə ona tərəf gedir.

E l m a n. Gözəl!..

D ü n y a g ö z ə l i. Elman!..

Həyəcan içində ona baxır, hər ikisi bir-birinin əlini tutur.

D ü n y a  g ö z ə l i. Yolunu gözləyirdim, axır ki, gəlib çıxdın.

E l m a n (*qollarını açaraq*). Ah, gözəlim nə qədər bəxtiyaram! (*Əlindəki çələngi Gözəlin başına qoyur)*

Q ı z l a r  dəstə ilə oxuya-oxuya, qədim Azərbaycan rəqsi oynaya-oynaya onlara doğru gəlirlər.

Sevin, sevin el dilbəri,
Qəlbindən sil kədərləri,
Əli əlində Elmanın,
Yaşa, yaşa, dan ülkəri!

İrmaqların coşur, daşır,
Sahillər ilə oynaşır.
Üzüm, alma bağlarında
Şənlik, sevinc başdan aşır.

Sən bu xalqın sevincisən,
Gözəllikdə birincisən,
Təbiətin saf qoynunda
Ən dəyərli bir incisən.

Qızlar ətrafa çəkilir. Elman gözəli sinəsinə sıxır. Gözəl çələngi başından çıxarıb qəmli-qəmli ona baxır.

D ü n y a  g ö z ə l i. Üzü dönük dövran şən günlərimizi xəzanə çevirmək istəyir.

E l m a n. Anlamıram, biz ki səadət içindəyik; sən nə düşünürsən?

D ü n y a  g ö z ə l i. Səni, yalnız səni!

E l m a n. Elə isə neçin belə qəmlisən, kədərlisən? Səni düşüncələrə qərq edən nə şeydir, söylə?!

D ü n y a  g ö z ə l i. Ayrılıq qorxusu!

E l m a n. Səni məndən hansı qüvvət ayıra bilər? Bu həyəcana səbəb nədir?

D ü n y a  g ö z ə l i. Sənə olan sevgim, məhəbbətimdir. Ondan ayrılmaq qorxusudur. Bu qorxunc xülya, bu qara düşüncə qəlbimi bir qurd kimi gəmirir. Elin yenilməz qəhrəman oğlu, bu ölümlü qara xülyanın pəncəsindən qurtar məni!

E l m a n. Ah, Gözəl, sən mənim bütün varlığımı sarsıtdın! Həyatımda bu qədər aciz, bu qədər bacarıqsız olduğumu heç bir zaman belə dərindən hiss etməmişdim. Əmr etsən, ən yenilməz qüvvətləri yıxmağa, ən qocaman dağları yerlə yeksan etməyə, zəncin dənizləri qurutmağa gücüm çatar. Ancaq o əl irişməz qəlbində yerləşən qara xülyaya nə edə bilərəm? Sən onu ürəyindən çıxar, ver mənim əlimə, mən onu bu pəncəmdə bir anda parçalayım!

D ü n y a  g ö z ə l i. O aysız, ulduzsuz qaranlıq gecədə gördüyüm qorxunc yuxunu dilimə gətirməyə qorxuram.

E l m a n. Mən gecə-gündüz göylər qədər saf, sular qədər parlaq olan eşqimizin qaravulundayam. O, əsrarı aç, söylə gözəlim!

D ü n y a  g ö z ə l i. Gördüm, qızıl alma bağında zümrüd köşkdə toy başlamış. Məni köşkün qarşısından axan qızıl irmaqda çimdirdilər, gəlin kimi bəzədilər. Sən də gəldin. Əlvan çiçəklərdən hörülmüş çələngi başıma qoydun. Səninlə yan-yana durmuşduq. Çalıb-oynayırdılar. Kimsə səni çağırdı... Sən getdin... Bu an göy guruldadı, şimşək oynadı, ildırım çaxdı, ortalıq qaraldı. Ətrafı qorxunc səslər bürüdü. Yer yarıldı, əlində toppuz heybətli bir div çıxdı. Yavaş-yavaş mənə yanaşdı. Sənin sevə-sevə başıma qoyduğun çələngi pəncəsinə aldı, çiçəklərini yolub yerə atdı. Əlindəki toppuz ilə məni öldürmək istəyirdi ki: "Elman!" – deyə bağırdım.

E l m a n. Bəs sonra?

D ü n y a  g ö z ə l i. Sonra... Heç... öz səsimə oyandım.

E l m a n (*qəhqəhə çəkib gülür*). Demək, Elman köməyinə çatır, eləmi?!

Elman və dünya gözəli qızlara tərəf gedirlər. Təpə başından onları seyr edən Quzğun şah və vəzir yaxınlaşırlar.

Q u z ğ u n  ş a h. Vəzir, gözəl ilə söhbət edən o gənc kim idi.

V ə z i r. Dəmirçi oğlu Elman idi, şahim!

Q u ğ z u n  ş a h. Toppuzumla onun cəmdəyini torpağa su kimi axıdardım!

V ə z i r. Şahim, Elman igid qəhrəmandır.

Q u z ğ u n  ş a h. Kim olur olsun, onu pəncəmdən heç bir qüvvət qurtara bilməz! Dünya gözəli mənim olmalıdır!

V ə z i r. Şahim, nə qədər Elman var, Dəmirçi kəndi var, sən öz istəyinə qovuşa bilməzsən.

Q u z ğ u n  ş a h. Onlar dəniz olsa, suyunu, dağ olsa, daşını toz kimi havaya sovuraram! (*Əllərini bir-birinə vurur)* Şahmar!

Ş a h m a r  hazır olur, baş əyib qarşısında durur.

Q u z ğ u n  ş a h (*amiranə*). Şahmar, bütün qüvvətinlə silahlan, ordun ilə Dəmirçi kəndinə basqın et, qır yıx, dağıt! Daşı daş üstündə qoyma!

Ş a h m a r. Baş üstə, padşahım! (*Gedir)*

Quzğun şah sağ ayağını, sonra sol ayağını yerə vurub səslənir.

Q u z ğ u n ş a h. İfritə cadu, Şimşad!..

Yer yarılır, İ f r i t ə  c a d u  və  Ş i m ş a d  şahın qarşısında baş əyib dururlar.

Q u z ğ u n ş a h. Durmayın! Siz də alma bağına basqın edin! Bütün yolları, keçidləri tilsimə tutun! Dəmirçi oğlu Elmanın vücudunu yer üzündən qaldırın! Dünya gözəlini də mənim sarayıma aparın!

Onlar baş əyib gedir. D ü n y a g ö z ə l i əli E l m a n ı n əlində qızlar ilə gəlir. O, pərişandır.

E l m a n. Yenə pərişansan, gözəlim?!

D ü n y a g ö z ə l i. Ürəyim heç sakit deyil. (*Başını Elmanın çiyninə qoyur*) Çətin günümdə ümidim köməyim sənsən!..

E l m a n. Qəmli durma, sənə heç yaraşmır, sən gül, daima gül!..

Sən güləndə ellərə
Al günəşli yaz gəlir;
Çəmənlərə, çöllərə
Söhbət gəlir, saz gəlir.

Sən güləndə, sevgilim,
Bütün oba, el gülür;
Çəmən gülür, çöl gülür,
Dağdan axan sel gülür.

D ü n y a g ö z ə l i n i n kədəri uçmuş, şən baxışlarla Elmana baxır, Elman əli ilə onun başını oxşayır. İ f r i t ə c a d u və Ş i m ş a d d ə s t ə s i i l ə basqın edir, divlərin nərəsi ucalır.

D ü n y a g ö z ə l i. Ah, Elman, qara günlərimiz çatdı.

E l m a n. Qorxma, səni məndən heç kim ayıra bilməz!

Qılıncını çəkib hücum edir. Vuruşma başlanır. Sağ tərəfdə Elman Quzğun şahın əsgərləri ilə vuruşur, dörd-beş əsgər öldürür. Düşmən əsgərləri tab gətirməyib qaçmaq istəyir. Yanında iki div, İfritə fürsətdən istifadə edərək, Dünya gözəlinə yanaşır. Əlini havada oynadır, hava qaralır, Dünya gözəlini hop götürüb qaçırlar.

G ö z ə l. Elman! Elman!

Elman Dünya gözəlinə tərəf qaçır. Hava işıqlanır. Dünya gözəli havada səhnə xaricində İfritənin qanadları üstündə uçur. Elman həsrətlə başını qaldırıb ona baxır.

E l m a n. Gözəl! Gözəl!..

Uzaqlaşmaqda olan Dünya gözəlinin "Elman" səsi getdikcə yavaşıyıb eşidilməz olur. Elman da eyni zamanda: – Gözəl! Gözəl! – deyə cavab verir. Ş i m ş a d arxadan Elmana yanaşır, əlini havada oynadır. Səhnə qaranlıqlaşır, şiddətli ildırım çaxır, şimşək oynayır, külək əsir, Şimşad Elmanı götürüb havaya atır.

Ş i m ş a d. Get, Elman! Gücünə çox güvənmə, sənin kimi igidlər mənim hiylələrimin qarşısında bir oyuncaq kimidir. Bir az sonra yerə düşüb parça-parça olacaqsan!.. (*Divlərinə)* Quzğun şaha gedib müjdə verim.

Hamısı çıxır.

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

A t a b a b a dəmirçi dükanında işləyir. A l a g ö z ocağı körükləyir. Atababa bir dəmir parçasını ocağa atır, başqa birisini döyəcləyə-döyəcləyə oxuyur.

A t a b a b a: Yan ocağım, durma, yan!
Təndir kimi alovlan.
Qalma günəşdən geri,
Bişir bu pak dəmiri.
Qığılcım saç hər yana,
Cansızlar gəlsin cana.
Bağım, bağçam güllənsin,
Bülbüllərim dillənsin.
Şənlənsin tarla, çəmən,
Sevinsin ana Vətən.

Körüklə, Alagöz körüklə, kürəmiş yansın, ocağımız da qəlbimdə yanan eşqin kimi alovlansın.

A l a g ö z. Yenə çay kimi yaman coşub, daşırsan.

A t a b a b a. Durğun göl olduğun yadıma gəlir. Mən həmişə coşğun çay daşqın sel olmuşam.

Çeşmənin başı sənsən,
Qiymətli daşı sənsən.
Dünya gözələ dönsə,
Hamının başı sənsən.

A l a g ö z. Kefin gəlib, Bəxtəvər, mən bütün gecəni yatmamışam, ürəyimə min cür qara fikirlər gəlir, Elman ovdan niyə qayıtmadı? Görəsən başına nə qəza gəldi. Sənin heç bir tükün də yerindən qımıldanmır.

A t a b a b a. Çünki arxayınam, bilirəm ki, Elman kimi oğula heç bir şey olmaz. Bütün el onun arxasındadır. (*Alagöz cavab verməz)* Görünür başı ova qarışmış, darıxma, gələr. (*Qılınc şəklinə salmış olduğu dəmiri ocaqdan maşa ilə götürüb zindan üzərində çəkiclə döydükdən sonra yenə maşa ilə götürüb baxır. Razı olmadığını göstərən bir səslə)* Yox, bu da mən istəyən qılınc olmadı. (*Qılıncı zindan yanındakı qırıq qılınc parçalarının içinə atır. Başqa bir dəmir parçasını ocağa qoyur)* Alagöz, körüklə!..

A l a g ö z (*körükləyə-körükləyə*). Bizim də bu gün işimiz heç gətirmir, bilmirəm nə var?

B i l i c i uzaqdan görünür və dükana doğru gəlir. Atababa qılıncı götürüb zindan üzərində döyməkdə davam edir. Maşa ilə götürüb baxır, başını oynadır.

A t a b a b a. Bu qılınc məni lap yordu.

A l a g ö z. Ey, sən də, qoluyun gücü azalıb.

Alagöz evə gedir. Bilici yaxında durub Atababanın işləməsinə tamaşa edir. Atababa o qılıncı da dəmir parçalarının üzərinə atır. Bilici ona yanaşır, Atababa Bilici babanı görüncə

A t a b a b a. Gün aydın, baba!

B i l i c i. Gün aydın, oğlum! (*Qılınc qırıqlarına baxaraq)* Bu qılıncları neçin qırıb atırsan?

A t a b a b a. Baba, mən istəyən qılınc olmur.

B i l i c i. Olar, oğlum, olar. Sən get mənə sərin su gətir.

Atababa su gətirməyə gedir. Bilici qoltuğundan bir dəmir parçası çıxarır, içindəki ağ tozdan ocağa səpir, ocaq alovlanıb yanmağa başlayır. Atababa bir kasada su gətirir. Bilici suyu alıb içir. Atababa bir şölə çəkib yanan ocağa, bir də heyrətlə Biliciyə baxır.

A t a b a b a. Baba can, ayağınız nə qədər uğurludur! Ocağım günəş kimi şölə çəkib yanır. (*Tez bir dəmir parçasını götürüb ocağa atır)*

B i l i c i. Atababa, o qılıncı mənim üçün qayır!

A t a b a b a. Baş üstə, baba can! (*Dəmiri ocaqdan götürüb zindan üzərində çəkiclə döyür, döydükcə qılıncdan alovlu qığılcımlar sıçrayır. Dəmir qılınc şəklini alır. Atababa ona diqqətlə baxaraq)* Bu, mən istəyən qılınc olacaq, sizin uca bəxtiniz var.

B i l i c i qılıncı A t a b a b a d a n alıb əli ilə ona sığal verir, qılınc parıl-parıl yanır, sonra gözlərini əfsanəli dağa dikərək diqqətlə baxır.

B i l i c i. Üstümüzə qara buludlar gəlir, al bu qılıncı yaxşı saxla, Vətən göylərini qara buludlar aldığı zaman bu qılınc lazım olar. O zaman onu xalqın ən qəhrəman, ən namuslu oğluna verərsən. O, Vətəni fəlakətdən qurtarar.

Bilici gedir. Atababa onu yola salmaq üçün arxasınca beş-on addım getdikdən sonra qayıdır. Qılıncı əlinə alıb diqqətlə bağır. A l a g ö z gəlir. Qılınc üzünə şəfəq salır, gözləri qamaşır.

A l a g ö z (*heyrətlə*). Atababa, bu qılıncı sənmi qayırdın?

A t a b a b a. Mən qayırdım, mən!..

Alagözün başından bir tük çəkir. Alagöz diksinir. O, qılınc ilə tükü üzür. Hər ikisi məmnun və heyrətlə qılınca baxır.

A l a g ö z. Atababa, bu qılınc Elmana layiqdir.

A t a b a b a. Bilici baba: "Bu qılıncı qara gün üçün saxla", – dedi. Bunu gizlətmək lazımdır.

Yeri qazıb qılıncı basdırır, sonra bir dəmir parçası ocağa atıb ox qayırır, bu zaman T u ğ a n, A s l a n və L ə l ə ş gəlirlər.

T u ğ a n. Gün aydın, baba!

A t a b a b a. Aydınlıqlar içində, igidlər!

A s l a n. Yenə çalışırsan alnın tər tökür.

T u ğ a n. Alın təri, namus təridir. Səni gecə-gündüz sönmək bilməyən bu ocağın el üçün xeyir, bərəkət ocağıdır.

A s l a n (*Alagözə*). Xala, sən necəsən?

A l a g ö z. Yaxşıyam, oğlum, ancaq Elmandan nigaranam. Ova gedəli qayıtmadı.

A s l a n. Qayıdar, fikir çəkmə, ona nə olacaq.

T u ğ a n (*gülə-gülə*). Dünən ovda idik. Lələşin adaxlısına vurulub, onun dalınca getdi.

L ə l ə ş (*yarızarafat, yarıgerçək*). Ey, mənim nişanlıma sataşmayın, yoxsa hərənizi bir əlimlə qaldırıb yerə çırparam.

A s l a n. Bah, sənin böyük pəhləvan olduğunu bilmirdim...

L ə l ə ş. Bilmirdin, indi bil.

A l a g ö z. Doğrudan, Elmandan nə xəbər?

T u ğ a n. O, Dünya gözəlinin dalınca getdi.

A t a b a b a. Dünya gözəlinin?

A l a g ö z. Onda bu səfər çox uzun sürəcək. O qorxulu yollarda görəsən başına nə bəla gələcək?..

A s l a n. Elmana heç bir şey olmaz, arxayın ol!

T u ğ a n. Biz sizi arxayın etmək üçün gəldik.

Uzaqda nərə səsi və divlərin həmhəməsi eşidilir.

T u ğ a n (*döyünərək*). Bu nə səsdir?

Uzaqda tüstü görünür.

A s l a n. Bax, evləri yandırırlar.

T u ğ a n. Görünür basqındı. Tez gəlin!

A s l a n. Gedək!..

Hər ikisi qılınclarını çəkib gedir. Atababa, Alagöz və Lələş tamaşa edir, səs getdikcə yaxınlaşır.

L ə l ə ş. Atababa, gəlirlər, gəlirlər, mən neyləyim?

A l a g ö z. Bədbəxtliyə bax ki, Elman da yoxdur.

A t a b a b a (*çəkici götürür*). Mən gedirəm.

A l a g ö z. Dayan!..

Bu zaman dörd-beş d i v əllərində toppuz nərə çəkə-çəkə yanaşır, Lələş onları uzaqdan görüncə qaçıb böyük bir sandıq içində gizlənir. Atababa onlara yaxınlaşır.

A t a b a b a. Ey, yaxın gəlməyin!..

Onlar Atababaya hücum edirlər.

Z o r b a (*istehza ilə gülərək*). Pah!.. Buna bax!.. (*Toppuzunu qaldırır)*

A l a g ö z (*irəli gəlir*). Ey, mərhəmətsizlər, o qocanı yox, məni öldürün!

Bir div toppuzla Alagözü vurub öldürür. Atababa çəkiclə divi vurub yerə yıxır. Zorba Atababanı yaralayır. Atababa yerə yıxılınca, divlər dükana doluşub talan edirlər. Üç div sandıqdan yapışıb hərəsi bir tərəfə çəkir.

1-c i  d i v. Buraxın, bu mənimdir!

2-c i  d i v. Yox, mənimdir!

Z o r b a. Siz özünüzə başqa şey tapın! Bu sandıq mənimdir! (*Dartıb əllərindən alır. Sandığı çiyninə qoyub aparmaq istəyir, gücü çatmayıb yerə qoyur)* Bah, ağırdır.

1-c i  d i v. Görünür, içində qiymətli şeylər var.

2-c i  d i v. Sən yükünü çox yaxşı tutdun.

Z o r b a (*bir divə*). O başdan tut, aparaq.

Div Zorbaya kömək edir, sandığı aparırlar. O biri divlər də gedir. Dəmirçi kəndinin uzaqdan görünən yanmış evləri tüstü içindədir. Divlər əsirləri matraqla döyə-döyə aparır. Elman Simurq quşu ilə ellərinə yaxın təpədə durub Dəmirçi kəndinə baxır. Bu dəhşətli faciəni görüncə

E l m a n. Hər tərəf ölüm, hər tərəf fəlakət.

S i m u r q  q u ş u. Bu fəlakəti açan Quzğun şahdır.

E l m a n. Azğın düşmən!.. Heç bir rəzalətdən çəkinmir. (*Simurğa*) Sağ ol, sadiq dostum! Sən məni ölümdən qurtardın, indi get, balaların səni gözləyir.

S i m u r q  q u ş u. Düşmən hiyləgərdir, sən özünü onun hiylələrindən qoru çətin zamanda mən köməyə gələrəm. Hələlik, sağlıqla qal.

E l m a n. Uğurlar olsun, dostum! (*Simurq quşu havaya qalxır. Elman qəmli nəzərlərlə bir əfsanəli dağa baxır, bir də Dəmirçilər kəndinə*)

O aslan ürəkli şən elim hanı?
O ellər sevinci gözəlim hanı?

(*Elman yavaş-yavaş evə yanaşır ata-anasını ölmüş görüncə)* Ah, əziz ata-anam?

A t a b a b a (*inləyərək*). Oğlum... Elman!.. Sən sağsan?

E l m a n. Sağam, ata can, sağam. Kaş mən də öləydim, bu qara matəmli günləri görməyəydim! (*Anasına yanaşır)* Anam da sağdırmı?

A t a b a b a. Yox, ölmüşdür (*Elman anasının başını qucaqlayıb ağlayır, Atababa onu çağırır)* Elman, qaldır məni!.. (*Elman onu qaldırır, əli ilə göstərdiyi yerə aparır)* Bu yeri eş! (*Elman yeri eşir, qılınc görünür, Atababa qılıncı alıb Elmana uzadır)* Al bu qılıncı, get intiqam al, Dünya gözəlini azad et!..

E l m a n. (*qılıncı alıb öpür*). Bu qılıncın qalxanı hanı?

A t a b a b a. Bilici babanı tap, qalxanı o sənə verər.

Atababa halsız düşür. Elman tez onun başını dizləri üzərinə alır.

E l m a n. Ata! Ata! (*Cavab gəlmir)* Ata! Ata!.. (*Cavab gəlmir)* Ah, atam da əlimdən getdi. (*Anasının cəsədinə yanaşır)* Bədbəxt anam!.. (*Ayağa qalxaraq, dərdli gözlərini hər tərəfə çevirib həsrətlə baxdıqdan sonra)*

Vətənin göylərini sardı fəlakət buludu.
Külə döndü el, oba, qönçə çiçəklər qurudu.
Bir məzar oldu ana yurdumuzun hər bucağı,

Batdı matəmlərə bayramlı, düyünlü ocağı.
Ah itirdim, bu fəlakətli döyüşlərdə nələr!
Qoca bayquş, qarı düşmən qoparır qəhqəhələr.
Hanı, ah, el gözəli, noldu sevimli Vətənim?
On qurtarmasa Elman, geyim olsun kəfənim!..

(*Qılıncını sıyırıb qəzəbli nəzərlərlə ətrafı baxır)* Həqiqət yenilməz!.. (*Bu zaman ona doğru bir işıq uzanır, Elman işığı görüncə gözləri ümidlə parlayır)* Ey uğurlu çıraq, sən mənim yolumu işıqlandır! Sənə doğru, azadlığa doğru, Gözələ doğru gəlirəm!

Əlində qılınc sürətlə gedir.

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

D i v l ə r bir qalada qarət etdikləri şeyləri yerə qoyub dincəlirlər, Z o r b a sandığa söykənib oturmuşdur.

1-c i d i v. Zorba! Sənin sandığında yəqin ki, qiymətli şeylər var.

2-c i d i v. Aç görək içində nə var?

Z o r b a. Yox, onu burada açmaq sərf eləməz.

3-c ü d i v. Qorxma, əlindən almarıq, aç!

Z o r b a. Yox, keçəl suya getməz.

1-c i d i v. Doğrusu, bu döyüş məni lap candan saldı. Elə yorulmuşam ki...

2-c i d i v. Məni demirsən, heç ayaqlarımı tərpədə bilmirəm.

3-c ü d i v. Bir az yatsaq, yorğunluğumuz çıxar

1-c i d i v. Doğru deyirsən, mən yatdım.

Divlər uzanıb yatırlar. Zorba paltarı başının altına qoyub xorna çəkir. Bir az sonra Lələş sandığın ağzını yavaşca qaldırıb baxır, tez yenə başını çəkir. Bir az sonra yenə sandığın ağzını açıb qorxa-qorxa divlərə baxır. Yenə tez başını çəkir. Üçüncü dəfə sandığın ağzını açıb bir az baxdıqdan sonra sandıqdan çıxır, qaçmaq istərkən Zorba tərpənir. Lələş qorxub ağaca dırmanır. Nə qədər ağacdan enib qaçmaq istəyir mümkün olmur. Çünki hərdənbir cin tərpənirdi. Zorba oyanır. Başının altından paltarı götürüb sandığa qoymaq istərkən.

Z o r b a. Mənim sandığımı boşalmışlar. (*Divlərə yanaşıb, ayağı ilə onları oyadaraq)* Ey, qalxın!

1-c i d i v (*yuxulu*). Nə deyirsən?

Z o r b a. Mənim sandığımı kim boşaltmışdır?

1-c i d i v (*yuxulu*). Bilmirəm.

O biri böyrünə çevrilir. Zorba hirslənir, ayaqları ilə onları təpikləyib oyadır.

Z o r b a. Qalxın, mənim şeylərimi verin!

2-c i d i v. Nə şeylər?

3-c ü d i v. Nə istəyirsən?

Z o r b a. Qalxın, mənim şeylərimi verin!

1-c i d i v. Nə şeylər?

Z o r b a (*sandığı göstərir*). Baxın bomboşdur. Bunun ağırlığı mənim kimi Zorbanın çiynini salırdı. Deyin görüm, bu şeylər nə oldu?

2-c i d i v. Bizim xəbərimiz yoxdur.

Z o r b a. Necə xəbəriniz yoxdur?.. Bəs bunları yer yeyib, göyəmi çıxıb?

3-c ü d i v. Biz nə bilək...

Z o r b a (*toppuzu qaldırır*). Bu saat mənim şeylərimi verin!.. yoxsa...

1-c i d i v. Bizi toppuzla qorxutma!..

Z o r b a. Canınızı da alaram.

Zorba divlərə, divlər də Zorbaya hücum edirlər. Zorba onları bir-bir öldürür, onların şeylərini götürüb gedir. Lələş ağacdan düşmək istərkən İ f r i t ə C a d u ilə Ş i m ş a d gəlirlər.

İ f r i t ə c a d u. Bizim divləri kim öldürmüş?

Ş i m ş a d. Elmandan başqa kim ola bilər? Hayıf ki, əlimə düşmədi, pəncəmizdən yaman qurtuldu. Mən tufana dönüb onu arxadan top kimi havaya fırlatdım, qayalara düşüb parça-parça olacaqdı.

İ f r i t ə c a d u. Simurq quşu isə qanadlarında götürüb apardı.

Ş i m ş a d. Deməк, o hələ sağdır! (*Sandığı görür, gəlib oturur)* Bu mənə lazım olar.

İ f r i t ə c a d u. Gedək... Elmana əncam çəkmək lazımdır.

Gedirlər. Lələş ağacdan qorxa-qorxa enir... Qaçmaq istərkən Şahmar əlində toppuz ona tərəf gələn Lələşə bağırır.

Ş a h m a r. Ey, kimsən? (*Lələş qorxub geri çəkilir, Şahmar yanaşır)* Sən kimsən?

L ə l ə ş. Vay, yağışdan çıxdım yağmura düşdüm.

Ş a h m a r. Ey, kimsən?..

L ə l ə ş (*özünü karlığa qoyur*). Sən nə dedin?

Ş a h m a r. Bu ki kardır. (*Ucadan deyir)* Sən kimsən?

L ə l ə ş. Mən? Mən?..

Ş a h m a r (*ucadan*). Ha, sən.

L ə l ə ş. Mən pəhləvanam.

Ş a h m a r. Yoxsa dəmirçi oğlu Elmansan?

L ə l ə ş (*əlini qulağına qoyur*). Nə?..

Ş a h m a r. Deyirəm yoxsa dəmirçi oğlu Elmansan?

L ə l ə ş (*gülərək*). Eh, Elman nədir? Mən Elmana, Tuğana, Aslana pəhləvan demirəm, onlar mənim qarşımda pişik kimi miyoldayır.

Ş a h m a r (*heyrətlə ona baxaraq*). Paho!.. Adın nədir?

L ə l ə ş Ha?..

Ş a h m a r (*ucadan*). Adın nədir?

L ə l ə ş. Adım?

Ş a h m a r. Ha, adın...

L ə l ə ş. Adım Lələş pəhləvandır. Soruşmaq ayıb olmasın, sən kimsən?

Ş a h m a r. Mən ovçuyam...

L ə l ə ş. Nə?..

Ş a h m a r. Ovçuyam...

L ə l ə ş. Ovçu? (*İstehza ilə gülərək)* Sən mənim kimi ovçu ola bilməzsən!.. Mən göydə uçan durnaları dimdiyindən vururam. Böyük qayaları, ağacları kökündən qoparıb atıram.

Ş a h m a r (*tərəfə*). Paho, bundan qorxmaq gərək! (*Ucadan)* Görünür zor pəhləvansan...

L ə l ə ş. Nə?..

Ş a h m a r (*yanaşır, ucadan*). Zor pəhləvansan!

L ə l ə ş. Bəs!.. Mən çöldə aslanları, qaplanları əlimlə tutub boğuram...

Şahmar ona heyrətlə baxır, sonra qorxa-qorxa bir az geri çəkilir.

Ş a h m a r. Bu pəhləvan mənim işimə yarayacaq. (*Yanaşır, nəzakətlə)* Lələş pəhləvan, gəl otur, danışaq ...

L ə l ə ş. Nə?.. Danışaq?..

Ş a h m a r (*yer göstərir, özü də oturur, ucadan*). Otur danışaq.

L ə l ə ş. Otur deyirsən, oturum...

Lələş qorxa-qorxa divin yanında oturur, div də ehtiyatla kənara çəkilir, heyrətlə Lələşə baxır.

Ş a h m a r (*ucadan Lələşə*). Deyirsən qayaları, ağacları kökündən qoparıb atırsan, aslanları, qaplanları əlinlə tutub boğursan? Bu güc sənə hardan?

L ə l ə ş. Yaxşı soruşursan, qulaq as, söyləyim. Bir gün ovda iki dağ öküzü vurdum, ikisini də çay qırağında bişirib, biroturuma yedim.

Ş a h m a r (*heyrətlə, ucadan onun qulağına*). Pah, iki öküzü bir gündə!

L ə l ə ş. Bəs necə? Pəhləvanın gücü yeməkdə bilinər. Yeməsə, güclü olmaz. Eh, öküz nədir, mən qaya boyda qarpızı yemişəm.

Ş a h m a r . Qaya boyda?

L ə l ə ş. Hə, bəs!.. Qaya boyda. Qulaq as, söyləyim. Bir gün Araz çayının sahili ilə gedirdim, qarşıma dağ boyda dəyirmi bir qaya çıxdı, baxıb gördüm qarpızdır. Qarpızın yanında böyük bir deşik vardı, içində üç tülkü balası, tülkü balalarını ayağımın altında əzib öldürdüm.

Ş a h m a r. Pah, dağ boyda qarpız, içində üç tülkü balası! (*Ucadan)* Pəhləvan, bu qarpızın tağı nə boyda idi?

L ə l ə ş. Ay sağ ol, yaxşı soruşursan, qarpızın tağını axtarıb gördüm, tağın kökü Araz çayının o biri sahilindədir. Tağ çayın üstündən körpü kimi uzanmış, üstündən at-eşşək, araba, adam keçir.

Ş a h m a r. Pah, nə qəribə qarpız imiş! Pəhləvan, o qarpızı neylədin?

L ə l ə ş. Nə?..

Ş a h m a r. O qarpızı neylədin?

L ə l ə ş. Neylədim? Baltanı götürdüm, qarpızı parça-parça doğrayıb, doldurdum tuluğa. (*Əli ilə qarnını göstərir)*

Ş a h m a r Pah, dağ boyda qarpız qarnına necə yerləşdi (Əli ilə qarnını göstərir).

L ə l ə ş. Yaxşı soruşursan. Qarın ki var. Tuluq kimi şeydir, basdıqca genişlənir. Qarpızı yedim, gecə qarnım şişdi, şişdi, şişdi üst tərəfi burnuma dəydi. Alt tərəfi ayaqlarıma sarıldı, özümü zor, güc evə çatdırdım.

Şahmar heyrətlə ona baxıb geri çəkilir.

Ş a h m a r. Pəhləvan, gəl qardaş olaq. Dar gündə mən sənə kömək edim, sən də mənə.

L ə l ə ş. Yaxşı, ol deyirsən olaq.

Bir-birinin əlini tuturlar. Şahmar o tərəf-bu tərəfə baxır.

L ə l ə ş. Niyə döyükürsən, yoxsa məndən qorxursan?

Ş a h m a r. Yox, düşmənin yolunu gözləyirəm. O, öz ayağı ilə gəlib bura çıxmalıdır.

L ə l ə ş. Yoxsa Elmanı axtarırsan?

Ş a h m a r. Yox, mənim o dünyaya göndərmək istədiyim bir qocadır.

L ə l ə ş. Eh, qocanı öldürməyə nə var?

Ş a h m a r. Bu qoca başqa qocadır. Hər işi sehrdir, cadudur. Mənə kömək etsən, sənə çoxlu pul verərəm, xəzinə verərəm. Mən yolunu qabaqdan kəsərəm, sən də arxadan.

L ə l ə ş. Nə deyirəm ki.

Bilici uzaqda görünür.

Ş a h m a r. Bax, odur gəlir, gəl, qardaş, gəl!

L ə l ə ş. Nə deyirəm ki (*titrəyir)* Bu, bu, bu!..

Ş a h m a r. Vay, pəhləvan, sən qorxursan, titrəyirsən...

L ə l ə ş. Ağlını başına yığ, titrəmək nədir? Mən acıqlananda, qollarıma güc dolanda titrəmək adətimdir. Bu, bu, bu!..

Ş a h m a r. Qardaş, gəl iki yandan hücum edək.

L ə l ə ş (*əyilir*). Əyil, əyil, səni görməsin, mən təpədən qılıncı götürüb gəlirəm.

Ş a h m a r. Tez gəl!

L ə l ə ş (*sürünə-sürünə gedir*). Uşaqsan, tülkünün meydanda nə işi var ki, dərisinə saman təpsinlər.

Birdən qarşısına E l m a n çıxır.

L ə l ə ş. Vay, ey adam, yazığın gəlsin.

E l m a n. Lələş!..

L ə l ə ş. Elman, sənsən?

E l m a n. Sən burda nə gəzirsən?

L ə l ə ş. Ova çıxmışdım.

E l m a n (*gülə-gülə*). Ova çıxmışdın?

L ə l ə ş. Hə, ova çıxmışdım, yaxşı ki, səsini tez çıxartdın, yoxsa səni ov bilib vurmuşdum.

Ş a h m a r (*səslənir*). Pəhləvan tez ol gəl!

E l m a n. O kimdir?

L ə l ə ş. Heç tanış bir pəhləvandır. Qocanı öldürmək istəyir, məni də köməyə çağırır.

E l m a n. Qoca kimdir? (*Tez o tərəfə baxır, Bilicini görüncə)* Nə sevimli qocadır! Üz-gözündən nur yağır.

Şahmar əlindəki ox ilə onu nişan alıb vurmaq istəyir, qoca əsəbi baxışlarla ona baxır.

E l m a n. Ey, dayan!.. Nə edirsən?!

Ş a h m a r. Çəkil, onu öldürmək mənə buyruqdur.

E l m a n. Yox, o ölməyəcək, onu salamat saxlamaq da mənə buyruqdur.

Ş a h m a r. Sən Quzğun şahın iradəsinə qarşı çıxırsan?! Ey bəni-insan, bu sənə ucuz başa gəlməz. Qarşındakı o tilsimli dünyanın padşahı Quzğun şahın baş pəhləvanı Şahmardır. Çəkil yolumdan!

E l m a n. Aha, yaxşı yerdə ratslaşmışıq. Səni göydə axtarırdım, yerdə əlimə düşdün. De. Görüm, Dünya gözəli hanı?

Ş a h m a r (*qəhqəhə ilə gülür*). Ha... ha... ha... Dünya gözəli... De görüm sən kimsən?..

E l m a n. Mən dəmirçi oğlu Elmanam.

Ş a h m a r. Aha, dəmirçi oğlu Elman! Dünənki uşaq, ha... ha... ha...

L ə l ə ş (*uzaqdan*). Bəs, dəmirçi oğlu Elman odur?

E l m a n. Sən mənə Gözəlin yerini göstərməlisən!

Ş a h m a r (*toppuzu çəkir*). Al, göstərim sənə. (*Toppuz ilə Elmanı vurur)*

Elman onu rədd edərək ilk zərbədə qılıncla Şahmarı öldürür. Bu tilsimli pəhləvanın dərhal ölməsi onda təəccüb oyadır, heyrətlə qılınca baxır. Sonra Biliciyə tərəf gedir.

E l m a n. Gün aydın, baba!

B i l i c i. Aydınlıqlar içində! (*Elmanın qılıncına baxaraq)* Nə arzun var, oğlum?

E l m a n. Baba can, qılınca qalxan istəyirəm.

B i l i c i. Arxamca gəl!

Elman ilə qoca gedir. Ş i m ş a d əlində sandıq Lələşə yanaşır.
Lələş Elmana tərəf qaçır.

Ş i m ş a d. Ey, dur!.. Kimsən sən?

L ə l ə ş (*tərəfə*). Qoy buna da bir qorxu gəlim. (*Şimşada*) Mən? Mən pəhləvanam...

Ş i m ş a d. Bilirəm pəhləvansan ey igid oğlan!

L ə l ə ş. Sən hardansan?

Ş i m ş a d (*qorxa-qorxa*). Bu yaxın kənddənəm.

L ə l ə ş. O sandıq sənə hardan? O ki mənimdir!..

Ş i m ş a d. Sənindir?

L ə l ə ş. Bəli, mənimdir. Mən onun içində oturub göylərə uçuram.

Ş i m ş a d (*tərəfə*). Dinmə, bu Elmandır (*Lələşə)* Sizə Simurq quşunun qanadları üzərində uçmaq daha çox yaraşır. Siz sandığı neyləyirsiniz?

L ə l ə ş. Mən onda uçuram, uçuram.

Ş i m ş a d. Sənin kimi böyük pəhləvan bu sandığa necə sığışar?

L ə l ə ş. Elə yaxşı büzülüb sığışıram ki!..

Ş i m ş a d. Yox, inanmıram, pəhləvan.

L ə l ə ş. İnanmırsan?

Ş i m ş a d. Yox, inanmıram.

L ə l ə ş. (*sandığı dartıb alaraq*). Mən səni inandıraram. (*Sandığa girib büzülür)* Bax, belə!..

Ş i m ş a d (*tez sandığın ağzını örtür*). Ha, ha, ha... Dəmirçi oğlu Elman sandıq içində. Quzğun şaha ən böyük hədiyyə!

Q u z ğ u n ş a h, v ə z i r və d i v l ə r gəlir.

Ş i m ş a d (*baş əyərək*). Padşahım, sizə çox böyük hədiyyə gətirmişəm. (*Sandığı göstərir*).

Q u z ğ u n ş a h. Nədir o?

Ş i m ş a d. Dəmir oğlu Elman!

Q u z ğ u n ş a h. Necə, Elman?! Çıxarın onu sandıqdan.

Şimşad sandığın yanında fırlanır, divlər sandığın ətrafını alır, Şimşad sandığın ağzını açır.

Ş i m ş a d. Çıx sandıqdan!

L ə l ə ş (*başını çıxarıb divlərə baxır, qorxa-qorxa*). Bu...ba... ba...ba...ba...

V ə z i r (*acı-acı gülərək*). Bu Elman deyil. Siz kimi tutub gətirmisiniz?

Q u z ğ u n ş a h. Çıx sandıqdan!..

Şimşad onun qolundan tutub çıxarır.

L ə l ə ş (*qorxa-qorxa onlara baxıb titrəyir*). Bu... ba... ba... ba...

Q u z ğ u n ş a h. Adın nədir?

L ə l ə ş. Adım? Lələş!

V ə z i r (*gülə-gülə*). Aslan yerinə dovşan tutmuşlar. (*Lələşə)* Sən nəçisən?

L ə l ə ş. Nə?

V ə z i r. Nəçisən?

L ə l ə ş. Mən?.. mən... (*sol qolunu saz kimi uzadır, sağ barmağı ilə çalaraq*) Belə var ha!..

Q u z ğ u n ş a h. Belə nədir?

L ə l ə ş. Belə, belə... çalğıçıyam.

V ə z i r. Yaxşı çala bilirsənmi?

L ə l ə ş. Hə, yaxşı çalıb-oxuyuram. Mən oxuyanda bülbüllər susur, qurbağalar qur-qur quruldaşır.

Divlər gülüşür. Lələş qolunu saz kimi çalır, divlər oynamağa başlayır.

Q u z ğ u n  ş a h. Bunu götürün saraya, çalıb-oxusun, bəlkə gözəlin könlü açılar. (*Şimşada*) Yalançı pəhləvanlar! Tanımadığınız Elmanı Gözəllər kəndində havaya necə fırıllatdınız? Görünür hər sözünüz yalandır. (*Acıqlı*). Quzğun şahın əmri qətidir. Ya Elmanın başı gəlməli, ya da sənin başın yerindən üzüləcək.

Ş i m ş a d. Əmrinizə itaət borcumuzdur, şahim!

Divlər lələşi əlləri üstündə aparırlar. Quzğun şah, vəzir, Şimşad gedirlər.

E l m a n (*əlində qılınc və qalxan görünür*). Ey gözəl ölkə, ey bərəkətli torpaq, hər zaman bahar qoxusu verən sevimli ana qoynunda indi düşmənlər yatır. (*Sayırma qılınc ilə getmək istərkən yer yarılır əllərində zəncir dörd div çıxır)*

D i v l ə r. Dayan, oğlan, dayan! Gəl sən də bu zəncir altına gir!

E l m a n. Mən əsarət zənciri altına girmək üçün yox, o zənciri parçalamaq üçün doğulmuşam. (*Hücum edir, divlərdən ikisini öldürür, ikisi qaçır)*

Səs-küy çoxalır, qorxunc səslər gəlir. İ f r i t ə  c a d u  Ü l k ə r, qiyafəsində Elmana yanaşır.

İ f r i t ə  c a d u. Ey gənc qəhrəman, xoş gəlmisən!..

E l m a n. Sən kimsən?

İ f r i t ə  c a d u. Mən Dünya gözəlinin rəfiqəsi Ülkərəm.

E l m a n. Xatırlayıram.

İ f r i t ə  c a d u. Dünya gözəli düşmən əlində əsirdir, onu qurtarmaq lazımdır.

E l m a n (*başını köksünə dikərək*). Gözəl! Gözəl!

İfritə cadu əlində kösöy fırlanır, yer yarılır, Elman qurşağa qədər yerə batır, ətrafını alov bürüyür.

İ f r i t ə  c a d u. Ha, ha, ha!.. Dəmirçi oğlu, gecikmə, Dünya gözəli yolunu gözləyir.

E l m a n. Ah, yandım, yandım, hiyləgər qarı!

Divlər şənlik edir, oynayır.

İ f r i t ə  c a d u. Sən ömrün uzun bu atəş içində yanacaqsan!

Əllərini bir-birinə vurur hamı gedir.

E l m a n. Ah, Gözəl... Gözəl!..

Bilici gəlir.

B i l i c i. Uğur olsun, elin igid oğlu!..

E l m a n. Uğurlar olsun baba, mənmi igidəm?

B i l i c i. Sən! Sən!

E l m a n. İgid olsaydım Gözəlim düşmən əlində əsir, mənim də boynumda odlu zəncir olmazdı.

B i l i c i. Oğlum, dağ başına qış düşər, igid başına iş. İldırım hər zaman uca yerlərə düşər. Söylə, əsir olan Dünya gözəlini düşmən pəncəsindən kim qurtaracaq? Qorxaq, bacarıqsız adamcığazlarmı? Yox, onu xalqın sənin kimi namuslu, igid oğlanları qurtaracaq.

E l m a n. Yandım, yandım! Bu tilsimdən qurtula bilsəydim!

B i l i c i. Düşünmə, oğlum! Səni qurtaracaq əllər az deyil! (*Əli ilə işarə edir)*

Ey səadət çiçəkləri,
Bilik, hünər mələkləri!

Yaşıl otlar içindən qızıl gül, lalə, bənövşə, qərənfil, zanbaq şəklində qızlar çıxaraq, Biliciyə yanaşır.

Q ı z l a r Salam, salam, qoca baba!
Ey Bilici uca baba!
Sənsən verən işıq, bilik,
Hər əmrinə baş əyirik.

B i l i c i. Dardadır elin vicdanı;
Qurtarın bu qəhrəmanı!

Qızlar Elmana yanaşır. Bilici yavaş-yavaş çəkilib gedir. Qızlar Elmanın ətrafında dolaşır.

Q ı z l a r. Sən ey cadu atəşi, sön!
Tilsim, qırıl, boz külə dön!

lman özünü azad hiss edincə qızlara yanaşır.

E l m a n.
Kimsiniz, ey gözəl qızlar?
Sizdə bilik və hikmət var.

Q ı z l a r. Bizik elin dilbərləri.
E l m a n. Solmaz çiçəkdir hər biri.

Ey gəlinlər, qönçə qızlar,
Sizi gördüm, yarı andım;
Ürəyimin başı sızlar,
Bağçalarda barı andım.

Bostanımın göy tağında,
Elimin zümrüd bağında,
Yeniyetmə gül çağında
Şamamanı, narı, andım.

Sönməz yanğın var canımda,
Qurdlar gəzir ormanımda,
Əsir düşmüş ceyranımda
Şimşək baxışları andım.

Q ı z l a r Durma, söylə kimsən, oğlan?
E l m a n. Dəmirçiyəm, adım Elman.
Q ı z l a r. Söylə kimdir, o sevgilin,
Qızdır, qadındır, ya gəlin.
E l m a n

Dünyada yox ona bədəl,
Adı Gözəl, özü gözəl.
Bu ellərin ürəyidir,
Uca, sönməz diləyidir.

O nazlı dilbəri röyada gördüm,
Dağınıq saçını daradım, hördüm,
Yollarda hər eldən, oymaqdan sordum;
Sevgilim canandan xəbər verən yox.

Sizə çox bənzərdi boyu, buxunu,
Baxışı, gülüşü, incə tül donu.
Günəşdən, ulduzdan, soruşdum onu,
O pəri vicdandan xəbər verən yox.

Qara, gur saçından on dörd hörük var,
Ağlarkən gözündə incilər parlar;
Yalvardı: – Divlərdən gəl məni qurtar!
O zalım düşməndən xəbər verən yox.

1-c i  q ı z.

Ey namuslu, gözəl oğlan,
Sənə qıymaz əcəl oğlan!
Üz-gözündən uçsun kədər,
Otur bir az, dincəl, oğlan!

2-c i  q ı z.

Qaranlıqdan doğar səhər,
Günəş gülər şən elinə,
Qarşında var şanlı zəfər,
Qovuşarsan gözəlinə.

3-c ü  q ı z.

Bu elin gözəli alma bağında,
O zümrüd qəsirdə, div qucağında,
Ləkələr düzülmüş al yanağında,
Gecə-gündüz ağlar, oğlan, durma get!

4-c ü  q ı z .

Göyəmli dağların qatı bucağı,
O quldur divlərin olmuş yatağı.
Elinə, ölkənə onlardır yağı,
Qurşan qılınc, qalxan, oğlan, durma, get!

1-c i  q ı z .

Qəlbində sıxıntı, qayğı, kədər var.
Gözləri yolunda çəkər intizar.
Yaşlar kirpiyindən inci tək axar,
Göy, tanrı olsun yar, oğlan, durma, get!

Qızlar yox olur, Elman heyrətlə onların dalınca baxır.

E l m a n. Ah, ölkəmin parlaq günəşi sönmüş, canlı çiçəkləri solmuş, coşqun çayları qurumuş. Bax nələr olur! Dünya gözəli yadlar qucağında saralıb solur.

Ş i m ş a d  ilə  İ f r i t ə  cadu görünür. Ağac altında bir-birilə gizlin danışırlar. Şimşad qoca falçı qiyafəsində, ifritə əlində böyük bir kitab Elmana tərəf gəlir.

E l m a n. Gün aydın, baba!

Ş i m ş a d. Aydınlıqlar içində, oğlum! Sən bu yerlərdə nə gəzirsən?

E l m a n. Baba, qiymətli bir ov itirmişəm, onun sorağında gəzirəm.

Ş i m ş a d. Bilirəm, oğlum, bilirəm, o ov tək sənin üçün qiymətli deyil, bütün el-oba üçün qiymətlidir.

E l m a n. Baba, sən kimsən, əlindəki o kitab nədir?

Ş i m ş a d. Mən insanların gələcəyini göstərən qəzavü-qədər mələkiyəm. Bütün insanların başına gələn bu kitabda yazılmışdır.

E l m a n. Elə isə, bax, gör bu səfərdə mənə nə görünür?

Ş i m ş a d (*Kitabı vərəqləyib Elman baxır*). Sən dəmirçi oğlu Elman deyilsənmi?

E l m a n. Dəmirçi oğlu Elmanam, baba!

Ş i m ş a d. Dünya gözəli Quzğun şahın sarayındadır. Sən onun sorağında gəzirsən.

E l m a n. Doğrudur, baba, doğrudur. Mən o Dünya gözəlini bir də görə biləcəyəmmi?

Ş i m ş a d (*kitabı vərəqləyərək*). Oğlan, bu qara xəbəri sənə necə söyləyim?

E l m a n. Tez söylə, kitabda nə görünür?

Ş i m ş a d. Söyləyim, ancaq yolun gedər-gəlməzdir.

E l m a n. Məni heç bir şey qorxuda bilməz.

Ş i m ş a d. Oğlan! Gəncliyinə yazığın gəlsin, bu yol başdan-başa ölüm və fəlakətdir. Bu yoldan qayıt, getsən, salamat qayıtmayacaqsan.

E l m a n. Onunla görüşmədənmi öləcəyəm?

Ş i m ş a d (*kitabı vərəqləyərək*). Oğlan, yolunda can qoyduğun Dünya gözəli səni çoxdan unutmuş, Quzğun şahın sarayında gecə-gündüz kefdə, eyş və işrətdədir.

E l m a n (*qılıncını sıyıraraq*). Sus, qoca falçı!

Ş i m ş a d. Mən neyləyim, kitab belə göstərir.

E l m a n. Tfu sənə, tfu sənin kitabına! (*Acıqlı gedərkən İfritə cadu bir qadın qiyafəsində quyu ağzında saçlarını yolub ağlayır. Elman ona yanaşır)* Nə üçün ağlayırsan, xala?!

İ f r i t ə c a d u. İgid oğlan, o boy-buxununa canım qurban, balamı səndən istəyirəm. (*Qarşısında diz çökür)*

E l m a n. Balana nə olmuş?

İ f r i t ə c a d u. Quyuya düşdü. Ah, yazıq balam, yazıq balam!

E l m a n. Necə oldu düşdü!

İ f r i t ə c a d u. Kəndə gedirdik, bir az dincəlmək üçün quyu ağzında oturduq, quyu başında uşaq oynayırdı, birdən ayağı sürüşüb yıxıldı. Elə bil uşağı əl ilə götürüb quyuya atdılar. İgid oğlan, qoluna, gücünə mən qurban, qurtar balamı! (*Ağlar)*

E l m a n. Ah, ana naləsi, övlad həsrəti nə yaman olurmuş! Kəndiri ver bura!

İ f r i t ə c a d u. Al, oğlum al, balamı salamat mənə çatdırsan, ölüncə sənin qulun olaram. (*Elman kəndirin bir ucunu qalın ağaca, bir ucunu da belinə bağlayıb düşmək istəyərkən*) Oğlum, ver qılıncını mən saxlayım.

E l m a n. Yox, o, başqa ələ verilməz, atamdan yadigardır. (*Quyuya düşmək istərkən)* Xala, mənə xeyir-dua ver!

İ f r i t ə c a d u. Sağ get, salamat qayıt, ürəyində heç arzun qalmasın! (*Elman yavaş-yavaş quyuya enir. İfritə cadu kəndiri ağacdan açır. Elman quyuya düşür. İfritə cadu qəhqəhə çəkərək)* Dünya gözəlini qurtarmağa gedən oğlan, get qaranlıq dünyada, divlər ölkəsində, ilan-çayanlarla yaşa! Oradan sənə qurtuluş yoxdur!

Ş i m ş a d (*əlində kitab gəlir*). Başını əkdinmi?

İ f r i t ə c a d u. Elə əkdim! Quyuya kəlləmayallaq getdi.

Ş i m ş a d. Gedək, görək nə oldu?

İ f r i t ə c a d u. Gedək, gedək!

P ə r d ə

## BEŞİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Səhnə Quzğun şahın zülmət kimi qaranlıq ölkəsini təsvir edir. Susuz, çılpaq çöl, arabir şiddətli külək əsir, ətrafdan qorxunc səslər gəlir.

E l m a n. Mən hardayam? Bu qorxunc səslər nədir? Ah, məni Gözəlimin üzünə həsrət qoyan azğın düşmən! Pərdə dalında gizlənmə, gəl mərd kimi qarşıma çıx! Qolumun gücünü gör, qəlbimin öcünü.

Dörd ətrafını qılınclayır. Şimşad ilə İfritə cadu kəndli qiyafəsində arxalarında şələ odun gəlirlər.

İ f r i t ə c a d u. Ey, sən kimsən? Divlər ölkəsində nə gəzirsən?

E l m a n. Məni uca diləyim bu yerə atmışdır. Siz kimsiniz?

İ f r i t ə  c a d u. Bu yerdə divlərin qorxunc səsindən, aslanların müdhiş nərəsindən insanın ölü partlayır, sən bu yerlərə necə gəldin?

E l m a n. Məni bir qarı aldatdı.

İ f r i t ə  c a d u. Bilirəm, o, insanların düşməni İfritə cadudur. O çoxunu aldadıb bu susuz çöllərdə məhv etmişdir.

E l m a n. Bu ölkə kimindir? Bu yerlərdə kimlər yaşayır?

İ f r ə t ə  c a d u. Yazıq! Divlərin qorxunc nərəsini eşitmirsənmi? Bura Quzğun şahın torpağıdır.

E l m a n. Elə isə səadət düşməninin yerini mənə nişan verə bilərsənmi?

İ f r ə t ə  c a d u. Neyləyirsən? O sənin nəyinə gərək?

E l m a n. Mənim bütün varlığım, xalqımın səadəti onun əlindədir.

İ f r i t ə  c a d u. Bilirəm, bilirəm, Dünya gözəli!

Oğlan, sən sevdiyin quş
Başqa budağa qonmuş.
Quzğun şahın əlinə
Düşmən tapmaz qurtuluş.

E l m a n.
Bir-birinə dəysə yer, göy, ey ana.
Mən yanağı solmazımdan keçmərəm!
Ürəyimin tellərini oynadan
Gül-çiçəkli şən yazımdan keçmərəm!
Al dodağı, gül camalı can alır,
Al buxaqda qoşa xalı can alır.
Hər baxışı, hər xəyalı can alır,
Yad budağa qonmazımdan keçmərəm!

İ f r i t ə  c a d u. Onu unut, oğlan! Quzğun pəncəsinə düşən geri qayıtmaz!

E l m a n. Xala, sən onu mənə göstər, dalısınca işin olmasın.

İ f r i t ə  c a d u. Görünür igidsən, qolunun gücünə çox güvənirsən, gəl igid oğlan, gəl, Quzğun şahın sarayını sənə göstərim, get sevgilini qurtar. Quzğun şahı öldür, bizi də xilas et! (*İfritə cadu ağacı ilə yerə cız çəkir və səhnəni dörd dolanıb durur. Elmana istehza ilə baxaraq, qəhqəhə ilə gülür)* Ha... ha... ha... Oğlan, ömrün uzunu cız çəkdiyim, bu dairədən dışarı çıxa bilməyəcəksən! Mən getdim, sağ ol!

Elman səhnəni dörd dolanır, hər tərəfə gedir, cızdan dışarı çıxa bilməyir... Uzaqdan ona qəhqəhə ilə gülürlər. Elman acığından havanı qamçılayır, əsəbi hallar keçirir. Bu zaman çalğı səsi ucalır. Əllərində məşəl bir neçə çirkin qiyafəli adam görünür, onlar çalıb oxuyur. O səsdən ağaclar, yarpaqlar, hər şey, hətta Elman da oyanır.

O n l a r o x u y u r.

Yer oynayır, göy oynayır,
Dərə, təpə, dağ oynayır,
Ağacda yarpaq oynayır.
Hər oynayan şən oynayır,
Önümdə düşmən oynayır.

Səsi kəsilir Elman oynamaqdan yorulub bihuş yerə yıxılır. Elman gözlərini açıb dəhşət və həyəcan içində ətrafa baxarkən Bilici ona yanaşır.

B i l i c i. Qalx, oğlum, qalx, polad döyülməsə bərkiməz. Səni bu fəlakətdən yalnız bilik və cəsarət qurtaracaq! (*Bilici görünməz olur)*

E l m a n. Ah, bu fəlakətli çöllərdə mənə ürək verən kimdir? Yoxsa öz vicdanımın səsidir? Ah, məni Gözəlimə həsrət qoyan düşmən, sənin tilsimlərini qıra bilsəydim!

Şimşad qoca bağban qiyafəsində görünür. Elman heyrətlə ona baxır.

Ş i m ş a d. Oğlan, söylə sən kimsən?
E l m a n. Yol azmış yolçuyam.
Ş i m ş a d. Burda neyləyirsən?
E l m a n. Divlər torpağındayam.

Gözəl ov itirmişəm,
Gəzirəm, sorağındayam.

Məni düşmənlər bu yerə atmış; bu ölkədə qarşıma çıxanlar mənə dost kimi yanaşmış, düşmən kimi ayrılmış. Bilmirəm sən dostsan, ya düşmən?

Ş i m ş a d. Məndən arxayın ol. Görürəm, igidsən, igidlər üçün isə edilən yaxşılıq batmır. Bu qoca bağban sənə hər cür kömək etməyə hazırdır.

E l m a n. Baba can, səndən bircə xahişim var, işıqlı dünyanı belə zülmətə çevirən Quzğunun sarayını mənə nişan verəsən. Başqa heç bir şey istəmirəm.

Ş i m ş a d (*heyrətlə*). Quzğun şahın sarayı?.. O sənin nəyinə lazım?

E l m a n. Sevgilim Dünya gözəlini onun pəncəsindən qurtarmaq istəyirəm.

Ş i m ş a d. Dünya gözəlini?.. O sənin nəyindir?

E l m a n. O mənim qəlbimdir, həyatımdır. Sən onu tanıyırsanmı?

Ş i m ş a d. Eh, səni bəxtin çəkib buraya gətirmişdir. Bu saat Gözəlinə səni qovuşdursam, nə verərsən?

E l m a n (*həyəcanla).* Bütün ömrüm uzunu bir qul kimi sənə qulluq edərəm. Tez söylə, Gözəlim hardadır?

Ş i m ş a d. Gözəlin bu yaxında, Quzğun şahın sarayındadır. Sənsiz yaman darıxır, hər gün mənim bağıma gəlir, oturub dərdləşirik. Eh, oğlum, mənim də başımda böyük faciələr var. Sonra danışıram. Gözəl hər gün səndən danışır. Sən dəmirçi oğlu Elman deyilsənmi?

E l m a n. Dəmirçi oğlu Elmanam!

Ş i m ş a d. Gəldiyini gedib ona xəbər verimmi?

E l m a n. O tərlan baxışlı, ceyran yerişli Gözəlimin əlini əlimə versən, min canım olsa sənə qurban edərəm.

Ş i m ş a d. Darıxma, oğlum, sən otur, dincəl, mən onu çağırım. (*Gedir)*

E l m a n (*həyəcanlı*). Qəlbim deyir, ağlım isə inanmır. Bu qoca mənə sadiq olsa, Quzğun şah mənim əlimdən qurtara bilməz. Ah, Gözəl, Gözəl!

Görünür qovuşmaq zamanı gəlir,
Ayrılıq həsrəti qəlbimi dəlir.
Ürəyim çırpınır, əsir quş kimi
Acıqlı naləsi göyə yüksəlir.

İ f r i t ə c a d u Dünya gözəli qiyafəsində gəlir, E l m a n ı görüncə

İ f r i t ə c a d u. Dünya gözəli qiyafəsində gəlir, Elmanı görüncə

İ f r i t ə c a d u. Ah, Elman, Elman, sən gələn yollara canım qurban!

E l m a n (*qollarını açaraq qucaqlaşırlar*). Ah, qəlbim, sevincim, ölmədim, üzünü bir də gördüm.

İ f r i t ə c a d u. Elman, tez ol qurtar məni bu zindandan.

E l m a n (*çəkilərək*). Ah, nəfəsin qəlbimi yandırdı. Sən Gözəl deyilsən, onun nəfəsi saf bahar səhərindən daha ətirli idi.

İ f r i t ə c a d u. Ey köməyim, sən məndən qaçırsan? Yoxsa məni daha sevməyirsən?

E l m a n. Çəkil İfritə cadu!

İ f r i t ə c a d u. Elman, Elman, yaxın gəl, həyat sənsiz mənə zindandır.

E l m a n. Ah, xain qadın, dodaqlarım od tutub yanır, ürəyim döyünür, gözlərim qaralır, başım dəyirman daşı kimi fırlanır.

İ f r i t ə  c a d u  odlu kösöy ilə ona hücum edərkən Bilici gəlir, əlindəki uzun çubuqla kösöyü vurur.

B i l i c i. Qırıl ey tilsim, qırıl!

B i l i c i E l m a n a görünmədən çəkib gedir. İ f r i t ə  c a d u E l m a n a yanaşan kimi, onu qılıncla vurur.

E l m a n. Yaxın gəlmə!

İ f r i t ə  c a d u aldığı yaradan bağırıb yerə yıxılır, dəhşətli səslə ufuldayır. E l m a n ona yaxınlaşıb qılınc ilə bir də vurur. İ f r i t ə  c a d u bağırır, hava qaralır, külək qopur.

E l m a n. Ən qorxunc bir düşmənimi öldürdüm. Ancaq hələ tilsimdəyəm, Gözəli qurtarmaq ümidim azdır.

Ətrafı qılınclayır, G ö z ə l görünür.

D ü n y a  g ö z ə l i. Elman, yel ol, sel ol, gəl məni qurtar!

E l m a n həyəcanla D ü n y a  g ö z ə l i n ə  tərəf gedir. Gözəl yox olur, Elman yerində mıxlı kimi qalır. Bir daş üstündə oturur.

E l m a n. Ah, röya kimi göründü, xəyal kimi yox oldu.

Çırpındım uçmağa sən qonan yerə,
Qanadım bağlıdır, qolum zəncirli.
Qorxunc bir lövhədir hər bir mənzərə,
Ürəklər paslıdır, vicdanlar kirli.

Bu çöldə görmədim şən ötən bir quş,
Hər yanda ulaşır canavar, bayquş.
Tilsimlər içində ölsəm də, gec, tez
Gözəlim tapacaq, zəfər, qurtuluş.

Çəkil ey qaranlıq, dağıl ey duman,
Mənimlə gəl oyun oynama, düşman!
Elimdə analar, oğullar doğmuş
Hər biri Elmandan daha qəhrəman.

B i l i c i. Uğur olsun, Elman! Sən bu divlər ölkəsində nə gəzirsən?
E l m a n (*acıqlı*). Çəkil ey div, çəkil, yaxın gəlmə! (*Qılıncını qaldırır)*
B i l i c i. Sənə nə olmuş, öz köhnə dostunu nə tez unutdun?
E l m a n (*acıqlı*). Sənə çəkil deyirəm!
B i l i c i. Oğlum! Mən səni qurtarmağa gəldim.

E l m a n. Hər gələn bu dadlı vədləri verir, dost kimi yanaşır, düşmən kimi ayrılır. (*Özünün tilsim içində olduğunu bildirmək üçün çırpınır)*

B i l i c i. Dayan, qılınc açmayanı bilik açar. Qırıl, ey tilsim, qırıl! (*Əlindəki çubuğu yerə vurur. Elman özünü azad hiss edir)*

E l m a n. Ey məni bu odlu tilsimdən qurtaran insan, söylə sən kimsən? Mənim ən ağır günlərimdə, ən çətin zamanlarımda köməyə gəlirsən. Tez söylə, sən kimsən?

B i l i c i. Mən sənin mərdliyin, Vətənin, dostunam.

E l m a n. Bilirəm, sən mənim ən əziz, ən sevimli qayğıkeş bir dostumsan. Ancaq kimsən? Səni and verirəm yer üzünə aydınlıq saçan günəşə, söylə sən kimsən?

B i l i c i. Oğlum, mən qoca Biliciyəm.

E l m a n (*önündə diz çökərək*). Ey ürəklərə, ağıllara işıq, elə, ölkəyə yaraşıq verən böyük Bilici, uğurlar olsun!

B i l i c i (*onun əlindən tutub qaldırır*). Elin, ölkənin namuslu oğlu, qalx! Bəxtiyar olmaq istəyirsənsə, məndən ayrılma! Qılınc açmayanı bilik açar.

E l m a n. Əmin ol, ata can! Səndən heç bir zaman ayrılmayacağam. Sənə min təşəkkür, Bilici baba!

Bilici ona parlaq bir gövhər verir.

B i l i c i. Al bu gövhəri, canından əziz saxla, o səni hər çətinlikdən qurtarar.

E l m a n gövhəri alıb baxır, onu hər tərəfə çevirir, bir rəng verir,
şəfəqlər içində yanır.

E l m a n. Bilici babanın əziz yadigarı, səni qəlbimin içində saxlayacağam. (*Bilicinin qarşısında diz çökərək)* Baba can, gözü yolumda qalanlar var.

Bilici onun qolundan tutub qaldırır və alnından öpür.

B i l i c i. Get, oğlum, get, gülə-gülə,
Uğur olsun səfər sənə!
Bayram gətir yaslı elə,
Gülsün şanlı zəfər sənə!

E l m a n (*Bilici babanın əlini öpdükdən sonra*). Hazır ol, əsarət, zülmət! Bütün biliyimlə, qüvvətimlə silahlanıb gəlirəm!

P ə r d ə

## BEŞİNCİ PƏRDƏ

İKİNCİ ŞƏKİL

Səhnə Quzğun şahın sarayını təsvir edir. Dünya gözəli qəmli-qəmli oturub Elmanın yolunu gözləyir.

D ü n y a g ö z ə l i. Uf, Elman, Elman!..

Sünbülə dən düşəndə,
Çöllərə çən düşəndə,
Ağlım başımdan oynar,
Yadıma sən düşəndə.

L ə l ə ş (*əlində saz gəlir*). Gözəl!..

D ü n y a g ö z ə l i. Sənsənmi, Lələş?!

L ə l ə ş. Mənəm, Gözəl, mənəm!

D ü n y a g ö z ə l i. Elmandan nə xəbər?

L ə l ə ş. Bir xəbər yoxdur.

D ü n y a g ö z ə l i. Divlərdən soruşmadınmı?

L ə l ə ş. Soruşdum, deyirlər, boz çöllərdə əsirdir.

D ü n y a g ö z ə l i. Bu tilsim və əzablara ancaq o dözə bilər.

L ə l ə ş. Gözəl, eşitdinmi?.. Quzğun şahın pəhləvanı Şahmar ilə vuruşda mən olmasaydım, Elmanı öldürmüşdü... Oxu yaya qoyub Elmanı vurmaq istəyirdi ki, arxadan qollarını elə bərk sıxdım ki, yay, ox əlindən yerə düşdü. Elman fürsət tapıb qılıncı başında endirincə qan göyə fəvvarə elədi. Ancaq, bura bax, a... Gözəl, divlər xəbər tutmasın.

D ü n y a g ö z ə l i. İgid olduğunu çoxdan bilirəm.

L ə l ə ş. Sən bir dayan, Elman gəlsə, gör burada nə meydan açacağam!

D ü n y a g ö z ə l i. O gün olsun, Lələş!

L ə l ə ş. Qoy bir az çalım, oxuyum, ürəyin açılsın.

D ü n y a g ö z ə l i. Sən nə zamandan çalğıçı oldun?

L ə l ə ş. Neyləyim, məni divlər birdən yaxalayanda: "Ey , sən kimsən?" deyib soruşdular. Çarəm kəsilib, çalğıçıyam dedim. Əlimdə silahım olsaydı, mən bilərdim onlara neylərdim. Məni çəkə-çəkə gətirib: "Çal, Gözəlin ürəyi açılsın" dedilər.

D ü n y a g ö z ə l i. Mənim könlümü heç bir çalğı aça bilməz.

L ə l ə ş. Eh, görünür mənim çalıb-oxumağımdan sənin xəbərin yoxdur. Gözəl, səsim olduğunu mən özüm də heç bilmirdim. Mən çalıb

oxuyanda şadlığından divlərin başı fırlanır. Quzğun şah təxt üstündə çırtıq çalıb oynayır.

D ü n y a  g ö z ə l i. Mənim çırtıq çalmağa halım yoxdur, qalx, get!..

L ə l ə ş. Get deyirsən, gedərəm, ancaq səndən soruşsalar, çalıb, oxudu de.

L ə l ə ş gedir, D ü n y a  g ö z ə l i  əsəbi hallar keçirir.

D ü n y a  g ö z ə l i. Uğurlu zamanlar nə tez dolandı.
Ah, Elman, yoluna daşmı qalandı?
Başında yoxsa bir fəlakətmi var?
Yolunda dustağam, gəl məni qurtar!

*(Bir az düşündükdən, ah-nalə qopardıqdan sonra)*

Yaxdı məni qar, boran
Günəşli yaz gəlincə.
Qalmayacaq məndə can
Taleyim saz gəlincə.

Ey dan yeli, ey səhər,
Elmanımdan nə xəbər?
Kim Gözəli müjdələr,
Göllərə qaz gəlincə?

Xəbər apar o yara:
Gözəl çəkilmiş dara.
Tez göstərsin bir çara
Çatar, çatmaz gəlincə.

Q u z ğ u n  ş a h  gəlib Dünya gözəlinə yanaşır.

Q u z ğ u n  ş a h.
Xoş gördük, xoş gördük, sevimli dilbər.
Neçin gül üzündə oynayır kədər?
Onumu anırsan, nədir bu sükut?
Boş yerə üzülmə, Elmanı unut!
O çoxdan məhv oldu divlər əlində,
Qaranlıq dünyanın zülmətlərində
Ömrünün bağçası saraldı, soldu,
Al çiçəklərini yel, boran yoldu.

Ey canlı çiçək,
Elmandan əl çək!
Bu baxış, duruş
Nə qədər göyçək!..

Dünya gözəlinin əlindən tutmaq istəyir, Gözəl əlini çəkir.

D ü n y a g ö z ə l i.
Çəkil, çəkil, heç zaman,
Məni dardan da assan,
Nə qədər ki, canım var,
Qəlbimdən çıxmaz Elman!

Q u z ğ u n ş a h.
Parlayan bəxtinə bunca satma naz,
Məzara girən bir ölü qayıtmaz!
Gəl büllur sarayda quraq şən həyat,
Varım, şövkətimlə bir aləm yarat.

Ey canlı çiçək,
Elmandan əl çək!
O baxış, duruş
Nə qədər göyçək!

Əlindən yenə tutmaq istəyir, Dünya gözəli əlini çəkir.

D ü n y a g ö z ə l i. Nə yalmanırsan yenə,
Çəkil, əl vurma mənə!
Dünya alt-üst olsa da,
Könül verməræm sənə.

Quzğun şah acıqlı ayağını yerə döyür.

Q u z ğ u n ş a h. Hazır ol, hazır ol, İfritə cadu,
Mənim fərmanıma baş əyməyir bu.
Padişah əmrinə riza gərəkdir.
Əmrimdən çıxana cəza gərəkdir!

(Əlindəki qamçı ilə G ö z ə l i vurur)

İfritə cadudan neçin yox xəbər?
Yoxsa məhv olmuşdur sevimli dilbər?

Quzğun şah təşviş içindədir. Vəzir gəlir.

Q u z ğ u n ş a h (*vəzirə*). Vəzir, İfritə cadudan mənə bir xəbər! Yoxsa başında fəlakət var?

V ə z i r. Qorxma padşah, onun biliyi qarşısında bütün dünya əsirdir. Düşmənə o, başdan-başa bir fəlakətdir. Ona kim fəlakət aça bilər!

Q u z ğ u n ş a h. Yox, ürəyim heç sakit deyil!

V ə z i r. Bu qara xülyaya şahanə qəlbinizlə yol verməyin!.. Elman yel olsa, onun tozuna da çata bilməz. Kim bilir, bu vaxta qədər Elman yeddi kəfən çürütmüşdür.

Q u z ğ u n ş a h. Elə isə bu hardadır? Nə qədər çağırıram, bir xəbər yoxdur.

V ə z i r. Yəqin başı kef-işrət məclislərinə qarışmış. Sən düşünmə. (*Ayağını yerə vurur)* Şimşad, Şimşad!..

Yer yarılır, Ş i m ş a d hazır olur, şaha baş əyir.

Ş i m ş a d. Əmriniz, şahim!

Q u z ğ u n ş a h. Durma, İfritə cadudan mənə bir xəbər gətir!

V ə z i r. Tez!

Ş i m ş a d yerə çəkilir, vəzir əllərini bir-birinə vurur, baş xidmətçi hazır olur.

X i d m ə t ç i. Əmriniz?

V ə z i r. Tez məclis qurulsun, Əyyarı və Lələşi çağırın!

Q u z ğ u n ş a h. Mənim dilbər qurbağamı da unutmayın!..

Vəzir ilə Quzğun şah bir tərəfə çəkilir, dünya Gözəli fürsətdən istifadə edərək gedir. Quzğun şah taxtında oturur. L ə l ə ş və Əyyar gəlir, qurbağanı da gətirib şahın yanında qoyurlar. Şah qurbağanı oxşayır. Divlər səf çəkirlər.

V ə z i r (*Əyyara*). Başla görək!

Əyyar ortalığa atılır, saz ilə çalıb oxuyur.

Ə y y a r. Siz tülkü, mən aslanam,
Adlı-sanlı qəhrəmanam.

D i v l ə r. Siz tülkü, mən bir aslanam,
Adlı-sanlı qəhrəmanım.

Ə y y a r. Bir meşədə yüz min qarğa
Qonmuş olsa bir budağa,
Kiçik bir daş atsam, inan,

Qulaq batan bağırtıdan,
Göy üzünü tutar qarğa.
Qəmə, yasa batar qarğa.
Siz tülkü, mən bir aslanam,
Adlı sanlı qəhrəmanam

D i v l ə r. Siz tülkü, mən bir aslanam,
Adlı-sanlı qəhrəmanam.

Ə y y a r. Bu çöllərdə gəzərkən mən
Keçsəm bir göl sahilindən,
Görsə məni qurbağalar,
Qorxusundan bağrı partlar;
Özlərini atar gölə,
Mən baxaram gülə-gülə.
Siz tülkü, mən bir aslanam...

L ə l ə ş. Ey aslan, dayan, sən şahın sevimli qurbağasını təhqir edirsən.

V ə z i r. Doğru deyir.

Q u z ğ u n ş a h. Doğru deyir. (*Əli ilə Qurbağanı oxşayaraq*) Sən mənim bu gözəl, bu nazlı, bu dilbər qurbağamı təhqir edirsən. Sus, axmaq! Alın onu zindana!..

Bir div onu aparır.

V ə z i r. Lələş, indi sən məharətini göstər, şahın könlü açılsın.

Q u z ğ u n ş a h (*birdən ətrafa baxaraq*). Hanı Dünya gözəli? O hara getdi? Tez gətirin!

V ə z i r (*xidmətçiyə*). Tez, tez!..

Q u z ğ u n ş a h. Qoy gəlsin, mənim calal və şövkətimi görsün, bəlkə yola gəlsin.

V ə z i r. Doğrudur, doğrudur. Qoy gəlsin, bu calal və şövkətini görsün, inad və qüruru qırılsın...

Lələş sazını cingildədib çalmaq istərkən.

Q u z ğ u n ş a h. Dayan, qoy Dünya gözəli gəlsin...

D ü n y a g ö z ə l i n i qolundan tutub gətirirlər. Şah Lələşə işarə edir, Lələş çalıb oxuyur.

L ə l ə ş. Meşələrdə ağacdələn taqqıldadır: taq-taq!..

D i v l ə r. Taq-taq!..
L ə l ə ş. Gölməçədə qurbağalar vaqqıldaşır: vaq-vaq!..
D i v l ə r. Vaq-vaq!..
Q u z ğ u n ş a h (*qurbağanın başını oxşayır*). Vaq, vaq!..
L ə l ə ş. Bülbüllər gəlir səsə,
Deyir: – Qurban bu səsə!

V ə z i r. Sağ ol, Lələş, sağ ol!
L ə l ə ş. Sürü-sürü aslanlar bu çöllərdən keçirkən,
Gölün sərin suyundan əyilərək içərkən.
Bir qurbağa edər: vaq!

D i v l ə r. Bir qurbağa edər vaq!
L ə l ə ş. Aslanlar ürkər bayaq.
Üz qoyarlar qaçmağa,
Mən çəkərəm qah-qaha.

Q u z ğ u n ş a h. Yaşa, Lələş, yaşa!
L ə l ə ş. Susuz, geniş səhralardan keçərkən fil karvanı,
Göl yanında birdən görür qəhrəman qurbağanı.
O qəhrəman qurbağa...

D i v l ə r. O qəhrəman qurbağa.
L ə l ə ş. Birdən başlar vaq-vağa,
Birdən başlar vaq-vağa.

D i v l ə r. Bu nərədən ürkərək
Fillər əsər yarpaq tək;

L ə l ə ş. Üz qoyarlar qaçmağa...
Şahdır haman qurbağa...

Gülüşürlər.

D i v l ə r. Şahdır haman qurbağa...

Divlər başlarını L ə l ə ş ə tərəf uzadıb, onun sözünü təkrar edirkən, Ş i m ş a d L ə l ə ş i n ayaqları altından çıxır, Lələş qorxusundan sıçrayıb bağırır.

L ə l ə ş. Vay!..

Q u z ğ u n ş a h. Şimşad, söylə nə var?

Ş i m ş a d. Şahim, nə söyləyim? Fəlakət başdan aşmışdır.

Q u z ğ u n ş a h. Yoxsa mənim ruhi-rəvanım, vicdanım İfritə cadunun başında bir fəlakət var?

Ş i m ş a d. Kaş dilim lal olaydı, bu qara xəbəri sizə söyləyə bilməyəydim.

Q u z ğ u n ş a h. Tez söylə, yoxsa İfritə cadu ölmüşdür?

Ş i m ş a d. Şahim, ömrünü sizə bağışlamışdır

Q u z ğ u n ş a h. Ah!..

V ə z i r. Uf!..

Q u z ğ u n ş a h. Fəlakət!.. Qırıldı qolum, qanadım, daşa dəydi muradım, durma söylə, o ağıl, o bilik mədəni olan İfritəni kim öldürdü?

Ş i m ş a d. Dəmirçi oğlu Elman!..

D ü n y a g ö z ə l i. Elman!..

Q u z ğ u n ş a h. Yenə Elman! O hələ sağdır?

Dərin sükut.

D ü n y a g ö z ə l i. Elman, Elman, qoluna, gücünə min qüvvət!

Uzaqdan səs eşidilir.

Q u z ğ u n ş a h. Bu nə səs-küydür? (*Həyəcanla qulaq asır*)

V ə z i r. Qorxma şahim, bütün yollar, qalalar, keçidlər, dəmir qapılar tilsimə tutulmuşdur. Elman əjdaha olsa belə, bu əngəllərdən keçə bilməz.

Ş i m ş a d. Görünür tilsimləri qırıb gəlir.

Q u z ğ u n ş a h. Dayanma, Şimşad! Bütün biliyini, bütün qüvvətini göstər, onu öldürməmiş qayıtma!

Şimşad gedir.

D ü n y a g ö z ə l i. Ey uca göylərdən aydınlıq saçan,
Kömək ol Elmana, xaindir düşman.
Burda mən, orda el çəkir intizar,
Düşmən hiyləsindən sən onu qurtar!

Quzğun şah cibindən bir qutu çıxarır, D ü n y a g ö z ə l i n i n üstünə toz səpir, Gözəl bihuş olur. Onu bir tərəfdə uzadırlar. Uzaqdan səslər gəlir.

S ə s l ə r. El eşqinə, Gözəl eşqinə, hüsndə bibədəl eşqinə!

Qarışıqlıq, həyəcan. Ş i m ş a d qaça-qaça qorxulu halda içəri girir.

Ş i m ş a d. Elman bütün tilsimləri qırıb gəlir.

Q u z ğ u n ş a h. Alçaq!.. Xain!.. Bəs sənin sehrin, biliyin nə oldu?

Ş i m ş a d. Şahim, Elman sehrə, caduya dönmüş, ona heç bir şey təsir etməyir.

Q u z ğ u n ş a h. Ah, fəlakət!..

E l m a n, T u ğ a n, A s l a n və x a l q nümayəndələri əllərinə qılınc saraya girir. Elman Şimşada hücum edir.

E l m a n. Qaçma qarşımdan!

Onu vurub öldürür, divlərdə həyəcan.

D i v l ə r. Vay!..

T u ğ a n. El eşqinə!

A s l a n. Vətən eşqinə!

E l m a n. Gözəl eşqinə!

Q u z ğ u n ş a h. İgidlər, durmayın!

Tuğan, Aslan və xalq divlərə hücum edir, Elman Quzğun şahı öldürür, divlər qaçır, ara sakitləşdi, Lələş yaralı bir divin qolundan tutub çəkə-çəkə:

L ə l ə ş. Çəkilin, çəkilin!.. Özüm öldürəcəyəm.

Hamı gülüşür.

H a m ı. Lələş! Sən də burdasan?

L ə l ə ş. Xoş gəldiniz... Çəkilin, özüm öldürəcəyəm.

E l m a n. Bu ölmüşün nəyini öldürürsən?

L ə l ə ş. Bayaqdan otuzunu öldürmüşəm.

T u ğ a n. Qoçaqsan, bilirəm öldürərsən...

E l m a n (*Birdən Dünya gözəlini görüb ona tərəf qaçır).* Gözəl! Gözəl! (*Əli ilə tərpədir)*

H a m ı (*oxuyur*).

El gözəli, oyan, oyan!
Qara yerdə yatır düşman.
El də gəlmiş ayağına,
Artıq dəyişmişdir zaman.

Yenə doğma ellər gülür,
Köhnə, yeni döllər gülür.
Baxdıqca gül camalına
Dağlar, bağlar, çöllər gülür.

Sən bu xalqın sevincisən.
Gözəllikdə birincisən.
Bu dünyanın saf qoynunda
Ən dəyərli bir incisən.

E l m a n gövhəri D ü n y a g ö z ə l i n i n ağzına tutur. O, gözlərini açır, heyrətlə ətrafa baxır.

E l m a n. Gözəl!

D ü n y a g ö z ə l i. Elman!.. (*Həyəcanla qollarını açır, igidləri görüb, məhcub bir tövr ilə gözlərini yerə dikərək)* Ah, mən hardayam?..

T u ğ a n. El qəhrəmanı Elmanla, xalqınla bir yerdə...

D ü n y a g ö z ə l i. Nə böyük səadət!..

Günəş şəfəqləri kimi bir işıq birdən-birə sarayı bürüyür. Hamı heyrətlə o tərəf-bu tərəfə baxıb günəşin haradan doğduğunu öyrənmək istəyir.

A s l a n. Bu günəş hardan doğdu?..

Bilici görünür.

E l m a n (*sevincək*). Bilici baba gəlir, bilici baba gəlir...

Hamı ona baş əyir.

H a m ı. Uğurlar olsun baba can!..

B i l i c i. Uğurlar olsun, balalarım!.. (*Hamını süzərək)* Bəh, bəh!.. Nə gözəl məclisdir!.. İnsan baxdıqca fərəhlənir. Dumanlı, fırtınalı günlərdən sonra günəşli səhər nə qədər dadlı imiş!..

H a m ı. Təşəkkür, baba can!.. Sənə bizdən min-min təşəkkür!..

Bilici Dünya gözəlinə yanaşır, əli ilə onun başını oxşadıqdan sonra Elmana:

B i l i c i. Yaşa, xalqımızın namuslu, qəhrəman oğlu!..

E l m a n. Baba can, Gözəlimi düşmən pəncəsindən sən verdiyin bilik gövhəri ilə qurtardım... Sağ ol, baba can! Sənə bizdən min təşəkkür!..

H a m ı. Yaşasın Bilici baba!..

B i l i c i. Dəmir döyülməsə, bərkiməz!.. Bu sözümü unutmayın... hər zəfər və səadətin açarı bilikdir!.. Qılınc açmayanı, bilik açar...

H a m ı. Yaşasın bilik!.. Yaşasın Bilici baba!..

P ə r d ə

*1941*

## FİTNƏ

*Üç pərdəli mənzum dram*

(Mövzusu Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından alınmışdır)

İŞTİRAK EDƏNLƏR

B ə h r a m – İran padşahı, 25 yaşında
V ə z i r – 60 yaşında
G ö v h ə r – vəzirin arvadı, 50 yaşında
B ə x t i y a r – vəzirin oğlu, 22 yaşında
F i t n ə – saray qızı, 20 yaşında
Ə y y a r – saray məzhəkəçisi
A f ə t – vəzirin qızı, 20 yaşında
Q u l a m – saray xidmətçisi
Q o c a – el ağsaqqalı
Q a r a  q u l l a r
V ə z i r i n  q u l a m ı

## BİRİNCİ PƏRDƏ

Bəhramın sarayı. Səhər tezdən, gün yavaş-yavan doğur. Sarayın qapısında qara qullar mürgüləyir. Birdən şeypur səsi eşidilir. Qullardan biri tez durur, üst-başını düzəldə-düzəldə:

1-c i  q u l
Qalxın, qalxın!

2-c i  q u l
(*yuxulu*)
Oğlan, nə var?

1-c i  q u l
Ovdan qayıtmış hökmdar.

2-c i  q u l
Necə? Ovdan? Nə dedin sən?

1-ci qul

Şeypur səsin eşitmirsən?

2-ci qul

Yenə səhər tezdən Bəhram
Yuxumuzu etdi haram.

Hər ikisi qapı ağzında hazır durur. Bəhram, vəzir, Fitnə, Bəxtiyar daxil olurlar.

Bəhram

Bu gün yerindədir nəşəm.
Yaman olmaz bir kef etsəm.

Vəzir

Şadlıq dəmi çatdı, durun!
Şahanə bir məclis qurun!

Musiqi və rəqs başlanır. Şərab paylanır, Fitnə və Bəxtiyar içmirlər.

Vəzir

Sağ ol, şahim, bəxtiyar ol!

Fitnə

Ədalətli hökmdar ol!

Vəzir fitnəyə baxıb istehza ilə gülür. Bəhram qədəhi içdikdən sonra, rəqsə tamaşa edir.

Bəhram

Nə gözəldir bu rəqslər!
Könüllərdən qaçır kədər.

Əyyar əl-qolunu ata-ata gəlir, şaha baş əyir.

Əyyar

Salam, şahim!

Bəhram

Salam!

Hamı

Salam!

Ə y y a r

Yenə kef eləyir Bəhram.

B ə h r a m

Sənin tək Əyyarı olan
Kef etməzmi? Qıllı qaban!

Ə y y a r

(*vəzirə*)

Bax nə deyir mənə Bəhram.
Mən Əyyaram, ya qabanam?

B ə h r a m

Qaban ya sən, nə fərqi var?

Ə y y a r

Fərqi çoxdur, ey hökmdar!
Əyyar gözəl bir insandır,
Qabanın dişləri qandır
Saraydakı şahlar kimi.

V ə z i r

Bax, kimə bənzədir kimi!

B ə h r a m

Sus, yaramaz, qıllı qaban!
Kim qan içmiş? Söylə haçan?

Ə y y a r

Deyəmmərəm, ey hökmdar,
Çünki düşər-düşməzi var.

B ə h r a m

Sən ki, üç padşah gördün.
Xidmətində oldun hər gün.
Atam, o şah, bir də ki, mən.
Hansını çox bəyəndin sən?

Ə y y a r

Bu şahlardan açma söhbət,
Hər üçünə yüz min lənət!

F i t n ə

Yox, haqsızlıq etdin, Əyyar,
Hər halda bir yaxşısı var.

Ə y y a r

Səncə ən yaxşısı budur!
(*Şahı göstərir*)

V ə z i r

Bax, bu sözün lap doğrudur!

Ə y y a r

O da bir şey deyil, vəzir.
Başında min xəyal gəzir.

B ə h r a m

O şahlardan danış mənə,
Gözəl xələt verim sənə.

Ə y y a r

Aha, xələt? Yaxşı, deyim.
Əvvəl atandan söyləyim.

(*Acıqlı-acıqlı başını köksünə dikərək, qaş-qabağını tökür)*

Böylə idi dinməz kişi.
Ancaq içmək idi işi.
Açılmazdı qaş-qabağı,
Yer süpürərdi dodağı.
Atandan sonra şah olan,
Zahiri xoş-dişsiz ilan

Dovşan kimi qorxaq idi;
Vəzir kimi axmaq idi.
Xalqa var idi nifrəti,
Saf deyildi məhəbbəti.

B ə h r a m

Mən necəyəm? Söylə!

Ə y y a r

Yazıq,

Sən nə ətsən, nə də balıq;
Nə ondansan, nə də bundan.
Hələ aydın deyil siman.
Bir ərköyün uşaqsan sən,
Şıltaqlıqdır işin, peşən.

F i t n ə

Taxtın xasiyyəti budur:
Hakim olan şıltaq olur.

B ə h r a m

Nə taxt bilir, nə tac, nə şah!..

V ə z i r

Padişah, kimdədir günah?

B ə h r a m

Sarayımın zinətidir,
Yaraşığı, hörmətidir.
Hələ, onun gözəl səsi,
Bülbül kimi xoş nəğməsi
Olmasaydı, bil ki, çoxdan
Məhv etmişdim.

Ə y y a r

Hələ dayan!
Mən qurtardım söhbətimi,
Tez ol, gətir xələtimi!

B ə h r a m

Gözəl bir çul verin buna!
Ancaq, düz gəlsin boynuna!

V ə z i r

Şah çul verir sənə.

Ə y y a r

Pəh-pəh!..
O necə şeydir, padişah?!

B ə h r a m

Soyuqda eşşəklər geyər.

Ə y y a r

Sizin cübbə kimi?

V ə z i r

Sus, xər!

Çulu gətirib Əyyarın çiyninə salırlar. Əyyar sevinə-sevinə

Ə y y a r

Çox təşəkkür, şahim sənə,
Öz çulunu verdin mənə!

B ə h r a m

Sus, sayğısız, ağlı gödək.
Dediyini anlat, bilək:
“Nə ondansan, nə də bundan
Hələ aydın deyil siman”.

V ə z i r

Belə olar Əyyar sözü,
Yanlış deyər əyri, düzü.
Səndədir, şahim şan, şövkət,
Dövlət, hünər, əzm, qüvvət...

Yadımdan çıxmayır bir an
Köçəndə dünyadan atan
Şah seçdilər o qocanı.

Ə y y a r

Kimi? O qorxaq dovşanı?

V ə z i r

Sən də eşidincə bunu
Çəkdin qəhrəman ordunu,
Gəldin ondan tac almağa,
Ölkənə varis olmağa.
Qüvvət hakimdir hər zaman.
Şərt qoydular: iki aslan
Arasına qoyulsun tac.
Aslanların pəncəsindən
Qızıl tacı ala bilən
Bu ölkəyə tikilsin şah.
Hifz eləsin onu allah.
Sən şirlərə etdin hücum,
Onlar pəncəndə oldu mum;
Şirlərdən sən tacı aldın,
Zəfər təblini sən çaldın.

Ə y y a r

(*istehza ilə*)

Kimdə vardır belə qüvvət,
Böylə hünər, bu cəsarət?..

Əyyar Bəhramın iki şir arasından tacı götürüb başına qoyduğunun təqlidini çıxarır.

F i t n ə

Görünür, şahımız Bəhram
Ovda olmuş səhər, axşam.
Şirlərlə gəlmiş üz-üzə,
Çox döyüşmüşdür göz-gözə.
Sanmayın çox çətin işdir;
Uşaqlıqdan bu vərdişdir.
Nəyə vərdiş etsə insan,
Hər çətin iş olar asan.

B ə h r a m

Hünər olmasa tək vərdiş
Bir sənətdə görərmi iş?
Adı Fitnə, özü fitnə;
Bu rəftar xoş gəlmir mənə.

V ə z i r

Şahı tərif edən zaman
Bu qız olur əfi ilan.

B ə h r a m

Öz həddini tanı, Fitnə!
Məğrur olma xoş səsinə.
Bir gün coşub-daşan zaman
Verrəm cəza, buna inan!

F i t n ə

(*ayağa qalxaraq, şaha*)

Sizi adi bir şah görmək
Mənə olmuş böyük dilək.
Odur ki, siz hər sözümdən
İnciməyin, hər işdə mən
Bir dost kimi yanaşıram.

V ə z i r

Uşaq deyil böyük Bəhram!

F i t n ə

Mənim sözüm, fikrim budur:
Şahda olsa şöhrət, qürur
Siyasəti verməz bəhər.
Çünki zülmə vərdiş edər.
Fikrim aydınmıdır sizə?

V ə z i r

(*istehza ilə*)

Yox, uymarıq fitnənizə.

B ə h r a m

Yaxşı, yaxşı danışma çox;
Taxtü tacın kinindən qorx.

Bəhram Vəzir ilə bərabər çıxır.

B ə x t i y a r

Hər gün bunlarla üz-üzə
Deyişmə çox, gəlmə sözə.
Sarayda başqadır həyat,
Bir az gərəkdir ehtiyat.

F i t n ə

El qızıyam mən, Bəxtiyar,
Ürəyimdə həsrətim var.
Zülm İranda kök salmışdır.
Ölkə köməksiz qalmışdır;
Günü-gündən olur viran.
Xalqım isə bu şahlardan
Zülüm görüb, hey qan içir,
Günü fəlakətlə keçir.
Bəhram şaha uşaqlıqdan
Vətən olmuş Ərəbistan.
O saraydan uzaq olmuş,
Ona yaddır bu quruluş.
On il yad ölkədə qalmış,
Mənzərdən tərbiyə almış.
Mənzər igid pəhləvandır,
Həm də gözəl bir insandır.
Taxta sahib olan zaman
Çox gənc idi bu hökmran;
Ağlı aydın, qəlbi təmiz.
Mən düşündüm ki, ölkəmiz
Belə şahdan xeyir görər.
Xalqa da faydası dəyər.
Onu adil bir şah görmək
Mənə oldu böyük dilək.
Odur ki, pis sifətlərdən
Qoruyuram hər zaman mən.

Ancaq o hər gün dəyişir,
Zülmə, qürura baş əyir.
Saray məndən güclü çıxır,
Qurduğumu vurub yıxır.

B ə x t i y a r

Bu, taxtın xasiyyətidir:
Adil şəxsi cəllad edir.
Sən boş yerə çəkmə zəhmət,
Saraydan umma mərhəmət!

F i t n ə

Hələ bir az ümidim var.
Bu fikrimdən, bil, Bəxtiyar,
Əl çəkmərəm, ölsəm də mən.

B ə x t i y a r

Fədakar bir qızsan, əhsən!
Ancaq zəhmətlərin boşdur;
Çünki bu şahlar sərxoşdur.
Sözün ona etməz əsər.
Aralıqda başın gedər.

B ə h r a m v ə z i r l ə gəlir. Taxta oturarkən düşüncəli.

B ə h r a m

Məndə nə haldır bu, vəzir!?
Başımda min xəyal gəzir.
Biri çəkir mənim xeyrə,
O birisi zülmə, şərə.
Gecə-gündüz çalışıram,
Onlar ilə çarpışıram.

Fitnə mənalı nəzərlərlə Bəxtiyara baxır.

V ə z i r

O, rəyasət xəyalıdır.
Bu, gəncliyin amalıdır.

X i d m ə t ç i

(*gəlir*)

Kəndlilərdən üç-dörd nəfər
Gəlmiş, sizi görmək istər.

B ə h r a m

Sordunmu, nə istəyirlər?

X i d m ə t ç i

Çox soruşdum, dinməyirlər.

Ə y y a r atıla-atıla gəlir.

Ə y y a r

Şah, çulunu verdi xələt...

V ə z i r

Şaha neçin vermək zəhmət!
Qoy getsinlər baş divana,
Şikayət etsinlər ona.

Ə y y a r

Bəlkə bunlar çox yoxsuldur?
Divanda iş görən puldur.
Şahlar işə pulsuz baxar.

B ə h r a m

Qov onları, durma, Əyyar!

Ə y y a r

Yox, onlardan mən qorxuram

B ə h r a m

Qorxma, qorxma, mən burdayam.

Ə y y a r

Onlar səndən də güclüdür;
Əkin əkir, naxır güdür.
Hansı şah qaçsa xalqından
Taxtı, tacı olar viran!

Əyyar qaça-qaça gedir.

V ə z i r

Ey yaramaz, üzü qara!

X i d m ə t ç i

Nə söyləyim mən onlara?

B ə h r a m

De gəlsinlər! Anlayım bir
Bu kəndlilər nə istəyir?

V ə z i r

Atan ömründə bir kərə,
Yol verməmiş bu işlərə.

Xidmətçi gedir, bir qoca, beş-altı kəndli daxil olur.
Hamı yerə qədər əyilir.

Q o c a

Ey uğurlu gənc padişah,
Tanrı sizə olsun pənah!

B ə h r a m

Qoca, nə var? Söylə görək!

Q o c a

Yezdan olsun sizə kömək!
İl quraqlıq keçdi bizə,
Qəm ələndi ölkəmizə.
Zəhmətimiz getdi bada,
Sizdən uzaq olsun qada!
Bağ, bostanı vurdu dolu,
Bağlanmışdır həyat yolu;
Xalq batmışdır qəmə, dərdə...
Müsibətdir hər bir yerdə.

F i t n ə

(*həyəcanla*)

Qəlbimi dəldi bu xəbər.

Bəhram Fitnəyə baxaraq, acıqlı halda

B ə h r a m

Vəzir, bir az taxıl göndər!

Q o c a

Yaşa, yaşa, ey padişah,
Yezdan olsun sizə pənah!

B ə h r a m

Qoca, sözün varmı yenə?

Q o c a

Yox, tanrı yar olsun sənə!

F i t n ə

(*şaha*)

Bir istəyim vardır sizdən:
Yadımdadır, uşaq ikən
Bayramda el qaynayardı,
Gözəl oyun oynayardı.
Görməmişəm çoxdan onu,
Çox sevərdim bu oyunu.
Bu gün burda oynasınlar,
Coşub, daşıb qaynasınlar!

B ə h r a m

Bədrəng özü də bir rəngdir.

F i t n ə

Elin rəqsi çox qəşəngdir!

Q o c a

Xoşdur bizə hər əmriniz.

V ə z i r

Bəxtiyar, çal, oynayın siz!

Əyyar qaça-qaça gəlir.

Ə y y a r

Mən də, mən də... bir az dayan!

Q o c a

Dayanmışıq, borcu danan!

Rəqs başlayır, qadınlar, kişilər və Əyyar oynayır. Oyun bitdikdən sonra.

B ə h r a m

Xalq oyunu bu gün, Fitnə,
Çox bir təhər gəlir mənə.

F i t n ə

Gözəl olur elin rəqsi,
Aşıqların xoş məclisi.

Qızlar, oğlanlar, qoca ilə gizli-gizli danışırlar.

Q o c a

Sizdən, ey şanlı hökmdar,
Gənclərin bir xahişi var:
Fitnənin şən nəğməsini,
Gözəl və şaqraq səsini
Derlər eşitmədik çoxdan.

V ə z i r

Yox, verilməz buna meydan!
Sarayın öz qanunu var,
Onu bu, hörmətdən salar.

B ə h r a m

Qoca, bu istək baş tutmaz!

F i t n ə

Ey padşah, dayan bir az.
Bu, elin öz istəyidir,
El, dövlətin ürəyidir.
O qəlbi sındırmaq olmaz!
İzn ver, oxuyum bir az.

B ə h r a m

(*narazı*)

Yaxşı, oxu.

F i t n ə

Çal, Bəxtiyar!

Q o c a

Sağ ol, yaşa ey hökmdar!

Bəxtiyar çalır, Fitnə oxuyur.

F i t n ə

Derdim ki, bahar olsun,
Dağlar, dərələr dolsun
Al, incə çiçəklərlə
Derdim ki, günəş doğsun,
Zülmətləri qoy boğsun
Nur saçsın ətəklərə.

K ə n d l i  q a d ı n

Yaşa, bülbül səsli mələk!

Q o c a

Yaşa, yaşa, canlı çiçək!

F i t n ə

Alqış sənə, ey zəhmət!
Dünyaya saçan nemət
Sənsən bu əməklərlə!
Gündən günə ol qadir,
Çarpışmağa sən hazır
Yerlərlə, əməklərlə!

V ə z i r

Bu səs başqa bir aləmdir.

B ə h r a m

Ruhə gözəl bir həmdəmdir.

Q o c a

Gözəldir, el nəğməsidir,
Bu səs xalqın gur səsidir.

G ə n c l ə r

Yaşasın Fitnə, Bəxtiyar!

H a m ı

Sağ ol, yaşa ey hökmdar!

Q o c a

Tanrı ömür versin sizə,
Çox görməsin ölkəmizə!
Baş əyib gedirlər.

B ə h r a m

Fitnə, başqa şeydir dövlət.
Qürur sevər bu rəyasət.
Salma onu ayaqlara!

F i t n ə

Mənim qəlbim deyil qara.
Şahim, balıq başdan qorxur,
Qamış kökdən.

B ə h r a m

Bu doğrudur!
Kimdir qamış? Kimdir balıq?!

F i t n ə

Şahim, özün düşün artıq:
Baş ilə kök sağlam gərək,
Yoxsa puça gedər əmək!

V ə z i r

Belə fitnə-fitnə sözlər
Şaha verir qüssə, kədər.
Şah səninçin deyil uşaq.
Bu öyrətmək, bu oynatmaq
Nədir belə, ey xanəndə?
Ağıl, şüur yoxdur səndə!
Üz verdikcə artır qürur.

B ə x t i y a r

Dayan, dayan, ata, bir dur!
Yaman şeydir yalan, böhtan,
Fitnə deyil şah oynadan.
Bir kitabdır hər bir sözü,
Ürək alır qumral gözü.

B ə h r a m

Həddinə bax yaramazın!
Qarşımda heç çəkinmədən
Bildirir öz etirazın.
Elan edir məhəbbətin
Rədd ol burdan, azğın, səfil!
Saray sənə layiq deyil!

B ə x t i y a r

Şövkətli, şanlı padişah!
Bağışla, etdimsə günah.
Ayırma Fitnədən məni!

B ə h r a m

Rədd ol, məhv edərəm.

(*Vəzirə*)

Saray olmuş bir oyuncaq;
Meydan açır oğul-uşaq.
Böyük, kiçik qanmayırlar,
Taxtı, tacı sanmayırlar.

B ə x t i y a r

Şahim, oxuyurkən Fitnə,
Başqa aləm açır mənə.
Bu mizrabım, böyük Bəhram,
Gözəl səsdən alır ilham.

B ə h r a m

Elə isə dayan, dayan!
Gəl ilham al qılıncımdan!

Şah qılıncını çəkib ona hücum edir, Fitnə oxuyur.

F i t n ə

Hanı elə bir şah, hanı?
Yer üzündən silsin qanı.
Zülmü kökündən qaldırıb,
Gülşən etsin bu dünyanı.
Aşiqlərin dillərində
Gəzsin onun hər dastanı.

Fitnə birinci beyti oxuyurkən, Bəhram donur, qolları yanlarına düşərək, əlində qılınc onu dinləyir. Vəzir əli ilə Bəxtiyara getməyə işarə edir. Bəxtiyar gedir. Fitnə oxuyub qurtardıqdan sonra Bəhram yavaş-yavaş gəlir, qılıncı qınına taxır. Taxtında oturur. Qaşlarını çataraq, dərin-dərin düşünür.

V ə z i r

Tez qurulsun kef məclisi!
Bir az əyləndirsin bizi.

Şərab paylanır, rəqqasələr oynayır. Xidmətçi qədəhə şərab tökərkən Bəhram əli ilə rədd edir. Rəqqasələri qovur.

V ə z i r

Şahim, bu qəm, qüssə nədir?
Taxt, rəyasət şənlik sevir.

B ə h r a m

Şənliyin vaxtı var, vəzir!
Başımda min xəyal gəzir.
Səndən ki, görmədim kömək,
Özüm həll eləyəm gərək.

F i t n ə

Rəyasət siyasət var.
Dövlət başçısı – hökmdar
Məsuldur tutduğu işə.
Yalnız kefi etsə peşə,
Ölkəsindən tutmaz xəbər.
Yağsız çıraq çox tez sönər.

Şah Fitnənin sözlərini acıqlı-acıqlı dinləyir, sözün təsiri altında qaş-qabağı açılır və dərin fikrə gedərək, qızın son sözünü təkrar edir.

B ə h r a m

Yağsız çıraq çox tez sönər.
Bu ağıllı sözləri mən,
Vəzir, eşitmədim səndən.

V ə z i r

(*kənara*)

Bax, bu qızın təsirdir,
Hər nə desə, əməl edir.

B ə h r a m

Hər bir işdə gənəşərkən –
Qızıl kimi hər sözü mən
Tərəzidə çəkə-çəkə
Tez vururam bu məhəgə.

(*Əli ilə başını göstərir)*

Aydın olur yanlış, doğru.

F i t n ə

Çox gözəl bir vərdişdir bu.
Yaxşı işə vərdiş edən
Ziyan çəkməz!

B ə h r a m

Ey Fitnə, sən
Ağıl, kamal mədənisən.
Həm ağlına, həm səsinə,

Könül açan nəfəsinə
Vurğunam, neyləyim! Ancaq,
Hərdən vurursan baş-ayaq.

(*Kənara)*

Bir gün ayrılsam bu qızdan,
Mənə dünya olar zindan.

(*Aşkara)*

Məclis qurun, şənlik edək!
Fitnə oxusun bir görək!

F i t n ə

Bəs Bəxtiyar?

V ə z i r

Bəhram şaha
Ağ olursan!

B ə h r a m

O bir daha
Görməz sarayın üzünü!

V ə z i r

Şahim mənim, aç gözünü!
Bax, bu qıza heç bir zaman
Üz verməzdi mərhum atan.

B ə h r a m

Bu qız saray bülbülüdür,
Bağçamın ən şux gülüdür.
Azadlıq vermişəm ona.

V ə z i r

O da gərək bunu qana.

B ə h r a m

Qanar, etibarlı qızdır.

V ə z i r.

Fitnəlikdə o yalqızdır.

B ə h r a m

Oxu, oxu, durma, Fitnə!
Mənə bir şəklini ver yenə!

F i t n ə

(*oxuyur*)

Mən bir qızam eldən ayrı,
Bir bülbüləm güldən ayrı:
Necə yaşar bu çöllərdə
Bildirçin sünbüldən ayrı?
Gözəl olur uca dağlar,
Ətəyində sellər çağlar,
Qaz, ördək hey gülər, ağlar
Boran basmış göldən ayrı.

B ə h r a m

Vurğunam bu gözəl səsə,
Könül açan xoş nəfəsə,

F i t n ə

(*davam edir*)

Sürü enib yamaclardan,
Saraldı bağ, çəmən, orman...
Vaz atarmı cüyür, ceyran
Göy çəmənli çöldən ayrı?

B ə h r a m

(*cibindən yeddi gövhər çıxarıb Fitnəyə verir*).

Qaçdı kədər, güldü könül.
Gül başına səpilsin gül.

Hər tərəfdən Fitnənin başına güllər səpilir.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Meşəliyin ortasında bir tala. Səhnənin sol tərəfindən bir çay axır. Çayın yanında böyük bir çinar ağacı. B ə h r a m təpə başında durub ov gözləyir. Əyyar da əlində ağacdan qayrılmış kamana ox qoyub atır. Ətrafdan səs-küy qalxır. Ceyranlar Bəhrama tərəf qaçışır. Atların ayaq səsləri gəlir. Şeypur çalınır.

V ə z i r

Hər yerdə sürüylə otlayır Ceyran.

B ə h r a m

Gözəl bir şikarla dönərəm burdan.

Ə y y a r

Sən vura bilməsən, mən vuraram, mən!

V ə z i r

Çox igid ovçusan, mərhəba, əhsən!

Əyyar kiçik çubuqları kamana qoyub tez-tez atır.

Ə y y a r

Padşah, gəl məndən öyrən atmağı,
Şikarda ceyranı şirə qatmağı.
Bir oxum üç ceyran, beş dovşan vurur,
Hünərim bir bax gör, nə büsat qurur!

B ə h r a m

Görürəm, ovçusan, məharətin var.
Dovşan tək hünərin, cəsarətin var.

V ə z i r

O yandan bir sürü ceyran gəlir, vur!

Bəhram oxu kamana qoyub tez-tez atır.

Qoçaqlıq, igidlik, hünər, bax budur!

B ə h r a m

Oxumun biri də çıxmadı boşa.

V ə z i r

Yaşa, padşahim, yaşa, min yaşa!

Ə y y a r

Mənim də bir oxum çıxmayır boşa,
Torpağa sərirəm bax, qoşa-qoşa.

V ə z i r

Ceyranlar meşəyə doğru qaçdılar.

B ə h r a m

Ov mənim əlimdən canmı qurtarar?!

Bəhram əlində kaman meşəyə tərəf gedir. Əyyar onun arxasınca gedərkən Bəhramı nişan alır. Bəhram çevrilib arxaya baxır.

Ə y y a r

Nə yaxşı çevrildin, batmışdım yasa,
Qabana bənzədib vurmuşdum yoxsa.

Q o c a görünür. Əyyarı görüncə sevinir.

Q o c a

Əyyarı tapmışam mən, qənimətdir
Borcumu almağa gözəl fürsətdir.

Qoca vəzirə yanaşır. Əyyar onu görüncə ağac arxasına keçir.

Q o c a

Vəzir həzrətləri, şikayətim var.

V ə z i r

Nə deyirsən, qoca?!

Q o c a

Sizin bu Əyyar
Bir aya, əlli üç dirhəm borc almış,
Bir ildir bu günə-sabaha salmış,
Borcunu verməyir.

V ə z i r

Bura gəl, Əyyar

Ə y y a r

Ey qoca, nə qədər sənə borcum var?

Q o c a.

Əlli üç dirhəmdir.

Ə y y a r

Otuz bir dirhəm
Sənin bu borcundan sabah verərəm.
İyirmi bir dirhəm də birisi gün, gəl,
Borcunu verim ki, yaxamdan çək əl.
Nə qalır borcumuz?

Q o c a

Bir dirhəm ancaq.

Ə y y a r

Bəs onu mən necə verim? Mənə bax!
Qəm çəkmə, ona da tökmüşəm tədbir:
Küçəmizdən sürü qoyunlar keçir;
Yollara tikanlı kol-kos yığmışam,
Qoyunlar keçirkən hər səhər, axşam
Tikanlar üstündə qalacaq yunu.
Hər gün çəngə ilə yığaram onu,
Bazarda sataram, verrəm borcunu.

(*Qoca gülür)*

Borcunu vermişəm, deyə şənlənir,
Bax, necə sevinir, gülür, əylənir!

V ə z i r

Borcunu aldın ki, durma, get daha!

Q o c a

Nə aldım, ey vəzir, boş söz, boş hava...

Ə y y a r

Söz, hava, vermişəm!

Q o c a

Bura bax, Əyyar!

Ə y y a r

Verdiyim boş sözü, havanı qaytar!
Yoxsa, on dirhəm də alaram səndən.

Q o c a

Görünür, borcluya borclu çıxdım mən.

(*Qaçıb getmək istərkən*)

Ə y y a r

Ey qoca, haraya? On dirhəmi ver!

Q o c a

Qoy gedim gətirim.

Ə y y a r

Bax, yalan deyir.

Qocanın dalınca gedir. B ə x t i y a r əlində tar görünür. Ətrafı diqqətlə süzür, əlindəki tara baxır.

B ə x t i y a r

Könlümün getdikcə sönür həvəsi,
Eşidə bilmirəm o gözəl səsi.
Mizrabım dəydikcə hər dəfə telə
Səsi az qalır ki, bağrımı dələ.
İlhamım qurumuş, çala bilmirəm.
Sənətə, qüvvətə dola bilmirəm.
Fitnənin səsinə qalmışam həsrət,
Bəhram şah nə yerdə keçirsə işrət,
Xoş səsli bülbülüm oxuyur mənsiz;
O səsdir mənə bu canımdan əziz!
Deyirlər, şikarə çıxmışdır Bəhram.

Of, aman, ürəyim tutmayır aram!
Fitnənin səsin eşitsəm bir də.
Şəfadır qəlbimdə sızlayan dərdə.
Gələn var... Onlardır... Ah, gözəl Fitnə!
Vurğunam özünə, gözəl səsinə!

Bəxtiyar uzaqlaşır, ağaclar arxasında gizlənir. B ə h r a m, v ə z i r və F i t n ə gəlir, axar çayın yanındakı iri çinar ağacı yanında dururlar. Bəhram ətrafa baxır.

B ə h r a m

Nə gözəl çəməndir, açıldı könül,
Mənə bu çiçəklər deyir: – Açıl, gül!
Kədərə, qüssəyə yol vermə, Bəhram!
Bu qoca dövrandan doyunca al kam.

V ə z i r

Üç şey var, könüldən kədəri silər:
Axar su, gözəl səs, yaşıl çəmənlər
Hər üçü toplanmış şahim, bu yerdə.

B ə h r a m

İnsana nəşəli gəlir kədər də;
Quşlar da bu yerdə gəlmiş həvəsə,
Yarpaqlar içində vermiş səs-səsə.
Susdur bu quşları, dayanma, Fitnə!
Oxu, bu yarpaqlar əl çalsın sənə!

Fitnə oxuyur. Bəxtiyar uzaqdan tarın simlərini dilləndirir.

F i t n ə

Oxu, Bülbülüm, oxu!
Yazdır, səhər çağıdır,
Oxu, sənin xoş səsin
Şənliklər qaynağıdır.

B ə h r a m

(*tar səsini eşidərək*)

Nə səsdir? Dinləyin! Kimdir bu çalan?
Vəzir, tez get öyrən!

F i t n ə

Aha. Bir az dayan!

V ə z i r

Bilirəm.

F i t n ə

(*Yavaşca*)

Oğlunuz Bəxtiyardır bu.

V ə z i r

(*gedə-gedə*)

Başıyla oynayır, Bilməyir qorxu.

B ə h r a m

Tez gətir, göstərim ona həddini.
Nədir saymamazlıq, tanısın məni.

F i t n ə

Bir sənətkar kimi, biz dostuq çoxdan.
O məndən zövq alır, mən də ki, ondan.
Üç aydır səsimə qalmış o , həsrət.
Şahim, başqa şeydir bu incəsənət!

V ə z i r

(*Bəxtiyarı gətirir*)

Oğlum Bəxtiyardır, adil padişah!

B ə x t i y a r

(*baş əyərək*)

Bağışla, etdimsə böyük bir günah.

B ə h r a m

Söylə, neyləyirsən bu göy çəməndə?

B ə x t i y a r

Padişah, şikarə çıxmışdım mən də.
Siz ceyran, mən gözəl səs ovçusuyam.
Bunu çox görməyin mənə...

B ə h r a m

Ey adam!
Gəl sənə göstərim, mən elə bir səs,
Boğazın qurusun, çıxmasın nəfəs!

Şah oxluqdan bir ox alıb yaya qoyur, Bəxtiyar nişan almaq istərkən, vəzir və Fitnə onun ayağına yıxılırlar.

V ə z i r

Amandır, padişah!

F i t n ə

Bağışla bizə!

H ə r i k i s i

Yaradan ömrlər bəxş etsin sizə!

B ə h r a m

Get burdan, gözümə görünmə , alçaq!
O qoca atana qıymadım ancaq.

Bəxtiyar əlində tar gedir.

V ə z i r

(*təzim edərək*).

Çox sağ ol, şövkətli, şanlı tacidar!

F i t n ə

Ömrünüz çox olsun, adil hökmdar!

Quş ağacda yenə cəh-cəh vurub oxuyur.

V ə z i r

(*Fitnəyə*)

Şanlı padişahım, bayaq, ey Fitnə,
– Quşu susdur, – deyə, əmr etdi sənə.

B ə h r a m

Bu qızın səsinə əsirəm, əsir,
Dinlərkən qəlbimin özülü əsir.
Varlığım sarsılır, bu nə hikmətdir?!

V ə z i r

İnsanda gözəl səs böyük nemətdir.

F i t n ə

(*oxuyur*)

Oxu, bülbülüm, oxu,
Yazdır, səhər çağıdır.
Oxu, sənin xoş səsin
İlhamlar qaynağıdır.

Başla yeni bir dastan
Ki, açılsın ürəklər.
Oxu, bülbülüm, oxu,
Hasil olsun diləklər!

Hünər göstər, bülbülüm,
Xoş bir təranə yarat.
Oxu, canlı nəğmənlə
Gülsün, şənlənsin həyat!

B ə h r a m

Susdurdun quşları, afərin, Fitnə!
Bu böyük hünərdir, eşq olsun sənə!

F i t n ə

Padişah, məndə bu vərdişdir çoxdan.

B ə h r a m

Hünəri, vərdişi sən ayırmırsan?

F i t n ə

Vərdişsiz hünər də getdikcə sönər;
Vərdişə bağlıdır bütün sənətlər.

B ə h r a m

Gözəl səs olmasa, tək vərdişlə sən
Quşları susdura bilməzdin.

V ə z i r

Əhsən!

F i t n ə

Dünyada istedad, hər böyük hünər
Daima vərdişlə inkişaf edər.

B ə h r a m

Ağıllı bir qızsan, atma baş-ayaq.

(*gülə-gülə)*

Arabir düz yoldan çıxırsan ancaq.

V ə z i r

Padişah, sözlərin doğrudur tamam.

B ə h r a m

Deyirlər ki, zülmə vərdişmiş atam.

F i t n ə

Yaman vərdiş isə ziyan gətirər,
Ondan fayda görməz zavallı bəşər.

V ə z i r

Sən bircə az danış, belə yaramaz!

B ə h r a m

Atamın zülmündən gəl söylə bir az!

V ə z i r

Nə gərək padişah, keçmişə dönmək?
Qorxuram kefiniz pozula, gerçək
Bu yaşıl çəməndə sönə nəşəniz.

B ə h r a m

Kədərsiz nəşəni kim tuta əziz?
Ovlaqda şikarı vurduğum zaman
Ceyran ki, əl-ayaq atır, verir can
Mənə həm bir nəşə gəlir, həm kədər.
Kədərsiz nəşəni az ovçu sevər.
Atamın işindən mənə ver xəbər!

V ə z i r

Öz doğma oğluna nifrət bəsləyən
Atadan padişah, nə söyləyim mən?

B ə h r a m

Bu nə sözdür, vəzir?

V ə z i r

Padişah, inan!

B ə h r a m

Ata öz oğluna olarmı düşman?
Bu sirri durma aç, tez elə isbat!

V ə z i r

Belədir sarayda qurulan həyat.
Sən on dörd yaşına girdiyin zaman,
Ərəb ölkəsinə göndərdi atan.
Atana bir məktub yazmışdı Mənzər.
Şah saldı mənə bir şübhəli nəzər.
Dedi: – Gör nə yazmış? – Oxudum ona,
Gözləri dönmüşdü bir kasa qana.
Yazırdı: "Padişah, oğlunuz Bəhram
Şirlərlə döyüşür hər səhər, axşam
Çox igid, ağıllı qəhrəman olmuş,
Sərv tək boy atmış, kamala dolmuş,
Əlinə ox, kaman aldığı zaman
Aslanlar qorxaraq gizlənir ondan.

Bəxtiyar atasan, belə oğlun var,
İran görməmişdir belə tacidar".
Məktubu oxuyub qurtaran zaman,
Dərindən inlədi rəhmətlik atan,
Əlini taxtının başına vurdu,
Acıq-acıqlı ayağa durdu.
Bağırdı: – Aslan da olsan, biləsən,
Həsrət qalacaqsan bu ölkəyə sən.

F i t n ə

Doğrudur, mənim də yadımdır bu,
Canına düşmüşdü yamanca qorxu.

B ə h r a m

Ah, onda yox imiş ata ürəyi.
Atalıq duyğusu, övlad istəyi.
Deməк, bir ata tək sevmirmiş məni,
Övladmış onun ən böyük düşməni.
Mənim göstərdiyim hər böyük hünər
Öz doğma atama verirmiş kədər.

F i t n ə

Şah, bu, taxtü tacın xasiyyətidir;
Atanı öz doğma oğlundan edir.

V ə z i r

Tacidar, gərəksiz keçmişi burax!

F i t n ə

Padişah, padişah, bir ceyrana bax!
Uzaqda nə gözəl otlayır heyvan!

B ə h r a m

Qulağından onun alacam nişan.

F i t n ə

Yox, qıyma zavallı, yazıq ceyrana!

B ə h r a m

Tiksəm ayağını mən qulağına
Nə deyərsən buna? Vərdişdir, hünər?

F i t n ə

Gərək, padişahim, sən hünər göstər!

Bəhram nişan alıb ceyranı qulağından vurur, ceyran ayağını qulağına aparınca, bu dəfə nişan alıb ayağını ox ilə qulağına tikir. Qürurlu tövr ilə Fitnəyə:

B ə h r a m

Necədir?

V ə z i r

Eşq olsun, böyük hünərdir!
Bir oxun, ayağı qulağa tikir.

Bəhramın işarəsi ilə qulam ceyranı gətirməyə gedir. Fitnə acı-acı gülür.

F i t n ə

Padişah, bu, məncə, vərdişdir, vərdiş.

B ə h r a m

(*acıqlı)*

Fitnəsən ey Fitnə, əcəlin gəlmiş.

V ə z i r

Bu şeytan fikrilə olaraq əlbir,
Şahı sən hər zaman edirsən təhqir.

B ə h r a m

Dözülməz bu dərdə, qız bəsdir daha!
Tənədir hey vurur vəzirə, şaha.
Bizi bir xanəndə qız da oynadır,
Hünərim gözünə ox kimi batır,
Mənliyim əlində olmuş oyuncaq.

V ə z i r

Bu təqsir kimdədir?

B ə h r a m

Vəzir, bura bax!
Bu qızı al, sən də göstər bir hünər
Başımdan, saraydan uzaq olsun şər.
Al, əlim batmamış qadın qanına,
Rahat et, bir od sal fitnə canına!

F i t n ə

Yanıldım, bağışla, bağışla, Bəhram!

B ə h r a m

Yox, Fitnə ölməsə, rahat olmaram!

Bəhram acıqlı-acıqlı ceyran tərəfə gedir. Vəzir bıçağını çıxarıb fitnəyə.

V ə z i r

Bəhramın əmridir, neyləyim, Fitnə?

F i t n ə

Of, aman!.. Ah, vəzir, rəhm elə mənə!

V ə z i r

Çox ağır olsa da səni öldürmək,
Bəhramın əmrinə itaət gərək!

Fitnə qoynundan yeddi gövhər çıxarıb vəzirə uzadır.

F i t n ə

Al, sənə verirəm yeddi gövhəri;
Şah xəzinəsinə dəyər hər biri.

V ə z i r

Verdiyi gövhərə, şeyə uymaram!
İtaət etməsəm, məhv edər Bəhram.

B ə x t i y a r əlində çəng gəlir, bunu görüncə cəld, atasının əlindən tutur.

B ə x t i y a r

Nə işdir bu, ata?! Əl saxla bir an!
Bu mələk səsliyə qıyarmı insan?
Bu el bülbülünü susdurma, çəkil!

V ə z i r

Bu, şahın əmridir, oyuncaq deyil!

B ə x t i y a r

Soldurma bu qönçə gülümü, ata!
Qoyma həsrət məni bu şən həyata!
Gəl bu gənc ömrümə bağışla onu!

V ə z i r

Mənə də , sənə də bəladır sonu.

F i t n ə

Yaradan eşqinə, rəhm elə mənə!

V ə z i r

Mümkünmü, Bəhramdan qorxuram, Fitnə!

F i t n ə

Məni şah tutur öz canından əziz,
Onun bir məclisi keçməyir mənsiz.

B ə x t i y a r

Olacaq tutduğu işdən peşiman,
Səndən istəyəcək onu bir zaman.

F i t n ə

Şah kinə doldu, sən bağışla məni!

B ə x t i y a r

Fitnəsiz qoyma bu əziz ölkəni

V ə z i r

(*Fitnəni çəkərək*).

Çarə yox.

B ə x t i y a r

Ata can, dayan, bir az dur!
Fitnənin yerinə başımı gəl, vur!

V ə z i r

(*acıqlı*)

Görünmə gözümə, düşgün, ədəbsiz!
Səninçin bir odur hər şeydən əziz.
Bu işdən Bəhram şah tutarsa xəbər,
Bil ki, bircə anda başımız gedər.

B ə x t i y a r

Fitnənin yolunda qurbandır bu baş,
Ata can, rəhm elə, olma qəlbi daş!

Ağacda bülbül oxuyur. F i t n ə qəmli-qəmli oxuyur.

F i t n ə

Oxu bülbülüm, oxu.
Bəxtim mənə yağıdır.
Əcəl üstümü almış,
Artıq ölüm çağıdır.

Oxu, səsin titrəsin
Səmaları gəzərək.
Daha mənim səsimi
Kimsə eşitməyəcək.

Fitnə başını qucaqlayıb ağlayır. Vəzirin halı dəyişir, bıçağı yerinə qoyur.

V ə z i r

Bu necə nəfəsdir, mərhəba Fitnə!
Doğrudan günahdır toxunmaq sənə.
Şahları mat qoyan gözəl səsin var,
Ölüyə can verən xoş nəfəsin var.

Bəhramın bu əmri nahaqdır yenə.
Ölüm fərmanını yazsa da mənə,
Tökmərəm qanını, azadsan; ancaq
Bəhram şah demişkən, atma baş-ayaq!
Sən mənim qızım ol, sarayımda qal,
Görək neylər fələk, şənlən, oxu, çal!
Fitnə olduğunu kimsə bilməsin,
Bəhramdan danışma, dəyişsin səsin.

F i t n ə

Çox sağ ol!

B ə x t i y a r

Min yaşa, ey nəcib insan!
Hər zaman yar olsun sənə yaradan!

V ə z i r

Bizim kaşanəyə apar Fitnəni!

B ə x t i y a r

Yaradan bizə çox görməsin səni!

Bəxtiyar ilə Fitnə gedir, vəzir diqqətlə o tərəf-bu tərəfə baxır

V ə z i r

Qoy getsin, yaşasın, dünya genişdir,
Qan tökmək, bu taxtü taca vərdişdir.

Q u l a m və B ə h r a m görünür. Qulamın çiynində oxla əli qulağına tikilmiş bir ceyran var.

Vəzir

(*həyəcanla*).

Xeyir olsun, ah, gəlir uğursuz insan,
Gözündə oynayır ehtiras, al qan.

B ə h r a m yaxınlaşır, əli ilə ceyrana işarə edir.

B ə h r a m

Ceyranı gətirdim göstərim sənə
Hünər başqa şeydir biləsən, Fitnə!
Hanı o?

V ə z i r

Öldürdüm onu, padişah!
(*Bəhram çox pərişan olur, vəzir qorxuya düşür)*
Əmri siz verdiniz.

B ə h r a m

Of, aman allah!
Ey qoca, yox imiş səndə mərhəmət!
Ölüsü nə oldu?

V ə z i r

Etdi vəsiyyət:
– Məni kəndimizə göndərin, – dedi.

B ə h r a m

Ah, onu bu qara torpaqlar yedi.

V ə z i r

Əməl etdim onun vəsiyyətinə,
Qulama tapşırdım...

B ə h r a m

Ah, gözəl Fitnə!

Bəhram iki əli ilə başını tutub yerə oturur.

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

Səhnə vəzirin sarayını təsvir edir. Sağda ikimərtəbəli evin eyvanı. Solda qırx pilləkən. Pilləkən başında bir otaq. Yaz fəsli. Həyət güllük, çiçəklikdir.

G ö v h ər

Qalx, Fitnə, Afətlə bəzənin bir az;
Bu günü sadəcə keçirmək olmaz!

F i t n ə

Qonaqmı gələcək?

A f ə t

Bir söylə, nə var?

G ö v h ə r

(*Fitnəyə*)

Səninçin görülür bu hazırlıqlar.
Bu gün ən şərəfli bir gündür bizə;
Bu gündə toy-bayram girmiş evmizə.

F i t n ə

(*utanaraq*)

Anladım, anladım, hörmətli ana,
Vurğunam səndəki o pak vicdana.
Bu evə gələni demək, ana can,
İki il tamamdır, iki il, inan,
Borcluyam vəzirə, sənə, Afətə,
Mənə qarşı olan bu məhəbbətə!

G ö v h ə r

Bu nə sözdür, ay qız!

A f ə t

Bu nədir, Fitnə?
Bu evdə biz ki, yad deyilik sənə.

G ö v h ə r

Sən iki gözümsən.

A f ə t

Canımsan mənim.

G ö v h ə r

Ey iki bülbülüm, gülüm, gülşənim.
Bəzənmək, geyinmək, keçinmək gərək!
Bayramdır, atan da indi gələcək.

F i t n ə

Bəs mənim inəyim? O gözəl Mərcan?
Mən bura gələn gün doğmuş, anadan.
O körpə buzovla keçdi günlərim;
Onunla şən idi axşam, səhərim.
Onu qucağımda qırx pilləkandan
Qaldıra-qaldıra oldum pəhləvan.

Q u l a m

Uğur olsun, xanım!

G ö v h ə r

Xeyir olsun, Qulam?

Q u l a m

Bu gün süfrənizdə qonaqdır Bəhram,

G ö v h ə r

Mən bu gəlişdən çox xovf edirəm, ah!..

Q u l a m

Başqa bir məqsədlə gəlir Bəhram şah.
Bəhramı bir ceyran yamanca yordu.
Nəhayət bir keçid başında durdu,
Bir qədər dincəlmək istədi Bəhram.
– Evimiz yaxındır, – deyincə ağam,
Padşah gəlməyə riza göstərdi.

G ö v h ə r

Neçin təklif edir, bilmirmi dərdi?

Q u l a m

Sarayı çox tərif etmişlər ona,
Evini görməyə gəlir, o, ana!

G ö v h ə r

Yaxşı, get, ürəyim çırpınır, qızlar!

A f ə t

Qoy gəlsin, qorxacaq nə işimiz var!

F i t n ə

Biz aydan arıyıq, çeşmədən duru.

G ö v h ə r

Ayıq ol, Bəhramdan özünü qoru!
Bu şahlar bənzəyir bir yanar dağa,
Kim yaxın gələrsə, dönər torpağa.
Vaxt keçir, bəzənin, dur, qızım, Fitnə!

Fitnə atlazdan tikilmiş böyük bir xələti götürüb baxır.

A f ə t

Nə gözəl atlazdır, a bacım, bu nə?

F i t n ə

Afət, iki yaşı tamamdır, deyə
Xələtdir, tikmişəm Mərcan inəyə.
Gəl, bacım, gəl, Afət, bərabər gedək!
Mərcan inəyimlə bir az əylənək.

A f ə t

Gəl gedək, bu gün də, qadın pəhləvan,
Qaldır o inəyi qırx pilləkandan

G ö v h ə r

İnsanın başına, ah, nələr gəlir!
Yadıma düşdükcə qəlbimi dəlir.
Rəhmə gəlməsəydi o zaman atan,
Fitnədən qalmazdı bu gün bir nişan.

Eyvanı bəzəyirlər, q o c a əlində bir dəstə gül daxil olur

Q o c a

Uğur olsun, qızım, hardadır, Fitnə?

Gövhər dəstə gülü qocanın əlindən alır.

G ö v h ə r

Fitnəyə gətirdin bunu, ya mənə?

Q o c a

Ananı qızından kim ayıra bilər?

G ö v h ər

Baba can, qəlbimi dəlir bir nəştər.

Q o c a

Xeyir olsun!

G ö v h ər

Könlümə yatmır toy-bayram,
Bu gün süfrəmizə qonaqdır Bəhram.

B ə x t i y a r daxil olur. Bu xəbəri eşidib həyəcanlanır

B ə x t i y a r

Nə deyirsən, ana?! Hardadır Fitnə?
Qəlbimdə həyəcan başlanır yenə.

Q o c a

Nə fikirlə gəlir sarayımıza?
Qorxuram ki, ziyan yetirsin qıza.

G ö v h ə r

Məni çox qorxudur bu işin sonu.

B ə x t i y a r

Hardadır? Saraydan qaçırım onu.

G ö v h ə r

Bu gün iki yaşı tamamdır deyə
Getdi baş çəkməyə Mərcan inəyə.

B ə x t i y a r.

(*həyəcanlı*)

Yox, onu burdan qaçırım gərək!

G ö v h ə r

Özüylə get danış, nə deyir, görək.

Getmək istərkən, birdən qocanı görüb, onun əlindən tutur.

B ə x t i y a r

Bağışla, bağışla məni, baba can,
Sizinlə görüşmək çıxdı yadımdan.

Bəxtiyar, Qoca və Gövhər bərabər çıxır. Bir az sonra F i t n ə ilə B ə x t i y a r daxil olur.

B ə x t i y a r

Bir söz deyəcəkdim birlikdə sənə,
Görüncə unutdum, ah, gözəl Fitnə!

F i t n ə

Haçandan getmisən, hardaydın ağa?!

B ə x t i y a r

Getmişdim Fitnəyə üzük almağa.
Sevgilim, qəlbimə sığmayır qürur,
Bizə bu şən gündə nişan qoyulur;
Bununla bağlanır iki gənc ürək.

F i t n ə

Bəxtiyar hələ də uşaqsan, gərçək.
Biz çoxdan bağlıyıq bir-birimizə.
Nə gərək bu qızıl halqalar bizə?
Bizi bağlamışdır bu incəsənət.

B ə x t i y a r

Nə böyük olurmuş təmiz məhəbbət!
Ah, Fitnə!..

F i t n ə

Nə üçün susdun, Bəxtiyar.

B ə x t i y a r

Heç, gözüm işığı.

F i t n ə

Səndə bir sirr var,
Tez söylə!

B ə x t i y a r

Deyəcək sözüm olsa da,
Başıma min çeşid fikir dolsa da,
Ah, görüncə səni çıxır yadımdan.

F i t n ə

Qəlbində sirr yatır, gizlətmə, şeytan!

G ö v h ə r

(*daxil olur*)

Xoş gördük sizi, şux göyərçinlərim!
İşıqlı baharım, aydın səhərim!
Bu gün ən sevimli bir gündür sizə.
Xeyir ilahəsi yar olsun bizə!

Hər ikisini öpür.

Q u l a m

(*daxil olur*)

Gəlirlər, gəlirlər, qoy xanım Fitnə
Dişarı çıxmasın, girsin evinə.

B ə x t i y a r

Of, ana, Fitnəni görərsə Bəhram,
Bizə matəm olar, bu toy, bu bayram.

(*Fitnəyə)*

Deyəcək sözüm, bax, bu imiş, aman!
Fürsətkən, sevgilim, gəl qaçaq burdan!

F i t n ə

Yox, belə fürsəti qaçırmaq olmaz!

B ə x t i y a r

Gəl gedək, yubanma, ah, düşün bir az!..

F i t n ə

Bəxtiyar, səndən var böyük bir ricam,
Biz də Bəhram şahdan alaq intiqam!
Bu haqda tökmüşəm gözəl bir tədbir,
Sevgilim, mənimlə sən də ol əlbir!

Danışa-danışa çıxırlar. B ə h r a m, v ə z i r və Q u l a m daxil olur.

V ə z i r

Buyurun, padişah, şənlənsin ocaq;
Bu gəliş bizimçin bayram olacaq.

Bəhram diqqətlə imarətə baxır.

B ə h r a m

Mərhəba, çox gözəl imarətin var.

V ə z i r

Peşkeşdir sizə, ey böyük tacidar!

B ə h r a m

Görünür, çox incə bir zövq var səndə.
Tikilmiş bu bina gözəl çəməndə.

(*Eyvana çıxır, oradan sarayı diqqətlə süzür)*

Bu uzun pilləkən haraya gedir.

V ə z i r

Qızımın evinə.

B ə h r a m

Neçə pillədir?

V ə z i r

Qırx pillə, padişah!

B ə h r a m

Qırx pillə? Heyrət!
Çıxanda, enəndə olmurmu zəhmət?

V ə z i r

Padişah, zəhmətli olsa da bu iş,
Fitnə qız demişkən, etmişik vərdiş.

B ə h r a m

Of, yenə səbrimi əlimdən aldın,
O gözəl Fitnəni yadıma saldın.

Q o c a ilə Ə y y a r üz-üzə gəlirlər. Hər ikisi bir-birini görüncə qaçır. Əyyar birdən dayanıb düşünür.

Ə y y a r

Mən ona borcluyam, yoxsa o mənə?
Ey, dayan, qaçma, dur! Sözüm var sənə.
Borcunu gəl apar.

Q o c a

(*sevincək*)

Borcumu? Əyyar!
Görünür ki, səndə bir az insaf var!

Ə y y a r

Nə qədər borcluyam?

Q o c a

Əlli üç dirhəm.

Ə y y a r

Otuz bir dirhəmi o gün vermişəm.
Sonra iyirmi bir... Söylə nə qalır?

Q o c a

Məni, bax, bu əyyar yenə aldadır.

Ə y y a r

Neçin aldadıram? Nə sözdür axmaq!
Mən sənə bir dirhəm borcluyam ancaq!

Q o c a

Yenə də verirsən boş söz, boş hava.

Ə y y a r

Haqqını verirəm, nə gərək dava?!
Verdiyim boş sözə on dirhəm qiymət
Qoymuşdum. Ondan da bir çıxsaq, əlbət
Doqquz dirhəm qalır, tez ver pulumu!

*(Qoca getmək istəyir)*

Qoymaram gedəsən!

Q o c a

Kəsmə yolumu!
Belə bir haqq-hesab sığmaz kitaba.

Ə y y a r

Yenə də sözün var bu düz hesaba;
O doqquz dirhəmi alaram səndən!

Q o c a

Bu nədir, borcluya borclu çıxdım mən?

Fitnə gözəl səsi ilə oxuyur. Bəxtiyar çalır. Bəhram heyrətlə dinləyir.

F i t n ə

Yenə gözəl yaz gəlir,
Durna gəlir, qaz gəlir,
Çəmənlərə, çöllərə
Söhbət gəlir, saz gəlir.

Quşların şən nəğməsi
Verir bayram nəşəsi;
Dostumun incə səsi
Qulağıma az gəlir.

B ə h r a m

(*həyəcanla*)

Kimdir bu oxuyan? Nədir bu nəfəs?
Fitnənin səsinə bənzəyir bu səs.

V ə z i r

Qızımdır, padişah.

B ə h r a m

Heyrətli bir iş!

V ə z i r

Fitnənin səsinə vərdiş eyləmiş.

B ə h r a m

Onu hey andıqca hər axşam, səhər
Qəlbimin başına saplanır xəncər.
Bu gün iki ildir o gözəl mələk
Torpaqlar altında çürüyür, demək...

V ə z i r

Qəzəbin tutmasın mənə, padişah!
Əmrindən çıxmağı sandım bir günah.

B ə h r a m

O idi məclislər yar-yaraşığı,
O idi sarayın parlaq çırağı.

F i t n ə pilləkənlərdən inəyi qolları üzərində yuxarı aparır. Bəhram ona diqqətlə baxır.

B ə h r a m

Vəzir, kimdir bu qız, bu dişi aslan?
Böyük bir inəyi qırx pilləkandan
Qaldırır yuxarı.

V ə z i r

Qızımdır.

B ə h r a m

Heyrət!
Bir qızda olarmı bu hünər qüvvət?
O necə qaldırır?

V ə z i r

Çağırın onu;
Özündən soruşun siz bu oyunu.

B ə h r a m

Çağırın!

V ə z i r

(*Qulama*)

Durma, get, çağır o qızı!

B ə h r a m

Başqa cür görürəm sarayınızı;
O mənə görünür əfsanə kimi,
Sirlərlə dolu bir kaşanə kimi.

V ə z i r

Yaxşı da, yaman da olsa, hökmdar,
Öz mətbəxinizdir

B ə h r a m

Burda hikmət var.
Ağıllı, sınaqlı kişilər ancaq
Bacarır bəxtiyar ailə qurmaq.

Q o c a daxil olur.

Q o c a

(*Baş əyir*)

Uğurlar, padişah!

B ə h r a m

Ay!.. Qoca, nə var?
Nə üçün gəlmisən?

Q o c a

Uca tacidar!
Vəzirin evində xidmət edirəm,
Odur ki, arabir gəlib-gedirəm.

B ə h r a m

Əyyarın borcunu verdin?

Q o c a

Hökmdar, o mənə borcludur.

B ə h r a m

Bax, gəlir əyyar.

Onlar bir-birini görüncə yenə qaçıb gizlənmək istəyirlər.

V ə z i r

Dayanın, kim kimə borcludur, görək.

Ə y y a r

O mənə borcludur!

Q o c a

Yalan nə gərək!

Ə y y a r

Sən mənə borclusan!

Q o c a

Yox, sən borclusan!

Bir-birinin yaxasından yapışırlar.

Ə y y a r

Pulumu ver mənim!

B ə h r a m

Dayan, bir dayan!
Bu dava qoy qalsın hələ sonraya!

Q o c a

Borc verdim ki, borclu çıxım borcluya?

V ə z i r

Günümüz xoş keçməz Əyyar olmasa.

B ə h r a m

Hardaydın, günəşdən qaçan yarasa?!

Ə y y a r

Şah, indi göylərə yol açmışam mən,
Hər yana istəsəm uçuram.

V ə z i r

Əhsən!

B ə h r a m

Yoxsa göylərdə də borcluların var?

V ə z i r

Bu xəsis kişidən nə desən, çıxar.

Q o c a

De görüm, göylərə sən yol açanda,
Qat-qat fəzaları yarıb uçanda
Üzünə dəydimi yumşacıq bir şey?

Ə y y a r

Nə bildin? Əllamə qocasan, hey, hey!..
Üzümə toxunda bir şey... doğrudur.

Q o c a

Bizim boz eşşəyin, o, quyruğudur.

Hamı gülür

V ə z i r

Əyyarı yamanca tələyə saldı!

B ə h r a m

Bu qoca, gözümdə yaman ucaldı.
Ey əyyar, demək, sən borclusan buna!
Pulu ver, baxma çox oyan-buyana!

Q o c a

Qoymaram qaçmağa!..

Ə y y a r

Qaçmaram, dayan!

B ə h r a m

Qocanın pulunu ver!

V ə z i r

Bizdən utan!

B ə h r a m

Tez ol, ver pulunu, bu hiylə nədir?

Ə y y a r

Çox yaxşı, bu işdə tökmüşəm tədbir.
Bağda hər meyvədən şitil əkərəm,
Dörd-beş il becərib zəhmət çəkərəm,
Şitillər böyüyər, bağım bağ olar,
Meyvələr yetişər, kefim çağ olar,
Elə ki, budaqlar başını əyər,
Nar, heyva, şaftalı, gavalı dəyər,
Fərəhlə girərəm əkdiyim bağa,
Meyvələr ki, dəyib düşər torpağa,
Hər gün mən səbətə yığaram onu,
Sataram, verərəm cəmi borcunu.

(*Qoca acı-acı gülür)*

Nə gülür, borcunu verirəm, deyə.

Q o c a

Borcumu alaram mən döyə-döyə.

Q u l a m F i t n ə n i gətirir

Q u l a m

Gətirdim, tacidar!

F i t n ə

Salam, padişah!

(*baş əyir)*

Əmriniz?

B ə h r a m

Bu işdən et məni agah!
O böyük inəyi qırx pilləkandan
Necə qaldırırsan, ey dişi aslan?

F i t n ə

Şah, onu anadan olduğu gündən
Bir körpə buzovkən, sevə-sevə mən
Hər gündə bir kərə, heç yorulmadan
Əlimdə çıxartdım qırx pilləkandan.
Getdikcə bu işə elədim vərdiş.

B ə h r a m

Vərdiş hər hünərin açarı imiş!
Ah, Fitnə, sözünə indi verdim haq,
Neyləyim ki, səni çürütdü torpaq!..

(*iki əli ilə başını tutur*)

Elə sənətkara necə qıydım, ah!

V ə z i r

Nə verərsən mənə, adil padişah,
Qaytarım sənə o gözəl Fitnəni?

B ə h r a m

Hər nemətdən qəni edərəm səni!
Hanı o?

V ə z i r

Bax, budur o Fitnə şeytan.

Fitnə birdən üzündən rübəndi açır. Bəhram heyrət və diqqətlə ona baxır, yenə rübəndlə üzünü örtmək istəyir. Bəhram onun əllərindən tutur.

B ə h r a m

Ey bülbül nəfəsli dişi pəhləvan!
Sən isbat elədin: hər sənət, hünər
Daima vərdişlə inkişaf edər.

V ə z i r

Bu günkü şənliyə Fitnədir bais,
İzin ver naminə qurulsun məclis!
Bu səs aşiqini çağırım gəlsin;
Fitnənin bir az da səsi yüksəlsin!

B ə h r a m

Çağırın! Getdikcə açılır əsrar.

Qoca Bəxtiyarı çağırmağa gedir.

V ə z i r

Bu gün nişan taxır Fitnə, Bəxtiyar.

B ə h r a m

(*yarışən halda*)

Çox gözəl, çox gözəl!

Bəxtiyar

(*gəlir*)

Uğurlar olsun!
Qəlbiniz hər zaman fərəhlə dolsun.

B ə h r a m

Ey damad, otur, çal, oxusun Fitnə,
Çoxdandır həsrətəm gözəl səsinə.

F i t n ə

(*oxuyur*)

Bəzəkli gəlindir yenə hər ağac;
Dərələr, çəmənlər, çöllər al-əlvan.
Yaşıl don geyinmiş çaylar, dağ, yamac;
Bir şənlik məclisi qurmuş hər orman.
Min rəngə boyanmış hər budaq, hər gül
Həyata verməsdə yaraşıq, ziynət
Hər yana baxdıqca açılır könül,
İnsana can verir gözəl təbiət.

B ə h r a m

Ey bülbül nəfəsli dişi pəhləvan,
Sənin hər işinə olmuşam heyran.
Sən isbat elədin; hər sənət, hünər
Daima vərdişlə inkişaf edər!
O incə səsində açıldı könül.

Q o c a

Canlı gül başına, səpir qızıl gül!

B ə h r a m

Min yaşa, min yaşa, gözəl sənətkar!

V ə z i r

Taleyin yar olsun, yaşa bəxtiyar!
Qoşa həyatınız bir gülşən olsun.

B ə x t i y a r

(*Çiçəkləri Fitnəyə verir*)

Bu dəstə gül kimi könlün şən olsun.

Fitnənin başına çiçək səpirlər. Musiqi...

P ə r d ə

*1946*

# QARACA QIZ

(Mövzusu S.S.Axundovun eyni adlı hekayəsindən alınmışdır)

İŞTİRAK EDƏNLƏR

O r u c – qaraçı
G ü l p ə r i – Orucun anası
Y a s ə m ə n – Orucun arvadı
Ə l l ə z – qaraçı
Y e t ə r – qaraçı arvad
N a z l ı – qaraçı qız
Q o n ç a – qaraçı qız
Q a r a c a – Yetim qız
P i r i  b a b a – Qaraca qızın atasının dostu
B ə y
P ə r i c a h a n – bəyin arvadı
A ğ c a – bəyin qızı
S a y m a z – bəyin nökəri
P ü s t ə – Saymazın arvadı
N ə r g i z – Ağcanın mürəbbiyəsi

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Səhnə, səhər çağı meşədə çay kənarında qaraçı düşərgəsini təsir edir. Qaraçı ailələri bir-birinə yaxın, halqa vurub oturmuş, biri samovar qaynadır, biri ocaq qalayır. Hərə bir işlə məşğuldur. Bəzisi də oturub söhbət edir. Meymun səssiz uzanıb ətrafa baxır.

O r u c. Əlləz dayı, gecəki zəlzələdən xəbəriniz oldumu?

Ə l l ə z. Necə olmadı, yerimdən dik atıldım, yer bir sağa tərəf getdi, bir də sola tərəf. Sonra üşütməli adam kimi titrəməyə başladı.

Y e t ə r. Mən yaman qorxdum. Elə bildim indicə ağaclar kökündən qopub üstümüzə töküləcək.

N a z l ı. Yer altında yaman uğultu, qorxulu səslər vardı. Qorxumdan səhərə qədər yata bilmədim.

O r u c. Elə bil yer altında göy guruldayır, şimşək oynayır, ildırım çaxırdı.

Ə l l ə z. Çox dəhşətli gecəydi. Deyəsən bu ağacların da canı var, dili var, budaqlar baş-başa verib qorxa-qorxa pıçıldaşırdılar.

Y e t ə r. Bu da allahın bəlasıdır. Görəsən şəhərdə, kəndlərdə uçan ev, ölən adam oldumu?

G ü l p ə r i. Bu zəlzələni ki, mən gördüm, az adam salamat qalar. Qorxudan indi də bədənim titrəyir.

Ə l l ə z. Zəlzələdən, kim bilir nə qədər adam tələf oldu.

O r u c. Bizim çörək ağacımız bu xalqdır. Onlara bir şey olsa, çörəyimiz kəsilər.

Ə l l ə z (*acıqlı*). Keçi can hayında, qəssab piy axtarır. Sən həmişə özünü düşünürsən.

Y e t ə r. Görəsən bu zəlzələ nədən olur?

N a z l ı. Nədən olacaq, allahın bəlasıdır.

O r u c. Mən eşitmişəm ki, bu dünya bir böyük öküzün buynuzları üstündə dayanır. Öküz yorulanda başını tərpədir, yer də ondan hərəkətə gəlir.

Ə l l ə z. Bunu mən də eşitmişəm. Deyirlər bir zaman olacaq ki, öküzün başı lap yorulacaq, o zaman bu dünyanı buynuzlarının üstündən atacaq. Dünya parça-parça olacaq. O zaman qiyamət qopacaq.

N a z l ı. Allah o gündən saxlasın.

Ə l l ə z. Yox, yox, allah o günü göstərməsin. Hamımız batıb gedərik. Özümüz də, uşaqlarımız da əldən gedər.

Y e t ə r. Yox, yox, bu allahın bəlasıdır.

G ü l p ə r i. Eh, bu oxumuşlar da ağızlarına nə gəldi deyirlər, qaz nədir, baz nədir? Bu, allahın bəlasıdır.

O r u c. Hər nədəndir, o mənə lazım deyil, ancaq onu bilirəm ki, bizim çörək ağacımız qurudu. Gərək biz başımıza bir çarə qılaq.

M e y m u n gəlir, ortalıqda çöməlib durur, adamları bir-bir gözdən keçirir. Sonra həzin səslə səslənir.

N a z l ı. Bu heyvan kimi axtarır?

Y e t ə r. Yasəməni!

Ə l l ə z. Heyvan uşaq kimidir. Kimdən məhəbbət görsə, ona məhəbbət yetirər...

O r u c (*əlilə meymunu vurur*).Get yerinə!..

Meymun zingildəyə-zingildəyə gedib yerində uzanır. Bu zaman Y a s ə m ə n Q a r a c a q ı z ilə görünür.

N a z l ı. Dayanın, Yasəmən gəlir. Görək nə xəbər gətirmiş.

Y a s ə m ə n gəlir.

Ə l l ə z. Qızım, Yasəmən, nə var, nə yox?

Y a s ə m ə n. Əlləz dayı, heç soruşma, gecəki zəlzələdən xəbər tutdunuzmu?

Ə l l ə z. Tutduq, tutduq, de görək, ölən-itən varmı?

Y a s ə m ə n. Kəndlərdə daş-daş üstə qalmadı. Az adam salamat qurtuldu.

Ə l l ə z. Vay, xalqın evi yıxıldı. (*Əlləri ilə dizlərinə vurur. Meymun Yasəmənin səsini eşidincə tez qaçıb gəlir, əlləri ilə onu vurur, yalmanır, Yasəmən əli ilə onun başını oxşayır. Meymun sevindiyindən atılıb düşür. Sonra da Qaraca ilə oynamaq istəyir*)

Q a r a c a q ı z (*geri çəkilərək*). Xala, qorxuram, dişləyir məni.

Y a s ə m ə n. Qorxma qızım, səninlə oynayır, dişləməz.

G ü l p ə r i. Bu qaraca qızı hardan tapdın?

Y a s ə m ə n. Oruc, dünən, həyətlərində çalıb-oynayandan sonra sənə bir manat pul, mənə də bir baş yaylığını verən arvadın qızıdır. Ata-anası öldü. *(Yavaşca)* Mən onu dilə tutub qaçırdım.

G ü l p ə r i. Apar, apar, bizim onu doydurmağa çörəyimiz yoxdur.

O r u c. Bizə lazım deyil, hardan gətirmisən apar ver sahibinə.

Y a s ə m ə n Sahibi hardadır? Odur, yerin altında.

G ü l p ə r i. Yox, yox, bizə lazım deyil!..

Q a r a c a q ı z (*ağlayır)*. Mən gedirəm... Mən gedirəm.

Y a s ə m ə n (*onun başını qucaqlayır*). Ağlama, qızım, ağlama!

G ü l p ə r i. Allaha şükür, bircə zurna-balabanımız əskik idi.

Ə l l ə z. Dünyada nə acgöz adamlar var. (*Yerindən acıqlı qalxır, qıza tərəf gəlir)* Adam adama bəs nə zaman lazım olar? Bu yetim qızı mən özüm saxlayaram.

N a z l ı. Əlləz dayı, onsuz da sənin uşaqların çoxdur.

Ə l l ə z. Qoy çox olsun. Diş verən çörəyini də verər. (*Qızın əlindən tutdu)* Gəl bura, sən mənim qızım olacaqsan.

Q a r a c a q ı z (*ağlayır*). Mən gedirəm... Mən gedirəm.

Ə l l ə z. Hara gedirsən, qızım?

Q a r a c a q ı z. Piri babamın yanına.

Ə l l ə z. Adın nədir?

Q a r a c a  q ı z. Adım Tutudur.

Ə l l ə z (*başını qəmgin tərpədir*). Qızım, Tutu, səni mən özüm saxlayacağam. (*Əlindən çəkir)*

Q a r a c a  q ı z. Yox, mən Piri babamın yanına gedirəm.

N a z l ı. O da dam-daş altında qalıb ölmüş.

Ə l l ə z. Bu qızı mən özüm saxlayacağam.

Y e t ə r. Əlləz dayı, qoy bizdə qalsın.

G ü l p ə r i. Harda qalır qalsın, bizə gərək deyil.

Q o n ç a. Ha, ana can, nə yaxşı qızdır. Bir yerdə yaşayarıq.

Y a s ə m ə n. Yox, onu heç kəsə verməyəcəyəm, övlad kimi bağrıma basıb analıq edəcəm.

G ü l p ə r i. Ala, kül başına, qoca qayınanayın acından qarnı quruldayır, bu, yetim qız götürüb saxlayır.

Y a s ə m ə n. Niyə elə deyirsən, ay ana, oğlun, mən nə qazanırıq hamısı sənin qarnından gəlib-gedir. Sənin qarnın kor quyudur, nə versən, gördüm deməz. (*Hamı gülür)*

Q a r a c a  q ı z (*ağlayır*). Mən gedirəm...

G ü l p ə r i. Nazımı çəkməyə mən adam axtarıram. Heç bilmirəm, bu bəxtəvərin nazını kim çəkəcək.

Y a s ə m ə n. Mən çəkərəm, mən... Balam kimi saxlayaram. (*Onu qucaqlayır)* O mənim qızım olacaq... Bu mənim Tutu balamdır, bu meymunu da, o ayını da sənə verəcəyəm. Hər gün sən çalıb oxuyarsan, onlar sənin qarşında oynar. Dünən sizin həyətinizdə gördünmü nə yaxşı oynayırdı. Qonça, qızım, o ayını aç, bura gətir! (*Qonça gedir, ayını açıb gətirir)* Bax, nə yaxşı ayıdır?

Ayı it kimi yalmanır, Qaracanın paltarını qoxulayır. Onun qarşısında iki ayağı üzərində durub əlilə onunla oynayır.

Q a r a c a  q ı z. Vay... xala, buna bax!.. (*geri çəkilib maraqla ona baxır)*

Y a s ə m ə n. Qorxma, qızım, o səninlə oynayır.

Yasəmən dəfi əlinə alıb çalır. Ayı iki ayağı üzərində oynamağa başlayır. Qaracaya yanaşıb əliylə onu da oynamağa çağırır. Meymunu gəlib ayını əliylə itələyir. Qaraca ilə özü oynamaq istəyir. Ayı donquldanır. Pəncəsilə onu vurur. Meymun əl çəkmir. O da ayını dişləmək istəyir. Ayı onu dişləyir. Meymun zingildəyə-zingildəyə geri çəkilir. Dililə ayı dişləyən yeri tez-tez yalayır. Bir tərəfdə çömbəlib onlara tamaşa edir. Yasəmən dəfi çalır, ayı oynaya-oynaya Qaracaya yanaşır. Əlilə onu da oynamağa çağırır.

Y a s ə m ə n. Qızım, ayı səni də oynamağa çağırır.

Q a r a c a  q ı z. Yox, mən oynaya bilmərəm.

Y a s ə m ə n. Qonça, gəl, sən oyna.

Qonça dəfi əlinə alıb çalır, oxuyur, ayı ilə üz-üzə oynayır.

Q o n ç a (*oxuyur).*

Mən çalım, ey ayım, oyna!
Ey mehriban dayım, oyna!
Şabaş ilə dolsun dəfin.
Gətir, ver, mən sayım, oyna.

Ayım söylə, bu nə işdir?
Səndə yaman bir vərdişdir.
Yoxsa, ayım, qocalmısan?
Belin neçin əyilmişdir?

Mənim ayım gözəl qızdır,
Üzü lalə, gözü ulduzdur.
Adı dildə dastan olmuş,
Gözəllikdə o yalqızdır.

Y a s ə m ə n (*Qaraca qıza*). Qızım, sən də əl çal!

Qaraca əl çalmır... Ayı oynaya-oynaya onun yanına gəlir. Əllərilə onun əllərini bir-birinə vurur ki, əl çal. Hamı gülür, oyun qurtarır. Ayı dəfi əlinə alır, oturanların qarşısına tutub pul istəyir. Heç kəs pul vermir. Ayı pul verməyən adamlara donquldanıb gedir. Əlləz dayı dəfə üç abbası pul atır. Ayı dəfi gətirib Qaraca qıza uzadır.

Y a s ə m ə n. Bax, qızım, ayı hamıdan çox səni sevir. Pulu sənə verir.

Q a r a c a  q ı z. Mən pul yığan qaraçı deyiləm ki?!

G ü l p ə r i. Yox, sən Şah Abbasın qızısan.

Y a s ə m ə n. Mən qızım Tutuya çalmaq, oxumaq öyrədəcəyəm. Bir görün nə qız olacaq.

Y e t ə r. Gülpəri nənə yaxşı dedi. Bunun adını Qaraca qız çağırın.

Y a s ə m ə n. Bu qaraca qız mənim canım, ciyərimdi. Onu öz balam kimi saxlayacağam.

Q a r a c a  q ı z. Yox, mən piri Babamın yanına gedirəm.

G ü l p ə r i. Bundan sonra kefimiz var... Hər gün zurnasını başlayacaq.

Əlləz dayı çırt çubuğunu çək-çəkə dərin fikrə getmişdir.

N a z l ı. Ay Əlləz dayı, nə fikrə getmisən?

Ə l l ə z. Bu zəlzələni düşünürəm, nə qədər ev yıxdı, ocaq söndürdü, nə qədər ata-ananı oğlundan, nə qədər oğlu-qızı ata-anasından ayırdı.

Y e t ə r. Elə onu de. Bu yazıq qızın taxsırı nə idi?

Q a r a c a q ı z. Xala, mən evimizə gedirəm.

G ü l p ə r i. Oruc, sən allah bu yetimi buradan rədd elə. Səsindən başım-qulağım getdi.

Ə l l ə z. Ay Gülpəri bacı, nə yaman incə baş-qulağın var. Qızım, dur gəl yanıma, sən mənim qızım olacaqsan.

Y e t ə r. Əlləz dayı, sənin uşağın çoxdur. Mən saxlaram.

Y a s ə m ə n. Yox, bu qızı heç kəsə verməyəcəyəm.

Ə l l ə z. Sən yaxşı saxlarsan, ancaq bunların əlindən bu qız gün görməz.

Q a r a c a q ı z (*ağlayır*). Mən heç yerdə qalmıram. Evimizə gedirəm. (*Bərk ağlayır. Ayı və Meymun onun qarşısında atılıb düşür, donquldanır, zingildəyir. Qaraca ağlamaqda davam edir)* Mən babamın yanına gedirəm. Mən babamı istəyirəm.

O r u c (*Qaracanın əlindən tutub bərk itələyir*). Hara istəyirsən get!

G ü l p ə r i. Əlinə qurban olum, elə, bax.

Y a s ə m ə n (*qızın əlindən tutur*). Yox, getməyəcək.

O r u c. Bizə lazım deyil!

G ü l p ə r i. Rədd elə getsin!

Y a s ə m ə n. Yox, getməyəcək!..

## İKİNCİ ŞƏKİL

Səhnə otlu, çiçəkli və seyrək kollu bir çölü təsvir edir. Bir kiçik qaraçı çadırı qurulmuş. Çadırın yanında G ü l p ə r i oturmuş. Y a s ə m ə n ayaq üstə iş görür.

Y a s ə m ə n. Görəsən, oğlun neçin gecikdi?

G ü l p ə r i. Yenə niyə təşvişə düşmüsən?

Y a s ə m ə n. Qaracanı o hər gün ağladır. Qız onun əlindən lap təngə gəlmişdir.

G ü l p ə r i. Qız yaxşı qoçaq qızdır. Pul qazanandır... Ancaq bir az tərsdir.

Y a s ə m ə n. Tərs deyil... mənliyini sevən qızdır. Onun ilə acı-acı danışmaq olmaz!

G ü l p ə r i. Oruc tərs, o tərs. İki tərs yola getməz.

Y a s ə m ə n. Deyəsən Qaraca ilə barışmısan?

G ü l p ə r i. Hər gün dəf dolusu bizə pul gətirir. Bəs barışmaram?

İt bərk hürür. Adam səsi gəlir, kimsə ağac ilə uzaqda özünü qoruyur.

Y a s ə m ə n. Xeyir olsun, bu tərəf gələn adam kimdir?

P i r i b a b a (*gəlir*). Günortanız xeyir olsun.

Y a s ə m ə n. Xeyir içində olasan.

P i r i b a b a. Nə yaman sərt itiniz var. Yaxşı ki, bağlamısınız.

G ü l p ə r i. Nə istəyirsən, qoca?

P i r i b a b a. Mən bir qız itirmişəm, onu axtarıram.

Y a s ə m ə n. Nə qız?

P i r i b a b a. On iki-on üç yaşında. Qarayanız qızdır. Adı Tutudur, iki aydır onu axtarıram. Deyirlər ki, onu bir qaraçı arvadı götürüb aparıbdır.

G ü l p ə r i. Yox, bizdə elə qız yoxdur...

P i r i b a b a. Bəlkə başqa qaraçı dəstələrində görmüsünüz?

Y a s ə m ə n. O qız sənin nəyindir?

P i r i b a b a. Oğul kimi sevdiyim ən yaxın dostumun qızıdır. Atasının o qədər yaxşılığını görmüşəm ki...

Y a s ə m ə n. Görünür etibarlı kişisən.

P i r i b a b a. Qızım, it itliyilə yaxşılığı unutmur, biz insanıq.

Y a s ə m ə n. Eh, baba, hər adam onu bacarmaz.

P i r i b a b a. O qızı tapıb mənə versən, gedə-gündüz canına dua edərəm.

G ü l p ə r i. A kişi, nə çox danışırsan, sənə dedim ki, biz tanımırıq.

P i r i b a b a (*Yasəmənə*). Bəlkə onu bir yerdə görmüsünüz?

G ü l p ə r i. Yox, yox, görməmişik.

P i r i b a b a. Bu qız bəs nə oldu? İki aydır o qızı qapı-qapı gəzirəm.

Y a s ə m ə n (*tərəfə*). Eh, yazıq kişi... (*Piri babaya)* Zəlzələdən sizə də bir ziyan toxundumu?

P i r i b a b a. Eh, qızım, necə toxunmadı. Mənim də evim-eşiyim uçdu, bir nəvəm, gəlinim daş altında qalıb öldü. İndi yalqızam. Ah, bircə qızı tapsaydım, dərdlərimi unudardım.

G ü l p ə r i. Eh, nə çərənçi kişidir. Başım, beynim getdi. Onu tez yola sal, getsin.

Y a s ə m ə n (*tərəfə*). Ah, mən neyləyim? Balası kimi sevdiyi Qaracanı bu dərdli kişiyə verim. Bəs mən neyləyim? Yox, belə qızı əlimdən verə bilmərəm, o mənim canım, ciyərimdir. Bütün məhəbbətimi ona salmışam. Ana, deyib üstümə yüyürəndə ürəyim dağa dönür.

P i r i b a b a. Mənə doğru bir cavab verin.

Y a s ə m ə n. Baba, bizim o qızdan xəbərimiz yoxdur.

P i r i  b a b a (*ümidsiz*). Deyirsən yoxdur. Bəs bu qız nə oldu? Of, gəzməkdən ayaqlarımda gir qalmadı.

G ü l p ə r i. Yaxşı, yaxşı, neybətini üstümüzə tökmə, get!

P i r i  b a b a. Gedirəm, gedirəm, sağ ol, qızım. (*Gedir)*

G ü l p ə r i. Bura bax, yaxşı pul versəydi, qızı tapşırardım əlinə. (*Bağırır)* A kişi! A kişi!

Y a s ə m ə n (*əlilə Piri babanı işarə edərək*). Heç! Heç!.. (*Gülpəriyə)* Mən o qızı dünya malına satmaram.

G ü l p ə r i. Bura gəl, bura gəl!

Y a s ə m ə n. Ölsəm də mən o qızı əlimdən verməyəcəyəm...

G ü l p ə r i. Qoca, o qızı tapsaq bizə nə qədər pul verərsən?

Y a s ə m ə n. Ay arvad, hanı, qızı tapmısan ki, verirsən?..

P i r i  b a b a. Mənim pulum yoxdur, olsaydı ondan əsirgəməzdim. Kim o qızı tapıb mənə versə, üç ay ona qulluq edərəm.

G ü l p ə r i (*istehza ilə*). Qulluq edərəm.

P i r i  b a b a. Hər ağır çətin işinə gedərəm.

G ü l p ə r i. Yox, yox, bizə nökər-mökər lazım deyil. Get!

P i r i  b a b a. Ay bacı, deyəsən siz o qızın yerini bilirsiniz. Siz allah, bilirsinizsə, gizlətməyin.

Y a s ə m ə n. Baba, bilmirik.

G ü l p ə r i. Get, get... Biz qız-mız tanımırıq.

Piri baba gedir.

Y a s ə m ə n. Qocanı görürsən? Adilə, sanilə nişan verir, yoxsa qızın sorağını qocaya xəbər vermişlər. Of, ürəyim döyünür. Mən o qızsız bir gün də yaşaya bilmərəm.

G ü l p ə r i. Dəlisən, mən onu heç əlimdən verərəmmi? O bizim çörək ağacımızdır.

Y a s ə m ə n. Qoca yaxşı pul versəydi, elə verərdin ki... Sizin allahınız, imanınız, vicdanınız puldur, pul... Hələ dörd-beş aya görərsən o qız nə qız olacaq. Qaraçıların gözü bu qızdadır. Qorxuram, qoca yolda qızı görə. Oğlun da ki, bu yetim qıza göz verir, işıq vermir. Ağlatmadığı gün yoxdur. Qaçmasa yaxşıdır.

G ü l p ə r i. Yazığın harası var ki, hara qaçsın.

Y a s ə m ə n. İndi Qaraca yağa-bala dönüb; bir zaman qovurdun.

G ü l p ə r i. Mən də onun gətirdiyi pula şadam, yoxsa onu bir saat da bu qapıda qoymaram.

Y a s ə m ə n. Acgöz olduğunuzu bilirəm. (*Meymun uzanıb gözlərini açır, gah yumur, gah da yola tərəf baxaraq zingildəyir)* Meymuna bax, Qaraca ilə Orucun yolunu gözləyir. Ay ilə bunu Qaraca qız dostlaşdırdı, yoxsa heç yola getmirdilər.

O r u c ilə Q a r a c a görünür. Q a r a c a əlində dəf qaça-qaça gəlir. Dəfi yerə qoyub Yasəməni qucaqlayır. Birdən ağlayır. Meymun onu görüncə qaçıb yanına gəlir. Sevincək səslər çıxarır, onunla oynamaq istəyir. Qaraca etina etmir. Meymun ayı ilə oynamağa başlayır.

Y a s ə m ə n. Qızım, nə üçün ağlayırsan? Yoxsa Oruc əmi səni döymüş?

Q a r a c a q ı z. Əlindəki matraq ilə üç dəfə belimdən elə çəkdi ki. (*Ağlayır)*

Y a s ə m ə n. Can balam, can. (*Onu qucaqlayıb öpür)*

G ü l p ə r i. Qızım, Qaraca, gəl bura görüm nə qədər pul gətirmisən?

Q a r a c a q ı z. Pullarımı anama verəcəyəm. Al, ana can. (*Pulları Yasəmənə verir)*

Y a s ə m ə n. Qızım, apar ver, nənən saxlasın.

Q a r a c a q ı z (*qaça-qaça aparır).* Al, nənə can, Oruc əmiyə vermə. Əlinə pul düşən kimi gedib içir, xasiyyəti daha da pis olur.

G ü l p ə r i. Yox, qızım, verməram. (*Pulu acgözcəsinə qamarlayır)* Afərin qızım, bu gün nə çox pul gətirmisən. Gəl bir səni öpüm. (*Öpür. Orucu görüncə pulu gizləyir. Qaraca Yasəməni qucaqlayıb oturur. Oruc əlində matraq yanaşır, Qaracaya)*

O r u c. Qalx, ayını bağla.

Qaraca cavab vermir. Ayı, meymun oynamaqda davam edir.

Y a s ə m ə n. Qızımı niyə vurmusan?

O r u c. Sən ağzını yum, o mənim işimdir. Qalx ayını bağla!

Qaraca cavab vermir.

G ü l p ə r i. Ay oğul, sən bu qızı incitmə, o gələli ağ günə çıxmışıq.

Ayı ilə Meymun Qaracaya yanaşır. Sevincək səslər çıxarır. Onun qarşısında atılır-düşür. Qaraca onlara baxır, gülür, başını yenə Yasəmənin qoltuğuna soxur.

O r u c (*əlindəki matrağı yuxarı qaldırır*). Qalx deyirəm sənə!

Y a s ə m ə n. Qızım, bax, bu heyvanlar səni nə qədər sevir. Qalx qızım, ayını bağla gəl.

Qaraca durur. Ayının zəncirini əlinə alır, ayı ilə meymun sevindiklərindən onun qarşısında atılır-düşür. Qaraca onların başlarını qucaqlayır.

Q a r a c a q ı z . Mənim əziz dostlarım.

Ayı və meymun onu dililə yalayır. Ona mehribanlıq edirlər. Qaraca ayının zəncirindən tutub aparır. Ayı, meymun oynaya-oynaya gedirlər. Yasəmən onların dalınca baxaraq:

O r u c. Mən belə inad uşaq görməmişəm. O zorbalıqda ayı mənim qamçımın qorxusundan hər tövr oyun çıxarır, ancaq bu balacalıqda qızın əlində aciz qalmışam.

Y a s ə m ə n. Bunun səbəbi odur ki ayı heyvandır, bu isə insan. Heyvan ilə edilən rəftar insan ilə edilməz. Heyvana çubuq lazım isə, insana mehriban rəftar, mülayim söz lazımdır.

O r u c. Yox, bu bir səbəb deyil. Sən olmasan mən onu iki gündə muma döndərərəm.

Y a s ə m ə n. Bura bax, qızın adamı gəlmişdi. Onu axtarırdı. Bir təhər yola saldıq getdi. Sən bu qızı çox incitmə, qaçar.

O r u c. Sən bilmirsən o necə tərsdir. Nə deyirsən qaya kimi səs verir.

Y a s ə m ə n. Söz deməyin qaydası var. Bəs mənim sözümdən niyə çıxmır?

G ü l p ə r i. Yaxşı, yaxşı, beş-on şahı pul gətirir deyə sən də bu tat qızını dingə eləyib başımıza qoyma.

Y a s ə m ə n. Sənin kimi ananın elə də oğlu olar. Əti acı, dili acı. Yazıq bir parça quru çörəyi də göz yaşı ilə yeyir. Siz yaxşılıq bilməzsiniz.

O r u c. Bura bax, sən bizə ağıl öyrətmə, bu matrağı görürsən?

Q a r a c a q ı z gəlir. Yasəmənin qarşısında oturur. Yasəmən onu qucaqlayır.

Q a r a c a q ı z (*Yasəməni qucaqlayıb*). Ay ana, nə yaxşı sən varmışsan. Yoxsa mən bir saat burda dayanmazdım.

Y a s ə m ə n. Neylərdin, qızım?

Q a r a c a q ı z (*Yasəmənin qulağına*). Qaçardım.

Y a s ə m ə n. Dəli balam, hələ de görüm, bu gün yaxşı çalıb oxudunmu?

Q a r a c a q ı z. Ana can, elə yaxşı oxuyub çaldım ki, adamlar dəfimin içinə pul ilə doldurdular.

Y a s ə m ə n. Sənə bundan da yaxşı havalar öyrədəcəyəm. Dəfi götür, dünən öyrətdiyim havanı oxu, görüm necə öyrənmisən?

Q a r a c a q ı z (*tez qalxır*). Qoy ayını gətirim, çalıb oxuyaq.

Y a s ə m ə n. Yaxşı qızım, get, gətir. (*Qaraca qız gedir)*

G ü l p ə r i. Adamın allahı var, indi ağ günə çıxmışıq. Hər gün dəf dolusu pul gətirir.

Y a s ə m ə n. Ancaq yetimin günü, rüzgarı yoxdur.

O r u c. Nə qədər ki, tərsdir matraq yeyəcək.

Q a r a c a  q ı z ayı ilə oynaya-oynaya gəlir. Dəfi əlinə alır, çalır, oxuyur, ayı ilə üz-üzə oynayır.

Q a r a c a  q ı z (*oxuyur*).

Ey mehriban ayım oyna
Mən çalım, oynayım, oyna!
Sən şabaşla dəfi doldur,
Gətir ver, mən sayım, oyna!

(*Ağacı ayının əlinə verir, ayı qoca kişi kimi əlində ağac əyilə-əyilə oynayır)*

Gül çiçəkli yaz gəlmişdir.
Ayım, söylə bu nə işdir?
Yoxsa sən də qocalmısan
Belin neçin əyilmişdir?

(*Ayının başına papaq qoyur)*

Ey bığları burma oğlan!
Saf poladdan qurma oğlan!
Qırqovullar bax, səslənir.
Nişan al tez, durma, oğlan!

(*Ayının başına qırmızı dəsmal salır)*

Mənim ayım, çoban qızı,
Yanaqları al qırmızı.
Boyu onun sərv ağacı,
Başı Şüvəlan qarpızı.

Oyun bitdikdən sonra ayaqlarını aralayaraq dəfi onlara tərəf tutur. Yasəmən dəfin içinə bir abbası pul atır.

Y a s ə m ə n. Sağ ol, qızım, sağ ol, hələ sənə bundan da yaxşı mahnılar, oyunlar öyrədəcəyəm.

O r u c (*ayının böyrünə matraq ilə bərk vurur. Ayı bərk donquldanır).* Apar, apar, ayını bağla!

Qaraca qız ayı ilə oynaya-oynaya gedir. Arabir dayanır. Ayı matraq dəyən yeri dililə yalayır.

G ü l p ə r i (*göyə baxaraq*). Paho, göy üzü yaman bulanır. Buludlar üstümüzü alır.

O r u c. Bir yağış yağacaq ki, tut ucundan göyə çıx.

G ü l p ə r i. Tez ol, tez ol çadırın ətrafına dərin xəndək qaz. Bərk yağış yağsa çadırı da, bizi də sel apara bilər. İki dağın arasındayıq. Bu dərə yaman selli dərədir. Yadımdadır, bir dəfə burda selin ağzından özümüzü zor-güc ilə qurtardıq.

O r u c. Gəlin, gəlin, xəndək qazaq.

Qaraca qız, Yasəmən, Oruc əllərində külüng, bel çadırın ətrafını qazırlar. Göy guruldayır, şimşək çaxır.

Y a s ə m ə n. Mənim ürəyimə damıb, bu yağış ziyansız keçməyəcək. Onsuz da çaya bax, necə daşır. Sel getdikcə güclənir.

O r u c (*Qaracanı ayağilə bərk vurur*). Sən bu tərsin bir külüng vurmağına bax!

Q a r a c a q ı z (*acıqla*). Niyə vurursan?

O r u c. Görünür, könlün yenə matraq istəyir.

Q a r a c a q ı z. Dayan, sənin bu matraqlardan canımı elə qurtarım ki, bir də mənim üzümü görməyəsən.

O r u c. Sən o günü görməyəcəksən.

Q a r a c a q ı z (*tərəfə*). Görərik.

G ü l p ə r i. Oruc, Oruc çay daşır, sel bizə tərəf gəlir.

Y a s ə m ə n. Vay, başıma kül!

Göy guruldayır, şimşək oynayır, ildırım çaxır, şiddətlə yağış yağır.

G ü l p ə r i. Sel bizi ağzına alıb aparmasa yaxşıdır. (*Yerindən qalxıb çadıra tərəf gəlir)* Hələ bir yağışa bax!

O r u c. Çadıra gəlin, bura salamatlıqdır.

G ü l p ə r i. Çadıra girir. Yasəmən, Qaraca və Oruc tamaşa edirlər.

Y a s ə m ə n. Təpələrdən dərəyə axan selə baxın! Bu allahın bəlasıdır.

Meymun çadıra girir.

Q a r a c a q ı z. Sən bu meymuna bax, o da qorxusundan gəlib çadıra sığınır.

O r u c. Yaxşı yadıma düşdü. Qız, tez ol get, ayını aç, gətir.

Q a r a c a q ı z. Vay, bu yağışda, seldə mən necə gedim.

Y a s ə m ə n. Bu uşağı göndərmə, o bacarmaz!

O r u c. Bəs kim getsin? (*Qaracanın qolundan itələyir)* Get deyirəm sənə!

Y a s ə m ə n. Niyə özün getmirsən?

O r u c. Sən ağzını yum. (*Qaracanın qolundan tutub itələyir)* Sənə get deyirəm!

Q a r a c a  q ı z (*ağlayır)*Mən qorxuram.

Y a s ə m ə n. Yaxşı, yaxşı mən gedərəm... O qız ilə işin olmasın. (*Getmək istəyir)*

Q a r a c a  q ı z. Sən getmə, ana can, bax, çay daşıb o tərəfi bürüyür.

O r u c. Bir bax, canlarının üstündə nə əsirlər.

Y a s ə m ə n. Sən yaman əsirsən. (*Getmək istəyir)*

Q a r a c a  q ı z. Getmə, ana can, getmə, qoy mən gedim.

Y a s ə m ə n. Yox, qızım, səni qoymaram.

Q a r a c a  q ı z. Qorxma, mənə bir şey olmaz.

Getmək istərkən Yasəmən onu tutub saxlayır.

Y a s ə m ə n. Sən dur, tərslik etmə, mən gedirəm. (*Gedir)*

Şimşək oynayır, ildırım çaxır, ayı qorxusundan dartınır, budağı qırıb zəncirilə bərabər qaçır. Gülpəri başını çadırdan çıxarıb ətrafa baxaraq:

G ü l p ə r i. Vay! Bu sel dünyanı basacaq.

Q a r a c a  q ı z (*həyəcanlı*). Anamı sel aparmasa yaxşıdır, hanı görünmür? (*Yasəmən seldən keçmək istərkən yıxılır. O ayağa durmağa çalışarkən sel onu itələyib irəli aparır. Nə qədər çıxmağa çalışır, bacarmır. Birdən bağırır)*

Y a s ə m ə n. Vay...

Q a r a c a  q ı z. O nə səsdir? Vay!.. Anamın səsidir... (*Tez qaçır, yolun yarısından*) Köməyə gəlin, anamı sel aparır.

Oruc da qaçır, Qaraca özünü selə vurur, sel onu o tərəf-bu tərəfə atır.

Y a s ə m ə n. Qızım, sən gəlmə batarsan. Orucu çağır, Orucu.

Q a r a c a  q ı z. Ana can, qorxma, mən üzməyi yaxşı bilirəm. Oruc əmi!.. Oruc əmi!.. (*Özünü selin ağzından qurtarıb Yasəmənə çatdırır. Onun qolundan tutub çəkir. Sel onları o tərəf-bu tərəfə vurur. Oruc gəlir)*

O r u c. Qız, sən Yasəməni bu tərəfə çək. Əlini uzat, mən səni çəkim.

Q a r a c a  q ı z. Mən anamı tutmuşam...Əlim sənə çatmır... Bir az irəli gəl!

O r u c. Ha, qoçaq qız, qolundan tut, bu tərəfə çək.

Q a r a c a  q ı z . Sel qoymur... Sən də gəl!

O r u c. Mən gələ bilmərəm... Bərk tut, ha qoçaq... Ha!.. Çək... Bu tərəfə. Vay... Sel hər ikisini alıb aparır. Təkcə başları görünür. Odur yenə üzə çıxdılar. Qaraca, Qaraca!..

Q a r a c a  q ı z. Vay! (*Ağlayır*). Anamı sel aparır.

O r u c. Ağlama... Yasəməni o daşa tərəf çək.

Q a r a c a q ı z. Çəkirəm, sel qoymur, məni də batırır... Köməyə gəl!..

O r u c. Yox, mən gələ bilmərəm.

Q a r a c a q ı z. Vay... Anamı sel daşa vurdu.

O r u c. Ha, qoçaq qız... Bu tərəfə çək... Sel sizi sahilə vurur.

Q a r a c a q ı z. Sən əlini mənə uzat, tez ol, tez ol!

Oruc əlini ona uzadır, Yasəməni yarımcan sudan çıxarırlar.

Y a s ə m ə n. Vay... vay...

Qaraca qız başının dəsmalını açıb Yasəmənin başını ağlaya-ağlaya bağlayır.

Q a r a c a q ı z. Vay, başı daşa dəyib yarıldı. Qan gör necə axır. Ana can, ana can...

Y a s ə m ə n. Of, əl vurma, qızım, ölürəm.

O r u c. Nə olub, sənə ki... Başı yarılmaqla adam ölməz.

G ü l p ə r i. Oruc, Oruc, gəl məni burdan götür.

Y a s ə m ə n. Məni yerimdən tərpətməyin. Of, Qaraca hanı?

Q a r a c a q ı z. Burdayam, ana can! (*Qucaqlayıb ağlayır)*

Y a s ə m ə n. Yetim balam, yazıq balam! (*Onu qucaqlayır, ağlayır. Qaraca başını onun başına söykəyib ağlayır)*

O r u c (*birdən*). Ayı nə oldu? (*Birdən gedir baxır, tez qayıdır)*

Q a r a c a q ı z. Ana can, başın çox ağrıyır.

Y a s ə m ə n (*halsız*). Qızım, belim, of, belim yaman ağrıyır.

Q a r a c a q ı z (*əli ilə başına baxır*). Qan heç kəsilmir.

O r u c. Ayı budağı qırıb qaçmış, get onu tap... Tez ol!

Q a r a c a q ı z. Mən onu harda tapım? Bəlkə onu sel aparmış?

O r u c. Mən bilmirəm... Harda olsa tap gətir, yoxsa...

Qaraca ağlayır.

Y a s ə m ə n. Oruc, dayan, nə qədər canımda can var, sənə vəsiyyətimi eləyim. Dörd-beş ildir səninlə yaşayıram, acı söyüşdən başqa bir şey görməmişəm. Cavan ömrümü çürütdüm, min zülm, min cəfa etdin. Bunların hamısını sənə halal edirəm. Ancaq sən də mənə söz ver ki, bundan sonra Qaraca qız ilə mehriban dolanıb onu incitməyəcəksən... (*Halsız olur)*

O r u c. Yaxşı, yaxşı...

Q a r a c a q ı z. Ana can... ana can... sənə nə oldu?

Y a s ə m ə n (*halsız*). Heç... heç... qızım. (*Onu qucaqlamaq istəyir, bacarmır)* Vay...

O r u c. Yasəmən!.. Yasəmən!..

Q a r a c a q ı z. Ana can, ana can!.. Of, cavab ver... Ana can, sənə nə oldu?

Yasəmən canını təslim edir.

O r u c. Bu da belə getdi.

Q a r a c a q ı z. Ana can, ana can, məni kimə tapşırıb gedirsən. Sən ölmə, qoy mən ölüm, mən sənsiz yaşaya bilmərəm. (*Ağlayır)*

G ü l p ə r i (*bağırır).* Ay oğul, ay oğul, gəl məni burdan götür.

O r u c. Sənin də kefin gəlib. Bəxtəvər, arvad burda ölüb, ayı budağı qırıb qaçıb, sən də canıyın hayındasan... (*Qaracaya)* Qalx, zırıldama, tez ol, ayını get tap. (*Qolundan tutub çəkir*)

Q a r a c a q ı z. Burax qolumu... Mən anamı qoyub hara gedirəm.

O r u c. Dur deyirəm sənə. Ayı tapılmasa dərini boğazından çıxaracağam. De görüm o hara qaçar?

Q a r a c a q ı z. Nə bilim.

O r u c. Necə nə bilim.

Q a r a c a q ı z. Onun gücü məndə olsa, mən də zənciri qırıb qaçaram.

O r u c. O meşəyə qaçmış olacaq... Gəl gedək, axtaraq

Q a r a c a q ı z. Bəs anam?

O r u c. Çox mırıldanma, ayını tapıb tez qayıdarıq.

Q a r a c a q ı z. Yox, mən anamın yanından ayrılmaram.

O r u c (*matrağı qaldırıb havada oynadır və onun qolundan bütün qüvvətilə dartıb çəkərək*). Matraq yeməmiş, dur get deyirəm.

Q a r a c a q ı z (*ağlayır*). Of, nə yaman günlərə qaldım.

M e y m u n gəlir. Qaracanın ayaqları ucunda yalmanır.

O r u c (*matraq ilə meymunu vurur*). Dur get burdan. (*Gülpəriyə*) Biz getdik, sən meymundan göz-qulaq ol.

G ü l p ə r i. Ay oğul, məni sel ağzında qoyub hara gedirsən?

Q a r a c a q ı z (*Yasəmənə baxaraq*). Ay... Ana can... ana can... Mən sənsiz nə edəcəyəm?!

O r u c. Yubanma, gedək. (*Gedirlər)*

G ü l p ə r i. Məni sel ağzında qoyub getdilər. Bəs mənim halım nə olacaq? Bəlkə yenə sel gəldi... Yox, mən burda qala bilmərəm... Gedim başıma bir çarə eləyim.

Birdən şimşək oynayır, ildırım çaxır.

G ü l p ə r i. Vay... Mən burada qala bilmərəm. (*Qaça-qaça gedir)*

P ə r d ə

# İKİNCİ PƏRDƏ

## ÜÇÜNCÜ ŞƏKİL

Səhnə meşəni təsvir edir. Bir-birindən aralı ağaclar, kol-kos. Yaxında bir kiçik mağara, ayının zənciri bir kola dolaşıb. Nə qədər dartınır aça bilmir. Ayı donquldanır. Acığından, zənciri çeynəyir. Bir az dayanır, yenə donquldanmağa, bağırmağa zənciri çeynəməyə başlayır. Q a r a c a  q ı z  ilə  O r u c görünür.

Q a r a c a  q ı z. Ayının səsi bu tərəfdən gəlirdi.

O r u c. Aldada bilməzsən. Mən səs eşitmədim. Ayı tapılmasa bu meşədən salamat qayıtmayacaqsan.

Q a r a c a  q ı z. Mən neyləyim?

O r u c. Ayını bu saat tap!.. (*Matrağı qaldırır)*

Q a r a c a  q ı z. Bir dayan görək... səsini eşitmişəm... Bax... Odur, yenə səs gəlir.

O r u c. Ay çəngi, mən qulaqlarıma inanım, yoxsa sənə? (*Ayı bağırır)*

Q a r a c a  q ı z. Bax odur... Ayının səsidir.

O r u c. Hə, mən də bir səs eşitdim. Deyəsən odur.

Hər ikisi irəli gedir. Qaraca qız ayını görür. Ayı onu görüncə sevindiyindən atılır, düşür.

Q a r a c a  q ı z. Bax, odur, tapdım... (*Qaçır, ayını qucaqlayır. Ayı ona mehribanlıq edir. Əlilə onunla oynayır. Oruc gəlir. Zəncirinin dolaşığını ağacdan açır. Sonra zənciri ağaca bərk bağlayır. Matrağı qaldırıb)*

O r u c. İndi sənə bir toy tutum ki, bir də zənciri qırıb qaçmayasan. (*Matrağı ilə vurur, ay donquldanır, bağırır*)

Q a r a c a  q ı z. Oruc əmi, yazıqdır, niyə vurursan? (*Onun əlini tutur)*

O r u c (*onu itələyərək*). Sən çəkil!.. (*Vurur*)

Q a r a c a  q ı z. Axı onun taxsırı nədir? İldırımdan qorxub qaçıbdır.

O r u c. Ey nankor heyvan, bir də qaçarsanmı?

Q a r a c a  q ı z. Yox, daha qaçmaz... Yazıqdır bəsdir. (*Ağlayır*)

O r u c. Sən çəkil, çəngi. (*Vurur*) Bir də qaçarsanmı?

Ayı dartınır, dartınır, halqanı boğazından çıxarır. Qaracaya tərəf gəlir. Qaraca qız onun boynunu qucaqlayır, əlilə oxşayır. Ayı canını ağrısından donquldanır.

Q a r a c a  q ı z. Yox, gözəl ayım, yaxşı ayım, mənim əziz dostum, ağlama.

O r u c (*Zənciri ağacdan açıb gətirir, istəyir ki, halqanı ayının boynuna keçirsin*). Sən ayını bərk tut, halqanı boynuna keçirim. (*Qa-*

*raca ayını tutur. Oruc halqanı keçirmək istərkən ayı atılır, onu iki pəncəsilə yerə yıxıb, övkəşdirib dişləyir)*

O r u c. (*bağırır*). Ay qız, qoyma, ay məni öldürdü.

Q a r a c a q ı z. Vay, vay. (*Ayını tutub bir tərəfə çəkir)*

Ayı donquldanıb yenə Orucun üstünə atılır. Pəncəsilə onu vurur. Dişləyir. Qaraca qız baxıb ağlayır. Oruc ölür. Ayı ondan əl çəkincə Qaraca qız qorxusundan qaçır. Ayı da onun arxasınca qaçır. Qaraca qız bağırıb özünü tez bir mağaraya soxur. Ayı gəlib, nə qədər çalışır mağaraya girə bilmir. Bu zaman Hüseynəli bəy nökəri ilə əllərində tüfəng, Yanında itlər gəlirlər.

B ə y (*ətrafa göz gəzdirərək*). Ov görünmür, bu günkü zəhmətimiz deyəsən boşa çıxacaq.

S a y m a z. Ağa bu meşədə ov olmaz.

B ə y. Olsa da, olmasa da ovsuz evə qayıtmayacağam.

S a y m a z. Ovsuz qayıtsaq Pəricahan xanım bizi qapıdan qovar.

B ə y. Püstə də sənin qulaqlarını yerindən çıxarar. Bir dovşan vursaq ona da razıyam.

S a y m a z. Razı olmamış əlimizdən nə gəlir.

B ə y. Burda oturub bir tüstülətsək pis olmaz.

S a y m a z. Ağa mənim başıma bir fikir gəlib.

B ə y. Hansı başına, keçəl başına?

S a y m a z. Bəli, elə bu keçəl başıma. (*Başını açır)*

B ə y. Yaxşı, de görək!

S a y m a z. Ovsuz qayıtsaq mən bağ həyətinə girib qazların birinin başını kəsib gətirəcəyəm, deyərik çöl qazı vurmuşuq.

B ə y. Baxarıq... Keçmişdə burada hər kolun altından biz turac qalxırdı. Hər evə qayıdanda beş-on turac, qırqovul aparırdım.

S a y m a z. Onların da hamısı xanımın qarnından gəlib gedərdi.

B ə y. Niyə xanımın?! Püstə də, sən də evimdə qırqovul əti yeyə-yeyə qudurdunuz.

S a y m a z. Ağa, bu keçəl başıma and olsun yox, bir turac, qırqovul əti yeməmişik. Qırqovul sümüyü desən doğrudur. Pəricahan xanım bizim xörəyimizin üstünə quru qəfəs qoyardı. Biz ancaq it kimi qırqovulun qabırğalarını gəmirirdik, ət görməzdik.

B ə y. Nökər-qaravaş ki, var, qapıda it kimi bir şeydir. Elə adamlar var ki, qırqovulun o quru sümüklərinə də həsrətdir.

S a y m a z (*istehza ilə*). Orası elədir. Kasıb-kusub qırqovul ətinin ləzzətini nə anlayır. Onu allah yarıdıb bəylərə.

B ə y. Bu meşədən quşların nəslini kəsən mən olmuşam. Onları bax bu tüfənglə bir-bir dənləmişəm.

S a y m a z. Bir meşədən qırqovulun nəslini kəsmək, o da böyük məharətdir. Hər adam ürək eləməz. Görək onu bir mən də bacara bilərəmmi?

İt hürür.

B ə y. Dayan, görək bu it kimə hürür. Deyəsən ov görmüş...

S a y m a z. Elə bir şeydir. Yoxsa boş yerə hürməz.

İt daha şiddətlə hürür. Hər ikisi irəli gəlir. Görürlər ki, it ilə ayı boğuşur. Ayı pəncəsilə vurub iti yerə sərir.

S a y m a z. Ayıdır, ağa, ayıdır. (*Bəy nişan alır)* Dayan, ağa, qoy onu mən vurum. Sənin güllən öldürməz.

B ə y. Çəkil o yana, qoduq!.. (*Nişan alıb vurur. Ayı silkələnir, yaralanır, onlara hücum edir. Saymaz onu vurub yerə yıxır. Ayı yerdə böyürür, donquldanır)* Bu meşədə ömrümlə ayı görməmişəm, görəsən bu hardan azıb gəlmiş?!

S a y m a z. Ovsuz qayıtmayasınız deyə, onu sizin bəxtiniz çəkib gətirmiş. Yaxşı oldu, heç olmasa evə ovsuz qayıtmadıq.

B ə y. Ayı ətinin kababı dəsgah olur. Ovun axırı bəd olmadı. Götür gedək.

S a y m a z. Ağa, bu əl ayısıdır, boğazında xalta yeri var.

B ə y. Hanı?

S a y m a z. Budur, bax!

B ə y. Bu meymun oynadan qaraçıların olacaq.

S a y m a z. Gərək öldürməyəydik, Ağca xanıma töhfə aparardıq. Görəsən bu necə olub qaçıbdır?

B ə y. Kim bilir?

İt Orucun meyidini iyləyib hürür.

S a y m a z. Kimdir o?

B ə y. Hanı?

S a y m a z (*Orucun meyidinə tərəf gedir*). Ayının sahibidir. Bəy, görünür, ayı basıb öldürüb.

İt mağara ağzında hürməyə başlayır. Mağaraya girib çıxır, aramsız hürür.

B ə y. Deyəsən mağarada heyvan var. İt yaman hürür. (*Tüfəng ilə nişan alır)*

S a y m a z (*mağaraya tərəf gedir*). Ha, bozlar, ha!.. (*İt mağaraya soxulur, içəridən ağlamaq səsi eşidilir)* Eşidirsən? Adam səsidir. Bax, ağlayır. (*İti səsləyir*). Bozlar, Bozlar!

İt mağaradan çıxır, ağzını mağaraya tutaraq bərk hürür.

S a y m a z. Ey, kimsən, qorxma, mağaradan çıx! (*Cavab gəlmir. İt mağaraya soxulur, Qaracanın ətəyindən tutub çəkə-çəkə çıxarır, Saymaz iti qovur, Qaraca ağlayır)* Qorxma, qorxma!

B ə y. Ay qız, sən kimsən? (*Qız cavab vermir)*

S a y m a z. O kişi sənin nəyindir?

Q a r a c a  q ı z. O mənim heç nəyim, düşmənim. Ayı intiqamımı yaxşı aldı.

B ə y. Əcəb dilli-dilavər qızdır.

S a y m a z. Bəs sənin ürəyin ona yanmır?

Q a r a c a  q ı z. Yox, yanmır... O mənə çörək vermirdi, mən ona çörək qazanırdım. Hər gün dəfini pul ilə doldurub ona verirdim, o da əvəzində mənə matraq vururdu.

S a y m a z. Bəy ki deyil, onun matraq ilə döyməyə ixtiyarı yoxdur.

Q a r a c a  q ı z (*ayını görür, həyəcanla bağırır*). Vay, mənim gözəl ayım. (*Tez gəlir, onun başını götürüb qolu üzərinə qoyur, ayı gözlərini açır. Qızı görüncə yavaş-yavaş inildəyir və əlilə qızı qucaqlayan kimi ölür)*

B ə y. Bay, bu hələ ölməmiş... qız, bəri gəl, səni dişlər.

Q a r a c a  q ı z. O məni dişləməz. (*Ağlayır)*

S a y m a z. Ona bax, ölüm halında yenə qıza məhəbbət göstərir.

B ə y. O səni çox sevirdi?

Q a r a c a  q ı z. Bəs sevmirdi.

S a y m a z. Bəs nə üçün qaçıb mağaraya girmişdin?

Q a r a c a  q ı z. Kişi onu matraq ilə döydü, o da qəzəblənib onu öldürdü. Mən qorxdum ki, məni də öldürsün, qaçıb mağaraya girdim. O mağara ağzında məni çox səslədi, çox çağırdı. (*Ağlayır)* Çıxsaydım, ayım ölməzdi.

S a y m a z (*zənciri yerdən götürüb*). Bu da zənciri.

Q a r a c a  q ı z. O öz zəncirini də qırdı, mənim zəncirimi də, hər ikimiz qurtardıq. Ancaq o öldü, mən qaldım. (*Ağlayır)*

S a y m a z. Ağlama.

B ə y. Yaxşı qızdır. Mən bunu Ağca xanıma töhfə aparacağam.

Q a r a c a  q ı z. Nə? Oyuncaq deyiləm ki, məni töhfə aparasan?

B ə y. Oho, qaraçı qızında bir qudurğanlığa bax?!

Q a r a c a  q ı z. Mən qaraçı qızı deyiləm.

Meymun uzaqda zingildəyir. Ağac yanında görünür.

S a y m a z. Ağa, o tərəfdə gözümə bir heyvan dəydi.

B ə y. Hanı?

Meymun görünür, zingildəyə-zingildəyə nə isə axtarır,

S a y m a z. Odur bax, bu nədir elə.

B ə y (*diqqətlə baxır*). Tülküyə bənzəyir. (*Nişan alır)*

Q a r a c a  q ı z ( *meymunu görcək bağırır).* Vay, vurmayın, mənim meymunumdur. Şeytanım, Şeytanım! (*Səslənir, meymun Qaracanın səsini eşidincə qaçıb gəlir, onun ayaqları ucunda yıxılıb sevincək hərəkətlər çıxarır. Qaraca onu oxşayaraq)* Gözəl şeytanım, mənsiz darıxdın? (*Meymun zingildəyir, atılıb düşür)*

S a y m a z. Ağa, heyvanda etibara bax?!

B ə y. Yaxşı meymundur, bunu da Ağca xanım üçün apararıq.

Q a r a c a  q ı z. Yox, mən onu heç kəsə vermərəm. (*Meymun ilə bərabər getmək istəyir)*

B ə y. Haraya?

Q a r a c a  q ı z. Evimizə!

B ə y. Saymaz, tez ol, ayını da götür gedək!

S a y m a z. Ağa, ayını mən tərkimə alaram, bəs bu qızı, bu meymunu?

B ə y. Meymunu qucağına al, qızı da mən tərkimə alaram. Kəndə yaxınlaşanda düşüb ayağilə gedər.

Q a r a c a  q ı z. Yox, mən getmirəm. Mən gedim əvvəlcə anamın meyidini basdıracağam, sonra da kəndimizə gedəcəyəm.

S a y m a z. Kəndiniz hardadır?

Q a r a c a  q ı z. Axtarıb taparam.

B ə y. Yox, getməyəcəksən. (*Onun qolundan tutub çəkir. Meymun bəyə hücum edir)*

Q a r a c a  q ı z (*ağlaya-ağlaya*). Mən kəndimizə babamın yanına gedəcəyəm. (*Dartınıb ağlayır)*

B ə y (*Matrağı qaldırıb vurmaq istəyir*) Bu matrağı görürsən? (*Meymun qəzəblənir, atılıb matrağı dişilə tutur, bəy matrağı çəkir, meymunu vurur. Meymun acıqlanıb bəyin üstünə atılır. Bəy onu vurmaq istərkən Qaraca meymunu qucaqlayır)*

Q a r a c a  q ı z. Meymunumu vurma, mən babamın yanına gedirəm. (*Meymunu qucaqlayıb ağlayır)*

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

Səhnə bəyin malikanəsini təsvir edir.

A ğ c a. Ana, mən bağçamızı gəzmək istəyirəm.

P ə r i c a h a n. Mürəbbiyən Nərgiz ilə get, gəz, gəl.

A ğ c a. Yox, mən təkbaşına gəzmək istəyirəm.

P ə r i c a h a n. Təkbaşına olmaz!

A ğ c a. Piri baba ordadır, o məni gəzdirər.

P ə r i c a h a n. Nərgiz Piri babadan əskikdir? O sənin mürəbbiyəndir. Atan ona ayda bir ətək pul verir.

A ğ c a. Yox, onu istəmirəm.

P ə r i c a h a n. Niyə, qızım?

A ğ c a. O məni ağzımı açıb nə bir söz danışmağa, nə də bağçadan bir çiçək qoparmağa qoyur. Elə uzun danlayır. Mənim ondan heç xoşum gəlmir.

P ə r i c a h a n. Qızım, o sənə tərbiyə verir. Sən gərək onun sözündən çıxmayasan.

A ğ c a. Eh, tərbiyə verir. Mənim ürəyim onunla heç açılmır.

P ə r i c a h a n. Piri kişi sənin ətəyinə noğul-nabat tökür?

A ğ c a. O mənə şirin söhbətlər edir. Keçmişlərdən danışır. Onu görəndə ürəyim gül kimi açılır, elə yaxşı qocadır ki!..

P ə r i c a h a n. Bura bax, qızım, mən Nərgizdən başqa heç kim ilə səni bağa buraxa bilmərəm. O hardadır? Yoxsa div kimi yeddi günün yuxusuna gedib. Nərgiz! Nərgiz!

N ə r g i z (*qaça-qaça*). Mən burdayam, xanım.

A ğ c a (*arxasını çevirərək*). Yenə canım üçün gəldi.

P ə r i c a h a n. Bu qız darıxır, onu nə üçün yalqız qoyursan?

N ə r g i z. Mən ona şəkilli kitablar verdim, oxusun, şəkillərinə baxsın.

A ğ c a. Bir kitabın şəkillərinə nə qədər baxarlar? Mənim ürəyim sıxılır, danışmaq, oynamaq istəyirəm.

P ə r i c a h a n. Bəyəm sənin əlini tutur, bu eyvanda oyna.

A ğ c a. Kiminlə oynayım? Bu daş, divar iləmi? (*Ağlayır)* Bir qız yoxdur ki, onunla oynayım. Kim gəlir, yox, sən bəy qızısan, kəndli qızları ilə oynama, deyirsən. Bəs mən kiminlə oynayım?

N ə r g i z. Oyuncaqlarınla, sənin ev dolusu oyuncağın var.

A ğ c a. O cansız oyuncaqlar da məni təngə gətirdi. (*Ağlayır)*

P ə r i c a h a n (*acıqlı*). Nərgiz, sən Ağca xanıma yaxşı qulluq edə bilmirsən.

N ə r g i z. Xanım, mən daha neyləyim? Səhər, axşam onu dizimin dibindən o yana getməyə qoymuram. Oxuduram, nağıl söyləyirəm.

A ğ c a. Ha, söyləyirsən...

P ə r i c a h a n. Bəs bu qız niyə darıxır?

N ə r g i z. Mən nə bilim! O, anaları ilə qapınıza gələn kəndli qızlarını istəyir. Onlar ilə danışmaq, oynamaq istəyir, mən qoymuram.

P ə r i c a h a n. Yaxşı eləyirsən, elə də lazımdır. Bəy qızı kəndli qızı ilə oynamaz!

A ğ c a. Elə evdə dustaq kimi oturub qalar. O kəndli qızları məndən xoşbəxtdilər. (*Ağlaya-ağlaya otağa girir)*

P ə r i c a h a n (*Nərgizə*). Dayanma, get, Ağca xanımı sakit et!

N ə r g i z. Baş üstə, xanım! (*Gedir)*

P ə r i c a h a n. Bu qulluqçular hardadır? İndi heç biri görünmür. Süfrə ortaya gələndə hamısı məndən əvvəl hazır olur. Yaxşı demişlər: Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş. (*Piri baba görünür)* Piri kişi, bura bax!

P i r i b a b a (*yaxınlaşır*). Buyur, xanım!

P ə r i c a h a n. Sən Ağca xanıma gərəksiz söhbətlər edib onun tərbiyəsini pozma.

P i r i b a b a. Mən nə danışıb onun tərbiyəsini pozmuşam?

P ə r i c a h a n. Nə bilim, keçmişdən, kənddi-kütdüdən danışırsan, o da mürəbbiyəsini istəmir, səni istəyir.

P i r i b a b a. O məni istəyir, çünki mən ona elə söhbətlər edirəm ki, könlü açılır.

P ə r i c a h a n. Yox, açma, lazım deyil. Mən bundan sonra sənə qadağan edirəm. Qoy bir adam tərbiyə versin.

P i r i b a b a. Çox yaxşı, xanım, siz deyən olsun.

P ə r i c a h a n. Ay qız, Püstə, Püstə, hardasan?

P ü s t ə. Burdayam, xanım.

P ə r i c a h a n. Ay başı batmış, niyə gözdən itib batırsınız? Bir iş lazım olanda gərək yeddi qapıya düşüb sizi çağırıb bağıraq.

P ü s t ə. Nə buyurursunuz?

P ə r i c a h a n. Yemək otağında süfrə üstünə bir ölü çibin düşüb, gəl onu götür, at!

P ü s t ə. Baş üstə, xanım!

P ə r i c a h a n. Sizə verdiyim çörək haram olsun. Heç bir işə yaramırsınız. Ancaq yemək, içmək bilirsiniz.

P ü s t ə. Ay xanım, yediyimiz, içdiyimiz nədir? Sən də gündə başımıza qaxırsan.

P ə r i c a h a n. Çox danışma, ləçərin biri ləçər.

Bəy, Q a r a c a, S a y m a z daxil olurlar.

S a y m a z. Paho... evə yaman vaxtda gəlib çıxdıq. Xanım yenə hirslənmiş. Qorxudan başımın tükləri yenə biz-biz oldu. Ağa, Qaraca qızı xanım hələ görməsin. Qoy hirsi bir az soyusun.

B ə y. Boş-boş danışma. Ayını apar töyləyə qoy.

Q a r a c a q ı z. Mən kəndimizə gedirəm.

A ğ c a (*atasını görür, qaçaraq*). Ata can, ata can, mənə nə gətirmisən?

B ə y. Bax, sənə nə yaxşı şeylər gətirmişəm?

A ğ c a. Ay, nə yaxşı qızdır. Hələ meymuna bax, nə məzəlidir! Ata, bu meymunu da mənə gətirmisən?

Q a r a c a q ı z. Yox, meymun mənimdir!

A ğ c a. Boy, nə məzəli meymundur. Ata, bu qız ilə, bu meymun ilə məni oynamağa qoyarsan?

B ə y. Baxarıq, qızım, onu anan bilər.

A ğ c a. Ana can, bax, nə yaxşı qızdır.

P ə r i c a h a n. Bu dünya gözəlini hardan tapıb gətirmisiniz?

B ə y. Meşədən, ayının ağzından almışıq.

P ə r i c a h a n. Pəh-pəh, hamı gedər quş gətirər, Xanəli bayquş gətirər. Onu bu qapıdan rədd eləyin, gözüm görməsin.

A ğ c a. Yox, yox!.. Qoy qalsın bizdə.

B ə y. Adə, keçəl, bu qızı apar tövləyə sal.

Q a r a c a q ı z. Mən tövləyə getmirəm. Kəndimizə gedirəm, babamın yanına gedirəm.

P ə r i c a h a n. Yaxşı, yaxşı... Səni alişan imarətdə saxlarıq.

Q a r a c a q ı z. Mən babamın yanına gedirəm.

X a n ı m. Bircə bunu mənim gözümün qabağından götürün. Bəxtəvərin yanağından qan damır.

Q a r a c a q ı z. Mən babamın yanına gedirəm.

Saymaz onun qolundan tutub aparır, meymun da gedir.

A ğ c a. Ata, mənim meymunumu da aparır.

B ə y. O meymunu da bağda bir ağaca bağla.

X a n ı m. Adını da bəy qoymusan, ovdan gətirdiyin töhfələrə bax, bir utan... Qaraçı qızı, qıllı ayı, qıllı meymun. Mən o qızı saxlamayacağam.

B ə y. Sənin başın işləmir. Mən onu bəsləməyə gətirməmişəm. Sahibsiz, yetim qızdır. Vur boynunun kökünə, səhərdən axşamacan işlət.

Hər üçü gedir, S a y m a z gəlir.

P ü s t ə. Saymaz, nə yaxşı qızdır, gəl onu götürüb saxlayaq.

S a y m a z. Nə? Başımda beş-on tük var, onu da xanıma yoldurmaq istəyirsən? Görmürsən qızı görüncə dəli kimi divara dırmanırdı. Yox, yox, mən yaxamı onun əlinə verə bilmərəm.

P ü s t ə. Onu doğru deyirsən, bizim də günümüz batar, o yazıq yetimin də.

P i r i b a b a gəlir, Püstə gedir.

S a y m a z. Xoş gördük, baba.

P i r i b a b a. Xoş günün olsun, de görüm, bəy ovdan nə gətirdi?

S a y m a z. Çox şey... Bir ayı, bir meymun, bir də bir qız...

P i r i b a b a. Sən də, bu zarafatı burax.

S a y m a z. Canım üçün, baba, doğru deyirəm. Bu günkü ovumuz çox qəribə oldu. Bir ayı, bir meymun, bir də bir qız. Qarşımıza ov çıxmadı, bir də gördük, Bozlar ayı ilə boğuşur. Bəy ayını vurub yerə sərdi.

P i r i b a b a. Bu meşələrdə ayı hardan?

S a y m a z. O qaraçı qızın ayısıymış. Biz bilməyib vurub öldürdük.

P i r i b a b a. O qızın adı nə idi?

S a y m a z. Adı? (*Fikrə gedir*) Bir qəribə adı var. Yavaş görüm... ha... adı Qaraca...

P i r i b a b a. Qaraca? Necə qızdır?

S a y m a z. 13-14 yaşında, qarayanız bir qızdır.

P i r i b a b a. Bu bizim Tutu olmasın? Ah, yadıma düşəndə ürəyimin başı göynəyir. Bircə o qızı tapa bilsəydim!

S a y m a z. Ha, o axtardığın qızı deyirsən? Sən də o qız üçün nə bu qədər əldən, ayaqdan gedirsən?

P i r i b a b a. Adam gərək yaxşılığı unutmasın. Atasının o qədər yaxşılığını görmüşəm ki... O qız hardadır?

S a y m a z. Tövləyə salmışam. Ağlayırdı ki, babamın yanına gedəcəyəm. Qorxdum ki, qaçar. Qapını üzünə bağladım.

P i r i b a b a. Tövləyə nə üçün saldın?

S a y m a z. Bəy əmr elədi.

P i r i  b a b a. Tfu, sənin insafına. Belə adamların çörəyini yemək haramdır. (*Getmək istəyir)*

S a y m a z. Hara?

P i r i  b a b a. Gedim görüm o qız kimdir? Ürəyim çox döyünür. Bəlkə Tutudur?

B ə y. Piri, piri!

P i r i  b a b a. Bəli, bəy!

B ə y. Tez, tez! Atlar acdır. Get, qonşumuz Yunis kişidən iki çuval arpa gətir.

S a y m a z. Bəy, qoy mən gedim.

B ə y. Yox, sənə ayını soyduracağam, qoy Piri getsin. Tez ol, Piri.

Piri gedir, A ğ c a  gəlir.

A ğ c a. Ata, o meymunu gətirsinlər, mən bir az oynayım.

B ə y. Ədə, keçəl, get meymunu gətir.

A ğ c a. Ay can, ay can! Elə məzəli meymundur ki. (*Atasını qucaqlayır)* Ata can, məni hər gün o meymun itlə oynamağa qoyarsan?

B ə y. Qoyaram, qızım.

A ğ c a. Qorxuram anam qoymasın.

B ə y. Anan meymun ilə oynamağa bir söz deməz.

A ğ c a. Ay can, ay can! Bundan sonra heç darıxmayacağam. Bax, odur gəlir. Ay, nə məzəlidir!

S a y m a z  əlində meymunun ipi gəlir. Ağca ona yanaşır. Meymun ona acıqlı-acıqlı baxır, sonra arxasını ona çevirib oturub.

Bay, buna bax, mənimlə oynamaq istəmir.

S a y m a z. Adı Şeytandır. Adını çağır, səninlə oynasın.

A ğ c a. Şeytan... Şeytan...

Meymun dönərək ona baxır. Yenə arxasını çevirib oturur.

S a y m a z. Bunun dilini o qız yaxşı bilir.

B ə y. O qız hardadır?

S a y m a z. Töyləyə qoymuşam. Gələndən ağlayır. Qapını əlilə bərk-bərk vurur ki, açın!

A ğ c a. Ata, qoy o qız gəlsin oynatsın mən baxım.

B ə y. Get, o qızı gətir, görüm niyə ağlayır?

Saymaz meymunun ipini dirəyə bağlayıb gedir.

A ğ c a (*yanaşır*). Şeytan, Şeytan! (*Meymun cavab vermir*) Bura bax, Şeytan! (*İpi çəkir, meymun acıqlanıb ona hücum edir*) Vay, buna bax, məni dişləmək istəyir.

B ə y. Yaxın getmə, qızım, səni dişlər.

A ğ c a. Odur, qız gəlir. İndi o oynadar, mən baxaram. Elə məzəlidir ki!

Meymun Qaracanı görüncə atılıb düşür.

B ə y. Qız, sən nə üçün ağlayırsan?

Q a r a c a  q ı z. Mən burda qalmıram, babamın yanına gedirəm.

B ə y. Mən səni heç bir yerə buraxmaram. Burda qalıb bizə qulluq edəcəksən.

Q a r a c a  q ı z. Yox, qalmayacağam. (*Ağlayır)*

B ə y. Səni matraq ilə döyə-döyə saxlayacağam.

Q a r a c a  q ı z (*ağlayır*). Mən gedəcəyəm.

A ğ c a. Niyə ağlayırsan, ağlama. Sən allah, ağlama!

P i r i  b a b a (*gəlir*). Bəy, evdə heç kəs yoxdur, oğlunu gördüm, dedi: atam gəlincə mən özüm gətirərəm.

A ğ c a. Sənin adın nədir?

Piri baba Qaracanı görüb ona tərəf getmək istərkən

Q a r a c a  q ı z. Adım Qaracadır.

Qaraca adını eşidib Piri baba dayanır.

A ğ c a. Qaraca... Bay, nə məzəli adı var.

Meymun Qaraca ilə oynayır.

S a y m a z. Baba, bəlkə bu sən axtardığın qızdır.

P i r i  b a b a. Yox, onun adı Tutu idi. Eh! (*Dərindən ah çəkir)*

Q a r a c a  q ı z (*dönüb Piri babaya baxır, həyəcanla*). Ay... Baba can! (*Ona tərəf qaçır)*

P i r i  b a b a. Vay, qızım!.. (*Qızı bərk qucaqlayır, hər ikisi ağlayır. Əlilə onun başını oxşayaraq)* İstəkli balam... Sən harda idin? Mən səni gözləməkdən yoruldum. Bəy, siz bu qızı hardan tapdınız?

B ə y. Bu qız kimdir?

P i r i  b a b a. Bu mənim oğul kimi sevdiyim bir dostumun qızıdır... Çox sağ ol ki, bəy bu qızı gətirdiniz. Mənə dünyaları bağışladınız.

S a y m a z. Axır ki arzuna qovuşdun... Gəlmirdi, zor ilə gətirdik.

Q a r a c a q ı z. Mən Piri babamın yanına getmək istəyirdim. (*Piri babanı qucaqlayır)*

P ə r i c a h a n. Yenə orda nə toy-bayramdır? Bundan sonra kefimiz var. Ağca sən orda neyləyirsən? Ay qız, sənə demədim o qız ilə danışma!

A ğ c a. Mən onunla danışmıram, meymun ilə oynayıram.

P ə r i c a h a n. Nərgiz, Nərgiz, Nərgiz, Nərgiz!

N ə r g i z! Bəli, xanım.

P ə r i c a h a n. Tərbiyə verdiyin qıza bax, kimlərlə danışır. (*Nərgiz onun əlindən tutub aparır)* Bu qızı burdan tez rədd eləyin!..

B ə y. Saymaz, bu qızı apar, yenə tövləyə sal!

Q a r a c a. Yox, mən tövləyə getmirəm.

P i r i b a b a. Bəy, o heyvan deyil ki, tövlədə yaşasın. Qoy mənim ilə bir otaqda yaşasın.

P ə r i c a h a n. Ona tövlə də çoxdur.

P i r i b a b a. Yox, xanım, mən onu tövlədə yaşamağa qoymaram.

P ə r i c a h a n. Qoymazsan?

P i r i b a b a. Yox, qoymaram!

P ə r i c a h a n. Vay, bu meymun qız nə böyük matah imiş. Mənim heç xəbərim yox.

P i r i b a b a. Onu körpə vaxtından bu qollarım üzərində böyüdüb saxlamışam, yenə də saxlayacağam.

P ə r i c a h a n. Sən özünü saxla, qalsın o.

P i r i b a b a. Qolumda hələ qüvvət var, mən onu da saxlaram, özümü də... O mənim öz balamdır.

B ə y. (*Pəricahana*). Bizə nə gərək, harda istəyir qalsın, sən səhərdən axşama qədər eşşək kimi işlət. (*Ona başı ilə işarə edir)*

P ə r i c a h a n. Yaxşı, ancaq bizim gözümüzə görünməsin.

B ə y. Yaxşı, qoca, apar, harda istəyirsən saxla!

P i r i b a b a. Sağ ol bəy. (*Qaracanın əlindən tutur)* Gedək qızım, gəl, gedək, mənim əziz balam.

Bəy öz otağına, Piri baba, Qaraca, meymun bağa tərəf gedir.

S a y m a z. Piri baba, allah hər arzuna səni belə qovuşdursun

P ə r i c a h a n (*bəyin başına bir qapaz vurur*). Al, kül başına, sən də adını kişi qoymusan.

B ə y. Yavaş, arvad, görərlər. (*Döyükүb ətrafa baxır)*

P ə r d ə

## BEŞİNCİ ŞƏKİL

Səhnə bəyin həyətini təsvir edir.

S a y m a z. Arvad, kefin necədir?

P ü s t ə. Eh, bu zəhər tuluğunun əli altında olanın kefi necə olar? Bu bir ildə onun əlindən dağlınmışam, heç bilmirəm, indiyəcən onunla necə yaşamısan?

S a y m a z. Necə yaşamışam? İt ilə pişik kimi. O it kimi mənim üstümə atılandan mən də pişik kimi üz-gözünü cırmaqlamışam.

P ü s t ə. Sən dedin, mən də inandım. O elə zəhərli ilandır ki...

S a y m a z. Bəydən o qədər qorxmur ki, məndən qorxur.

P ü s t ə. Yaxşı, yaxşı, sən də özünü heç bilmirəm kimə satırsan?

S a y m a z. Sənə, belə sənə... Ay arvad, qoymazsan sənin yanında da bir kişilənim?

P ə r i c a h a n (*onları görüb*). Ay qız, Püstə, orda kişinlə nə mazaqlaşırsan?

Püstə qaçır.

S a y m a z. Mazaqlaşmırıq, xanım, söhbət edirik.

P ə r i c a h a n. İş-güc zamanı nə söhbət.

S a y m a z. Heç, elə ordan-burdan danışırıq. Bəs siz, xanım, bəy ilə deyib, gülüb danışmırsınız?

P ə r i c a h a n. Sus, həyasızın biri. Vallahi başındakı o beş-on tükü də yolub yerə tökərəm. Bir bax, kimi kimə tay eləyirsən.

P ü s t ə (*Saymaza işarə edir*). Onunla dilləşmə, çəkil, get.

P ə r i c a h a n. İtil cəhənnəmə!

S a y m a z. Cəhənnəm? Mən cəhənnəmin yolunu tanımıram. Xanım, ora hansı yol ilə gedirlər?

P ə r i c a h a n. Atandan xəbər al, o sənə göstərər, həyasızın oğlu, həyasız. Taxsır sizdə deyil, sizi başımıza çıxaran o bəydədir. (*Acıqla gedir)*

P ü s t ə. A kişi, xoşun gəlir, onu danışdırırsan.

S a y m a z. Eh, onun sözünü vecinə alan kimdir? Bura bax, günortaya nə bişirirsən.

P ü s t ə. Küftə.

A ğ a (*divar dalındakı dar bir səkidən səslənir*). Qaraca, Qaraca!.. Qaraca!.. Qaraca!..

Q a r a c a q ı z. (*nərdivandan başını göstərir*). Ağa, nə var?

A ğ c a. Neyləyirsən?

Q a r a c a  q ı z. Sən neyləyirsən?

A ğ c a. Mən darıxıram.

Q a r a c a  q ı z. Mən də

A ğ c a. Piri baba mənim yanımda olsa heç darıxmazdım.

Q a r a c a  q ı z. Sənin də yanında Nərgiz xala var.

A ğ c a. Eh, o mənim ürəyimi heç aça bilmir. Elə pis arvaddır ki, hey yatır.

Q a r a c a  q ı z. Piri baba mənə elə yaxşı nağıllar deyir ki... Birdə mənim itimi, meymunumu görəsən?! Mən dəf götürüb çalanda hamısı oynayır.

A ğ c a. Bay, nə məzəlidir!

Q a r a c a  q ı z. Anan qoysaydı, sən mənim heyvanlarımı oynadardın, mən də sənin oyuncaqlarını oynadardım, kitablarını oxuyardım. Şəkillərinə baxardım.

A ğ c a (*ah çəkir*). Ah, neyləyim, anam qoymur, sən yanımda olanda elə sevinirəm, elə sevinirəm ki, elə bilirəm dünya mənə verilmiş.

Q a r a c a  q ı z. Mən də... Mən də...

A ğ c a. Neyləyim ki, anam dustaq eləyib. Qaraca, sənin yanağın gül kimi qızarıb, mənimki yox.

Q a r a c a  q ı z. Sən gecə-gündüz dustaq kimi otaqdasan, mən ancaq havada.

A ğ c a. Neyləyim? Anam ilə Nərgiz xala məni otaqdan çıxmağa qoymurlar.

Q a r a c a  q ı z. Sən atanı çox sevirsən, ananı?

A ğ c a. Əlbəttə, atamı.

Q a r a c a  q ı z (*qəmli*). Kaş mənim anam ölməyəydi. Hər dərdini çəkərdim. Hər acısına qatlanardım. (*Ağlayır)*

A ğ c a. Bay, daha niyə ağlayırsan? Ağlama, sən allah, ağlama, qoy kitablarımı, oyuncaqlarımı gətirim, oynayaq...

Q a r a c a  q ı z. Yox, gəlmə!.. Mənim işim çoxdur.

A ğ c a. Nə işin var?

Q a r a c a  q ı z. Ocaq qalamışam, sizin paltarlarınızı yuyacağam. Eh, ondan başqa o qədər işim var ki...

A ğ c a. Paltarı necə yuyursan? Qoy gəlim baxım.

Q a r a c a  q ı z. Anan səni döyər.

A ğ c a. Nərgiz xala yatır, anamın da başı qarışıqdır. (*Tez otağa girir, bir neçə oyuncaq və kitab götürüb çıxır)* Gəlirəm.

P ə r i c a h a n. Ey, hara gedirsən? Bunları hara aparırsan. Sən yenə o qaraçı qız ilə oynayırsan?

A ğ c a. Hanı? Oynamıram ki!..

P ə r i c a h a n. Bu saat onunla danışmırdın?

A ğ c a. Yox!

P ə r i c a h a n. Sən yalan da danışırsan? Nərgiz!.. Nərgiz!..

N ə r g i z. Bəli, xanım!

P ə r i c a h a n. Bu qız yenə qaraçı qızı ilə söhbət edir, sən yenə yeddi günlük yuxuya getmisən.

N ə r g i z. Otaqdayam, xanım!

P ə r i c a h a n. Sən bura Ağcaya tərbiyə verməyə gəlmisən, yoxsa yatmağa? Ağcaya yemək vermisən?

N ə r g i z. Yox, xanım, vaxtıdır, indi verəcəyəm.

P ə r i c a h a n. Yox, verməyəcəksən! Bu otaqda dustaq və ac qalacaq. Eşidirsən?

N ə r g i z. Bəli, xanım!

P ə r i c a h a n. O qaraçı qızını bu evdən itirmək lazımdır. Bu günlərdə ona əncam çəkərəm. (*Gedir)*

N ə r g i z (*Ağcanı kiçik, boş otağa salır*). Qal orda, bu qaraçı qızı da məni başıma bəla oldu. (*Gedir)*

Q a r a c a q ı z (*başını nərdivandan qaldırır*). Yazıq Ağca, mənim üstümdə yenə dustaq oldu. Mənim ucumdan onu ac qoydular. Yox, onu mən ac qoymaram. Gərək...

B ə y (*çıxır*). Piri, Piri!

P i r i b a b a (*bağdan səslənir*). Bəy gəlirəm.

P ə r i c a h a n (*bəyə*). Bura bax, bu gün o qaraçı qızını burdan rədd edərsən.

B ə y. Yenə nə olub?

P ə r i c a h a n. Nə olacaq. Sən öz kefindəsən, dünya-aləm gözünə görünmür. Görürəm, bu qaraçı qızı nərdivan qoyub divar başından Ağca ilə danışır.

B ə y. Eh, mən də deyirəm nə var, danışanda nə olar?

P i r i b a b a gəlir, durub onları dinləyir.

P ə r i c a h a n. Necə nə olar. O qaraçı qızı mənim qızım ilə danışmasın.

P i r i b a b a. O qaraçı qızı deyil, xanım, onun atasının kənddə bir hörməti vardı ki.

P ə r i c a h a n. Sus, qoca, o qız gələli sən də qudurmusan.

P i r i  b a b a. Qudurub neyləmişəm. Bu evdə kimi qapmışam?

P ə r i c a h a n. Artıq-əskik danışma. Bu gün o qız bu evdən gedəcək!

P i r i  b a b a. Hara?

P ə r i c a h a n. Hardan gəlmişdi ora.

P i r i  b a b a. Demək siz məni də qovursunuz.

P ə r i c a h a n. Mən tək onu qovuram.

P i r i  b a b a. Mən onsuz yaşaya bilmərəm. O hardadır, mən də ordayam. Yazıq səhərdən axşamacan sizin üçün işləyir, daha nə istəyirsiniz.

B ə y. Yaxşı, yaxşı, sən də hər it, qurd üçün kefimi pozma görək!

P ə r i c a h a n. Bəxtəvərin biri, bəxtəvər. Sənin Araz aşığından, Kür topuğundandır, nə başa düşürsən arvad nədir, qız nədir?

B ə y. Mənə hər şeydən artıq öz canım, öz kefim lazımdır. Sən də ki, gündə yerli-yersiz qanımı xarab edirsən.

P ə r i c a h a n. Bəs bizim qanımız qan deyil, gündə xarab olur?

B ə y. Arvadın canı bərk olar.

M e y m u n əlində nazik ağac gəlir, Pəricahanın belindən bir ağac vurur. Pəricahan dönəndə qolundan bir ağac vurub qaçır. Bəy gülür.

P ə r i c a h a n. Sən bir bu meymuna bax! (*Dalınca bir neçə addım qaçır*)

B ə y. Dilin o qədər acıdır ki, meymun da səni sevmir. (*Otağa girir*)

P ə r i c a h a n. Sənin kimi əri olan belə qara günə qalar. Ala, kül başına.

B ə y. Arvad, yavaş, görərlər.

A ğ c a ağlaya-ağlaya otağa girir. Qaraca nərdivan üstündən.

Q a r a c a. Ağca! Ağca! (*Cavab gəlmir. Əlində səbət divar dibi səkisilə gəlir. Qapı ağzında Ağca görünür)*

A ğ c a. Bay, sən necə qorxmadın?

Q a r a c a  q ı z. Bildim acsan. Sənə alma, armud gətirmişəm! (*Hər ikisi kiçik otağa girir. Bəy gəlir, Nərgizin qapısından)*

B ə y. Ağca, Ağca!

N ə r g i z (*çıxır*). Bəli, ağa!

B ə y. Hanı Ağca?

N ə r g i z. O biri otaqdadır.

B ə y (*o biri otağa yanaşır*). Ağca!..

A ğ c a (*çıxır*). Nə var, ata?

B ə y. Sən bu otaqda neyləyirsən?

A ğ c a. Nərgiz xala məni dustaq eləmiş.

N ə r g i z. Bəy, qaraçı qızı ilə eyvanda danışırdı.

B ə y. Siz bu qızın gününü qara gətirmisiniz. Hər axmaq iş üçün dustaq etmək, ac saxlamaq, bu bir tərbiyə deyil. (*Qapını bağlayıb açarı götürür)* Görək bundan sonra harda dustaq edəcəksiniz.

A ğ c a (*həyəcanla*). Ata, o açarı ver, mən saxlayım.

B ə y. Nə üçün, qızım, qorxma, açarı heç kəsə verməərəm.

A ğ c a. Nərgiz xala yatanda axı mən o otaqda gedib oynayıram.

B ə y. Yox, qızım, bu açar məndə qalacaq. Onu heç kəsə verməərəm.

A ğ c a. Oy... Yazıq Qaraca nə olacaq?

B ə y (*Nərgizə*). Al, bu qız ilə yaxşı məşğul ol, darıxmasın.

B ə y, A ğ c a, N ə r g i z otağa girirlər.

P i r i b a b a (*görünür, gözü ilə Qaracanı axtarır*).Bu qız hardadır?

S a y m a z (*gülə-gülə*). Yenə yumurtası tərs düşmüş toyuq kimi nə vurnuxursan?

P i r i b a b a. Qızı axtarıram.

S a y m a z. Eh, sən də... Qıza nə olacaq?

P i r i b a b a. Qorxuram Ağcanın yanında olsun.

S a y s a z. Aha, dərdin var, demək, xanımdan qorxursan. (*Başını açır)* Bu başım üçün, onun səsi gələndə qorxudan başımda tüklərim biz-biz olur. Siçan kimi girməyə bir deşik axtarıram. (*Pəricahan çıxır*) Vay, qurd dedin qulağı göründü. (*Tez bir tərəfə çəkilir)*

P ə r i c a h a n. Nərgiz, Nərgiz! (*Nərgiz ilə Ağca bayıra çıxırlar)* Vay, qız, sən burda neyləyirsən? Mən ki, səni o otaqda dustaq eləmişdim.

N ə r g i z. Bəy gəldi, azad etdi.

P ə r i c a h a n. O mənim işimə nə üçün qarışır? Götür bunu sal otağa. Özünü də ac saxla.

A ğ c a (*birdən*). Vay... (*Pəricahana ağlaya-ağlaya)* Ana can, bu dəfə bağışla. (*Onu qucaqlayır)*

P ə r i c a h a n. Yaxşı, bir də səni o qız ilə oynayan görməyim. Nərgiz, mən gedirəm, bunu otaqdan bayıra buraxma!

N ə r g i z. Arxayın ol, xanım. (*Nərgiz ilə Ağca otağa girirlər)*

P ə r i c a h a n. Haram olsun sənə atan Əli bəyin çörəyi. Heç ona bənzəmirsən. O həyətə, evə girəndə hamı ondan tük salardı. Səni qulluqçular da saymır.

B ə y. Cəhənnəmə saymasın. Onların çörəyi məndəndir, mənim çörəyim onlardan deyil ki.

Bəy ilə xanım otağa girirlər. Piri baba görünür. Piri baba yenə gözlərilə Qaracanı axtarır. A ğ c a çıxıb tez o biri otağın pəncərəsinə yaxınlaşır.

A ğ c a. Qaraca, Qaraca!

P i r i  b a b a. Qaraca hardadır?

P i r i  b a b a gəlir. Meymun da onun arxasınca çıxır.

P i r i  b a b a (*qapı ucundan*). Tutu, Tutu!

A ğ c a (*yanaşır, yavaşca*). Piri baba, qapı bağlıdır. Açarı atamdadır.

P i r i  b a b a (*həyəcanlı*). Bəs necə olsun? Xanım bilsə..

A ğ c a. Anam getdi.

Q a r a c a (*pəncərəni iki barmaq yuxarı qaldırır)*. Baba gücüm çatmır, bu pəncərəni qaldır!

Meymun tez əllərilə pəncərəni yuxarı qaldırır. Qaraca pəncərədən düşmək istərkən b ə y çıxır, onu görür.

B ə y. Ay qız, sən işini, gücünü atıb burda neyləyirsən?

Meymun Qaracanın qarşısında atılır, düşür.

A ğ c a. Ata, o mənimlə oynamağa gəlmişdi.

Q a r a c a  q ı z. Adam atasına yalan deməz.

B ə y. Bəs niyə gəlmişdi?

Q a r a c a  q ı z. Xanım Ağcanı dustaq etmişdi, həm də ac saxlamışdı. Mən ona alma-armud gətirmişdim.

B ə y. Sənə kim demişdi gətirdin?

Q a r a c a  q ı z. Heç kim, gördüm Ağca acdır, ona görə gətirdim.

A ğ c a. Ata, bayaq onu mən çağırmışdım.

P i r i  b a b a. Bəy, bu dəfə bağışla, onu bir də Ağca xanım ilə danışmağa qoymaram.

B ə y. (*ağacını yerə vuraraq*). Get burdan, bir də özbaşına belə işlər görmə. (*Qaraca ağlayır)*

A ğ c a (*ağlayır*). Yazıq Qaraca... Mənim ucumdan...

P i r i  b a b a. Gedək, qızım gəl gedək.

Qaracanın əlindən tutub gedir.

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

### ALTINCI ŞƏKİL

Meymun paltar yuyur. İt də iki ayağı üstə durub onun paltar yumağına tamaşa edir. Meymun əlilə sabunlu suyu itin üstünə çiləyir, onu acıqlandırır. İt arabir ona hürür. P i r i b a b a ilə Q a r a c a gəlirlər.

P i r i b a b a. Axı, qızlar babasının sözünə baxar, mən sənə demirəm ki, Ağcanın yanına getmə? Sən mənim sözümü yerə salırsan.

Q a r a c a q ı z. Baba can, o məni çağırır, yalvarır, gəlir yanıma. (*Birdən meymunu görür)*Bay, ona bax, evi xəlvət görüb, bir bax, nə oyundan çıxırlar. Meymun paltar yuyur.

P i r i b a b a (*gülə-gülə*). Sənə kömək edir.

Q a r a c a q ı z. Bay, Şeytan, sən neyləyirsən? Çəkil burdan. (*Meymun sabunlu suyu onun üstünə atıb dişlərini qıcıyır. Onu yaxın gəlməyə qoymur. Özü tez-tez paltarı çəngələyib yuyur)*

Q a r a c a q ı z. Bay, bir buna bax!

P i r i b a b a. Heyvanla şüura bax, məhəbbətə bax, səni zəhmət çəkməyə qoymur. Pəricahan xanımdan bu insaflıdır.

Q a r a c a q ı z. Gözəl Şeytanım. Bəsdir, indi də qoy mən yuyum.

Meymun ona acıqlanır. Yenə işinə davam edir. İt meymuna yanaşır, meymun ona da acıqlanır. Üstünə sabunlu su tökür.

P i r i b a b a. Sən bir onun adam kimi paltar yumağına bax, sabun çəkməyinə, paltar çəngələməyinə, sıxmağına bax.

Q a r a c a q ı z. Baba, vaxt keçir, bu da məni yaxın qoymur. Mən neyləyim?

P i r i b a b a (*yanaşır*). Ey, Şeytan, gəl bəri.

Meymun ona acıqlanır, dişlərini göstərir.

P i r i b a b a. Qara köpək, tut bunu!

Köpək meymuna bərkdən hürür, onun üstünə atılmaq istəyir. Meymun da pəncəsilə onu vurur, dişlərini göstərir.

P i r i b a b a. Ha, qara köpək. (*Köpəyi meymunun üstünə qısqırdır. Meymun ilə it bir-birilə tutuşur)*

Q a r a c a q ı z. (*onları ayırır*). Vuruşmayın dostlarım, vuruşmaq olmaz. (*Onları ayırır. Özü tez paltarı yumağa başlayır. Meymun gəlir.*

*Qaracanı itələyir. Qaraca da onu itələyir. Meymun ağzı ilə qızın paltarından tutub çəkir)*

Q a r a c a q ı z. Baba, qoyma, meymunu burdan uzaqlaşdır. Mən işimi qurtarım.

Piri baba meymunu çağırır. İt ilə onu oynamağa vadar edir. Hər ikisi bir-birilə şirin-şirin oynayırlar.

P i r i b a b a. Qızım, sən yorulmusan, qoy sənə kömək edim.

Q a r a c a q ı z. Yox baba, bu mənim işimdir.

P i r i b a b a. Kiçik biləklərin gücdən düşər. (*Əllərini tasa salıb yumaq istəyir. Qaraca qoymur)*

Q a r a c a q ı z. Baba can, sən allah get, bir az dincəl.

Piri baba gedib Saymazın yanında oturur. Meymun onu görür, tez yüyürür, gəlib paltarı Qaracanın əlindən alıb yumaq istəyir. Hamı gülür. İt də Qaracanın yanına getmək istəyir. Piri baba onları qovur.

P i r i b a b a. Çəkilin, qoyun qız işini görsün.

S a y m a z. Sən çox qəribə adamsan!

P i r i b a b a. Niyə?

S a y m a z. Sən bu qızı canından artıq sevirsən. Onu bu qədər işləməyə niyə qoyursan?

P i r i b a b a. Qoy zəhməti sevsin, zəhmət sevən adamı həyat qorxutmaz!

S a y m a z. Mən sənin yerinə olsaydım, əlini ağdan-qaraya vurmağa qoymazdım.

P i r i b a b a. Yanılırsan, o yanlış tərbiyədir. Oğlan ya qız kiçiklikdən zəhmətə alışmalıdır. İş, zəhmət insanın cövhəridir. O bəy qızı Ağca, bu da yoxsul Pirinin qızı Tutu. Bu sağlam vücudu zəhmətilə qazanmışdır.

S a y m a z. Daha belə də yox, xanım bu yazıq qıza heç rahatlıq vermir.

P i r i b a b a. Bilirəm, burda da qızın günü qaradır. Dayan, mənim fikrim başqadır.

S a y m a z. Nədir?

P i r i b a b a. Tutunu da götürüb gedəcəyəm.

S a y m a z. Hara gedəcəksən?

P i r i b a b a. Dünya genişdir. Yer tapılar. Yaxşılıq bilməyən adamdan qaç!..

Yerə bir parça ət düşmüş, it də, meymun da onu yemək istəyir. İt ətə yanaşır, meymun da əlilə əti götürmək istəyir. Hər ikisi acıqlı səslər çıxarır. Qaraca yanaşır. Əti götürür, iki parça edib bir parçasını itə, o biri parçasını da meymuna verir.

Q a r a c a q ı z. Alın, yeyin...

Piri baba gülür.

S a y m a z. Ha, gülərsən. Qaraca qızın hünəri səni fərəhləndirir.

P i r i b a b a. Fərəhləndirməzmi? Belə ağıllı bala kimin var?

S a y m a z. Sən bu qızın hünərinə bax. Bunlar əvvəl yola getmirdilər. Onları bir-birilə necə dostlaşdırdı. Yaxşı demişlər: ağıl yaşda deyil, başdadır.

İt Qaracaya yalmanır, Qaraca əlilə onu oxşayır.

Q a r a c a q ı z. Sən nə deyirsən, qara köpəyim? (*Meymun da Qaraca ilə oynamaq istəyir. İt iki əlilə onun başını tutub aşağı əyir. Meymun başını onun əlindən çıxarıb itin üstünə atılır. Hər ikisi bir-birilə oynaşır)*

Q a r a c a q ı z. Baba, baba, bir bunlara bax!

S a y m a z (*başını açaraq*). Bu başıma and olsun, Qaraca qızda olan ağıl Pəricahan xanımda yoxdur!..

P i r i b a b a. Burda iş ürəkdədir. O, insanları nə sevir ki, heyvanları da sevsin. Bu heyvanları Qaracaya ram edən onun saf və təmiz qəlbidir.

S a y m a z. Tutu, bəsdir gəl bu heyvanları sevindir.

Q a r a c a q ı z. Qoy işimi qurtarım, xanım sonra gəlib dalaşar.

P i r i b a b a. Qurtararsan, bir az dincəl, qızım! Gəl, gəl, yolunu dostların gözləyir.

Qaraca əllərini yuyub gəlir. Heyvanlar onun ətrafını alıb atılır, düşür.

S a y m a z. Dəfi götür, dəfi. Meymunun oynamağı tökülür.

Qaraca dəfi götürüb çalınca meymun oynamağa başlayır.

Q a r a c a q ı z (*oxuyur*).

Oyna meymunum, oyna,
Qızlar gəlsin toyuna.
Atlazdan don tikəcəyəm
Sənin şeytan boyuna.

Meymun oynadıqca it baxıb arabir ona hürür.

S a y m a z. Tutu, havanı qarışdır, görək anlarmı?

Qaraca havanın qarışdırır, sözləri də ahəngsiz oxuyur, meymun acıqlanır. Sonra əllərini əllərinə vuraraq hamıya əl vurmağı əmr edir. Hamı gülə-gülə əl çalır. Nərgiz ilə Ağca gəlir.

Q a r a c a q ı z (*oxuyur*).

Yaşa meymunum yaşa.
Qızlar etsin tamaşa.
Mən çalıram, sən də süz
O başa, həm bu başa..

Meymun o başa, bu başa süzür.

A ğ c a. Ora bax, nə yaxşı oynayır.
N ə r g i z (*Qolundan çəkərək*). Gəl gedək!
A ğ c a. Dayan, tamaşa edək.

Meymun o başa-bu başa süzür.

S a y m a z. Tutu, Tutu. Yenə, yenə.

Qaraca çalıb oxuyarkən oyunun şirin yerində birdən kəsir. Meymun acıqlanır. Saymaz əllərini bir-birinə vurub qəhqəhə ilə gülür.

Q a r a c a q ı z.

Oyna meymunum, oyna,
Başına dönüm, oyna.
Əlvan muncuq taxacam,
Sənin meymun boyuna
Oyna meymunum, oyna.
Qızlar gəlsin toyuna.

Hamı əl çalır. Meymunu alqışlayır. Meymun hamıya baş əyir.

A ğ c a. Nə yaxşı meymundur, Qaracaya de, o meymunu mənə versin.
N ə r g i z. Sən neyləyirsən. Onu qaraçı qızları saxlar.
Q a r a c a q ı z. Qaraçı qızı özünsən.
N ə r g i z. Yox, padşah qızısan.
Q a r a c a q ı z. Padşah qızı da sizsiniz.
N ə r g i z. Sən bu qızın qudurğanlığına bax! (*Ağcanın qolundan çəkərək)* Gəl gedək! (*Qaracaya)* Xanım gəlsin, sonra danışarıq.

Onlar gedirlər. Saymaz Nərgizin təqlidini çıxararaq əlini belinə qoyub bədənini əyə-əyə.

S a y m a z. Xanım gəlsin, sonra danışarıq.

Gülüşürlər.

P i r i  b a b a. Qızım, sən bir az nəzakətli ol. Necə olsa, o səndən böyükdür. Özündən böyügə hörmətsizlik etmək olmaz!

Q a r a c a  q ı z. Görmürsən mənə qaraçı qızı, padşah qızı deyir.

S a y m a z. Kefini pozma, sən öz işində ol.

İt və meymun bir yerdə uzanıb başlarını bir-birinin üstünə qoymuşlar.

S a y m a z. Piri baba, bu heyvanlara bax, gör necə mehriban uzanıb yatırlar.

P i r i  b a b a. Ustadına mərhəba!..

Ağca birdən bağırır. Nərgizin səsi ucalır. Hamı həyəcanla qalxıb getmək istərkən A ğ c a  ilə  N ə r g i z görünür. Ağca qolunu tutub ağlayır.

P i r i b a b a. Nə var? Nə olmuş?

N ə r g i z. Başıma kül, Ağca xanımı ilan vurdu!..

P i r i b a b a (*Qaracanın çarqatını alır. Ağcanın qolunu bərk bağlayır)* Qan ürəyinə getməsin gərək.

N ə r g i z. Saymaz, sən bəyi Kazım bəygildən tez çağır! Piri baba, sən də ovsunçu Badam qarını çağır.

Onlar gedirlər.

A ğ c a. Of, qolum ağrıdır. (*Ağlayır. Püstə gəlir)*

P ü s t ə. Vay başıma kül, ilan bunu harda vurdu?

N ə r g i z. Eh, nə bilim, heç bilmirəm xanıma, bəyə nə cavab verəcəyik.

A ğ c a (*ağlayır*). Of, qolum düşür.

P ə r i c a h a n  həyəcanla gəlir. Nərgiz onu görüncə.

N ə r g i z. Xanım, başımıza gələni görürsən? (*Ağlayır)*

P ə r i c a h a n. Başınıza dönüm, Ağca xanımın yarasını sorub ilanın zəhərini yerə tökün. (*Heç kəs tərpənmir)* Nərgiz, sən yaxşı sorarsan.

N ə r g i z. Yox, mən bacarmaram.

P ə r i c a h a n. Bəs sən nə bacararsan? Püstə, başına dönüm, balama rəhmin gəlsin... Sən sor!

P ü s t ə. Yox, xanım, mən də bacarmaram.

A ğ c a. Vay, vay qolum! (*Ağlayır)*

B ə y gəlir. Ağcanı elə görüncə həyəcanla.

B ə y. Nə var? Nə olub?

P ə r i c a h a n. Nə olacaq? Qızı ilan çalıb. Hansına deyirəm, zəhərini sorsun, heç biri razı olmur.

A ğ c a. Vay qolum, vay, vay! (*Ağlayır)*

Q a r a c a q ı z (*ağlayır*). Yazıq Ağca.

P ə r i c a h a n. Vay, balam əlimdən gedir, bu günümdə bir nəfər kömək edənim yoxdur.

B ə y. Bəs siz nəyə lazımsınız? Haram olsun mənim çörəyim sizə.

P ə r i c a h a n. Of, gözlərim baxa-baxa qızım ölsə, mən yaşamaram.

N ə r g i z. Qolunu bərk sıxın, zəhər ürəyinə keçməsin.

Q a r a c a q ı z (Püstəyə). Püstə xala, zəhər ürəyinə keçsə nə olar?

P ü s t ə (*yavaşca*). Ölər.

Q a r a c a q ı z. Vay... (*Ağlayır)*

A ğ c a. Of, qolum sancır... Vay... Vay!.. (*Bərkdən ağlayır)*

P ə r i c a h a n. A kişi, qızım əlimdən gedir, tez ol, bir çarə et.

B ə y. Mən neyləyim? Əlimdən nə gəlir?

P ə r i c a h a n. Bəlkə sən sorasan.

B ə y. (*sormaq üçün yaxınlaşır, birdən çəkilərək)* Yox, o mənim işim deyil. Sən anasan, Ağcaya məndən yaxınsan, özün sorarsan.

P ə r i c a h a n (*yanaşır, sormaq istəyir, birdən çəkilərək ağlaya-ağlaya*). Yox mən bacarmaram. (*Ağlayır)* Səndə ata ürəyi yoxdur.

B ə y. Səndə ana ürəyi olsun.

A ğ c a (*bağırır*). Vay, vay, qolum sancır.

Q a r a c a q ı z (*ağlayır*). Yazıq Ağca...

A ğ c a. Of, qolum... (*Bərkdən ağlayır)*

Q a r a c a q ı z. Ağlama, Ağca, ver qolunu mən sorum.

P ə r i c a h a n. Ha qoçaq qızım, sor, sor!..

B ə y. Ağca yaxşı olsun, gör sənə nə alacağam.

Q a r a c a q ı z. Mən Ağcanın xətrinə soruram.

P ü s t ə. Ehtiyatlı ol, zəhərlənərsən.

P ə r i c a h a n. Sən də ağzını yum. Neybət, neybət danışma!..

Qaraca qız sormaqda davam edir. Ağca yavaş-yavaş sakitləşir.

A ğ c a. Qolumun ağrısı çəkilir.

P ə r i c a h a n. Ha qoçaq qızım, sor, sor!

B ə y. Yenə dadımıza Qaraca qız çatdı.

N ə r g i z. Ağca xanım, indi necəsən?

A ğ c a. İndi yaxşıyam.

B ə y. Qız yavaş-yavaş sağalır, yenə hamı quyruq bulayır.

P ə r i c a h a n. Elə onu de, hansına yalvardım, yox, mən bacarmaram, – deyib boyun qaçırdı.

B ə y. Qaraca etibarlı qızdır. (*Çıxarıb on manat verir)* Al, bu on manatı sənə bağışlayıram.

Q a r a c a  q ı z. Yox, mənə pul lazım deyil (*Ağcaya)* Ağca indi necəsən?

A ğ c a. İndi yaxşıyam. Qolum daha heç ağrımır.

P ü s t ə. Bax, səni Qaraca sağaltdı...

A ğ c a. Sağ ol, Tutu!..

Q a r a c a  q ı z. Sən də sağ ol.

P ə r i c a h a n (*Ağcanın başını qucaqlayır*). Ürəyin ağrımır ki?..

A ğ c a. Yox, heç yerim ağrımır. Lap sağaldım.

P ü s t ə. Sağalsa da hələ yerindən tərpətməyin.

Q a r a c a  q ı z (*soraraq*). Ağca, bax daha qan gəlmir.

P i r i  b a b a  gəlir, bu əhvalı görüb həyəcanlanır.

P ə r i c a h a n. Piri baba, başımıza gələn bəlanı gördünmü?

P i r i  b a b a. Bəli, gördüm, onu da gördüm ki, öz balanı ölümdən qurtarmaq üçün bu atasız, anasız yetimi necə bəlaya saldın. (*Acıqlı nəzərlərlə ona baxır)*

Q a r a c a  q ı z. Mən özüm sordum. Yoxsa Ağca ölərdi.

B ə y. Baba, qorxma. Qaraca qıza bir şey olmamışdır.

P i r i  b a b a. Yaxşı bax... Üzünə zəfəran rəngi çöküb.

Q a r a c a  q ı z. Baba, içərim yanır... Mənə su ver...

A ğ c a. Vay, yazıq Qaraca!

P i r i  b a b a. Gəl, qızım, gedək. Görüm sənə nə çarə edərəm.

P ə r i c a h a n. Vay, yoxsa Qaraca zəhərləndi? Qaraca, getmə, qal burda...

P i r i  b a b a. Yox, sən bu vaxta qədər yazıq yetimi ağalığın ətrafına dolanmağa qoymurdun ki, onun pis xasiyyətləri bəy qızına keçir. İndi də mən onun bu zülm yuvasında qalmasına razı deyiləm. Gedək qızım, görək nə çarə edirəm. (*Qızın qolundan tutub aparır)*

P ə r d ə

## BEŞİNCİ PƏRDƏ

### YEDDİNCİ ŞƏKİL

Piri babanın eyvanı. P ü s t ə ilə S a y m a z gəlirlər. Püstə ona yavaşca pıçıldayıb əhvalatı söyləyir.

S a y m a z. Vay, insafsız uşaqları. Mən burda olsaydım qoymazdım.

P ü s t ə. Ha, qoymazdın. Bəy də, xanım da zəhəri sorub yerə tökməyə əmr edirdi. Heç kəs razı olmadı. Axır xanım bəyə dedi: sən sor! Bəy də xanıma: – Yox, sən sor, – dedi. Taxsır Qaraca qızın özündə oldu.

S a y m a z. Ağcanı çox sevirdi. Ürəyi tab gətirməyib.

P ü s t ə. Dayan, bir qıza yataq hazırlayım. Odur gəlirlər. (*Otaqdan tez döşək, mütəkkə, yorğan gətirir. Eyvana salır)*

S a y m a z. Mənim Qaraca qıza da, Piri babaya da yazığım gəlir. Hər ikisi bədbəxt oldu.

P i r i b a b a Q a r a c a q ı z ilə gəlir.

P ü s t ə. Gəl, qızım, gəl soyun, yataqda uzan, dincəl.

Q a r a c a q ı z. Baba can, gözlərim qaralır, başım dolanır, ürəyim çırpınır.

Meymun, qara köpək Qaracanı görüb ona yalmanır. Atılır, düşür.
Min bir oyun çıxarır.

P i r i b a b a. Püstə, sən qızı soyundur, yerində rahat elə. *(Özü otağa girir, bir kasa ayran gətirir)* Al, qızım bunu iç!..

S a y m a z. Qaraca haran ağrıyır?

Q a r a c a q ı z (*əlilə ürəyini tutur)* Ürəyim.

P i r i b a b a. Qızın ağzında kiçik bir yara var. Üç gündür o yaradan şikayət edir. Yara olmasaydı, ilanın zəhəri qana keçməzdi.

P ü s t ə. Bədbəxtliyə bax, Ağcanı ilan vurmaqda, bunun da ağzı yara olmaqda.

Q a r a c a q ı z. Baba, içərim yanır... mənə su...

P i r i b a b a. Can bala, özünü də bəlayə saldın, bu qoca babanı da.

S a y m a z. Elə onu de... Yazıq qocanın üz-gözü yenicə gülməyə başlamışdı.

Q a r a c a q ı z. Baba, sən dərd çəkmə. Otur yanımda... Söz deyəcəyəm.

P i r i b a b a (*gözlərinin yaşını silərək*). Can balam, nə deyirsən?

Q a r a c a  q ı z. Baba, mən ölsəm, məni bağımızın yanındakı göy təpədə basdırın. Oranı mən çox sevirəm. Oradan hər yer görünür. Ətrafda hər cür çiçək var.

P i r i  b a b a. Qorxma qızım, sən ölməyəcəksən. Həkim gəlib sənə dərman verəcək. Sən sağalıb qoca babanla yaşayacaqsan Böyüyüb böyük qız olacaqsan... Piri baban öləndə o göy təpədə məni basdırarsan.

S a y m a z. Dəli qız, o nə sözdür. Sən ölməyəcəksən. Qorxma.

Q a r a c a  q ı z. Ağca lap sağaldımı?

P ü s t ə. Öz dərdini çək. O bəy qızıdır, ölməz.

Meymun, it Qaraca qıza yalmanır.

Q a r a c a  q ı z. Baba can, bir onlara bax. (*Gülür)*

P i r i  b a b a. Allah qoysa sağalanda oynarsınız. (*Saymaza)* Saymaz, dur, oğlum, bunları tövləyə sal.

Saymaz durur, iti, meymunu tövləyə salır. Bəy həkim ilə gəlir.

B ə y. Piri, qız necədir?

P i r i  b a b a. Yaxşı deyil.

B ə y. Həkim gətirmişəm baxsın. (*Həkimə)* Bu qızdır. Onu gərək sağaldasan!

H ə k i m. Xəstənin halı ağırdır. Zəhəri soranda udmuşdur. Zəhər qanına qarışıb bədəninə yayılmışdır. (*Nəbzinə baxır)*

P i r i  b a b a. Həkim, sağalar, sağalmaz?

H ə k i m. Çətin sağalar. Qızdırması var. (*Bir resept yazıb Piriyə verir)* Al, bu dərmanı hər saatda bir qaşıq ona içir.

P i r i  b a b a. Bu dərman da sağaltmaz, deyirsən?

H ə k i m. Nə deyim... Hər halda dərmanı ver. Ancaq çətin sağalsın... Görmürsən, gözləri bulaşıb.

Q a r a c a  q ı z. Baba, su.

H ə k i m. Su vermə, bu dərmandan içirt.

P i r i  b a b a. Həkim, sizdən bir məsələ soruşacağam.

H ə k i m. Soruş.

P i r i  b a b a. Həkim, öz balasını ölümdən xilas etmək üçün başqasının balasını ölümə verənə nə deyərlər?

B ə y. Sus, qoca köpək, mənim qızımı bir qaraçı qızına tay edirsən?

P i r i  b a b a. Bunun nəyi ondan əskikdir? Hər kəsin balası özünə şirindi.

B ə y. Axmaq qoca, danışığına bax!

P i r i  b a b a. Bəy, bu böyük bir cinayətdir.

H ə k i m. Qəzəblənməyin, bəy, babadır, ürəyi yanır.

B ə y. Mənim çörəyimi yeyir, yadlara kömək çıxır.

P i r i  b a b a. O yad deyil, mənə doğma baladan artıqdır.

B ə y. Həkim, gedək! (*Gedirlər)*

P i r i  b a b a. Vicdansızlar. Əziz balam, necəsən? (*Qaraca ağlayır)* Qızım, niyə ağlayırsan?

Q a r a c a  q ı z. Anamı istəyirəm. Yazıq anam seldən öldü. (*Ağlayır)*

P i r i  b a b a. Ağlama qızım.

Q a r a c a  q ı z. Yazıq ayımı vurub öldürdülər.

P ü s t ə. Can bala, qızdırmadan sayıqlayır. (*Tez dəsmalı isladır, alnına qoyur)*

Q a r a c a  q ı z. Baba!..

P i r i  b a b a. Can, qızım...

Q a r a c a  q ı z. Mən ölsəm, qara köpəyimi, meymunumu özün saxlarsan. Heç kimə vermə!

P i r i  b a b a. Vermərəm, qızım! (*Nəbzinə baxır)*

Q a r a c a  q ı z. Ürəyim od tutub yanır... Su...

P i r i  b a b a. Ürəyinin odu mənim ürəyimə gəlsin.

S a y m a z. Qızın gözlərinə qan dolmuş.

Q a r a c a  q ı z. Ağca, Ağca, gəl bura... çalıb oynayaq.

S a y m a z. Qızdırmanın gücündən sayıqlayır.

P i r i  b a b a. Tutu... Tutu...

Q a r a c a  q ı z. Baba, o dəfi mənə ver!..

P i r i  b a b a. Neyləyirsən, qızım?

Q a r a c a  q ı z. Ağca yanıma gəlib. Hanı mənim meymunum? Mən çalım, oynasın. (*Dəli kimi gülür)* Bax, meymunum nə yaxşı oynayır... Ağca, əl çal, əl çal!

P i r i  b a b a. Qızım, Tutu!..

Q a r a c a  q ı z (*dəli kimi gülür. Birdən başını qaldırmaq istəyir, bacarmır*). Baba!..

P i r i  b a b a. Can!..

Q a r a c a  q ı z. Məni... o göy... təpəyə... apar...

P i r i  b a b a. Yaxşı, qızım... Yaxşı... sən sağal... Aparacağam.

P ü s t ə. Bədəni od tutub yanır.

Q a r a c a  q ı z (*halsız*). Vay... vay... Sel gəlir. (*Birdən bağırır)*

P i r i  b a b a (*Ağzına dərman tökür*). Qızım, Tutu, Tutu, gözlərini aç, mənəm... Piri babanam...

Q a r a c a  q ı z (*qolunu ona tərəf uzadır, qolu yanına düşür*). Vay!..

S a y m a z. Heyf bu qıza.

P i r i  b a b a. Of, şirin dilli Tutum, sən mənim həyat bağçamın şirin dilli bülbülüydün... Susma, sən sussan mənim həyatım susar.

Qaraca əllərini, ayaqlarını uzadıb canını təslim edir.

P ü s t ə. Qız keçindi. (*Saymaza işarə edir ki, Piri babanı götürüb aparsın)*

S a y m a z. Bu yetim qızın da taleyi belə imiş. Neyləmək. Əlimizdən nə gəlir. Dur, baba, biz gedək. Püstə qızı rahatlasın.

P i r i  b a b a. Ah, mən bu dərdimi kimə söyləyim? Kimdən kömək istəyim? Ay, Tutu, Tutu. (*Özünü Qaracanın üzərinə atır. Onu qucaqlayıb hönkür-hönkür ağlayır)*

S a y m a z. Yaxşı, bəsdir... Kişi ağlamaz! Qalx gedək!

P i r i  b a b a. Of, qəlbim partlayır. (*Həsrətlə baxdıqdan sonra)* Ah, Tutu, sənin o qönçə gül dodaqlarını kim soldurdu. O şirin tutu dilini kim susdurdu. (*Qaracanı qucaqlayır, sonra başını qaldırıb həsrətli gözüylə ətrafı seyr etdikdən sonra)* Ah, onun şən səsilə şənlənən bu yerlər indi mənə zindan kimi görünür. Of!.. (*Axşam alaqaranlığı çökür, günəş yavaş-yavaş sönür)* Günəş yenə səhər çağı yenidən doğacaq, al şəfəqlərini hər tərəfə yayacaq. Mənim həyatımın bu şən günəşi isə həmişəlik söndü. Of, onu söndürdülər...

P ə r d ə

*1948*

# KİTABDAKILAR

## ŞEİRLƏR

Layla . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .7
Dovşan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .7
Yetim cücə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .8
Yeni köməkçi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .8
Səhər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .9
Təpəl kəlim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .9
Xoruz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .10
Keçi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .10
Uşaq və dovşan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .10
Çoban mahnısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .11
Payız gecəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .11
Payızın son ayı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .12
Bir quş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .12
Quzu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .13
Oyan, oğlum! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .14
Payız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .14
Məktəbdə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .15
Cütcü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .16
Uşaqlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .16
Bahar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
Yetim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
Qonaqlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .18
Tülkü və aslan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .18
Aslan, qurd və tülkü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .19
Tülkü və qurd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .19
Mahnı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .20
Tülkü və aslan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .21
Uşaq və bənövşə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .22
Qızıl gül . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .23
İnqilab nəğməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .23
May nəğməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
Dəmirçi nəğməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
Top oyunu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .25

Dəmirçi .....................................25
Təmizlik .....................................26
Qərənfil .....................................26
Bənövşə .....................................27
Zanbaq .....................................27
Bülbül .....................................28
Arı .....................................29
Kəpənək .....................................29
Turağay .....................................30
At .....................................30
İt .....................................31
Kür çayı .....................................32
Yağış .....................................32
Uşaq bağçası .....................................33
Məktəblilər marşı .....................................37
Pionerlə .....................................38
Ana yurdum .....................................40
Vətən nəğməsi .....................................41
Bahar .....................................42
Tonqal .....................................42
Tülkü və dəvə .....................................43
Övlad qayğısı .....................................45
Vətən .....................................46
Bahar bayramı .....................................47
Sən güləndə .....................................47
Zəfər nəğməsi .....................................48
Qışın nəğməsi .....................................48
Bahar .....................................49
Kolxoz bağında .....................................49
İdman nəğməsi .....................................50
Çalışan qazanar .....................................50
Bir may .....................................52
Bağça .....................................53
Göyərçin .....................................56
Tülkü və xoruz .....................................57
Ata-oğul .....................................60
Bilik .....................................60

Çocuq və qaya .61
Hekayə .62
Kəndli və ilan .63
İsgəndər və filosof Diojen .64

MƏNZUM HEKAYƏLƏR VƏ POEMALAR

Tıq-tıq xanım .67
Tülkü həccə gedir .75
Yaxşı arxa .83
Cəfər və Bəşir .97
Alma oğrusu .104
Eşşək üstündə səyahət .106
Tapdıq dədə .108
Ovçu məstan .131
Sehrli üzük .142
Nüşabə .152
Sultan Səncər və qarı .159
Zalım padşah və əkinçi .163

HEKAYƏLƏR

Murad .175
Şələquyruq .179
Cümənin qəzəbi .183
Oyunçu bağalar .186
Kələkbaz Albert .201
Kiçik qəhrəman .213
İki yoldaş .217
Lovğa ovçu .219
Sözün qiyməti .220
Timsah ovu .221
Usta Bəxtiyar .231
Bostançı .240
Üç it .245
Meşə gözətçisi .251
Pioner düşərgəsində .259

TƏMSİLLƏR

Tülkü və xoruz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .269
Dəvə və siçan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .270
Arı və eşşək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .270
Arı və kəpənək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .271
Tülkü və dovşan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .271
Hacıleylək və sərçə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .272
Tülkü və dəvə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .272
Dəvə, tülkü və qurd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .273

PYESLƏR

Gözəl bahar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .277
Çoban . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .300
İntiqamçı xoruz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .309
Ürək tikmək və ya Qurban bayramı . . . . . . . . . . . . . . . . . . . . .318
Danışan kukla . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .332
Tələbə həyatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .340
Eloğlu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .350
Vətən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .390
Fitnə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .432
Qaraçı qız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .587

**ABDULLA ŞAİQ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇ CİLDDƏ

III CİLD

"AVRASİYA PRESS"

BAKI-2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piriyev* |
| Kompyuter səhifələyicisi: | *Azər Quliyev* |
| Korrektor: | *Tofiq Qaraqaya* |

Yığılmağa verilmişdir 10.08.2004. Çapa imzalanmışdır 18.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 33,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 30.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.